ISSN 2409-0859

AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ

SOSİAL VƏ HUMANİTAR ELMLƏRİN MÜASİR PROBLEMLƏRİ

ELMİ ƏSƏRLƏR TOPLUSU

BURAXILIŞ № 27
(II HİSSƏ)

BAKI – 2021

ISSN 2409-0859

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi, mətbu nəşrlərin reyestrinə
daxil edilmə nömrəsi: **3885, 25.05.2014-cü il.**

Ünvan: 1148, Azərbaycan, Bakı, Z.Xəlilov, 23, Bakı Dövlət Universiteti, 2 korpus, otaq 812, tel. 012 438 14 47, sayt http://sociology.bsu.edu.az/
E-mail: q.abbasova@mail.ru

Sosial və humanitar elmlərin müasir problemləri. Ali məktəblərarası elmi əsərlər toplusu. Buraxılış № 27 (II hissə). Bakı, 2021, 302 s.

Redaksiya heyəti

Rəbiyyət Nurullah qızı Aslanova, fəlsəfə elmləri doktoru, professor, BDU
Əziz Bəşir oğlu Məmmədov, fəlsəfə elmləri doktoru, professor, BDU
İzzət Əşrəf oğlu Rüstəmov, fəlsəfə elmləri doktoru, professor, BDU
Rəna Fuad qızı İbrahimbəyova, psixologiya üzrə fəlsəfə doktoru, professor, BDU
Zeynəddin Camal oğlu Hacıyev, fəlsəfə elmləri doktoru, professor, BDU
Bəxtiyar Həmzə oğlu Əliyev, AMEA-nın müxbir üzvü, psixologiya elmləri doktoru, professor, BDU
Kamilə Ramiz qızı Əliyeva, psixologiya elmləri doktoru, professor, BDU
Tatyana İvanovna Bilenko, fəlsəfə elmləri doktoru, professor, Droqobıç dövlət pedaqoji universiteti (Ukrayna)
Sergey Nikolayeviç Volkov, fəlsəfə elmləri doktoru, professor, Penza texnoloji akademiyası (Rusiya)
Ləzifə Nağı qızı Qasımova, pedaqogika elmləri doktoru, professor, BDU
Hikmət Əbdul oğlu Əlizadə, pedaqogika elmləri doktoru, professor, BDU
Qəmər Cəfər qızı Mürşüdlü, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent, BDU
Kəmalə Həsən qızı Pənahova, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent, BDU
Qızılgül Yasin qızı Abbasova, fəlsəfə elmləri doktoru, professor, baş redaktor, BDU
Daxil Cahangir oğlu Vəliyev, fəlsəfə üzrə fəlsəfə doktoru, redaktor müavini, BDU
Vüsalə Kərəm qızı Musayeva, buraxılışa məsul redaktor, BDU

Topluda müasir dövrün aktual problemlərindən bəhs olunur. Məqalələrdə müəlliflər tərəfindən qaldırılan məsələlərin geniş çeşidi dünyamızın tarix, fəlsəfə, politologiya, sosiologiya, pedaqogika, psixologiya, iqtisadiyyat, mədəniyyətşünasliq, sənətşünaslıq və digər sosial-humanitar sahələrdə baş verən proseslərə bir çox yeni aspektlərdən nəzər salmağa imkan verir. Toplunun materiallarından elmi işçilər, ali və orta ixtisas məktəblərinin humanitar fənləri tədris edən müəllimlər, tələbələr və aspirantlar faydalana bilərlər. Məqalələr müəlliflərin redaktəsi ilə çapa verilmişdir.

PSİXOLOGİYA

UŞAQ VƏ YENİYETMƏLƏR ARASINDA BULLİNQİN PROFİLAKTİKASI

Elmi rəhbər professor Elnarə Şəfiyeva
BDU-nun Psixologiya Kafedrası
Ağayeva Kəmalə Sərdər qızı
BDU-nun I kurs magistrantı
kaghayevawall@gmail.com

***Açar* sözlər:** bullinq, psixoloji sağlamlıq, bullinqin profilaktikası
Ключевые слова: буллинг, психологическое здоровье, профилактика буллинга
Key words: Bullying, psychological health, bullying prevention

Bullinq bütün dünyada uşaqlar və yeniyetmələr arasında böyük problemdir. Təəssüf doğuran hal olsa da, ancaq kimsə intihara cəhd edəndə, yaxud bullinq səbəbindən özünü qoruya bilmədikdə ifrat həll yoluna əl atıb silah istifadə edəndə və yaxud digər faciəli hadisələr olduqda, hamının diqqəti bu problemin üzərində cəmlənir. Lakin əksər hallarda bullinqin qurbanı müxtəlif səbəbdən bu haqda danışmır, kimdənsə kömək istəmir. Bəzi hallarda isə böyüklər qurbanın özünü günahlandırır, yaxud bullinq edənin onların yanında ancaq yaxşı davrandığını gördükləri üçün problemi ciddiyə almırlar. Əgər qarşısı alınmazsa, bullinq uşaqların psixoloji sağlanlığımda qısa müddətli neqativ təsirlərlə yanaşı uzun müddətli mənfi izlər də buraxır. Hətta uzun müddət keçsə də insanlar bullinqin nəticələrindən əziyyət çəkirlər. Ümumdünya Səhiyyə Təşkilatının verdiyi tərifə görə, sağlamlıq hər hansı bir xəstəliyin olmaması yox, bütöv fiziki, psixi və sosial rifahın birliyidir. Yəni uşaqların sağlan olması üçün onların psixi sağlamlığına da, sosial sağlamlığına da diqqət yetirmək lazımdır. Bütün uşaqların təhlükəsiz şəraitdə, zorakılıqdan uzaq yaşamaq və təhsil almaq hüququ var. Buna görə də bütün hökümətlər uşaqlara bu təhlükəsiz şəraiti yaratmaq üçün eyni zamanda bullinqin profilaktikasına aid kompleks tədbirlər planı hazırlamalı və onun həyata keçirilməsini təmin etməlidirlər. Bir çox ölkələr bullinqi insan hüquqlarının pozulması problemi kimi qəbul edirlər [8]. Bu məqalədə bullinqin profilaktıkası üçün görülməsi mümkün olan əsas tədbirlər haqda danışacağıq. Bullinqin profilaktıkasına keçməzdən qabaq ümumiyyətlə bullinqin nə olduğu, hansı səbəblərdən törəndiyi, hansı uşaqların daha çox bullinqə məruz qaldığı, uşaq və yeniyetmələrin psixoloji sağlamlığına necə təsir etdiyi haqda məsələlərə qısa olaraq nəzər salaq.

Uzun illər məktəblərdə bullinq mövcud olsa da, rəsmi olaraq bu problem yalnız iyirminci əsrin 70-ci illərində İsveç-Norveç psixoloqu Dan Olveus tərəfindən ətraflı araşdırılmışdır. Dan Olveusun verdiyi tərifə görə, bullinq o zaman baş verir ki, uşaq təkrar-təkrar, məqsədli şəkildə zorakı hərəkətlərə məruz qalır, bu zaman o, özünü müdafiə etmək iqtidarında olmur və bullinqə məruz qalan heç bir halda, heç bir hərəkəti ilə aqressoru buna sövq etmir [3 səh 9]. Əgər uşaqlar dava edirsə, hər iki uşağın gücü bərabərdirsə, bu, bullinq hesab edilmir. Lakin burada gücləri müqayisə edəndə yalnız fiziki deyil, digər cəhətləri də nəzərə almaq lazımdır. Uşaqların sosial fərqli statusu, bir uşağın digərləri qarşısında daha məşhur olması kimi faktlar da bura aid edilə bilər [8]. Statistik göstəricilərə baxsaq, UNESCO-nun verdiyi məlumatda deyilir ki, bütün dünyada 144 olkədə keçirilmiş sorğunun nəticələrinə görə uşaq və yeniyetmələrin üçdə biri bullinqlə üzləşir. Onlar müxtəlif cür bullinqə məruz qaldıqlarını qeyd edirlər. Ümumi götürdükdə Amerikada və Avropada verbal və sosial bullinq daha çox rast gəlinir, dünyanın digər regionlarında isə fiziki bullinq daha çox yayılmışdır [2]. Amerikada 12-18 yaşlı uşaqlar arasında

keçirilmiş sorğunun nəticələrinə görə, 2017-ci ildə sorğuda iştirak edənlərin 20 faizi məktəbdə bullinqə məruz qaldıqlarını bəyan etmişlər. Həmin sorğuda bullinqə məruz qaldığını deyən qızların nisbəti oğlanlardan daha çox olmuşdur [13]. Bullinqin aşağıdakı formaları ayırd edilir [18]:

- Fiziki bullinq (vurmaq, itələmək, nə isə yeməyə məcbur etmək və s)
- Verbal bullinq (cırnatmaq, söymək, hədələmək və s)
- Sosial bullinq (haqqında yalan məlumatlar yaymaq, qrupdan çıxarmaq, aşağılamaq və s)
- Mülkiyyətinə ziyan vurmaq (başqasının əşyalarını sındırmaq, dağıtmaq)
- Kiberbullinq (sosial mediada, email və s üsullarla bullinq)

Bullinqin psixologiyaya göstərdiyi zərərli effektlərdən danışanda yalnız bullinqə məruz qalanları deyil, həmçinin bullinq edənləri, həm bullinq edib, həm də bullinqə məruz qalanları və şahidləri də nəzərə almaq lazımdır. Çünki aparılan tədqiqatlar göstərir ki, bullinq onların hamısının psixoloji sağlamlığına zərərli təsir edir. Əgər qısa müddət ərzində bullinqin törətdiyi fəsadlara baxsaq onları aşağıdakı kimi qruplaşdıra bilərik [4,7,10,11,12,14]:

- Bullinq qurbanları – daha çox depressiv simptomlar, özünə güvənin aşağı olması, özünə qapanma, çox həssaslıq, bullinq edənlərə nisbətən təşviş və narahatçılığın daha çox olması, özünə inamsızlıq, baş ağrısı, bel ağrısı, yorğunluq və sair kimi müxtəlif cür psixosomatik simptomlar, qida qəbulu ilə əlaqədar pozğunluqlar (həddən artıq çox yemək və ya iştahsızlıq), sui-qəsd fikirləri, sosial və emosional uyğunlaşmada çətinliklər.
- Bullinq edənlər – onlar daha çox aqressiv olurlar, öz həmyaşıdlarına təzyiq göstərirlər, hiperaktivlik simptomları, psixosomatik simptomlar onlarda çox olur və ümumiyyətlə məktəbi xoşlamırlar.
- Həm bullinq qurbanı olan, həm də bullinq edənlər – bullinqin effektlərindən daha çoz əziyyət çəkirlər, onlarda daha çox fiziki və verbal aqressiya, depressiv simptomlar, özünə güvənin aşağı olması, psixososial uyğunlaşmanın çətin olması, baş ağrısı və s kimi psixosomatik simptomlar.
- Şahidlər – özləri aqressiya göstərməsə və ya bullinqə məruz qalmasalar da, kömək edə bilmədikləri üçün özlərini narahat, günahkar hiss edir, nə vaxtsa onların da belə münasibətə məruz qala biləcəyini fikirləşərək həmişə qorxu hissi olur.

Bullinq uşaqların psixologiyasında həm də uzun müddətli iz buraxır, hətta uzun illər keçəndən sonra da onun effektindən əziyyət çəkirlər, hər hansı formada psixoloji simptomlarla üzləşirlər. Müxtəlif tədqiqatlara əsasən bullinqin uzun müddətli fəsadlarını aşağıdakı kimi qruplaşdıra bilərik [3,12]:

- Bullinq qurbanları – təşviş pozğunluğu yaşayırlar, daha çox depressiv simptomlar, özünə güvənin aşağı olması və utancaqlıq kimi problemlərdən əziyyət çəkirlər. Həm də bir neçə bullinq növünə eyni zamanda məruz qalanlar gələcəkdə daha çox psixoloji fəsadlarla üzləşirlər.
- Bullinq edənlər – antisosial şəxsiyyət pozğunluğu, depressiya, təşviş pozğunluğu kimi hallar yaşayırlar və onlar arasında zərərli maddələrdən istifadə halları daha çox rast gəlinir.
- Həm bullinq qurbanı olan, həm də bullinq edənlər – antisosial şəxsiyyət pozğunluğu və təşviş pozğunluğu kimi fəsadlarla daha çox üzləşirlər.

Tədqiqatlar göstərmişdir ki, bullinq edənlər, bullinq qurbanları və həm bullinq edib həm də bullinqə məruz qalanlar arasında intihar haqda fikirlər daha çox rast gəlinir. Bunu onlarda olan depressiv əlamətlərlə də izah etmək olar [15].

Məlumdur ki, hər uşaq həmyaşıdlarına qarşı zorakılıq göstərmir, bullinqlə məşğul olmur. Eyni zamanda hər uşaq da bullinqə məruz qalmır. Niyə bəzi uşaqların başqalarına qarşı aqressiya göstərmələrinin, bullinq etmələrinin səbəblərini və hansı uşaqların daha çox bullinq qurbanına çevrilməsini öyrənmək bullinqin profilaktikası işinin təşkil olunmasında vacib rol oynaya bilər.

Qısaca bu səbəblərə nəzər salaq [21].

Bullinq edən uşaqlar adətən digər uşaqlar arasında öz güclərini göstərmək istəyirlər. Onlar başqalarının diqqətini çəkmək və məşhur olmaq istəyirlər. Kiməsə qarşı aqressiya göstərmək pis olsa da, onları arzularına çatdırır. Bəzi hallarda belə uşaqlar özləri haqqında pis fikirdə olurlar, özlərini rahat hiss etmirlər, xoşbəxt deyillər və ya qorxurlar. Öz hərəkətləri ilə sanki özlərini yaxşı hiss etməyə çalışırlar. Elə uşaqlar var ki, onlar özləri bullinqə məruz qalıblar nə vaxtsa. İndi sanki qisas almaq üçün başqa, özlərindən zəif uşaqlara qarşı eyni hərəkəti edirlər, bununla sanki özlərini daha yaxşı hiss etməyə kömək etmək istəyirlər. Eyni zamanda öz hərəkətlərinə bəraət də qazandırırlar. Digər hallarda uşaqlar xoşladıqları, özləri üçün qəhrəman kimi gördükləri bullinq göstərən kiminsə hərəkətlərini təkrar etməyə çalışırlar.

Bullinqə məruz qalan uşaqlar bəzən çox uğur qazanmış, dərslərini yaxşı oxuyan, həmişə yaxşı hərəkətlərinə görə tərifl ənən, məqsədyönlü, ağıllı, istedadlı, yaradıcı uşaqlar ola bilər. Bullinq edənlər belə uşaqlara qarşı paxıllıq hissi keçirir və onlardan sanki öz uğursuzluqlarının heyfini çıxırlar. Bəzən də aciz, öz güvəni aşağı olan uşaqlar bullinqə məruz qalırlar. Belə uşaqlar özlərini qoruya bilmir, öz haqlarını müdafiə edə bilmirlər. Dostu olmayan, ailədə üzvləri ilə yaxın münasibətləri olmayan uşaqlar da bullinqə daha çox məruz qalırlar. Bele bir fikir mövcuddur ki, əgər uşağın bir dostu varsa, onun bullinqə məruz qalma ehtimalı azdır. Çünki onu qoruya biləcək kimsə var. Bəzi uşaqlar fərqli fiziki görünüşlərinə görə bullinqə məruz qalırlar. Məsələn, boyca çox hündür, yaxud bəstəboy, çəkisi çox az yaxud həddən artıq kök olmaq, fərqli saç rəngi, üz quruluşu, eynək taxmaq və sair uşağı bullinq qurbanına çevirə bilər. Eyni zamanda uşaqlar dini inanclarına görə, fərqli irqə mənsub olduqlarına görə, cinsi orientasiyasına görə bullinqə məruz qala bilərlər.

Bullinqin psixoloji sağlamlığa vurduğu zərərin profilaktikası üçün həm əvvəldən bullinqin qarşısını almaq, həmçinin bullinq baş veribsə yaranacaq problemlərin qarşısını almaq üçün müəyyən addımlar atılmalıdır. Biz bu məqalədə əsasən bullinqin qarşısını almaq üçün lazım olan tədbirlərdən danışırıq. Bu, bir o qədər də asan məsələ deyil. Bullinqin profikatikasında çətinlik törədən əsas səbəblərdən bəzilərinə baxaq. Uşaqlar bullinqə məruz qaldıqlarını adətən gizlədirlər. Aparılmış tədqiqatın nəticələrinə görə bullinqə məruz qalan uşaqlardan 64 faizi bu haqda heç kəsə məlumat verməyib [9]. Onlar bu haqda danışacaqları təqdirdə bullinq edən tərəfindən daha çox aqressiyaya məruz qalmaqdan qorxurlar, ya utanırlar, valideynlərini narahat etmək istəmirlər, yaxud da dedikləri halda onlara inanmayacaqlarından ehtiyat edirlər. Uşağın davranışı açıq aşkar olanda bullinqi görüb müdaxilə etmək asandır. Lakin bir çox hallarda bullinq gizli qalır, çünki onu edən böyüklərin yanında özünü yaxşı aparır və onun qurbanı reaksiya verdikdə vəziyyətlə ətraflı məlumatlı olmayan böyüklər bəzən hətta qurbanın özünü çox həssas olmaqda, münasibət qura bilməməkdə və sair günahlandırırlar. Bullinqin psixologiyaya göstərdiyi zərərləri nəzərə alsaq onun profilaktikasının nə qədər vacib olduğunu görərik. Məktəbdə müəllim və digər işçilər, evdə valideynlər bullinqin olduğu haqda uşaqlarda olan bəzi əlamətlərə görə şübhələnə bilərlər. Bu əlamətləri nəzərdən keçirmək yerinə düşər [20].

Əgər uşaqda bu əlamətlər varsa, o, bullinqə məruz qalmış ola bilər: Əgər uşaqda bədənin müxtəlif yerlərində göyərmələr varsa, paltarı, çantası, kitab-dəftərləri tez-tez cırılmış olursa, əşyalarını çox itirirsə və uşaq bunun səbəbini izah edə bilmirsə, bu, bullinq qurbanı olmasını göstərə bilər. Uşaqda yuxu pozğunluğu, iştahasızlıq və ya həddindən artıq yemək kimi qida qəbulu pozğunluğu varsa, baş ağrısı, qarın ağrısı, ürək bulanma və digər psixosomatik simptomlar varsa, məktəbə getmək istəmir, dərslərini əvvəlki kimi yaxşı oxumur, yoldaşları ilə görüşmək istəmirsə, bunlar da uşağın bullinqə məruz qaldığını göstərə bilər. Həmçinin əgər uşaq özünə ziyan vuran hərəkətlər edirsə, öz güvəni aşağıdırsa, depressiya əlamətləri varsa, evdən qaçır, yaxud intihar haqqında danışırsa, bütün bunlar da uşaqda bullinq qurbanı olmağın

əlamətləri ola bilər. Böyüklər və valideynlər bu halda diqqətli olmalı, bu dəyişiklikləri ciddiyə almalıdırlar. Uşaqdır, keçib gedəcək kimi fikirlərlə vəziyyətin daha da pisləşməsinə yol vermək olmaz. Əlbəttə uşaqda bullinq səbəbindən başqa əlamətlər də ola bilər, yaxud heç bir görünən əlamət olmaya da bilər. Amma mümkün qədər bullinq haqqında şübhə olduqda dərhal kömək üçün müraciət etmək lazımdır.

Eyni zamanda əgər uşaqlar başqalarını bullinqə məruz qoyurlarsa, onlarda olan bəzi əlamətləri görməklə bundan şübhələnmək olar. Əgər uşaq tez-tez digər uşaqlarla dalaşırsa, çox aqressivdirsə, digər aqressiv uşaqlarla dostluq edirsə, tez-tez məktəbdən onların davranışı ilə bağlı şikayət gəlirsə, o zaman bu onu göstərə bilər ki, uşaq başqa uşaqları bullinq edir. Eyni zamanda bu cür uşaqlar öz problemlərinə görə başqalarını günahlandırır, hərəkətlərinə görə məsuliyyəti öz üzərlərinə götürmürlər, öz reputasiyaları onları çox maraqlandırır. Məktəb müəllimləri, valideynlər və ya uşaqla ünsiyyətdə olan digər şəxslər belə əlamətləri gördükdə diqqətli olmalıdırlar.

Bullinqin profilaktikası kompleks şəkildə aparılmalıdır. Sadəcə kimdənsə şübhələnib onu danlamaq və yaxud valideyninə xəbər vermək vəziyyəti qısa müddətlik yaxşılaşdıra bilər. Lakin əksinə pisləşdirə də bilər. Uşaq danlandığına görə daha da aqressiv davrana bilər. Yaxud valideyn düzgün rəftar edə bilməyib uşağa və yaxud onun övladını bullinqə məruz qoyan digər uşağa qarşı fiziki aqressiya göstərə bilər. Bəzən valideynlər şikayət etsələr də, məktəb tərəfindən bunun qarşısı effektiv şəkildə alına bilmir və valideynlər məktəbi dəyişməyə məcbur olurlar. Hətta evdə təhsilin qanuni olduğu ölkələrdə valideynlər uşaqlarını bullinq səbəbindən evdə təhsil sisteminə keçirirlər. Ona görə bu məsələyə səthi yanaşmaq olmaz. Bullinqin qarşısını almaq üçün uzun müddətli tədbirlər planı hazırlayıb həyata keçirmək lazımdır. Bu məqsədlə müxtəlif ölkələrdə müxtəlif proqramlar işlənib hazırlanmış və həyata keçirilmişdir. Bu profilaktik proqramlardan bəziləri bullinq qurbanlarını hədəfə alır, bəziləri isə bullinq edənlərlə işləyir. Lakin qeyd edilir ki, bu proqramlardan yalnız bir qisminin bullinqə qarşı effektiv nəticə əldə etməsi empirik olaraq sübut edilmişdir. Əlbəttə bir proqramın bütün vəziyyətlərdə eyni dərəcədə effektiv olması fikri düzgün olmazdı. Ona görə də məktəblər bu problemi ətraflı araşdıraraq özlərinə uyğun üsullar seçməlidirlər [6]. İstənilən profilaktik tədbirlərin uğurlu olması üçün ilk növbədə "kim, harada, nə vaxt, necə, nə üçün" kimi suallara cavab vermək lazımdır. Bu sualların cavabı profilaktik tədbirlər planının hazırlanmasında çox kömək edə bilər [8]. Profilaktikadan danışanda bullinqin baş verdiyi məkan və zaman, bullinq iştirakçıları, səbəbləri, buna müdaxilə edə biləcək bütün tərəflər nəzərə alınmalıdır.

Bullinqin baş verdiyi məkanın təhlükəsizliyi. Uşaq və yeniyetmələr arasında bullinq məktəblə bağlı istənilən məkanda baş verə bilər: məktəbə yaxud əlavə məşğələlərə gedən yolda, məktəbin bufetində, sinif otaqlarında, ayaqyolunda, məktəb həyətində, idman zalında, pilləkənlərin altında, paltar dəyişmə otaqlarında, gizli sayıla biləcək bütün yerlərdə. Buna görə də təhsil müəssisəsində nəzarətsiz qalan yer olmamalıdır. İmkan daxilində kameralardan istifadə etməklə, nəzarətçi şəxs vasitəsilə hər yer müşahidə altında olmalıdır. Məktəbə kənar şəxslərin icazəsiz girişi qadaşan olunmalıdır. Eyni zamanda bullinqlə bağlı məlumat verilərkən, təhlükəsizlik məqsədilə məlumatı kimin verdiyi gizli saxlanılmalıdır [16].

Məktəbdə müsbət iqlimin yaradılması. Bullinq edən uşaqlarla iş aparmaq üçün onların nə üçün bullinqə əl atdıqlarının səbəblərini nəzərə almaq lazımdır. Bir çox uşaqlar özlərini güclü göstərmək, məşhur olmaq üçün yoldaşlarını bullinqə məruz qoyurlar. Məktəbdə elə mühit yaratmaq lazımdır ki, kiməsə qarşı aqressiya göstərmək, bullinq yaxşı hərəkət kimi yox, utandırıcı hərəkət kimi görünsün [5]. Məktəbdə müsbət əhval ruhiyyənin yaranması müəllimdən, şagirdlərlə daha çox işləyən sinif rəhbərindən bilavasitə asılıdır. Müəllim öz hərəkətləri, davranışı ilə, digər müəllimlərlə, şagirdlərlə münsibəti ilə uşaqlara nümunə göstərə bilər. Belə

müəllimlərin siniflərində bullinq hadisələrinə daha az rast gəlinir. Müəllim öz müşahidələri əsasında uşaqlar arasındakı münasibəti düzgün qiymətləndirə bilər. Müxtəlif üsullarla bullinq qurbanına çevrilə biləcək uşaqlarla iş apara bilər. Sinifdə hər hansı uşağı həddən artıq tərifləmək və ya danlamaq düzgün deyil. Bu, digər uşaqlar arasında paxıllıq yarada bilər, yaxud danlanan uşağa qarşı alçaldıcı hərəkətlər edə bilərlər. Müəllim hamıya hörmətlə yanaşdıqda, problemləri sivil yolla həll etməyə çalışdıqda uşaqlar da bele müəllimdən nümunə götürürlər [16]. Uşaqları öyrətmək lazımdır ki, bütün hamıya hörmətlə yanaşsınlar, ehtiyacı olana yardım etsinlər və bu cür müsbət hərəkətlərinə görə onları mükafatlandırmaq digər uşaqları da həvəsləndirər. Eyni zamanda müəllimlərdən başqa digər məktəb işçiləri də hamısı bu istiqamətdə iş apara bilər. Həmçinin müəllim sinifdə davranış haqqında qaydalar qoya bilər və özü də bu qaydalara əməl etməklə, uşaqları da buna həvəsləndirə bilər [20]. Eyni zamanda müəllimlər bullinq haqqında uşaqlara məlumat verməklə, həm qarşısını almağa kömək edə bilərlər, həm də uşaqlara bullinqdən necə qaşmağı, bullinqə məruz qalarkən necə reaksiya verməli olduqlarını öyrədə bilərlər [1].

Bullinq haqqında məlumatın verilməsi. Məktəbdə elə bir sistem yaratmaq lazımdır ki, uşaqlar bullinqə məruz qalanda bunu kiməsə deyə bilsinlər. Əvvəldə qeyd etdiyimiz kimi, ehtiyatsız hərəkət burada vəziyyəti daha da pisləşdirə bilər. Uşaq ondan sonra bu haqda heç danışmaya bilər. Bəzən valideynlər bullinq haqqında çox məlumatlı olmurlar, belə halda nə edəcəklərini bilmirlər. Ona görə də ilk eşidəndə aqressiv reaksiya verə bilərlər, yaxud bunu boş bir şey hesab edə bilərlər. Bütün bunları nəzərə alaraq məktəbdə elə bir sistem təşkil etmək lazımdır ki, uşaqlar qorxmadan bullinqə məruz qaldıqları haqda hər hansı etibarlı bir şəxsə məlumat verə bilsinlər. Eyni zamanda bullinqin şahidləri ilə də iş aparmaq lazımdır. Onlar da bu pis, aqressiv hərəkəti gördükdə ya laqeydlik göstərib, ya qorxudan bu haqda kiməsə məlumat verməyə bilərlər. Məktəbdə uşaqlarla elə iş aparmaq lazımdır ki, onlar bullinqin pis hərəkət olduğunu, onların psixoloji sağlamlığına ziyan vurduğunu bilsinlər və bullinqin qurbanı, yaxud şahidi olduqda mütləq kiməsə demək lazım olduğunu bilsinlər. Eyni zamanda uşaqlar bilməlidirlər ki, onların anonimliyi qorunacaq, məlumat verdiklərini başqaları bilməyəcək. Müəllim və məktədbə olan digər böyüklər bu kimi halları mütləq araşdırmalıdırlar. Heç bir halda uşağa etiansız yanaşmaq, onun şikayətini diqqətsiz qoymaq olmaz. Eyni zamanda araşdırmadan bullinqdə günahlandırılan şəxsi də cəzalandırmaq düzgün deyil [16].

Bullinq haqqında tədbir görülməsi. Bullinqin olması haqqında məlumat aldıqdan sonra müəllim və məktəbdəki digər cavabdeh şəxslər həm bullinq qurbanı, həm bullinq edən, həm də şahidlərlə iş aparmalıdırlar. Onlara psixoloq yardımı lazım ola bilər. Belə olan halda bu yardımı təşkil etmək lazımdır [16]. Bullinq baş verəndən sonra düzgün tədbirlərin görülməsi gələcəkdə ba verəcək psixoloji zərərlərin qarşısını almaqda yardımçı ola bilər. Heç bir halda etinasızlıq etmək olmaz, mütləq müdaxilə edilməlidir. Müdaxilə edərkən də müəllim, yaxud digər işçilər özləri uşaqlara problemi necə həll etmək, belə şəraitdə necə təmkinli qalmaq, həmişə digərlərinə hörmətlə yanaşmaq kimi cəhətlərdə nümunə göstərə bilər. İlk növbədə bullinqi dayandırmaq, uşaqların sakitləşməyinə şərait yaratmaq, lazım gəldikdə tibbi yaxud psixoloji yardıma müraciət etmək lazımdır [16].

Uşaqların bullinqin profilaktikasında iştirakı. Bulliqin profilaktikasına uşaqların da cəlb olunması çox müsbət effekt verir. Onlar məktəbdə bullinqin profilaktikasına aid tədbirlər planının hazırlanmasında iştirak edə bilərlər, bu zaman öz fikirlərini bildirə, problemlərin həllində öz çixiş yollarını göstərə bilərlər. Bu zaman uşaqlar bullinq haqqında daha çox məlumat əldə edirlər, onun ciddiliyini görür, məsuliyyət hiss etdikləri üçün bu tədbirləri həyata keçirməkdə də iştirak edirlər. Şagirdlərin də tədbirlər planının hazırlanmasında iştirak etdikləri məktəblərdə bu sahədə müsbət dəyişikliklər olduğu aydın görünür [1].

Bullinqə məruz qaldıqda uşaqlar nə edə bilər. Müəllimlər və valideynlər uşaqlara bullinqə məruz qaldıqları zaman nə edə biləcəklərini öyrədə bilərlər. Bu, həm uşaqdakı qorxunu azaldar, həm də özünə inamı artırar. Aşağıda göstərilmiş bəzi məsləhətlərə baxaq [19]:

- Mümkün qədər bullinq edəndən qaçmaq.
- Həmişə dostları ilə birlikdə gəzmək.
- Hirsini göstərməmək. Bullinq edən sanki bunu gözləyir və hirsli reaksiya vermək onun bu hərəkəti davam etməsinə daha da təkan verir. Məsələn, ürəyində saymaqla uşaq hirsini büruzə verməməyə çalışa bilər.
- Ötkəm şəkildə dayan deyib bullinq edəndən uzaqlaşmaq.
- Ona qarşı laqeydlik göstərmək.
- Böyüklərə məlumat vermək.
- Eyni zamanda etibar etdiyin digər insanla, ailə üzvü, müəllimi və yaxud dostu ilə bu haqda danışmaq.

Valideynlərin bullinqin profilaktikasında rolu. Valideynlər bullinqin qarşısını almaq üçün onlara bu haqda məlumat verməlidirlər. Əgər bullinq haqqında məlumatları varsa, onda ya özləri, ya da digər uşaqlar bullinqə məruz qalarsa, bunu tez anlaya biləcəklər. Uşaqlarla həmişə danışmaq, onlara dəstək göstərmək, onların etibarını qazanmaq lazımdır. Belə olan halda uşaqlar bullinq haqqında ürəkli valideynə məlumat verə biləcəklər. Valideyn uşağın öz güvənini qaldırmağa kömək etməlidir. Uşaq dərsdən savayı da ona maraqlı olan əlavə nə iləsə məşğul olduqda, bu onların özünə inamını artırmağa kömək edir. Eyni zamanda valideynlər öz hərəkətləri, başqalarına hörmət və qayğı ilə yanaşmaları ilə uşaqlarına nümunə ola bilərlər. Onda onların övladları başqalarına qarşı aqressiv münasibət göstərməyəcəklər [17].

Bütün bu deyilənləri yekunlaşdıraraq qeyd edə bilərik ki, psixoloji sağlamlığa həm qısa müddətli, həm də uzun müddətli təsirlərini nəzərə alaraq bullinqin qarşısı alınmalıdır. Profilaktika işi qısa müddətli deyil, uzun müddətli nəticələrə yönəlmiş tədbirlərdən ibarət olmalıdır. Həm məktəb rəhbərliyi, müəllimlər və digər işçilər, psixoloqlar, həmçinin valideynlər və uşaqlar hamısı bu işdə iştirak etməlidirlər.

ƏDƏBİYYAT

1. Arora, Tiny, et al. Bullying : Effective Strategies for Long-Term Change, Taylor & Francis Group, 2002, 219 pages
2. Behind the numbers: Ending School violence and bullying. 2019 by UNESCO
3. Dan Olweus: Bullying at School. Publisher Wiley-Blackwell; 1st edition (December 8, 1993), 152 pages
4. Due, P., Holstein, B.E., Lynch, J., Diderichsen, F., Gabhain, S.N., Scheidt, P., Currie, C., & Health Behaviour in School-Aged Children Bullying Working Group. (2005). Bullying and symptoms among school-aged children: international comparative cross sectional study in 28 countries. European Journal of Public Health, 15, 128–132
5. Lee, Chris. Preventing Bullying in Schools : A Guide for Teachers and Other Professionals, SAGE Publications, 2004, 102 pages
6. Lembeck, P. T., O'Connor, A., Fluke, S. M., & Peterson, R. L. (2016, January). Bullying prevention & intervention. Strategy brief. Lincoln, NE: Student Engagement Project, University of Nebraska-Lincoln and the Nebraska Department of Education.
7. Maria M. Ttofi & David P. Farrington (2008) Bullying: Short-Term and LongTerm Effects, and the Importance of Defiance Theory in Explanation and Prevention, Victims and Offenders, 3:2-3, 289-312, DOI: 10.1080/15564880802143397

8. Masiello, Matthew G., and Diana Schroeder. Public Health Approach to Bullying Prevention, APHA Press, 2013, 355 pages
9. Petrosino A, Guckenburg S, DeVoe J, Hanson T. What characteristics of bullying, bullying victims, and schools are associated with increased reporting of bullying to school officials?. (Issues & Answers Report, REL 2010–No. 092). Washington, DC: U.S. Department of Education, Institute of Education Sciences, National Center for Education Evaluation and Regional Assistance, Regional Educational Laboratory Northeast and Islands. August 2010.
10. Rivers, I., Poteat, V. P., Noret, N., & Ashurst, N. (2009). Observing bullying at school: The mental health implications of witness status. *School Psychology Quarterly, 24*(4), 211–223.
11. Roland Maiuro: Perspectives on Bullying: Research on Childhood, Workplace and Cyberbullying; (November 28, 2015), 179 pages
12. Sourander, A., Jensen, P., Ronning, J. A., Niemel ¨ a, S., Helenius, H., ¨ Sillanmaki, L., ¨ ... Almqvist, F. (2007). What is the early adulthood outcome of boys who bully or are bullied in childhood? The Finnish "From a Boy to a Man" study. Pediatrics, 120, 397–404. doi: 10.1542/peds.2006-2704
13. Wang, K., Chen, Y., Zhang, J., and Oudekerk, B.A. (2020). Indicators of School Crime and Safety: 2019 (NCES 2020-063/NCJ 254485). National Center for Education Statistics, U.S. Department of Education, and Bureau of Justice Statistics, Office of Justice Programs, U.S. Department of Justice. Washington, DC.
14. Wolke, D., Woods, S., Bloomfield, L., & Karstadt, L. (2001). Bullying involvement in primary school and common health problems. Archives of Disease in Childhood, 85, 197–201.
15. Youth Suicide and Bullying : Challenges and Strategies for Prevention and Intervention, edited by Peter Goldblum, et al., Oxford University Press, Incorporated, 2014, 342 pages
16. Предотвращение насилия в образовательных учреждениях. Методическое пособие для педагогических работников /Л.А. Глазырина, М.А. Костенко; под ред. Т.А. Епояна. – М., 2015.
17. https://www.unicef.org/end-violence/how-talk-your-children-about-bullying
18. https://www.cdc.gov/violenceprevention/youthviolence/bullyingresearch/fastfact.html
19. https://kidshealth.org/en/parents/bullies.html
20. https://www.stopbullying.gov
21. https://www.verywellfamily.com/reasons-why-kids-are-bullied-460777

UŞAQ VƏ YENİYETMƏLƏR ARASINDA BULLİNQİN PROFİLAKTİKASI

Kəmalə Ağayeva

XÜLASƏ

Bu məqalədə uşaq və yeniyetmələr arasında bullinqin profilaktikası üçün mümkün olan tədbirlər müzakirə olunur. İlk növbədə bullinqin nə olduğu, onun növləri müzakirə edilir. Statistik məlumatlar əsasında bullinqin nə qədər geniş yayılmış olduğuna baxılır. Daha sonra bullinqin uşaq və yeniyetmələrin psixoloji sağlamlığına vurduğu qısa müddətli və uzun müddətli fəsadlar müzakirə edilir. Bütün uşaqların bullinq etmədiyini və eyni zamanda bütün uşaqların da bullinqə məruz qalmadığını nəzərə alaraq, uşaqların nə səbəbdən bullinqə əl atdırları, həmçinin hansı uşaqların bullinq qurbanına daha çox çevrildiyinə baxılır. Sonda bütün deyilənləri nəzərə almaqla bullinqin qarşısını necə alamq yolları müzakirə edilir.

ПРОФИЛАКТИКА БУЛЛИНГА СРЕДИ ДЕТЕЙ И ПОДРОСТКОВ

Камала Агаева

АННОТАЦИЯ

В этой статье обсуждаются возможные меры по предотвращению буллинга у детей и подростков. В первую очередь обсуждается, что такое буллинг и его виды. На основе статистики рассматривается насколько сильно распространен буллинг. Затем обсуждаются краткосрочные и долгосрочные последствия буллинга для психологического здоровья детей и подростков. Учитывая, что не все дети совершают буллинг и что не все дети подвергаются буллингу, рассматривается, почему дети стремятся к буллингу, а также какие дети с большей вероятностью станут жертвами буллинга. В конце, учитывая все вышеперечисленное, обсуждается о том, как предотвратить буллинг.

PREVENTİNG BULLYİNG AMONG CHILDREN AND TEENAGERS

Kamala Agayeva

SUMMARY

İn this article we discuss way to prevent bullying among children and teenagers. First we looked at what is bullying and types of bullying. Then we discussed short term and long term damaging consequences bullying has on children's and teenager's psychological health. Considering that not all children bully others and not all children get bullied we looked at the reasons why children bully and characteristics of children who become victims of bullying. At es harmful effects bullying has on children's psychological health. Statistics are not available for Azerbaijan. So statistics from another countries were used here to describe how bullying affects victims, bullies, bully-victims and bystanders. Based on the learned information we discussed ways to prevent bullying.

SUİSİDAL DAVRANIŞIN MOTİV VƏ SƏBƏBLƏRİ

dos.əv.Yamən Vəliyeva,
BDU-nun Psixologiya fakültəsi
Hüseynova Lalə Azər qızı
BDU-nun II kurs magistrantı
lala.huseynova.2020@inbox.ru

Açar sözlər: Suisidal davranış, intihar, ekspert-psixoloq, mazoxizm, motiv, stress, frustrasiyya, depressiya, psixotrop maddələr, travmalar.
Keywords: Suicidal behavior, suicide, expert psychologist, masochism, motive, stress, frustration, depression, psychotropic substances, trauma.
Ключевые слова: суицидальное поведение, суицид, эксперт-психолог, мазохизм, мотив, стресс, фрустрация, депрессия, психотропные вещества, травма.

Son vaxtlar suisidal davranışın motivləri pisxoloqların diqqətini daha çox cəlb edir. Mövcüd suisidal davranış riskinin müəyyən edilməsi olduqca çətindi. Sual bundadı ki, kimi potensial suisident saymaq olar, hansı andan və hansı şərtlər altında insan "risk qrupu"na qoşula bilər. Ümumi suisidal risk, suisidal tendensiyaların reallaşdırılması mümkünlüyü, yəni suisidal hərəkətlərin riski və suisidal aktın residivliyi, yəni təkrar suisidal risk suisidal davranışın istənilən əlamətlərinin meydana gəlməsinə zərurət yaradır. Psixoloji tədqiqatlar göstərir ki, bəzi insanlarda adi bir uğursuzluq ölüm haqqında düşünməyə gətirib çıxarır.

Suisidal davranışı hüquqi müstəvidən nəzərdən keçirdikdə,intihar etmiş şəxsin intihar səbəblərinin araşdırılması zəruriyyəti ortaya çıxır. Bu Azərbaycan Respublikası CM-nin125- ci maddəsində "Özünü öldürmə həddinə çatdırma" da öz əksini tapmışdır. Bu maddəyə əsasən özünü öldürmə həddinə çatdırma- təqsirkardan maddi, xidməti və ya sair cəhətdən asılı olmuş zərərçəkmiş şəxsi onunla amansız rəftaretmə,onun ləyaqətini alçaltma, ona hədə qorxu gəlmə yolu ilə özünü öldürməsi və ya özünü öldürməyə cəhd həddinə çatdırmanı nəzərdə tutur. Qısaca deyilsə özünü öldürməyə səbəbiyyət vermə kimi nəzərdən keçirilir.

Bu halda ekspert- psixoloq cinayət işi materiallarına əsasən şəxsiyyətin fərdi-psixoloji xüsusiyyətləri, psixi halını və onun dinamikasını hərtərəfli öyrənir. Nəticədə suisidal davranışın səbəb və motivləri daha aydın şəkildə öyrənilir. Bu hərtərəfli araşdırmanın aparılması üçün intihar etmiş şəxsin intihardan öncə yazdığı məktublar, əgər məktub yoxdursa şəxsi gündəliyi, yaradıcılıq məhsulları, son dövrdə məşğuliyyətləri, ailəsi və yaxınlarının verdikləri ifadələr, onlarla münasibətləri və digər məsələlər psixoloji təhlil obyektinə çevrilir.

Suisidal davranışın psixoloji səbəbləri araşdırıldıqda burada bir çox alimlərin fikirləri maraq cəlb edir. Bunlardan Z. Freydin fikirləri daha çox öyrənilmişdir. Freyd öz fikirlərini id üzərində mərkəzləşdirmişdir. Onun fikirlərinə görə hər bir orqanizmdə cinsiyyət və özünü müdafiə instinklərindən əmələ gələn "yaşamaq instinkti" və "ölüm instinkti" vardır. Ferydin fikirlərinə əsasən "yaşamaq instinkti" və "ölüm instinkti" davamlı olaraq bir-birilə müharibə vəziyyətindədirlər. Ölüm instinktinin ən əsas hissəsi " hücum" instinktidir. Çox insanlarda yaşamaq instinkti ölüm instinkti tərəfindən basdırılır. Hücum xarici mühitə yönələ bilmədikdə insanın özünə yönəlmiş olur. Freyd daha çox fikirlərini instinktlərə mərkəzləşdirdiyindən və sosial faktorların təsirini nəzərə almadığı üçün bir çox alimlər tərəfindən tənqidə məruz qalmışdır.

Bir digər məhşur psixoanaltik alim Karl Menningerdir. Menninger daha çox Freydin təməl fikirlərini rəhbər tutaraq, daha da aydınlaşdırmağa çalışmışdır. Menningerə görə intiharın üç birləşməsi vardır və bunların hamısı hər intihar hadisəsində dəyişilən faizlə özünü göstərir.

Öldürmək istəmək- Hücum, günahlandırma, ayıblama.

Öldürülmüş olmaq istəmək- İtaət etmək, mazoxizm, özünügünahlan-dırma, özünü ayıblama.

Ölmək istəmək- Ümidsizlik, qorxu, yorğunluq.

İntihardan öncə adam öldürmə istəkləri insanda baş qaldırır. Bu ya şəxsin özü üzərində ya da başqası üzərində özünü göstərə bilər. İntihar etmiş şəxs bu istəkləri özünə qarşı yönəldib özünü öldürməyə çalışır. Ancaq burada əsas məsələ ölüm instinktinin yaşamaq instinktinə üstün gəlməsi və ölümü istəməkdir. Yalnız bu halda əməl intiharla nəticələnə bilər.

Menningerin fikirlərinə əsasən yaşın irəliləməsilə "Öldürmək istəmək" və "Öldürülmüş olmaq istəmək" azalır," Ölmək istəmək" isə artır. Menningerin fikirlərinə əsasən gənc yaşlarında intihara cəhd etmiş şəxslərin böyük çoxluğu həqiqətən də ölmək istəmir. Bunlarda ən əsas suisidal davranış səbəbi şəxsiyyətlərarası münasibətlərdir. Yaşlılarda isə tamamlanmış suisidal davranış daha yüksəkdir.Yaşlıların intihar səbəb və motivlərinin psixoloji təhlili göstərir ki, onlar ölümü həqiqətəndə istədiklərini və insan instinktlərinin vacib olduğu vurğulanmışdır.

Bir digər Türk psixiatr Rıdvan Üney intiharın əslində bir öldürmə fəaliyyəti olduğunu ifadə edərək "Bir insanın özünü öldürə bilməsi, başqalarını da öldürə biləcəyi mənasına gəlir". Və insanın özünü öldürməsi ilə başqalarını öldürməsi arasında əlaqə mövcuddur. Buna misal olaraq, radikal dindar qruplaşmalarının nümayəndələrindən olan şəxslərin kütləvi insanların yığıldığı məkanlarda üzərlərindəki bombaları partladaraq özlərinin və onlarla insanın həyatlarını bitirirlər. Belə insanlar bunu hər hansı bir missiya uğruna etdiklərini vurğulayırlar. Türkiyədə bunun kimi bir hadisə baş vermiş, üzərinə bomba bağlamış şəxs bombanı partlatmadan zərərsizləşdirilmişdir. Həmin şəxs isə ifadələrində bu cümlələri işlətmişdir": Bunu din yolunda etdim. Şəhid olub cənnətə gedəcəm, orada məni mələklər gözləyir". Belə tipli cinayyətə əl atan insanlar qorxu emosiyalarını azaltmaq məqsədilə psixotrop maddələrdən istifadə edirlər.

Belə nümunələri kütləvi qatillər misalında da göstərmək olar. Ancaq belə insanları digərlərindən fərqləndirən əsas cəhət odur ki, bu tipli insanlar həyatda ümidləri boşa çıxmış, böyük bir itki yaşamış və bunun təsirindən çıxa bilməmişlər. Bu cür insanlar inanırlarki, həyatları bir daha heç vaxt qaydasına düşməyəcək. Müxtəlif üsullarla eyni zaman və məkan intervalında ikidən artıq insanı qətlə yetirib sonrasında özlərini də öldürür və ya hüquq mühafizə orqanları tərəfindən öldürülməyə cəhd göstərirlər.

Tarix boyu nadirən də olsa rast gəlinən hadisələrdən biri də toplu intihar hallarıdır. Toplu intihar- çox sayda insanın eyni səbəblə intihar etməsidir. Buradakı səbəblər araşdırıldıqda isə maraqlı məsələlər ortaya çıxır. Əhalinin yaşadıqları ərazinin düşmən tərəfindən işğal ediləbiləcəyi qorxusundan əhalinin bir hissəsinin intiharı göstərilə bilər. Buna misal olaraq, 1992- ci ildə Kəlbəcər ərazisinin düşmən tərəfindən işğal edilməsindən sonra düşmən əlinə keçmək istəməyən bir çox qadın və qızlar özlərini uçurumdan ataraq intihar etmişlər. Digər bir misal isə əsgərlərin düşmən əlinə keçməmək üçün özlərini partladaraq öldürmələrini göstərmək olar. Belə əsgərlərdə intihar səbəbi eynidir.

Digər bir toplu intihar hallarını hər hansı bir etnik təriqət birləşmələrinin ayin mərasimini misal göstərmək olar. Amerika Birləşmiş Ştatlarında "People Temple" etnik təriqət nümayəndələri 1978- ci ildə cənnətə gedəcəklərini düşünərək 909 insan (276-sı uşaq) siyanür içərək intihar etmişdir.

Suisidal davranışın səbəblərini psixopatoloji istiqamətdə açıqlamağa çalışan Delmas olmuşdur. Delmas sosioloji nəzəriyyələri tənqid etmişdir. Onun fikirlərinə əsasən intiharın səbəbinin əsas hissəsini insanın ölüm istəyi və onun iradəsi ilə bağlı olduğunu dilə gətirmişdir. "

İnsanın yaşamaq imkanı varkən, niyə ölümü seçər?". Sualı ətradında öz fikirlərini başa salmağa çalışmışdır. Delmasa görə həqiqi intiharların səbəbləri aşağıdakı 3 formada özünü göstərir.

Çöküntü, ümidsizlik halları və ya melanxolik hallar.

Xroniki, davamlı ümidsizlik halları və ya psixoloji xüsusiyyətlərdən irəli gələn ümidsizlik halları.

Fərdi psixoloji xüsusiyyətlərdən irəli gələn yüksək dərəcəli həyacanlı-lıqdakı axırıncı mərhələ.

Delmasın fikirlərinə əsasən intiharlarda 90% insanların xroniki ümidsizlik halları və ya fərdi-psixoloji xüsusiyyətlərdən irəli gələn ümidsizlik halları səbəb olur. Delmasın fikirlərinə görə insanın daxılında mövcud olan ümidsizlik və çöküntü halları xarici mühitdə baş verən hər hansı bir travmatik-həyacan durumunda şok halını yaşatmaqla intihara gətirib çıxara bilir. Delmas intihar etmiş şəxslərin daxilində həmişə intihara hazırlıq halının mövcud olduğunu iddia edirdi. Öncələri suisidal davranışı yalnız psixoloji istiqamətdən öyrənməyə çalışan Delmas, ən sonunda bunun tamailə bioloji bir problem olduğunu irəli sürmüşdür.

Delmasın fikirləri sonradan bir çox alimlər tərəfindən tənqidə məruz qalmışdır. Ancaq onun ən böyük əlavəsi həqiqi intiharı digər intihar növlərindən fərqləndirməsi olmuşdur.

Delmasın fikirləri böyük maraq doğursada bunun əksinə baş verən hadisələrin olması onun fikirlərini şübhə altına saldı. Öncədən heç bir intihar düşüncəsi olmayan insanların da intihar etdiyi hallar nəzərdən keçirilməyə başladı. Bəzi durumlarda ani bir travmanın alınması, yaxın adamın itirilməsi, bəzən insanın məruz qaldığı təhdid və təzyiqlər, şərəf və ləyaqətin itirilməsi qorxusu və digər hallarda şəxs ani bir qərarla çarəni ölümdə görür. Bir çox hallarda həmin insanların intiharın qarşısı alındıqdan sonra ikinci dəfə intihara cəhd etmirlər.

Digər baş vermiş hadisələrə əsasən isə intihar etmiş bəzi insanların ölmək niyyəti olmasada, sadəcə olaraq insanın ölərkən nə hiss etdiyini anlamaq üçün özlərini asdıqlarını, ancaq ani diqqətsizlik ucbatından boğularaq öldükləri aşkarlanmışdır. Buna misal olaraq; Stearnin bir çox tədqiqatlarına əsasən 13-19 yaşlı oğlan uşaqlarının ölmək niyyətləri olmadan, sadəcə cinsi həzzi yaşamaq üçün özlərini asdıqlarını və ölmüş vəziyyətdə tapıldıqlarını müəyyənləşdirmişdir.

Bütün bunlardan belə nəticə çıxarmaq olar ki, insanlar dünyada istədikləri kimi yaşamaq istəsələrdə bəzən öz həyatlarını sonlandıra bilirlər. İnsanın öz həyatını sonlandırması stress, frustrasiyya, depressiya, psixotrop maddələrdən asılılq, xroniki ağrılar, yaşadığı travmalar və genetik səbəbləri varsa da belə, təməl səbəb " Çarəsizlik" hissidir.

İntihar çox hallarda şəxsiyyətin psixoloji böhranı, emosional durumuna təsir edən mənfi psixoloji hadisələrlə bağlıdır. Bu böhran miqyasına və intensivliyinə görə elə böyükdür ki, insan öz əvvəlki həyat təcrübəsindən istifadə edib bu situasiyadan heç bir çıxış yolu tapmır. İntihar - özünəqəsd aktıdır və insanlar güclü psixi təsirə məruz qaldıqda bu aktı törədirlər.

İntihar təhlükəsinin psixoloji dəyərləndirilməsi zamanı ümumi faktorlara: situasiyalara və bütov şəxsi faktorlara diqqət etmək lazımdı. Suisidal riskin pilləsini müəyyən etmək üçün həm suisidal davranışlara, həm də antisuisidal hərəkətlərə diqqət etmək zəruridi. Fərdi səviyyədə bu pozitiv həyat sevgisindən pessimist dünyaya baxışa keçiddi. Antisuisidal şəxsiyyətlər özünü yaxınlara emosional bağlılıq, vəzifə, borc hissləri, özünə fiziki zərər vermə qorxusu, həyatda hələ çoxşeydən istifadə etməmək hissi ilə büruzə verir. Müəyyən edilmiş insana münasibətdə antisuisidal faktorların çoxluğu onların intihara nə dərəcədə təşəbbüs edə bilmə ehtimalını müəyyən edir.

Psixoloqun suisidentlə profilaktik söhbətinin də xüsusi özəllikləri var. Belə insanı söhbətə cəlb etdikdə onunla sıx emosionla əlaqə yaratmaq, səmimi maraqlanmağı göstərmək, səbrlə, şübhə olmadan onu dinləmək zəruridi. Zərərçəkmiş insana izah etmək lazımdı ki, eyni hadisələr digər insanların da başına gəlir və onlar yaxınlarına lazımdılar. Bir növ suisidentlərdə yaşamaq

həvəsi yaratmalıdılar. Daha sonra ən vacib məsələ situasiyanın yaratdığı şəraitdən düzgün istifadə etməkdi. Belə olduqda insana özgüvən yaratmaq lazımdır.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı: Hüquq yayın evi, 2016, 688 s.
2. Bayramov Ə.S., Əliyev B.H. Hüquq psixologiyası. Bakı: Təhsil, 2012, 656 s.
3. Azərbaycan RespublikasıCinayət Məcəlləsinin Kommentariyası. Bakı, Hüquq ədəbiyyatı, «DİGESTA», 2001.
4. Башкатов И.П. Психология групп несовершеннолетних правонарушителей, М., Прометей, 1993
5. Берон Р., Ричардсон Д. Агрессия, СПб, Питер, 1998
6. Васильев В.Л. Юридическая психология, СПб., "Питер Ком", 1998
7. Волков Б.С. Мотивы преступлений, Казань, КГУ, 1982
8. Долгова А.И. Социально-психологические аспекты преступности несовершеннолетних, М., "Юрид лит-ра", 1981
9. Еникеев М.Н. Юридическая психология, М., Изд. "Норма-Инфра", 1999
10. Кондрашенко В.Т. Девиантное поведение у подростков (социально-психологический и психиатрический аспект), Беларусь, 1988
11. Кон И.С. Психология ранней юности. М., "Просвещение", 1989, 255 с.
12. Криминальная мотивация, М, Наука, 1986
13. Пирожков В.Ф. Криминальная психология, М., "Ось-89", 2001, 704с.
14. Пирожков В.Ф. Криминальная психология. Психология подростковой преступности. Кн.1, М., "Ось-89", 1998
15.
16. Adam K. Attempted suicide. Psychiatric Clinics of North America, 1985; 8 (2): 183-196.
17. Cheng HF , Lester D. The economy and suicide in Japan, 1985- 2000. Persept Mot Skills. 2006; 102: 338
18. Duffy D. Miles belied and inner torment. Nursing Times 1997; 93:26.
19. Holland J, Plumb M. The management of the serious suicide attempt: a special İCU problem, Herart and Lung 1973; 2:376
20. Atay İM, Kerimoğlu E. Ergenlerde İntihar Davranışı. Cocuk ve Genclik Ruh Sağlığı Dergisi. 2003; 10: 128- 136
21. Eskin M. İntihar- Açıklama, Değerlendirme, Tedavi və Önleme. Ofset Basımevi, Ankara, 2003.

SUİSİDAL DAVRANIŞIN MOTİV VƏ SƏBƏBLƏRİ

Yamən Vəliyeva, Hüseynova Lalə

XÜLASƏ

Suisidal davranış müxtəlif münaqişəli vəziyyətləri özünə daxil edir. Bu o deməkdir ki, hər bir münaqişəli vəziyyət intihara gətirib çıxara bilər. Məqalədə suisidal davranışı törədən səbəblər və onların aradan qaldırılması üçün profilaktık tədbirlərin aparılmasının zəruriliyi qeyd edilmişdir. Eini zamanda məqalədə intihar hallarının xüsusən də yeniyetmələr və gənclər arasında daha çox yayılması faktları göstərilmişdir. Intihar hallarının insanlarda

özünəqiymətləndirmənin aşağı olması, özünə inamsızlıq, özünü həyatda təqdim etmək üçün ünsiyyətə ehtiyacın olması, müəyyən qərara gəlmək üçün çətinlik çəkməsi, yüksək dərəcədə həyəcanlı olması, özünü günahkar hiss etməsi, özünü dəyərləndirə bilməməsi və s. kimi səbəblərdən baş verməsi bu məqalədə xüsusilə öyrənilmişdir.

МОТИВЫ И ПРИЧИНЫ СУИЦИДНОГО ПОВЕДЕНИЯ

Велиева Ямен, Гусейнова Лала

АННОТАЦИЯ

Суицидальное поведение предполагает наличие множества конфликтных ситуаций. Это означает, что любая конфликтная ситуация может привести к самоубийству. В статье освещены причины суицидального поведения и необходимость профилактических мер по их устранению. Также показано, что суициды более распространены среди подростков и молодежи. Самоубийства основаны на низкой самооценке, в неверие в себя, на потребности в общении, чтобы представить себя в жизни, это – трудности с принятием определенных решений, высокий уровень тревоги, вины, неумение правильно оценить ситуацию и так далее. В данной статье и исследуется возникновение таких причин.

MOTIVES AND REASONS FOR SUICIDAL BEHAVIOR

Velieva Yamen, Huseynova Lala

SUMMARY

Suicidal behavior involves many conflict situations. This means that any conflict situation can lead to suicide. The article highlights the causes of suicidal behavior and the need for preventive measures to eliminate them. It has also been shown that suicides are more common among adolescents and young people. Suicides are based on low self-esteem, lack of faith in oneself, on the need for communication in order to present oneself in life, these are difficulties in making certain decisions, a high level of anxiety, guilt, inability to correctly assess the situation, and so on. This article examines the occurrence of such reasons.

MƏKTƏBDƏ "PSİXOLOJİ İQLİM" ANLAYIŞI VƏ ONUN FORMALAŞDIRILMASI YOLLARI

Əsgərli Əsmər İlham
BDU-nun II kurs magistrantı
asmarasgarli@gmail.com

Açar sözlər: psixoloji iqlim, sosial mühit, xüsusiyyət, sinif, şagirdlərarası münasibət
Ключевые слова: психологический климат, социальная среда, особенность, класс,
Key words: psychological climate, social environment, feature, class, inter-student relationship

İlk dəfə "psixoloji iqlim" termini N.S.Mansurov tərəfindən istehsal qrupunun araşdırması kontekstində irəli sürülmüşdür. Bu fikirdən sonra, digər psixoloqlar sosial-psixoloji və mənəvi-psixoloji iqlimi ayırmağa başladılar. Psixoloji iqlim geniş bir anlayışdır, qalanları onun bir hissəsidir.

Müəllimin uşaqlarla işində ən vacib və çətin vəzifələrdən biri də dərs zamanı düzgün psixoloji ab-hava yaratmaqdır. Bunun sayəsində uşaq inkişaf edir, istedadını, nəyə qadir olduğunu göstərir, müəllim və yaşıdları ilə fəal şəkildə ünsiyyət qurur və ya əksinə, passiv olur, çəkilir və ya ayrılır. Uşağın sağlamlığı, sosial-psixoloji uyğunlaşması, normal böyüməsi və inkişafı əsasən yaşadığı mühitlə müəyyən edilir. 6 ilə 17 yaş arası bir uşaq üçün bu mühit təhsil sistemidir, çünki onun oyanma vaxtının 70%-dən çoxu təhsil müəssisələrində keçir. Eyni zamanda, bu dövrdə uşağın ən intensiv böyümə və inkişaf prossesi baş verir.

Psixoloji cəhətdən təhlükəsiz və əlverişli bir təhsil mühitinin formalaşdırılmasının əsas məqsədi, təhsil prosesinin iştirakçıları arasında meydana çıxan və şəxsiyyətin inkişafına mane olan müxtəlif həyati vəziyyətlərin emosional stresinin və psixoloji narahatlığının müvəffəqiyyətlə aradan qaldırılmasına kömək edən bacarıqların formalaşması üçün bütün lazımi şəraitin yaradılmasıdır [1, səh.125].

Psixoloji iqlim insanların rəğbətinə, maraqların, xarakterlərin və meyllərin üst-üstə düşməsinə əsaslanan münasibətlərində yaranan duyğuların təbiətidir. Psixoloji iqlim 3 sahəni əhatə edir:

Sosial iqlim - bütün iştirakçılar tərəfindən məqsəd və vəzifələrin bilinməsi, hüquq və öhdəliklərə əməl olunması.

Əxlaqi iqlim - qrupda qəbul edilən dəyərlər. Onların birliyi, qəbul edilməsi, tutarlılığı.

Psixoloji iqlimin özü komandadakı qeyri-rəsmi münasibətlərdir.

Kollektivdə psixoloji iqlimin öyrənilməsi üçün 4 əsas yanaşma vardır:

İqlim-Kollektiv bir şüurdur. Cəmiyyətin hər bir üzvü tərəfindən kollektivdəki münasibətlər, iş şəraiti, stimullaşdırma metodları barədə məlumatlı olmaq.

İqlim -Komandanın əhval-ruhiyyəsidir. Yəni aparıcı rol şüura deyil, duyğulara həvalə olunur.

İqlim -İnsanlar arasındakı vəziyyətə təsir göstərən qarşılıqlı üslubdur.

İqlim -Qrup uyğunluğunun, üzvlərinin mənəvi və psixoloji birliyinin göstəricisidir. Ortaq fikirlərin, ənənələrin və adətlərin olması.

Psixoloji iqlimin bir fenomen kimi xüsusiyyəti, insanın özü tərəfindən yaradılması, iqlimə təsir göstərə bilməsi, yaxşılaşması və dəyişməsidir[1, səh.137].

Əlverişli və əlverişsiz sosial-psixoloji iqlimin xüsusiyyətləri

Əlverişli sosial-psixoloji iqlimin xüsusiyyətləri:

1. Sinifdə uşaqlar arasında münasibətlərin əsasını şən əhval-ruhiyyəli nikbinlik üstünlük təşkil edir; münasibətlər əməkdaşlıq, qarşılıqlı yardım, xoş niyyət prinsiplərinə əsaslanır; uşaqlar birgə işlərdə iştirak etməyi, birlikdə boş vaxt keçirməyi sevirlər; münasibətlərdə təsdiq və dəstək üstünlük təşkil edir, tənqidlər xoş arzularla dilə gətirilir.

2. Sinifdə bütün üzvlərinə qarşı ədalətli və hörmətli davranış normaları mövcuddur, burada daima zəifləri dəstəkləyir, onları müdafiə edir, yeni gələnlərə kömək edirlər.

3. Məsuliyyətli, dürüstlük, çalışqanlıq və fədakarlıq kimi şəxsi xüsusiyyətləri öz yoldaşlarında yüksək qiymətləndirilir.

4. Sinif üzvləri fəaldırlar, enerji doludurlar, hamı üçün yaxşılıq etmək istəyirlər. Eyni zamanda tədris zamanı yüksək nəticələr əldə edir və asudə vaxtlarını isə daha səmərəli təşkil edirlər.

5. Sinifdəki ayrı-ayrı şagirdlərin uğur və ya uğursuzluqları, komandanın bütün üzvlərinin empatiyasına və səmimi iştirakına səbəb olur.

6. Eyni sinif daxilində mövcud qruplaşmalar arasındakı münasibətlərdə qarşılıqlı meyl, anlaşma və əməkdaşlıq mövcuddur.

Əlverişsiz sosial-psixoloji iqlimin xüsusiyyətləri:

Гиперактивному ребенку как воздух необходим строгий режим дня, осуществляемый ежедневно и неизменно, олицетворяющий постоянство условий существования. Не жалейте усилий на то, чтобы сформировать у ребенка навыки послушания, аккуратности, самоорганизации, способность планировать и доводить до конца начатые дела; развить у него чувство ответственности за собственные поступки. Для того чтобы добиться улучшения концентрации внимания при выполнении домашних заданий, для ребенка необходимо найти в квартире тихое место с минимальным количеством отвлекающих и раздражающих факторов. В процессе подготовки школьных уроков один из родителей должен заглядывать в комнату ребенка, чтобы убедиться в том, что он продолжает работать. Через каждые 15–20 минут разрешайте ребенку встать из-за стола, двигаться около 5 минут, а затем вернуться к урокам. Каждый раз ребенку следует давать не более 1–2 инструкций, которые должны носить конкретный характер. Эффективный способ напоминания для детей с нарушениями внимания, памяти и трудностями самоорганизации — это развешивание специальных листов-памяток.

Выберите два наиболее важных дела в течение дня, которые ребенок может успешно выполнить. После этого напишите напоминания об этих делах на листах. Листы вывешиваются на специальной «доске объявлений» в комнате ребенка или, как вариант, на холодильнике. На листах-памятках полезно дать информацию не только в письменной, но и образной форме, т. е. можно сделать рисунки, соответствующие содержанию предстоящих дел (например, «Помой посуду» — изображение тарелки). После выполнения соответствующего поручения ребенок должен сделать на листе специальную пометку. Еще один способ воспитания навыков самоорганизации — применение цветовой маркировки. Например, если для занятий по разным школьным предметам завести тетради определенных цветов (зеленые по природоведению, красные по математике, синие по письму), то в дальнейшем их легче находить. Когда тетрадь будет закончена, ее можно положить в папку такого же цвета. При необходимости это поможет без лишних временных затрат найти записи по ранее пройденному учебному материалу. Для

наведения порядка в комнате также могут помочь цветовые обозначения: ящикам письменного стола присвоим красный цвет, ящикам для одежды — синий, для игрушек — желтый. Значительная по площади и хорошо заметная цветовая маркировка, которая дополнена рисунками или наклейками, соответствующими содержимому ящика, позволяет успешно решить поставленную задачу [5;112].

Ребёнку со СДВГ необходим чёткий режим дня. Следует избегать чрезмерной стимуляции и перенапряжения ребёнка. При сочетании СДВГ и трудностей в обучении ребёнку может потребоваться комплексное коррекционно- педагогическое воздействие, включающее работу ряда специалистов: педиатра, невролога, логопеда, нейропсихолога, психолога, психотерапевта. Так, например, психолог может работать с гиперактивным ребёнком в следующих направлениях: развивать внимание и произвольность, снижать импульсивность, развивать коммуникативные навыки, обучать приёмам выражения гнева в допустимой форме и саморегуляции. Многие занятия проходят в игровой форме.

Для детей с СДВГ полезны игры по следующим направлениям:

- Игры на развитие внимания.
- Игры и упражнения для снятия мышечного и эмоционального напряжения (релаксация).
- Игры, развивающие навыки саморегуляции.
- Игры, тренирующие коммуникативные навыки (умение общаться).

Играя с гиперактивным ребёнком, взрослым необходимо придерживаться определённых правил:

– Предлагая новую игру, первое время не приглашайте других участников, пока не убедитесь, что ваш ребёнок успешно освоил правила. Особенности детей с дефицитом внимания и гиперактивностью не дают им сосредоточиться на игре, если рядом есть другие ребята. К тому же импульсивность ребёнка и его неумение придерживаться правил могут спровоцировать конфликт среди игроков.

– Начинайте с простых игр с небольшим количеством правил. Для начала выберете для тренировки какую- то одну функцию. К примеру, если решили развивать внимание, не требуйте от ребёнка сидеть ровно и не хватать лежащие на столе предметы. Иначе он вместо концентрации на игре переключится на контроль собственных действий. Только через некоторое время, убедившись, что ребёнок достаточно внимателен, можете добавить контроль поведения.

– Следите за тем, чтобы маленький игрок не перевозбудился. Со стороны гиперактивный ребёнок напоминает «вечный двигатель», но на самом деле он устаёт. А эмоциональное перенапряжение может вызвать у него ещё больший всплеск возбуждения и даже аффективную реакцию. Поэтому, если видите, что ребёнок устал, сделайте перерыв: погладьте его, предложите посидеть, переключитесь на другое занятие.

– Замечайте и хвалите за любые, пусть и небольшие, успехи ребёнка, даже если результат пока далёк от совершенства. Это укрепляет уверенность ребёнка в своих силах и повышает самооценку. Если будете указывать только на недостатки, он быстро потеряет желание заниматься [4;163].

Гиперактивным детям очень полезны игры с водой, глиной, песком, крупой, рисование пальцами- такие занятия помогают снять накопившееся напряжение. Предлагайте детям с СДВГ любые задания, требующие усидчивости и терпения. Например, можно несколько раз в день показывать детские журналы, в которых нужно искать отличия между картинками, обводить по контуру, разгадывать кроссворды, ребусы и т. п. Не настаивайте жёстко на регламенте — в какой- то день ребёнок увлечётся и

просидит над журналом полчаса, а в другой день сорвётся с места через 5 минут. Помните, что даже 5–10 минут таких занятий — это мини- тренировки. Играйте в ролевые игры, но следите, чтобы ребёнок побывал и в активной, и в пассивной позициях. К примеру, если вы играете в школу, он должен поочерёдно исполнить роль и учителя, и ученика. Также существуют специальные игры, разработанные или адаптированные специалистами для детей, страдающих синдромом дефицита внимания с гиперактивностью: «Запрещённое движение»

Дети стоят лицом к ведущему и повторяют движения, которые он показывает. Затем выбирается одно движение, которое нельзя будет выполнять. Тот, кто его повторит, выбывает из игры. Вместо движений можно называть вслух цифры. Участники игры повторяют за ведущим все цифры, кроме одной запрещённой (например, цифры «шесть»). Когда дети её услышат, они должны будут хлопнуть в ладоши или покружиться на месте. «Ласковые лапки» Игра помогает снять напряжение, снизить агрессивность, развить чувственное восприятие, гармонизировать отношения между ребёнком и взрослым. Взрослый подбирает 6–7 мелких предметов различной фактуры: кусочек меха, кисточку, стеклянный флакон, бусы, вату и т. д. Всё это выкладывается на стол. Ребёнку предлагается оголить руку по локоть; взрослый объясняет, что по руке будет ходить «зверёк» и касаться ласковыми лапками. Надо с закрытыми глазами угадать, какой «зверёк» прикасается к руке, и отгадать предмет.

Прикосновения должны быть поглаживающими, приятными. Вариант игры: «зверёк» может прикасаться к щеке, колену, ладони. Потом поменяйтесь ролями. «Ищи безостановочно» В течение нескольких минут находить вокруг себя как можно больше предметов одного цвета (размера, формы и др.). Даже если вы будете играть в одном и том же помещении, это занятие долго не наскучит: сегодня ищете всё жёлтое, завтра- деревянное, послезавтра- круглое, затем- зелёное, металлическое, пластиковое и т. д. «Бывает— не бывает» Взрослый говорит предложения. Если это бывает — дети хлопают в ладоши, не бывает- топают ногами. (Например: «Корабль плавает по воде», «Лиса сидит на дереве», «Ворона лает», «Мальчик гладит собаку», «Учительница бегает по классу», «В кастрюле варится суп» и т. д.). «Да инет» Правила игры очень просты: ведущий задаёт вопросы, а игроки отвечают, не используя слова слова «Да» и «Нет». Чтобы усложнить игру, можно добавить правило «Чёрное» и «Белое» не называть. По ходу игры ребёнок должен контролировать свои ответы, а это невозможно без определённого развития произвольной регуляции. Вопросы могут быть самые разные: «Тебя зовут Петя?», «Кошки мяукают?», «Коровы летают?», «Лимон кислый?», «Твой папа играет в куклы?», «Чай пьют из кастрюли?», «Обедают ночью?», «У тебя есть игрушки?», «Ты сейчас спишь?». «Игра спредметами» Игра развивает внимание и зрительную память. Ведущий берёт 7–10 небольших предметов.

Существует несколько разновидностей игры: Положить предметы в ряд и прикрыть их чем- нибудь. Затем, приоткрыв на 10- 15 секунд, снова закрыть и предложить ребёнку перечислить все предметы. Снова ненадолго показать ребёнку предметы и спросить его, в какой последовательности они лежали. Поменяв местами два предмета, предложить ребёнку назвать, какие предметы переложены [5]. Играйте с удовольствием и помните, что, как говорил Жан Жак Руссо, «истинное воспитание состоит не столько в правилах, сколько в упражнениях»! А терпение и настойчивость в сочетании с педагогической и психологической поддержкой помогут детям жить полноценной, насыщенной жизнью.

ЛИТЕРАТУРА

1. Глущенко В. В.,Шабанов П. Д. Минимальная дисфункция мозга. М., 2013.
2. Глущенко Н. В. Обзор основных факторов школьной неуспешности современного поколения//Модернизация образования и векторы развития современного поколения: Сб.матер. Всерос.науч.-практ.конф. с междунар.участием (26 февраля 2015г.)/Под ред. Л. В. Козиловой, Е. В. Меркель. М.,2015.
3. Ч.3. Семенович А. В. Нейропсихологическая коррекция в детском возрасте. Метод замещающего онтогенеза: Учеб.пос.6-е изд. М., 2013.
4. Уманская Т. М. Невропатология. Естественно- научные основы специальной педагогики: Учеб.пос. для студентов- бакалавров/ Т. М. Уманская; Под общ.ред. В. И. Селиверстова. М., 2015.
5. Layton T.J., Barnett M.L., Hicks T.R. et al. (2018) Attention Deficit–Hyperactivity Disorder and Month of School Enrollment. N. Engl. J. Med., Nov. 29 [Epub. ahead of print].

ПРАВИЛЬНЫЙ ПОДХОД К ДЕТЯМ С ДЕФИЦИТОМ ВНИМАНИЯ И ГИПЕРАКТИВНОСТЬЮ

Гасымова Севидж

АННОТАЦИЯ

В статье рассматривается проблема гиперактивных детей. Согласно всемирной статистике гиперактивность и дефицит внимания - это психологический синдром, который возникает у детей после 3 лет и встречается приблизительно у одного из каждых 25-30 учащихся. И если не будет своевременного вмешательства, то ребенок в настоящем и в будущем времени столкнется с определенными проблемами. Чтобы разграничить непоседливость и синдром дефицита внимания и гиперактивности (СДВГ), нам необходимо понять первопричины СДВГ, его развитие, диагноз, мифы и предрассудки, связанные с ним, как его распознавать и каковы наиболее эффективные меры корректирующего воздействия. Обобщения, изложенные в статье, показывают, что просвещение семей об этой проблеме и минимизация осложнений, которые могут привести к ранней реабилитации.

DİQQƏT ƏKSİKLİYİ VƏ HİPERAKTİVLİK POZUNTUSU (DƏHP) OLAN UŞAQLARA DÜZGÜN YANAŞMA

Qasımova Sevinc

XÜLASƏ

Məqalədə uşaqlarda rast gəlinən hiperaktivlik pozuntusundan bəhs olunur. Dünya statistikasına əsasən Diqqət Əksikliyi və Hiperaktivlik Pozuntusu hər 25-30 nəfərdən birində rast gəlinir və 3 yaşdan sonra özünü göstərir. Zamanında müdaxilə olmasa gələcəkdə uşaqda digər psixoloji problemlər də yarana bilər. Diqqət Əksikliyi və Hiperaktivlik Pozuntusunu uşaqlarda məhdudlaşdırmaq üçün bu problemin yaranma səbəbini, diaqnoz meyyarlarını, effektev korreksiya üsullarını bilmək lazımdır.

Məqalədə qeyd olunan ümumiləşdirmələr göstərir ki, ailələrin bu problem haqqında marifləndirilməsi və uşaqların erkən reablitasiyaya cəlb olunması problemin yaradacağı fəsadları minimuma endirməyə imkan verir.

RIGHT APPROACH TO CHILDREN WITH DEFICIENCY ATTENTION AND HYPERACTIVITY (ADHD)

Gasimova Sevinc

SUMMARY

According to world statistics, hyperactivity and attention deficit is a psychological syndrome that occurs in children over 3 years old and occurs in approximately one out of every 25-30 students. And if there is no timely intervention, the child in the present and in the future time will face certain problems. To distinguish between injustice and attention deficit hyperactivity disorder (ADHD), we need to understand the root causes of ADHD, its development, diagnosis, myths and prejudices associated with it, how to recognize it and what are the most effective corrective measures.

The generalizations outlined in the article show that educating families about this problem and minimizing the complications that can lead to early rehabilitation

TƏLİMİN KEYFİYYƏTİNƏ TƏSİR GÖSTƏRƏN AMİLLƏR

Adilzadə Arzu Sahib qızı
BDU-nun II kurs magistrantı
arzuadilzade01@gmail.com

Açar sözlər: baş amil, ümumi amil, təlimin keyfiyyəti, təhsildə dövlət standartları
Key words: main factor, common factor, quality of education,state standarts in education
***Ключевые слова*:** главный фактор, общий фактор, качество обучения, государственные стандарты в образовании

Müasir dövrdə cəmiyyətin inkişafı təhsilin keyfiyyəti ilə birbaşa əlaqəlidir. Buna görə təhsilin keyfiyyətinin yüksəldilməsi cəmiyyətin dövlətin təhsil sistemi qarşısında qoyduğu ən mühüm tələbdir. Qeyd edək ki, "təlim keyfiyyəti" və "təhsilin keyfiyyəti" anlayışları bir-birindən müəyyən qədər fərqlənir. Təlim keyfiyyəti dedikdə, bu, təlim prosesinin nəticəsi kimi qəbul edilərək, tədris-metodik işin təşkilindən, maddi-texniki bazanın səviyyəsindən və şagirdlərin təlimə, müəllimlərin isə öz fəaliyyətlərinə münasibətindən asılıdır. Təhsilin keyfiyyəti isə əlavə olaraq özündə təhsil müəssisənin məzunlarına cəmiyyətin münasibəti, onların ixtisas seçimi, ali, orta ixtisas və peşə təhsili müəssisələrinə qəbulunun da nəzərə alınmasını tələb edir. Təhsilin keyfiyyəti dedikdə, onun mövcud standartlara, normalara, həmçinin, şəxsin, cəmiyyətin və dövlətin maraqlarına uyğun gələn yüksək səviyyəsi başa düşülür. Təhsilin keyfiyyət səviyyəsi dövlət təhsil standartları əsasında və beynəlxalq təhsilin keyfiyyət göstəricilərinə uyğun olaraq müəyyən edilir. Təhsil qanununda da təhsilin keyfiyyət göstəriciliəri öz əksini tapmışdır. Bunlara təhsil proqramları, təhsil alanların hazırlıq səviyyəsi, maddi-texniki baza, infrastruktur, informasiya resursları, təhsilverənlərin peşəkarlığı və elmi-pedaqoji səviyyəsi, mütərəqqi tədris texnologiyaları və s. daxildir.

Orta gəlirli ölkələr arasında rəqabətin güclənməsi, sürətli texnoloji irəliləyiş nəticəsində ixtisas profillərinin tez-tez dəyişməsi təhsilin keyfiyyətinə tələbi daha da artırmışdır. Digər tərəfdən, yalnız təhsilə cəlb etmə səviyyəsinin artırılması və təhsil infrastrukturunun genişləndirilməsi insanların bilik və bacarıqlarının yüksəlməsinə tam təminat vermir. Təhsil infrastrukturu zəruri amil olsa da, bilik və bacarıqlar təhsil müəssisələrinin sayı və təhsilin müddəti ilə deyil, öyrənmə prosesinin keyfiyyəti ilə əldə olunur. Son dövrlərdə bir sıra ölkələr tərəfindən təhsilin inkişafı məqsədi ilə təhsil infrastrukturuna, həmin infrastrukturun yeni avadanlıqlarla təchizatına xeyli vəsait xərclənsə də, həmin ölkələrdə təhsilin nəticələrində müsbət irəliləyiş əldə edilməmişdir. Ümumi təhsil pilləsini bitirməsinə baxmayaraq, hesab, oxu və yazı vərdişlərinə malik olmayan çoxlu sayda insanlar vardır. Həmin səbəblərdən təhsilin keyfiyyətinin təminatı başlıca strateji prioritetə çevrilməlidir.

Ölkədə səriştəli təhsilverənlərə, ən yeni texnologiyalara əsaslanan infrastruktura malik, keyfiyyət nəticələrinə görə dünya ölkələri sırasında qabaqcıl mövqe tutan, iqtisadi cəhətdən dayanıqlı təhsil sistemini yaratmaq məqsədilə dövlət başçısı İlham Əliyev "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın təsdiqi barədə sərəncam imzalamışdır. Burada başlıca vəzifə insan kapitalının və təhsilin keyfiyyətinin yüksəldilməsidir. Strategiya ölkədə keyfiyyət nəticələri və əhatəliliyinə görə dünya ölkələri sırasında aparıcı mövqe tutan, səriştəli müəllim və təhsil menecerlərinə, qabaqcıl texnologiyalara əsaslanan infrastruktura malik təhsil sisteminin yaradılması üçün beş strateji istiqamətdə genişmiqyaslı tədbirləri nəzərdə tutur.

Sənəddə həmçinin son illərdə ölkədə təhsilin inkişafı istiqamətində mühüm addımlar atıldığı, təhsilin normativ hüquqi bazasının təkmilləşdirilməsi, maddi-texniki təminatı istiqamətində ölkə prezidentinin sərəncamları əsasında geniş tədbirlər həyata keçirilməsi qeyd edilmişdir. Bununla yanaşı ümumi təhsilin keyfiyyət göstəricilərinin Avropa standartlarına uyğunlaşdırılması üçün təhsili idarəetmə sisteminin yenidən qurulması, bu sahədə insan resurslarının inkişaf etdirilməsi və müəllim peşəsinin nüfuzunun artırılması da vacib məsələlər kimi qeyd olunub.

Son zamanlar bütün sahələrdə həyata keçirilən uğurlu islahatlar nəticəsində Azərbaycan beynəlxalq reytinqlərdə mövqeyini əhəmiyyətli şəkildə yaxşılaşdırmış, dünyanın ən islahatçı ölkələri arasında ön sıralarda yer almışdır. Təhsilin inkişafı üzrə Dövlət Strategiyasının təsdiq edilməsindən ötən dövr ərzində bütün pillə və səviyyələr üzrə təhsilin keyfiyyət göstəriciləri yüksəlmişdir. Ümumi təhsil müəssisələrinin pedaqoji kadrlarla təminatı, müəllim fəaliyyətinin qiymətləndirilməsi və stimullaşdırılması, təhsil müəssisələrinin maddi-texniki bazasının müasirləşdirilməsi sahəsində əhəmiyyətli nailiyyətlər əldə edilmişdir.

Təlim prosesində keyfiyyətin yüksəlməsinə bir sıra amillər təsir göstərir ki bu amilləri təlim prosesində düzgün nəzərə almaq lazımdır. Pedaqoji ədəbiyyatlarda yüzlərlə amil müəyyən edilmişdir. Bu amillərdən 4-ü baş amil hesab olunur: tədris materialı, təşkilati-pedaqoji təsir, şagirdlərin oxumağa qabilliyi, vaxt amilləri. Bu baş amillərin də hər birinə onlarla ümumi amil təsir göstərir.

Ümumiyyətlə amillər təlim prosesinin gedişinə və nəticələrinə təsir edən səbəblərdir. Müəllimlər təlimin sonunda əldə olunacaq nəticələrə hansı səbəblərin təsir etdiyini əvvəlcədən bilməlidirlər. Belə olduğu halda, müəllimlər öz strategiyalarını daha düzgün şəkildə qura, təlim prosesini idarə edə və təhsilalanları müəyyən olunmuş vaxtda, müəyyən olunmuş səviyyəyə çatdıra bilərlər.Təlim prosesinin gedişinə və nəticələrinin səmərəliliyinə eyni zamanda bir çox səbəblər təsir göstərir. Bu səbəblərdən ən əhəmiyyətliləri - amil hesab olunur. Amil təlim prosesində bir neçə səmərəverən səbəblərin birləşməsindən əmələ gəlir. Ümumi amillər birləşərək kompleks amilləri əmələ gətirir. Kompleks amillər isə birləşərək baş amilləri əmələ gətirir. Əsas 4 baş amil müəyyən edilmişdir:

1) Tədris materialı
2) Təşkilati-pedaqoji təsir
3) Şagirdlərin oxumağa qabilliyi
4) Vaxt

Tədris informasiyası iki yerə bolünür: konqnitiv informasiya və idarə edən informasiya. Konqnitiv informasiya bilik verən informasiyadır, idarəedən informasiya isə konqnitiv informasiyanı necə mənimsəmək haqqında siqnallardır. Tədris materialı özünəməxsus yəni, pedaqoji cəhətdən işlənmiş informasiyadır. Birinci baş amil olan "*tədris materialı*" iki kompleks amildən ibarətdir:

1) *Obyektiv informasiya*- buraya tədris materialının məzmunu, kəmiyyəti, keyfiyyəti, forması, strukturu kimi ümumi amillər daxildir.

2) *Pedaqoji cəhətdən işlənmiş informasiya*-buraya tədris materialının öyrənilmə ardıcıllığı,ona ayrılan vaxt və.s. daxildir.

Ikinci baş amil "*təşkilati-pedaqoji təsir"dir*. Buraya da iki kompleks amil daxildir:

1) *Dərslərdə təşkilati-pedaqoji təsir*- buraya tədris metodları, təlimin təşkili formaları, tədris situasiyaları, müəllimin iş qabiliyyəti, şagirdlərin iş qabiliyyəti və s.

2) *Sinifdənxaric və məktəbdənkənar məşğələlərdə təşkilati pedaqoji təsir*- valideynlərin, böyüklərin, dostların şagirdlərə göstərdiyi köməyin həcmi və xarakteri, böyüklərin nəzarəti,

tədris məqsədləri, tədris məqsədləri üçün ikt-dən istifadə, müstəqil əməyin təşkili, yaşayğş yeriinin məktəbdən uzaqlığı, repititorlarla məşğul olmaq,dərnəklərdə iştirak etmək və s.

Üçüncü baş amil "*şagirdlərin oxumağa qabilliyi*"- şagirdlərin oxumağa yararlılığı və müəyyən olunmuş vaxtda layihələşdirilmiş nəticələrə nail olmaq imkanlarıdır. Buraya da ikikompleks amil daxildir:

1) *Dərsdə oxumağa qabillik*- müəyyən tədris materialına yiyələnmə, mənimsəmə qabiliyyəti, diqqətin ümumi xarakteristikası, təlimin motivasiyası, bilik və bacarıqların mənimsəmə tempi, şagirdlərin səhhəti, şagirdlərin yaşı, həyat planları, intizamlılığı, məsuliyyətliliyi, gələcək peşəyə meyili, həyat tərzi və s. kimi səbəblərlə xarakterizə olunur.

2) *Sinifdənxaric vəya məktəbdənkənar fəaliyyətdə oxumağa qabillik*- özünənəzarət, iradə və qətiyyətlilik, məqsədyönümlülük, stimullaşdırma, motivasiya, yaş və fərdi xarakteristika, iş qabiliyyəti, işin rejimi və təşkili və s. kimi səbəblərlə xarakterizə olunur.

Dördüncü baş amil "*vaxt*" amilidir. Onu da iki yerə bölmək olar:

1) *Bilavasitə dərsdə sərf olunan vaxt*- biliklərin ilkin mənimsənilməsinə sərf olunan vaxt,öyrənilən biliklərin möhkəmləndirilməsinə sərf olunan vaxt, nəzarətə, təkrara, çalışmaların yerinə yetirilməsinə, bilik bacarıqların tətbiqinə sərf olunan vaxt, cavab verməyə hazırlaşmağa və cavab verməyə sərf olunan vaxt və s.

2) *Müstəqil oxumağa sərf olunan vaxt* – ev tapşırıqlarının yerinə yetirilməsinə, əlavə ədəbiyyatı oxumağa, fakultativlərə, əlavə məşğələlərə getmək üçün sərf olunan vaxt və s.

Təlim prosesində bu amillər müxtəlif nisbətdə - "təşkilati pedaqoji təsir" amili 32%, şagirdlərin oxumağa qabilliyi amili 28%, tədris materialı amili 24%, vaxt amili 16% təsir göstərir. Təşkilati-pedaqoji təsir amilində səmərə verən səbəblərin sayı daha çox olduğundan təsir faizi nisbətən boyükdür. Təlimin keyfiyyəti də bu dörd baş amilin kompleks təsirindən asılıdır.

Təhsil Nazirliyi də Azərbaycanda ümumi təhsilin keyfiyyətinə birbaşa təsir göstərən əsas amilləri açıqlamışdır. Təhsilin keyfiyyətinə birbaşa təsir göstərən əhəmiyyətli tədbirlər kimi, ümumtəhsil məktəb şagirdlərinə dərsliklərin pulsuz verilməsi, bölgələrdə təlim-tərbiyə şəraitinin yaxşılaşdırılması, növbəliliyin əsaslı şəkildə azaldılmasına xidmət edən yüzlərlə yeni məktəb binasının inşası, maddi və mənəvi cəhətdən köhnəlmiş məktəblərin əsaslı təmiri və onların müasir avadanlıqlarla, o cümlədən informasiya-kommunikasiya texnologiyaları ilə təchizi məsələləri göstərilmişdir.

Bundan əlavə, pedaqoji kadrların seçilib yerləşdirilməsində ciddi qayda dəyişikliklərinin edilməsi, müəllimlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsində sağlam rəqabətin yaranması və onların əməkhaqqının artırılması ilə nəticələnən diaqnostik qiymətləndirmələrin keçirilməsi, dərs ilinin müddətinin uzadılması, istedadlı şagirdlərin olimpiada hərəkatının gücləndirilməsi, dövlət ümumtəhsil məktəblərində uşaqların məktəbəhazırlıq təhsilinin təşkili, tam orta təhsil səviyyəsində təhsilin təmayülləşməsinin tətbiqi bu tədbirlər siyahısındadır.

Təhsil müəssisələrində aparılmış monitorinq və araşdırmalar göstərir ki, son illər nazirlik tərəfindən ümumtəhsil məktəb şagirdlərinin təlim nailiyyətlərinə nəzarətin gücləndirilməsi sayəsində bölgələrdə ümumi təhsil üzrə keyfiyyət göstəricilərində, xüsusilə də buraxılış imtahanları və ali məktəblərə qəbulun nəticələrində əvvəlki illərlə müqayisədə nəzərəçarpan irəliləyişlər var. Bununla belə, etiraf olunmalıdır ki, ümumi təhsilin hazırkı keyfiyyət səviyyəsinin davamlı surətdə yaxşılaşdırılması üzrə təsirli tədbirlərin görülməsi ən zəruri vəzifə kimi meydana çıxır.

Qeyd edək ki, təhsilin nəticələri təkcə öyrənənin təhsilini başa vurduqda yiyələndiyi bilik, bacarıqların səviyyəsi deyil, həm də onun dünyaya,cəmiyyətin inkişafına münasibətlərini göstərən müəyyən şəxsi keyfiyyətləridir. Yəni, öyrənənin şəxsi təhsil keyfiyyətini, onun

müəyyən səviyyədə bilik və bacarıqlar sisteminə malik olmasından başqa, eyni zamanda təbiət, mədəniyyət və sosial həyat elementlərinin mənimsənilmə səviyyəsi kimi də başa düşülür. Ona görə də öyrənənlərin bilik keyfiyyəti tamlıq, şüurluluq, sistemlilik, operativlik, çeviklik, konkretlik, ümumiləşdiricilik, möhkəmlik və digər göstəricilərin təlim prosesində formalaşdırılmasının yekun nəticəsi kimi qəbul edilməli, təlim prosesinin keyfiyyətinə isə təhsilin müəyyən mərhələsindəki tələbata uyğun təmin edən təlimin xassələri, əlamətləri və xarakteristikaları kimi baxılmalıdır. Deməli, təhsildə keyfiyyətə öyrənənlərə verilən bilik, bacarıq və dəyərlərin müvafiq dövlət standartlarına və cəmiyyətin tələbatına hansı səviyyədə uyğunluğunu müəyyənləşdirən və inkişafa xidmət edən başlıca kateqoriya kimi baxmaq lazımdır.

ƏDƏBİYYAT

1. A.O.Mehrabov, Müasir təhsilin konseptual problemləri, Bakı-2010
2. “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”// Kurrikulum, 2013
3. Əmrulla Paşayev, Fərrux Rüstəmov, Pedaqogika, Bakı-“Elm və təhsil”-2010
4. Həsən Bayramov, Dövlətin Təhsil Siyasəti, Bakı-2019
5. Ramiz Məmmədzadə ,Təhsildə keyfiyyət aparici istiqamətlərdən biri kimi,
6. Bakı: Müəllim,2010
7. https://president.az/
8. https://kaspi.az
9. www.aztehsil.com

TƏLİMİN KEYFİYYƏTİNƏ TƏSİR GÖSTƏRƏN AMİLLƏR

Adilzadə Arzu

XÜLASƏ

Təlimin keyfiyyətinə təsir göstərən amilləri təlimin məqsədində, nəticəsində və müvəfəqiyyətində axtarmaq lazımdır. Səmərəli qurulmuş təlim prosesi öz uğurlu nəticəsini təlim məhsulunda göstərir. Şagirdlərin öyrənmə səviyyəsində baş verən müsbət dəyişikliklər təlim prosesinin məhsuldarlığından xəbər verir. Bu məhsuldarliq isə əsas səmərəverən səbəblərdən və amillərdən asılıdır. Bunlara əsaslanmaqla gələcək hadisələrin baş verməsini qabaqcadan görmək və layihələşdirmək mümkündür.

ФАКТОРЫ, ВЛИЯЮЩИЕ НА КАЧЕСТВО ОБРАЗОВАНИЯ

Адилзаде Арзу

АННОТАЦИЯ

Факторы, влияющие на качество обучения, следует искать в целях, результатах и успехе обучения. Эффективный тренировочный процесс демонстрирует свой успешный результат в обучающем продукте. Положительные изменения в уровне обучения студентов говорят о продуктивности учебного процесса. Эта производительность зависит от основных причин и факторов. На основании этого можно предвидеть и прогнозировать будущие события.

FACTORS AFFECTING THE QUALITY OF EDUCATION

Adilzada Arzu

SUMMARY

Factors affecting the quality of training should be sought in the purpose, outcome and success of the training. An effective training process demonstrates its successful outcome in the training product. Positive changes in the level of learning of students indicate the productivity of the learning process. This productivity depends on the main reasons and factors. Based on this, it is possible to anticipate and project future events.

EMOSİYALARIN YARADICI TƏFƏKKÜRƏ TƏSİRİ

İsmayılov Abbas Elman oğlu.
BDU-nun II kurs magistrantı
ismayilovabbas102@gmail.com

Açar sözlər: emosiya, yaradıcılıq, təfəkkür.
Ключевые слова: эмоции, творчество, мышление.
Keywords: emotion, creativity, thinking

Giriş. Tarix boyu bir çox sənətçi və elm adamları, yaradıcılıq səviyyələrinin onları həyatlarının ən bədbəxt anlarında zirvəyə çatdırdığını bildirmişdir.

Dr. Roger Beaty'nin rəhbərlik etdiyi bir araşdırma, daha yüksək yaradıcılıq səviyyəsinə sahib insanların beyninin tez-tez bir-biri ilə sıx əlaqəli olmayan neyronlar arasında daha güclü əlaqələr olduğunu sübut etmişdir.

Bu məsələ ilə bağlı müxtəlif nəzəriyyələrə nəzər salsaq, hisslərini daha çox büruzə edən və ona diqqət göstərən insanların və ya başqa sözlə, duyğulara daha dərin baxış bucağına sahib olanların ilham ruhuna daha açıq olduqları aydındır. Bu, zehni qabiliyyətdən çox yaradıcılığa işarədir.

Digər tədqiqatlar fərdlərin tanımadığı mühitlərdə olduqları zaman yaradıcılığlarını artdığını göstərir. Bunun səbəbi, beynin normal olaraq ətrafdakı obyekt və hadisələrlə əlaqələr quraraq yeni fikirlər yarada bilməsi və daha yaradıcı olmasıdır.

İnsanlar üçün istifadə edildikdə, yaradıcılıq sözü əvvəllər mövcud olmuş, lakin hələ kəşf olunmamış konseptual münasibətləri aşkar etmək deməkdir. Yaradıcılıq konsepsiyası ilə bağlı tədqiqatların tarixi demək olar ki, yüz illəri keçmiş, lakin yaradıcılığın iş həyatına təsirini araşdırmaq səyləri müasir dövrümüz üçün olduqca aktualdır. Müasir təşkilatlarda işçilərin yaradıcılığına dair təşkilati araşdırmalara hər zaman laqeyd yananşılmış və bu əhəmiyyəti aşkar olunmayan bir sahə olmuşdur.

Duyğularla əlaqədar olaraq, pozitiv emosional vəziyyətlərin yaradıcılığı artıra biləcəyi və daha orijinal olmasa da, daha çox fikir yarada biləcəyi məlum məsələdir [3, 33]. Kədər, hirs və məyusluq kimi mənfi hisslər, tapşırıq maraqlı olduqda fərdin daha çox fikir yaratmasına kömək edə bilər. Mənfi əhval-ruhiyyədə olan bir insan probleminə müəyyən bir həll yolu tapa bilər və yaradıcılıq hərəkəti əsnasında neytral və ya pozitiv bir emosional vəziyyətə dönə bilər.

Tarix boyu sənətkarlar və elm adamları qəfil yaradıcılıq anlayışı ilə müşayiət olunan xoşbəxtlikdən bəhs etmişdirlər. Einşteyin ümumi nisbilik nəzəriyyəsini həyata keçirməsini həyatının ən xoşbəxt anı kimi xarakterizə etmişdir.

Yaradıcılığı hansı duyğular artırır? Psixologiyada uzun müddətdir mövcud olan fikir müsbət duyğuların yaradıcılıq üçün əlverişli olmasını vurğulayır, çünki bu proses zehni artırır, mənfi duyğular isə yaradıcılığa ziyan vurur, çünki diqqət mərkəzini daraldır.

Diqqət mərkəzinin yaradıcı düşüncə üzərində əhəmiyyətli təsirləri olduğu doğrudur: geniş bir diqqət dairəsi fikirlərin sərbəst toqquşması ilə əlaqələndirilir, dar diqqət dairəsi isə addım-addım hədəfə çatmaq üçün daha əlverişli hesab edilir [3, 35]. Bununla birlikdə, yeni ortaya çıxan araşdırmalar, pozitiv və mənfi duyğu fərqinin diqqət mərkəzini anlamaq üçün ən əhəmiyyətli təzad ola biləcəyini göstərir.

Son illərdə aparılan tədqiqatlar işçilərin yaradıcılıq bacarıqlarının necə artırılacağı və bunun təşkilatın fəaliyyətinə necə təsir edəcəyi ilə bağlıdır. Bu araşdırmaların bir çoxu yaradıcılığı

artıran və ya mane olan təşkilati faktorları tapmağı hədəfləyir. Bu amillərdən biri liderlərin sahib olduqları emosional zəka konsepsiyasıdır.

Salovey və Mayer (1990) ilk dəfə emosional zəka terminini irəli sürsələr də, buna bənzər bir konsepsiya olan sosial zəka terminini ilk dəfə elmə Thorndike gətirmişdir. Emosional zəka fərdi idarəetmə, müqavimət, özünü motivasiya, başqalarını və daxili dünyasını başa düşmək, münasibətləri yönləndirmək bacarığının qarışığıdır. Başqa sözlə, emosional zəka fərdin və başqalarının duyğularını, hisslərini, düşüncələrini və hərəkətlərini anlamaq, izah etmək, onun üzərində işləmək və idarə etmək qabiliyyətidir.

Emosional zəka üzərində aparılan araşdırmalar, onun etibarlı bir şəkildə ölçülən fərqli zehni qabiliyyət olduğunu göstərdi. İş yerindəki duyğuları idarə etmək bugünkü idarəetmə inkişaflarının mərkəzidir. Bu, işçilərin davranışları və yaratdıqları emosional hallarla əlaqələndirilir. Araşdırmalar göstərir ki, emosional zəka, işlə əlaqəli nəticələrə və insanlararası münasibətlərə təsir edərək iş uğurlarına birbaşa təsir edir.

Emosional yaradıcılıq təbiətcə fərdi bir prosesdir. Yaradıcı qrup fəaliyyətləri asanlaşdırır və sürətləndirir. Hər kəsin müəyyən dərəcədə yaradıcı olduğu və yaradıcılığının inkişaf etdirilə biləcəyi qəbul edilən bir haldır.

Sxem 1.

Emosional yaradıcılıq prosesi.



1. Problem və imkanları müəyyənləşdirmək: nəyin həll ediləcəyini dəqiq müəyyənləşdirmək. Təsadüfi düşüncələr tez-tez faydalı ola bilər, lakin yalnız problemi dəqiq müəyyənləşdirməklə yaradıcı düşüncə inkişaf etdirilə bilər.

2. Məlumat toplamaq: mövzu ilə bağlı perspektiv əldə etmək və mövzunun təfərrüatlarını öyrənmək mərhələsidir.

3. Fikir formalaşdırmaq: Problem müəyyənləşdirildikdən və məlumat toplandıqdan sonra problemin həlli üçün yeni metodların axtarışıdır. Bu tədqiqat bir çox metodun tətbiq olunduğu çətin zehni iş tələb edir.

4. Fikri inkişaf və dəyişiklik: ixtiranın edildiyi və ya həll yolunun tapıldığı mərhələdir.

5. Tətbiq: ixtiranın tətbiq olunmasının müzakirə olunduğu və ixtiranın tətbiq olunduğu mərhələdir.

Emosional yaradıcı təfəkkürdə əsas məsələlərdən biri də emosional zəkadır. Emosional zəka birdən çox komponentdən ibarətdir və bunlar aşağıdakı kimi sıralana bilər:

1. Hissləri qiymətləndirmək və izah etmək: Həm özlərinin, həm də başqalarının duyğularını bilmək, onları qiymətləndirə və izah edə bilmək, yəni empatik olmaq.

2. Duyğuların istifadəsi: Məlumatların elmi şəkildə işlənməsinə imkan verən emosional zəkanın ölçüsüdür.

3. Emsoional bacarıq: Fərdlərin özlərinin və ya başqalarının yaşadıqları duyğuların səbəb və nəticə əlaqələrini bilməsi və bu duyğuların zaman keçdikcə necə dəyişə biləcəyini proqnozlaşdırması ilə əlaqəli ölçü.

4. Emosialaın idarəedilməsi: Emosia biliyinə sahib olan şəxsin bununla kifayətlənməməsi, habelə bu duyğuları idarə edə bilməsi ilə əlaqəli ölçüdür.

Fikirin icra mərhələsində emosional zəkasının əhəmiyyəti: şikət nümunəsi

Yaradıcılığın stimullaşdırılmasının yollarından biri problemin və ya yaradıcı fikirlərin və həll yollarının tapılmasının mümkünlüyünün müəyyənləşdirilməsidir. Bu mərhələ vəzifələri gündəlik və adi iş metodlarına riayət etmək olan işçilər üçün xüsusilə vacibdir [2, 23]. Bu işçilər hər gün eyni iş prosedurlarına əməl etdikləri üçün işlərini ən incə detallarına qədər bilirlər. Ancaq bunları necə daha yaxşı edə biləcəklərini özləri düşünmürlər.

Emosional baxımdan ağıllı liderlər, işçilərinə təşkilatlarında bu mərhələdə lazımlı təşviq təklif edə biləcək yeganə qaynaqdır. Təşkilatda çalışan bəzi rəhbərlər və ya işçilər yeniliyin və fərqli iş yollarının lazımsız olduğunu və hətta bunun özləri üçün bir təhlükə olduğunu düşünə bilərlər. Bu vəziyyətdə təşkilatda qarşıdurmalar və fikir ayrılıqları yarana bilər.

Emosional zəkaya sahib olan liderlər fərqli fikirləri olan insanların duyğularını qabiliyyətləri vasitəsi ilə idarə edərək, daha mülayim və uyğun bir atmosfer yaradaraq yaradıcı mühitin inkişafına töhfə verə bilərlər.

Emosional zəkaya sahib olan liderlər problemin müəyyənləşdirilməsi və ya fürsət müəyyənləşdirilməsinin təməlində dayanan idrak proseslərini asanlaşdırmaq üçün duyğulardan istifadə edə bilərlər. Məsələn, pozitiv əhval-ruhiyyəyə malik olan işçilər daha nikbin, geniş düşüncəli və özlərinə güvənən olurlar.

Digər tərəfdən mənfi əhval-ruhiyyəli işçilər daha bədbin, səhv və səhvləri tapmaq və görməyə daha meyllidirlər. Emosional zəkaya sahib olan liderlər bu əhval-ruhiyyələrin yaradıcılığa təsirləri barədə biliklərə malikdirlər və yaxşı vaxt və tənzimləmə ilə hər iki növ işçini könüllü olaraq yaradıcılıq fəaliyyətlərinə cəlb edə bilərlər. Məsələn, müsbət əhval-ruhiyyəli işçilər geniş perspektiv və pozitiv yanaşmalarından istifadə edərək mövcud, lakin tanınmayan fürsətləri müəyyənləşdirə bilər, digər tərəfdən mənfi əhval-ruhiyyəsi olanların bacarıqlarını istifadə edərək təşkilatı təhdid edən problemləri və təhdidləri müəyyənləşdirə bilərlər.

Fikirləri həyata keçirmək və ya dəyişiklik etmək ümumiyyətlə asan bir proses deyil və hansısa bir qurum yaxud təşkilatdakı digər şəxslərin və bölmələrin iştirakını tələb edir [2, 57].

Çünki yeni bir fikir tətbiq olunduqda köhnə sistemin və mövcud vəziyyətin əngəlləri ilə qarşılaşmaq yolverilən dir.

Həmçinin, yeni bir fikri həyata keçirmək üçün xüsusi bir qaynaq və şöbələrarası dəstək lazımdır. Buna görə də, bu fikirlər qəbul olunmadan və tətbiq edilməzdən əvvəl işçilərin öz fikirlərini təbliğ etmələri mütləqdir. Bundan əlavə, yaradıcı ideyanın həyata keçirilməsi müxtəlif funksional bölmələrdə çalışanların birgə səylərini tələb edir.

Məsələn, hansısa bir şirkətdə fərqli funksional şöbə elementlərinin yaratdığı yaradıcı ideyanın həyata keçirilməsi prosesində fərqli fikirlər ola bilər və bu vəziyyət işçilər arasında narahatlıq və qarşıdurmaya səbəb ola bilər [3, 63]. Emosional zəkaya sahib olan liderlər ardıcıllarının narahatlığını və daxili qarşıdurma ehtimalını dərhal anlaya və bu mənfi atmosferi idarə edə bilərlər.

Beləliklə, işçilər bu məqamda fikirlərinin dəyərli olduğuna inanmağa davam edirlər. Lazımi güzəşt mühiti və ünsiyyət təmin edən emosional zəkaya sahib olan liderlər bu şəkildə fikirlərin həyata keçirilmə mərhələsini uğurlu bir prosesə çevirə bilərlər.

Nəticə. Yaradıcı idarəetmə, iş idarəçiliyi ədəbiyyatda yeni bir anlayış deyil. İnsan hüquqları, insan dəyərləri, şəxsiyyət anlayışı, insanın hər şeydən önəmli bir varlıq kimi ortaya çıxması, ümumilikdə təhsil və həyat səviyyəsindəki artım, insanların gözləntilərindəki dəyişikliklər və insanların yaradıcılığından daha çox istifadə etmək üçün inkişaf və fikirlər, yaradıcı idarəetmə anlayışını bu gün daha müasir bir ölçüdə görməyimizə şərait yaradır.

Bu cür inkişaf idarəetmə proseslərinə və təşkilatların strukturlarına böyük təsir göstərir. Rəqabət inkişaf etdikcə yaradıcı düşüncə də inkişaf etməlidir. Eyni şeyləri daha yaxşı etmək, effektiv olmaq və problemləri həll etmək kifayət deyil.

İş həyatı, əsas rəqabətin baş verdiyi strateji səviyyədə və ön planda yaradıcı düşüncə tələb edir. Digər tərəfdən emosional zəka, işçilərlə empati qurmaq, duyğu və düşüncələrini anlamaq, daha səmərəli işləmələrini və iş yerlərində xoşbəxt olmağı təmin etmək kimi bəzi funksiyaları olan bir fenomen olaraq ortaya çıxır. Bu halda emosional zəka liderlərin yaradıcılığını və beləliklə təşkilat və işçilərin yaradıcılığını inkişaf etdirə biləcək bir model çərçivəsində idarə olunur.

ƏDƏBİYYAT

1. Angela, G. (2017) “Liderlik Sanatı”, Yönetim, Cilt. 44, Sayı. 11, 121 s.
2. Ashkanasy, N.M, Härtel, C.E.J., Daus, C.S. (2012) “Çeşitlilik ve Duygu: Örgütsel Davranış Araştırmasında Yeni Sınırlar”, Yönetim Dergisi, Cilt. 28 (3), 338 s.
3. Baer, M., Oldham, G.R., Cummıngs, A. (2013) “Yaratıcılığı Ödüllendirmek: Gerçekten Ne Zaman Önemli?”, The Leadership Quarterly, Cilt. 14, 586 s.
4. Bracke, M.A., Mayer, J.D., Warner, R.M. (2014) “Duygusal Zeka ve Günlük Davranışla İlişkisi”, Kişilik ve Bireysel Farklılıklar, Cilt.36, 402 s.
5. Day, A.L., Carroll, S.A. (2014) “Bireysel Performansı, Grup Performansını ve Grup Vatandaşlığı Davranışını Tahmin Etmek İçin Yeteneğe Dayalı Duygusal Zeka Ölçüsünü Kullanma”, Kişilik ve Bireysel Farklılıklar, Cilt.36, 444 s.
6. Drake, G. (2013) “Burası Bana Yer Veriyor: Yaratıcı Endüstrilerde Yer ve Yaratıcılık”, Geoforum, Cilt. 34, 511 s.
7. Edwards, R.G. (2011) “Randomness and Creativity”, Trends in Neurosciences, Cilt 24, No. 12, 684 s.
8. Feıst, G.J. (2018) “Bilimsel ve Sanatsal Yaratıcılıkta Kişiliğin Meta Analizi”, Kişilik ve Sosyal Psikoloji İncelemesi, Cilt 4, 309 s.

9. Feıst, G.J., Barron, F.X. (2013) "Erken Yetişkinlikten Geç Yetişkinliğe Yaratıcılığı Tahmin Etmek: Zeka, Potansiyel ve Kişilik", Journal of Research in Personality, Cilt. 37, 277 s.

EMOSİYALARIN YARADICI TƏFƏKKÜRƏ TƏSİRİ

İsmayılov Abbas

XÜLASƏ

Həyatın mürəkkəbliyini anlamaq psixoloji xoşbəxtliyə doğru səmərəli bir xəyali səyahət hesab oluna bilər. Son bir neçə onillikdə, Qərb cəmiyyəti demək olar ki, bütün təzahürlərində əzabdan – mənfi hallardan qaçınmaq üçün bir instinkt inkişaf etdirmişdir. Sürətli istehlaka və ani məmnuniyyətə alışmış bir mədəniyyətdə kədər, hirs, ümidsizlik və məyusluq hisslərinə yer yoxdur.

Lakin ümumilikdə götürdükdə, bütün bu duyğular bizi təfəkkür prosesiylə paralel inkişafa sövq edən mühüm bir məsələ kimi qəbul edilir. Emosiyalar istənilən mövzuda təfəkkür prosesinə yaxşı ya da pis təsir edə bilər. Bu mövzu müasir dövrümüz üçün olduqca aktual mövzu hesab edilir. Bu səbəbdən də mövzunu müasir səviyyədə araşdırmaq tərəfimizdən olduqca vacib hesab edilir.

Tədqiqatın araşdırılması zamanı tədqiqat metodundan istifadə edilməklə türk, ingilis dilində yazılmış ədəbiyyatlardan, habelə internet resurslardan istifadə edilmişdir.

ВЛИЯНИЕ ЭМОЦИЙ НА ТВОРЧЕСКОЕ МЫШЛЕНИЕ

Исмаилов Аббас

АННОТАЦИЯ

Понимание сложностей жизни можно считать эффективным воображаемым путешествием к психологическому счастью. В последние несколько десятилетий в западном обществе развился инстинкт избегать страдания во всех его проявлениях. В культуре, привыкшей к быстрому потреблению и мгновенному удовлетворению, нет места печали, гневу, отчаянию или разочарованию.

Но в целом все эти чувства воспринимаются как важная проблема, которая заставляет нас развиваться параллельно с мыслительным процессом. Эмоции могут положительно или отрицательно влиять на мыслительный процесс любого предмета. Эта тема считается очень актуальной для нашего времени. По этой причине для нас очень важно изучить предмет на современном уровне.

В исследовании использовалась литература на турецком и английском языках, а также ресурсы Интернета.

THE EFFECT OF EMOTIONS ON CREATIVE THINKING

Ismayilov Abbas

SUMMARY

Understanding the complexities of life can be considered an effective imaginary journey towards psychological happiness. In the last few decades, Western society has developed an instinct to avoid suffering in all its manifestations. In a culture accustomed to rapid consumption and instant gratification, there is no room for sadness, anger, despair, or frustration.

But in general, all these feelings are perceived as an important issue that drives us to develop in parallel with the thought process. Emotions can have a positive or negative effect on the thought process in any subject. This topic is considered very relevant for our time. For this reason, it is very important for us to study the subject at a modern level.

Literature written in Turkish and English, as well as Internet resources were used during the research.

ÖZÜNÜ TƏQDİMETMƏNİN KONSEPTUAL MƏSƏLƏLƏRİ

Əbdürahmanlı İlahə Mübariz qızı
BDU-nun II kurs magistrantı
abdurahmanliilaha98@gmail.com

Açar sözlər **:** özünü təqdimetmə, "Mən" konsepsiya, "Mən" obrazı.
Ключевые слова: Самопрезентация, концепция «Я», образ «Я».
Key words: self-presentation, self consept, self image

İnsanlar bir cəmiyyətdə doğulur və bu cəmiyyətin sosial, mədəni və iqtisadi quruluşunun təsiri ilə öz şəxsiyyətlərini formalaşdırırlar. İnsan sosial varlıq olaraq yaşadığı cəmiyyətdən təsirlənir, eyni zamanda özü də cəmiyyətə təsir göstərir. Cəmiyyətin formalaşdırdığı fərd həm də cəmiyyəti formalaşdırır və istiqamətləndirir. Bu qarşılıqlı əlaqə prosesinin ən kiçik və əsas vahidi ünsiyyətdir. İnsanların öz aralarında, bir-birləriylə və digər canlılarla qurduqları hər cür münasibətləri özündə birləşdirən ünsiyyətin bir çox tərifi və formaları mövcuddur. İnsanlar müxtəlif mühitlərdə, müxtəlif situasiyalarda fərqli ünsiyyət formaları nümayiş etdirir. Bir sözlə mühitə uyğun olaraq insan özünü kodlaşdırır. Şəxsiyyətlərarası münasibətlərdə fərd digərini yönləndirməyə və formalaşdırmağa, başqa sözlə, özü haqqında təəssüratlarını təyin etməyə çalışır.

Ünsiyyət insanlar üçün psixoloji ehtiyaclardan biri sayılır. Sosial mühitlə ünsiyyətimiz və qarşılıqlı əlaqəmiz, bu ə ya digər insanların niyyətləri, şəxsiyyət xüsusiyyətləri, qabiliyyətləri və onlar haqqında düşündüklərimizlə birbaşa əlaqəlidir. Eynilə, ətraf mühitin bizi necə qəbul etməsi də bizi düşündürən əsas amillərdən biridir. Çünki başqalarının bizim haqqımızda düşüncələri onların bizə qarşı davranışına təsir edəcəkdir.

Ünsiyyət zamanı insanlar özlərini müxtəlif yollarla təsvir edə bilərlər.[5, s. 20] Fərdlərin özlərini müəyyənləşdirmək üçün seçdikləri meyarlara nəzər salsaq onların adları, soyadları, sosial-iqtisadi quruluşları, davranış nümunələri və ya fiziki və zehni xüsusiyyətlərini misal göstərə bilərik. Bunun nəticəsində fərdin mənlik hissi formalaşır.

Mənlik anlayışı çox özəl bir fenomendir. Çünki insanların özləri haqqında düşüncələri gizlidir və çox vaxt bu düşüncələr olduqca fərdi olur. Bununla yanaşı, öz-özünü dərk etmə anlayışı da sosial fenomendir. Sosial köklərə malikdir , sosial şəxsiyyətləri və rolları əhatə edir və başqalarını qəbul etməyimizə , eləcə də sosial mühitdəki davranışımıza rəhbərlik edir [1, s. 40-41].

Mənlik konsepsiyası və sosiallaşma əlaqələrini ortaya qoyan və güzgü mənlik konsepsiyasını inkişaf etdirən görkəmli amerikan sosioloq Kulidirdir. Kuli "güzgü məni", "əks olunan Mənlər" anlayışı ilə başqa bir insanın bizim haqqımızda düşündüyünün hisslərimizi təyin etdiyini bildirir. Cooley görə, mənlik uşaqlıqda formalaşır və sosiallaşma ilə inkişaf edir. Uşağın mənliyi başqalarının, xüsusən də valideynlərin onun haqqında düşündükləri ilə müəyyən edilir. Özümüz haqqında bir fikirimiz var. Ailəmizin, dostlarımızın və qohumlarımızın bizi necə gördüyü barədə bir fikir formalaşdırırıq və bu fikirlərin onlardan aldığımız reaksiyalarla doğru olub olmadığını yoxlayırıq. O insanların bizi niyə bu şəkildə qəbul etdiyini və özümüzü bu istiqamətdə inkişaf etdirməyimizi başa düşməyə çalışırıq [7, s. 83].

Mənlik konsepsiyasının inkişafında əhəmiyyətli bir ad Corc Herbert Middir. Mid mənliyin psixoloji yönünün iradəsini qəbul edir. Bununla birlikdə, qarşılıqlı təsir prosesində müəyyənedici rola sahib olan mənliyin sosioloji tərəfini vurğulayır. Meadə görə mənliyin sərhədləri və qaydaları cəmiyyət tərəfindən təyin olunmalıdır [1, s. 41].

Mənlik anlayışına əhəmiyyətli töhfələr verən bir başqa ad da Evrinq Qofmandır. Özünü-təqdimetmə, insanların başqalarının şüurunda öz təsirlərini yaratmağa, qorumağa və ya tənzimləməyə meyilli olan hər hansı bir davranışdır. Özünü-təqdimetmə insanların sosial qarşılıqlı təsirinə kömək etmək, sosial mükafatlar və materiallar almaq və istədiyiniz şəxsiyyəti yaratmağa kömək etmək kimi funksiyalara malikdir [18]. Fərdlər özlərini təqdim edərək ətraflarına bəzi mesajlar verməyə çalışırlar. İnsanlar başqaları ilə qarşılaşdıqda, özlərini vermək istədikləri mesaja görə təqdim edirlər.

İnsanların sosial bir varlıq olduğu üçün digər insanlarla ünsiyyət qurması lazımdır. Yeni insanlarla tanış olarkən, dostları, ailəsi və iş yerlərindəki insanlar ilə ünsiyyət qurarkən özünü tanıtmaq üçün özü haqqında məlumatlar verir verir. Bununla yanaşı qarşılıqlı ünsiyyətdə olduğu insanlar üzərində istənilən təsiri əldə etmək üçün müxtəlif səylər göstərirlər. Öz xüsusiyyətlərini olduğu kimi göstərmək əvəzinə, öz istəklərinə görə təqdim edirlər. Müəyyən xüsusiyyətlərə görə formalaşmış bir mənlik əldə edərək sosial mühitin öz mənliyi haqqında düşüncələrini idarə etməyi hədəfləyirlər.[4, s.38]

İnsanların özünü təqdim etmək üçün istifadə edə biləcəyi metodlar ilk dəfə 1996-cı ildə Mark Liri tərəfindən nəzəri olaraq irəli sürülmüşdür [14, s. 4]. Özünü-təqdimetmə metodları insana idarəolunan bir təqdimetmə imkanı verir və bu mənada şəxs sosial cəhətdən qəbul olunma və ya ətrafdakı digər şəxslərin təəssüratları ilə uyğun davranışlarını dəyişə, istiqamətləndirə və idarə edə bilər. Buna görə Mark Liri Özünü-təqdimetmə metodlarını dörd başlıq altında araşdırdı: "özünü müəyyənləşdirmə", "münasibət və davranışlar çərçivəsində özünü-təqdimetmə", "şifahi olmayan ünsiyyət metodları və özünü-təqdimetmə" və "sosial münasibətlərə əsaslanan özünü-təqdimetmə" [12, s. 3].

Özünü təqdimetmə metodlarının birincisi "özünü müəyyənləşdirmə"dir. Liri insanların özünü-təqdimetmələrini dil elementlərindən istifadə edərək şifahi və ya yazılı şəkildə etdiklərini bildirdi. Bu kontekstdə özünü-təqdimetmə fərdi xüsusiyyətləri, qorxuları, vərdişləri kimi dil, dini və ya mədəni elementləri əhatə edir [13, s. 131-132]. Bu baxımdan deyə bilərik ki insan gündəlik həyatındakı ictimai münasibətlərinə uyğun olaraq özünə qarşı müsbət bir qavrayış yaratmaq üçün özünü müxtəlif üsullarla təqdim edir.

Özünü-təqdimetmə metodlarının ikincisi münasibət və davranışlar çərçivəsində özünü-təqdimetmədir. Fərdin "kim" olduğu sualının cavabı onun münasibəti və davranışı ilə müəyyən edilə bilər. Başqa sözlə, fərd davranışları ilə mənliyi haqqında bəzi işarələr verir [13, s.141]. Ətraf mühitə təqdim etdiyi münasibət və davranışlar, şəxsin öz mənliyi kontekstində yaratdığı imicə təsir göstərir. Bu çərçivədə fərdin digər fərdlərdə yaratdığı və ya yaratmaq istədiyi təəssüratlar, fərdin özünü necə apardığı, necə danışdığı, necə bir şəxsiyyət sərgilədiyi və s. Bu elementlər tərəfindən müəyyən edilir.

Liri tərəfindən müəyyənləşdirilən üçüncü özünü təqdimetmə metodu olan "şifahi olmayan ünsiyyət metodları və özünü-təqdimetmə"yə uyğun olaraq, fərdin davranışlarının ön plana çıxdığını söyləmək olar. Bu baxımdan şifahi olmayan ünsiyyət metodları və özünü-təqdimetmə üç mərhələdə - emosional, fiziki və vizual ifadələr kimi araşdırılır. Nəzəriyyəçi, insanın dil, din, mədəniyyət və s. dəyərlərinə uyğun olaraq bəzi şifahi olmayan ünsiyyət metodlarından istifadə etdiyini vurğulayır [12, s.193]. Bununla mimikaların, jestlərin, münasibətlərin, geyimlərin və aksessuarların fərdin özünü təqdimetmə prosesində mühüm rol oynadığı ifadə söyləmək mümkündür.

Dördüncü özünü təqdimetmə üsulu olan sosial münasibətlərə əsaslanan özünü-təqdimetmə, fərdin öz xüsusiyyətləri əvəzinə "olmaq istədiyi" şəxsin imicini göstərməsi kimi ifadə edilə bilər. Buna görə qiymətləndirilmək, diqqət çəkmək, bəyənilmək və s. ilə cəmiyyət tərəfindən

qəbulolunma motivasiyalarına əsaslanan özünü-təqdimetmə, bir müddət sonra insanın qurduğu "Mən"liyə sahib olduğuna inanmağa başladığı vəziyyətlə davam edir [16, s. 12-13].

Digər tərəfdən Liri və Kovalski özünü-təqdimetməni fərdlərin "İdeal Mən"lərinə çatmaq və sosial münasibətlərində ona müvəffəq olmaq üçün davamlı olaraq həyata keçirdiyi bir proses kimi ifadə edirlər. Liri və Kovalski tərəfindən irəli sürülmüş özünü-təqdimetmə modelində iki mərhələ var. Bu mərhələlərdən birincisi fərdin istədiyi təsiri yaratması üçün özünü motivasiya etməsidir. Digəri isə fərdlərdə istənilən təsiri buraxmasıdır. Özünü-təqdimetməsini istədiyi istiqamətdə planlaşdırmağa çalışan şəxs əvvəlcə motivasiya olur və sonra başqalarına təsir göstərməyə çalışır. Fərdin motivasiyasının səbəbi başqalarının ağlında istədiyi təsiri buraxmaqdır. Motivasiya qazandıqdan sonra fərd özünü təqdimetmək üçün davranışlarını formalaşdırmağa başlayır. Liri və Kovalskiyə görə özünü təqdimetmənin əsas məqsədi davranışlarını qarşılıqlı əlaqədə olduqları şəxslərin gözləntiləri istiqamətində dəyişdirməkdir. [14]

Arkonaç, özünü qavrayış nəzəriyyəsinə görə daxili işarələrin ümumiyyətlə zəif, birmənalı və izah edilə bilməyəcəyini vurğuladığından, insanlardan öz münasibətlərini bildirmələri istənildikdə, münasibətlərini keçmiş davranışlarından, bunları kənardan müşahidə edənlər kimi müvafiq nümunələr gətirərək izah etdiklərini vurğulayır [3, s. 221].

Fridmen və başqaları, insanların öz daxili vəziyyətlərini başqalarının daxili vəziyyətini qəbul etdikləri kimi qəbul etdiklərini və öz həyəcanımızın, münasibətimizin, xüsusiyyətlərimizin və qabiliyyətlərimizin çox vaxt bizim üçün bulanıq və qeyri-kafi olduğunu iddia edirlər, bu səbəbdən onları xarici işarələrdən kənarlaşdırmalıyıq [9, s146].

Ned Conz və Seyn Pitmen (1984) tərəfindən irəli sürülən Strateji Özün Təqdimetmə Yanaşmasına əsasən, insanların bir-birlərini başa düşməsi üçün özünü-təqdimetmə əhəmiyyətli rol oynayır [4, s.38]. Burada insanlar bütün cəhdlərini özlərini sevdirmək məqsədi ilə edirlər. Özünü təqdimetmə formaları strateji olaraq özünə sevgi prinsipinə uyğun olaraq yaradılır. Strateji Özünü Təqdimetmə Yanaşmasında beş əsas maddə ön plana çıxır. Bunlar:

1) Özünü tanıtmaq - digər şəxslərə yetərli olduğuna inandırmağa çalışılır. İnsan davamlı olaraq özünü təqdim edərkən qazandığı uğurlar, tədqiqatlar və səriştələr haqqında danışır.

2) Özünü Sevdirmək - insanlar digər insanları onları sevməsi üçün məcbur etməyə çalışırlar. Ümumiyyətlə özünü sevdirmə yanaşması insanlara səmimi olmaqla əldə edilir. Ünsiyyətdə olunan şəxslərə gülərüzlü və nəzakətli davranılır və beləliklə də başqalarının o insanı sevməsi təmin olunur.

3) Qorxutmaq - təhlükəli bir insan olduğunuzu göstərməkdir. Bu yanaşmada gücə sahib olduğunu göstərən davranışlar göstərilir və bununla da istənilən hərəkətlər həyata keçirilir.

4) Nümunə - digər şəxslərə hörmətli və fədakar bir insan olduğunu göstərməyə çalışmaqdır. Şəxslər ictimai münasibətlərdə və məsuliyyət tələb olunan sahələrdə onlara verilən tapşırıqların daha çoxunu edərək fədakar bir insan kimi görünməyə çalışırlar.

5) Yalvarmaq - sosial mühitə ehtiyaclı və köməksiz olduğunu göstərməyə çalışılır. Fərd davamlı olaraq çatışmazlıqları barədə danışır və ətrafdakı digər insanlardan kömək istəyir [4, s38-39].

Qofman özünü təqdimetməni dramaturgiya (teatr) yanaşması ilə izah etdi. "Evrinq Qofman dramaturgiya yanaşmasında gündəlik həyatı teatr səhnəsi ilə, insanları bu səhnədə çıxış edən aktyorlarla müqayisə edir. O, teatr səhnəsində çıxış edən aktyorların rollarını oynadığı kimi, insanların da gündəlik həyatda mənliklərini öz rolları ilə nümayiş etdiklərini müdafiə edir. Fərdlərin sosiallaşması üçün bu rollar öyrənilməlidir. Dramaturgiya yanaşmasına görə, sosiallaşma, insanların öz mənliklərini paylaşdıqları dünya ilə digər insanlara necə təqdim etməyi öyrəndikləri arasında qarşılıqlı bir əlaqə prosesi olaraq görülür" [1, s40-41]. Qofmana

görə səhnələşdirilən mən səhnədə müəyyən bir obrazı canlandıran başqalarına verməyə çalışdığı bir obraz kimi qəbul edilir.

Bu yanaşmaya görə, sosiallaşma insanların maskalanmağını və gündəlik həyatın müxtəlif mərhələlərində fərqli rollar oynamağı əhatə edir. Qofmana görə, fərdlər aktyorlar kimi alqış almaq üçün ətrafdakılarda yaxşı təəssüratlar yaratmaq istəyirlər. Bu səbəbdən müxtəlif rollar oynayır və aldığı rəylə istədikləri mənliyi yaratmaq istəyirlər. Bu şəkildə fərdlər ətrafdakılarına vermək istədikləri təəssüratın təsiri ilə özünəməxsusluq hissi yaradırlar.

Qofman, insanları maskalarını dəyişdirə bilən fərdlər, lakin onları heç vaxt tərk etməyən aktyorlar kimi göstərir. Ona görə fərdlərin gündəlik həyatlarında istifadə etdikləri maskalar onların həqiqi və ya bilinən şəxsiyyətlərini təşkil edir və şəxsiyyətin "həqiqi" kimliyi daha çox gizli saxlanılır. "Qofmana istinad edərək, insanın bu maskaları xüsusilə özündə yaxşı bir təəssürat yaratmaq üçün taxdığını söyləmək olar" [7, s115-116].

Özünü təqdimetmə tez-tez fərqli maskalar altında həyata keçirilsə də, bəzi hallarda maskasız da ola bilər. Qarşı tərəfə görə hərəkət etmək və onların gözləntiləri nəticəsində hərəkət etmək insanların başqaları tərəfindən sevilməsinə səbəb olur. Bu yol seçilməzsə, mənlik olduğu kimi əks olunur, lakin yenə də qarşı şəxslərə tam təslim olmur. Başqalarından gizlədilən faktlar ola bilər. Bu cür hallarda belə özünü təqdimetmə fərd tərəfindən nəzarət olunur. Hər iki özünü təqdimetmə seçimində nəzarətli olmaq, özünü təqdimetmə formalarının daha çox bilik nəzarəti ilə formalaşdığını göstərir [2, s3].

Qofman fərdlərin tək bir şəxsiyyətə sahib olduğunu qəbul etmir, əksinə fərdlərin bir çox şəxsiyyətə sahib olduğunu söyləyir. Qofmanın vurğuladığı bu düşüncənin əsasını, çoxlu Mənlik metaforasını ilk dəfə Uilliyam Ceyms (1890) "Psixologiyanın əsasları" kitabında insan davranışını təsvir etmək üçün istifadə etmişdir. James insanların tək bir düşüncəyə sahib olmadığını, müxtəlif mühitlərdə dəyişən çoxlu mənliyə sahib olduqlarını müdafiə etdi. Bununla yanaşı müəllif fərdin müxtəlif qruplarla əlaqədar olaraq birdən çox sosial mənliyinə sahib olduğunu da qeyd etdi. Jamesə görə, fərdlərin fərqli auditoriya tərəfindən qəbul edilməsi üçün strateji olaraq göstərdikləri "çoxsaylı sosial mənliklər"var"[7, s115].

İnsan münasibətləri haqqında necə olmağı soruşduqda, böyük əksəriyyət "ya olduğunuz kimi görün ya da göründüyünüz kimi olun" fəlsəfəsini təqdim edəcəkdir. Ancaq bir çox insan "körpüdən keçənə qədər ayıya əmi" və ya "şirin dil ilanı yuvasından çıxaracaq" kimi yanaşmaları prinsip olaraq qəbul etmişdir [2, s3]. "Özünü təqdimetmə bəzən özünü "kimi" göstərməkdən kənara çıxır və insan haqqında yalan danışmağı və ya səhv məlumatları əks etdirməyi də özündə ehtiva edir" [2, s3].

Son aparılan tədqiqatlara görə internet istifadəsi gündən-günə artmaqdadır [17]. İnsanlar sosial şəbəkələrin artan istifadəsi ilə həm yeni, həm də ənənəvi ünsiyyətləri gündəlik həyatlarına inteqrasiya etdilər. Gənclərin sosial şəbəkələrin istifadəsindən daha çox virtual mühitə üstünlük vermələrinin əsas səbəbinin yaşıdları ilə ünsiyyət qurmağı hədəfləmələridir. Gənclərin qurduğu ünsiyyətin məzmunu daha çox şəxsiyyət və özünü təqdimetmə ilə əlaqədardır.

Yeni ünsiyyət mühitlərində özünü-təqdimetmədən danışarkən insanların həm üz-üzə ünsiyyətdə, həm də virtual mühitdə ünsiyyətdə özünü nə qədər sosial cəhətdən ifadə etmələrindən bəhs olunur. Ümumiyyətlə özünü-təqdimetmə taktikaları şəxsi məlumatları ifadə etməyə və virtual şəxsiyyətlər yaratmağa kömək edən bir sıra strategiyalardır. Virtual şəxsiyyət-həqiqi şəxsiyyət ilə eyni olmasına baxmayaraq, hər hansı formada gizlədilən, real həyatda özünü təqdimetmə zamanı mümkün olmayan və ya mümkün ola bilməyən mənliklərini göstərməklə və ya yalnız müəyyən bir hissəsindən istifadə etməklə baş verə bilər [11, s385-404]. Bəzi araşdırmalarda insanların özlərini necə təqdim etdiklərini və hansı məlumatları paylaşdıqlarını anlamaq üçün sosial şəbəkələrdəki istifadəçilərin profillərinin məzmun təhlilləri aparılmışdır.

Paylaşılan məlumatların miqdarı və təqdim olunan profil məlumatlarının dəqiqliyi insandan insana dəyişsə də, istifadəçilər profillər yaradaraq məlumatlarını paylaşarkən öz şəxsiyyətlərini də formalaşdırırlar. Aparılan tədqiqatlarda sosial şəbəkələrin gənclərin şəxsiyyətlərini formalaşdırmasında çox vacib olduğu, bununla yanaşı ictimai və virtual mühitlərdə özlərini-təqdimetmədə təsirli olduqları başa düşülür [10].

ƏDƏBİYYAT

1. Akın, M.H. (2011). Toplumsallaşma Sözlüğü, 1. Baskı, Konya: Çizgi Kitabevi.
2. Araz, A. "Çeşitli Değişkenler Açısından Benlik Sunumu", Ege Üniversitesi Sosyal Bilimler Enstitüsü Psikoloji Anabilim Dalı, İzmir. 1998.
3. Arkonaç, S. A. (1998),Sosyal psikoloji. İstanbul: Aktüel kitapevleri, Alfa
4. Albayrak, K. " Dijital ortamda benlik sunumlari üzerine niteliksel bir araştırma" İstanbul Üniversitesi Sosyal Bilimler Enstitüsü Halkla İlişkiler Ve Tanitim Anabilim Dalı. 2019.
5. Bacanlı, H. (2004). Sosyal İlişkilerde Benlik (Kendini Ayarlama Psikolojisi). (2. Baskı). İst.:M.E.B. Yayınları.
6. Karaoğlu B. "Gündelik hayatta benlik sunumunun sosyal paylaşim ağı facebook üzerinden incelenmesi" Ankara Üniversitesi Sosyal Bilimler Enstitüsü Radyo Televizyon ve Sinema Anabilim Dalı, Ankara. 2015.
7. Özdemir, Z. (2015). "Sosyal Medyada Kimlik İnşasında Yeni Akım: Özçekim Kullanımı", Maltepe Üniversitesi İletişim Fakültesi Dergisi, 2(1)
8. Yılmaz, A.H.(2016). "Bir Derleme: Benlik Kavramına İlişkin Bazı Yaklaşımlar Ve Tanımlar", Sosyal Bilimler Dergisi, 48.
9. Freedman J.L., Sears D.O., Carlsmith J.M. (2003),Sosyal psikoloji, Çev: Dönmez, A. 4.Baskı, Ankara: İmge Kitapevi.
10. Hogan, R., & Briggs, S. R. A socioanalytic interpretation of the public and the private selves. In R. F. Baumeister (Ed.), Public self and private life. New York: Springer-Verlag 1986.
11. JensenSchau, H.,&Gilly, M.C. (2003). WeAreWhatWe Post?: Self-Presentation in Personal Web Space. Journal Of Consumer Research.
12. Mark Leary; Batts Ashley Allen, "Personality and Persona: Personality Processes in Self-Presentation", Duke University: Journal of Personality 79:6, 2011)
13. Mark Leary, The Interplay of Private Self-Process and Interpersonal Factors In Self Presentation; Psychological Perspective On The Self; The Self In Social Perspective, (Psychological Press: New York, 2014)
14. Mark Leary,R. Kowalsky, Robin M. Impression Management: A Literature Review And Two-Component Model", Psychological Bulletin, 107(1), 1990.
15. Schütz, Alfred: ''Assertive, Offensive, Protective and Defensive Styles of Self-Presentation: A Taxanomy '',The Journal of Psychology, 6, 1998
16. Sasan Zarghooni, "A Study of Self-Presentation in Light of Facebook", Institute of Psychology, University of Oslo, 2007.
17. ResearchInOrganizational
18. www.washington.edu.tr, 2017

ÖZÜNÜ TƏQDİMETMƏNİN KONSEPTUAL MƏSƏLƏLƏRİ

Əbdürahmanlı İlahə

XÜLASƏ

Məqalədə təhlil olunan əsas ideya insanların gündəlik həyatda özlərini olduqlarından fərqli formada təqdim etməsi və bunun əsas səbəblərinin araşdırılmasıdır. Tədqiqatların nəticəsində aydın olur ki, insanlar öz davranış və münasibətlərini başqalarının fikir və düşüncələrinə uyğun idarə edirlər. Bu baxımdan fərdlər gündəlik həyatlarında və bugünkü internetə əsaslanan rəqəmsal dünyada göstərdikləri "Mən"liyi " İdeal Mən" istiqamətində dəyişdirmək və idarə etmək gücünə sahibdirlər. Bu davranış forması insanlar arasında sosial əlaqələri asanlaşdırır və insanların öz şüurunda formalaşdırdığı, özlərinə xoş olan şəxsiyyətləri yaratmağa imkan yaradır.

КОНЦЕПТУАЛЬНЫЕ ВОПРОСЫ САМОПРЕЗЕНТАЦИИ

Абдурахманлы Илаха

АННОТАЦИЯ

Основная идея статье, заключается анализируемая в том, что люди по-другому представляют себя в повседневной жизни и исследуют основные причины этого. Исследования показывают, что люди управляют своим поведением и отношением в соответствии с мыслями и идеями других. С этой точки зрения люди имеют право изменять и управлять «Я», которое они проявляют в своей повседневной жизни и в современном цифровом мире, основанном в интернете, в направлении «Идеального Я». Эта форма поведения облегчает социальное взаимодействие между людьми и позволяет людям создавать личности, которые они сформировали в своем сознании и которые им нравятся.

CONCEPTUAL ISSUES OF SELF-PRESENTATION

Abdurahmanli Ilaha

SUMMARY

The main idea analyzed in the article is that people present themselves in everyday life in a different way than they are and the main reasons for this are investigated. Researchs show that people manage their behavior and attitudes according to the thoughts and ideas of others. From this point of view, people have the power to change and manage the "Self" in the direction of the "İdeal Self" they show in their daily lives and in today's digital world based on the Internet . This form of behavior makes easier social interactions between people and allows people to create personalities that they have formed in their minds and that are pleasing to them.

SONSUZLUQ MÜALİCƏSİ ALAN QADINLARDA TƏŞVİŞ VƏ DEPRESSİYA SƏVİYYƏSİ VƏ BUNLARA TƏSİR EDƏN FAKTORLAR

Əlimədətova Şələlə
BDU-nun II kurs magistrantı
shelale.natiqqizi.96@mail.ru

Açar sözlər: sonsuzluq, fertillik, ginekoloji pozuntu, stress, təşviş, depressiya, köməkçi reproduktiv texnikalar.
Ключевые слова: бесплодие, фертильность, гинекологические расстройства, стресс, беспокойство, депрессия, вспомогательные репродуктивные техноло -гии.
Keywords: infertility, fertility, gynecological disorders, stress, anxiety, depression, assisted reproductive techniques

Ən vacib və əsas insan instinktlərindən biri nəsli çoxaltmaq və davam etdirmək instinktidir. Bu instinktin ödənilməməsi streslə nəticələnir. Bu stresin mənbəyi yalnız övlad sahibi olmaq istəyi deyil, eyni zamanda fertillik, cinsi şəxsiyyət nüvəsinin fərd tərəfindən özünü qavrayış və bədən görünüşünün mərkəzində yerləşdirilməsi ilə əlaqədardır. Sonsuzluq, cütlük üçün ümumiyyətlə psixoloji cəhətdən təhlükəli, emosional baxımdan stressli, iqtisadi baxımdan bahalı, diaqnostik və terapevtik prosedurlar səbəbindən fiziki cəhətdən ağrılı olan qarışıq böhran vəziyyətidir. Son -suzluğun stress yaradan təsiri, sosial və mədəni təzyiqlərdən qaynaqlandığı kimi görünsə də, əsas səbəb sonsuz cütlərin övlad sahibi olmağa verdiyi mənadır [1, s.17].

Fərdlərin sonsuzluğa reaksiyaları fərdi fərqlər göstərsə də bənzər tərəflərinin olduğu bildirilir. Qadının ginekoloji pozuntular səbəbindən ana ola bilməməsinin psixoloji mənası, doğum edə bilməməsi (funksional pozğunluq), idarəni itirməsi (bədənin istəklərinə uyğun gəlməməsi), psixoloji çatışmazlıq (analıq motivini təmin edə bilməmək), qadın cəmiyyətinin xaricində hiss etmək, özünü düzgün qiymətləndirməmək, tək olmaq (emosional olaraq övlad dəstəyinin olmaması), sosial təminatın olmaması (qocalıqda ona baxacaq kimsənın olmaması), sosial rolun olmaması (ana, hamilə qadın, doğuş, qayınana) və özünə hörmətin azalması.

Sonsuzluq xəstələrində xərçəng xəstəliyinin son mərhələsində olan xəstələrin yaxınlarında müşahidə olunan matəm hissinə bənzər hisslər yaşanır. Ancaq sonsuzluqda həyati təhlükəli ölümcül bir vəziyyət yoxdur. Həyat keyfiyyəti və evlilik uyğunlaşması təhlükə altındadır, həmçinin sonsuzluq insanları bir araya gətirmir və ölümcül bir xəstəlikdə olduğu kimi bir-birinə yaxınlaşdırmır, əksinə cütlərin bir-birindən və ətraflarından uzaqlaşmalarına səbəb olur. Bir çox tədqiqatlarda fertil əhali ilə müqayisədə sonsuz cütlüklərin stress, təşviş və depressiya üçün daha yüksək nəticələrə sahib olduğu müəyyən edilmişdir. Qəzəb, əsəbilik, özünə hörmətin azalması, insanlararası münasibətlərdə çətinlik, həyat məmnuniyyətinin azalması, təşviş və depressiya sonsuzluqla əlaqəli tez-tez ifadə edilən psixoloji pozuntu göstəriciləridir.

Sonsuzluq həyati təhlükəsi olan bir sağlamlıq problemi olmasa da, cütlüklərin

psixi sağlamlığına və həyat keyfiyyətinə mənfi təsirləri ilə sağlam həyatı təhdid edir və bəzi müəlliflər tərəfindən həyat böhranı olaraq qiymətləndirilir. Qadının yaşı sonsuzluq üçün təhlükəli bir amildir. Otuz beş yaşından sonra ilk övladını dünyaya gətirən qadınların sayı getdikcə artır. Qadınların təhsil səviyyəsinin artması, məşğulluq imkanlarının, həmçinin vəzifələrinin artması evlilik yaşını və doğum yaşını gecikdirir. Amerikada hər beş qadından birinin 35 yaşından sonra ilk körpəsini dünyaya gətirdiyi bildirilir. Sonsuzluq problemi olan cütlüklərin çoxluğu və ortaya çıxardıqları problemlər, sonsuzluq diaqnozu və müalicəsində sürətli inkişafa və bütün texnoloji imkanların yenilənməsinə səbəb oldu [2, s.172].

Qadınların hər ay yaşadıqları menstruasiya dövrü, başa çıxmalı olduqları emosional və olduqca çətin itki dövrüdür. Çünki qadının menstruasiyası hələ hamilə qala bilmədiyinin ən vacib göstəricisidir. Hər ay müntəzəm olaraq hamiləliyə hazırlaşan və sonra menstruasiya ilə sona çatan bu dövr qadına çatışmazlığını xatırladır və hər ay bir itki yaşanır. Bu vəziyyət qadınlarda uğursuzluq hissinə əlavə olaraq (bu ayın da boşa keçməsi), hamiləlikdə baş verən bədən dəyişikliyini və süd verməni yaşaya bilməmək kimi itkilərə səbəb ola bilər. Sonsuzluq səbəbindən qadınların qarşılaşdıqları itkilər görünməyən itkilər olaraq təyin edilir və aşağıdakı kimi sıralanır; xəyalların itirilməsi, genetik davamlılığın itirilməsi, özünü məhsuldar insan kimi qəbuletmənin itirilməsi, uğurlu hamiləlik və uşaq dünyaya gətirmə təcrübəsinin itirilməsi, ana südü ilə qidalandırma təcrübəsinin itirilməsi, münasibətlərin itirilməsi, ailədə həyat dövrünün digər mərhələsinə keçmək və potensial nənə olmaq ümidinin itirilməsi. Sonsuzluq bir qadın üçün analığın qarşısının alınması kimi qəbul edilə bilər. Sonsuzluq həm də, uşaq itkisi, idarəni itirmə, qadınlığı itirmə, bədən sağlamlığı və funksiyasını itirmə, statusu itirmə, özünə inamı itirmə kimi öz-özünə baxışındakı dəyişikliklər olaraq qəbul edilə bilər [3, s.81].

Sonsuzluq müalicələri fiziki, psixoloji və maddi yükləri olan bir müalicədir. Qadınlar bu müddətdə kişilərdən daha çox günahkarlıq, stress və məsuliyyət hiss etdikləri üçün özlərini "qurban" kimi qəbul edə bilərlər. Bu hissin altında yatan səbəbin sonsuzluğun səbəbi özü olmasa da, müalicədə qadın bədəninin istifadəsi olduğu düşünülür. Bundan əlavə, müalicələrin hər bir addımının qadınlar üçün nə demək olduğunu daha yaxşı başa düşmək üçün aparılan işlərə baxmaq lazımdır. Müalicə alan 300 cütlüklə aparılan bir araşdırmaya görə müalicənin hər addımında ayrı psixoloji məna və fiziki çətinliklər olduğu görülmüşdür. Qadının yumurtalarının bəzi dərmanlarla stimullaşdırılması ilə başlayan müddətdə qadınlarda kökəlmə, baş ağrısı, yorğunluq və duyğu həssaslığının inkişafı kimi dəyişikliklər baş verə bilər. Yumurtaların inkişafının günbəgün izlənməsi qadının həm məsuliyyət hiss etməsinə səbəb olur, həm də qadını emosional olaraq həssaslaşdıra bilər.

Yumurta toplanması ultrasəs müşayiəti ilə sadə bir prosedurla aparılsa da, məruz qalan qadınlarda açıq və orta dərəcədə ağrı səbəbi ilə qorxu və narahatlıq yarada bilər. Embrion köçürül -məsindən hamiləliyin baş verməsinə qədər olan dövr Suni mayalanma müalicəsinin ən stresli mərhələsi olaraq qiymətləndirilir. Qadınlar bu gözləmə dövründə təşviş, xoşbəxtlik kimi qarışıq duyğular yaşadıqlarını ifadə ediblər. Bütün bu proseslərdən keçib müalicəsi uğursuz nəticələnən qadınların çatışmazlıq, boşluq, günahkarlıq, kədər, uğursuzluq kimi duyğular hiss etdikləri və ağır matəm reaksiyası göstərdikləri təsbit edilmişdir.

Sonsuzluq müalicələrinin başqa bir təsiri, cütlərin müalicələri ən xüsusi bölgələrinə, cinsi həyatlarına bir hücum olaraq qəbul etməsidir. Sonsuzluq müalicələri bəzi cütlərdə cinsəlliyin təbiətini pozan və tövsiyə olunan vaxtlarda bir müalicə formasına və ya zərurətə çevrilə bilən bir vəziyyət yaratsa da, cinsi əlaqə, müalicənin gözlənilmədiyi hallarda lazımsız və məqsədsiz bir hərəkətə çevrilə bilər. Bu cütlüklər üçün müvəffəqiyyət və uğursuzluq cinsi əlaqədən zövq almaqdan çox, hamiləliyin baş verə bilməsi ilə ölçülür. Nəticə olaraq, spontan cinsi əlaqənin təbiiliyi ilə oynamaq frigidlik, cinsi potensiya zəifliyi və anorqazm kimi cinsi problemlərə səbəb olur [3, s.82].

Sonsuz cütlüklər böyük bir təzyiq altındadırlar və problem çox özəl olduğundan problemi gizlətməlidirlər. Reproduktiv sağlamlıqla bağlı problemlərini ailə və qohumları ilə paylaşmamaq, sonsuz insanları dəstəksiz qoyur. Bu vəziyyət problemli bir zamanda sonsuz insanları dəstək mənbələrindən məhrum edərək sosial tənhalığın yaranmasına səbəb ola bilər. Cütlər sonsuzluq təcrübələrini həyatlarının ən stresli təcrübəsi olaraq qiymətləndirirlər [2, s.163-164].

Tədqiqatlarda: Sonsuzluğun özünə inamın itməsinə, sağlamlıq vəziyyətinin pisləşməsinə, ümidin azalmasına və digər insanlarla münasibətlərin pisləşməsinə səbəb olduğu, depressiya,

təşviş, günahkarlıq və qəzəbin qadınlarda daha yüksək olduğu bildirilmişdir. Sonsuzluq cütlüklərə müxtəlif səviyyələrdə təsir göstərə bilər. Stevart və Robinson tərəfindən aparılan araşdırmada, kişilərin 15%-i və qadınların 50%-i sonsuzluğu həyatlarının ən kədərli hadisəsi olaraq qeyd etmişlər. Kollinin və Freemanın araşdırmasında: sonsuzluğun qadınlarda kişilərlə müqayisədə daha çox psixi reaksiyalara səbəb olduğu və qadınların sonsuzluqdan danışmağa başlaya bilmələrinin kişilərə nisbətən daha uzun olduğu müəyyən edilmişdir. Golombok araşdırmalarından birində günahkarlığın, qəzəbin, təcridetmə və cəza hissinin qadınlarda kişilərə nisbətən daha yüksək olduğunu müəyyən etdi [2, s.164].

Tədqiqatların əksəriyyəti sonsuzluq və psixi simptomlar arasında ciddi bir əlaqənin olduğunu aşkar edir. Sonsuz qadınlarda təşviş pozuntusunun, müalicəsi uğursuz olan cütlüklərdə isə depressiyanın olduğu təsbit edilmişdir. Sonsuzluqdan əziyyət çəkən qadınlarda psixoloji stressin yayılmasını müəyyən etmək üçün 112 qadın üzərində aparılan bir araşdırmada 40%-i bir psixiatrik pozuntu meyarlarına uyğun gəlmişdir. Ən çox görülən diaqnoz təşviş pozuntusu oldu (23%), bunu major depressiya (17%), distimiya (9,8%) izlədi. Bu nəticələr, orta hesabla 10-12%-ə qədər yayılan psixiatrik xəstəliklərin sonsuzluq zamanı daha yüksək yayılmasını əks etdirir. Amerika cəmiyyətində 11000 nəfərlik bir araşdırmada generalizə olunmuş təşviş pozuntusunun sonsuzluqla əlaqəli olduğu təsbit edilmişdir. Nəticələr, fərqli mədəni xüsusiyyətlərə sahib olan Yapon cəmiyyətindəki generalizə olunmuş təşviş pozuntusunu dəstəkləyən keyfiyyətdə idi. Yaponiyada sonsuz qadınları sağlam hamilə qadınlarla müqayisə edən başqa bir araşdırmada, sonsuz qrupda depressiya nisbətlərinin daha yüksək olduğu təsbit edildi. Eynilə dünyada və Türkiyədə edilən bir çox araşdırmada, sonsuz xəstələrdə ən yüksək yayılan psixiatrik xəstəliklərin təşviş və depressiya olduğu müəyyən edilmişdir [5, s.175].

Əksər sonsuz cütlüklər, müvəffəqiyyət şansından asılı olmayaraq, uşaq sahibi olmaq imkanlarına sahib olduqları təqdirdə, onlardan istifadə etmək üçün böyük bir istəyə malikdirlər. Köməkçi reproduktiv texnika tətbiq olunan cütlüklər metodla əlaqəli bir çox müsbət və mənfi təcrübəyə sahibdirlər və cütlərin stress səviyyəsi metodun müvəffəqiyyətinə təsir göstərir. Araşdırmalara görə, cütlüklərin stress səbəbi ilə proqramı tərk etməsi, ovulyasiya problemi yaşaması və ani düşük təhlükəsi ilə qarşılaşması kimi problemlər yaşadıqları müəyyən edilmişdir[2, s.164]. Həmçinin, sonsuzluğun müalicəsində depressiya və təşviş pozuntularının yaranması müalicənin müvəffəqiyyətinə təsir göstərir. Müalicənin müvəffəqiyyəti, kifayət qədər aktiv müdafiə mexanizmi və emosional ifadəsi olan qadınlarda, müdafiə mexanizmləri uyğunlaşma üçün yetərli olmayan və emosional ifadə səviyyəsi az olanlara nisbətən daha yüksəkdir [4, s.18].

Sonsuzluqda müalicə müddəti psixoloji problemlərlə əlaqəli olaraq böyük əhəmiyyət kəsb edir: 2-3 illik sonsuzluq tarixçəsi olanların 1 ildən az və 6 ildən çox müddətdə müalicə alanlarla müqayisədə daha yüksək depressiya nəticələrinə sahib olduqları müşahidə edilmişdir. Bundan əlavə, sonsuzluq etiolojisi olanların sonsuzluğun səbəbi izah edilə bilməyən və ya hələ etioloji diaqnozu qoyulmayan qrupdan daha depressiv olduğu müşahidə edilmişdir [4, s.19].

Nyuton və digərlərinin apardığı araşdırmada sonsuzluğun müalicə müddətinin qadınların 30%-i və kişilərin 27%-inin cinsi həyatına mənfi təsir göstərdiyi müəyyənləşdirilmişdir. Keye tərəfindən 500 cütlüklə edilən bir araşdırmada cinsi problemlər: ağrılı cinsi əlaqə, progesteron səbəbi ilə cinsi marağın azlığı, həqiqi olmayan cinsi istəklər, məqsədyönlü cinsi əlaqə, pis bədən görünüşü, depressiya, günahkarlıq hissləri sıralanmıştır [2, s.164].

Bir qadının şəxsiyyəti onun ana olmağı ilə nə qədər çox müəyyən edilərsə, psixoloji olaraq kədərinin və çatışmazlıq hisslərinin miqdarı o qədər çox olar. Sonsuzluq nə qədər uzun zaman ərzində davam edərsə, vəziyyətə o qədər də acizlik və ümidsizlik hökm sürər ki, bu da daha böyük depressiyaya səbəb ola bilər

Nəticə olaraq, sonsuz qadınların uşaq sahibi ola bilməməsi səbəbindən stress, təşviş, depressiya yaşadığı və bu problemlərin psixoloji təsirləri arasında sosial gözləntilərə cavab verə bilməməsi, damğalanma, mənfi özünü qəbul etmə, görünməz çoxsaylı itkilər və köməkçi reproduktiv müalicələr yer alır. Sonsuzluq klinikalarında psixoloqlar və reproduktiv sağlamlıq mütəxəssisləri arasında əməkdaşlıq tələb olunur. Sonsuzluğun bütün müalicə mərhələləri bədənində baş verən qadınların psixoloji problemlərini həll etmək və uyğun müdaxilələr inkişaf etdirmək bu prosesi daha sağlam bir şəkildə aşmalarına və müalicə müvəffəqiyyətlərini artırmalarına imkan verəcəkdir.

ƏDƏBİYYAT

1. Atiye E. İnfertilite tedavisi gören kadınların depresyon düzeyleri ile evlilik uyumları arasındakı ilişki. Uzmanlık tezi, İstanbul 2016.
2. Kırca N., Pasinlioğlu T. İnfertilite tedavisinde karşılaşılan psikososyal sorunlar. Psikiyatride Güncel Yaklaşımlar Dergisi 2013, s.162-178.
3. Karaca A., Ünsal G. İnfertilitenin kadın ruh sağlığı üzerine etkileri ve psikiyatri hemşiresinin rolü. Psikiyatri Hemşireliği Dergisi 2012, s. 80-85.
4. Oğuz DH. İnfertilite tedavisi gören kadınlarda infertilitenin ruh sağlığına, evlilik ilişkileri ve cinsel yaşama etkileri. Uzmanlık Tezi, İstanbul 2004.
5. Sezgin H., Hocaoğlu Ç. İnfertilitenin psikiyatrik yönü. Psikiyatride Güncel Yaklaşımlar Dergisi 2014, s. 165-185.

SONSUZLUQ MÜALİCƏSİ ALAN QADINLARDA TƏŞVİŞ VƏ DEPRESSİYA SƏVİYYƏSİ VƏ BUNLARA TƏSİR EDƏN FAKTORLAR

Əlimədətova Şələlə

XÜLASƏ

Bu məqalədə sonsuz qadınlarla aparılan müxtəlif araşdırmaların nəticəsi verilmişdir. Bu araşdırmaların nəticələrini ümumiləşdirərək deyə bilərəm ki, müalicə alan sonsuz qadınlarda təşviş, müalicəsi uğursuz nəticələnənlərdə isə depressiya səviyyəsi reproduktiv sağlamlıqla bağlı problemi olmayan qadınlara nisbətən yüksəkdir. Sonsuzluqla əlaqəli tez-tez ifadə edilən psixoloji pozuntu göstəriciləri qəzəb, əsəbilik, özünə inamın azalması, təşviş və depressiya olduğu da məqalədə qeyd edilmişdir.

УРОВНИ БЕСПОКОЙСТВО И ДЕПРЕССИИ И ФАКТОРЫ, ВЛИЯЮЩИЕ НА ЛЕЧЕНИЕ БЕСПЛОДИЯ У ЖЕНЩИН

Алимадатова Шалала

АННОТАЦИЯ

В данной статье представлены результаты различных исследований, проведенных на бесплодных женщинах. Обобщая результаты этих исследований, могу сказать, что уровень беспокойство у бесплодных женщин, получающих лечение, и депрессии у тех, кто результаты неудачные, выше, чем у женщин без проблем с репродуктивным

здоровьем. В статье также отмечалось, что наиболее частыми психологическими расстройствами, связанными с бесплодием, являются гнев, раздражительность, потеря уверенности в себе, беспокойство и депрессия.

ANXİETY AND DEPRESSİON LEVELS AND FACTORS AFFECTİNG İNFERTİLİTY TREATMENT İN WOMEN

Alimadatova Shalala

SUMMARY

This article presents the results of various studies conducted on infertile women. Summarizing the results of these studies, I can say that the level of anxiety in infertile women receiving treatment, and depression in those who fail treatment is higher than in women without reproductive health problems. The article also noted that the most common psychological disorders associated with infertility are anger, irritability, loss of self-confidence, anxiety and depression.

TƏHSİLİN BAŞLANĞIC MƏRHƏLƏSİNDƏ UŞAQLARIN MƏKTƏBƏ ADAPTASİYA PROBLEMİ

p.ü.f.d. Eyyubova Mehriban Niyaz qızı
BDU-nun Sosial və pedaqoji psixologiya kafedrası
Bayramova Günel Eldar qızı
BDU-nun II kurs magistrantı
gunel.bayramova-5@bsu.edu.az

Açar sözlər: məktəbə uyğunlaşma, uşağın məktəb təhsili almağa hazırlığı, öyrənmə, təhsil sistemindəki davamlılıq.
Ключевые слова: школьная адаптация, готовность ребенка к школьному обучению, школьная дезадаптация, научение.
Key words: school adaptation, child's readiness for school education, school maladjustment.

Uşaqların məktəbə adaptasiya problemi təhsilin başlanğıc mərhələsinin ən vacib məsələlərdən biridir: həm müəllimlər, həm də valideynlər üçün çətindir.

Müasir tədqiqatların məlumatlarına görə (N. N. Zavadenko, M. M. Bezrukikh, E. V. Galazhinsky, V. Sorokina və başqaları) birinci sinif şagirdlərinin 30-70% -i məktəb təhsilinə adaptasiya dövründə ciddi problemlərlə üzləşirlər. Birinci sinif şagirdlərinin yeni şərtlərə və yeni fəaliyyətlərə uyğunlaşmasının mürəkkəbliyi məktəbə adaptasiya prosesinə və nəticəsinə təsir göstərən bütün amillərin diqqətlə nəzərdən keçirilməsinin zəruriliyini müəyyənləşdirir. Müəllif M.M.Bezrukıxa görə, məktəbə adaptasiya sistemli mütəşəkkil məktəb təhsilinə keçid zamanı idrak, motivasiya və emosional-iradi sahələrin yenidən qurulması prosesidir [4]. Digər alim M.V.Maksimova məktəb adaptasiyasını bir uşağın məktəb vəziyyətinə daxil olması prosesi və nəticəsi hesab edir, nəticəsi uyğunlaşma, yəni sonrakı həyatın müvəffəqiyyətini təmin edən şəxsiyyət xüsusiyyətləri, bacarıq və bacarıqları sistemidir.

Məktəbə müvəffəqiyyətlə uyğunlaşmaq üçün bir uşaq psixoloji olaraq həyatında baş verəcək dəyişikliklərə hazır olmalıdır. Uşağın məktəbə psixoloji hazırlığı məktəbəqədər uşaqlıq dövründə zehni inkişafın ən vacib nəticələrindən biridir . Bir uşağın məktəbə müvəffəqiyyətlə uyğunlaşmasında eyni dərəcədə vacib bir amil təhsilin məzmunu və tədris metodlarıdır. Bu amil təlimlərin rasional təşkili və gündəlik rejimi, həmçinin təlim cədvəlinin, tədris metodlarının, təlim proqramlarının məzmunu və zənginliyinin birinci sinif şagirdlərinin funksional imkanlarına uyğunluğunu nəzərdə tutur. Məsələn, E.A.Ovsyannikova, hərəkətlərlə əlaqəli olmayan hər hansı bir təhsil fəaliyyətinin birinci sinif şagirdlərinin bədənində həddindən artıq işə və sinir xəstəliklərinin yaranmasına səbəb ola biləcək ağır bir yük olduğunu göstərir. Yorğunluğun və həddindən artıq işin qarşısını almağın ən təsirli yolu qısa müddətli fiziki məşqlər və ya bədən tərbiyəsi dəqiqələri hesab olunur. Uşağın məktəbə adaptasiyası uşaq bağçasında əvvəlcədən qalması ilə çox asanlaşdırılır. Tədqiqat məlumatlarına görə, uşaq bağçasına getməmiş uşaqlar həm böyüklər, həm də yaşıdları ilə ünsiyyət təbiətində arzuolunmaz dəyişikliklər nümayiş etdirirlər və motor disinhibisiya təzahürlərinə də sahibdirlər. Uğurlu uyğunlaşmanın vacib amili müəllimlə şagirdlər arasındakı ünsiyyət tərzi və seçdiyi mövqedir. Tədqiqatçılar üç əsas pedaqoji ünsiyyəti müəyyən edirlər: demokratik, avtoritar və icazəverici. Uşaqların uyğunlaşması ən yaxşı şəkildə müəllimin demokratik ünsiyyət tərzinə sadiq qaldığı sinifdə davam edir. . Həm də birinci sinif şagirdinin uğurlu uyğunlaşması müəllimin məktəb kollektivi şəraitində əlverişli mikroiqlim yaratma qabiliyyətindən təsirlənir. Bu vəziyyətdə müəllimin vəzifəsi şagirdlər arasında dostluğu qorumaqla yanaşı, uşağın məktəbə davamiyyəti ilə əlaqəli müsbət emosiyaların formalaşmasıdır.

Müəllimin şagirdlərdən hər hansı birinə münasibəti sinif yoldaşlarının ona münasibətinin göstəricisidir. Müəllimdən mənfi münasibət ilə uşaq sinif yoldaşlarından mənfi qiymətləndirmələr alır [5].

Ailə münasibətlərinin bir uşağın məktəbə adaptasiya prosesinə birbaşa təsir etdiyi deyilməlidir. Uğurlu uyğunlaşma üçün ailədaxili münasibətlər yaxşı olmalı, münaqişə vəziyyətləri olmamalı və uşağın özü sinif yoldaşları komandasında əlverişli bir sosial statusa sahib olmalıdır. Elm adamları, uyğunlaşma dövründə uşaqları cəzalandırmağın tövsiyə edilmədiyi ilə razılaşırlar, çünki uşaq bütün enerjisini məktəbdəki layiqli davranışa sərf edir, bu da evə gəldikdə münaqişə vəziyyətlərinə səbəb ola bilər. Buna görə də, valideynlər bir uşaqla mümkün qədər düzgün qarşıdurmalardan çəkinməli, onu daha çox qucaqlamalı və öpməlidirlər. Valideynlərin ev tapşırıqlarında uşağa kömək etmələri də çox vacibdir, ancaq uşağın özləri ilə öhdəsindən gəlməyə çalışdıqdan sonra. Bundan əlavə, Z. L. Jukova, adaptasiyanın müvəffəq olmasına valideynlər və sinif müəllimi arasında düşünülmüş və mütəşəkkil bir əməkdaşlıq sisteminin də təsir etdiyinə inanır. Xüsusilə, valideynlərin məktəbin adət-ənənələri, tarixi, şagirdlərin, müəllimlərin tərbiyə və tərbiyə sahəsindəki uğurları və məktəb nailiyyətləri ilə tanışlıqlarını əhatə edir. Tədqiqatlar göstərir ki, uşağın məktəbdəki mövqeyini adekvat qiymətləndirməsi, fəaliyyət növündə dəyişiklik, ailə təhsilinin optimal metodları, ailədə münaqişə vəziyyətlərinin olmaması, həmyaşıdlar qrupundakı yüksək status uşaqların uğurlu adaptasiyasına kömək edir. Öyrənməyə, məktəbə funksional hazırlıqsızlıq, böyüklərlə ünsiyyətdən narazılıq, valideynlərin təhsil səviyyəsinin aşağı olması, müəllimin mənfi münasibəti və ailədəki əlverişsiz mikroiqlim məktəbə uyğunlaşma prosesini çətinləşdirir və nizamsızlığa səbəb olur. T.V. Dorozhevetsə görə, məktəbdəki düzəlişlər bir uşağı öyrənmə və davranış pozğunluqları, münaqişə münasibətləri, psixogen xəstəliklər və reaksiyalar, narahatlıq səviyyəsinin artması, fərdi inkişafdakı təhriflər şəklində məktəbə uyğunlaşdırmaq üçün qeyri-kafi mexanizmlərin formalaşmasıdır . Düzəlişin səbəbləri həm xarici, həm də daxili ola bilər. Xarici səbəblərə metod və texnologiyaların uşaqların imkanlarına uyğun gəlməməsi, yüksək iş yükü, müəllimlər və valideynlər tərəfindən artan tələblər, pedaqoji təsir taktikaları, mürəkkəb proqramlar, əlavə dərslər və s. daxildir. Yuxarıda deyilənlərin hamısı göstərir ki, məktəbin divarları daxilində olan uşağa zehni və fiziki təsir onun yaş imkanlarına uyğun olmalıdır.

Valideynlər uşağın məktəbə intellektual hazırlığına diqqət yetirərkən bəzən hazırlığın emosional və sosial cəhətlərinə əhəmiyyət vermirlər ki, bu da uşağın məktəb prosesində gələcək uğurundan asılı olan bu cür bacarıq və bacarıqları əhatə edir. Uşağın məktəbə getməyə sosial və ya şəxsi hazırlığı həmyaşıdları ilə ünsiyyət qurmağın, qrup qanunlarına tabe olmağın, tələbə rolunu qəbul etməyin, müəllimin göstərişlərini dinləməyin və yerinə yetirməyin bacarığı və özünün təqdimatıdır. Müəllif E.S.Belovaya görə, sosial hazırlığın ən vacib göstəricilərinə aşağıdakılar daxildir:

- uşağın öyrənmək istəyi, yeni bilik qazanmaq, təhsil işinə başlamağa motivasiya;
- böyüklərin bir uşağa verdiyi əmrləri və tapşırıqları başa düşmək və yerinə yetirmək bacarığı;
- başqaları ilə hesablaşmaq, lazım gəldikdə onlara təslim olmaq və itaət etmək bacarığı;
- əməkdaşlıq bacarığı;
- başladılan işi sona çatdırmağa çalışmaq; uyğunlaşma və uyğunlaşma qabiliyyəti;
- ən sadə problemlərini təkbaşına həll etmək, özlərinə xidmət etmək bacarığı;
- iradi davranışın elementləri
- bir məqsəd qoymaq, bir fəaliyyət planı yaratmaq, həyata keçirmək, maneələri aşmaq, fəaliyyətinizin nəticəsini qiymətləndirməkdir.

Yuxarıda sadalanan bacarıq və qabiliyyətlər, uşağın onun üçün yeni bir sosial mühitə ağrısız bir şəkildə uyğunlaşmasına kömək edir, bu da məktəbdə əlavə təhsil üçün əlverişli şəraitin yaradılmasına kömək edəcəkdir.

Y. L. Kolominskiy və E.A. Panko ğz tədqiqatlarında uşaqların məktəbə adaptasiyasında müsbət və mənfi amillər müəyyən etdilər. Uğurlu uyğunlaşma amillərindən biri sistemli təhsilin başlanğıc yaşıdır. 6 yaşlı uşaqların məktəbə uyğunlaşması 7 yaşlı uşaqların adaptasiyasından xeyli çox vaxt tələb edir. Bunun səbəbi 6 yaşlı uşaqların 7 yaşlı uşaqlarla müqayisədə daha aşağı və qeyri-sabit iş qabiliyyətidir. Uğurun növbəti amili uşağın sağlamlıq vəziyyəti hesab edilə bilər. Sağlamlıq problemi olmayan uşaqlarda uyğunlaşma prosesi ən asandır. Tez-tez xəstələnən uşaqlar və xroniki xəstəliklərdən əziyyət çəkən uşaqlar olmasına baxmayaraq, təhsilin əvvəlində, müxtəlif növ nevropsixiyatrik anomaliyaların baş verməsi ilə əlaqədar olaraq səhhətində pisləşmə olur. Uşağın sistematik təhsil almağa hazır olması eyni dərəcədə vacib bir amildir [3].

Təhsil sistemindəki davamlılıq, təhsil və tərbiyə problemlərini ardıcıl həll etmək üçün bitişik əlaqələri arasında əlaqənin qurulmasıdır. Təhsilin effektivliyini təmin edən əsas amillərdən biri də öyrənmənin davamlılığıdır. Bu amillər, uşaq bağçasından məktəbə getməyin bütün mərhələlərinə qədər bütün təhsil kursu boyunca vahid bir məqsəd və təhsil məzmunu sisteminin hazırlanmasını və qəbul edilməsini nəzərdə tutur. Davamlılığın məqsədi, məktəbəqədər təhsildən məktəbə keçid dövründə uşağın şəxsiyyətinin əvvəlki təcrübəsinə əsaslanaraq uzunmüddətli formalaşmasına yönəlmiş tam hüquqlu fərdi inkişafını, fizioloji və psixoloji rifahını təmin etməkdir. Uşağın məktəbə hazırlığının formalaşmasını təmin edən şərait yaratmaq lazımdır.

Məktəbəqədər yaşın sonuna qədər uşaqların zehni inkişafının mərkəzi göstəricisi onların obrazlı və şifahi-məntiqi düşüncə əsaslarının formalaşmasıdır. Məktəbə hazırlığın formalaşması uşaqların məktəb tədris proqramını uğurla mənimsəmələri və tələbə heyətinə daxil olması üçün ilkin şərtlərin yaradılması deməkdir. Bu, məqsəd məktəbəqədər uşaqların hərtərəfli inkişafı olan uzun və mürəkkəb bir prosesdir. Uşağın məktəbdə öyrənməyə xüsusi və ümumi hazırlığı arasında fərq qoymaq lazımdır. Xüsusi hazırlıq, rus dili və riyaziyyat kimi akademik fənlərin öyrənilməsinin əsasını təşkil edən bilikləri, fikirləri və bacarıqları ilə müəyyən edilir. Ümumi hazırlıq onun fiziki və zehni inkişafı ilə müəyyən edilir.

Müəllimlərin özlərinə qoyduqları əsas vəzifə, nəzarəti gücləndirmək və uşaqlara tapşırıqları keyfiyyətli və vaxtında yerinə yetirməkdə kömək etmək, hər bir uşağın qarşısına qoyduğu hədəflərə çatmasını tələb etməkdir. Məktəbəqədər uşaqlara işə başlamağa, lazımi tempdə etməyə, vaxtında başa çatdırmağa sarsılmadan fəaliyyətlərini vaxtında paylamağı öyrətmək lazımdır. Uşaq bağçasında əhəmiyyətli bir rol birbaşa uşaqların ibtidai təhsil fəaliyyətlərinin planlaşdırıldığı və sistematik olaraq yaxşılaşdırıldığı təhsil fəaliyyətinə aiddir. Bu, onlara təhsil vəzifəsi barədə anlayışlarını, onu yerinə yetirmək arzusunu, bir yetkinin planı və göstərişlərinə uyğun hərəkət etmək bacarığını, yeni fəaliyyətlərdə əvvəllər əldə etdiyi bilik və bacarıqlardan istifadə etməyi, özünü idarə etmə qabiliyyətini formalaşdırmağa imkan verir. Müəllimlər hər bir uşağın zehni təhsili və inkişafı ilə məşğul olmağa çalışırlar.

Bunun üçün fərqli iş metodlarından və formalarından istifadə olunur: məktəbəqədər təhsil proqramında nəzərdə tutulmuş uşaqların gündəlik birbaşa təhsil fəaliyyəti; Rejim anlarında uşaqların gündəlik təhsil fəaliyyətləri; fərdi yanaşma; tədrisin əyani metodları və texnikaları tətbiq olunur. Şifahi tədris metodlarına (müəllimin hekayəsi, söhbətləri) böyük yer verilir. Oyun texnikasından (idman oyunları, dramatizasiya oyunları, açıq oyunlar, tapmacalar və s.) geniş istifadə olunur. Didaktik oyunlara xüsusi yer verilir. Oyun qaydasında qoyulmuş təhsil vəzifəsi, bilik əldə etməyin məqsədini aydınlaşdırır. Bu, könüllü diqqəti artırır, uşaqların fəaliyyətini aktivləşdirir və idrak maraqlarını inkişaf etdirir. Məktəbə hazırlıq qrupunda, birbaşa təhsil fəaliyyətləri müddətində uşaqların fəaliyyətinin təşkilinə artan tələblər qoyulur. Buna görə də,

uşaqlara qarşıdakı fəaliyyətdən asılı olaraq bir iş yeri hazırlamaq, köməkçi vasitələrdən və avadanlıqdan düzgün istifadə etmək, işlərini planlaşdırmaq, həyata keçirilmə ardıcıllığına riayət etmək, vaxtdan səmərəli istifadə etmək və müəyyən bir tempdə işləmək öyrədilir [2].

Birbaşa təhsil fəaliyyəti dövründə uşaqların davranışına dair tələblər də artır: düzgün oturmaq, uyğunlaşmaq, diqqətlə dinləmək, başqasını kəsməmək, bir yoldaşın cavabını tamamlamaq. Məktəbə getmək hər uşağın həyatında dönüş nöqtəsidir. Yeni qaydalara, tələblərə, normalara uyğunlaşmalı və vərdiş etməlidir. Bəzi uşaqlar üçün yeni şərtlərə alışma müddəti ilk tədris ili boyunca uzanır. Valideynlərə və uşaqlara yeni vəziyyətlərinə hazırlaşmağa kömək etmək vacibdir. Və uşaq bağçası bu işdə onlara kömək edə bilər.

Məktəbəqədər və ibtidai yaşdakı uşaqların davamlı təhsilinin ümumi məqsədi:

-uşağın harmonik fiziki və əqli inkişafı,

- fərdiyyətinin qorunmasını təmin etmək

- dəyişən sosial vəziyyət,

-xarici dünya ilə aktiv qarşılıqlı hazırlıq

Məktəbəqədər səviyyədə:

- uşağın sağlamlığını və fiziki inkişafını gücləndirmə

-ümumi psixoloji və zehni qabiliyyətlərini inkişaf etdirmək

Növbəti mərhələdə onun emosional rifahını və uğurlu təhsilini təmin edən idrak fəaliyyətinin, ünsiyyətin və özünə inamın inkişafı. Bir uşağın inkişafında ən vacib amil kimi oyun fəaliyyətinin formalaşması. Uşağın fərdi və idrak inkişafı üçün əlverişli bir təhsil mühitinin yaradılması.

İbtidai məktəb səviyyəsində:

-uşaq yaşına uyğun bilişsel inkişaf və sosiallaşma.

-xarici dünya ilə müxtəlif qarşılıqlı təsir formalarına yiyələnmək.

-öyrənmə prosesinin bu inkişaf dövrünün ən vacib nailiyyəti kimi öyrənmə qabiliyyətinin formalaşmasına yönəldilməsi.

Davamlılıq tədrisin və tərbiyənin məzmununun, formalarının, metodlarının, texnologiyalarının qorunub saxlanılması və tədricən dəyişdirilməsi ilə ifadə olunan bir təhsil mərhələsindən digərinə ardıcıl keçid kimi başa düşülür.

Davamlılığın həyata keçirilməsi prosesi şərti olaraq ayrı-ayrı ardıcıl mərhələlərə bölünə bilər:

1) məktəbəqədər təhsil müəssisələrində uşaqların ibtidai məktəbdə oxumağa hazırlığının formalaşması;

2) uşaqların ibtidai sinifdə öyrənmə mühitinə uyğunlaşması;

3) ibtidai məktəbdə şagirdlərin məktəbəqədər təhsil müəssisələrinin hazırlıq və pedaqoji texnologiyalarının formalaşması elementlərinin istifadəsinə əsaslanaraq inkişafı.

ƏDƏBİYYAT

1. Bayramov Ə.S. Əlizadə Ə.Ə. Sosial psixologiya. Bakı.2003
2. Həmzəyev M.Ə.Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı 2003
3. Badanina L.P. Birinci sinif şagirdinin uyğunlaşması: inteqrasiya olunmuş yanaşma 2007
4. Bezrukikh, MM Gələcək birinci sinif şagirdinin portreti 2003
5. Maksimova, M. V. Məktəbə uyğunlaşmanın psixoloji şərtləri (1-3 siniflər)

TƏHSİLİN BAŞLANĞIC MƏRHƏLƏSİNDƏ UŞAQLARIN MƏKTƏBƏ ADAPTASIYA PROBLEMİ

Eyyubova Mehriban, Bayramova Günel

XÜLASƏ

Məqalədə bir uşağın məktəbə uyğunlaşma və hazırlıq problemi, uşaqların məktəbə uyğunlaşma üsulları və amilləri, eyni zamanda bir məktəb şəraitində bir uşağın düzgün tənzimlənməməsi problemi vurğulanır.

ПРОБЛЕМА ШКОЛЬНОЙ АДАПТАЦИИ ДЕТЕЙ НА РАННИХ ЭТАПАХ ОБУЧЕНИЯ

Эюбова Мехрибан, Байрамова Гюнель

АННОТАЦИЯ

В статье освещается проблема адаптации и подготовки ребенка к школьному обучению, способы и факторы адаптации детей к школе, а также проблема неправильной регуляции ребенка в школьной среде.

THE PROBLEM OF ADAPTATION OF CHILDREN TO SCHOOL IN THE EARLY STAGES OF EDUCATION

Eyyubova Mehriban, Bayramova Günel

SUMMARY

The article highlights the problem of adaptation and preparation of a child for school education, the means and factors of children's adaptation to school, as well as the problem of misregulation of a child in the school environment.

MODA İŞTİRAKÇILARININ PSİXOLOJİ XARAKTERİSTİKASI

İbrahimova Diyanə Rəşid qızı
BDU-nun Sosial və pedaqoji psixologiya kafedrasının müəllimi
diyane_huseynova@mail.ru

Açar sözlər: moda, moda psixologiyası, moda subyektləri, moda iştirakçıları, yaş xüsusiyyətləri
Ключевые слова: мода, психология моды,субьекты моды, участники моды, возрастные особенности
Key words: fashion, fashion psychology, fashion subjects, fashion participants, age characteristics.

Bildiyimiz kimi insanların modaya münasibəti maraqlı, lakin son dərəcə mürəkkəb prosesdir. Hər bir tarixi dövrdə modanın bu və ya digər aspekti – estetik, mənəvi, iqtisadi və ya sosial – kişi və qadınların həyatında birinci növbədə çıxış edir. Moda hər bir insanın özünün fərdiliyini üzə çıxarır. Geyim istənilən tarixi dövrdə şəxsiyyətin xarakterinin aynasıdır. Qadın və kişilərin modaya fərdi münasibətini təşəbbüskarlar, ekstravaqantlıq, yaradıcılıq, özünüifadə etmə və özünüsevmə, şəxsiyyətin müvəqqəti perspektivləri, həyat tərzi kimi faktorlar müəyyən edir. Qadınlar üçün geyim seçdikdə xoş gəlmək, təəccübləndirmək, heyran etmək kimi fikirlər üstünlük təşkil etdiyi halda, kişilər isə sosial vəziyyəti göstərəcək "işarə"lərdən ibarət detallar xüsusi əhəmiyyət kəsb edir. Qadınların əksəriyyəti klassik geyimlərə üstünlük verirlər. Onların fikrincə bu həm işgüzar, həm də təmtəraqlı görünmək üçün əla seçimdir. Kişilərin işgüzar geyimləri çoxşaxəli olsa da onda əsas iki istiqamət cəmlənmişdir: "mühafizəkar tərz" – etibarlı, səliqəli, varlı obrazı və "enerjili tərz" - ənənəvi qərarlardan uzaq olan, təşəbbüskar insan obrazı.

Hal hazırki dövrdə moda problemi olduqca aktualdır. Məşhur fransız modelyeri Pier Kardin modanı riyaziyyat, iqtisadiyyat, sosiologiya, psixologiya və hətta fəlsəfə ilə əlaqələndirirdi. Psixoloji tədqiqatlar isə prioritet xarakteri daşıyırdı. Modanın çox saylı tərifl ərini əsas götürərək bu sosial fenomenin psixoloji məzmununu izah etmək olar. P.Kardenə görə moda, ayrı – ayrı şəxslərin fərdi xüsusiyyətlərinin sosial və mənəvi aspektlərdə təzahürüdür [1, s.34].

Qeyd etdiyimiz kimi dəbin kütlə içərisində geniş yayılması prosesi insan faktoru ilə bağlı baş verir. Yeniliklərin insanlar tərəfindən müxtəlif tezlikdə qəbul edilməsindən asılı olaraq bir sıra hallarda bu proses müqavimətə rast gəlir. "Dəb"i qəbul etmək və mənimsəmək sürətindən asılı olaraq moda iştirakçılarının kateqoriyalarını və həmin kateqoriyalara aid olan ən əhəmiyyətli əlamətlər və meyarları fərqləndirirlər:

Birinci, moda daxilində iştirakçıların rolunu spesifik sosial fenomen kimi xarakterizə edir, bu görə də moda iştirakçılarının müvafiq tipologiyasını "daxili" adlandırırlar. Bu tipologiyanın bu və ya digər kateqoriyasına mənsub olan şəxsin tam olaraq və yalnız bir moda iştirakçısı kimi nə edəcəyi müəyyənləşdiriləcəkdir. Şübhəsiz ki, insanlar arasındakı fərqləri yalnız moda da iştirakına görə deyil, eləcə də dəbli davranışın digər sosial - qrup xüsusiyyətlərini araşdırmaq vacibdir.

Tipoloji meyarlarının ikinci qrupu moda iştirakçılarının müxtəlif sosial xüsusiyyətlərinə aid edilir. Iştirakçıların xarici tipologiyasının əsasını təşkil edən bu xüsusiyyətlər, modanın funksiyalaşmasında olduqca əhəmiyyətlidir. Onlara cəmiyyətdə və onun alt sistemlərində insanlara məxsus sosial – iqtisadi, peşəkar, demoqrafik, mədəni və s. əlamətlər və rollar aiddir.

Moda iştirakçılarının digər sosial proseslərdə və qruplarda eyni zamanda iştirak etmələri fikrini nəzərə almadan daxili tipologiyasını nəzərdən keçirək.

Təhlilin predmeti iştirakçıların əsas kateqoriyalarının təsviri, onların qarşılıqlı əlaqəsi və modanın ümumi prosesində nisbi roludur [2, s.78].

Moda da ünsiyyət aktları istehlakçıların alınan mesajları dəqiq şəkildə moda atributiv dəyərinin (müasirlik, universallıq, demonstrativlik) əlamətləri kimi şərh edərkən baş verir və beləliklə onları qəbul edərək onların tərəfdarları olurlar. Təbii ki, qarşılaşma və qəbul etmə prosesi dərhal baş vermir və istehlakçıların "dəb"i qəbul etmə sürəti müxtəlif olur: bəziləri tez qavradığı halda, digərlərində bu proses gec baş verir. Moda dövrünün erkən mərhələlərində istehlakçıların əksəriyyətindəki mesaja mənfi və ya biganə yanaşma tədricən onunla uyğunlaşma arzusu və sonra ona olan tələbatla əvəz olunur.

Yuxarıda qeyd etdiyimiz kimi modanı qəbul etmək və mənimsəmək sürətindən asılı olaraq moda iştirakçılarının bir neçə qrupunu fərqləndirirlər:

1."Yenilikçilər" (müxtəlif tədqiqatlarda "pionerlər", "təcrübəçilər" və s. kimi adlandırırlar). Bu ən azsaylı istehlakçı qrupudur ki, onlar modanı bərqərar edənlər kimi çıxış edərək, ən yeni modelləri əldə edirlər. Bu qrup, birbaşa və ya bilavasitə təcrübə nümunələri istehsal edən istehsalçılarla birbaşa və ya bilavasitə əlaqədə olaraq, ilk təcrübə keçirmək riskini öz üzərlərinə götürürlər. Onların arasında daha çox insana təsir etmək imkanı olanlar (müğənnilər, tele-diktorlar və s.) yəni referentlər, modanı stabil şəkildə bərqərar edənlər olurlar. Onların fərqləndirici xüsusiyyətləri: - eksperimentə və riskə meyilli olmalarıdır (söhbət hər hansı bir həyati situasiya haqqında deyi, modanın fəaliyyətinin müəyyən bir məhdud sahəsi haqqında gedir).

2. "Erkən mənimsəyənlər" (başqa sözlə "lider", "yerli liderlər" və s. adlandırılırlar). Bu qrupa daxil olan insanlar, ətrafdakıların məxsusi hörmət bəslədikləri və lider kimi gördükləri insanlardır. Bu qrupa daxil olan insanlar, böyük əksəriyyətin önündə gedirlər, lakin eksperiment etməkdən çəkinirlər. Onlar model innovatorlarından elə modelləri seçib götürürlər ki, həm gülü. Oyektinə çevrilməsinlər, həm də bu modellərin əksəriyyət tərəfindən bəyənilmək şansı daha çox olsun. Yalnız bu qrup tərəfindən məniməsnilən modellər haqqında əminliklə demək olar ki, onlar moda tendensiyasını müəyyən edirlər.Onların ətrafdakıların xüsusi hörmətinə görə digərlərindən seçilirlər.

3. " İlkin əksəriyyət " (başqa sözlə "təqlidçilər", "erkən davamçılar" və s. adlandırılırlar). Bunlar kütləvi şəkildə modanı izləyib, ondan geniş şəkildə istifadə edən insanlardır. Onlar yeni modellərdən böyük məmnuniyyətlə istifadə edən, material cəhətdən heç bir məhdudiyyət bilməyən insanlardır. Yalnız bu qrup tərəfindən qəbul edilən modellər moda obyekti olurlar. Bu qrupda daxil olanların fərqləndirici xüsusiyyətləri ehtiyatlı olmaqlarıdır.

4. "Ləngiyən çoxluq" (başqa sözlə "skeptiklər", "mühafizəkarlar", "konservatorlar" adlandırılırlar). Bu qrup üçün konservatizmlə bərabər "hamı kimi olmaq"cəhdi xarakterikdir. Onlar artıq çoxları tərəfindən qəbul edilən modeli, öz radikal konservatizmliklərindən keçərək, istehlakçıların böyük əksəriyyətinə qoşulmaq məcburiyyətində qalaraq, qəbul edirlər. Hər şeyə şübhəli yanaşmaları ilə xarakterizə olunurlar.

5. "Ənənəyə sadiq qalanlar" ("Geri qalanlar", "gec mənimsəyənlər", "ənənəviçilər" və s.). Bu qrupdan olan istehlakçılar üçün yalnız ənənəyə sadiq qalmaq xarakterikdir. Onlar da "innovatorlar" kimi, fərqlənməkdən qorxmayan, öz əqidələrinə sadiq qalan, heç bir moda dəyişkənliyini qəbul etməyən, cəsarətli insanlardır. Onlar modaya qarşı etinasız münasibət bəsləyərək, gülüş hədəfi olmaqdan qorxmurlar. Onlar üçün öz şəxsi fikir və "mən"ləri ətrafdakıların qiymətindən daha yüksəkdir. Bu qrup ahıl vaxtlarında, öz cavanlıq dövlərinin modellərini geyinməkdən xüsusi zövq alırlar. Ənənəyə meyilli olmaları ilə fərqləndikləri üçün, yalnız bir ənənə halına gəldikdə moda standartlarını qəbul edirlər [3, s.42].

Əlbəttə ki, yuxarıda qeyd olunan tipologiya həqiqətdən kənar, ideal model deyil. Bu, bütün mesaj mənbələrinin tənzimlənməsi üçün nəzərdə tutulmuşdur, lakin, təbii ki, qəbul etmə prosesində rahatlıq tələb edir.

Eyni situasiya fərdin moda mesajın (moda standartın) psixoloji qəbulunun beş mərhələyə bölünməsinə aiddir [4, s.126].

1.Qiymətləndirmə mərhələsində fərd mesajın təsirinə məruz qalır, lakin hələ də onun haqqında yetərincə informasiyaya sahib deyildir.

2.Maraq mərhələsində mesaj haqqında informasiya axtarışında olur.

3.Fərdin öz şüurunda qiymətləndirmə mərhələsində "dəb"i özünəməxsus şəkildə qiymətləndirərək indi və gələcəkdə hansı situasiyada necə istifadə etməsi haqqında qərar verir.

4. Tədqiqetmə mərhələsində "dəb"i öz tələbləri və sosial mühitin dəyərlərinə uyğunluğunu müəyyən etmək üçün "eksperimental" olaraq yoxlayır.

5. Qəbuletmə mərhələsində fərd moda standartına tabe olur.

Bu təsnifat reklam təcrübəsi sahəsində ekspertlər tərəfindən istifadə edilən klassik AIDA sxemi ilə əks olunur. Bu sxemə əsasən, reklam informasiyasının qəbuledilməsi idealda 4 mərhələdən keçir: diqqə, maraq, istək, hərəkət (məsələn, alış - veriş). Moda mesajlarının əhəmiyyətli bir hissəsi də bu mərhələlərdən keçər.

Hər bir insan, bu və ya digər şəkildə həyatında müxtəlif dəyərlər və davranışlar arasında seçim etməli və bunu davam etdirməlidir.Modanın olmasını bilmək fərd və cəmiyyətin inkişafı üçün bu seçimi məsuliyyətli bir şəkildə etməyə kömək edə bilər, bu seçim olmadan isə demək olar ki, şəxsiyyət mövcud deyildir [5, s.27].

Yuxarıda qeyd olunanları ümumiləşdirərək, psixoloji baxımından maddi malların seçilməsi və istifadəsi sahəsində fərdi fəaliyyətinin öyrənilməsi digər sahələrdə olduğu kimi vacibdir. "İnsanlar və əşyalar" kompleks sistemində əlaqələrin uyğunlaşdırılması həyat tərzinin yaxşılaşdırılması, yeni bir şəxsin formalaşması problemlərindən biridir. İstehlak mədəniyyətinin yetişdirilməsinin çətinliyi bütünlükdə fərdi və cəmiyyətin mütərəqqi inkişafını təmin edən maddi və mənəvi dəyərlərin bir hissəsini tapmaqdır. İnsanın xarici görünüşü, müxtəlif tələbatları təmin edən, ruhu zənginləşdirən, şəxsiyyətləri formalaşdıran və inkişaf etdirən, həyat və işə can atan, mədəniyyəti yüksəldən güclü vasitədir. Əşyalar dünyası və insanın dünyası ayrılmaz vəhdətdədirlər. Cəmiyyətin həyatı əşyalarsız mümkün deyildir. Ancaq şeylər yalnız insan cəmiyyətində mövcud olaraq gerçək mənasını qazanır. Cəmiyyətin zənginliyi, istehlak imkanlarının daha geniş olması, istehlakda fərdlərin daha mürəkkəb və fərqli yönləndirilməsi ilə bağlıdır.

ƏDƏBİYYAT

1. Вайнштейн О.Одежда как смысл: идеология современной моды: (О социал. стиле) // Иностр. Лит. - 1993. - № 7. - С. 224-232.

2. Гофман А.Б. Мода и люди: новая теория моды и модного поведения.- М.: Наука, 1994.160с.

3. N. R. Yunusov, Müasir modanın inkişaf tendensiyaları, Bakı: 2006

4. Килошенко М, Психология моды: теоретический и прикладной аспекты, Москва:2009

5. Новикова Е.Ю. Социально-психологический аспект отношения подростков к моде // Вопр. психологии. - 1989. - № 1. - С. 121-127.

MODA İŞTİRAKÇILARININ PSİXOLOJİ XARAKTERİSTİKASI

İbrahimova Diyanə

XÜLASƏ

Məqalə müəllifi, insanların həyatındakı modanın aktuallığından bəhs edir. Gözəl geyinmək bacarığı hər kəsin yiyələnə biləcəyi bir elm və sənətdir. Dəbli geyim maddi rifahdan asılı deyil, tamamilə zövqdən asılıdır. Beləliklə, bir insanın yalnız sosial deyil, həm də emosional xarakteri əks etdirməsi üçün modaya ehtiyacı var. Moda insana öz fərdiliyini vurğulamağa imkan verir. Modanın köməyi ilə şəxsiyyət fərqləri izlənilə bilər. Moda həm kişilərin, həm də qadınların həyatında vacibdir.

ПСИХОЛОГИЧЕСКИЕ ХАРАКТЕРИСТИКИ УЧАСТНИКОВ МОДЫ

Дияна Ибрагимова

АННОТАЦИЯ

Автор статьи рассказывает об актуальность моды в жизни людей. Умение красиво одеваться это наука и искусство, которыми сможет овладеть каждый человек. Модно одеваться не зависит от материального благосостояния, а зависит целиком от вкуса. Таким образом, мода нужна человеку для отражения не только социального, но и эмоционального характера. Мода дает возможность человеку подчеркнуть свою индивидуальность. С помощью моды прослеживаются личностные различия. Мода важна в жизни как мужчины так и женщины.

PSYCHOLOGICAL CHARACTERISTICS OF FASHION PARTICIPANTS

Diyana Ibrahimova

SUMMARY

The author of the article speaks about important role of fashion in the life of people. To be able to wear beautifull it`s an art and a science. To be able to wear luxury it dosen`t depends on the material, it depends on pleasure. Thus, fashion is not only the social character of the man, also as well as the need to demonstrate emosional character of the man. Fashion provides an opportunity to the person to emphasize its personality. Using fashion traces of personal differences. Fashion is important in the life of both men and women.

MÜASİR TƏLİM: PROBLEMLƏR VƏ PERSPEKTİVLƏR

Kərimli Gültac Sakit qızı
BDU-nun II kurs magistrantı
gultachkarimli83@gmail.com

***Açar sözlər*:** təlim, qanunauyğunluq, dərs, təlim prosesi, müəllim
***Ключевые слова*:** обучение, регулярность, урок , процесс изучения, учитель
Key words:teachings, regularity, lesson, learning process, teacher

GİRİŞ

Təlim anlayışının tarixi qədim dövrlərə dayanır. Təlim ərəb sözüdür, "öyrətmək" mənasını verir, rus dilində "obuçeniya",yunan dilində "didaktika" ifadələri də öyrətmək, öyrədirəm mənalarında işlədilir.[4] Dünya yaranandan və insan var olan dövrdən insanlar bu və ya digər şəkildə bir-birilərinə nəyisə öyrədir və bir-birilərindən nə isə öyrənirlər. Hələ qədim icma dövründə yaşlı insanlar özlərindən kiçiklərə qida toplamağı, ov etməyi, ocaq yandırmağı öyrədirdilər. İcma da münasibətlər mürəkkəbləşdikcə və təsərrüfat işləri təkmilləşdikcə, yeni əmək alətləri yarandıqca, icma münasibətləri mürəkkəbləşdikcə öyrətmə prosesi də öz növbəsində mürəkkəbləşdi. Bunun sayəsində dünyada müxtəlif təlim-tərbiyə formaları yaranmağa başladı.Yunanıstanda "Sparta tərbiyə sistemi"," Afina tərbiyə sistemi", Hindistanda "icma məktəbləri", Aristotel,Sokrat, Platonun təlim-tərbiyə nəzəriyyələri təlim prosesinin inkişafına təkan vermişdir [1].

Müxtəlif dövrlərdə təlim prosesinin tipləri yaranmağa başladı. Bunlara misal olaraq Doğmatik təlim, İzahlı-illustrativ təlim, Müasir təlimin adlarını çəkmək olar.Bütün dövrlərdə təlim öyrətməyə, təhsil verməyə xidmət etmişdir [1].

Təlim prosesinin məqsəd,vəzifələri,predmeti olduğu kimi özünəməxsus qanunauyğunluqları da var. Bu qanunauyğunluqları araşdıran klassik pedaqoqlara K.D.Uşinskini, İ.H.Pestalotsini, Y.A.Komenskini, V.A.Suxomlinskini misal göstərmək olar.Azərbaycan pedaqoqlarından isə Y.R.Talıbovun, B.A.Əhmədovun, Ə.X.Paşayevin,F.A.Rüstəmovun adını çəkmək olar. Qanunauyğunluğun yığcam şəkildə qanun ilə ifadə olunur. Müxtəlif alimlərin araşdırmalarda təlimin qanunlarını müxtəlif cür təsnif edirlər.Elmi ədəbiyyatlarda diferensasiya-inteqrasiya, təlim marağı,reproduktiv və produktiv,təlimin məzmunu və gedişinin elmiliyi qanunlarının adı çəkilir [1]. Dünyada da cəmiyyət formalaşdıqca və inkişaf etdikcə təlimə yeni münasibət formalaşmağa başladı. Təbii ki, müasir dövr təlim prosesindən fərqlənən yeni təlim anlayışı dəfələrlə dəyişikliyə uğramış, hər dəfə dövrə və şəraitə uyğun optimal üsul və vasitələr seçilmiş və tətbiq edilmişdi.

XX əsrdə ABŞ, İngiltərə,Fransa kimi inkişaf etmiş Avropa ölkələrində təlimə bağlı yeni üsullar yarandı. Y.A.Komenskinin yaratdığı təlim nəzəriyyəsində yola çıxaraq qloballaşan dünyaya uyğunlaşmaq məqsədi ilə sinif-dərs sistemləri,seminar məşğələləri imtahanlar, praktikumlar və s. təlimin təşkili forması kimi yaranmağa başlandı [1]. Azərbaycan da təlim XIX əsrin əvvəllərində Rusiyada keçirilən məktəb islahatı, Gülüstan və Türkmənistan müqavilələrinin nəticəsində ikiyə ayrılması və şimali Azərbaycanda təlimə qayğının artması ilə daha da inkişaf etdi. A.Bakıxanov, M.F.Axundovun və s. Azərbaycanda maarif sahəsində yeni dövrün yaranmasında böyük töhfələri olmuşdu. Azərbaycanda qəza məktəblərinin yaranması, 60-cı illərdə keçirilən dövlət islahatı nəticəsində ibtidai məktəblərin təşkili də təlimə diqqətin bariz nümunəsi idi. Bundan başqa şəhər məktəblərinin çoxalması, tədris olunan fənnlərin sayının

artması, yeni tipli məktəblərin yaranmağa başlanması, dərsliklərin təkmilləşdirilməsi və s. buna nümunə göstərmək olar [1].

İnsan anadan olduğu andan başlayaraq müxtəlif fəaliyyətlərə daxil olur- oyun fəaliyyəti,ünsiyyət fəaliyyəti,təlim fəaliyyəti və s. Danılmaz faktdır ki, təlim fəaliyyəti fərdi şəxsiyyətə çevirən ən önəmli faktordur. Təlim fəaliyyəti kiçik məktəb yaşı dövründən başlayaraq insanın həyatında aparıcı rol oynayır və bu gənclik yaşına qədər davam edir. Uşaq ailə-ev mühitindən sonra ikinci ən çox vaxt keçirdiyi mühit məktəb olur. Təlim fəaliyyəti bir növ insanı həyata hazırlayır, onun dünyagörüşündən, cəmiyyətdə özünüidarəetməyə qədər bütün amillərə əsaslı surətdə təsir göstərir. Müxtəlif ədəbiyyatlarda təlimə verilən tərifləri ümumiləşdirsək deyə bilərik ki, təlim öyrənənlərin bilikləri sistemli şəkildə mənimsəmələrinə, mənimsədikləri bilikləri praktiki olaraq tətbiq etmələrinə və bunun üçün lazım olan bilik, bacarıq, vərdişlərə yiyələnmələrinə yönəlmiş məqsədyönlü idraki fəaliyyətdir. Təlim fəaliyyəti deyərkən insanın müstəqil əmək fəaliyyətinə hazırlaşması, ətraf aləmə uğurla adaptasiya olması, öz tələbatlarını müstəqil formada ödəməsi, şəxsiyyət kimi formalaşması və s. nəzərdə tutulur. Təlim fəaliyyəti idrak aktı kimi özünü göstərir. Təlim fəaliyyəti öyrənmə fəaliyyətinin müvəffəqiyyətli təşkilinə yönəlmiş fəaliyyətdir.Öyrənmə- insan tərəfindən bilik, bacarıq, vərdişlərin qazanılması prosesidir. Təlim fəaliyyətinin uğurlu nəticəsi isə mənimsəmə adlanır. Mənimsəmə sayəsində yeni biliklər qəbul edilir, bu biliklər fikrən işlənir,yadda saxlanılır, biliklərdən nəzəri və praktiki sahədə istifadə olunur [2].

Təlim sistemi təlimin bütün ünsürlərini özündə ehtiva edən tam, birləşmə mənasında qeyd olunur. Əsasən 3 təlim sisteminin adı çəkilir. Bunlar, İ.F.Herbartın təlim sistemi, C.Dyuinin təlim sistemivə müasir təlim sistemi. Herbartın nəzəriyyəsində deyilir ki, təlim şagirdə biliyi hazır şəkildə verməlidir, şagird burda passiv dinləyici rolunda çıxış etməlidir. Dyuinin nəzəriyyəsi isə Herbartın nəzəriyyəsinin əksini müdafiə edirdi. Dyuinin fikrincə şagird təlim prosesində aktiv iştirak etməli, problemli mövzular üzrə araşdırma aparmalıdır. Müasir təlim sistemi isə az vaxtda çox və səmərəli iş görməklə təlimdə uğurlu nəticələr əldə etməyə yönəlmişdir. Buraya yenitəlim texnologiyalarını, müasir təlim metodlarını aid etmək olar [6].

Təlim prosesinin tərkibi çoxşaxəlidir. Dərs təlim prosesini təşkil etməkdə önəmli rol oynayır. Dərs situasiyası da öz növbəsində təlimin tərkib hissəsi hesab olunur və təlimin əsas təşkili formasıdır. Dərs həmçinin təlimin digər təşkili formalarına da yol açan önəmli faktordur. Dərs pedaqoji prosesdir. Dərs öyrədən və öyrənənlərin qarşılıqlı fəaliyyətinə əsaslanır və bu fəaliyyətin əsas məqsədi təlim-tərbiyə üzərində qurulur [1]. Dərs prosesinin müvəffəqiyyətli təşkil olunması emosional vəziyyətin düzgün qurulmasından bilavaitə asılıdır. Çünki, təlim fəaliyyətində emosiya və hisslər mühüm əhəmiyyət kəsb edir. Bundan başqa, təlim prosesində öyrənəndə maraq oyatmaq zəruridir [2]. Maraq, yeni şeylər öyrənməyə həvəs, istək olmasa müvəffəqiyyətli öyrənmədən və təlimdən danışmaq mümkün deyil.

Qeyd etdiyim kimi, təlim psixologiyası pedaqoji psixologiyanın əsas və başlıca sahələrində biridir və pedaqoji psixologiyada təlimin nəzəriyyələri haqqında ətraflı məlumat verilmişdir. Təlim nəzəriyyələri əsasən 5 yerə ayrılır- izahlı-illüstrativ təlim, proqramlaşdırılmış təlim, fikri işlərin və anlayışların mərhələlər üzrə təşəkkülü nəzəriyyəsi, problemli təlim, tərbiyəedici təlim, təlim nəzəri təfəkkürün inkişafı nəzəriyyəsi. Bu nəzəriyyələr ayrı-ayrılıqda müəyyən dövrlərdə daha aktual olmuşdur. Yalnız, təlim pedaqoji psixologiiyada təkcə nəzəri problem olaraq qalmır, eyni zamanda praktiki olaraq da araşdırılmışdır [7].Təlim prosesində şagird-tələbələrin inkişafı onların psixi xüsusiyyətlərinin inkişafı ilə bilavasitə bağlıdır. Şagirdlər inkişaf etdikcə onlarda yaradıcı və tənqidi təfəkkür də inkişaf edir. Onlar təlim fəaliyyətinə tənqidi münasibət bəsləməyə başlıyırlar. Kiçik məktəb yaşından başlayaraq uşaq ətraf aləmdə olan obyektlər haqqında suallar verir, hər şey ilə maraqlanırlar. Yavaş-yavaş ixtiyari diqqət,ixtiyari yaddasaxlama, ətrafı

müşahidə etmək bacarığı inkişaf edir. Orta məktəb yaşı dövründə isə bu xüsusiyyətlər məzmun və formaca dəyişir, inkişaf edir, təxəyyül mədəniyyətinə yiyələnirlər [3].

Təlim prosesindən danışarkən onun komponentlərinə də toxunmaq lazımdır. Elmi ədəbiyyatlarda təlimin 4 komponenti ayırd edilir: məzmun, metod, öyrədici mühit, qiymətləndirmə. Bu komponentlər əlaqəli şəkildə təlimin məqsədlərini həyata keçirməyə kömək edir [8]. Təlim prosesinin əsas komponentləri- öyrədən-müəllim və öyrənən-tələbədir. Müəllim əsas rəhbərlik etmə, yönləndirmə funksiyalarını həyata keçirir. Şagirdin fəaliyyəti isə idarə olunandır. Şagird və müəllim arasında qarşılıqlı əlaqə ilk gündən düzgün qurulmalıdır, təktərəfli hörmət və təlimə maraq olarsa müvəffəqiyyətli təlimnən danışmaq yersiz olardı. Müəllim şagird arasında ünsiyyətin ilk təməli ilk görüşdə atılır. İlk dərs zamanı edilən hər hansı səhv hərəkət, jest, mimika, ünsiyyət zamanı deyilən yanlış söz sonrakı dərs mühitinə də mənfi təsir göstərir. Təlimdə belə problemlərlə daha çox cavan, təcrübəsiz müəllimlər rastlaşır.Postsovet məkanında müəllim və şagird arasında münasibət formal xarakter daşıyırdı və rəsmi formada ünsiyyət aparıcı mövqedə idi. Bu zaman müəllim və şagird arasında uzaqlıq yaranırdı. Şagird müəllim çəkinir və sual verməyə qorxurdu. O dövrdə müəllim şagirddən qorxurdusa bu həmin müəllimin səriştəliliyi, uğuru olaraq göstərilirdi. Müəllim əmr cümləsi ilə danışır və şagird bir növ müəllimin verdiyi əmrə riayət etməyə təhkim olunurdu. Bu cür təhsil mühitində gərgin emosional mühit hakim mövqedə dayanır. Şagird daima qorxu, stress, narahatlıq vəziyyətində olur və diqqətini dərsə, keçirilən mövzuya yönəldə bilmir. Stress vəziyyətində öyrənilmiş material belə bir müddət sonra yaddan çıxır. Lakin, zamanla ənənəvi təlimin zəncirləri qırılmağa başladı. Müəllim şagirdə şəxsiyyət kimi yanaşmalı,onun fikrinə hörmət bəsləməli olduğu önə çıxdı. Əvəllər müəllim təlim prosesini avtokratik üslubda keçirdisə artıq humanizm prinsipləri ilə təlimə yanaşmanın daha uğurlu olduğu təsdiq olundu. Təbii ki, müasir dövrdə də, avtoritar mövqedən çıxış edən müəllimlərə rast gəlirik. Bu müəllimlər müasir təhsilin imkanlarını qəbul etmir və zamanla ayağlaşa bilmirlər. Buna görə də, müəllim və tələbə arasında soyuqluq, həmin müəllimə qarşı hörmətsizlik yaranır.

Təlim fəaliyyətində uğur və müvəffəqiyyət öyrənənin psixi və əqli qabiliyyətlərindən asılıdır. Diqqət, hafizə, təfəkkür, təxəyyül kimi psixi xassələr inkişaf edibsə, və təlimlə uyğunlaşa bilirsə təlimdə müvəffəqiyyətdən danışmaq olar. Xüsusi ilə, təlim fəaliyyətində diqqətin oynadığı rolu nəzərə alaraq K.D.Uşinski qeyd edirdi ki, "diqqət şüurumuzun elə bil yeganə qapısıdır ki, şüurumuzda olan hər bi şey mütləq buradan keçir. Ona görə də şagirdləri təlim prosesində həmin qapını açıq".

Təlim fəaliyyətindən danışarkən onun xüsusi növü olan müstəqil işdən də danışmaq lazımdır. Tədqiqatçılar - O.A.Nilson və T.A.İlina "müstəqil işi" təlim fəaliyyətinin xüsusi növü kimi göstərirdilər. Onlar qeyd edirdi ki, müstəqil iş- öyrədənin rəhbərliyi altında öyrənənin zehni və fiziki səy göstərərək fərdi, qrup tapşırıqlarını yerinə yetirməsinə əsaslanan fəliyyətdir. Lakin, müstəqil işi təlim fəaliyyəti ilə eyniləşdirmək düzgün olmazdı. Müstəqil iş sadecə, təlim fəaliyyətinin bir hissəsi kimi özünü göstərir. Hətta, bəzi tədqiqatlarda müstəqil iş təlim fəaliyyətinin vasitəsi kimi göstərilir. Müstəqil iş də öz növbəsində məqsədə, məzmuna malik olur. Bundan başqa, müstəqil işi təlimdə forma kimi göstərən tədqiqatlar da vardır [5]. Müstəqil işi tərif verən professorlardan biri də N.M.Kazımov olmuşdur. O, qeyd edirdi ki, müəllimin tapşırığını bilavasitə kömək olmadan əqli və ya əməli fəaliyyət göstərərək şagirdin sərbəst yerinə yetirməsi müstəqil işdir.

Təlim prosesindən danışarkən təlim metodlarına toxunmaq yanlış olardı. Təlim metodları mürəkkəb, çoxşaxəli bir anlayışdır. Təlimin məqsədini,məzmununu həyata keçirmək üçün istifadə olunur. Təlim metodları, bir növ, təlim prosesində öyrədən və öyrənənlərin işini nizama salmaq üçün istifadə olunur. Təlim metodları öyrənmə və tədris metodları olmaqla 2 yerə ayrılır.

Tədris metodları müəllimin işinə aiddirsə, öyrənmə metodları şagird-tələbələrə aidir. Təlim fəaliyyətinə daxil olan növbəti anlayış "təlim texnologiyaları" anlayışıdır.Təlim texnologiyası anlayışı ilk dəfə ABŞ-da yaranmışdır. Burada əsas məsələ təlimdə texnologiya anlayışından təlim texnologiyası anlayışına keçmək idi. Təbii ki, bu proses çox uzun müddət inkişafda olmuşdur və bu inkişaf hələ d əgetməkdədir. Ənənəvi təlimdən müasir təlimə keçid dövründə təlim texnologiyaları daha çox ön plana çıxmışdır.

Təlim texnologiyası- təlim prosesində təlimin səmərəli,yeni metodlarından istifadə etməklə şəxsiyyət yetişdirilməsi nəzərdə tutulur. Təlim texnologiyalarının özünəxas olan prinsipləri var. Bunlara demokratikləşdirmə, humanistləşdirmə, diferensiallaşdırma, fərdiləşdirmə, inteqrasiya, humanitarlaşdırma prinsiplərini aid etmək olar. Müasir dövrdə təlim texnologiyalarını aşağıdakı kimi təsnifləndirilər- əməkdaşlıqla təlim texnologiyası, layihələr metodu ilə təlim texnologiyası, modulla təlim texnologiyası. Təlim prosesində təlimə diferensial yanaşma da diqqəti cəlb edir. "Diferensiasiya" latın dilindən tərcümədə "bölünmə" deməkdir. Bu yanaşmanın məqsədi hər bir öyrənənin öz imkanlarına uyğun səviyyədə təhsil almasını təmin etməkdir. Bu yanaşmada əsas məqsəd bir qrupda təhsil alan tələbələrin əqli qabiliyyətlərinə bələd olaraq, onlara fərdi olaraq yanaşmanı təmin etməkdir. Qrupda geri qalan tələbələr, istedadlı tələbələr paralel təhsil ala bilirsə və təlim uğurla nəticələnirsə bu öyrədənin, müəllimin sərişləliliyindən, peşəkarlığından və təlimdə diferensial yanaşma prinsipində istifadə etməsi nəticəsində baş verir. Öyrədən bütün qruplarda eyni ünsiyyət üsulundan, priyomlarından, təlim metodlarından istifadə etməməlidir. Hər bir tələbə fərdi xüsusiyyətlərə malik olduğu kimi, hər bir qrup da xüsusiyyətlərinə görə digərlərindən fərqlənir. Diferensial yanaşmanı xarici və daxili növləri vardır.

Təbiət və cəmiyyətdə baş verən hadisələrə zərurilik, təkrarolunmaq, ümumilik, sabitlik xasdırsa, bu qanunauyğunluq adlanır və bu qanunauyğunluq əsasında qanunlar müəyyən edilir. Təlimin qanunauyğunluqlarını öyrənmək bir çox didaktik sistemlərin tədqiqat obyekti olmuşdur. Qanunauyğunluqdan qanun çıxarılır, formalaşdırılır. Qanunauyğunluq çoxlu qanunların məcmusudur. Qanun hadisələrin daxili əlaqəsi və bir-biri üçün qarşılıqlı şərt olması deməkdir. Qanun üçün mühüm, sabit təkrarlanan, hadisələrə daxilən xas olan əlaqə və qarşılıqlı şərtlər səciyyəvidir. Təlim müvafiq qanunlar əsasında bütün hallarda ancaq təhsil və tərbiyəni əsas vəzifə kimi həyata keçirən əməli fəaliyyət prosesidir.

XX əsrin 60-cı illərindən başlayaraq təlim prosesində müxtəlif baxışlar formalaşmağa başladı. Bu yanaşmalardan biri də problemli təlimdir. Problemli təlim- təlim prosesində problemli vəziyyət yaradıb şagirdlərin təfəkkürünü inkişaf etdirən təlimin bir formasıdır. Problemli təlimin özünəməxsus xüsusiyyətləri vardır. Həll olunması tələb olunan bir problem müəyyən edilir. Həmin problemə dair fərziyyə irəli sürülür. Problemin həlli yolları araşdırılır. Faktlar müqayisə edilir. Bu təlim forması sayəsində mövzu haqqında şagirdlərdə zəruri biliklər formalaşır. Şagirdlərin fəallığı artır. Şagirdlər qarşısında məqsədyönlü idrak vəzifələri qoyulur. Problemli təlim prosesində şagird müstəqil olaraq fikri fəallıq priyomlarından istifadə edilir. Problemli təlimdə başlıca məsələ düzgün problemli vəziyyət yaratmağa nail olmaqdır. İnsan öz fəaliyyəti gedişində gözlənilməz, nəzərdə tutulmayan vəziyyətlərlə qarşılaşırsa bu artıq problemli vəziyyət yarandığından xəbər verir. Problemli vəziyyət haqqında xalqımızın nağıllarında, tapmacalarında da ətraflı bəhs edilmişdir. Təlim probleminin yaradılması eyni zamanda, şagird-tələbələri tədqiqatçılığa,yaradıcılığa, axtarışa təhrik edir [4]. Təlimin uğurlu həyata keçirilib və müvəffəqiyyətlə başa çatdığını aydınlaşdırmaqdan üçün qiymətləndirmə vasitələrindən istifadə olunur. Belə təhlil sayəsində nöqsanlar, səhvlər üzə çıxır.

NƏTİCƏ

Məqalədə qeyd olunanlardan yola çıxaraq qeyd etmək olar ki, qloballaşan cəmiyyətin, inkişafda olan şəxsiyyətin əsas təməlində təlim-tərbiyə dayanır. Təlim inkişafetdirici xüsusiyyətə

malikdir. Təlim cəmiyyəti öz arxasıyca gətirir. Hər bir uşaq anadan olduğu gündən etibarən davamlı yeni şeylər öyrənir və bu da, onun inkişafına dəstək olur. Ailə mühitindən məktəb mühitinə keçən uşaq üçün "öyrənmək" anlayışı yeni məna kəsb etməyə başlayır. Uşaq artıq təlimlə tanış olur və ondan təlimə maraq, yeni şeylər öyrənməyə həvəs yaranır. Təbii ki, burada müəllim, pedaqoq, öyrədəndən çox şey asılıdır. Onun rəhbərliyi altında təlim prosesi müvəffəqiyyətli olur. Müəllim müasir dövrün tələblərinə cavab verən təlim üsullarından səmərəli şəkildə istifadə etməlidir, müasir dövrlə ayaqlaşmağı bacarmalıdır. Təlim texnologiyalarından istifadə etmək də buna misal ola bilər. Təlimin səmərəsi problemli təlim, müasir təlim metodlarından istifadə ilə daha da artır. Müasir təlim metodları şagirdlərdə azad düşüncəyə, müstəqil yaradıcılıq qabiliyyətinin yaranmasına, fikrən yeni ideyaları yaratmağa kömək edir. Müəllim bilikləri hazır şəkildə tələbəyə ötürən zaman sadecə əzbərləməklə yeni mövzu şagirdin yadında qısamüddətli qalırsa burda səmərəli təlim prosesindən danışmaq yersiz olar. Həm təlim texnologiyalarından, həm də təlim metodlarından paralel olaraq istifadə etməklə, təlimin prinsiplərində və qanunauyğunluqlarından yararlanaraq düzgün təlim prosesi və müvəffəqiyyətli təlim nəticəsində danışmaq olar.

ƏDƏBİYYAT

1. Bədəlov Ə.S. / Təlim-tərbiyə - Bakı: ADPU-nəşriyyatı, 2015, 291 s.
2. Cabbarov R.V., Əliyev B.H., Əliyeva K. / Pedaqoji psixologiya – Bakı, 2011, 262 s.
3. Zeynaloğlu C.C. / Təlim fəaliyyətinin psixoloji prosesi – Bakı: Ünsiyyət, 2017, 144s.
4. Həsənov A., Ağayev Ə. / Pedaqogika – Bakı: Nasir, 2007, 496s.
5. İsmixanov M.A. Şagirdlərin müstəqil işi: Təlim prosesində mövqeyi və mahiyyəti // Bakı Universitetinin xəbərləri, - 2008, №2
6.https://bayramovau.wordpress.com/2017/03/05/təlim-və-tərbiyə-nəzəriyyəsi-haqqında-bəzi-fikirlər/amp/
7.http://www.tipii.edu.az/az/article/314-talim-va-onun-komponentlari
8.https://kayzen.az/blog/psixologiya/1768/təlim-və-tərbiyənin-psixologiyası.html

MÜASİR TƏLİM: PROBLEMLƏR VƏ PERSPEKTİVLƏR

Kərimli Gültac

XÜLASƏ

Bu məqalədə təlim prosesinin mahiyyəti, təlimin insan həyatında rolu haqqında danışılır. Təlim texnologiyaları və müasir təlim metodlarının vacibliyi qeyd olunur. Təlim prosesinin uğurlu olması öyrədən və öyrənən arasındakı qarşılıqlı əlaqədən də asılıdır. Fərdin şəxsiyyət kimi yetişməsində təlimin əvəzsiz rolu haqqında danışılır. Qədim dövrlədən günümüzə qədər təlimdə istifadə olunan metod, texnologiya, prinsiplər müqayisəli formada məqalədə öz əksini tapmışdır.

СОВРЕМЕННОЕ ОБУЧЕНИЕ: ПРОБЛЕМЫ И РЕРСПЕКТИВЫ

Гюлтадж Керимли

АННОТАЦИЯ

В этой статье рассматривается сущность учебного процесса, роль обучения в жизни человека. Подчеркивается важность технологий обучения и современных методов обучения. Усрех учебного процесса зависит от диалога между обучающим и обучающимся. Обучение играет незаменимую роль в развитии человека как личности. С древнейших времен до наших дней в статье в сравнительной форме представлены методы, технологии и принципы, используемые в процессе обучения.

MODERN TRAINING: PROBLEMS AND PERSPECTIVES

Gultaj Karimli

SUMMARY

This article discusses the matter of the learning process, the role of training in human life. The importance of learning technologies and modern teaching methods is emphasized. The success of the learning process depends on the dialogue between teacher and student. The role of education in the development of a person as a person is great. The principles of the development of teaching from ancient times to the present day are informed in this article.

KİÇİK MƏKTƏBLİ YAŞ QRUPUNA AİD OLAN ŞAGİRDLƏRİN İNKİŞAFINDA MÜƏLLİMİN PEDAQOJİ ÜSLUBUNUN ROLU

Hacılı Səbinə Əsəd qızı,
BDU-nun II kurs magistrantı
Elmi rəhbər: p.ü.f.d. Əlizadə Səbinə Hikmət qızı,
sabinahacili2@gmail.com

Açar sözlər: ünsiyyət,ünsiyyət vasitələri,pedaqoji ünsiyyət, kiçik məktəb yaş dövrünün xüsusiyyətləri, müəllim, pedaqoji ünsiyyət üslubları.
Ключевые слова: коммуникация, средства связи, педагогическое общение, особенности периода младшего школьного возраста, учитель, педагогические стили общения.
Keywords: communication, means of communication, pedagogical communication, features of the small school age period, teacher, pedagogical communication styles.

Ünsiyyət dedikdə biz nitq və nitqdən kənar təsirin köməyi ilə həyata keçirilən qarşılıqlı münasibəti nəzərdə tuturuq. Ünsiyyət insanlar arasında təmasın yaranması və inkişafı prosesi kimi meydana çıxır. Heç bir insan birliyi oradakı adamlar arasında təmas yaradılmadan birgə fəaliyyəti həyata keçirə bilməz və qarşılıqlı anlaşma baş verməz. Ünsiyyət insanlar arasında birgə fəaliyyət tələbatından doğan təmasın çoxplanlı inkişaf prosesidir. Başqa sözlə, ünsiyyət iki və daha çox insanın münasibətləri aydınlaşdırmaq və ümumi nəticə əldə etmək məqsədilə öz səylərini əlaqələndirməyə və birləşdirməyə yönəlmiş qarşılıqlı təsirinə deyilir.

Ünsiyyət müxtəlif vasitələrlə həyata keçirilir. Onların içərisində nitq xüsusi yer tutur. Ünsiyyətin ekspressiv mimik vasitələri də mühümdür: təbəssüm, tərs baxış, mimika, əl və bədənin ifadəli hərəkətləri, vokal mimikası - bunlardan hər birinin ünsiyyət prosesində öz yeri vardır.

Ünsiyyət prosesində insanlar nəinki mühit haqqında məlumat əldə edir, eyni zamanda müxtəlif adət və ənənələrə yiyələnir ki, bunlar da real varlığın dərk edilməsinə xüsusi istiqamət verir. Deməli ünsiyyət hər şeydən əvvəl obyektiv varlığın dərk edilməsini təmin edən əsas şərtdir. Həyati faktlar göstərir ki, ünsiyyət eyni zamanda psixi proseslərin təzahüründə özünəməxsus tərzdə iştirak edir. Ünsiyyət psixi proseslərin dinamikasına, təzahürünə təsir göstərir və onları daha da mütəhərrik edir. Ünsiyyət eyni zamanda şəxsiyyətin formalaşmasına da müəyyən tərzdə istiqamət verir. Demək olar ki, şəxsiyyətin təşəkkülü ünsiyyət prosesinin məhsuludur. Belə ki, ünsiyyət sayəsində insan keyfiyyətcə dəyişir, onun hərtərəfli, ahəngdar inkişafı mümkün olur, o, müəyyən ictimai vəzifəni yerinə yetirir, sosial rolu ifa edir, zəruri rəftar və davranış normalarına, praktik fəaliyyət vərdişlərinə yiyələnir, ətraf aləmə fəal surətdə təsir göstərməyə can atır.

Məktəb mühitində həyata keçirilən ünsiyyət forması pedaqoji ünsiyyətdir. Pedaqoji ünsiyyət müəllimin şagirdlərlə təlim-tərbiyə proseslərində həyata keçirdiyi peşə ünsiyyətidir. Pedaqoji ünsiyyət üslubunun düzgün seçilməsi müxtəlif yaş dövrlərində müxtəlif cür təzahür edir. Kiçik məktəbli yaş qrupuna aid olan uşaqların inkişafında müəllimin pedaqoji ünsiyyət üslubunun əhəmiyyətinə nəzər salaq.

Kiçik məktəb yaşı 6-10 yaşı əhatə edir. Bu dövrün başlıca xüsusiyyətləri-uşağın məktəbli olması, əsas fəaliyyətini təlim fəaliyyəti təşkil etməsindən ibarətdir. Bu dövrdə inkişafetdirici oyunlar təlimdən sonra ikinci yeri tutur. Bu dövr bir növ keçid dövrü olub, məktəbəqədər dövrün xüsusiyyətləri ilə məktəblinin xüsusiyyətlərini birləşdirir. Şəxsiyyətin bir çox psixi xüsusiyyətlərinin əsası məhz bu dövrdə qoyulur. Məktəbə təzəcə daxil olduğu vaxt rastlaşdığı

çətinliklər kiçik məktəb yaşının sonunda aradan qalxmış olur, təlim fəaliyyəti oyundan tamamilə fərqli xüsusiyyətlərini əldə edir. Məktəbə təzəcə daxil olan uşaq bir sıra problemlərlə qarşılaşır. O, artıq şagirddir. Buna görə də şagirdlər üçün nəzərdə tutulan qaydalara əməl etməli, həmişə eyni vaxtda zənglə sinfə girib sinifdən çıxmalı, bütün dərs ərzində sakit oturmalı, sinifdən çıxmaq və ora daxil olmaq üçün müəllimdən icazə almalı, onun bütün tələb və göstərişlərini yerinə yetirməli olur. Bunlarla yanaşı olaraq uşağın ünsiyyət sahəsi genişlənir, tamamilə yeni adamlarla: müəllimlər və həmyaşıdları ilə rastlaşır, onlarla birgə fəaliyyət zamanı ünsiyyətə girməli olur. Müəllim onun yeni nüfuz sahəsinə çevrilir. Tədricən sinif kollektivində qarşılıqlı münasibətlər formalaşır. Bütün bunlara uşaqlar asanlıqla alışa bilmirlər. Burada uşağın məktəbə psixoloji hazırlığından çox şey asılı olur.

Məktəb təcrübəsi göstərir ki, məktəbə yeni daxil olmuş uşaq öz həyat tərzində, gün rejimində, onu əhatə edənlərlə münasibətində dəyişiklik etmədən məktəb həyatına uyğunlaşa bilmir. Ona görə də məktəb həyatı uşaq üçün cansıxıcı olur, bu vəziyyətdən çıxmaqda çətinlik çəkir. Bu cür çətinliklərin aradan qaldırılması və uşağın öz həyat tərzi və münasibətlərində dəyişiklik etməsi işində müəllimlərin üzərinə ciddi vəzifələr düşür. Müəllimin qayğıkeş yanaşması bu prosesin asanlıqla keçməsinə səbəb olur. Xüsusilə birinci sinfə qəbul olunmuş uşaqlar öz davranışlarını tənzim etməkdə çətinlik çəkirlər. Birinci sinif şagirdlərinin çoxunda uzun müddət özünü eyni vəziyyətdə saxlamaq, özünü idarə etmək üçün iradi güc çatmır.

Qeyd etdiyimiz kimi, kiçik məktəbli yaş qrupuna aid olan şagirdlərin adaptasiyasında, inkişafında əsas öhdəlik müəllimin üzərinə düşür. Müəllim və şagird arasında qarşılıqlı hörmət olmalıdır, müəllim şagirdə sevgi, məhəbbətlə və eyni zamanda ciddi yanaşmalıdır. Müəllim şagirdi bir şəxsiyyət kimi görməli, onun mənliyinə, şəxsiyyətinə toxunan söz deməməli, hərəkət etməməlidir. Nə qədər sözə baxmayan, nadinc şagird olsa belə,müəllim özünün pedaqoji metodlarından istifadə edib xoş, isti münasibət yaratmalıdır.Müəllim öz şagirdlərini sevməlidir, onların psixoloji yaş və əqli keyfiyyətlərini nəzərə almalıdır. Fərdi xüsusiyyətləri bilmək müəllimə imkan verir ki, şagirdlərin hər birinə düzgün yanaşa bilsin.

Düzgün humanist və demokratik yanaşma müəllimi hakim, şagirdi isə günahkar vəziyyətdən çıxarır, onların arasında dostluq və hörmət münasibətlərinin formalaşmasına şərait yaradır. Şəxsiyyətinə hörmət edilən şagird öz ləyaqətini dərk edir, özünün cəmiyyətə, xalqına layiq bir vətəndaş olacağına, həyatda layiqli yer tutacağına inanır. Müəllim şagirdin şəxsiyyətinə hörmət etməklə onun qəlbinə, mənəviyyatına bir sakitlik bəxş edir. Müəllim şagirddə dosta, xalqa, vətənə qarşı məhəbbətlə yanaşı, düşmənə nifrət oyatmalıdır. Düşmənə nifrət oyatmaq vətənpərvərlik tərbiyəsinin mühüm tərkib hissəsidir. Bu hisslərə istinad etməklə şagirdləri vətənin müdafiəsinə hər an hazır olmağa hazırlamaq günümüzün tələbidir.

Bütün bu sadalananların təməli, məhz kiçik məktəb yaş dövründən qoyulur. Kiçik məktəb yaş dövrünə aid olan şagird üçün məktəb mühiti yeni mühitdir. O, gün ərzində vaxtının böyük hissəsini müəllimlə keçirir. Bu səbəbdən də şagird üçün müəlliminin obrazı onun üçün ideala çevrilir. Şagird müəllimini diqqətlə izləyir, onun söz və davranışlarını məktəb və məktəbdənkənar mühitdə təqlid etməyə başlayır. Buradan aydın olur ki, müəllimin təlim-tərbiyə prosesində istifadə etdiyi pedaqoji ünsiyyət üslubları nə dərəcədə əhəmiyyətli rol oynayır. Buna görə də müəllim pedaqoji ünsiyyət üslubunu seçərkən çox diqqətli olmalı və şagirdlərin fərdi psixoloji xüsusiyyətlərini də mütləq nəzərə almalıdır.

Kiçik məktəblilər üçün hər şey tezliklə maraqsızlaşa bildiyindən məktəbdə onlar üçün elə şərait yaradılmalıdır ki,təlim və tərbiyəvi təsirlər cansıxıcı fəaliyyətə çevrilməsin. Şagirdlər bacarıqlarını utanmadan, sıxılmadan nümayiş etdirə bilsinlər.

Məktəbdə şagird üçün elə demokratik şərait yaradılmalıdır ki, təlim əməyi və tərbiyəvi təsirlər şagird üçün cansıxıcı fəaliyyətə çevrilməsin. Şagird öz bacarığını, nəyə qadir olduğunu

nümayiş etdirə bilsin. Bunun üçün məktəbdə müəllim-şagird münasibətləri səmimiyyətə və qarşılıqlı etimada əsaslanmalıdır.

Təcrübə göstərir ki, müəllim şəxsiyyətinin şagirdə təsirini heçnə heç nə ilə əvəz etmək mümkün deyil. Müəllimin sözü ilə əməli arasında fərq olmamalıdır. Hazırkı dövrün müəllimi hərtərəfli biliyə, elmi-texniki nailiyyətləri tətbiq edə bilmək bacarığına malik olmalıdır. Şagirdin də məhz bu tələblər səviyyəsində hazırlanması onun pedaqoji əməyinin əsas məqsədi olmalıdır. Bu məqsədə nail olmaq üçün müəllim dövri mətbuatı müntəzəm izləməli, qabaqcıl pedaqoqların yeniliklərini öyrənib öz işində tətbiq etməlidir.

Pedaqoji fəaliyyətin düzgün qurulması və kiçik məktəblilərin yaranmış çətinlikləri aradan qaldıra bilməsi üçün müəllimin seçdiyi pedaqoji ünsiyyət üslublarının əhəmiyyəti çox önəmlidir. Bildiyimiz kimi əsas pedaqoji ünsiyyət üslubları bunlardır: avtoritar, liberal, demokratik.

Bu sahədə tədqiqat aparan müəlliflərin əksəriyyəti ən səmərəli ünsiyyət üslubu kimi demokratik üslubu qeyd edirlər. Belə rəhbərlik üslubundan şagird subyek kimi qavranılır. Bu cür rəhbərlik üslubuna malik olan müəllim şagird kollektivi ilə razılaşır. Qərar qəbul edərkən kollektiv və onun liderinin təklifini nəzərə alır. Məktəblilərin müstəqilliyini boğmur, şagirdlərə daim xahiş, məsləhətlə yanaşır, müsbət emosional əlaqəyə üstünlük verir. Bu cür ünsiyyət üslubuna malik olan müəllimlər şagirdlərin fərdi xüsusiyyətlərini və şəxsi təcrübələrinin, fəallıq və tələbatlarını nəzərə almağa çalışırlar. Belə müəllimlərdə neqativ ustanovka olmur və ya onu təzahür etmirlər. Onlar qiymətləndirmədə obyektiv, təmas yaratmaqda isə təşəbbüskardırlar. Təcrübə göstərir ki, pedaqoji ünsiyyətin demokratik üslubundan istifadə edən müəllimlərlə şagirdlər arasında olduqca səmərəli təmas yaranır. Şagirdlər bu cür müəllimlərlə ünsiyyətə can atır, onlardan hər cür köməklik gözləyirlər.

Müəllim seçdiyi pedaqoji üslubun nəticəsini olduğu kimi şagird şəxsiyyətinin davranışında görür. Bu səbəbdən də doğru seçilmiş pedaqoji üslubla şagirdin daxili aləminə nüfuz edib onun inkişaf səviyyəsini düzgün müəyyənləşdirib qiymətləndirmək mümkündür.

ƏDƏBİYYAT

1. Ə.S.Bayramov, Ə.Ə.Əlizadə. B19 Psixologiya, Ali məktəblər üçün dərslik.
2. Prof. S.Ğ.Seyidov və prof. M.Ə.Həmzəyev. Psixologiya. Bakı.2007.
3. A.H. Леонтьев. Проблемы развития психики. M., 1972, c.342. 550
4. Bityanova M.R. Məktəbdə psixoloji işin təşkili.M.1998
5. Əfəndiyeva Ü.A. Ünsiyyət və qarşılıqlı münasibətlər məktəbə psixoloji hazırlığın əsası kimi.
6. Qədirov Ə. Yaş psixologiyası. Bakı: Maarif,2002.

KİÇİK MƏKTƏBLİ YAŞ QRUPUNA AİD OLAN ŞAGİRDLƏRİN İNKIŞAFINDA MÜƏLLİMİN PEDAQOJİ ÜSLUBUNUN ROLU

Hacılı Səbinə

XÜLASƏ

Bu məqalədə ünsiyyət prosesi, kiçik məktəb yaşının xüsusiyyətləri təhlil olunur. Gənc şagirdlərin uyğunlaşmasında və inkişafında müəllimin rolu əvəzolunmazdır.Bunun üçün müəllim gənc tələbələrlə işləyərkən düzgün pedaqoji ünsiyyət üslubunu seçməyi bacarmalıdır. Əks təqdirdə inkişaf prosesi denaturasiya ediləcəkdir.

РОЛЬ ПЕДАГОГИЧЕСКОГО СТИЛЯ УЧИТЕЛЯ В РАЗВИТИИ УЧАЩИХСЯ МЛАДШЕЙ ШКОЛЬНОЙ ВОЗРАСТНОЙ ГРУППЫ.

Гаджили Сабина

АННОТАЦИЯ

В статье анализируется коммуникативный процесс, особенности младшего школьного возраста. Роль учителя незаменима в адаптации и развитии юных учеников.

Для этого педагог должен уметь правильно выбирать стиль педагогического общения при работе с юными учениками. В противном случае процесс проявления будет денатурирован.

THE ROLE OF THE TEACHER'S PEDAGOGICAL STYLE IN THE DEVELOPMENT OF STUDENTS BELONGING TO THE YOUNGER SCHOOL AGE GROUP

Hajili Sabina

SUMMARY

This article analyzes the communication process, the characteristics of the small school age. The role of the teacher is irreplaceable in the adaptation and development of young students.

To do this, the teacher must be able to choose the right style of pedagogical communication when working with young students. Otherwise, the development process will be denatured.

MÜASİR DÖVRDƏ YENİYETMƏLƏRDƏ AQRESSİV DAVRANIŞIN YARANMA SƏBƏBLƏRİ

Elmi rəhbər: professor Elnarə Şəfiyeva
BDU-nun Psixologiya Kafedrası
Kazımova Məhbubə Məcid qızı
BDU-nun I kurs magistrantı
naidoc890@yahoo.com

Açar sözlər: aqressiya,yeniyetmə,kompyuter oyunları
Keywords: aggression,videogames,teenager
Ключевые слова: агрессия,видеоигры, подросток.

Müasir cəmiyyətdə aqressiv yeniyetmələrin sayı artmaqdadır.Bu təkcə psixoloqlar üçün deyil,bütün cəmiyyət üçün böyük problemdir.

Yeniyetməlik dövrü insan inkişafının ən çətin dövrlərindən biridir. Məhz bu dövrdə xarakterin və şəxsiyyətin formalaşması üstünlük təşkil edir. Böyüməkdə olan uşağa çoxsaylı daxili və xarici faktorlar təsir edir. Böyüklərin təsirindən ,himayəsindən tədricən çıxırlar, sərbəstliyə ilk addımlar atırlar,yeni sosial fəaliyyyətlərlə maraqlanırlar.Həmçinin hormonal dəyişikliklər də öz rolunu oynayır. Bu faktorlar yeniyetmələri ətraf mühitdən gələn mənfi təsirlərə həssas edir. Yeniyetmələrin cəmiyyətdə öz yerlərindən narazı olmaları,böyüklərin onları anlamamalarına qarşı etirazlarını aqressiyanın səbəblərindən saymaq olar.

Aqressiyanın artmasına bir neçə səbəb vardır:

-Yeniyetmələrin sosial şərtlərinin pisləşməsi.

-Ailə tərbiyəsində böhran.

-Sinir psixi problemləri olan uşaqlara məktəbdə və evdə diqqətsizliyin olması.

-Uşaqlarda anadangəlmə və sonradan qazanılma beyin zədələnmələri.

Bununla bərabər yeniyetmələrdə aqressivliyin inkişafı onun temperamentinin xüsusiyyətləri də təsir edə bilər,məsələn qıcıqlanma və emosiyanın gücü hansı ki,çılğınlıq, qıcıqlıq, özünü idarə etməmək,özünü cilovlamaq və s. Təbiidir ki, frustrasiya vəziyyətində bu cür psixikaya malik yeniyetmə daxili gərginlikdən çıxış yolunu verbal və fiziki aqressiyada axtarır.

Aqressiya latıncadan tərcümədə(aqqresio)-hücum deməkdir. Bu termin hal-hazırda həm neqativ emosiyalarla,həm də neqativ motivlərlə(zərər vermə kimi) bağlı zorakı xarakter daşıyan fəaliyyəti nəzərdə tutur.

Beron və Riçardson aqressiyaya belə aydınlıq gətirirdilər.Aqressiya bütün hallarda digər bir şəxsə yönəlmiş təhqir və ziyan verm**ə**dir

Rus psixoloqları E.A.Çeprakova "Ailənin və ailə münasibətlərində aqqresiyanın yaranması problemləri", Y.B. Mojqens,A.A Rean, L.M Semenyuk "Yaş və cinsə görə aqressiv emosional pozğunluqların korreksiyası", T.P.Smirnova "Yeniyetmə və uşaqlarda aqressiyanın yaranmasında kütləvi informasiya vasitələrinin rolu" mövzularını öyrənmişlər.

Aqressiya və aqressivlik terminlərini ayrı-ayrılıqda nəzərdən keçirək.

Aqressiya –fiziki və ya psixoloji ziyanvurmanın hər hansı şəxsə və ya kollektivə qəsdən yönəldilməsidir.

Aqressivlik-şəxsiyyətin xarakterinin nisbi dayanıqlı xüsusiyyətidir. Bu zaman digər şəxsin hərəkətləri və davranışı özünə qarşı qərəzli saymaq və interpritasiya etməkdir.

Aqressiv davranış-şəxsin fəaliyyəti nəticəsində digər bir şəxsə fiziki və mənəvi ziyan vurmaqdır. Çox psixoloji lüğətlərdə aqressiya,məqsədyönlü ziyanvermə kimi müəyyən olunur.

Amma çox vaxt aqressivlik məqsədyönlü deyil, şəxsin həyat fəaliyyəti dövründə zərərli təsir kimi meydana çıxır və bu zaman həmin şəxs nə etdiyinin fərqinə belə varmır. Aqressiyanın aşağıdakı növlərini müəyyən etmək olar:

-Fiziki aqressiya (hücum)-fiziki qüvvənin digərinə qarşı istifadə etmək.

-Dolayı aqressiya-yan fəaliyyət ilə yəni dedi-qodu,kinayəli zarafatlarla. Həmçinin nifrət partlayışları (qışqırma, ayaqları çırpma, stola yumruq vurma, qapıları bərk vurma və s).

-Verbal aqressiya-neqativ hislərin, qışqırıq, mübahisə, ciyilti yolu ilə, həmçinin sözlü təhdid, söz davası və qarğışlarla ifadə olunması.

-Qıcıqlanmaya meyllilik-kiçik qıcıqlara qarşı belə kobudluk.

-Neqativizm-müxalif davranış manerası-passiv müqavimətdən aktiv mübarizəyə qədər ola bilər.

Düşmənçilik reaksiyalarına aiddir:

-Hirslilik -ətrafdakılara paxıllıq və nifrət hissi-buna səbəb ətrafdakıları öz uğursuzluqlarnda günahlandırma.

-Şübhəlilik-inamsız və ehtiyatlı davranış. Buna səbəb isə ətrafdakı insanların ona zərər yetirəcəyinə inanması.

Form hesab edirdi ki,aqressiyanın "xoşxassəli" və "bədxassəli".

Xoşxassəli təhlükə zamanı yaranır və müdafiə xarakteri daşıyır.

Bədxassəli aqressiya-özlüyündə destruktivlik,qəddarlıq kimi xarakterizə olunur və çox vaxt şəxsiyyətin strukturundan asılı olaraq spontan baş verir.

Beləliklə aqressiya insan davranışı ,aqressivlik isə şəxsiyyətin psixi xüsusiyyəti kimi ayırd edilir.

Yeniyetmə yaşlarında aqressivlik adi hal kimi qəbul edilə bilər. Sosiallaşma prosesində aqressiv davranış bir sıra vacib funksiyaları yerinə yetirir. Normada aqressivlik qorxudan azad edir, öz maraqlarının üstündə durmaq və ətraf təhdidlərdən müdafiə olunmağa,adaptasiyaya kömək edir. Bunlardan irəli gələrək aqressiyanın daha iki formasını qeyd etmək olar:

1) Xoşxassəli adapatasiya

2) Destruktiv adaptasiya

Yeniyetmələr üçün aqressiyanın özü deyil,onun nəticəsi və ətrafdakıların düzgün olmayan reaksiyaları daha qorxuludur. Aqressivlik nəticəsində yeniyetmələr diqqət mərkəzində olmaq hissi,güclülük hissi, maddi və digər üstünlüklərinin olduğunu düşünürlər. Onlar güclərinə görə digərlərindən üstün olduğunu fikirləşirlər.

Gender fərqlərinə görə də aqressiyanın fərqləri var. Oğlanlar fiziki güc ilə, qızlar isə daha çox verbal və dolayı aqressiyaya üstünlük verirlər.

Son zamanlar müzakirə olunan məsələrdən biri də kütləvi informasiya vasitələrinin və sosial şəbəkələrin yeniyetmələrə mənfi təsir göstərməsidir. Kütləvi informasiya vasitələrinin mənfi təsiri olması fikrini müdafiə edənlər hesab edirlər ki,yeniyetmələr digər insanların aqressiv davranışını izləyərək aqressivliyə meylli olurlar. Sosial şəbəkələrdə və kütləvi informasiya vasitələrində olan aqressiv davranışlar ən çox uğursuz ailələrdən olan yeniyetmələrə təsir edir. Eləcə də kompyuter oyunlarına meyllilik yeniyetmənin inkişafına mənfi göstərir. Bu oyunlardan asılılıq alkoqol ,siqaret və narkotik asılıq kimi təhlükəlidir və "əsrin xəstəliyi"hesab olunur. Qacetlərdən asılılıq xüsusilə yeniyetmələrdə baş verən bir haldır. Statistikaya əsasən belə asılılıq daha çox yeniyetmə oğlanlarda rast gəlinir. Uşaqların virtual aləmə meyllənməsinə çətinliklər, yaşıdları ilə ünsiyyətin azlığı,valideynləri tərəfindən diqqətin kifayət qədər olmaması, öz gücünə inanmama (bu daha çox hormonal fonda baş verən dəyişikliklərlə əlaqədar olur) kimi faktorlar təsir edir. Uşaq bu reallıqlardan qaçaraq uydurulmuş virtual dünyada yaşamağa çalışır.

Yeniyetmələrin tamamilə aludə olduğu virtual aləm zorakılıq,qətl,qəddarlıq elementləri ilə doludur. Ona görə də uşaqlara kompyuter oyunları oynamağa icazə verəndə bunun nə ilə nəticələnəcəyini anlamaq lazımdır.

Bir çox pedaqoq və psixoloqlar kompyuter oyunlarından asılılığı olan yeniyetmələrin daha çox qıcıqlanmış,aqressiv, təhsilə laqeyd olduqlarını və onlarda mənfi keyfiyyətlərin atmasını vurğulayırlar.

Bazarda olan video oyunların mövzularına nəzər yetirdikdə onların çoxunun hərbi, kriminal, fantastik(mutant və zombi qəhrəmanları olan) və idman (tez-tez aqressiv maşın sürmə ilə müşahidə olunan)xarakterli olduğunu görmək olar.

Aparılan analizlərə görə internetdə ən çox yüklənən 100 oyundan yalnız 10 % də(100dən 10-u)qətl səhnələri,zorakılıq, dava,cinayət hadisəsi ,zombi və mutantlar tərəfindən izlənmə və fəlakət yoxdur.

Təbii ki,bu cür oyunlar onsuz da emosional cəhətdən dözmsüz və tez–tez əhval ruhiyyəsində dəyişiklikər baş verən yeniyetmələrin psixikasına pis təsir edir.Əksər kompyuter oyunlarında qəddarlıq və aqressiya normal davranış hesab olunur. Yeniyetmələr isə çox vaxt özlərini oyun personajlarıyla,o cümlədən qəddar oyun qəhrəmanlarıyla eyniləşdirirlər.

Uğursuz ailələr aqressiv yeniyetmələrin formalaşmasında ön mövqelərdə dururlar. Yaxşı məlumdur ki,aqressiya təkcə düşmənə,rəqibə,yadlara qarşı olmur, həmçinin ailədaxili aqressiyaya da rast gəlinir. Uğursuz ailələrdə fiziki və psixoloji aqressiyaya tez-tez rast gəlinir. Ailədaxili aqressiya müxtəlif cür biruzə verilir. Bu fiziki və seksual zorakılıq, soyuqluluq, təhqir,şəxsiyyətin alçaldılması, uşağı qəbul etməmə,konfliktə meyllilik,uşaq və valideyn arasında emosional uçurum,ailədəki başqa uşaqlar ilə pis münasibətlər, qeyri-adekvat ailə tərbiyəsi şəklində ola bilər. Ailə üzvləri özləri aqressiya göstərirlər və yaxud da hər hansı bir davada "qalib çıxan" uşağı dəstəkləyib onunla "qürur duyurlar".

Aqressiv yeniyetmələr öz şəxsiyyətlərindəki fərqliliklərə ,özlərini aparmaq xüsusuiyyətlərinə görə fərqlənsələr də onların ümumi ortaq bənzərlikləri var. Buna dəyər vermək hisslərinin kasad olması,hər hansı bir məşğuliyyətlərinin olmaması ,dar və daimi olmayan maraqlar aiddir. Bu uşaqlarda aşağı səviyyəli inteklekt, təlqinin yüksək olması, özlərini başqalarına bənzətmə, əxlaqi dəyərlərin olmaması xüsusiyyətləri olur. Emosional kobudluq,acıqlılıq(öz yaşıdlarına və hətta ətrafdakı böyüklərə qarşı) bu yeniyetmələrə xasdır. Onlarda özünü qiymətləndirmə ya maksimum yüksək, ya maksimum aşağı olur. Yüksək narahatlılıq, geniş sosial əlaqələr qarşısında qorxu hissi, eqoizm, çətin vəziyyətlərdən çıxış yolu tapmamaq, müdafiə mexanizminin digər mexanizmlər üzərində üstünlük təşkil etməsi müşahidə olunur. Bununla yanaşı bəzən intellektual və sosial inkişaf etmiş yeniyetmələrə rast gəlinir. Bu yeniyetmələrdə aqressivlik prestijin yüksəldilməsi məqsədilə istifadə olunur, öz müstəqilliyini nümayiş etdirmək yolu seçilir.

Yeniyetmələrdə aqressiya özünəzərəryetirmə,evdən qaçma kimi biruzə verilir. Qorxaq olanlara,özlərinin sevilmədiklərini düşünənlərə rast gəlinir, özünütəsdiq üçün başqa üsul tapmadıqda aqressiv olurlar. Problemlərinə etinasız yanaşma, dəstəyin olmaması, emosional çökməyə səbəb olur.

Bioloji, sosioloji, psixoloji amillərin rolunu bir daha qeyd etmək istərdim. Yeniyetmə aqressiyasının təzahürü təkcə uşağın inkişafında olan problemlər deyil, həm də situativ amillər təsir göstərə bilər.

Yeniyetmələrdə aqressivliyə səbəb və aqressivliyin xarakterinin öyrənilməsi müəyyən təsnifat aparmağı tələb edir. Müxtəlif ədəbiyyatlarda müxtəlif təsnifatlar təklif olunur. Əsas iki qrupa bölünən təsnifatda:

-Sosiallaşmada cəmiyyətə müxalif olan yeniyetmələr. Bu yeniyetmələr üçün psixi emosional pozğunluqlar xarakterik deyil.

-Sosiallaşmayan aqressiv yeniyetmələr. Bu yeniyetmələr üçün psixi emosional pozulmalar xarakteridir.

Andreenko, Qerbeef, Nevski çətin tərbiyə olunan uşaqları belə təsnif edirdilər:

-pedoqoji baxımsız.

-sosial baxımsız.

-həddən artıq sosial baxımsız.

S.A.Beliçeva təsnifatında isə 3 qrup ayırd edilir:

-dərin pedoqoji baxımsız yeniyetmələr.

-affektiv pozğunluq olan yeniyetmələr.

-konfliktli uşaqlar.

Fişbaxa görə 3 tip aqressiya var:

-təsadüfi.

-vasitəli.

-düşmənçilik.

Yeniyətmələr üzərində aparılan testlər, anket -sorğu, müşahidə nəticəsində L.M.Semenyuk 4 qrup müəyyən etmişdir.

-Anomal, mənəvi, ibtidai ehtiyacları dayanıqlı kompleksləri olan yeniyetmələr. Onlara eqoizm, başqalarına qarşı etinadsızlıq,birgə yaşayışa öyrəşməmə, qəddarlıq, kobudluq, özündənçıxma, davakarlıq xasdır. Davranışlarında fiziki aqressiya üstünlük təşkil edir.

-Deformasiyalı ehtiyacları və dəyərləri olan yeniyetmələr. Bu və digər dərəcədə geniş maraqları olur, kəskinləşmiş fərdilikləri ilə seçilirlər. Kiçik və zəifləri sıxışdırmaq hesabına müəyyən yer tutmaq istəyirlər. Fiziki gücü situasiyadan asılı olaraq yalnız zəiflərə qarşı istifadə edirlər.

-Deformasiyalı və müsbət ehtiyacları arasında konfliktləri olan yeniyetmələr. Yalançılıq, aradüzəltmə, aravuranlıq,aldatma kimi xüsusiyyətlər müşahidə olunur. Onlarda dolayı və verbal aqressiyalar üstünlük təşkil edir.

-Zəif deformasiyalı ehtiyacları olan yeniyetmələr müəyyən maraqları olmayıb, dar ünsiyyət dairəsi olanlar. İradəsiz, şübhələnən, qorxaq və qisasçı olurlar. Daha güclü yoldaşlarına yaltaqlanırlar, onların davranışda verbal aqressiya və neqativizm üstünlük təşkil edir.

ƏDƏBİYYAT

1. Анализ влияние компьютерных игр на агрессивное поведение подростков. Першина К.В,2019

2. Агрессия у детей и подростков.Н.М.Платонова,2004, www.psy.su

3. Клиническая психология. А.В.Фролова,А.Ф.Минуллина, Казань 2013(часть первая)

4. Причины агрессивного поведение подростков и способы его профилактики, А.С.Васильева,2012

5.Психологические особенности агрессивности в подростковом возрасте. С.О.Кузнецова, А.А.Абрамова,2014

6.Psychocorrecional work of a practical psychologist with aggressive behaviour of children and teenager. Feruza Rasulova Miss,2020

7. Агрессивность детей и подростков.Можгинский Ю.В,2008

MÜASİR DÖVRDƏ YENİYETMƏLƏRDƏ AQRESSİV DAVRANIŞIN YARANMA SƏBƏBLƏRİ

Kazımova Məhbubə

XÜLASƏ

Bu məqalə yeniyetmə uşaqlarda aqressiyanın səbələri və nəticələri haqqındadır. İlk öncə aqressiya nədir sualına cavab axtarılıb. Müxtəlif müəlliflərin aqressiya barədə fikirləri bu məqalədə yer almışdır. Aqressiyanın yeniyetmələrin sağlamlıqlarına və həyat tərzlərinə təsiri barədə fikirlər yürüdülmüş,eləcə də kompyuter oyunlarının, sosial şəbəkələrin yeniyetmə psixologiyasına təsiri qeyd edilmişdir.

ПРИЧИНЫ АГРЕССИВНОГО ПОВЕДЕНИЯ У СОВРЕМЕННЫХ ПОДРОСТКОВ

Казимова Махбуба

АННОТАЦИЯ

Это статья о причинах и последствиях агрессии у подростков. В первую очередь уточняется что такое агрессия. В статье присутствует мысли разных авторов об агрессии. Рассматривается вопросы о влиянии агрессии на здоровья и жизненную деятельность подростков. Затрагивается темы влияние компьютерных игр и социальных сетей на психологию подростков.

CAUSES OF AGGRESSIVE BEHAVIOR IN MODERN TEENAGERS

Kazimova Mahbuba

SUMMARY

This article is about the causes and results of aggression in adolescents. Firstly, the cause of aggression was researched, and different authors were able to discover different opinions as to why teenagers face aggression. It was discovered that aggression can affect an adolescent's health and lifestyle. It is also noted that computer games have had a huge impact on the psychology of teenagers.

XRONİKİ SOMATİK XƏSTƏLİYİ OLAN YENİYETMƏLƏRİN EMOSİONAL ŞƏXSİYYƏT SFERASININ XÜSUSİYYƏTLƏRİ

Əliyeva Türkan Mahir qızı
BDU-nun II kurs magistrantı
aliyeva.turkan.128@gmail.com

Açar sözlər: yeniyetməlik dövrü, xroniki xəstəlik,somatik xəstəlik, ürək-damar xəstəliyi, emosional sfera, həyəcan, depressiya
Ключевые слова: подросток период, хроническое заболевание, соматическое заболевание, сердечно-сосудистъе заболевания, эмоциональная сфера, волнение, депрессия
Keywords: adolescence period, chronic disease, somatic disease,cardiovascular disease, emotional sphere, excitement,depression

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) 2007-ci il hesabatında 2020-ci ilə qədər inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə əsas ölüm səbəbini xroniki xəstəliklərin təşkil edəcəyini bildirdi. Bu gün xroniki xəstəliklər xüsusilə uşaqlar və yeniyetmələr üçün artan ən başlıca sağlamlıq problemlərindən birinə çevrilməkdədir [3, s.71-90].

Xroniki xəstəliklərlə bağlı ədəbiyyatlarda bir çox tərif var. İlk tərif L.Mayo (1956) tərəfindən verilmişdir və bugün də istifadə olunur. Bu tərifə görə xroniki xəstəlik; normadan kənara çıxan, pataloji dəyişikliklər nəticəsində meydana gələn, xəstənin reabilitasiyası üçün xüsusi təhsil və uzun müddət qayğı, nəzarət tələb edən bir vəziyyət olaraq təyin edilir [4, s.4-6].

Pless və Pinkerton, xroniki xəstəliyi; gündəlik həyata bir ildə üç aydan çox maneə törədən və ya ildə bir aydan çox xəstəxanaya yatmağı tələb edən bir şərt olaraq təyin edir [5, s. 26].

Xroniki xəstəliklərin üç əsas xüsusiyyəti var:

1. Psixolojifizioloji və idrak mənşəli olur;
2. Xəstənin funkisonal məhdudiyyətləri və dəstəkləyici yardıma ehtiyacı var;
3. Vəziyyəti davamlıdır və ya ən azı 12 ay davam edəcəyi gözlənilir [6, s.3-5].

Yeniyetməlik psixoloji və fizioloji dəyişikliklərin çox sıx rastlanıldığı bir yaş dövrüdür. Yeniyetmələr keçirdikləri yaş dövrünün mürəkkəbliyinə görə xroniki xəstəlikləri daha çox çətinliklə yaşadıqları bildirilir.

Yeniyetməlik dövründə fiziki görünüş və bədənin funksional quruluşunun yerində olması yeniyetmələr üçün çox vacibdir. Xəstəlik səbəbindən fiziki qüsur və bədən funksiyalarının itirilməsi özünə inama və özgüvənə mənfi təsir edir [7, s. 244].

Xroniki xəstəliklərə verilən psixososial reaksiyalar, xəstənin psixoloji bütövlüyünü qorumaq üçün ortaya çıxan bütün koqnitiv, emosional və davranış reaksiyalarını əhatə edir [8, s.101].

Xronik xəstəliyi olan yeniyetmələr xəstəxanaya yerləşdirilmə, fəaliyyətlərinin məhdudlaş-dırılması, məktəbdən kənar qalma və sıxıcı müalicə müdaxilələrinin tətbiqi kimi bir çox stress faktorları ilə qarşılaşırlar. Bu stresslər özü ilə birlikdə müxtəlif cür qorxu (digər dostlarından fərqli olma, idarəetmənin itirilməsi, fiziki bütövlüyünün itirilməsi, ölüm və s.), təşviş, aqressiya, şok və günahkarlıq duyğularını yarada bilir.

Edilən araşdırmalara görə xroniki xəstəliyi olan yeniyetmələr sağlam yeniyetmələrə nisbətən daha çox psixososial uyğunlaşma riskinə sahib olduqları müəyyən edilmişdir. Onlarda daha çox depressiv simptomlar, təşviş, özgüvənin aşağı olması kimi emosional çətinliklərin olduğu müəyyən edilmişdir [9, s.32-36].

Müstəqillik qazanma mərhələsində olan bir yeniyetmənin xəstəxanaya yerləşdirilməsi, xəstənin bədəninin nəzarətdə olduğu hissi yeniyetməni daha çox qəzəbləndirə və bir çox

problemli situasiyanın yaradılmasına səbəb ola bilər [10, s.519-533].

Xəstəxanaya yatırılan yeniyetmələrdə depressiyanın rast gəlinmə sıxlığı 20-40% arasında olduğu müəyyən olunmuşdur [11, s.1177-1193].

Yeniyetmələrlə aparılan bir çox tədqiqatlara görə xroniki xəstəliyi olan yeniyetmələr, sağlam olan yeniyetmələrə nisbətdə daha çox təşviş və depressiya riski daşıdıqları aşkar edilmişdir [12, s.217-225].

Təşviş, depressiv əhval-ruhiyyə və digər emosional pozuntuların əlamətləri ümumiyyətlə həyati təhlükəsi olan yaxud olmayan hər hansısa bir somatik xəstəlik zamanı özünü biruzə verir. Buna misal olaraq hər hansısa xəstəliyin ilkin diaqnozu qoyulduqda, cərrahiyə əməliyyat öncəsi və s. kimi hallarda xəstədə ilkin olaraq verilən reaksiyaların ilk təzahürü özünü emosiyalarda göstərmiş olur.

Tədqiqatlar göstərir ki, xroniki xəstəlikləri olan yeniyetmələrdə intihar meyli, depressiv əhval-ruhiyyə yüksəkdir. Onlar öz özgüvənlərini aşağı hiss edirlər [13, s. 29].

Hər bir xroniki xəstəliyi olan yeniyetmə keçirdiyi xəstəliyin növündən, fərdi-psixoloji xüsusiyyətlərindən asılı olaraq xəstəliyə müxtəlif şəkildə emosional reaksiya vermiş olurlar.

Onkoloji xəstəlikdən əziyyət çəkən yeniyetmələrin psixoloji simasında güclü dəyişikliklər gedir. Bu dəyişikliklər təkcə yeniyetmənin emosional sferasında deyil, bütün şəxsiyyət xüsusiyyətlərində özünü kəskin şəkildə biruzə verir. Bu kimi xəstəlikdən əziyyət çəkən yeniyetmələrin psixi pozulmalarının mənzərəsi psixogen xarakterli olur. Bir neçə həftə xəstədə affekt halları olur, sonra o, situasiyaya uyğunlaşır.

Bu xəstəlikdən əziyyət çəkən yeniyetmələrin əhval-ruhiyyəsi astenikdir və darıxmalar olur, cüzi ağrıya, damara olan inyeksiyalara dözmürlər. Xəstəliyin inkişaf dövrü psixikanın somatogen pozulmasını (astenik-depressiv həyəcan) yaradır. Bu xəstələrdə xərçəng psixozu, depressiya, paranoid hal, şüphələrlə dolu sayıqlamalar, illuziyalar, hipnotik hallüsinasiyalar, həyəcanlı-depressiv vəziyyət, iradi funksiyaların aşağı enməsi kimi özünü biruzə verir.

Xərçəng xəstələri çox zaman xəstəliyə fikir vermir, ondan qaçır, sui-qəsd cəhdləri nadir hallarda olur, əhval-ruhiyyənin pisləşməsi depressiya vəziyyəti yaratmır və ancaq həyat öz dolğunluğunu itirir.

Xərçəng xəstələrinin diaqnoz qoyulma, müalicə və təkrar müalicə dövründə xəstəliyə verdikləri reaksiyalar fərqli olur:

1. Diaqnoz qoyulma mərhələsində şok yaşayan xəstə müəyyən dövrlərdə sağlam insanlara qarşı aqressiv olur.
2. Müalicə prosesinə başlayandan sonra yaxşılaşması ilə bağlı özünü və ətrafdakıları sorğu-suala tutur.
3. Təkrar müalicə zamanı intensiv müalicə prosesini yaşadığı üçün özünü yorğun, hər şeyə yenidən başlamış kimi hiss edir. Belə uzun və əziyyətli prosesin sonunda təkrarlanma xəbəri şəxsdə ikinci şok yaradır ki, əksər xəstələr bu nöqtədə ağır reaksiyalar verib depressiyaya düşə bilir [1, s. 125].

Başqa bir xroniki somatik xəstəlik kimi ürək-damar xəstəliyi olan yeniyetmələrin şəxsi emosional sferasında müxtəlif dəyişikliklər baş verir. A.B.Dobrovolski tərəfindən aparılan tədqiqatlara görə ürək-damar xəstəliklərinin formalaşmasına təsir edən ilk amillər şəxsiyyətin fərdi və psixoloji xüsusiyyətləridir ki, bura iradi motivasiya, emosional və koqnitiv qavrama, dünya haqqında təsəvvürlərin müstəqilliyi, özünüqiymətləndirmə strukturu, davranış tipi, sosial faktorlar və s. daxildir. Müəllifə görə xəstənin öz probleminə qeyri-obyektiv yanaşması: ya həddsiz laqeydliyi, ya da ona faciəvi yanaşması, bilavasitə, xəstəliyinin xroniki vəziyyət almasına səbəb olur. Təbii ki, bu da qeyri-obyektiv özünüqiymətləndirmə ilə bağlıdır [1,s. 81].

Ürək-damar xəstəliyi olan yeniyetmələrdə yüksək həyəcanlılıq halları müşahidə olunur.

Onlar hər xırda məsələlərə həddindən artıq yüksək emosionallıq ilə reaksiya verirlər. Dobrovolski həyəcanlılığın formalarını öyrənərkən iki əsas fərqli kateqoriya aşkar etmişdir:

-Açıq həyəcan;

-Qapalı həyəcan.

Açıq həyəcan şüurlu şəkildə həm davranışda, həm də fəaliyyətdə ekspressiya ilə ifadə olunan emosional-psixoloji vəziyyətdir. Qapalı həyəcan isə gizli saxlanılan, bəzən də müəyyən dərk edilməyən, ya da dolayı yolla spesifik davranışlarla ifadə olunan haldır.

Həyəcanın ilkin yaranma səbəbləri: insanın özünə qarşı tələbkarlığı, ailə təzyiqinin olması, cəmiyyətin ondan gözləmələri və özünün bunları ödəyə bilməmə potensialı dərketməmə səviyyəsidir. Məsələn: yeniyetmələrdə imtahan əvvəli, ali məktəblərə qəbul zamanı və s. bu kimi gözləmələrdə həkimlər daha çox nevroz xarakterli ürək-damar xəstəliklərindən şikayətlərlə qarşılaşırlar.

Öz-özlüyündə iddia ilə özünüqiymətləndirmə arasında heç bir asılılıq yoxdur. Lakin şəxsiyyətin daxilində və ya sosial münasibətlərində onun real bacarıqlar səviyyəsi ilə iddia səviyyəsi arasında natarazlıq aşkarlanırsa, bu zaman yaranan daxili konflikt həyəcana çevrilir. Yeniyetmələk dövründə özünüqiymətləndirmə hələ tam formalaşmadığı üçün ürək-damar xəstəliyindən əziyyət çəkən yeniyetmələrdə bu kimi həyəcan pozuntularının yaranması tipik haldır.

Ç.D.Spilberqer öz təcrübələrində sübut etmişdir ki, həyəcanlılıq ilə özünüqiymətləndirmə arasında asılılıq var. O, öz nəzəriyyəsində həyəcanlılıq anlayışını aşağıdakı şəkildə xarakterizə edir:

- İnsanın şəxsi həyatı üçün bilavasitə təhlükə yarada biləcək amillərə xoşagəlməz emosional reaksiya;

- Həyəcanlılıq yaradan hallar fərddə müdafiə mexanizmlərini ya aktivləşdirir, ya da onun vəziyyətini dondurur.

Ürək-damar xəstəliklərindən əziyyət çəkən yeniyetmələrdə yaranan tipik hallardan bir də yuxusuzluqdur. Normal yuxunun pozulması xəstənin həm bioloji, həm də psixoloji proseslərinə mənfi təsir göstərir, onun normal sosial aktivlik dairəsini məhdudlaşdırır, yaxud da tamamilə dondurur. Psixoloji yorğunluq keçirən yeniyetmələr ən kiçik əhəmiyyətsiz qıcıqlandırıcılara qarşı aqressiv davranış nümayiş etdirirlər. Depressiv vəziyyətə düşən bu cür xəstələr hətta suiqəsdə də əl ata bilərlər [2, s. 52-53].

Xroniki somatik xəstəliklər təkcə yuxarıda sadaladıqlarımız ilə bitmir. Bu xəstəliklərin sadəcə bir qismi haqqında verilən məlumatdır. Bugün müxtəlif ağır somatik xəstəliklərdən əziyyət çəkən çox sayda yeniyetmə var. Burdan bizə aydın olur ki, hər bir somatik xəstəlik yeniyetmənin emosional şəxsiyyət sferasında müxtəlif şəkildə təzahür edir. Biz hər bir xəstəliyin psixoloji xüsusiyyətləri ilə dərindən tanış olarsaq bu zaman bu xəstəliklərdən əziyyət çəkən xəstələrə qarşı daha düzgün mövqedən yanaşa bilərik. Onların psixoloji vəziyyətini düzgün təsvir etməyimiz həmçinin onlarla aparılan korreksiya işini də asanlaşdırar.

ƏDƏBİYYAT

1. Şəfiyeva E.İ. Somatik xəstəliklərin klinikasının psixoloji problemləri. Bakı: 2013
2. Şəfiyeva E.İ. Klinik psixologiya. Bakı: 2002
3. Çavuşoğlu H. Kronik hastalığı olan çocuk. Çocuk Sağlığı Hemşireliği, Ankara, Genişletilmiş 8.baskı, 2004
4. Lubkin LM, Larsen PD.Chronic illness:impact and intervention,7 th edition, copright by Jones and Bartlett Publishers, LLC, 2009
5. Boice MM. Chronic Illness in Adolescence.Adolescence(1998) Elde edilme tarihi; Şubat 2, 2010 , http://www.questia.com
6. Lynn R. Adolescent health: a multidisciplinary approach to theory, research, and

intervention. California, Sage Publications,2005
7. Erdoğan A, Karaman MG. Kronik hastalığı olan çocuk ve ergenlerde ruhsal sorunların tanınması ve yönetilmesi. Anadolu Psikiyatri Dergisi,2008
8. Kocaman N. Hastaların psikososyal tepkilerini etkileyen faktörler. Atatürk Üniversitesi Hemşirelik Yüksekokulu Dergisi, 2008
9. Fettahoğlu EÇ, Koparan C, Özatalay E,Türkkahraman D. İnsüline bağımlı diyabetes mellitüs tanılı çocuk ve ergenlerde gözlenen ruhsal güçlükler. Türkiye"de Psikiyatri ,2007
10. Ekşi A.Yeni bir yan dal: çocuk ve ergen liyezon psikiyatrisi. Ege Psikiyatri sürekli Yayınları,1997
11. Turgay A,Çocukluk döneminde duygudurum bozuklukları ve intihar, In:Güleç C,Köroğlu E, ed.Psikiyatri Temel Kitabı,I.baskı, Ankara:Nobel Tıp Kitabevleri;1998
12. Emiroğlu N, Aras Ş, Yalın Ş, Doğan Ö, Akay A. Yatan hastalar için istenen çocuk ve ergen psikiyatrisi konsültasyonların değerlendirilmesi. Anadolu Psikiyatri Dergisi, 2009
13. Miauton L, Narring F,Michaud PA. Chronic illness, life style and emotional health in adolescence:results of a cross-sectional survey on the health of 15-20-year-olds

XRONİKİ SOMATİK XƏSTƏLİYİ OLAN YENİYETMƏLƏRİN EMOSİONAL ŞƏXSİYYƏT SFERASININ XÜSUSİYYƏTLƏRİ

Əliyeva Türkan

XÜLASƏ

Məqalə xroniki somatik xəstəlikdən əziyyət çəkən yeniyetmələrin emosiaonal şəxsiyyət sferasındakı dəyişikliklərdən bəhs edir. Onkoloji və ürək-damar xəstəlikləri olan yeniyetmələrin emosional sferasındakı dəyişikliklər analiz edilmişdir. Eyni zamanda, məqalədə müxtəlif alimlərin geniş araşdırmaları və fikirləri yer almışdır.

ХАРАКТЕРИСТИКА СФЕРЫ ЭМОЦИОНАЛЬНОЙ ЛИЧНОСТИ ПОДРОСТКОВ С ХРОНИЧЕСКИМ СОМАТИЧЕСКИМ ЗАБОЛЕВАНИЕМ

Алиева Туркан

АННОТАЦИЯ

Статья посвящена изменениям эмоциональной личности подростков, страдающих хроническими соматическими заболеваниями. Проанализированы изменения эмоциональной сферы подростков с онкологическими и сердечно-сосудистыми заболеваниями. Вместе с тем, статья содержит обширные исследования и мнения различных ученых.

CHARACTERISTICS OF THE SPHERE OF EMOTIONAL PERSONALITY OF ADOLESCENTS WITH CHRONIC SOMATIC DISEASE

Aliyeva Turkan

SUMMARY

The article is about changes in the emotional personality of adolescents suffering from chronic somatic disease. Changes in the emotional sphere of adolescents with oncological and cardiovascular diseases were analyzed. At the same time, the article contains extensive research and opinions of various scientists.

ÖZÜNÜQİYMƏTLƏNDİRMƏ VƏ İNSAN HƏYATINDA ONUN ROLU

Hüseynova Leyla Elxan qızı
BDU-nun II kurs magistrantı
leylahuseyn323@gmail.com

Açar sözlər: Özünüqiymətləndirmə, real mən obrazı, ideal mən obrazı, iddia səviyyəsi, utancaqlıq, qərarsızlıq, küsəyənlik, yeniyetməlik yaş dövrü.
Ключевые слова: Самооценка, реальный образ себя, идеальный образ себя, уровень претензии, застенчивость, нерешительность, негодование, подростковый возраст.
Keywords: Self-assessment, real self image, ideal self image, claim level, shyness, indecision, resentment, adolescence.

Özünüqiymətləndirmə termini 2 sözdən – özünü və qiymətləndirmə sözlərindən əmələ gəlmişdir. Onun psixoloji mənası aydındır: söhbət insanın özünə verdiyi qiymətdən, özünün obrazını qiymətləndirməsindən gedir. İnsan özü haqqındakı təsəvvürlərinin formalaşması bilavasitə özünüqiymətləndirmə ilə bağlıdır. İnsanın özü-özündə hansı cəhətləri qiymətləndirir? Onun üçün bir insan kimi mühüm bir şeyi: özünün qabiliyyətlərini, mənəvi keyfiyyətlərini, əməllərini, öz imkanlarını və perspektivlərini, özünün qarşılıqlı münasibətlərini, qrup və kollektivdə, başqa adamlar içərisində tutduğu yeri qiymətləndirir və s. Bununla yanaşı müəyyən həyati situasiyalarda, xüsusilə ailədə və kollektivdə insan öz üzərinə məsuliyyət götürüb mühüm bir addım atdıqda, konflikt şəraiti yarandıqda və s.-də özünüqiymətləndirmə xüsusilə mühüm əhəmiyyət kəsb edir.

Özünüqiymətləndirmə özünü müşahidə və özünü təhlil yolu ilə formalaşır, bu zaman insan özünə adətən başqa adamların gözüylə baxır, bir qayda olaraq, özünü onlarla müqayisə edir. Başqa adam bu zaman bir növ etalon rolunu oynayır. Özünüqiymətləndirmə zamanı qiymətin müxtəlif növlərindən - əxlaqi, estetik, intellektual , emosional və s. qiymətlərdən istifadə olunur. Lakin bütün hallarda onların içərisində emosional qiymətlər əsas yer tutur: əxlaqi qiymət də, intellektual qiymət də özünüqiymətləndirmə səviyyəsində emosional çalar kəsb edir.

Özünüqiymətləndirmə prosesində "real mən" obrazı (İnsan indiki anda özünü necə təsəvvür edir?) ilə "İdeal mən" obrazının (İnsan özünü necə görmək istəyir?) müqayisə edilməsi mühüm rol oynayır. Onların bir-birinə uyğun gəlməsi psixi sağlamlığın mühüm şərtidir. Müəyyən edilmişdir ki, insanın "real mən" obrazı " ideal mən" obrazına müvafiq olarsa, o, adətən özünü yüksək qiymətləndirir.İnsan bu iki mühüm xarakteristika arasında uçurum hiss etdikdə isə adətən özünü aşağı qiymətləndirir. Bəzən belə hallarda insanın özü öz gözündə hörmətdən düşür.

Psixoloji tədqiqatlar özünüqiymətləndirmənin 3 səviyyəsini müəyyənləşdirmək imkanı verir:

1) Adekvat özünüqiymətləndirmə - şəxsin özünün ayrı-ayrı keyfiyyətlərini əsasən düzgün qiymətləndirir

2) Qeyri-adekvat yuxarı özünüqiymətləndirmə - şəxs özünün ayrı-ayrı keyfiyyətlərini olduğundan yüksək qiymətləndirir.

3) Qeyri-adekvat aşağı özünüqiymətləndirmə - şəxs özünün ayrı-ayrı keyfiyyətlərini layiq olduğundan aşağı qiymətləndirir. Qeyd etmək lazımdır ki, bu tip insanlar adətən mükəmməliyyətçi insanlar olurlar.

Fərdin özünə qeyri-adekvat qiymətlər verməsini şərtləndirən amilləri müəyyənləşdirmək və aradan qaldırmaq lazımdır. Ailənin tipi (uğurlu və ya uğursuz, tam - natamam, çoxuşaqlı – təkuşaqlı və s.), ailə münasibətlərinin xarakteri, tərbiyə üsulu (avtoritar və ya demokratik), daxil

olduğu kollektivdə insanın mövqeyi, onun fiziki və psixi inkişaf səviyyəsi - bunların hamısı özünüqiymətləndirməyə mühüm təsir göstərir və onun adekvatlıq dərəcəsini müəyyən edir.

Özünüqiymətləndirmə bir insanın birbaşa və ya dolayı yolla, şüurlu və ya şüursuz bir şəkildə özünə biçdiyi dəyərdir. Özünüqiymətləndirmə ümumi bir anlayışdır. Fərdin həyatın müxtəlif sahələrində özünə hörmətinin cəmindən ibarətdir. Özünüqiymətləndirmə insanın özünə aid etdiyi keyfiyyətlər və bu keyfiyyətlərdən əldə etdiyi nəticədir. Fərdin özü haqqında hissləri və fikirləridir. Bu keyfiyyətlər şəxsiyyət haqqında müsbət keyfiyyətlərdirsə, fərdin özünüqiymətləndirməsi artır. Ancaq şəxs mənfi keyfiyyətləri özünə aid edərsə, özünüqiymətləndirməsi ilə bağlı problem yaşayır. Özünüqiymətləndirmə fərdin həyat dövründə öz mücərrəd vəziyyətində olsa da, sonradan konkretləşə bilər. Bu dövrün sonunda fərdin əsas özünüqiymətləndirməsində bir artım və ya azalma ola bilər. Şəxsin özünü sevməsi hissləri ilə, özünə güvənməsi isə davranışları ilə əlaqəlidir. Özünü sevmək və özünə güvənmək özünüqiymətləndirməni dəstəkləyir və ayaqda tutur. Digər tərəfdən bu iki sahədə ortaya çıxacaq çatışmazlıqlar özünüqiymətləndirməni aşağı salır [4, s.7].

Özünüqiymətləndirmənin aşağı olması aşağıdakı halların meydana çıxmasına səbəb ola bilər:

Utancaqlıq. Utancaqlıq bir şəxsiyyət xüsusiyyətidir. Bu, əsasən özünə qarşı yönəlmiş mənfi hisslərin təzahürüdür. Özünə inam və özünüqiymətləndirmənin çatışmazlığından qaynaqlanır. Başqa sözlə, bu, özünə inam və özünüqiymətləndirmənin cəmidir Yeniyetməlik dövründə utancaqlıq getdikcə daha da artır. Yeniyetmənin sürətli bioloji dəyişikliyi və bədəni böyüdüyü müddətdə uşaqlıqdan emosional olaraq qurtula bilməməsi yeniyetmənin tarazlığını pozur və utancaqlığın inkişafına və mənfi bir şəkildə formalaşmasına səbəb olur. Lakin bu utancaqlıq zamanla tədricən azalır və yetkin yaşa qədər tamamilə keçə bilər.

Küsəyənlik. Bu hal başqa insanların münasibət və davranışlarından fərqli mənalar çıxarmasıdır. Küsəyənlik özünə inamı kifayətsiz, özünə hörməti aşağı, şübhəcil insanlarda daha çox rast gəlinir.

Qərarsızlıq. Qərar qəbul etmə hər insanda müxtəlifdir. Bəzi insanlar çətin görünən məqamlarda dərhal qərar verə və hərəkət edə bildikləri halda, bəziləri isə asan məsələlərdə belə çətinlik çəkə bilər. Qərar vermək bilik və özünəinam tələb edir. Özünə güvənən insan asan qərarlar verməyə və hərəkət etməyə şübhə ilə yanaşmır [4, s.10].

Uşaq doğulduğu mühitdə özünün məna vermə sistemini formalaşdırmağa çalışır. Hamımız məna vermə sistemimizi bir ailə mühitində formalaşdırmağa başlayarıq. Uşağın daxilində böyüdüyü ailə uşağın inkişafına mənfi və ya müsbət təsir göstərə bilər. Uşaq məna vermə sistemini inkişaf etdirdikcə bir tərəfdən də özünüqiymətləndirməsi də inkişaf edir. Özünüqiymətləndirməsi yüksək olan insan xoşbəxt bir formada yaşamağa haqqı olduğuna, bunu həyata keçirə biləcək gücü olduğuna inanır. Özünüqiymətləndirmə sahəsində psixologiyada önəmli şəxsiyyətlərdən biri olan amerikalı psixoloq Nathaniel Branden özünüqiymətləndirmə anlayışının iki forması olduğunu qeyd edir:

1) İnsanın özünü həyata uyğun görməsi (feeling appropriate to life)

2) Xoşbəxt bir həyat üçün öz zəka və bacarıqlarının yetərli olduğuna güvənməsi (efficacy).

Özünüqiymətləndirmə iki səbəbə görə insan həyatında çox önəmlidir:

1) Özünüqiymətləndirmə insanın özünə və dünyaya necə bir məna verəcəyinə böyük ölçüdə təsir edər. Özünüqiymətləndirməsi yüksək olan biri sakit və rahatlıq içində münasibət qurarkən, Özünüqiymətləndirməsi aşağı olan biri eyni vəziyyətdə həyəcanlı və gərgin formada olur

2) Özünüqiymətləndirmə elədiyimiz seçimləri böyük ölçüdə müəyyənləşdirir. Fərqində olduğumuz və ya olmadığımız minlərlə gündəlik seçimlərlə həyatımızı qurarıq. Özünüqiymət-ləndirməsi yüksək şəxs rasional və real seçimlər edərək xoşbəxtlik axtararkən,

özünüqiymətləndirməsi aşağı olan insan zəkasına etibar eləmədiyi və gücünə inanmadığı üçün problemlərdən uzaqlaşmaq, özünü naməlum düşmənlərdən qorumaq üçün seçimlər edər. Özünüqiymətləndirməsi yüksək olan insan yeni təcrübələrə, onların gətirdiyi həyəcanlara açıq olduğu halda, digəri öz həbsxanasının divarlarını hörərək monoton bir həyat yaşayır.

Ailə mühiti uşağın özünüqiymətləndirməsinin tək müəyyənləşdiricisi deyil, amma ən önəmlisidir. Uşağın özünüqiymətləndirməsinə pis təsir edən hallar aşağıdakılardır:

- Vacib şeyləri danışarkən uşağa qulaq asmadan "məni maraqlandırmırsan" hissini vermək.
- Davamlı olaraq "qaçma yıxılarsan, toxunma qırarsan " deyərək uşağa yetərsiz olduğunu hiss etdirmək.
- Hisslərini "ağlama, qışqırma, gülmə, danışma" kimi sözlərlə ifadə etməsinə mane olmaq.
- Onu ələ salmaq, alçaltmaq.
- Düşüncələrinin və hisslərinin absurd və dəyərsiz olduğu təəssüratını yaratmaq.
- Uşağı utandıraraq və günahkar hiss etdirərək nəzarət etmək
- Həddindən artıq qorunan bir münasibətdə uşağın həyatla əlaqəsini kəsmək.
- Uşaqla heç maraqlanmamaq,heç bir nəzarət yaratmamaq
- Özbaşına dəyişən qaydalara uyğun tərbiyə etmək.
- Döyülmək qorxusu ilə onu yazıq, qorxaq biri halına gətirmək
- Anadangəlmə uğursuz, lənətlənmiş, günahkar olduğunu söyləmək.

Zəkasına güvənməyən, qabiliyyətlərinin kifayətsiz olduğunu düşünən insan davamlı olaraq həyəcan və narahatlıq içərisində olur. Öz həyatında var olmağa cəsarət edə bilməz. Bu cür insanların üstünlük təşkil etdiyi bir cəmiyyətdə elm və incəsənət inkişaf edə bilməz.

Öz həyatında var olmağa cəsarət edə bilməyən insan daxilən əsəbidir. Daxilində həm özünə həm də ətrafındakı insanlara qarşı basdırılmış bir aqressiya vardır. Bu aqressiya özünü davamlı şikayətlənmə, pessimist olma, sevgisizlik, hər şeyin arxasında pis niyyət və tələ axtarmaq formasında göstərir. Belə insanlar uğurlu və xoşbəxt olmağa haqqı olmadığına inandıqları üçün əldə etdikləri müvəffəqiyyətin qalıcı və davamlı olduğuna inanmazlar, özlərini sabotaj etməklə özlərini bədbəxt və uğursuz edirlər. Daha sonra “uğur və xoşbəxtliyin uzun müddət davam etməyəcəyini onsuzda bilirdim” (5) .

Özünüqiymətləndirmənin böyük əhəmiyyəti vardır. O, insanın davranışının tənzim olunmasında mühüm rol oynayır. İnsanın başqa adamlarla qarşılıqlı münasibətləri, onun öz uğurlarına və uğursuzluqlarına münasibəti, ayrı-ayrı həyati situasiyalarda davranış və rəftarı özünüqiymətlən-dirmədən asılıdır. Başqa sözlə, özünüqiymətləndirmə insanın fəaliyyətinin səmərəliliyinə və onun bir şəxsiyyət kimi inkişafına mühüm təsir göstərir [1, s. 226].

Qeyri-real yüksək və qeyri – real aşağı özünüqiymətləndirmə eyni dərəcədə ziyanlıdır. Məsələn, öz imkanlarını qeyri-real yüksək qiymətləndirən şagird və ya tələbələrdə çox vaxt özünəarxayınçılıq hissi yaranır. Nəticədə nəzərdə tutduqları məqsədlərinə nail ola bilmirlər. Öz imkanlarını qeyri-real aşağı qiymətləndirən şagird və ya tələbələrdə isə mümkün olacaq nailiyyətə çatmaq hissi və cəhdi olmur, nəticədə onlar mövcud imkanlarını təzahür etdirə bilmirlər. Ona görə də ən cüzi nailiyyətlə kifayətlənməli olurlar [2, s.189].

Yeniyetmələrin özünüqiymətləndirməsinin xarakteri şəxsiyyətin bu və ya digər keyfiyyətlərinin formalaşmasını müəyyən edir. Məsələn, onun adekvatlıq səviyyəsi yeniyetmədə özünəinam, özünətənqid və ya artıq özünəinam, qeyri-tənqidiliyin formalaşmasına əsas verir. Özünüqiymət-ləndirmənin xarakterinin, həmçinin tədris və ictimai aktivliklə əlaqəsi də müəyyən edilmişdir. Adekvat özünüqiymətləndirməyə sahib yeniyetmələr təhsildə daha yüksək göstəricilər əldə edirlər və onların ictimai və şəxsi statusları daha yüksək olur.

Özünüqiymətləndirmə şəxsiyyətin mərkəzi əsasını, yəni nüvəsini təşkil edir O, əhəmiyyətli dərəcədə şəxsiyyətin sosial adaptasiyasını müəyyən edir, onun davranışının və fəaliyyətinin

nizamlayıcısı kimi çıxış edir. Özünüqiymətləndirmə prosesinin özü fəaliyyət prosesində və şəxsiyyətlərarası münasibətlərdə baş verir. Cəmiyyət də müəyyən dərəcədə şəxsiyyətin özünüqiymətləndirməsinə təsir edir. Özünüqiymətləndirmə daimi sayılmır, o şəraitdən asılı olaraq dəyişir. Ətrafdakılar onu necə qiymətləndirirsə, o da özünü bu şəkildə qiymətləndirməyə istiqamətləndirir [4, s.155].

Özünüqiymətləndirmə şəxsiyyətin iddia səviyyəsi ilə də sıx bağlıdır. İddia səviyyəsi dedikdə bu və ya digər fəaliyyət zamanı şəxsiyyətin seçdiyi və qarşısına qoyduğu məqsəd və vəzifələrin çətinlik dərəcəsi ilə müəyyən olunan xarakteristikası nəzərdə tutulur. Başqa sözlə iddia səviyyəsi fərdin qarşısına qoyduğu məqsədin çətinlik dərəcəsi ilə müəyyən olunan şəxsiyyətin arzuolunan özünüqiymətləndirmə səviyyəsindən ibarətdir. İnsan sonra yerinə yetirəcəyi işin çətinlik dərəcəsini sərbəst şəkildə seçərkən özünüqiymətləndirməyə cəhd göstərməsi iki cür konfliktin yaranmasına səbəb olur: bir tərəfdən maksimum müvəffəqiyyət əldə etmək üçün iddianı artırmaq cəhdi, digər tərəfdən uğursuzluqdan yaxa qurtarmaq üçün iddia səviyyəsini aşağı salmaq. Müvəffəqiyyət əldə edildikdə adətən iddia səviyyəsi artır, insan daha çətin məsələni həll etməyə hazır olduğunu təzahür etdirir, uğursuzluq zamanı isə iddia səviyyəsini müvafiq şəkildə aşağı salır.

Şəxsiyyətin iddia səviyyəsi konkret fəaliyyət növündə özünü aydın göstərir. Bununla əlaqədar bir fakta nəzər salaq. İmtahana zəif hazırlaşmış tələbə 5 qiymət almağa cəhd göstərir və verilmiş 10 misaldan yalnız 4-nü yerinə yetirdiyinə görə həmin qiyməti ala bilmədikdə ruhdan düşməyəcəkdir. O eyni zamanda 3 qiymətə layiq görüldükdə də o qədər sevinməyəcəkdir. Çünki bu məqsədə nail olmaq o qədər də çətin deyildir. Lakin tədricən misalların sayını 4-dən yuxarı artırmaqla yaxşı qiymət almaq üçün ona neçə misal verilməsini istədiyini təklif etməklə onun iddia səviyyəsini müəyyənləşdirmək mümkündür. Bu sadə model göstərir ki, şəxsiyyət öz iddialarının səviyyəsini müəyyən edərkən özü üçün müəyyən perspekti saxlamağa çalışır. Buna görə də o, elə tapşırıq və məqsədlər seçir ki, onlar nə həddindən artıq çətin, nə də həddindən artıq asan olsun. Aparılmış tədqiqatlar göstərmişdir ki, iddia səviyyəsinin formalaşması nəinki müvəffəqiyyət və uğursuzluğu qabaqcadan görməklə, həm də hər şeydən əvvəl, keçmiş müvəffəqiyyət və uğursuzluqların ağıllı surətdə, bəzən isə dumanlı dərk olunan şəkildə nəzərə alınması və qiymətləndirilməsi ilə müəyyən edilir. Məktəblinin tədris işində, dərnəkdə məruzə üçün mövzu, ictimai tapşırıq və s. seçərkən iddia səviyyəsinin formalaşmasını izləmək olar [2, s.189].

ƏDƏBİYYAT

1. Bayramov Ə.S.,Əlizadə Ə.Ə., ”Psixologiya”-Bakı 2009, 620s.
2. Seyidov S.İ., Həmzəyev M.Ə.,”Psixologiya”-Bakı 2007,700s.
3. Vəliyev M., Mustafayev A.,”İnkişaf və yaş psixologiyası”- Bakı 2015,297s.
4. Aysel Ceylan. Ergenlerde mükemmeliyetçi benlik sunumunun özgüven ile ilişkisi. Yüksek lisans tezi, İstanbul 2017.
5. www.dogancuceloglu.net/yazilar/661/ozdeger/

ÖZÜNÜQİYMƏTLƏNDİRMƏ VƏ İNSAN HƏYATINDA ONUN ROLU

Hüseynova Leyla

XÜLASƏ

Bu məqalə özünüqiymətləndirmə və onun insan həyatında rolu haqqındadır. Özünüqiymətləndirmə insanın həyat keyfiyyətinə birbaşa və ya dolayı yolla təsir edir. Çünki özünüqiymətləndirmə fərdin özü haqqında olan hissləri və fikirləridir. Özünüqiymətləndirməsi yüksək olan insan xoşbəxt formada yaşamağa haqqı olduğuna və bunu həyata keçirə biləcəyinə inanır. Özünüqiymətləndirməsi aşağı olan və özünə inanmayan insan isə qabiliyyətlərinin kifayətsiz olduğuna inandığı üçün davamlı həyəcan və narahatlıq keçirir. Real potensialının fərqində olmadığı üçün bu tip insanlar həyatda bir çox şeydən geri qalır. Həyatda var olmağa cəsarət edə bilmir. Özünüqiymətləndirməsi aşağı olan insanlar adətən aqressiv olur. Bu insanlarda həm özünə, həm də ətrafındakı başqa insanlara qarşı basdırılmış bir aqressiya var. Bu isə şəxsiyyətlərarası münasibətlərə və həyatın digər sahələrinə təsir edir.

САМООЦЕНКА И РОЛЬ В ЧЕЛОВЕЧЕСКОЙ ЖИЗНИ

Гусейнова Лейла

АННОТАЦИЯ

Эта статья о самооценке и ее роли в жизни человека. Самооценка прямо или косвенно влияет на качество жизни человека, потому что самооценка - это чувства и мысли человека о себе. Человек с высокой самооценкой считает, что он имеет право жить счастливо и что он может это делать. С другой стороны, человек с низкой самооценкой и неуверенностью в себе постоянно тревожится и беспокоится, потому что считает, что его способности недостаточны. Такие люди во многом отстают в жизни, потому что не осознают своего реального потенциала. Он не смеет существовать в жизни. Люди с низкой самооценкой обычно агрессивны. У этих людей есть скрытая агрессия против самих себя и других людей вокруг них. Это влияет на межличностные отношения и другие сферы жизни.

SELF-ESTEEM AND IN HUMAN LIFE ROLE

Huseynova Leyla

SUMMARY

This article is about self-esteem and its role in human life. Self-esteem directly or indirectly affects a person's quality of life, because self-esteem is an individual's feelings and thoughts about himself. A person with high self-esteem believes that he has the right to live happily and that he can do it. A person with low self-esteem and lack of self-confidence, on the other hand, is constantly anxious and worried because he believes that his abilities are insufficient. Such people lag behind in many things in life because they are not aware of their real potential. He does not dare to exist in life. People with low self-esteem are usually aggressive. These people have a buried aggression against themselves and other people around them. This affects interpersonal relationships and other areas of life.

FƏRDİ-PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİN KURSANTLARIN TƏLİM UĞURLARINA TƏSİRİ

Yusibova Fəridə İlham qızı
BDU-nun II kurs magistrantı
yusibova-f@mail.ru

Açar sözlər: intellektual qabiliyyətlər, akademik performans, sinir prosesləri-nin gücü, emosional gərginlik, tələbələrdə xarakterin aksentuasiya tipləri, sosial intellekt.
Ключевые слова: интеллектуальные способности, успеваемость, сила нервных процессов, эмоциональное напряжение, типы акцентуации характе-ра у студентов, социальный интеллект.
Keywords: intellectual abilities, academic performance, strength of nervous processes, emotional tension, types of character accentuation in students, social intelligence.

Təlim fəaliyyətinə təsir edən amillərdən biri də təhsilalanların fərdi-psixoloji xüsusiyyətləridir. Bu təsiri öyrənərkən digər psixoloji amillər də nəzərə alınır: intellekt səviyyəsi, öyrənməyə qabillik, təlim-tədris bacarıqları; kreativlik; təlim motivasiyası, təlim məqsədlərinə çatma yolunda güclü müsbət həyəcanların olması; özünüqiymətləndirmə, iddia səviyyəsi və s.

Təhsilalanların fərdi-psixoloji xüsusiyyətlərinin öyrənilməsi təlimin təşkili və metodoloji əsaslarının optimallaşdırılması, şagirdlərin fərdi fəaliyyət üslubları-nın inkişaf etdirilməsi, təlim-tərbiyəvi vasitələrdən uyğun olanlarının seçilməsi baxımından bir çox pedaqoji problemlərin həllinə kömək edəcək.

Müasir təhsildə təlim və tədrisin yeni formaları güclü və hərəkətli sinir sistemi olan təhsilalanlar üçün daha əlverişlidir. Buna görə belə şəxslər arasında yaxşı oxuyanlar zəif və ətalətli sinir sisteminə malik olanlara nisbətdə daha çoxdur [1, səh 101].

E.A.Qolubeva zəif, qeyri-sabit və oyanma proseslərinin üstün olduğu sinir sisteminə malik təhsilalanların daha yüksək akademik nəticə göstərdiyini eksperi-mental yolla sübut edərək təlim uğurunun sinir proseslərinin qüvvəsindən, müvazi-nətindən asılı olduğunu təsdiq etdi [3].

T.V.Ledovskayanın tədqiqatlarına əsasən introvertlərin təlim fəaliyyətində ekstrovertlərdən daha uğurlu olduğu ortaya çıxdı, baxmayaraq ki, introvertlərin təlim fəaliyyətinin psixoloji quruluşu extrovertlərinkindən daha zəif inkişaf etmiş-dir. Bundan əlavə, fərdi tipoloji xüsusiyyətlərin müəyyən bir spesifikliyinə malik müxtəlif təlim uğurları olan şagirdlərin qrupları fərqləndirilmişdir. Belə ki, müvəffəqiyyətsizlər qrupuna əsasən sol yarımkürənin üstünlük təşkil etdiyi ekstrovertlər, orta müvəffəqiyyətli qrupa beynin hər iki yarımkürəsinin eyni səviyyədə dominant olduğu ekstrovertlər, yüksək müvəffəqiyyətli qrupa sağ yarımkürənin üstün olduğu introvertlər daxil idi. İntrovertlər yeni materialı mənimsəmək və yadda saxlamaq baxımından daha yüksək qabiliyyətlərə malikdirlər, buna görə də onların uğurlu öyrənmə ehtimalı daha yüksəkdir [4].

Zəif sinir sistemi olan tələbələr üçün aşağıdakı təlim çətinlikləri fərqləndiri-lir: uzunmüddətli, ağır, məsuliyyət tələb edən, sinir-psixiki və emosional gərginliklə müşayiət olunan şəraitdə (məsələn, nəzarət və ya imtahan vaxtı) çalışmaq, xüsusən də vaxt çatışmazlığı şəraitində; dinamik olaraq dəyişən şifahi interaktiv qarşılıqlı əlaqə şəraitində işləmək (məsələn, müəllim gözlənilməz bir sual verirsə və tələbə üçün yazılı cavab üsulunun daha az stresli və daha əlverişli olmasına baxmayaraq şifahi cavab tələb edirsə); müəllim tərəfindən mənfi qiymətləndirilən uğursuz cavabın nəticələrini düzəltmək üçün işləmək; əsas fəaliyyətdən yayınma tələb edən bir vəziyyətdə işləmək (müəllimin iradlarına, digər şagirdlərin suallarına

cavab vermək zərurəti); eyni vaxt ərzində bir neçə fəaliyyət növünü həyata keçirərkən diqqətin paylanmasını və ya dəyişdirilməsini tələb edən bir vəziyyətdə işləmək; əsəbi, səbirsiz müəllimlə işləmək zərurəti; səs-küylü, narahat, nevrotik mühitdə işləmək və s. [1, səh 102].

Ətalətli sinir sistemi olan bir tələbənin çətinlikləri aşağıdakı hallarda ortaya çıxır: təlim tapşırıqlarının məzmunu və həll üsulları haqqında eyni zamanda müxtəlif təkliflər olduqda; müəllim təlim materialını kifayət qədər yüksək tempdə təqdim etdikdə; iş vaxtının kifayət qədər ciddi məhdudlaşdırılması zamanı; diqqətinin tez-tez yayındırılması hallarında; təqdim olunan təlim materialını anlama və ya yadda saxlama prosesinin ilkin mərhələlərində mənimsəmənin məhsuldarlığının qiymətləndirməsi zamanı.

Zəif sinir sistemi olan tələbələr zəruri hallarda qaydalara uyğun, monoton işə müqavimət tələb edən vəziyyətlərdə müvəffəqiyyətlə hərəkət edə, fəaliyyətlərini müstəqil təşkil edə, işi diqqətlə planlaşdıra, işin gedişinə və nəticələrə nəzarət edə və maksimum dəqiqliyə nail ola bilirlər. Onlar fəaliyyəti həyata keçirərkən bir işdən digərinə atlamır, səbirsizliklə irəli qaçmırlar, bütün hərəkətləri ciddi ardıcıllıqla həyata keçirirlər. Müstəqil şəkildə təlim materialındakı faktlar arasında daha dərin əlaqələri tapa bilir, çox vaxt təlim proqramının əhatə dairəsi və məzmununun hüdudlarından kənara çıxır, qrafik, diaqram, cədvəllər və əyani vəsaitlərdən həvəslə istifadə edirlər. Yaxşı inkişaf etmiş uzunmüddətli yaddaşa sahib olur, uzunmüddətli, dərin işlərdə kənardan müdaxilə olduqda belə yayınmadan işləməyi bacarırlar [1, səh 105].

Güclü sinir sistemi olan tələbələrin üstünlükləri daha çoxdur, çünki imtahan vermək üçün yüksək səfərbərlik və təcili hazırlıq qabiliyyətinə malikdirlər. Zəif sinir sistemli tələbələr həddindən artıq dərs yükünün öhdəsindən gəlməkdə çətinlik çəkdikləri üçün bu onlarda tez-tez artan təlim uğursuzluqlarına səbəb olur.

İ.P.Pavlova görə insan neyrodinamikasının xüsusiyyətləri temperamentin fizioloji əsasını təşkil edir. İstənilən temperamentli tələbə təlim fəaliyyətində uğur qazana bilər, amma bu nailiyyətlər müxtəlif yollarla əldə edilir.

Sanqvinik tipli tələbə hərəkətliliyi, aktivliyi, təsir qabiliyyəti, ətrafdakı dəyişikliklərə asanlıqla uyğunlaşma, sürətli reaksiya vermə, işin öhdəsindən asanlıqla gəlmə qabiliyyəti ilə fərqlənir. Aktivdirlər, monotonluğu sevmirlər. İnadkarlıq, əzmkarlıq təlim fəaliyyətində istədikləri nəticəni əldə etməyə müəyyən qədər kömək edir. Başladıqları işi sona çatdıra bilməmək və eyni zamanda bir neçə fəaliyyət növü ilə məşğul olmaq istəyi təlimdə çətinliklər yaradır. Öyrənmə materialını sürətlə, ancaq çox zaman səthi qavrayır, tez yadda saxlayırlar.

Xolerikin sinir prosesləri çox güclüdür, lakin tarazlıqda deyil, oyanma prosesləri, həyəcan üstünlük təşkil edir. Qətiyyətli və təşəbbüskar olduqları üçün qarşıya qoyduqları təlim məqsədlərinə çata bilirlər, problemlərə standart olmayan həll yolları təklif edir, prosesi canlandırır, fərdi üslubları ilə seçilirlər. Davranışında və fəaliyyətində tutqunluq, sərtlik, qəzəb, kobudluq, dözümsüzlük, əsəbilik, davamlı narazılıq ifadəsi, sürətli əhval dəyişikliyi müəllimlər və yoldaşları ilə münasibətlərində konfliktlərə gətirib çıxarır. Təlim tapşırıqları onun maraqlarına uyğun gəlirsə, tərəddüd etmədən həvəslə yerinə yetirir.

Fleqmatik bir kursantın bütün sinir prosesləri kifayət qədər güclü, balanslıdır, lakin hərəkətsizdir. Sakit davranışı bəzən yoldaşlarının ondan uzaqlaşmasına səbəb olur. Çalışqandır, başladığı işi sona çatdırır. Tapşırıqları həll edərkən uzun müddət düşünür, qərar verdikdən sonra onu sakit yerinə yetirir. Hərəkətsizlik, ləngliк fleqmatikin mənfi cəhətləridir ki, bu da həm düşüncə həm davranışda özünü göstərir. Kollektiv işlərdə passiv və laqeyddirlər, fərdi işləməyə üstünlük verirlər.

Melanxolik temperament tipli kursantlarda sinir prosesləri tarazlıqda deyil, ləngimə qüvvəsi dominantdır. Melanxolikin xarakterik xüsusiyyətləri – öz daxili aləminə mərkəzləşmə, ətraf aləmdən təcridolunma, özünə inamsızlıq üstünlük təşkil edir ki, bu da başqaları ilə ünsiyyətdə

problemlər yaradır. Bu tip kursantlar üçün duyğu orqanlarının yüksək həssaslığı, təlim və tərbiyəvi təsirlərə yüksək həssaslıq, insanları anlama, onlara qarşı səmimiyyət və rəğbət xarakterikdir [6].

Tələbə və müəllimin temperament tiplərinin bir-birinə uyğunluğu da tələbənin təlim fəaliyyətinə müəyyən dərəcədə öz təsirini göstərir. Məsələn, müəllim sanqvinik, tələbə fleqmatikdirsə, onda müəllim, ehtimal ki, tələbənin ləngliyinə görə müntəzəm olaraq əsəbiləşəcək və qəzəblənəcək.

A.G.Maklakov hesab edir ki, temperamentin xüsusiyyətləri hərbi sahə üzrə ixtisas seçimi zamanı nəzərə alınmalıdır. Məsələn, böyük səbir, yüksək gərginlik təzahürü ilə əlaqəli fəaliyyətlər (radio operatoru, müşahidəçi, döyüş idarəsi zabiti və s.) fleqmatik və sanqvinik temperamentli kursant üçün daha uyğundur. Xolerik temperamentli kursant üçün bu cür işlər yorucu ola və bunun öhdəsindən yaxşı gəlməyə bilər. Bu temperamentli gənclər üçün uzun müddət stress tələb etməyən işlər daha uyğundur. Pilot, döyüş vasitələri sürücüsü kimi hərbi ixtisaslar sanqvinik temperamentli tələbələr tərəfindən daha uğurla mənimsənilir [5, səh 120].

Tələbələrin qabiliyyətləri onların təlim müvəffəqiyyətinə təsir göstərir, lakin bu təsir ilk baxışdan göründüyü qədər birmənalı deyil. Bu əlaqə əsas qabiliyyətlərin tələbə şəxsiyyətinin strukturunda, həyati dəyərlər sistemində tutduğu yerdən və digər şəxsiyyət xüsusiyyətlərinin inkişafına necə təsir etdiyindən asılıdır.

Hər şeydən əvvəl, qabiliyyətlərin strukturunda nisbətən müstəqil komponent-lər fərqləndirilir: ümumi və sosial zəka, xüsusi qabiliyyətlər və yaradıcılıq. Təlimin uğuru ilə müsbət əlaqənin olması barədə birmənalı nəticə yalnız xüsusi qabiliyyətlərin təsiri ilə bağlıdır. Bu qabiliyyətlərə daxildir: sensor (fonematik eşitmə, səs fərqləndirmə, rəng fərqləndirmə həssaslığı və s.); motor (hərəkətlərin plastikliyi və incə koordinasiyası) və peşəkar qabiliyyətlər (texniki düşüncə, məkan təsəvvürləri, riyazi və s.).

Universitetdə uğurlu təhsil həqiqətən xüsusi peşə qabiliyyətlərinin formalaş-ma dərəcəsi ilə müəyyən edilir. Hətta bəzi hallarda peşə baxımından vacib olan xüsusi qabiliyyətlərin inkişaf səviyyəsinin aşağı olması müvafiq profil üzrə müvəf-fəqiyyətli təhsil almağı mümkünsüz edir.

Eyni zamanda, yüksək səviyyəli sosial zəkanın bəzən subyektin zəka və yaradıcılığının aşağı inkişaf səviyyəsinin kompensasiyası kimi inkişaf etdiyinə dair dəlillər mövcuddur. Yüksək səviyyəli sosial zəka ilə öyrənmə müvəffəqiyyətinin aşağı səviyyəsi arasındakı əlaqə tələbə şəxsiyyətinin bəzi əlamətləri ilə izah edilir. Belə ki, bu cür tələbələr bu qabiliyyətlərinin hesabına daha yüksək qiymət almaq məqsədi ilə müəllimlərə ustalıqla təsir edərək akademik göstəricilərinin yüksəldilməsinə nail ola bilirlər.

İntellektual qabiliyyətlər təlim uğuruna təsir edən ümumi amillərdən biridir. Eyni zamanda tədqiqatlar göstərir ki, tələbələrin yalnız yarısından bir qədər çoxunda təhsilin birinci ilindən sonuncu ilinə qədər ümumi intellekt səviyyəsində bir artım baş verir. Üstəlik, belə bir artım akademik göstəricilər baxımından zəif və orta səviyyəli şagirdlərdə müşahidə edilir. Universiteti bitirdikdən sonra təlim nəticələri yüksək olan tələbələrin intellekt səviyyələri universitetə daxil olduqları zaman malik olduqları səviyyə ilə eyni olaraq qalır. Bu hal onunla izah olunur ki, yüksək qabiliyyətlərə malik tələbələrdə təhsilin ilk illərində qeyri-adekvat dərəcədə yüksək özünə hörmət və başqalarından üstünlük hissi formalaşır, onlar sistematik şəkildə oxumağı dayandırır və nəticədə öyrənmə müvəffəqiyyəti kəskin şəkildə azalır.

Bir çox müəlliflər yüksək özünə hörməti və bununla əlaqəli özünə inamı və yüksək iddia səviyyəsini tələbənin uğurlu öyrənməsi üçün vacib müsbət amillər hesab edirlər. Qabiliyyətlərinə arxayın olmayan tələbə çox vaxt çətin problemlərin öhdəsindən gələ bilmir [2, səh 317-318].

K.Dvekə görə, özünüqiymətləndirmənin adekvat olması və gələcək fəaliyyəti stimullaşdırmaq üçün tələbə, istənilən yaxşı nəticəyə görə deyil, məhz qarşısına qoyduğu hədəfə

gedən yolda maneələri aşmaq üçün göstərdiyi müvafiq səylərin səviyyəsinə uyğun olaraq qiymətləndirilməlidir.

Tələbələrin qabiliyyətləri onların diqqət, yaddaş, yaradıcı təxəyyül, düşüncə və digər zehni proseslərinin və şəxsiyyət xüsusiyyətlərinin inkişafı ilə yanaşı çatışmayan keyfiyyətlərin kompensasiyası yolu ilə inkişaf edir.

Elmi ədəbiyyatlarda yaradıcılıq və təlim müvəffəqiyyəti arasındakı əlaqəyə dair birbaşa eksperimental tədqiqatlar azdır. Lakin yaradıcılığın digər fəaliyyət sahələrində müvəffəqiyyətə təsirini əks etdirən faktlar və müəllimlərin təcrübəsinin təsviri bu nəticəyə gəlməyə imkan verir ki, tələbələrin yaradıcılıq imkanları ilə təlimdəki müvəffəqiyyətləri birmənalı olaraq əlaqəlidir, yaradıcılıq müvəffəqiyyətli öyrənməyə kömək etməklə yanaşı onun məcburi şərti kimi çıxış edir.

Bədən konstitusiyasının təlim fəaliyyətinə təsiri barədə az məlumat var. Bəzi müəlliflər reaktiv pikniklərin enerjini daha sürətlə sərf etdiklərinə və bu səbəblə əvvəlcə onlara daha çətin, sonra isə daha asan tapşırıqların verilməli olduğuna diqqət çəkirlər. Onlarda uzunmüddətli yaddaş daha pis inkişaf etdiyinə görə onlarla mütəmadi olaraq keçirilmiş materialın təkrarını aparmaq tələb olunur. Asteniklərə tapşırıqları artan çətinliklə vermək və imtahanı onlardan sonuncular arasında götürmək olar. İş tonusunu saxlamağı bacarmaları, orqanizm və sinir sistemlərinin güclü olması buna imkan verir. Uzunmüddətli yaddaş yaxşı inkişaf etmişdir, bu da təlimdə uğur qazanmalarına müsbət təsir edir [8].

Xarakter təlim müvəffəqiyyətini birbaşa təyin etmir. O, təşkilati formalardan, təlim metodlarından və müəllimin pedaqoji fəaliyyət üslubundan asılı olaraq çətinliklər yarada və ya öyrənməyə müsbət təsir göstərə bilər.

Təlim fəaliyyətinin müvəffəqiyyəti ilə xarakter əlamətləri arasındakı əlaqələri araşdıran S.N.Morozyuk bu əlaqələrin hər zaman birmənalı olmadığını göstərdi. Eyni aksentuasiya tipi bir müvəffəqiyyət dərəcəsini artırdığı halda digərini aşağı sala və ya ona əhəmiyyətli təsir göstərməyə bilər. Üstəlik, xarakter xüsusiyyətləri nə qədər çox vurğulanırsa, onun təlim fəaliyyətinin müvəffəqiyyəti-nin spesifik göstəricilərinə təsiri daha intensiv olur [7].

Tələbənin xarakteri bir sıra xüsusiyyətlərdən ibarət olan bütöv sistem kimi çıxış edir ki, həmin xüsusiyyətləri aşağıdakı kimi qruplaşdırmaq olar [2, səh 319].

1) İntellektual xüsusiyyətlər - müşahidə, ehtiyatlılıq, təfəkkürün çevikliyi;

2) Emosional xüsusiyyətlər – özünəinam, gülərüzlülük, gümrahlıq;

3) İradəli xüsusiyyətlər - fədakarlıq, təşəbbüskarlıq, dözümlülük, qətiyyətli-lik, cəsarət və s.;

4) əxlaqi xüsusiyyətlər – vicdanlılıq, dürüstlük, doğruluq və s.

Xarakterin təlim fəaliyyətinə təsiri öyrənilərkən əsasən xarakterin aksentu-asiya tipi nəzərə alınmalıdır. Xarakter aksentuasiyasının ən məşhur təsnifatların-dan biri psixiatr A.E.Liçko tərəfindən hazırlanmışdır [8].

Gipertim tip - daim yüksələn əhval-ruhiyyəli, enerjili, ünsiyyətcildirlər, səs-küy salır və konfliktlərə meyllidirlər. Bu da ilk növbədə müəllimlərlə qarşı-durmaya səbəb ola bilər. Hövsələsiz olduqları üçün fəaliyyət və hobbilərini dəyişdirməyə meylli olurlar, işə və insanlarla münasibətlərin tez-tez səthiləşməsi özünü göstərir.

Tsikloid tip - əhval-ruhiyyə dövrlərlə dəyişir; iki və ya üç həftəlik yüksəlmiş, eyforik əhval-ruhiyyədən qıcıqlanma və apatiya meyli ilə xarakterizə olunan uzun müddətli depressiv əhval-ruhiyyəyə keçid edirlər. Bu cür tələbələr həyat stereotiplərini dəyişdirməkdə çətinlik çəkirlər, xüsusən də məktəbdən universitetə keçid zamanı;

Labil tip – gün ərzində bir neçə dəfə ən əhəmiyyətsiz səbəblərdən qaynaqlanan əhval dəyişikliyi özünü göstərir. Ciddi səbəblər olduqda reaktiv depressiyaya meyl nümayiş etdirirlər, bu da təlim fəaliyyətinin ciddi şəkildə pozulmasına səbəb olur. Digər insanları yaxşı başa düşürlər.

Həssas tip – hər şeyə çox həssas, utancaq, qorxaq, yalnız yaxşı tanıdığı və təhdid gözləmədiyi insanlarla ünsiyyətdə olur. Yüksək borc və məsuliyyət hissinə sahibdir, vicdanlıdır, günahı tez-tez öz üzərinə götürür. İntizamlıdır, çalışqandır, mütəmadi işləyir.

Qeyri-sabit tip – laqeyddir, əyləncə, boş vaxtın olmasına daim artan istəkləri var, sabit peşəkar maraqları yoxdur, gələcəyi düşünmürlər. Zəiflik və müəyyən dərəcədə qorxaqlıq təlim fəaliyyətinin tənzimlənməsinə və diqqətlə izlənilməsinə mane olur. Bu tipə mühasibat tələbələri arasında daha çox rast gəlinir, çünki bu tip tələbələr üçün ciddi rəqabətə tab gətirmək xarakterik deyil.

Konform tip - düşünülməmiş, tənqidi olmayan hərəkətlər nümayiş etdirir, qrupun, digər insanların tələblərinə tabe olur. Həyat şüarı hamı kimi olmaqdır. Pedaqoji təsir olaraq fürsətçi metodların zərərliliyini və konformist münasibətlərin mənfi cəhətlərini bilməlidirlər.

Şizoid tip - qapalıdır, emosional cəhətdən soyuqdur, digər insanların mənəvi dünyasına az maraq göstərir və onları öz dünyasına buraxmağa meylli deyil. Çox yüksək tənqidilik və yüksək inkişaf etmiş mücərrəd düşüncə onlar üçün xarakterikdir.

Epileptoid tip – emosional partlayışlara meyllidir, qəddarlıq, özünü sevmə və hökmranlıq istəyi özünü tez-tez göstərir. Durğunluq və süstlük nizam və dəqiqliklə birləşir. Hökmlü və güclü pedaqoqa asan tabe olurlar, amma, zəiflik hiss etdikdə bütün mənfi meyllərini göstərə bilərlər.

İsterik tip - diqqət mərkəzində olmağı sevir, tərif və heyranlıq arzulayır, teatrallığa və aktyorluğa meyllidir. Çox vaxt həqiqi bədii istedada sahib olur. Diqqəti cəlb etmək üçün olanları şişirdərək şərh edir, yalan danışmağa başlayır. Öyrənmə fəaliyyətində optimal şərait yaratmaq üçün müəllimin bu cür təhsilalanlara daha çox vaxt və diqqət ayırması tövsiyə olunur.

Təlim fəaliyyəti yalnız təhsilalanların fərdi keyfiyyət və bacarıqları deyil, fərdi fəaliyyətinin bütün komponentləri nəzərə alınaraq təşkil edilməlidir.

ƏDƏBİYYAT

1. Акимова М.К., Козлова В.Т. Рекомендации по использованию результатов диагностики природных особенностей человека в педагогической практике / Методики диагностики природных психофизи-ологических особенностей человека. Вып. 2. М., 1992. С. - 99–110.
2. Буланова-Топоркова М.В. Педагогика и психология высшей школы: Учебное пособие. Ростов н/Д:Феникс, 2002.- 447с
3. Голубева, Э. А. Способности и индивидуальность. – М. : Прометей, 1993. – 25 с.
4. Ледовская Т.В. Индивидуально-типологические особенности студен-тов вуза с разными показателями успешности учебной деятельности // Автореферат диссертации на соискание ученой степени кандидата психоло-гических наук, Ярославль, 2010. – 23 с.
5. Маклакова А.Г. Психология и педагогика. Военная психология. – СПб.: Питер, 2004. – 464 с.
6. Марков К.В. Индивидуально-психологические особенности будущих спе-циалистов военного профиля. – М.: Бук, 2014. – С. 297-300.
7. Морозюк С.Н. Саногенная рефлексия как фактор оптимизации акцентуа-ций характера и повышения эффективности учебной деятельности // Автореферат диссертации на соискание ученой степени кандидата психологических наук, 2001. – 45 с.
8. http://www.psy.msu.ru/science/public/smirnov/students.html

ВЛИЯНИЕ ИНДИВИДУАЛЬНЫХ ПСИХОЛОГИЧЕСКИХ ХАРАКТЕРИСТИК НА УСПЕШНОСТЬ ОБУЧЕНИЯ КУРСАНТОВ

Юсибова Фарида

АННОТАЦИЯ

Изучение индивидуально-психологических особенностей студентов поможет оптимизировать организацию и методическую основу обучения, выбор соответствующих образовательных инструментов. Новые формы преподавания и обучения в современном образовании больше подходят учащимся с сильной и подвижной нервной системой. Любой темпераментный ученик может преуспеть в учебной деятельности, но эти достижения достигаются по-разному.

Способности учащихся влияют на их успеваемость, но этот эффект не так очевиден, как кажется на первый взгляд. Характер - в зависимости от организационных форм, методов обучения и педагогического стиля работы учителя он может создавать трудности или положительно влиять на обучение.

EFFECT OF INDIVIDUAL PSYCHOLOGICAL CHARACTERISTICS ON EDUCATIONAL SUCCESSES OF CADETS

Yusibova Farida

SUMMARY

The study of individual-psychological characteristics of students will help to optimize the organization and methodological basis of training, the selection of appropriate educational tools. New forms of teaching and learning in modern education are more suitable for students with a strong and mobile nervous system. Any temperamental student can succeed in learning activities, but these achievements are achieved in different ways.

Students' abilities affect their learning success, but this effect is not as clear as it seems at first glance. Character depending on the organizational forms, teaching methods and the teacher's pedagogical style, it can create difficulties or have a positive effect on learning.

LİDERLİK KEYFİYYƏTİNİN FORMALAŞDIRILMASININ SOSİAL-PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

p.ü.f.d. Piriyeva Elnarə
BDU-nun Sosial və pedaqoji psixologiya kafedrasının dosenti
Hüsənova Aytac Sayad qızı
BDU-nun II kurs magistrantı
aytachusenova@gmail.com

Açar sözlər: lider, liderlik, liderlik keyfiyyətləri, liderlik fenomeni
Ключевые слова: лидер, лидерство, лидерские качества, феномен лидерства
Key words: leader, leadership, leadership qualities, the phenomenon of leadership

Müasir psixologiyanın aktual problemləri içərisində liderlik problemi xüsusi yer tutur. Bu, bir tərəfdən, liderlik probleminin sosial-praktiki əhəmiyyəti, digər tərəfdən isə, elmi tədqiqinin kifayət qədər nəzəri-metodoloji təminatının olmaması ilə bağlıdır. Liderlik fenomeni müxtəlif dövrlərdə tədqiqatçıların diqqətini cəlb etmişdir. Liderlik problemi yüz ildən çoxdur ki, bir çox sosioloqlar, psixoloqlar və idarəetmə mütəxəssisləri tərəfindən öyrənilir, lakin psixologiyada mürəkkəb sosial-psixoloji fenomen kimi liderliyin məzmunu və formalaşma mexanizmləri barədə hələ də vahid bir baxış yoxdur [5]. İnsanların müxtəlif bacarıqları və davranışlarının olmasını nəzərə alaraq və dəyişən dünyada daimi yeniliklərin olması liderlik üçün ayrı-ayrı mənalar gətirir. Liderlik bir sosial fenomen olaraq bəşəriyyəti bütün mövcudluğu boyunca müşayiət edir. Dünya təcrübəsi göstərir ki, insanlıq tarixində liderliyin çox böyük rolu var. Liderliyin mahiyyətinin öyrənilməsində sosial-psixoloji tədqiqatlar xüsusi yer tutur. Liderlik sahəsində 20-ci əsrdə 5000-dən çox tədqiqat aparılmış, liderlik fenomeninə dair ədəbiyyatda 350-dən çox tərif verilmişdir. Bu sahədə tədqiqat aparan demək olar ki, bütün alimlər bir tərif vermişlər. Liderlik barədə bir fikir birliyinin olmaması bu müxtəlifliyin təbii nəticəsi kimi qəbul edilə bilər. Bu qədər tərif olsa da, bu tərifl ərin əksəriyyəti aydın və tam başa düşülən deyil. Buna görə son illərdə liderlik tərifləri günümüzün şərtlərinə uyğun olaraq verilmişdir [4]. Liderlər insanlara təsir göstərən, istiqamətləndirən, hərəkətə gətirən və motivasiya edən insanlar olaraq diqqəti çəkir. Liderlik ən çox inam, ilham, münasibət, qərarvermə, emosional intellekt və şəxsi xarakter kimi birbaşa hiss edilməyən və az ölçülə bilən amillərə əsaslanır.

Liderlik mürəkkəb və çox cəhətli hadisədir. Liderlik hadisəsinin mahiyyəti insanları, qrupu qarşıda qoyulmuş məqsədlərə nail olmaq üçün səfərbər etmək, təşkil etmək, görülən işi dərk etmək, onun həlli yollarını görmək, insanları bu məqsədə nail olmaq üçün məhsuldar işə həvəsləndirməkdən ibarətdir.Lider isə hər hansı məqsədə nail olmaq üçün insanların səylərini birləşdirə bilən konkret şəxsdir. Lider anlayışı və onun təbiətinə müxtəlif yanaşmalar mövcuddur. Z.Freyd liderliyə şəxsiyyətin insanları özünə cəlb etmək, yaxınlaşdırmaq və onlara şüursuz səviyyədə heyranlıq, səcdə etmək meyllərini, hisslərini oyatmaq qabiliyyəti kimi baxmışdır. Bütün insanların bir şəxsə səcdə etməsi, onun mənəvi təsiri altında olmaları, bu şəxsiyyətin lider kimi formalaşmasını şərtləndirir.

Qərb psixoloqları Q.Hert və S.Miller lider fenomenini müəyyənləşdirirərkən dörd elementi əsas götürməyi təklif etmişlər:

1) liderin insan kimi keyfiyyətləri və motivləri;
2) lider obrazı və ardıcılların yolunu davam etdirməsi motivi;
3) liderin rolunun səciyyəsi;
4) institusional kontekst və ya rəsmi və hüquqi parametrlərin mövcudluğu.

Bir sıra müəlliflərin fikrincə, liderlik-bütün qrupa yönəlmiş və qrup tərəfindən qəbul edilən bir mənalı və sistemli təsirdir. Bu yanaşmanın müəllifləri V.Kats və L.Edingerdir. Onlardan fərqli olaraq, E.Boqardusun əlamətlər nəzəriyyəsinə görə liderliyin mahiyyəti ayrı-ayrı şəxslərin müstəsna keyfiyyətləri ilə şərtlənir. Bu konsepiyanın tərəfdarları liderə xas olan əsas keyfiyyətlərə bunları aid edirlər: ağıl, möhkəm iradə, məqsədyönlülük, təşkilatçılıq qabiliyyətləri, iti və çevik zəka, ruh yüksəkliyi, yumor hissi, təşəbbüskarlıq, səriştəlilik və s. Bu nəzəriyyənin başqa bir aspekti kimi faktor-analitik yanaşma da mövcuddur ki, onun tərəfdarları hesab edirlər ki, liderin məqsədlərə nail olmasını şərtləndirən fərdi keyfiyyətlər və əlamətlər var. Ona görə də liderlik konkret şəraitdəki məqsədlə şərtlənir. Lideri səciyyələndirmək üçün müəyyən şəraitdə onun qarşısına qoyduğu məqsədi təhlil etmək lazımdır [1].

Bəzi müəlliflər səbəbi ayrı-ayrı liderlərin qeyri-adi şəxsi keyfiyyətlərində axtarmaq lazım olduğu düşünürlər. Bunlar aşağıdakılardır:

a) Anadangəlmə keyfiyyətlər- Fərdin liderliyə doğru hərəkətinə kömək edən bir neçə xüsusiyyətdən 200 xüsusiyyətə qədər çeşidlənir.

b) Psixoloji keyfiyyətlər

Liderlik haqqında araşdırmalar bu gün də olduqca aktualdır. Liderlik anlayışının mahiyyətini izah edərkən onun xüsusiyyətlərini 3 əsas qrupda birləşdirmək olar [3,s.24]:

a) İntellektual xüsusiyyətlər - Buraya düşünmə, ümumi mədəniyyət, rasionallıq, analiz-sintez qabiliyyəti, intuisiyanın gücü, xəyal qura bilmə kimi xüsusiyyətlər aiddir.

b) Xarakterik xüsusiyyətlər - Uyğunlaşma, diqqətlilik, ehtiyatlılıq, iddialılıq, yaddaş gücü, nizamlılıq, dinamiklik, qətiyyətlilik, cəldlik və ciddilik kimi xüsusiyyətlər.

c) Sosial xüsusiyyətlər - Xarici görünüş, qrupa xitab edə bilmə və onu anlaya bilmə, iş intizamı, əməkdaşlıq, özünütənzimetmə və s. xüsusiyyətlərdir.

Liderin xüsusiyyətləri liderlik prosesinin effektivliyini təyin edən ən vacib amil kimi qəbul edilir. Liderlərin xüsusiyyətləri keçmişdə və bu gün bir çox tədqiqatçıların diqqətini çəkmiş və fiziki faktorlar, intellektual qabiliyyət və şəxsi xüsusiyyətləri ilə bağlı bir çox tədqiqatlar aparılmışdır. Lakin liderin hansı keyfiyyətlərə malik olması barədə hələ də bir fikir birliyi yoxdur. Liderlərin digər insanlardan fərqli keyfiyyətlərinin olduğu hesab olunur. Bu o demək deyil ki, bu cür xüsusiyyətləri olmayan insanlar heç vaxt lider ola bilməz və ya bu xüsusiyyətlərə sahib olan hər kəs lider ola bilər. Liderin meydana gəlməsi şəxsi keyfiyyətlərlə yanaşı mövcud sosial-mədəni, siyasi, mənəvi-ideoloji mühitdən də asılı olur.

Bir sıra müəlliflər liderlik keyfiyyətini peşəkarlıqla yanaşı davranışın dinamikliyi və təşkilatların, habelə liderliyin effektliliyi ilə əlaqələndirirlər [2].Bəziləri isə o, cümlədən, R.Stoqdill və R.Mann bunu ancaq liderin sırf şəxsi keyfiyyətləri ilə əlaqələndirirlər. Onlar aşağıdakı beş keyfiyyət meyarlarını əsas götürürlər:

a) zəka və intellektual qabiliyyəti;
b) hökmranlıq və başqaları üzərində üstünlük əldəetmə;
c) özünə inamlılıq;
ç) fəallıq;
d) işi bilmək.

Lakin yuxarıda göstərilənlərdən dörd keyfiyyət yalnız liderlərə deyil, hər bir adamda da olması vacibdir. Ona görə də, liderlik keyfiyyəti, daha ciddi, nadir keyfiyyətlərlə, məsələn, dərin məntiq, düşüncə, təfəkkür və yüksək təşkilatçılıq qabiliyyəti ilə səciyyələnməlidir. Yuxarıda göstərilən müəlliflərdən fərqli olaraq, Y.Bennis lider qruplarını aşağıdakı keyfiyyətlər üzrə müəyyən etmişdir: fizioloji, psixoloji və yaxud emosional, zehni, yaxud intellektual və şəxsi işgüzarlığı. Əlbəttə, bu xüsusiyyətlər liderliyə təsir edir. Lakin bunlar, xüsusi olaraq fizioloji, psixoloji xüsusiyyətlər liderlikdən başqa hər bir insanın fizioloji, psixoloji parametrlərini

müəyyən edir, adamların şəxsi keyfiyyətini səciyyələndirir. Ona görə də, fizioloji və psixoloji parametrləri bərabər şərait daxilində qəbul etməklə, birinci şərt kimi liderin şəxsi keyfiyyətini, onun çevikliyini, intellektuallığını, təşəbbüskarlığını, müstəqilliyini, təmkinliliyini, tələbatını və s. əsas götümək lazımdır. Çünki bunlar, nəticə etibarilə, onların işgüzarlığına, iqtisadi, sosial davranışına təsir edir, hətta belə iş üslubu innovasiyalı fəaliyyəti şərtləndirir [2, s.41].

Tədqiqatçı Stoqdil liderin 40-dan çox şəxsiyyət keyfiyyətlərini qruplaşdırmışdır. Öz növbəsində bu 40 element 6 şkala üzrə təsnif edilmişdir:

1. Fiziki göstəricilər (yaş və enerji);
2. Sosial göstəricilər;
3. İntellektuallıq;
4. Şəxsiyyət keyfiyyətləri;
5. Sosial xüsusiyyətlər;
6. Təşkilati qabiliyyətlər [7, s.456].

Stoqdilin tədqiqatlarında bu şəxsiyyət komponentləri liderliklə əlaqələndirilir. Eyni zamanda bir cəhəti də qeyd etmək lazımdır ki, bu cəhətlərdən hansının liderlikdə dominantlıq kəsb etməsi göstərilmir.

Tədqiqatda göstərilir ki, bir sıra keyfiyyətlər; ağıl, özünümüşahidə, özünəinam, nəticəyə cəhd, ünsiyyətcillik və enerjillik liderin şəxsiyyəti ilə pozitiv surətdə korrelyasiya olunur.

Ayrı-ayrı tədqiqatlar isə daha çox ekstrovertliyi, tərbiyəliliyi, populyarlığı, xarici və daxili aləmin mütənasibliyini liderə məxsus keyfiyyətlər kimi təqdim edir. Lakin psixoloqlar birinciləri daha çox liderə məxsus keyfiyyətlər adlandırırlar. Təbii ki, liderə məxsus olan keyfiyyətləri fərqli fonda qiymətləndirən tədqiq edən tədqiqatçılar da az deyildir.

Ümumən belə qənaətə gəlmək olar ki, liderlik insan şəxsiyyətinin müxtəlif aspektləri ilə bağlıdır. Təbii ki, insanlar içərisindən daha çox enerjili, ağıllı, öz məqsədlərinə nail olmağa çalışan, öz məqsədi uğrunda səylərini çəmləşdirən, başqaları ilə ünsiyyət qurmağı bacaran insanlar liderə çevrilirlər.

Belə ki, liderliyin öyrənilməsi hər zaman diqqət mərkəzindədir. Alimlər liderliyin inkişafı və həyata keçirilməsi proseslərini, habelə onun effektivliyini artıran amilləri müəyyənləşdirən qanunauyğunluqları öyrənirlər. Bu hər şeydən əvvəl, liderlərin seçilməsinin yanında səmərəli liderlik metodlarının inkişafına xidmət edir. Buna uyğun olaraq, qərb ölkələrində praktikada uğurla istifadə olunan müxtəlif psixometrik və sosiometrik testlər və metodlar yaradılmışdır. Liderliyin öyrənilməsi prosesi 2 əsas istiqaməti əhatə edir: idarəetmə nəzəriyyəsinə xas olan fərdi uğur hekayələrinin öyrənilməsi və liderlik keyfiyyətlərinin daxili mahiyyətinin nəzəri və empirik tədqiqatları [6]. Fərdi uğur hekayələrini öyrənmək, müəyyən bir liderin şəxsi təcrübəsi ilə tanış olmağa və ortaya çıxan problemləri həll etmə mexanizmlərini anlamağa imkan verir. Psixologiya nöqteyi-nəzərindən liderlik üzərində aparılan tədqiqatlar onun fəaliyyət və inkişaf qanunauyğunluqlarını müəyyənləşdirməyə imkan verir. Liderlik problemlərini öyrənərkən bu iki istiqaməti birləşdirmək məsləhətdir.

ƏDƏBİYYAT

1. Əliyev B.H., Siyasi psixologiyada ümummilli lider problemləri // Psixologiya jurnalı, 2004, №1, s.3-12.
2. Quliyeva Ş.T., İdarəetmə psixologiyası və sosiologiyası. Bakı, 2018, 229 s.
3. Erdoğan,İ.(2004). Okul Yönetimi ve Öğretim Liderliği. İstanbul: Sistem Yayıncılık, 5.Baskı.
4. Liderlik olgusunun tarihsel evrimi, temel kavramlar ve yeni liderlik paradigmasının analizi, Milli Eğitim Dergisi, sayı 162, Bahar, 2004.

5. Ерастова А. В., Черкасова О. В., Лидерство. Саранск, 2015.
6. Ильина Е.В., Афанасьева А.Н., Романова А.И., ЛИДЕРСТВО. Казань, 2017, 156 с
7. Райгородский Д.Я., Автономова Н.С. Психоанализ власти. Т.2. Самара, 1999, 607 с

LİDERLİK KEYFİYYƏTİNİN FORMALAŞDIRILMASININ SOSİAL-PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

Aytac Hüsənova

XÜLASƏ

Məqalədə liderlik problemi nəzərdən keçirilmiş və liderlik keyfiyyətlərinin formalaşmasına təsir göstərən amillər tədqiq olunmuşdur. Müxtəlif tədqiqatçılar tərəfindən elmi ədəbiyyatlarda göstərilmiş liderlik keyfiyyətləri təhlil edilmişdir. Liderlik keyfiyyətlərinin formalaşması üçün zəruri olan əsas şərtlər müəyyən edilmişdir. Eyni zamanda psixoloqlar tərəfindən liderlik fenomenini müəyyənləşdirərkən əsas hesab etdikləri meyarlar da diqqət mərkəzinə gətirilmişdir.

СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ ФОРМИРОВАНИЯ ЛИДЕРСКИХ КАЧЕСТВ

Айтадж Хусанова

АННОТАЦИЯ

В статье исследуется проблема лидерства и исследуются факторы, влияющие на формирование лидерских качеств. Продемонстрированные в научной литературе лидерские качества анализировались различными исследователями. Определены основные условия, необходимые для формирования лидерских качеств. При этом на первый план выдвинуты критерии, которые психологи считают основными при определении феномена лидерства.

SOCIO-PSYCHOLOGICAL FEATURES OF THE FORMATION OF LEADERSHIP QUALITIES

Husanova Aytaj

SUMMARY

The article examines the problem of leadership and examines the factors influencing the formation of leadership qualities. The leadership qualities shown in the scientific literature have been analyzed by various researchers.The basic conditions necessary for the formation of leadership qualities have been identified.At the same time, the criteria that psychologists consider to be the main ones when defining the phenomenon of leadership have been brought to the forefront.

AZADLIQDAN MƏHRUM EDİLMİŞ ŞƏXSLƏRDƏ CƏZA ÇƏKMƏ MÜDDƏTİ BİTDİKDƏN SONRAKI MƏRHƏLƏDƏ DƏYƏRLƏRİNİN TƏHLİLİ

dos. Babayeva Təranə
BDU-nun Psixologiya kafedrasının müəllimi
Kərimi Günay Zəkəriyyə qızı
BDU-nun II kurs magistrantı
gunay.karimi@mail.ru

Açar sözlər: çəzaçəkmə müddəti, məhkumlar, sərvət meyilləri, dəyərlər, adaptasiya
Ключевые слова: срок лишения свободы, заключенные, тенденции к благосостоянию, ценности, адаптация
Keywords: term of imprisonment, prisoners, wealth tendencies, values, adaptation.

Məhkumun cəmiyyətə yenidən uyğunlaşması, onun təzədən cəmiyyətin bir hissəsi olması şəklində müəyyən edilir. Cəzaçəkməkdən azad edilmiş şəxslərin cəmiyyətə sosial adaptasiyası məsələsinə onların cəza çəkdikləri müddətində başlayaraq baxılmalıdır. Cəmiyyətdən təcrid olunma, müəssisədaxili monotonluq, müəssisə əməkdaşları tərəfindən davamlı olaraq məhkumların üzərində nəzarət, məhkumlarda qapalılıq hissi, həyəcanlılıq, narahatlıq formalaşdırır. Bəzən bu kimi hallar məhkum kollektivi arasında aqressivliyin artmasına gətirib çıxarır. Cəzaçəkmə müddəti artıqca artıq məhkumlarda həm keçmiş həyatlarına, həm də gələcək həyatlarına dair münasibətləri dəyişir. Onlarda həmçinin valideynlərinə, ətrafdakı insanlara və hadisələrə, özünə qarşı olan münasibətdə narahatlıq üstünlük təşkil edir.

Məhkumlar arasındakı münasibətlər, məhkumun penitensiar müəssisə daxilindəki rejim qaydalarına riayət etməsi, onun sosial statusu, törətdiyi cinayətə görə digər məhkumlar tərəfindən ona göstərilən münasibət, cəzaçəkmə müəssisəsinə adaptasiyası üçün araşdırılması vacib olan məsələlərdəndir. Bu cür münasibətlərin araşdırılmasında həmçinin məhkumun görüş zamanı ailəsinə olan münasibəti xüsusi əhəmiyyət kəsb edir. Ümumiyyətlə, cinayət törətmiş şəxslərin cəmiyyətdən təcrid olunması onların psixikasına güclü təsir göstərən amillərdəndir. Çünki ömürlərinin müəyyən hissəsini cəzaçəkmə müəssisəsində keçirməlidirlər. Buradakı şərait və ona uyğunlaşmaq bəzən uzun vaxt tələb edir [3]. Cəzaçəkmə müəssisəsininin qaydaqanunlarına uyğunlaşmaq və gələcək həyata hazırlanmaq üçün müəyyən islahedici tədbirlərlə tanış olur. Məhkumluq müddəti ərzində onların emosional sferasında bir sıra dəyişiklik müşahidə olunur. Bu dəyişikliklər əsasən emosionaliradi, kommunikativ və özünəmünasibət sferasında daha çox büruzə verir. Məhkumlarda depressivlik, özünə qarşı qeyritənqidi münasibət, davranışlarında manipulyasiyanın üstünlüyü, təmkinliyin, introvertliyin zəifləməsi, problemli situasiyada kreativliyin zəifləməsi, ətrafdakılara qarşı münasibətdə həssaslığın zəifləməsi və s. keyfiyyətləri özünü büruzə verir.

Bəzi ölkələrdə islahedici tədbirlər reabilitasiya proqramları çərçivəsində qeyd edilir. Bunlara bir sıra nümunələr vermək olar, məsələn: AFRin cəza sisteminə görə, məhkumların reabilitasiyası onların yenidən cinayi davranışının azaldılması üçün aparılmalıdır. Həmçinin keçirilən reabilitasiya tədbirləri zamanı həmin şəxsin şəxsi keyfiyyətlərini, qabiliyyətlərini, münasibətlər sistemini, davranışını və başqa faktorları nəzərə almaq lazımdır.

Məhkumlara islahedici tədbirlər tətbiq olunarkən, ilkin olaraq, onlar haqqında məlumat toplanılmalıdır və törətdiyi cinayət, bu cinayətə görə məhkəmə tərəfindən müəyyənləşdirilən həbs müddəti, maraqları, şəxsi keyfiyyətləri və s. amillər nəzərə alınmalıdır. Bu zaman məhkumun törətdiyi cinayət əməlinin kriminal nəticəsinə də xüsusi əhəmiyyət verilməlidir.

İslahedici tədbirləri həyata keçirərkən çalışmaq lazımdır ki, məhkumların hüquq və azadlıqlarına hörmətlə yanaşılsın. Belə olduğu tədqirdə məhkumların cəzası bitdikdən sonra cəmiyyətə adaptasiyası üçün yaxşı nəticə əldə etmək olar. Buna görə də, penitensiar müəssisənin əməkdaşları məhkumlara münasibətdə bu kimi davranışları diqqət mərkəzində saxlamalıdırlar. Həmçinin məhkum kollektivi arasındakı münasibətlərə xüsusi önəm verilməlidir. Məhkumların statusu məsələsi onların əlaqə və münasibətlər sisteminə güclü təsir göstərən amillərdəndir. Müəssisə daxilində formalaşan məhkum submədəniyyəti onların statusunun müəyyən olunması üçün əsasdır. Burada onlar əsasən törətdikləri cinayət əməlinə görə müəyyən status əldə edirlər. Məhkumlarla aparılan islahedici tədbirlər zamanı məqsəd onların törətdikləri cinayəti onlara xatırlatmaq yox, onların bu cinayət qarşısında səmimi peşmançılıq hissini formalaşdırmaq və bundan sonrakı həyatında bu kimi addımlar atmasının qarşısının almasında ona yardımçı olmaqdır.

Dünya praktikasında məhkumlarla aparılan islah tədbirləri müxtəlif istiqamətlərdədir. UNODF (United Nation Office on Drugs and Crime) tərəfindən məhkumların islahedilməsi

proqramı aşağıdakı kimi müəyyənləşdirilmişdir:

1. Həbsxanalarda təhsil proqramlarının inkişafı.
2. Həbsxanalarda peşə təlimləri proqramının inkişafı.
3. Həbsxanlarda iş proqramlarının inkişafı [5].

1970-ci ilə qədər reabilitasiya sistemi amerika həbsxanalarında aparılan əsas siyasi istiqamət idi. Məhkumlara peşə bacarıqlarını inkişaf etdirmək və psixoloji problemlərini həll etmək, onları cəmiyyətə yenidən inteqrasiyası üçün həvəsləndirdi. Həbsxanalarda təhsil və peşə təlimləri məsələsinə xüsusi diqqət yetirilir. Hesab edilir ki, bütün bunlar məhkumun dünyagörüşünün formalaşmasında əsasdır. Təhsil, peşə təlimləri və iş imkanlarının inkişafı məhkumlar üçün mühüm reabilitasiya tədbiridir.

Təhsil səviyyəsinin artırılması çox önəmlidir. Müəyyən biliklərin öyrədilməsi məhkuma gələcək həyata daha inamlı olmağa kömək olur. Lakin bu məsələdə bəzi çətinliklər özünü göstərir. Əsas çətinlik kimi təhsil mədəniyyətinin məhkumlar tərəfindən necə qarşılanmasıdır. 1970ci ilədən artıq ABŞda məhkumların universitetdə təhsil almaqları üçün imkanlar yaradılmışdır.

Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinə əsasən də məhkumların ilk peşə ixtisas təhsili və peşə hazırlıqları qanunla nəzərdə tutulmuş qaydada həyata keçirilir. Bunların həyata keçirilməsi məhkumların islahı üçün əsasdır.

Yetkinlik yaşına çatmayanlara müəssisə daxilində fəaliyyət göstərən ümumtəhsil məktəbində təhsil alması üçün şərait yaradılır və bəzi həvəsləndirici tədbirlər tətbiq olunur. Burada əsas məqsəd onların gələcək həyata qarşı olan münasibətlərini dəyişdirmək və düzgün istiqamətdə formalaşdırmaqdır.

Həvəsləndirici tədbirlər yetkinlik yaşına çatmayan məhkumlar üçün çox vacibdir. Bu tədbirlər həm rejim qaydalarına münasibətdə və həm də məhkum kollektivindəki münasibətlərdə müsbət yöndə nəticələr verir. Burada həmçinin məhkumların müəyyən istehsalat fəaliyyət ilə məşğul olmalarına şərait yaradılır. İstehsalat fəaliyyəti nəticəsində müəyyən peşə qabiliyyətlərinə yiyələnməyə imkan əldə edilir və bu gələcək həyatında işlə təmin olunmaq məsələsinə böyük kömək olur.

Şəxs nə üçün cinayət sayılan davranış variantına üstünlük verir? İnsanlar bu və ya digər davranış aktı seçərkən, əsasən öz mənfəətlərinə üstünlük verirlər. Burada cəmiyyətin fərdi mənafe ilə ictimai mənafe, habelə dövlət mənafeyi arasında adətən uyuşmayan cəhətlər mövcud olur və bu açıq, yaxud da örtülü formada mübarizə doğurur. Məqsəd və mə nafe birliyi nə qədər yüksək olarsa, bir o qədər insanların kriminal davranış aktına yol vermə ehtimalı azalır [3].

Cəzaçəkməkdən azad edilmiş şəxslər cəmiyyətdə qarşılaşdıqları problemlər zamanı, bəziləri bunlara davam gətirir və öz həyatlarını artıq yenidən qurmağa davam edirlər. Bəziləri isə bunlara dözə bilmir və tək çarəni yenidən cinayət törətməkdə görürlər. Burada onların qarşılaşdıqları çətinliklər, xüsusilə də insanlara olan münasibətləri xüsusi maraq kəsb edir. İnsanlar tərəfindən onlara verilən dəyər, onlarla münasibət qurmaq istəməkləri, məhkumluq damğası və s. kimi neqativ amillər həmin şəxslərdə ümidsizlik, dəyərsizlik hisslərini formalaşdırır. Onlar necə hərəkət etməkdə çətinlik çəkirlər. Ən əsası onların öz ailələri tərəfindən qəbul edilməmələri, yaxud soyuq şəkildə qarşılanmaqları onlarda ailə dəyərlərinə qarşı etinasızlıq formalaşdıra bilir. Şəxs sanki frusturasiya halına düşür, çünki onlar cəza müddəti ərzində bundan sonrakı həyatları haqqında qurduqları planlar realda qarşılaşdıqları vəziyyətlə təzad təşkil etdikdə, onlarda ümidsizlik hissi formalaşır. Cəzaçəkməkdən azad olunmuş şəxslərə qarşı cəmiyyətdə mövcud olan stiqma onlara qarşı etinasız münasibət göstərilməsi, ünsiyyət qurulmaması onlarda insanlara qarşı ədavət hissi formalaşdıra bilər. Bu münasibətlər onların iş tapmaq məsələsində çətinlik törədir və demək olar ki, onların yenidən cinayət törətməsinin əsas səbəblərindən biri kimi də göstərilə bilər.

Məhkumlara tətbiq olunan islah proqramlarına nümunə kimi WNTP (Work Net Training Programme) göstərmək olar. Bu proqramın əsas məqsədi, cəzaçəkməkdən azad olunmuş şəxslərin işəqəbul zamanı qarşılaşa biləcəkləri çətinliklər, onların qorxuları, mövcud bacarıqları, maraqları və işə həvəsinin formalaşdırılması üzərində işlər aparılması idi.

Penitensiar müəssisələrdən cəzaçəkməkdən azadedilmiş şəxslərin sosial adaptasiyası haqqında Azərbaycan Respublikası qanununa əsasən, cəzaçəkməkdən azad olunmuş şəxslərin adaptasiyası üçün keçirilən tədbirlərə onların ilkin olaraq qeydiyyat alınması, sosial adaptasiya mərkəzlərinin yaradılması, həmin şəxslərin peşə hazırlığının, onların müəyyən işlə təmin olunması, təhsil almaqları üçün uyğun şəraitin yaradılması, onlara müəyyən pul müavinətinin verilməsi, həm hüquqi, həm də psixoloji və informasiya yardımın göstərilməsi daxil edilmişdir [6].

Cəzaçəkmə müddətində məhkumların dəyərlərində yeni dəyişmələr özünü göstərir. Dəyərlər sistemindəki dəyişiklik şəxsi xarakterik xüsusiyyətlərə görə dəyişir. Ümumi tendensiya beledir ki, dəyərlər sistemində olan dəyişikliklər pozitiv xarakter daşıyır. Lakin ümumi dəyərlərin müsbət istiqamətə köklənməsi üçün istər cəzaçəkmə dövründə, istərsə də sonrakı dövrlərdə məhkumların psixoloji reablitasiya işi ilə məşğul olunmalı, onların müsbət istiqamətdə dəyişməsinə və cəmiyyətə qazandırılmaısna önəm verilməlidr.

Mənəvi keyfiyyətlərin təşəkkülü, sərəvt meyilləri və dəyərlər şəxsiyyətin psixoloji statusunun göstəricilərindən biri olub onun formalaşmasını şərtləndirir. Şəxslərin sərvət meyilərinin, mənəvi dəyərlərin təzahürü, onun formalaşması hər şeydən əvvəl həmin şəxslərin yaşadığı cəmiyyətdə mövcud olan normativ qaydaların, etalonların hansi səviyyədə olmasından asılıdır. Sərvət meyli problemi insan və cəmiyyət haqqında bir sıra elmlərin o cümlədən fəlsəfə, sosiologiya, pedaqogika, antropologiya, psixologiyanın tədqiqat predmetinə daxildir. sərvət meyilləri-dəyər fenomeni tədqiqat üçün ən ziddiyyətli və çoxmənalı anlayışdır. Şəxsin sərvət meyillərinin əsasını onun dəyərləri təşkil edir.

Məhkumluq dövründə şəxsiyyətin mənəvi inkişafında bir sıra dəyişikliklər, yeni psixoloji vəziyyətlər meydana çıxır. Bu dövrdə şəxslər öz psixoloji keyfiyyətlərini dərk etmək və qiymətləndirməklə yanaşı onların mənlik şüurunun məzmunu və özləri haqqında təsəvvürü dəyişir. Məhkumlar öz mənəvi keyfiyyətlərini ictimai baxımdan qiymətləndirməyə və başqa insanlara da bu baxımdan qiymət verməyə çalışırlar. Bununla yanaşı olaraq qeyd etmək lazımdır ki, bu dövrdə şəxsiyyətin mənəvi inkişafında bir sıra köklü dəyişikliklər, yeni psixoloji vəziyyətlər meydana çıxır.

Qeyd edilməlidir ki, məhkumların cəmiyyətə adaptasiyası məsələsinə cəzaçəkmə müddəti ərzində baxılmalıdır. Burada əsas məqsəd məhkumun cəmiyyətə normal şəkildə uyğunlaşmasına nail olmaq, birdaha həmin şəxs tərəfindən cinayət əməlinin törədilməsinin qarşısını almaqdan ibarətdir. Məhkumun cəzaçəkmə müəssisəsinə daxil olduğu gündən etibarən onun davranışları müşahidə edilməli, emosional sferasında baş verən dəyişikliklər, məhkum kollektivindəki statusu, yoldaşlarına və müəssisə daxilindəki rejim qaydalarına, müəssisə əməkdaşları ilə münasibətlərinə diqqət yetirilməlidir. Onlarla aparılan islahedici tədbirlər zamanı hər birinə fərdi şəkildə yanaşılmalı, onların şəxsi keyfiyyətlərini həmişə diqqət mərkəzində saxlanılmalıdır. Onların dəyər sisteminə diqqət yetirilməli, müsbət istiqamətli dəyərlərin formalaşması üçün reablitasiya həyata keçirilməlidir. Burada əsas məqsəd, dünya praktikasında istifadə olunan metodlara istinad edərək, keçirilən treninq proqramları, terapiyalar, müəyyən maarifləndirici seminarlar zamanı onlara gələcək həyatlarında qarşılaşacaqları problemli situasiyada adekvat həll yolunu tapmalarına yardımçı olmaqdır.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı: Qanun, 2018, 672 s.
2. BayramovƏ.S., ƏliyevB.H. Hüquq psixologiyası. Bakı: Təhsil, 2012, 656 s.
3. Səməndərov F.Y. Cinayət hüququ. Bakı: Hüquq nəşriyyatı, 2002, 736 s.
4. Макшанов С.И. Психология тренинга, 1997, 238 с.
5. UNODC. Roadmap for the development of prison based rehabilitation programmes. Criminal justice handbook series. Vienna, 2017, 76 p.
6. www.eqanun.az

AZADLIQDAN MƏHRUM EDİLMİŞ ŞƏXSLƏRDƏ CƏZA ÇƏKMƏ MÜDDƏTİ BİTDİKDƏN SONRAKI MƏRHƏLƏDƏ DƏYƏRLƏRİNİN TƏHLİLİ

Təranə Babayeva, Kərimi Günay

XÜLASƏ

Məqalədə azadlıqdan məhrum edilmiş şəxslərin cəzaçəkmə müddəti bitdikdən sonrakı dövrdə psixoloji vəziyyətlərinə aydınlıq gətirilmiş, adaptasiya mərhələsində üzləşdikləri problemlər şərh olunmuş və bu müddətin dəyərlər sisteminə təsiri məsələlərinə aydınlıq gətirilmişdir. Qeyd edək ki, məhkumların cəmiyyətə inteqrasiyaının düzgün şəkildə təmin olunması və onların psixoloji reablitasiyası vacib məsələlərdəndir. Bu baxımdan məqlaənin mövzusu çoz aktualdir.

АНАЛИЗ ЦЕННОСТЕЙ ПОСЛЕ ОКОНЧАНИЯ НАКАЗАНИЯ У ЛИЦ, ЛИШЕННЫХ ИЗ СВОБОДЫ

Тарана Бабаева, Карими Гюнай

АННОТАЦИЯ

В статье разъясняется психологическое положение лиц, лишенных свободы после отбытия наказания, проблемы, с которыми они сталкиваются на этапе адаптации, и

влияние этого периода на систему ценностей. Следует отметить, что правильная интеграция заключенных в общество и их психологическая реабилитация является важным вопросом. В связи с этим тема статьи очень актуальна.

ANALYSIS OF VALUES AFTER THE END OF PUNISHMENT IN PERSONS DEPRIVED OF PRISON

Tarana Babayeva, Karimi Gunay

SUMMARY

The article clarifies the psychological situation of persons deprived of their liberty after the end of their sentence, the problems they face during the adaptation phase, and the impact of this period on the value system. It should be noted that the proper integration of prisoners into society and their psychological rehabilitation is an important issue. In this regard, the topic of the article is very relevant.

TƏHSİLİN MULTİKULTURAL DƏYƏRLƏRİN FORMALAŞMASINDA ROLU

p.ü.f.d.İranə Məmmədli
BDU-nun Sosial və pedaqoji psixologiya kafedrasının dosenti
Fəttayeva Günəş Habil qızı
BDU-nun II kurs magistrantı
gunesfettayeva@gmail.com

Açar sözlər: multikulturalizm, multikultural təhsil, xarici tələbələr, multikultural dəyərlər, pedaqoji mühit.
Ключевые слова: мультикультурализм, поликультурное образование, иностранные студенты, мультикультурные ценности, педагогическая среда.
Key words: multiculturalism, multicultural education, foreign students, multicultural values, pedagogical environment.

Müasir dövrün əsas aktual problemlərindən biri multikultural cəmiyyətin yaradılmasıdır. XXI əsrin əvvəllərindən başlayaraq qloballaşmanın sürətlənməsi, ölkələr arasında sərhədlərin aradan götürülməsi, miqrasiya edən insanların sayının günbəgün artması müşahidə olunur. Prosesin belə cərəyan etməsi insanların milli kimliyinə də böyük təsir göstərmiş və Avropanın əksər ölkələri multikultural dövlətlərə çevrilmişdir [3].

Fərqli mədəniyyət, fərqli din, fərqli dillər multikultural cəmiyyətin bazisini təşkil edir [2]. "Multikulturalizm" termini son dövrlərdə dilimizə daxil olmuşdur. Məzmunca multikulturalizm bir məkanda yaşayan xalqların mədəni birliyidir. Dərin tarixi köklərə, zəngin mədəniyyətə malik olan Azərbaycan özünün multikultiralizm siyasəti ilə dünya ölkələrinə örnək kimi qəbul edilir. Əsrlərdən bəri formalaşan, eyni zamanda ictimai-bədii, psixoloji-mənəvi müstəvidən kənara çıxmayan və günü-gündən inkişaf edən dəyərlər toplusu sayılan Azərbaycan mədəniyyəti məhz multikulturalizmin özüdür.

Multikulturalizm dünyada bir çox sahəyə öz təsirini göstərmiş olduğu kimi bu təsirlər təhsil sahəsindən də yan keçməmişdir. Dünya təhsil sistemində multikultural təhsil bir mədəniyyətli təhsil sisteminə verilən bir cavab reaksiyası kimi qəbul olunur. Tək bir mədəniyyətin öndə tutulduğu bir şəraitdə həyata keçirilən monokultural təhsil mühitində insanlar, digər mədəniyyətlərə mənsub insanlara habelə onların mədəni dəyərlərinə qarşı həssas olmağı bacarmırlar və onlara qarşı aqressiv ola bilirlər. Parekhin fikrincə sadəcə öz mədəni mühitinə mənsub olan insanlarla təhsil alan və digər insanlarla əlaqədə olmayan tələbələr, fərqli dünya görüşlərini, dəyərləri, həyat tərzlərini ümumən insanlığın bu ayrılmaz hissəsini qəbul etməkdə olduqca çətinlik çəkirlər. Buna əks olaraq multikultural təhsil mühitində təhsil alan tələbələr də öz mədəni dəyərlərini yaşatmaqda olan bir şəxs olmaqla yanaşı, intellektual, həssas, demokratik, konstruktiv zəkaya sahib, münaqişələrin həllinə can atan, müxtəlif mədəni dəyərlərə və bu dəyərləri həyat tərzinə çevirmiş insanlara qarşı müsbət münasibət göstərən, onlarla daima qarşılıqlı təsir halında olan bir şəxsiyyətə çevrilir. Məhz bu səbəbdən multikultural təhsilin müasir təhsil növü olduğunu qeyd etmək mümkündür. Buna müvafiq olaraq qeyd etmək olar ki, insanları olduğu kimi qəbul etmək, onların maraqlarına, istəklərinə, düşüncələrinə, inanclarına hörmət etmək müasir insandan gözlənilən davranışlardır [5].

Multikultural təhsilin təhsil proqramlarına daxil edilməsi 1989-cu ildə Derman-Sparks və ABC Task Force sayəsində olmuşdur. Derman-Sparks və ABC Task Force multikultural təhsili, qərəzli və qəlibləşmiş düşüncələrdən ayrılmış bir yanaşma kimi qəbul edirlər. Gorskiyə görə multikultural təhsil, müxtəlifliklərə dəyər verən, daima dəyişməkdə olan cəmiyyətin ehtiyaclarını

ödəyən, bununla bağlı olaraq bütün insanların fərdi və sosial inkişafına töhfə verəcək olan və təlim qruplarının gücləndirilməsi üçün təlim şəraitinin müxtəlifliyini idarə edən bir proqram kimi dəyərləndirilmişdir. ABŞ-da multikultural təhsilin öncüllərindən biri olan James Banksa görə, çoxmədəniyyətli bir təhsil mühiti yaratmaq üçün mövcud təhsil proqramları hər cəhətdən dəyişdirilməli və inkişaf etdirilməlidir. Hazırda dünyada baş verən qloballaşma prosesinin təhsil sahəsi üzərindəki təsiri daha aydın şəkildə nəzərə çarpır.

Azərbaycanda da dinindən, dilindən, irqindən asılı olmayaraq bütün vətəndaşlara bərabər münasibət göstərilir və təhsil sahəsində bu prinsip xüsusi diqqətdə saxlanılır. Multikultural təhsil öyrənənlərdə sosial-mədəni davranışın və dəyərlərin formalaşdırılması üçün mühüm əhəmiyyətə malikdir. Azərbaycan Universitetlərində təhsil alan digər xalqların nümayəndələri üçün bərabər imkanlar yaradılmış və onların sərbəst təhsil almaları üçün hər cür şərait yaradılmışdır. Təhsil sahəsində əsas istiqamətlərdən birini təlimin məzmununun modernləşdirilməsi və öyrənənlərin elmi potensialının genişləndirilməsi üçün müsbət təlim mühitinin yaradılması təşkil edir. Tələbələrdə əmək fəaliyyətində lazım olan kompetensiyaların formalaşdırılması onların müstəqil vətəndaş kimi yetişmələrinə, mədəni və mənəvi fəallığı təmin etməyə zəmin yaradır. Öyrənənlərdə bilik, bacarıq, vərdiş, keyfiyyət və dəyərlərin cəmi olan kompetensiyaların formalaşdırılması mədəni, başqa millətlərin adət-ənənələrinə hörmət edən, peşəkar fəaliyyətində yaradıcı düşünə bilən kadrların yetişdirilməsinə təkan verir. Multikultural təhsil müvafiq siyasi strategiyanın modeli kimi dövlətin mədəni tərəqqisinə imkan verən mütəxəssis yetişdirilməsini nəzərdə tutur. Burada əsas məqsəd millətlərin inteqrasiyası nəticəsində ölkənin təhsil siyasətini inkişaf etdirməyə nail olmaqdır. Tədris zamanı multikultural dəyərlərin formalaşması dinindən, dilindən, irqindən, millətindən asılı olmayaraq hər kəsə tələbatlarını ödəyə bilmək üçün bərabər imkanların yaradılması, gənc nəslə digər ölkələrin və xalqların mədəni dəyərlərinə tolerant münasibət göstərməyin aşılanması deməkdir. Multikultural təhsil mədəniyyətlərarası dialoqların və əməkdaşlığın inkişafına müsbət təsir göstərir.

Multikultural təhsilin qarşısında bir sıra vəzifələr dayanır:

- təhsilalanların müxtəlif mədəniyyətlərə mənsub olduqlarını anlamaq və qəbul etmək;
- milli-mədəni müxtəlifliklərin tolerantlıq səviyyəsinin müəyyənləşdirilməsi məqsədilə sinifdə millimədəni mühitin araşdırılması və öyrənilməsi;
- sinifdə tolerantlıq, hörmət, fərqli mədəniyyətlərin təsdiqi məqsədilə tolerantlıq mühitinin yaradılması;
- təhsilalanlar arasında münasibətlərin, ünsiyyətin hörmət, qarşılıqlı anlaşma əsasında qurulması, onlarda bir-birinin milli mədəniyyətinə marağın yaradılması;
- münaqişələrin yaradıcı, sülh yolu ilə həll edilməsi və bunun təhsilalanlara aşılanması [1].

Ümumiyyətlə multikultural təhsil, tələbələrin akademik nailiyyətlərinin artırılmasını və mədəni həssaslığı dəstəkləyərək, mədəni fərqliliklər haqqındaki yanlış mühakimələri azaltmağı, şəxslərin multikultural şəraitdə harmoniya ilə yaşamalarını, fərqli şəxslərə bərabərhüquqlu təhsil imkanı təmin etmək və öz mədəniyyətlərini, adət-ənənələrini yaşatmaqlarını dəstəkləmək məqsədi daşıyır. Gay, multikultural təhsilin əsas məqsədlərini aşağıdakı kimi qeyd etmişdir:

- Şəxsi inkişaf: Şəxsin özünü anlamasını, mənlik xüsusiyyətlərinin müsbət yöndə inkişaf etdirməsini və öz şəxsiyyəti ilə barışıq olmasını təmin etmək.
- Dəyərləri və münasibətləri açıqlamaq: Fərqli mədəniyyətlərə mənsub olan şəxslərin dəyərlərini və münasibətlərini açıqlayaraq digər şəxslərin bu mədəniyyətləri tanımalarını və hörmət bəsləmələrini təmin etmək.
- Multikultural sosial sərişdə: Şəxslərin, mədəniyyətlərarası əlaqəsi, fərqli mədəniyyətlərin strukturları, alternativ perspektivləri barədə fikirlərini dəstəkləmək.

- Əsas qabiliyyətlərin qazanılması: Fərqli etnik kökənlərdən olan tələbələrin əsas qabiliyyətləri (oxumaq, yazmaq, riyaziyyat, məsələ həlli, tənqidi düşüncə və s.) qazanmalarına yardım etmək.
- Mədəni və etnik savadın inkişafı: Şəxslərin öz mədəni dəyərlərindən əlavə cəmiyyətdə mövcud olan mədəni və etnik müxtəlifliklərin fərqinə varmalarını və bu müxtəliflikləra hörmət bəsləmələrini təmin etmək [4].

Müasir təhsil sisteminin əsas vəzifəsi cəmiyyət üçün, dünyanın elmi mənzərəsindən baş çıxaran, milli-mədəni müxtəlifliyi özündə birləşdirən, qoruyan, mədəni pluralizmə əsaslanan mültikultural şəxsiyyət formalaşdırmaqdır. Azərbaycan təhsil sisteminin beynəlxalq, o cümlədən Avropa təhsil məkanına inteqrasiyası əsasında Universitetlər arası tələbə mübadiləsi və həmin Universitetlərdə keçirilən birgə tədbirlər tələbələrdə multikultural dəyərlərin formalaşdırılmasına xidmət edir. Bundan əlavə təhsil almaq məqsədi ilə Azərbaycana gələn xarici tələbələrin də ölkədə multikulturalizmin təbliğinə və təhsilimizin multikultural fonda inkişafına müsbət təsiri danılmazdır. Şübhəsiz, Azərbaycanda multikulturalizm siyasəti gün keçdikcə daha da inkişaf edəcəkdir. Yekun olaraq qeyd edilməlidir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə 2016-cı il "Multikulturalizm ili" elan edilmişdir. Milli və dini kimliyindən asılı olmadan Azərbaycanda yaşayan hər bir şəxs multikultural dəyərlərə sahib çıxmalı və təhsil prosesinə tətbiq edilməsinə xüsusi dəstəyini əsirgəməməlidir.

ƏDƏBİYYAT

1. Qazıyeva.M.Y. Multikulturalizm və Azərbaycanda dil siyasəti. Heydər Əliyev: Multikulturalizm və tolerantlıq ideologiyası. I Beynəlxalq Elmi Konfrans, Məruzələrin tezisləri. Səh 159.
2. Zeynalova N., Bayramova A. Ümumi təhsilin kurikulumunun əsasları. Bakı: Elm və Təhsil, 2018, 328 səh.
3. Aydin H. A literature – based Approaches on Multicultural Education. Curriculum and Instruction Department, Yildiz Technical University, Istanbul, Turkey. Anthropologist, 16 (1-2): 31-44, 2013.
4. Gay, G. (1994). A synthesis of scholarship in multicultural education.
5. Parekh, B. (2000). Rethinking Multiculturalism, Cultural diversity and political theory, London: Palgrave.

TƏHSİLİN MULTİKULTURAL DƏYƏRLƏRİN FORMALAŞMASINDA ROLU

İranə Məmmədli, Fəttayeva Günəş

XÜLASƏ

Tarixi təcrübə göstərir ki, müasir multimədəni mühitin, mədəni müxtəlfliyin mövcud olmadığı, multikulturalizm siyasətinin yerildilmədiyi bir şəraitdə cəmiyyətin tərəqqisi, xalqların milli mədəniyyətlərə inteqrasiyanın harmonik inkişafı mümkün deyil. Multikulturalizm dəyərləri olmayan və yaxud da bu dəyərləri təhsil sisteminə tətbiq etməyən ölkələrdə qarşıqoyma və qarşıdurmalar, milli və dini münaqişələr geniş yayılır. Multikulturalizm siyasətinin inkişafı, təhsil prosesinin beynəlxalq təcrübəyə istinad etməsi və tələbələrdə multikultural baxışların, tolerantlığın inkişafı Azərbaycan təhsilinə böyük töhfə verəcəkdir.

РОЛЬ ОБРАЗОВАНИЯ В ФОРМИРОВАНИИ МНОГОКУЛЬТУРНЫХ ЦЕННОСТЕЙ

Ирана Мамедли, Фаттаева Гюнеш

АННОТАЦИЯ

Исторический опыт показывает, что современная мультикультурная среда невозможна без гармоничного развития культурного разнообразия, политики мультикультурализма, прогресса общества, интеграции народов в национальные культуры. Конфронтация и конфликты, национальные и религиозные конфликты распространены в странах, которые не имеют мультикультурных ценностей или не применяют эти ценности в системе образования. Развитие политики мультикультурализма, применение международного опыта в образовательном процессе и развитие мультикультурных взглядов и толерантности среди студентов внесут большой вклад в азербайджанское образование.

THE ROLE OF EDUCATION IN THE FORMATION OF MULTICULTURAL VALUES

Irana Mammadli, Fattayeva Gunash

SUMMARY

Historical experience shows that a modern multicultural environment is impossible without the harmonious development of cultural diversity, the policy of multiculturalism, the progress of society, the integration of peoples into national cultures. Confrontation and conflicts, national and religious conflicts are common in countries that do not have multicultural values or do not apply these values in the education system. The development of a policy of multiculturalism, the application of international experience in the educational process and the development of multicultural views and tolerance among students will make a great contribution to Azerbaijani education.

PROSOSIAL DAVRANIŞIN SOSİAL-PSİXOLOJİ DETERMİNANTLARİ

p.ü.f.d.Lalə Cabbarova
BDU-nun Sosial və pedaqoji psixologiya kafedrasının dosenti,
Məmmədova Xəyalə Vaqif qızı
BDU- nun II kurs magistrantı
xeyalememmedova50@gmail.com

Açar sözlər: Prososial davranış, xeyirxahlıq, gender, din, etno-mədəni amil
Ключевые слова: Просоциальное поведение, доброта, гендер, религия, этнокультурный фактор
Key words: Prosocial behavior, kindness, gender, religion, ethno-cultural factor.

Müasir psixologiyada insanların sosial münasibətləri ilə bağlı mövzular və problemlər öz aktuallığını saxlamaqdadır. Qeyd etmək lazımdır ki, uzun illər ideoloji, siyasi təbliğatla "uzlaşmayan" sosial psixologiyanın bir sıra problemləri kimi prososial davranış, aqressiya kimi mövzular da dərslik və dərs vəsaitlərinə salınmasa da bu sahəyə maraq səngiməmişdir. Mövcud sosial-siyasi, ideoloji mühitin tələbləri nəzərə alınmaqla insanların sosial münasibətlərinin bu və ya digər aspektləri sovet psixologiyasında, o cümlədən, sovetlər birliyinin tərkibində olan Azərbaycanda da nəzərdən keçirilsə də, insanların biri-birinə kömək və yaxud ziyan verən davranışlarının arxasında duran səbəb və motivlərin araşdırılması sahəsində yuxarıda qeyd olunan vəziyyətlərlə bağlı bir sıra boşluqlar diqqəti cəlb edir. Bu kimi boşluqları nəzərə alaraq, hazırkı məqalədə sosial münasibətlərdə insanların biri-birinə kömək, yardım etməsinin motiv və məqsədlərinin, qarşılıqlı kömək davranışını şərtləndirən amillərin araşdırılması əsas məqsəd kimi götürülmüşdür.

İlk öncə qeyd etmək lazımdır ki, sosial psixologiya dərsliklərində və psixoloji lüğətlərdə prososial davranış digər insanlara kömək məqsədi daşıyan, fayda verən davranış kimi müəyyən olunur (1; 9; 10). Yəni burada başqasına edilən köməyin və ya faydanın niyyəti, məqsədi əhəmiyyət daşımır. Bu həm insanın egoistik məqsədilə (məsələn, ətrafdakıların rəğbətini qazanmaq, gələcəkdə etdiyi köməyin geri qaytarılması gözləntisi və s.), həm də öz xeyrini düşünmədən, hətta öz zərərinə olmasına rəğmən başqasının xeyrinə edilən altruistik məqsədlərilə şərtlənə bilər. Prososial davranışın daha geniş əhatə dairəsini, istənilən kömək aktını özündə ehtiva etdiyini (9) nəzərə alaraq, hazırkı araşdırma məhz insanları prososial davranışa təhrik edən sosial-psixoloji amillərin müəyyənləşməsini nəzərdə tutur.

Diqqətə çatdırmaq lazımdır ki, güzəran təcrübəmizdə gördüyümüz və rastlaşdığımız insanların biri-birinə köməyi, yardımı ilə bağlı saysız-hesabsız faktlar, qəhrəmanlıq nümunələri bir sıra sualların da ortaya çıxmasına zəmin yaradır. İnsanlar təbiəti etibarilə xeyirxahdır, yoxsa bu keyfiyyət sosial mühitdə formalaşır? İnsanları başqalarına kömək etməyə nə vadar edir? İstənilən an, istənilən insandan kömək almaq mümkündürmü? Hansı hallarda insanlar kömək edirlər? Kim, kimə, nə zaman kömək etməyə həvəsli olur?

Bəzi hallarda insanlar başqalarına kömək etmək üçün həyatlarını riskə atırlar, hətta bu cür davranışlar tamamilə tanımadıqları insanlara görə edilə bilir. Niyə insanlar praktiki olaraq özləri üçün faydalı olmayan şeylər edirlər?

Qeyd olunan suallar hələ qədim dövrlərdən insanları düşündürmüş, bir sıra fəlsəfi və dini yanaşmalar çərçivəsində onlara cavab axtarılmışdı. Bu baxımdan, qədim Yunan filosoflarından biri olan Platon, insanların bir qrup şəxslərin başqalarının rifahı naminə öz eqoist davranışlarını cilovlaya bilmələrini təmin etmək üçün sosial münasibətlər qurmaları lazım olduğu fikrini irəli

sürmüşdür. Aristotel isə insan təbiətini anadangəlmə olaraq daha yaxşı görürdü. O, kömək edənin və kömək alanın bir-birinə nisbi müsbət hisslərini də izah etmişdir. Aristotelə görə, bu hisslər kömək edən insan üçün kömək alanlardan daha çoxdur. Bir çox dinlərə də diqqət yetirsək, burada insalara kömək etmək vacib bir amil kimi vurğulanır. Məsələn, xristian "İncil"i bir-birinə, kasıblara və imkansızlara qayğı göstərməyi təşviq edir. Başqalarına sədəqə vermək İslamın əsaslarından və fərz əməllərindən biridir (zəkat) və ehtiyacı olanlara illik vermək borcunu ehtiva edir. Hinduizmdə yaxşılıq bütün canlılar üçün vacibdir, çünki bütün canlılar Tanrının təzahürləridir. Bundan əlavə, başqalarının əzablarını azaltmağa kömək etmək yaxşı bir əməl və ya insanın davranışının sonrakı təcəssümlərə müsbət təsiridir. (3)

Qeyd etmək lazımdır ki, Azərbaycan milli düşüncəsində də xeyirxahlıq, nəciblik, mərhəmət, yaxşı əməl və mənəvi saflıq kimi kateqoriyalar xalqımızın əsrlərlə formalaşan adət-ənənələrində, mənəvi dəyər və düşüncə sistemində kök salmışdır . Tarix boyu sərt və çətin sınaqlarla üzləşdiyi, istibdad altında yaşamağa məhkum olduğu vaxtlarda da xalqımız məhz ali mənəvi-əxlaqi keyfiyyətlərini saxlamaq əzmi göstərməklə özünəməxsusluğunu, milli kimliyini qorumuşdur. Yıxılanı ayağa qaldırmaq, kimsəsizə əl tutmaq, ehtiyacı olana yardım etmək, bir sözlə, nəcib və xeyirxah işlər görmək həm də xalqımızın tapındığı İslami dəyərlərdən irəli gəlir. Çətinliklərə, məhrumiyyətlərə baxmayaraq biz tarix boyu mənəvi dəyərlərimizə, islama sadiq olmuş, heç bir quruluş yad təsirlər bunu qəlbimizdən çıxara bilməmişdir. Müqəddəs etiqada, yüksək daxili inam və ruhi saflığa tapınan Azərbaycan xalqının uzun əsrlər boyu islami dəyərlərə sadiq müsəlman hümməti kimi tanınması da məhz bu həqiqətin bariz təcəssümüdür (11).

Elmi düşüncə inkişaf etdikcə, cəmiyyətdə rast gəlinən ayrı-ayrı fenomenlər də müxtəlif elmi araşdırmaların, tədqiqatların obyektinə çevrilir və akademik araşdırmalara istinad edən elmi-nəzəri istiqamətlər, konsepsiyalar formalaşır. Bu baxımdan, prososial davranışla bağlı da ötən əsrin ortalarından başlayaraq bir sıra araşdırmalar aparılmışdır. Bunlara, P.L.Persi və P.RAmadonun ("Yardımın taksonomiyası: Çox ölçülü miqyaslı analiz") köməyin növləri ilə bağlı, Mak Quayerin ("Təbii mühitdə köməkçi davranışlar: kömək ölçüləri və əlaqələri") kömək davranışının izahı ilə bağlı, fövqəladə vəziyyətdə yardım proseslərini daha yaxşı başa düşmək üçün Bib Laten və Con Darleyin("Cavab verməyən seyirçi") araşdırmalarını misal göstərmək olar. P.L. Persi və P. R. Amadonun köməyin növləri bağlı araşdırmasında (7), əsasən, 3 kömək növünü: planlı və rəsmi olan, xeyriyyə bağışı kimi birbaşa olan və köməyə ehtiyacın nə qədər önəmli olması ilə bağlı məsələlər nəzərdən keçirilmişdir. Mak Quayerin (8) kömək davranışının izah ilə bağlı araşdırmalarında da isə 4 kömək davranışı ayırd edilmişdir. Bura təsadüfi (təsadüfi tanışlar üçün kiçik bir şey etmək), şəxsi (ailə üzvlərinə və ya hər hansı dostuna kömək etməsi), emosinal (başqasına qayğı və fərdi emosional dəstək vermək) və fövqalədə və ya təcili (ciddi problemi olan birinə kömək etmək) kömək şamil edilmişdir.

Fövqəladə vəziyyətdə yardım proseslərini daha yaxşı başa düşmək üçün Bib Laten və Con Darleyin araşdırması isə sosial vəziyyətin vacib rolunu nəzərə alaraq "Cavab verməyən seyirçi" kitabında yer alan "Kömək qərar modeli"nə əsaslanır. Bu model beş addımlıq bir prosesi özündə cəmləşdirir. Bu modelə istinad edərək demək olar ki, kömək qərarının verilməsi, bir problemin qəbul edilməsindən həqiqi yardım hərəkətinə qədər prososial davranış prosesini izah edir (5).

Əvvəldə də deyildiyi kimi bəzi insanlar, həqiqətən, müxtəlif vəziyyətlərdə başqalarına nisbətən daha çox kömək edirlər və bu insanların altruistik və ya prososial xarakterli olduğunu söyləyirlər. Bəzi insanlar aşkar bir şəkildə digərlərindən daha xeyirxah olsa da bu davranışları onların şəxsiyyətini müəyyən etmir, çünki yaranan vəziyyətin təsirlər də önəmlidir. İnsanların nə qədər xeyirxah olması da buna bağlıdır (2, s. 464-465).

Bu, o deməkdir ki, yaradılan vəziyyət və insanlara təzyiq edən amillər - gender, etno-mədəni amillər , qəbul etdiyi din, hətta o anda olan əhval belə prososial davranışına təsir edir (12).

İlkin olaraq prososial davranışa təsir edən amillərdən biri olan "gender" barədə danışsaq ortaya belə bir sual çıxır: "Kişilər və ya qadınlar daha çox prososoial davranış göstərir?" Demək olar ki, hər mədəniyyətdə normalar qadın və kişilərə uşaqlıqda öyrəndikləri fərqli xüsusiyyətlər və davranışlar verir. Kişilərə nisbətən qadınlar daha çox ictimai işlərdə könüllü olaraq fəaliyyət göstərir. Kişilər isə qadınlara nisbətən tanımadığı bir insanın həyatını xilas etmək üçün öz həyatlarını təhlükəyə atır. Necə ki, Qərb mədəniyyətinin kişi gender rolunun xusiyyətlərindən biri cəsur və mərd olmaqdır, həmçinin qadın cinsiyyət rolunda qadınların daha əzizləyici, mərhəmətli olmasını göstərir. Əslində, kişilər və qadınlar arasında kömək baxımından ortalama olaraq heç bir fərq yoxdur (4).

Prososial davranışa təsir edən digər bir amil isə "etno-mədəni" amildir. Bütün mədəniyyətlərdə insanlar daxil olduqları etnik qrupun üzvü olaraq tanıdıqları şəxslərə digərlərindən daha çox prososial davranış göstərirlər. Daxil olmadıqları etnik qrupların üzvlərinə isə daha az prososial davranış göstərirlər. Və insanların daxili qrup və xarici qrup arasında çəkdikləri səddin qalınlığını isə məhz etno-mədəni amillər müəyyənləşdirir (1, s. 641-642).

Bəs "din" prososial davranışa təsir edən amil kimi özünü necə göstərir? Əvvəldə də qeyd olunduğu kimi, bir çox dinlərdə başqalarına kömək etmək yaxşı bir əməl kimi aşılanır. Eyni zamanda bir çox dində "Qızıl qayda"nın bir növü də öyrədilir: başqalarının sizə necə davranmağını istəyirsinizsə, siz də onlara elə davranın. Görəsən dindar insanlar bu qaydaya həqiqətən əməl edirlərmi? Əslində edirlər, lakin bu müəyyən vaxtlarda özünü göstərir. Dini iclaslara qatılanlar qatılmayanlara nisbətdə, xeyir işlərinə daha çox pul xərclədiklərini, daha çox könüllü işlər gördüklərini söyləyir. Dindar insanlar özlərinə ya da başqalarına daha yaxşı birisi kimi görünəcəkləri vaxt daha çox prososial davranış aktı edirlər. Əksi baş verdikdə, yəni xüsusi bir vəziyyət olduqda və bu kömək etdiklərini heç kəs bilməyəcəksə prososial davranışı nümayiş etdirməzlər (6). Batsonun empatiya-altruizm hipotezinə görə dindar insanların digər insanlara empatiya hiss etdiklərini demək olmaz , lakin prososial davranışları kömək etmə maraqlarına ən yaxşı şəkildə xidmət etdiyində artır (2, s.463).

Əhvalın prososial davranış aktları üzərində təsirləri nələrdir? Yaxşı əhvalda olmaq, prososial davranışının səbəblərini artıra bilər. Yaxşı əhvalda olmaq insanların yaxşı tərəflərini görməyə və xətalarına laqeyd yanaşmağa kömək edir. Başqalarına kömək etmək, yaxşı əhvalı uzatmağın əla yoludur. Yaxşı əhval özümüzə verdiyimiz diqqətin dərəcəsini artırır, bu da öz növbəsində şəxsi dəyərlərimiz və ideallarımız istiqamətində hərəkət etmə ehtimalını artırır. İnsan özünü pis hiss etdikdə isə insanlar əsasən yaxşı davranışların pis davranışları kompensasiya etdiyini düşünürək hərəkət edirlər. Özlərini günahkar hiss edəcək bir şeylər etdiklərində bir başqasına kömək etmək yenidən balansı saxlayacaq və günahkarlıq duyğusunu azaldacaq düşüncəsi ilə hərəkət edirlər (1, s. 643-646).

Ümumən şəxsiyyət, gender, etno-mədəni amil və əhval insanların nəyə görə başqalarına prososial davranış göstərməsi ilə bağlı tapmacanın bir hissəsidir, bununla belə bütün mənzərəni göstərmir. İnsanların nəyə görə prososial davranış aktına ehtiyacı olduğunu anlamaq üçün onların özlərini tapdıqları sosial dünyada nəzər yetirməyimiz lazımdır.

"Sosial dünya" dedikdə, yəni şəxsin yetişdiyi, formalaşdığı mühit nəzərdə tutulur. Bu mühitin prososial davranışa təsiri isə düşündürücü bir amildir. Bu baxımdan, kiçik şəhərlərdə yaşayan insanların prososial davranışının daha çox olması ilə bağlı araşdırmalar aparılmış və müxtəlif ehtimallar irəli sürülmüşdür. Ehtimallardan biri kiçik şəhərlərdə yetişən insanlarda altruist dəyərləri mənimsəmə meylinin daha çox olmasıdır. Bir başqa ehtimal isə insanların digərlərinə kömək etməsində əsas məsələ bir-birlərinə daha yaxın mühitdə yaşamalarındadır. Böyük şəhərlərdə yaşayan insanlar kiçik yaşayış yerlərindəki insanlarla müqayisədə daha az

köməkləşirlər, amma bunun səbəbi dəyərlərdəki fərqlərdə deyil, kənd həyatının insanları özlərinə, daxilinə çevirməsindədir (1, s. 647).

Əsas olan fərdin təkcə harada yaşadığı deyil, eyni zamanda bir yerdən digərinə nə qədər vaxt aralığında köçməyindədir. İnsanların uzun müddət yaşadığı yerdən ayrılıb, başqa bir yerə köçməsi tez-tez təsadüf olunan bir haldır. Tədqiqatçılara görə bir yerdə uzun müddət yaşayan insanların prososial davranışı göstərməsi ehtimalı daha yüksəkdir. Bir yerdə uzun müddət yaşamaq fərdin insanlara daha çox bağlanmasına, qonşularla daha çox qarşılıqlı asılılığına və fərdin insanlar içindəki nüfuzu haqqında daha çox narahat olmasına gətirib çıxarır. Bir yerdə uzun müddət yaşayan insanların olduqları mühitin insanlarına daha çox əhəmiyyət verməsi heç də təəccüblü deyildir (1, s. 648).

Son olaraq, çoxsaylı araşdırmalara əsaslanaraq demək olar ki, birinin digərinə kömək etməsi, yəni prososial davranış göstərməsi onun dini etiqadları, böyüdüyü coğrafi və sosial mühit, milli dəyərləri, adət-ənənəsi, fərdin formalaşmış xarakteri ilə əlaqədar özünü biruzə verə bilər. Tək bir amili nəzərə alaraq prososial davranış aktını izah etmək, səbəbini açıqlamaq məqsədəuyğun deyil.

ƏDƏBİYYAT

1. Aronson E., Timothy D., Akert M. Sosyal psikoloji, 1. basım, 2012. s. 622-647
2. Batson C. Daniel and Powell A. Adam - Altruism and prosocial behavior. Handbook of psychology, 1998 . p. 463-465
3. Berkowitz, W. Local heroes. Lexington, MA: Lexington Books.1987
4. Becker, S. W. and Eagly, A. H. The heroism of women and men. American Psychologist. 2004. 59(3). p. 163–178.
5. Darley, J. M. and Latane. Bystander intervention in emergencies: Diffusion of responsibility. Journal of Personality and Social Psychology, 1968. 8(4, Pt.1), p. 377–383
6. Morgan. S. P. A research note on religion and morality: Are religious people nice people? Social Forces, 1983. 61(3). p. 683–692.
7. Pearce P.L. and Amato P.R. A taxonomy of helping: A multidimensional scaling analysis. 1980. Sosial psychology quarterly. 43, p. 363-371
8. McGuire, A. M. Helping behaviors in the natural environment: Dimensions and correlates of helping. Personality and Social Psychology Bulletin. 1994. 20(1), 45–56
9. Olson J.M., Breckler S.J., Wiggins E.C. Social psychology alive. Toronto: Nelson Education, 2008, 657 p.
10. Ребер А. Большой толковый психологический словарь. В 2 т.: Пер. с англ. Т.2 (П-Я). М.: Вече, АСТ, 2000.
11. http://anl.az/down/meqale/xalqqazeti/2010/avqust/131275.htm
12. https://opentextbc.ca/socialpsychology/chapter/other-determinants-of-helping/

PROSOSIAL DAVRANIŞIN SOSİAL-PSİXOLOJİ DETERMİNANTLARİ

Lalə Cabbarova, Məmmədova Xəyalə

XÜLASƏ

Bu məqalə prososial davranışın mahiyyətini izah edir və davranış haqqında mütəfəkkirlərin fikirlərindən bəhs edir. "İnsanlar nə zaman kömək edirlər?", "İnsanlar niyə özləri üçün faydalı olmayan şeylər edirlər?", "İnsanları başqalarına kömək etməyə vadar edən nədir?". Prososial davranışa təsir edən əsas amillər: din, cinsiyyət, şəxsiyyət, etnomədəni amillər üzərində araşdırmalar aparılmışdır.

СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЕ ДЕТЕРМИНАНТЫ ПРОСОЦИАЛЬНОГО ПОВЕДЕНИЯ

Лала Джаббарова, Мамедова Хаяла

АННОТАЦИЯ

В этой статье объясняется природа просоциального поведения и упоминаются взгляды мыслителей на просоциальнок поведение. «Когда люди помогают?», «Почему люди делают вещи, которые им не полезны?», «Что заставляет людей помогать другим?» Проведены исследования основных факторов, влияющих на просоциальное поведение: религия, пол, личность, этнокультурные факторы.

SOCIAL-PSYCHOLOGICAL DETERMINANTS OF PROSOCIAL BEHAVIOR

Lala Jabbarova, Mammadova Khayala

SUMMARY

In this article a main point of prosocial behavior is explained and it is used to thinkers' quotes related to help behavior. It is searched answers to questions such as " in which cases do people help?", "Why do people do things being useless?", "What makes people help others?". The main factors which are impacted on prosocial behavior: researchs about religion, gender, personality, ethnocultural factors are investigated.

ÖYRƏNMƏ ÇƏTİNLİYİ ANLAYIŞININ PSİXOPEDAQOJİ TƏHLİLİ

Elşən Hüseynov
BDU-nun IV kurs tələbəsi
Diyanə İbrahimova
Sosial və pedaqoji psixologiya kafedrasının müəllimi
diyane_huseynova@mail.ru

Açar sözlər: öyrənmə çətinliyi, inklüziv təhsil, şifahi oxu, oxu qavrayışı, söz tanıma bacarığı, oxuma vərdişləri.
Ключевые слова: трудности в обучении, инклюзивное образование, устное чтение, понимание прочитанного, распознавание слов, навыки чтения.
Keywords: learning difficulties, inclusive education, oral reading, reading comprehension, word recognition, reading skills.

İlk dəfə 1963-cü ildə professor Sam Kirk və əməkdaşları tərəfindən elmə gətirilən öyrənmə çətinliyi termini sinif-dərs şəraitində və ya digər növ akademik fəaliyyət çərçivəsində öyrənmə ilə bağlı müxtəlif dərəcəli problemləri özündə ehtiva edən hal kimi təsvir edilir. Hər bir fərd spesifik öyrənmə bacarıqlarına sahib olduğuna görə öyrənmədə əngəllər də dəyişkən xarakter daşıyır. Bu qəbildən olan problemlər əsasən oxuma və yazmada, hesablamada müxtəlif səviyyəli pozuntular ilə xarakterizə olunsa da, son illərdə sinfə adaptasiya və dərsə inteqrasiyada boşluqlar, mənimsəmə qabiliyyətinin aşağı olması, koordinasiya və kiçik motorikada zəiflik, göz kontaktının pozulması, eşitmədə diqqət əksikliyi, nitqi idarəetmədə çətinlik də həmçinin buraya daxil edilmişdir.

Müxtəlif araşdırmalar nəticəsində bio-sosial və psixo-pedaqoji amillərin öyrənmə əlilliyinə səbəb olduğu aşkarlanıb. Vinklerin genetik araşdırmalarına görə, disleksiyalı fərdlərin valideynləri və bacı-qardaşlarının 35-45%-də oxumada qüsurlar müşahidə edilmişdir. Həmçinin bir əkizdə öyrənmə çətinliyi varsa, digərində olma ehtimalı cüt yumurta əkizlərinə görə 40%, tək yumurta əkizlərində isə 68% nisbətindədir. Amerika Xəstəliyə Nəzarət və Qoruma Mərkəzlərinin statistikaları siqaret çəkən anaların uşaqlarında öyrənmə pozuntularına rast gəlindiyini sübut etmişdir. Digər araşdırmalarda, alkoqoldan istifadə nəticəsində dölün inkişaf edən beyin neyronlarına mənfi təsirinin yaratdığı nevrobioloji pozuntular uşağın öyrənməsində problemlərlə üzləşməsinə səbəb olmuşdur. Bəzi doğuş tədqiqatları isə göstərir ki, 1 kq-dan az doğulan körpələr gələcəkdə yaşıdlarına nisbətən akademik uğursuzluqlar yaşayırlar. Doğuşdan sonrakı dövrdə ətraf mühit faktorunun beynin inkişafına təkan verdiyi bilinir. Buna görə də, uşaqları erkən yaşlarında mühit çirkliliyi və toksinlərdən qorumaq lazımdır [1, s.35].

Ümumiyyətlə, belə uşaqların müəyyənləşdirilməsi üçün multidisiplinar şəkildə diaqnostika keçirilməlidir. Tibbi diaqnostikanın həyata keçirilməsi üçün pediatrlar, oftalmoloq, otolorinqoloq, nevroloq, psixiatr, fizioterapevt və başqa uşaq inkişaf mütəxəssisləri tərəfindən müayinə şəraiti yaradılmalı və ilkin dəyərləndirmə aparılmalıdır. Sadəcə tibbi müayinənin kifayət etmədiyinə görə pedaqoji və psixoloji ölçülərin götürülməsi olduqca mühüm əhəmiyyət kəsb edir. Çünki bu uşaqların təhsil istiqamətləri məhz psixo-pedaqoji dəyərləndirmələr nəticəsində aydınlaşdırıla bilir. Əvvəla, müəllimlər tərəfindən diaqnostik qiymətləndirmə metodlarından istifadə edilərək sinfə yeni daxil olan şagirdlərin akademik sahədəki problemli məsələləri ortaya çıxarılmalıdır. Öyrənmədə aydın görünən bir çətinlik hiss edirlərsə, o zaman məktəb daxilində fənn müəllimləri, təhsil psixoloqu və defektoloq-loqoped tərəfindən əvvəlcədən tərtib olunmuş diaqnostika həyata keçirilir. Bu cür diaqnostikanın aparılması üçün

uşağın akademik uğursuzluqlarının səbəbinin başqa faktorlardan asılı olub-olmadığını fərqləndirməyi bacarmaq önəmlidir. Əks halda qiymətləndirmə prosesinin hazırlanması üçün çəkilən əziyyət boşa gedəcəkdir. Sonrakı mərhələdə sinifdə şagird üçün münasib dərs mühiti yaratmaq və ya uşağın inkluziv sinfə keçidini təmin etmək problemin həlli istiqamətində irəliləmə qeydə almağa kömək edəcəkdir. Belə ki, hazırlanan fərdi tədris və erkən müdaxilə proqramları sinfin içərisində davamlı öyrənmə şəraitini qoruyacaqdır [2, s.57].

Dünya üzərində öyrənmənin əsas pozuntuları əsasən oxuma bacarıqlarının əksikliyində və ya formalaşmamağında özünü göstərir. Oxu prosesi müxtəlif mənaları ifadə edən yazıları duyğu orqanları vasitəsilə anlamağa, oxuduğunu düzgün qavramağa və mətn haqqında düşüncəyə sahib olmağa kömək edən ənənəvi və kompleks öyrənmə sistemidir. Disleksiya yunan və latın dillərinin birləşməsindən yaranıb, "dis"- pozuntu, çətinlik; "leksiya" isə söz, nitq deməkdir. Yazılı və şifahi nitqə təsir edən zəif oxuma qabiliyyətini ifadə etmiş bu terminin ən ağır forması aleksiya adlanır ki, bu zaman uşaq tamamilə oxuma vərdişlərindən məhrum sayılır. Oxumaqda çətinlik aşağıdakı bir sıra komponentlərə əsaslanır: 1.Şifahi oxu; 2. Oxu qavrayışı; 3. Söz tanıma bacarığı; 4.Oxuma vərdişləri.

Salviya və Yseldikin (1998) təsnifatına görə şifahi oxuda rast gəlinən problemlərə oxuyarkən kobud tələffüzə yol vermək, səhv buraxmaq, hərhansı sözü xüsusilə haşiyəyə almaq, sözləri başqaları ilə əvəzləmək, durğu işarələrinə diqqət etməmək daxildir. Oxuduğun mətni qavrama akademik biliklərə sahib olmaqda olduqca yardımçı rola malik ünsürdür. Oxu bacarıqlarının əsasında altı fərqli qavrama tipi dayanır:

- Hərfi qavrama;
- Deduktiv qavrama
- Eşitmə qavrayışı
- Tənqidi qavrama
- Emosional-affektiv qavrama
- Leksik qavrama [3, s.25].

Bu tiplərdən birində əksiklik varsa, şagird mətnə dair suallara cavab verməkdə, ardıcıllığı xatırlamaqda, mövzunun mahiyyətini anlamaqda çətinlik çəkir. Müəllimlər şagirdlərinin oxu vərdişlərini müşahidə edərkən, bəzi davranış xüsusiyyətlərinə diqqət etməlidir. Bunlara gərginlik, yüksək tonla diktə etmək, ağlamaq, oxumaqdan imtina etmək, mətni oxuyarkən diqqətsizliyə yol vermək aiddir. Bu kimi xarakterik əlamətlərə malik uşaqlar zehinli olsalar da, düşüncələrini müzakirə zamanı ifadə edə bilmirlər; qapalı olub görünməməyə çalışırlar; yöndəmsiz hərəkətlər nümayiş etdirirlər; öyrənməyə göstərdikləri səy gün ərzində yorğun olmaqlarına gətirib çıxarır; sinif içərisində bullinqə də məruz qalırlar.

Beynəlxalq Disleksiya assosiasiyasının tərtib etdiyi diaqnostik meyarlara görə, disleksiya yaşa və təhsil səviyyəsinə görə fərqlənən bir problemdir. Bu problemin simptomları aşağıdakı kimi sadalanmışdır:

- Səslər, söz və söz birləşmələri və əlifbanın öyrənilməsində problemlər yaşamaq
- Oxuyarkən səsin yüksəlməsi, tez-tez təkrarlama və fasilələr vermək
- Oxuduğunu anlamamaq
- Orfoqrafik pozuntular və ifadələri təhrif edərək oxumaq
- Limitli söz lüğətinə sahib olmaq
- Cümlə quruluşu və qrammatik qaydalara riayət etməmək
- Eşitdiyi və gördüyü söz ya da cümlələri xatırlamaqda çətinlik
- Mücərrəd mənalı sözləri anlamada problemlər, assosiasiya qura bilməmək
- Mətnə dair suallara cavab verə, tapşırıqları yerinə yetirə bilməmək, Mətni hissələrə bölüb danışmaqda çətinlik

- Riyazi və ya digər dəqiq elmlərə aid simvolları oxuya bilməmək
- Dinləmə mədəniyyətinə sahib olmamaq [4, s.89].

Yazı da həmçinin incə motorika, əl-göz koordinasiyası və linqvistik bacarıqları özündə birləşdirən ali ifadəetmə formasıdır. Zəif formalaşmış yazılı şəkildə ifadə tərzi disqrafiya sözü ilə adlandırılır. Bu problem nevroloji əhəmiyyətli olub uşağın yazmaqla ilk tanışlığı əsasında üzə çıxır. Disqrafiyadan əziyyət çəkən uşaqların əsas xüsusiyyətləri bunlar hesab edilir:

- Anlaşılmayan bir yazı vərdişinə sahib olmaq;
- Böyük və kiçik hərfləri, abzasları, durğu işarələrini, hərf və rəqəmlərin ölçülərini qarışdırmaq;
- Mətndə hərfi ya da ifadəni buraxmaq, sətri itirmək;
- Bitməmiş söz və ya söz birləşmələrindən ibarət ifadə qəlibi;
- Sətirlər arasında boşluğa fikir verməmək;
- Qələm ya digər yazı alətini qeyri-adi şəkildə tutmaq;
- Yazı yazarkən öz-özünə danışmaq və qələm tutan əlinə diqqətlə baxmaq;
- Nəticənin yaxşı olmasına baxmayaraq prosesin uzun və zəhmətli gedişatı.

Yazıda rast gəlinən qüsurlar həm əl yazısına, həm elektron yazıya təsir edir. Uşaqda formalaşan yazı mədəniyyəti imla, inşa, ifadə və ev tapşırıqları fonunda orfoqrafik, qrammatik, riyazi, qrafik və düsturlu şəkildə inkişaf edir. Əlyazma bacarıqları kiçik motorikanın fəaliyyəti ilə birbaşa əlaqədədir. Erkən məktəb illərində uşaqlar yazı texnikalarından istifadənin səriştəli olmasına diqqət yetirdikləri halda, yuxarı siniflərdə onlar xüsusilə fikirlərini aydın və məntiqli şəkildə çatdırmaq üçün təşkili istiqamətləri və təqdimat növlərini öyrənirlər. Səslərin dinləyərkən problem yaşamaq, səsləri fərqləndirə bilməmək, eşitmə və görmə duyğuları arasındakı rabitənin aşağı dərəcəli olması, vizual və audial yaddaşın zəifliyi, diqqət əksikliyi kimi hallar yazı qabiliyyətlərinin inkişafına mane törədən amillər sırasındadır [5, s.145].

Akademik cəhətdən uğursuzluqlar yaşayan uşaqların bir qismində hesablama kimi sadə riyazi əməllər və nəzəri məfhumlar öyrənilə bilmir. Elmi ədəbiyyatlarda şagirdin ədədi simvolları tanımağı, riyazi vahidləri başa düşməsi və riyazi əməliyyatları yerinə yetirməyində əngəllərlə qarşılaşma vəziyyəti üçün diskalkuliya anlayışından istifadə olunur. Onun bir neçə tipi vardır ki, bunun sayəsində riyazi bacarıqların əksikliyi təsnif edilərək fərqləndirilə bilir. Məkani diskalkuliya ədədi anlayışları vizual-məkan tərəfdən dəyərləndirməkdə çətinliyi göstərir. Üstəgəlmə, çıxma, bölmə və vurma kimi təməl arifmetik əməllərin həll edilə bilməməsi anaritmetriya halı adlanır. Leksik diskalkuliya zamanı riyaziyyat dili kifayət qədər anlaşılmadığından tapşırıqlara riayət edilə bilmir. Riyazi ölçü vahidləri, həndəsi fiqurlar və çoxluq, tənlik, bərabərsizlik, funksiya kimi bölmələrdə işlədilən disturlar tam şəkildə qavranılmadıqda bu vəziyyət qrafik və ya praktoqrafik diskalkuliya termini ilə təsvir edilir. İdeyaqnostik diskalkuliya isə cəbri konsepsiyalar, nəzəriyyələr və qaydaları dərketmədə rastlanan məhdudiyyətə deyilir. Ümumiyyətlə, riyazi təfəkkürün inkişafsızlığı həm keyfiyyət, həm də kəmiyyət baxımından qiymətləndirilməlidir. Bu cür yanaşma vasitəsilə inkişaf mərhələsində metodik istiqamətləri düzgün seçmək və onlar üzərində işləmək səmərəli xarakter daşıyacaq.

Öyrənmə prosedurunun sistemliyinə zərər verən bütün növ pozuntular ailə, məktəb və cəmiyyətin birgə köməyi ilə kompleks şəkildə aradan qaldırılmalıdır. Bu istiqamətdə aparılan işlər arasında əsas məqamı fərqindəliyin artması üçün geniş maarifləndirmə fəaliyyəti tutur. Bu fəaliyyətin əsas hissəsi məhz müəllimlər üçün nəzərdə tutulur. Müəllimlərin və digər təhsil işçilərinin peşəkar təkmilləşdirilməsi üçün yeni təhsil konsepsiyaları hazırlamaq lazımdır. İnklüziv və xüsusi təhsilə ehtiyacı olan uşaqlar haqqında ətraflı məlumat topladıqdan sonra müəllim uşaqları özlərini dəyərli və vacib hiss etdiyi sinif mühiti ilə təmin etməlidir. Müəllim

tədris proqramı hazırlayarkən özü və şagirdi üçün müəyyən hədəflər qoymağı bacarmalı və buna uyğun şəkildə hərəkət etməlidir. Dərsi müxtəlif metodlardan istifadə edərək izah etmək hər kəs tərəfindən yararlı olacaqdır. Təlimat verərkən doğru ifadə üslubu seçmək uşaqların dərsi daha aydın və dəqiq şəkildə öyrənməyinə kömək olacaqdır. Dərs zamanı proyektor kimi yüksək texnoloji audiovizual materiallardan istifadə etmək xüsusi təhsilə ehtiyacı olan uşaqlar üçün olduqca zəruridir. Dərsin gedişatında problemli suallar qoyub cavab gələnə qədər gözləmək və səhvlərini düzəltmək üçün səbrlə izah etmək lazımdır. Sinfin sakit mühitlə əhatə olunması öyrənmə çətinliyi olan uşaqların diqqətini inkişaf etdirmək, təlimatları düzgün izləmək və dərsə fokuslanma bacarıqları üçün önəmli faktor olduğu qeyd olunur. Şagirdləri çox yükləmək, müxtəlif cür təzyiqlər göstərmək və vaxtla məhdudlaşan yazılı ya da test tapşırıqları vermək yalnızca mənfi şəkildə nəticələnə bilər. Bunun əksinə olaraq, pedaqoji fəaliyyət zamanı akkomodasiya metodlarından istifadə etməyin təlimin nəticələrinə müsbət təsir etdiyini son illərdə daha çox müşahidə edirik [2, s.119].

Uşaqlarında öyrənmə problemləri müşahidə edən valideynlər bu sahədə daha çox məlumatlı olmağa çalışmalıdır ki, bu cür çətinlikləri korreksiya etmək qısa zamanda həyata keçsin. İnformasiya toplamaq üçün kitablar, müəllimlər, defektoloqlar, psixoloqlar, eyni problem yaşayan ailələr, internet kimi fərqli resurslar əldə edə bilərlər. Belə uşaqlar çox vaxt utancaq olduğundan ailələri və dostları tərəfindən cəsarətləndirilməyə ehtiyacları var. Akademik nailiyyətləri zəif olan uşaqlar üçün evdə inkişafetdirici ortam yaratmaq asan və təsirli vasitədir. Səssizliyə riayət etmək, oxu və yazı üçün vaxt ayırmaq, onları həvəsləndirmək üçün maraqlı materiallar tapmaq, rəsm çəkmək, birlikdə söhbətləşmək, ev tapşırıqlarını həll etmək üçün innovativ metodlar öyrənib tətbiq etmək ən çox tövsiyə edilən məsləhətlərdən sayılır.

ƏDƏBİYYAT

1. R.Pierangelo, G.Giuliani. Teaching students with learning disabilities. 2008.
2. Z.M.Əzizova, R.Q.Cəfərova, Ş.N.İsmayılov. Loqopediyanın nəzəri əsasları haqqında ümumi məlumat. 2008.
3. J.P.Das. Reading difficulties and Dyslexia. 2009.
4. D.Franklin. Helping Your Child with Language-Based Learning Disabilities. 2018.
5. M.Farrell. Dyslexia and other specific learning difficulties. 2006.

ÖYRƏNMƏ ÇƏTINLIYI ANLAYIŞININ PSIXOPEDAQOJI TƏHLILI

Elşən Hüseynov, Diyanə İbrahimova

XÜLASƏ

Məqalədə müəllif öyrənmə çətinliyi konsepsiyasını müzakirə edir və ətraflı psixoloji və pedaqoji analiz verir. Hər bir insanın xüsusi öyrənmə bacarıqlarına sahib olduğu üçün, öyrənməyə mane olanlar da fərqlidir. Məqalədə müəllif ayrıca öyrənmə çətinliklərinin müxtəlif təsniflərini və onların ətraflı izahlarını verdi.

ПСИХОПЕДАГОГИЧЕСКИЙ АНАЛИЗ КОНЦЕПЦИИ ТРУДНОСТЕЙ В ОБУЧЕНИИ

Эльшан Гусейнов, Дияна Ибрагимова

АННОТАЦИЯ

В статье автор обсуждает понятие трудностей в обучении и дает подробный психолого-педагогический анализ. Поскольку у каждого человека есть определенные навыки обучения, препятствия на пути обучения также различны. В статье автор также дал различные классификации трудностей обучения и их подробные объяснения.

PSYCHOPEDAGOGICAL ANALYSIS OF THE CONCEPT OF LEARNING DIFFICULTIES

Elshan Huseynov, Diyana Ibrahimova

SUMMARY

In the article, the author discusses the concept of learning difficulties and provides a detailed psychopedagogical analysis. Because each individual has specific learning skills, barriers to learning are also variable. In the article, the author also gave different classifications of learning difficulties and their detailed explanations.

UŞAQLARA QARŞI YÖNƏLMİŞ ETİNASIZLIQ VƏ ZORAKILIQ; FİZİKİ ZORAKILIQ

p.ü.f.d.Vəliyeva Validə
BDU-nun psixologiya kafedrasının dosenti
Əhmədli Lamiyə Pənah qızı
BDU-nun II kurs magistrantı
lamiyaahmadli@gmail.com

Açar sözlər: zorakılıq, risk faktorları, psixoloji xüsusiyyətlər, uşaq zorakılığı, istismar, cinsi istismar, risk, travma, stress, zərərçəkən, qurban, ailə
Ключевые слова: насилие, факторы риска, психологические особенности, детское насилие, эксплуатация, половая эксплуатация, риск, травма, пострадавший, жертва, семья.
Keywords: Violence, risk factors, psychological characteristics, child abuse, abuse, sexual abuse, risk, trauma, stress, victim, sacrifice, family.

Bəzi faciələr yol qəzaları və ya təbii fəlakətlər istənilməyən və gözlənilməz olur. Digərləri isə qəsdən və ya düşünülmüş vəziyyətdə baş verir, döyüşlər, terror hücumları, atışlar, təcavüzlər və s. Bir çox uşaq və gənc məktəblərində və məhəllələrində, hətta öz evlərində zorakılığa məruz qalır. Zorakılıq cəmiyyətimizin ən çox problem yaşadığı, ən çox fəsadlara yol açan baza problemlərindən biridir. Həmçinin buna paralel olaraq zorakılıq bir çox sosial işçilərin və bununla bağlı işləyən mütəxəsislərin daim araşdırdığı bir mövzudur. Yəni keçmişlə müqayisə etdiyimiz zaman bu faktla rastlaşırıq ki, öncələr daha çox ört-basdır olunan bu vəziyyət, tam da olmasa ən azından bu günümüzdə müəyyən səviyyədə həll olunmağa başlayır. Hərfi mənada izah olunduqda "zorakılıq" sərt və qatı davranış, qarşısındakı insana qarşı məcburi təzyiq göstərmə, sərtlik mənasına gəlir. Zorakılıq bir insana təzyiq göstərməklə onu istəmədiyi bir şeyə məcbur etmək və ya ona istəmədiyi bir şeyi etmək mənasına gəlir. Uşaqlara qarşı yönəlmiş istismar və zorakılıq sadəcə bizim ölkəmizdə deyil, bütün dünyada milyonlarla uşağı və ailəni qurban edən, cəmiyyətin bir problemidir. Bunlara baxmayaraq, zorakılığa yönələn maariflənmə olduqca aşağı səviyyədədir. Bu mövzuda valideynlərin doğru məlumatlandırılması, bu bilikləri doğru şəkildə öz övladları ilə paylaşması çox önəmlidir. Həmçinin biz bilirik ki, məktəb uşaqların evdən sonra ən çox zamanlarını keçirdiyi yerdir. Bu səbəbdən uşaqlarla ən çox ünsiyyətdə olan müəllimlərin də ən az valideynlər qədər uşaq zorakılığı haqqında məlumatlı olması vacibdir. Uşaqlara qarşı yönəlmiş zorakılığın bir neçə növü vardır;

Cinsi zorakılıq- Bu tip uşaqların tam qavraya bilmədiyi, həm də inkişaf baxımından hazır olmadığı, dərk etmədiyi üçün icazə vermək kimi bir seçiminin olmadığı, qanuna uyğun olmayacaq formada cinsi hərəkətə məcbur edilməsi, zorlanması və daxil edilməsidir. Cinsi zorakılıq üç formada təzahür edir. Birincisi toxunmadan baş verən cinsi istismar və ya zorakılıqdır.Məsələn; uşaqlara cinsi tərkibli videolar göstərmək, uşaq ilə cinsi məzmunda söhbətlər etmək və ya ondan bunları istəmək, uşağın cinsi münasibətə birbaşa şahid olması, uşağa cinsi orqan göstərmək və ya uşaqdan bunu istəmək- tələb etmək. İkincisi,toxunmanın olduğu cinsi zorakılıqdır. Üçüncüsü isə şiddətə yönəlmiş məcburi cinsi münasibətdir, zorakılıqdır.

Psixoloji zorakılıq-Bu tip zorakılıq digərlərinə görə daha çətin müəyyən olunan bir tipdir. Psixoloji zorakılıq bir insanın digər insana qəsdən psixi təzyiq göstərməsi və ya dözülməz psixi şəraitin yaradılmasıdır. Uşağın duyğusal olaraq tamlığına ziyan vuran bütün növ davranış, məsələn, istədiyini rədd etmə, alçaltma, bezdirmə, özündən asılı buraxmaq və s. Bütün bunlar

psixoloji zorakılığa aiddir. Bunlar daha çox digər zorakılıq tipləri ilə paralel onlarla birlikdə görülən davranış növləridir. Bəlli olacaq səviyyədə uşağın özünə hörmət səviyyəsinə ziyan vurur.İnkşafda olan gecikmələr, davranış pozuntuları həddindən artıq adaptasiya problemi, formasında bu zorakılığın problemləri qarşınıza çıxar.

Laqeydlik və etinasızlıq – Uşağın sağlamlığı fiziki və ya psixoloji inkşafı üçün zəruri ehtiyacların ödənilməməsi uşağa laqeydlik və ya etinasızlıq olaraq adlandırılır. Etinasızlıq-iqtisadi, coğrafi, ya da fiziki vəziyyətə bağlı olmadan, uşağın ethiyaclarının bilərək qarşılanmamasıdır. Bu zaman uşaq yaşına uyğun böyümə və inkişafı mövzusunda təmin edilmir. Ümumiyyətlə zorakılıqla birlikdə ortaya çıxır. Uşağın normal çəkisinin olmaması və inkişafının yaşından aşağı səviyyədə olması, məktəbdə qalma müddətinin uzanması, qəsdən evdən uzaqlaşdırılması, evin içində etməməli olduğu, onun yaşına uyğun olmayan işlərin etdirilməsi olaraq qarşımıza çıxır.

Fiziki zorakılıq-Uşağa bilərək və istəyərək qəsdən ziyan vurmaqdır. Həmçinin də zorakılıq tipləri arasında ən geniş yayılmış tipdir. Fiziki zorakılıq digər zorakılıq tiplərinə görə daha rahat müəyyənləşdirilir. Uşağın bədənində sümüklü nahiyələrdən daha çox, yumşaq və daha az görünən, açıqlanması çətin olan gizli nahiyələrdə yara izləri olaaq qarşımıza çıxar. Daha çox məktəbəqədər yaşlı oğlan uşaqlarının fiziki zorakılığa məruz qaldığı bir çox statistikalarda təsdiq olunmuşdur. Fiziki istismar və ya zorakılıq uşaqlarda daha çox aşağı özünüqiymətləndirmə, insanlara qarşı aqressiv, hirsli, qisas hisslərində güclülük və özünəqapalılıq kimi xüsusiyyətlər ilə büruzə verir. Fiziki zorakılıq uşaqlara həm ruhi, həm də fiziki olaraq ziyan vuran bir problemdir. Fiziki zorakılıq zamanı ən çox görülən fiziki, bədənə olan təsirlərdir. Fiziki zorakılığın formasına görə yaralanmalar dəyişir; daxili orqanda zədələr, beyin zədələri, fiziki məhdudiyyətə gətirib çıxaran və hətta ölümlə nəticələnən yaralanmalar.Bədənə dəyən bu ziyanların ən önəmli fəsadlarından biri də inkişaf geriliyi ilə nəticələnməsidir. Əqli və fiziki gerilikdən əlavə fiziki zorakılıq diqqət, yaddaş, öyrənmə bacarıqlarını zədələməklə uşağın akademik inkişafına mane olur. Həmçinin uşaqlıq müddətində aqressivlik, şiddətə meyillilik, diqqət əksikliyi və hiperaktivlik pozuntusu, adaptasiya problemi, davranış pozuntusu və s kimi psixoloji problemlər yaranır. Zorakılıqdan sonra yarana biləcək problemlər bəzən həmin müddətdə meydana çıxmaya bilər. Bəzən yeniyetməlikdə, bəzən gənclik dönəmində uşaqlıqda baş vermiş zorakılıq hekayəsinə bağlı olaraq psixi pozuntular ortaya çıxa bilər. Fiziki zorakılığa məruz qalmaq psixiatrik bir xəstəliyə tutulma riskini artırır. Fiziki zorakılığa məruz qalmış uşaqların hisslərini idarə etmək qabiliyyətinin, ən çox da əsəblərini zamanında kontrol etmək qabiliyyəti aşağı səviyyədə olur. Bu uşaqlar özləri də şiddət göstərməyə meyilli bir şəxsiyyət olaraq yetişir. Bir insanın keçmişdə fiziki zorakılıq qurbanı olması onun gələcək həyatında psixoloji problemlər yaşamasıyla yaxından əlaqəlidir. Uzun müddət şiddətə məruz qalmış bu uşaqlarda depressiya, panik atak pozuntusu, travma sonrası stress pozuntusu, həyəcan və təşviş pozuntuları, şəxsiyyət pozuntusu, akademik uğursuzluq, qanun pozuntuları, narkotik maddə və alkoqol istifadəsinə meyillilik kimi vəziyyətlərin meydana çıxmasına asanlaşdırıcı bir zəmin yaradır.

Yuxarıda da qeyd edildiyi kimi, zorakılıqlar içərisində ən asan dəyərləndirilə bilən tip fiziki zorakılıqdır.Uşaqlar travmatik bir hadisəyə məruz qaldıqda (buna zorakılıq və ya cinayət hadisəsi daxildir),onların buna cavabı fərqli ola bilər. Bəzi uşaqlar hər şeydən qorxmağa başlayır. Onlar evdə qalmağı üstün tutarlar, yuxu problemi yaşaya bilər və məktəbə olan konsentrasiyasını itirə bilərlər. İştahları tez-tez dəyişə bilər və uşaqlar bu zaman baş ağrısı, mədə ağrısı və başqa qeyri-müəyyən simptomlardan şikayət edə bilərlər. Gündəlik həyatlarında baş verən ən xırda dəyişikliklər onlar üçün dəhşətli nəticə verə bilər. Ümumiyyətlə valideynlər uşaqda ciddi bir iz və ya yara olmadıqca hər hansı bir kömək axtarmaq və ya köməklik göstərmək davranışı sərgiləməzlər. Meydana gəlmiş zərər uşağın sağlamlığını və ya həyatını riskə atdığında “bir qəza

baş verib"yalanı ilə xəstəxanaya gedərlər. Xəstəxananın təcili yardımında fiziki zorakılıq göstəriciləri qol və ayaq nahiyəsində baş verən izlər, həmçinin üzdə, diş və ağız yaralanmaları, gözlərdə olan zədələr, yanıqlar, dayaq-hərəkət sistemində, sümüklərdə, zədələr və s. kimi özünü büruzə verir. Ölümlə nəticələnən vəziyyətlərdə ən çox müraciət səbəbi baş-beyin travmalarıdır.

Uşaq zorakılığı və etinasızlığı düşündüyümüzdən çox daha tez-tez baş verən bir vəziyyətdir. Zorakılıq daha aktiv bir hal kimi qeydə alınır amma etinasızlıq və ya uşağa qarşı laqeydlik daha passivdir. Məsələn, zorakılıq ata, ana və dayənin uşağa ziyan verən, travmaya səbəb olan təcrübələr yaşatmasıdır. Laqeydlik və ya etinasızlıq isə ana, ata və yaxud dayənin uşağa lazım olan tələbatlarını və ehtyaclarını yerinə yetirməməsi, həmçinin onun təhlükəsizliyini qoruyub saxlamamasıdır. Dünyada baş verən bir şiddət və zorakılıq düşüncəsi, müharibə və başqa dönəmlər, zorakılıq nümayiş edən ailələr uşaqların zorakılıq mədəniyyətinə şahid olmasına, bu davranışı öyrənməsinə səbəb olur. Çünki, şiddət şiddəti doğurur. Bu gün ana övladına şiddət göstərərsə, sabah həmin övlad bacı və ya qardaşına həmin zorakı şiddət əməlini tətbiq edər. Bu proses belə zəncirvari davam və inkişaf edər. Getdikcə daha da ağırlaşar və bir çox insanın psixologiyasını məhv edər. Zorakılığı tətbiq edən insanlar bir müddət sonra bu davranışı gözündə normallaşdırar və adi bir halmış kimi insanlarla bu cür münasibət qurmağa başlayar. Uşağına qarşı fiziki zorakılıq tətbiq edən anaların və ataların, vaxtilə anası və atası tərəfindən zorakılıq qurbanı olduğu görülmüşdür. Həmçinin tədqiqatlar bu davranışın nəsillər boyu dəyişmədən davam etdiyini sübut edir. Zorakılığa məruz qalan uşaqlar öz münaqişələrini şiddətlə zorakılıqla həll etməyi öyrənirlər. Digərləri şiddətə həmçinin başqalarının ağrılarına və sıxıntılarına həssas olmuş kimi görünürlər. Bəziləri insanlardan və ətrafdakı dünyadan qaçaraq bir qabığa çəkilir. Bu uşaqlar yaşadıqları şiddəti təkrarladıqda gələcək nəsillərə davam edə biləcək bir şiddət tsikli davam etdirirlər.

Bəzi araşdırma və tədqiqatlara görə; Uşağa qarşı zorakılığın yaşandığı ailələrdə ər-arvad arasında mübahisələr, xoşbəxt olmayan evliliklər, ailə içində ümumiyyətlə zorakı davranışların göründüyü bəlli olmuşdur. Valideynlərdən birinin ögey olması zorakılığın səviyyəsinin və ya zorakılığa məruz qalmanın potensialını artırır. Uşağın bütün tələbat və məsuliyyətin sadəcə bir valideynə yüklənməsi, düzgün ana ata vəzifələrinin bölüşdürülməməsi həmçinin zorakılığa yol açan səbəblərdəndir. Daha aşağı intellekt səviyyəsi asosyal ailələr, daha çox qapalı yaşayan, ətraf-aləmlə əlaqəyə girməyən ailələr sözlə bir-birini anlamaq əvəzinə fiziki olaraq zor tətbiq etməklə ünsiyyət qururlar. Müntəzəm olaraq şiddətə və zorakılığ məruz qalan uşaqlar, travma sonrası stress pozuntusu daxil olmaqla, zorakılığın qurbanı olan uşaqlar bu simptomları və təsirləri davamlı olaraq hiss edirlər. Bu uşaqlar aylarla, hətta illərlə emosional və fiziki təkanlar hiss edə bilərlər. Hadisələri zehinlərində təkrar-təkrar yaşaya bilirlər. Bəziləri daha aqressiv şiddətə meyilli və özlərinə qarşı məhvedici ola bilərlər. Zorakılığa və ya şiddətli bir hadisəyə məruz qalan və ya şahidi olan uşaqlar böyük bir dəstəyə ehtiyac duyarlar. Uşaqlarla bu zaman zorakılığı müzakirə etməyə təşviq etmək lazımdır. Lazım gələrsə bunu uşaq danışacaq və biz sadəcə susub dinləyəcəyik.

Uşaqların zorakılığa məruz qalması hər kəsə toxunan bir məsələdir. Bütün uşaqlar inkişaf etmək və onlara təsir edən bu zorakılıq travmasını qırmaq üçün sevgi, tərbiyə və dəstək tələb edir.

ƏDƏBİYYAT

1. Long-Term Consequences of Child Abuse and Neglect. Child Welfare Information Gateway, U.S. Department of Health and Human Services 2013

2. Ellis, Bruce J.; Boyce, W. Thomas (2008). "Biological Sensitivity to Context". Current Directions in Psychological Science. 17 (3): 183–187.
3. Jones, L, Bellis, MA, Wood, S et al. (8 September 2012). "Prevalence and risk of violence against children with disabilities: a systematic review and meta-analysis of observational studies". The Lancet. 380 (9845): 899–907.
4. Martin J, Anderson J, Romans S, Mullen P, O'Shea M (1993). "Asking about child sexual abuse: methodological implications of a two stage survey". Child Abuse & Neglect.
5. Messman-Moore, T. L.; Long, P. J. (2000). "Child Sexual Abuse and Revictimization in the Form of Adult Sexual Abuse, Adult Physical Abuse, and Adult Psychological Maltreatment". Journal of Interpersonal Violence.
6. Melinda Smith, M.A., Lawrence Robinson, and Jeanne Segal, Ph.D. Last updated: June 2019.

UŞAQLARA QARŞI YÖNƏLMİŞ ETİNASIZLIQ VƏ ZORAKILIQ; FİZİKİ ZORAKILIQ

Vəliyeva Validə, Əhmədli Lamiyə

XÜLASƏ

Zorakılıq haqqında hamımız durmadan sözlər, hekayələr eşidirik. Böyüklər üçün bəlkə də kiçik görülən amma uşaqlar üçün heç vaxt üzəri bağlanmayan yaralar yaradır sırf fiziki zorakılıq. Uşaqlıq zamanı deyilməyən afərinlərdən qoyulur zorakılığın bünövrəsi. Göstərilən şiddət artıq bir dövriyyə üçün yol açır. Bu tsikl beləcə davam edir. Şiddət görən uşaq gələcək bütün problemlərini zorakı baxımdan, aqressivcəsinə həll etməyə çalışır çünki, böyüklərin ona öyrətmiş olduğu həll yolu budur. Etinasızlıqla üzləşən, zorakılıq qurbanı olmuş hər bir fərd gələcək zorakı cəmiyyətin başlanğıcıdır.

Bu məqalədə xüsusən fiziki zorakılığa məruz qalan uşaqların üzləşdiyi problemləri görə bilərik. Bu uşaqlar üçün davranış, psixoloji və fiziki problemlər, akademik uğursuzluq, alkoqol və maddə istifadəsi, qanun pozuntusu, cinayət riski artır.

ПРЕНЕБРЕЖЕНИЕ И ФИЗИЧЕСКОЕ НАСИЛИЕ НАД ДЕТЬМИ

Валиева Валида, Ахмадли Ламия

АННОТАЦИЯ

Сегодня мы часто слышим истории и слова о насилии над детьми. Для детей любое насилие, тем более физическое, является более травматичным, чем для взрослых, это не заживляющаяся рана. Неадекватные реакции родителей, такие как равнодушие и раздражение, невысказанная похвала, непроявленные чувства гордости и радости в ответ на положительное поведение ребенка, закладывает основу насилия. Таким образом, жестокое отношение в семье приводит к циклической смене насилий. Ребенок пытается решать все свои будущие проблемы путем насилия и агрессии, потому что это то, чему его научили родители. Каждый индивид, столкнувшийся с халатностью и подвергшийся насилию, является началом будущего жестокого общества.

В этой статье рассматриваются проблемы детей, подвергшихся насилию, в особенности физическому. Эти дети имеют повышенный риск поведенческих,

психологических и физических проблем, неуспеваемости, злоупотребления алкоголем и психоактивными веществами, правонарушений и преступности.

CARELESSNESS AND VİOLENCE AGAİNST CHİLDREN; PHYSİCAL VİOLENCE

Valiyeva Valida, Ahmadli Lamiya

SUMMARY

We all hear words and stories about violence. For adults, perhaps minor, but never-closing wounds for children are purely physical violence. The foundation of violence is laid on the unspoken well-being of childhood. The violence already leads to a turnover. This cycle continues like this. A child who is abused tries to solve all his future problems violently and aggressively, because this is the solution that adults have taught him. Every individual who is neglected and a victim of violence is the beginning of a future violent society.

In this article, we will look at the problems faced by children, especially those who have been physically abused. These children have an increased risk of behavioral, psychological and physical problems, academic failure, alcohol and substance abuse, delinquency, and crime.

SUİSİDAL DAVRANIŞIN RİSK AMİLLƏRİ

Qədirova Aytac Xosrov qızı
BDU-nun II kurs magistrantı
aytacqd@gmail.com

Açar sözlər: suisid, risk amilləri, suisidə meyillilik, psixiatrik xəstəliklər, intihara cəhd.
Ключевые слова: самоубийство, факторы риска, склонности к суициду, психические заболевания, попытка самоубийства
Keywords: suicide, risk factors, suicidal tendencies, psychiatric disorders, suicide attempt.

İntihar bütün dünyadakı cəmiyyətlərin qarşılaşdığı vacib problemlərdən biridir. İntihar, fərdin özünə qarşı yönəlmiş agressiyasını, özünü məhv etmək aktı nəticəsində həyatını könüllü olaraq sona çatdırmasıdır. Ümumdünya Səhiyyə Təşkilatı intiharları həqiqi intihar və intihar cəhdləri olaraq 2 qrupa ayırır [13]. Həqiqi intiharlar ölümlə nəticələnən intiharlar hesab olunur. İntihar cəhdləri isə fərdin özünü məhv etmək, özünə zərər yetirmək məqsədilə gerçəkləşdirdiyi intihara meyilli olan lakin ölümcül olmayan könüllü cəhdlərdir.

İntihardan bəhs edən insanların intihar etməyəcəyini düşünmək yanlış bir yanaşmadır. Əksinə, intiharı səsləndirən insan bunu artıq daxili aləmində uzun müddət araşdırmış və düşünmüş olur. Hər hansı bir intihar düşüncəsi, ifadəsi və ya planı mütləq nəzərə alınmalıdır. Çünki intihar edən hər kəs əvvəlcədən siqnallar, xəbərdarlıqlar və ipuçları verir, lakin bu yardım çağırışlar dolayı yolla edildiyi üçün anlamaq çətindir. Özlərini öldürmək istəyən insanların əksəriyyəti sadəcə həmin dövr üçün intiharı düşünürlər, əgər yaşadıqları böhranlı dövrdən çıxa bilsələr, xilas olmaları da bir o qədər mümkün olacaqdır. Çünki bu insanların əksəriyyəti həyat və ölüm arasında qəti bir seçim edə bilmirlər və qərarsız qalırlar. Suisidə meyilli insanların mütləq ölmək istədikləri yanlış bir inancdır, ölmək istəyi özündə qurtarılmaq arzusunu ehtiva edir.

Suisidə meyilliliyə yaş, cinsiyyət, psixoloji pozuntular, ümidsizlik hissi, çətin həyat şəraiti, uşaqlıq dövründə yaşanılan hadisələr, cinsi və fiziki istismar hadisələri, genetik amillər, fiziki xəstəliklər, psixososial amillər, ətraf mühit kimi faktorlar təsir edir və bu faktorlar risk faktorları hesab olunur.

Tamamlanmış intiharlar əsasən 65 yaşdan yuxarı insanlar tərəfindən gerçəkləşdirilir. Avropada kişilərdə 15-44 yaş, qadınlarda isə 25-44 və 65-74 yaş suisidal cəhdlərin ən çox müşahidə olunduğu yaş qruplarıdır [4].

İntihar cəhdi və tamamlanan intihar nisbətləri cinslər arasında da fərqlidir. Kişilərdə tamamlanmış intiharlar qadınlarla müqayisədə daha yüksəkdir. Qadınlarda isə daha çox intihar cəhdləri müşahidə olunur [9].

Hər hansı sosiomədəni səviyyədə və müxtəlif inanca sahib insanlar da intihar düşüncələrinə sahib ola bilərlər. Bu düşüncə, ümumi inanc və ya vəziyyətlərdən daha çox insanın yaşadığı ümidsizlik və ağrı ilə əlaqəlidir. İnsan intihar barədə düşündüyü zaman həyata qarşı o qədər ümidsiz yanaşır ki, ölüm ona tamamilə məhv olmaq və ümid kimi görünür. İntiharı düşünən insanın ağrısı o qədər güc olur ki, ölümü ağrıların çarəsi və sonu kimi hiss edir.

İntihar edən və ya intihara cəhd edən insanların əksəriyyətində depressiya, bipolar (manik-depressiya), şizofreniya və ya alkoqol asılılığı, şəxsiyyət pozuntusu və s. kimi psixoloji xəstəliklərin olduğu müşahidə olunur. Depressiya intihar baxımından xüsusilə vacibdir. Depressiya insanların düşüncələrinin təhrif olunmasına səbəb olur. Bu təhrif olunmuş

düşüncələrlə insanlar yaşadıqları vəziyyətə və ya o anda hiss etdikləri ağrıya bir həll tapmaqda çətinlik çəkirlər. Həll olaraq isə çox vaxt intiharı seçirlər.

Ümumi risk faktorları aşağıdakılardır:

• Psixi pozuntular xüsusilə depressiya, bipolar (manik-depressiya), alkoqol və ya maddə asılılığı, şizofreniya, borderline şəxsiyyət pozuntusu, antososial şəxsiyyət pozuntusu, davranış pozuntusu (gənclərdə), psixi pozuntular, təşviş pozuntusu, digər psixi pozuntularla yanaşı impulsivlik və ya agressiya

• Alkoqol və ya maddə asılılığı

• İntihar cəhdi və ya cəhdləri

• Ailədə yaşanmış intihar hadisəsi (başqa sözlə, ailədəki bir insanın intihar və ya intihara cəhd etməsi)

• Ciddi xəstəlik və ya xroniki ağrı

• Stresli həyat hadisələri (yaxın bir insanın itkisi, maddi itki və ya hüquqi problemlər)

• İşsizlik, yaxın münasibətlərdə yaranan problemlər, təcavüz və ya təzyiq nəticəsində uzun müddətli stresə məruz qalma

• Sosial təcrid və tənhalıq

• Travma və cinsi istismar [11].

Xəstəxanaya yataraq müalicə alan insanların intihar səbəbləri kimi 20% bipolyar pozuntu, 10% şizofreniya, 18% alkoqoldan istifadə, 5-10% borderline və antisosial şəxsiyyət pozuntuları olduğu müəyyən edilmişdir [5].

İntihara yol açan ən vacib problemlərdən biri depressiyadır. İnsanın həyata olan maraq, həyəcan və sevincini itirməsi, daim kədərli bir ruh halında olmaq, özünə qapanmaq, ictimai münasibətlərdən qaçmaq kimi xüsusiyyətlərlə təyin edilə bilər. Aparılan müxtəlif araşdırmalarda intihar nəticəsində ölənlərin 90%-də depressiya müəyyən edilmişdir. Depressiya xəstələrinin 15%-nin isə intihara cəhd nəticəsində həyatını itirdiyini məlum olmuşdur. Aparılan digər tədqiqatlarda intihar nəticəsində ölənlərin 63%-nin kişi, 37%-nin qadın olduğu müəyyən edilmişdir [12]. Depressiyadan əziyyət çəkən xəstələri cinsiyyətə görə qruplaşdırdıqda, tədqiqatlardan məlum olur ki, intihar edən kişilərin sayı qadınların sayından iki dəfə çoxdur.

İnsanın şüurlu davranışına, beyin funksiyalarına, reflekslərinə, sinir sisteminə birbaşa təsir edən alkoqol istifadəsi həddindən çox olduğu təqdirdə insanın həyatında təhlükəli vəziyyətlərə səbəb ola bilir. Alkoqol asılılığı da intihar riski ən yüksək olan qruplardan biridir. Alkoqol asılılığı nəticəsində ölümlərdə ilk yeri qaraciyər xəstəlikləri, ikinci yerdə isə intihar gəlir. Alkoqollu bir şəxs normal bir insan kimi düşünə və hərəkət edə bilməz. Bu səbəbdən, normal bir insanın təsirlənməyəcəyi hadisədən təsirlənə və ya kədərlənə bilər. Sırf bu vəziyyətlərdə belə intihara cəhd edə bilərlər.

Alkoqol istifadəsi bir çox araşdırmanın mövzusu olmuşdur. Nəticələr alkoqolun ölüm vasitəsi olduğunu göstərir. Bir insanın alkoqol qəbulundan əvvəl və sonrakı intihar düşüncəsi arasında böyük bir fərq var. "Tamamlanmış intiharlarda 19-63 % nisbətində maddə istifadəsi pozuntusu olduğu müəyyən edilmişdir. Alkoqol və ya maddə asılılığı xəstənin intihar riskini beş qat artırır. Alkoqol asılılığı olan insanların risk nisbəti ümumi əhali və xəstəxanaya yerləşdirilən psixiatrik xəstələrə nisbətən 6-25 dəfə çoxdur" [2]. Alkoqol istifadəsi insanı depressiv xəstəliklərə sövq edə bildiyindən, alkoqol istifadəsi ilə müşayiət olunan psixoloji pozuntular da intihar riskini artırır.

Maddə istifadəsi də insanı intihar baxımından risk qrupları sırasına daxil edir. Xüsusilədə maddəyə çata bilməmək intihar həddini gərginləşdirən bir vəziyyət olaraq ortaya çıxır. "Beyində müəyyən bir həzz həddi var. Bu həzz həddini aşdıqda və ya maddə olmadığı zaman intihar riski özünü göstərə bilər. Maddə istifadəsi və asılılığı, xüsusilə əhval və davranış pozuntusu olan

yeniyetmə oğlanlarda intihar üçün əhəmiyyətli bir risk faktorudur" [10]. Maddə asılılığı olan fərdlər narkotik maddə əldə edə bilmədiyi hallarda intihara meyilli olsalar da, özlərini dəyərsiz, günahkar hiss etdiyi ve agresiyyaları özlərinə yönəldiyi üçün suisidal davranışa meyillilik yaranır. Maddə istifadə edən insanların düşüncə xətaları yarandığına görə özlərini dəyərsizləşdirirlər və nəticədə "Dəyərsiz olan hər şey məhv olmağa məhkumdur" fikri ilə intihara meyl edirlər.

Şəxsiyyət pozuntusu olan insanlar cəmiyyətdən kifayət qədər diqqət və dəyər görmədikləri üçün özlərini tənha hiss edirlər. İntiharlarda şəxsiyyət pozuntusu olan insanlara da rast gəlinir. Bunlar impulsiv, rədd edilməyə həssas olan, alkoqol və toksik maddələrə meyilli olan insanlardır.

Şəxsiyyət pozuntusu olan insan özünü adətən günahkar görür. "Çəkingən şəxsiyyət pozuntusu olan fərdlərin "mən dəyərsizəm", "heç bir işə yaramıram", "sevilməyə layiq biri deyiləm" kimi düşüncələri olur [8]. Bu insanlarda təşviş, narahatlıq və depressiya halları çox olduğu üçün suisidal davranışa meyillilik də yüksək səviyyədədir [1].

Tarix boyu bir çox psixiatr və tədqiqatçı şəxsiyyət pozuntuları ilə bağlı araşdırmalar aparmış və fərqli şəxsiyyət pozuntularının olduğunu təyin etmişdir. "İntihar etməyə cəhd göstərən insanlar adətən egosentrik, yüksək asılılıq tələbləri və zəif impuls nəzarəti olan fərdlərdir. Antisosial, borderline (sərhəd xətti), isterik (həddindən artıq emosional), narsisistik (özünü sevən) fərdlərin özlərinə zərər verən davranışların və intihar meyillərinin daha yüksək olduğu müəyyən olunmuşdur. Gunderson borderline (sərhəd) şəxsiyyət pozuntusu manipulyativ intiharların və depressiyada özünə zərər verən davranışların çox rastlandığı; Wallace obsesif-kompulsiv pozuntusu olan insanların süperqeqoya ambivalent (qeyri-sabit) asılılıq ilə dözülməz günahkarlıq duyğusundan nəyin bahasına olursa olsun xilas olmaq ehtiyacı intihar riskini artırır" [10]. İntihar edən şəxslərdə bəzi fərqliliklər özünü göstərsə də, bununla bərabər şəxsiyyət pozuntusu xüsusiyyətlərinə sahib olduqları müəyyən edilmişdir.

Ailə mühiti və ailə üzvləri arasındakı münasibətlər psixo-sosial cəhətdən inkişaf edən fərdin ən çox inkişaf etdiyi mühitdir. Ailə cəmiyyətin təməlidir. Cəmiyyətin ailə quruluşu nə qədər güclüdürsə, cəmiyyət də o qədər güclü olacaq. Harmonik bir mühitdə böyüyən və inkişaf edən uşaq da cəmiyyətdə sağlam və güclü bir insan kimi iştirak edir. Bu da ümumilikdə cəmiyyətə müsbət şəkildə təsir edir. Mənəvi dəyərlərini itirən ailənin dağılması da qaçılmaz olacaq. Ailədaxili konflikt, anlaşılmazlıq, məişət problemləri, zorakılıq və ayrılıqlar ailə üzvlərini intihara yaxınlaşdıran ən vacib amillərdəndir. Tərk edilmək, ayrı qalmaq duyğuları ilə mübarizə apara bilməyən insanlarda depressiv hallar, intihara cəhd və intihara meyillilik müşahidə olunur. "Ailə bütünlüyünün pozulması suisidal davranışın ən təsirli müəyyənedicisidir" [7]. Ailə problemləri ilə birlikdə rol qarışıqlığı, təzyiqlər xüsusilə qadınlarda intihar riskini artırır. Ailədə ana rolundan kənara çıxa bilməyən qadınların intihara daha çox meyilli olduğu aşkarlanmışdır. Fərdin duyğusal boşluq yaşaması həyatdan zövq almaması, ümidini itirməsi, intihar fikrini yaradır və zamanla bu fikirlər daha da güclənərək intihara cəhddə özünü biruzə verir.

Ailə bütövlüyü cəmiyyətlərdə vacib bir ünsürdür. Ailənin bütövlüyünün pozulması özlüyündə risk faktorlarını artırır. Yeniyetməlik dövrünün ən başlıca səbəblərindən biri də elə məhz ailənin bütövlüyünün pozulmasıdır. "Valideynləri ayrılmamış gənclərlə müqayisədə, valideynləri boşanmış gənclərdə daha çox psixoloji problemlər, məktəb və davranış problemlər yaranır" [3].

İnsanın peşəsinə ayırdığı müddət orta hesabla həyatının 25-35 ilini əhatə edir. Dünyada orta ömür müddətinin 65-70 il olduğunu nəzərə alsaq, peşə insan ömrünün yarısını əhatə edir. Buradan məlum olur ki, iş həyatı insanların psixoloji vəziyyətinə ciddi şəkildə təsir göstərir. Tədqiqatlar göstərir ki, insanların hər hansısa bir işə sahib olması intihar riskini azaldır. Lakin bir

məqamı qeyd etmək lazımdır ki, iş şəraitinin özü də intihar bağlı düşüncələrə təsir edir. İş şəraiti gərgin olan insanlarda intihar riskinin çox olduğu məlum olmuşdur. Maddi gəlirlə bağlı sabitliyin olmaması da həmin fərdə və bütün ailə üzvlərinə mənfi təsir göstərir. Fərqli gəlirlərə sahib olan ailələrin uşaqlarının bir arada təhsil aldığı məktəblərdə bəzi şagirdlərin digərlərinin sahib olduqları imkanlara sahib olmaması səbəbi də intihar riskini artıran amillərdəndir.

İnsanın peşəsinin intihara təsir edən amil kimi qəbul etdikdə, ən böyük amilin işsizlik olduğu müəyyənləşdirilir. Bu hal bütün dünyada intihara səbəb olan təsirli amillərdən biridir. "Avropada intihara cəhd edən qadınların 12%-i, kişilərin isə 20%-i işsizdir" [6]. İşsiz insanların ehtiyaclarını qarşılayacaq hər hansı məşğulliyyətin olmaması, mənəvi boşluqlar yaranması səbəbilə intihar edirlər.

İntihar etmək bir insanın özü üçün seçdiyi sağlam qərar deyildir. Çünki insanlar bunu hər hansı faktorların təsiri ilə, öz iradələri xaricində edirlər. İntihar edən insanlar həmişə ətrafdakıların fərqinə varacağı şəkildə ruhi xəstəliklərə sahib olmurlar, lakin çox kədərli və ümidsiz ola bilərlər və bəzi hallarda bu bir sıra psixoloji pozuntularla da əlaqələndirilə bilər. Bu səbəbdən suisidal davranışın risk faktorlarını bilmək və risk altında olan insanların yardım və müalicə almasını təmin etmək, həmçinin həmin insanları heç bir zaman tək qoymamaq lazımdır.

ƏDƏBİYYAT

1. Ateşci F.Ç. ve Ark., "İntihar Girişimi Olan Bireylerde Birinci ve İkinci Eksen Tanıları", Klinik Psikiyatri Dergisi, S.5, Ankara, 2002, 23 s.
2. Bakım B. - Özçelik B. – Karamustafalıoğlu O., "Psikiyatrik Bozukluklarda Gözlenen İntihar Davranışlları", Düşünen Adam Dergisi, C.20, S.1, İstanbul, 2007, 44 s.
3. Eskin M., İntihar, Ankara, 2004, 96 s.
4. Koçal N, Coşar B, Candansayar S, Arıkan Z, Işık E (1994) Yatan Psikiyatrik Hastalardan İntihar Girişimi Olanlarda Demografik Özellikler ve Psikiyatrik Bozuklukların Retrospektif Araştırılması. Kriz Dergisi, 327-330 s.
5. Mann JJ (2002.) A Current Perspective of Suicide and Attempteıl Suicide. Ann Intern Med, 136 s.
6. Özsoy S.D. - Eşel E., "İntihar (Özkıyım)", Anadolu Psikiyatri Dergisi, S.4, Sivas, 2003, 177 s.
7. Palabıyıkoğlu R, "İntihar Davranışında Ailenin Rolü ve Önemi", Kriz Dergisi, S.1, Ankara, 1993, 63 s.
8. Savaşır I, Boyacıoğlu G, Kabakçı E (1996) Bilişsel Davranışçı Terapiler. Ankara, 177-202 s.
9. Schmidtke A, Bille-Brahe U, DeLeo D, Kerkhof A, Bjerke T, Crepet P (1996) Attempted Suicide in Europe Rates, Trends and Sociodemographic Characteristics of Suicide Attempters During the Period 1989-1992 Results of the WHO/EURO Multicentre Study on Parasuicide Acta Psychiatr Scand, 93 327- 338 s.
10. Tatlıoğlu K., "Sosyal Bir Gerçeklik Olarak İntihar Olgusu: Sosyal Psikolojik Bir Değerlendirme", Abant İzzet Baysal Üniversitesi, Sosyal Bilimler Entstitüsü Dergisi, 2012, 144-145 s.
11.https://afsp.org/risk-factors-and-warning-signs#suicide-risk-factors
12.http://www.psikoloji.com.tr/yetiskin/intihar/intihar-ve-nedenleri-1136.html
13. https://www.who.int/news-room/fact-sheets/detail/suicide

SUİSİDAL DAVRANIŞIN RİSK AMİLLƏRİ

Qədirova Aytac

XÜLASƏ

İntihar və intihar cəhdləri dünyadakı ölümlər arasında ən başlıca səbəblərindəndir. Aparılan son tədqiqatlara nəzər saldıqda, xüsusilə yeniyetmə və gənclər arasında intihar hadisələrində nəzərəçarpacaq şəkildə artım olduğunun şahidi olarıq. İntihar davranışının anlaşılması və qarşısının alınması üçün ilk öncə risk faktorları müəyyənləşdirilir və ona uyğun olaraq müxtəlif müalicə strategiyaları hazırlanır. Suisidal davranışda psixi xəstəliklər, depressiya, əhval-ruhiyyə pozuntuları, alkoqol və ya zərərli maddə istifadəsi, şəxsiyyət pozuntuları, davamlı fiziki və psixoloji təzyiqə məruz qalmaq, ağır işdə mühitində çalışmaq, işsizlik, ailədaxili konfliktlər yaşamaq, ailənin hər hansı üzvünün və yaxın bir insanı ölümü başlıca risk faktorları arasındadır.

ФАКТОРЫ РИСКА СУИЦИДНОГО ПОВЕДЕНИЯ

Кадирова Айтадж

АННОТАЦИЯ

Самоубийства и попытки суицида - одна из основных причин смерти в мире. Недавние исследования показывают, что количество самоубийств растет, особенно среди подростков и молодых людей. Чтобы понять суицидное поведение и предотвратить его, сначала выявляются факторы риска и, соответственно, разрабатываются различные стратегии лечения.Суицидальное поведение включает психические заболевания, депрессию, расстройства настроения, злоупотребление алкоголем или психоактивными веществами, расстройства личности, постоянное физическое и психологическое давление, тяжелую работу, безработицу, семейные конфликты, любого члена семьи или близкого человека. Смертность является одним из основных рисков факторы.

RİSK FACTORS OF SUİCİDAL BEHAVİOR

Gadirova Aytaj

SUMMARY

Suicide and suicide attempts are among the leading causes of death in the world. Recent research shows that suicides are on the rise, especially among adolescents and young adults. In order to understand and prevent suicidal behavior, risk factors are first identified and various treatment strategies are developed accordingly. Suicidal behavior includes mental illness, depression, mood disorders, alcohol or substance abuse, personality disorders, constant physical and psychological pressure, hard work, unemployment, family conflicts, any family member or loved one. Mortality is one of the main risk factors.

KİÇİK MƏKTƏBLİNİN TƏLİM FƏALİYYƏTİNİN GEDİŞİNDƏ VƏ ONUN SƏMƏRƏLİLİYİNDƏ DİQQƏTİN ROLU

İsgəndərova Rəxşəndə
BDU-nun II kurs magistrantı
rexshendeisgenderova@gmail.com

Açar sözlər: təlim prosesi, öyrənmə, ixtiyari, qeyri-ixtiyari, idrak prosesi, inkişaf, aparıcı fəaliyyət, şagird
Ключевые слова: процесс изучения, учусь, произвольный, непроизвольный, когнитивный процесс, разработка, ведущая деятельность, ученица
Key words: learning process, learning, arbitrary, involuntary, cognitive process, development, leading activity, student

İnsanın doğulduğu andan etibarən inkişaf etməyə başlayır və onun həyatı müxtəlif dövrlərə ayrılır. İnsanın yaş mərhələlərini,psixi inkişafının dinamikasını, qanunauyğunluqlarını, hərəkətverici qüvvələrini, mexanizmlərini, həmçinin şəxsiyyətin formalaşmaqda olan xüsusiyyətlərini,onun biliklərə yiyələnmə imkanlarını,uşaq və yaş psixologiyası öyrənir. Yaş dövrləri ilə bağlı bir çox görkəmli alim və psixoloqların nəzəriyyələri və fikirləri var. Ümumi olaraq insan həyatının yaş dövrlərini aşağıdakı kimi götürə bilərik:

1.Çağalıq dövrü : anadan olandan 1 yaşa qədər olan dövrü əhatə edir.
2.Körpəlik dövrü : 1-3 yaşları əhatə edir.
3.Məktəbəqədər yaş dövrü : 3-6(7) yaşları əhatə edir.
4.Kiçik məktəb yaşı dövrü : 6-10 yaşları əhatə edir.
5.Yeniyetməlik dövrü : 10(11)-14(15) yaşları əhatə edir.
6.Gənclik dövrü

- erkən gənclik : 15-18 yaş
- son gənclik : 18-25 yaş

7.Yetkinlik dövrü

- yaşlılıq : 20-50 yaş
- son yaşlılıq : 50-75 yaş

8.Qocalıq dövrü : 75-90 yaşları əhatə edir.
9.Uzun ömürlülük : 90 yaşdan sonrakı dövrü əhatə edir.

Kiçik məktəblinin təlim fəaliyyətinin gedişində və onun səmərəliliyində diqqətin rolundan danışmazdan əvvəl Kiçik məktəbli yaş dövrünün ümumi xüsusiyyətlərinə nəzər salaq.

Kiçik məktəbli dövrü 6-10 yaşları (l-lV sinif) yaşları əhatə edir. Bu yaş dövrünün əsas aparıcı fəaliyyət növü təlim fəaliyyətidir. Təlim fəaliyyəti dedikdə,müəllimin rəhbərliyi altında bilik, bacarıq və vərdişlərin məqsədəuyğun, mütəşəkkil, planlı şəkildə mənimsənilməsi prosesi nəzərdə tutulur. Bu prosesdə iki mühüm cəhəti fərqləndirmək olar. Birinci cəhət, müəyyən elmi anlayışlar, qanunlar və əməli məsələlərin həllinə əsaslanan ümumi üsul və tərzlərlə bağlıdır. İkincisi isə, təlimin quruluşu ilə bağlıdır. Təlim fəaliyyətinin quruluşu aşağıdakı komponentlərdən ibarətdir:

1.təlim şəraiti,siyuasiyası ,yaxud vəzifələri
2.təlim işləri,əməliyyatları
3.nəzarət
4.qiymətləndirmə

Təlim fəaliyyəti şagirdin elə xüsusi inkişaf fəaliyyətidir ki,burada o həm psixoloji, həm idraki inkişaf prosesini keçir. Nəticədə uşağın özünə və ətrafdakılarına qarşı münasibətləri dəyişməyə başlayır. Məktəb təlimi prosesi ərzində şagird məktəbdə inkişaf proqramının iştirakçısı olur, onun biliyi,davranışı,psixoloji hazırlıq səviyyəsi qiymətləndirilir.

6-7 yaşa yaxın uşağın anatomiya və fiziologiyasında onun təlim fəaliyyətini şərtləndirən əsaslı dəyişikliklər baş verir : beynin çəkisi 1350 qrama çatır, alın payı və böyük yarımkürələr həcmcə və çəkicə artıb inkişaf edir.Kiçik məktəblilərdə əzələ və bağlar möhkəmlənir,ümumi əzələ gücü artır,böyük əzələlər kiçiklərə nisbətən tez inkişaf edir. Əl barmaqlarının buğumlarının sümükləşməsi 9-10 yaşda,biləyin sümükləşməsi isə 10-12 yaşda başa çatır. Məhz buna görə də kiçik məktəblilər çox vaxt yazı işlərini çətinliklə yerinə yetirir,barmaqlarının yorulmasından şikayət edirlər.Uşağın ürək-damar sistemi də sürətlə inkişaf edir,qan arteriyalarının diametri genişlənir ki,bu da ürəyin beyni lazımi miqdarda qanla təmin etməsinə imkan verir.Bu isə öz növbəsində uşağın təlim fəaliyyətinin faydalı iş əmsalını xeyli artırır.6-7 yaşlı uşaqlar anatomik-fizioloji, intellektual, iradi, şəxsi və sosial psixoloji cəhətdən əsasən məktəb təlimi üçün yetkinlik həddinə çatır,məktəb təliminə hazır olurlar. Onlar rabitəli,qrammatik və fonetik cəhətdən düzgün nitqə,təlim fəaliyyəti üçün zəruri olan bir sıra bacarıq və vərdişlərə malik olurlar.

Kiçik məktəblinin məktəbə daxil olması onun həyat və fəaliyyətində ciddi dəyişikliklər əmələ gətirir. Bu dövrün nəzərə çarpan ən başlıca xüsusiyyəti ondan ibarətdir ki,uşağın məktəbdəki təlim fəaliyyəti ictimai məna kəsb fəaliyyət növünə çevrilir. Şagird təlim fəaliyyəti üçün müəllim,məktəb və valideyn qarşısında məsuliyyət daşımalı olur. Uşağın məktəbə daxil olması onun ictimai həyatdakı vəziyyətini dəyişməklə bərabər, onun qarşısında tamamilə yeni bir aləm açır. Şagird müəllimin verdiyi tapşırıqlara da yeni münasibət bəsləməyə başlayır. Müəllimin şəxsi nümunəsi çox mühüm tərbiyəvi əhəmiyyət kəsb edir,hətta şagirdlər ata-ananın dediklərindən çox müəllimin dediklərini üstün tutur. Lakin artıq 3cü sinifdə müəllimə münasibət bir qədər dəyişir. Ona görə də yuxarı siniflərdə müəllimin şagirdlərə verəcəyi tələblər, izahlar bir qədər ciddi olmalıdır.

Bu dövrdə motiv sahəsi şəxsiyyətin əsas nüvəsinə çevrilir. Öyrənmənin sosial motivləri yaranır. Özünüdərk, həyatda öz yerini tapmaq əsas məqsəd olur. Kiçik məktəbyaşlıların şəxsiyyətinin inkişafında özünüdərketmə, öz psixi və fiziki,mənəvi keyfiyyət və xüsusiyyətlərinə şüurlu münasibət, özünəinam və özünüqiymətləndirmə mühüm rol oynayır.

Kiçik məktəb yaşlı uşağın bir xarakterik əlaməti də onda psixi funksiyaların ixtiyarilik səviyyəsinin keyfiyyətcə dəyişməsidir. Şagirdin inkişafına onun evdə icra etdiyi dərs tapşırıqları da mühüm təsir edir. Belə ki,evə verilən tapşırıqları vaxtında və düzgün yerinə yetirmək, çatdırmaq istəyi uşaqlarda nütəşəkillik və məsuliyyət hisslərini formalaşdırır. Təlim prosesində şagirdin xarici aləmə münasibəti getdikcə dəyişir və ətraf aləm haqqında təsəvvürləri tədricən reallaşmağa başlayır.

Kiçik məktəb yaşlı uşaqlarda idrak prosesləri geniş şəkildə inkişaf etməyə başlayır.Kiçik məktəblilərin idrak proseslərinin inkişafına nəzər salaq. Belə ki bu yaş dövründə uşaqlarda aşağıdakı idrak proseslərində geniş inkişaf müşahidə olunur :

- Diqqət
- Qavrayış
- Nitq
- Hafizə
- Təfəkkür
- Təxəyyül

Kiçik məktəb yaşı dövründə diqqətin həcmi bir qədər genişlənir. Diqqətin həcminin genişlənməsi şagirdin təlim fəaliyyətində müvəffəqiyyət qazanmasına əsaslı təsir göstərir.

Şagirdlərdə qeyri-ixtiyari diqqət ixtiyari diqqətə nisbətən üstünlük təşkil edir, onun davamlılığı ixtiyari diqqətə nisbətən yüksək olur. Qavrayışın xüsusiyyətləri,növləri uşağın həyat və fəaliyətinin təsiri altında onun ətraf mühitin cisim və hadisələri ilə fəal qarşılıqlı münasibəti prosesində sürətlə inkişaf edir. Bu yaş dövründə uşaqlarda nitqin hər üç istiqamətinin (söz ehtiyatı, fonetik, qrammatik) inkişafı onun yeni mərhələyə-yazılı nitqin inkişafına keçməsinə imkan verir. Şagirdlərin hafizəsi məktəbdə müntəzəm təlim-tərbiyə sayəsində sürətlə inkişaf etməyə başlayır,xüsusilə mexaniki və mənalı hafizənin nisbəti dəyişir,mənalı hafizə daha səmərəli inkişaf edir. Təfəkkürün inkişafında konkretlilik və emosionallıq geniş yer tutur. Şagirdlər fikri əməliyyatlar aparır, ümumiləşdirir, əyani təfəkkürlə mücərrəd təfəkkürün birgə fəaliyyəti praktik və nəzəri təfəkkürü də inkişaf etdirir. Bu yaş dövründə şagirdin həyat təcrübəsi və biliyinin artması sayəsində onda təxəyyülün inkişafı üçün əlverişli şərait yaranır. Kiçik məktəblilər üçün bərpaedici təxəyyül əsas olur.

Kiçik məktəblilərdə idrak proseslərinin inkişafı onların təlim fəaliyyətinə əsaslı və mühüm edir. Təlim fəaliyyətinin gedişində və onun səmərəliliyində diqqətin rolunu xüsusi olaraq qeyd edə bilərik. Diqqətin ümumi xüsusiyyətlərinə, forma və növlərinə geniş nəzər salaq.

Diqqət psixi fəaliyyotin seçici xarakter daşımasında ifadə olunur. Bu mənada diqqət cismin, hadisənin inikası olmayib psixi fəaliyyət obyektinin (yəni indiki anda şüurumuzun yönəlmiş olduğu obyektin) aydin, aşkar əks olunmasını təmin edir. Deməli, diqqətin əsas funksiyasi insanin şüurlu fəalliyyətinin seçici xarakter daşımasını təmin etməkdir. Diqqət və hafizə bir-birilə qarşılıqlı əlaqədədir. Diqqət şüurun müəyyən obyekt üzərinə yönəlməsi vo mərkəzləşməsindən ibarət psixi hadisədir. Diqqətin əmələ gəlməsi üçün ilk növbədə obyekti ayird etmək, onun üzərində mərkəzləşmək, başqalarından isə yayınmaq lazimdir. Diqqət obyekti həm xarici aləm cisimləri, həm də insanin daxili fikri, hissi rəftarı, davranışı ola bilər. K. D. Uşinskinin sözləri ilə deyilsə, diqqət, ruhumuzun elə bir yeganə qapısıdır ki, şüurumuzda olan hər bir şey müttləq buradan keçir. Bu cəhət mürəkkəb psixi hadisə kimi diqqətin yerinə yetirdiyi funksiyaları aydınlaşdırmağa kömək edir. Diqqətin 3 funksiyası ayırd edilir: seçmə,nəzarətetmək və tənzimetmə.

Diqqət mürəkkəb psixi hadisə kimi çoxcəhətli insan fəaliyyətinin bütün sahələrinə xidmət edir. Odur ki, diqqəti müxtəlif meyarlara görə təsnif etmək olar. Diqqətin növlərinə nəzər salaq :

Qeyri-ixtiyari diqqət - heyvanlarda da vardir. Çünki o cisim və hadisələrin bilavasitə təsiri nəticəsində əmələ gəlir. Qiciqlayicının xassələrindən asılı olaraq diqqət müəyyən obyektlərə yönələ bilir. Deməli qabaqcadan qarşıya qoyulmuş məqsədlə, heç bir xüsusi niyyətlə bağlı olmayan və iradi cəhd tələb etməyən diqqətə qeyri-ixtiyari diqqət deyilir. Şagird maraqlı hekayə dinlədiyi, kinoya baxdığı zaman onda diqqətin həmin obyektə yönəlməsi, mərkəzləşməsi baş verir. Lakin bu zaman xüsusi iradi səy tələb olunmur. Bu qeyri-ixtiyari diqqətdir. Yəni qeyri-ixtiyari diqqət insanin qarşısındakı məqsədlə bilavasitə bağlı olmur. Məsələn, dərs zamanı sinfin qapısı açılarkən şagirdlər dərhal dönüb baxırlar; bu zaman içəri girən adam onların diqqətini özünə cəlb edir. Qeyri-ixtiyari diqqət zamani insanin psixi fəaliyyəti ətraf cisim və hadisələrdən asılı olaraq onlara yönəlir. Buna görə, qeyri-ixtiyari diqqət adamin hazırlığı olmadan, qıcıqlandırıcının bilavasitə təsirilə əmələ gəlir, yalniz qıcıqlandıncı təsir etdiyi müddətdə mövcud olur. Onun gərginliyi qıcıqlandırıcının qüvvəsindən asılıdır.İxtiyari diqqətin yaranması insanın xüsusi niyyəti və məqsədi ilə bağlıdır. O, daha çox fəaliyyət prosesində əmələ gəlir və fəaliyyətin tənzim edilməsinə yönəlmiş olur. Qarşıya qoyulmuş şüurlu məqsədlə bağlı olaraq əmələ gələn və müəyyən iradi səy tələb edən diqqətə ixtiyari diqqət deyilir. Bu halda beyində ikinci siqnalların - söz siqnallarının təsiri ilə optimal oyanma sahəsi əmələ gəlir. Kənardan göstəriş, özünü təlimatlandırma (daxili nitq vasitəsi ilə), xüsusi niyyət ixtiyari diqqət üçün əlverişli zəmin yaradir. Məsələn, şagird fəaliyyətini öz məqsədinə müvafiq olaraq ev

tapşırıqlarını yerinə yetirməyə yönəldir və homin iş üzərində cəmləşdirirsə, bu ixtiyari diqqətdir. İxtiyari diqqət, şüurlu surətdə icra olunan fəaliyyət məqsədi ilə əlaqədar olub, obyekti müəyyən sistem üzrə, ətraflı öyrənməyə imkan verir.İxtiyari diqqətdə cisim və hadisə insan üzərində deyil, əksinə, insan onların üzərində hakim olur.

Diqqətin müxtəlif xüsusiyyətləri, keyfiyyyətləri, özünəməxsus təzahürləri vardir. Hər bir xüsusiyyət ayrı-ayrı şəxslərdə özünəməxsus şəkildə təzahür edir. Onlara müxtəlif amillər təsir göstərir. Odur ki, diqqətin hər bir xüsusiyyətini ayrılıqda izah etmək lazım gəlir.Diqqətin beş əsas xüsusiyyəti ayird edilir. Buraya diqqətin mərkəzləşməsi, davamlılığı, həcmi, paylanması və keçirilməsi daxildir. **Diqqətin mərkəzləşməsi** zamani şüurumuz bir obyekt və ya bir fəaliyyətə yönəlir, başqalarından uzaqlaşır. Başqa sözlə, yalnız bir obyektə yönəlmiş diqqət mərkəzləşmiş diqqət hesab olunur. Maraqlı bir kitab oxuduqda, riyazi məsələ həll etdikdə diqqətimiz müvafiq iş üzərinə cəmləşmiş olur. Bu zaman ətrafımızda baş verən hadisələri, təsir göstərən kənar qıcıqlayıcıları sezmirik. Diqqətin mərkəzləşməsi hər hansi bir fəaliyyətə, işə, obyektə dərin, fəal maraqla bağlıdır. **Diqqətin həcmi** eyni vaxtda əhatə olunan,dərk olunan obyektlərin miqdan ilə müəyyən edilir. Məsələn,eyni vaxt içərisində təsir edən 10 obyektdən 5-i aydin qavranilirsa, deməli, diqqətin həcmi 5 obyektə bərabərdir. Diqqətin böyük həcmə malik olması bir sıra fəaliyyət sahələrində çox əhəmiyyətlidir. Diqqətin həcmi, çox vacib olan iki dərəcəni - diqqətin mərkəzləşmə və gərginlik dərəcəsini xarakterizə etmoyə imkan vcrir. Diqqətin mərkəzləşmə dərəcəsi hər biri tam aydınlıqla əks olunan obyektlərin məhdud miqdarda seçilməsində ifadə olunur. Diqqətin gorginliyi isə yüksək dərəcədə mərkəzləşmə ilə xarakterizə olunur. Çox gərgin diqqət zamani obyekt həddindən artıq aydinlıqla dərk olunduğu halda, ətraf cisim və hadisələr, demək olar ki, sezilmir. **Diqqətin paylanması** eyni vaxtda iki müxtəlif və daha artıq işi yerinə yetirmək bacarığı ilə xarakterizə olunur. Əgər adam eyni vaxtda 2 və ya 3 işlə məşğul olarsa (məsələn, müəllim sinifdə yeni materialı həm izah edir, həm şagirdlərin intizamına,həm də öz izahatının aydin olub-olmadığına nəzarət edirsə), deməli, onun diqqəti eyni zamanda 2 və ya 3 iş üzərində paylanır. **Diqqətin davamlılığı** onun ümumi bir məqsədə tabe olan obycktlər üzərində uzun müddət və fasiləsiz olaraq saxlanılmasında ifadə olunur. Burada diqqət bir obyektdən başqasına keçirsə də onlar ümumi məqsədə tabe olan fəaliyyət obyektləri kimi qalır.Məsələn,şagird misal həll edərkən, onun diqqəti dərsliyə, oradakı misallara, rəqəmlərə, işarələrə, keçmiş təcrübəyə yönəlsə də, əgər misal həlli davaın edərsə, deməli, diqqət davamlıdır. Çünki burada bütün bu obyektlər ümumi məqsədə - misalı həll etmək məqsədinə tabedir. Buna görə də diqqətin davamlılığı fəaliyyətin ümumi istiqamətinin dəyişməsi ilə müəyyən edilir. Əgər o müəyyən fəaliyyətin ümumi istiqamətindən kənara çıxmırsa, davamlı diqqət sayılır. **Diqqətin keçirilməsi** onun şüurlu surətdə bir obyektdən başqa obyektə və ya bir fəaliyyətdən başqa fəaliyyətə yönəldilməsidir. Bu, fəaliyyətin ümumi istiqamətinin dəyişməsi ilə əlaqədardir. Müasir dövrdə mürəkkəb maşınların idarə olunmasi üçün diqqətin keçirilməsi böyük əhəmiyyət kəsb edir.

Diqqət haqqında ümumi məlumatlara,onun növlərinə və xüsusiyyətlərinə nəzər saldıq.İndi isə Diqqətin kiçik məktəblilərin təlim fəaliyyətinin gedişində olan rolu haqqında danışaq.

Qeyd etdiyimiz kimi,kiçik məktəb yaşlı uşaqlarda qeyri-ixtiyari diqqət ixtiyari diqqətə nisbətən üstünlük təşkil edir. Qeyri-ixtiyari diqqətin davamlılığı ixtiyari diqqətə nisbətən yüksək olur.Məlum olduğu kimi,qeyri-ixtiyari diqqət ən çox şagirdin marağı ilə əlaqədardır. Məktəbə daxil olmaqla şagirdin marağı, xüsusilə təlim fəaliyyətinə olan marağı genişlənir, inkişaf edir. Kiçik məktəb yaşı dövründə diqqətin həcmi bir qədər genişlənir. Kiçik məktəblilərdə diqqətin həcmi, hər şeydən əvvəl, qavranılan cisim və hadisələrin bir-biri ilə nə dərəcədə sıx əlaqədə olmasından obyektlərin sadə və mürəkkəbliyindən asılıdır. Şagirdlərdə diqqətin həcmi,həmçinin obyektlərin düzülüşündən, formasından böyük və ya kiçikliyindən, rəngindən və s. asılıdır.

Obyektlər müəyyən qayda ilə düzüldükdə diqqətin həcmi çoxalır, qarışıq şəkil olduqda azalır. Diqqətin həcminin genişlənməsi şagirdin təlim fəaliyyətində müvəffəqiyyət qazanmasına əsaslı təsir göstərir. Bu yaş dövründə uşaqlarda ,şagirdlərdə diqqətin mərkəzləşməsi, paylanması proseslərinin nisbətən daha da güclənməsi müşahidə olunur. Bütün bunlarla yanaşı kiçik məktəblilərdə diqqətin davamlılığı da artmağa başlayır. Dərs zamanı şagirdin diqqətinin davamlılığı müəllimin davranışından da asılıdır. Diqqətin davamlılığı, hər şeydən əvvəl, təsir edən obyektlərin və icra olunan işlərin rəngarəngliyindən, yeniliyindən, zənginliyindən, bir sözlə, dinamikliyindən asılıdır. Yeknəsək obyektlər ləngimə əmələ gətirdiyindən diqqətin davamlılığını azaldir, onun tez yayinmasına səbəb olur.Diqqətin davamlılığı fəaliyyət prosesində adamin fəallığından asılıdır. Bununla bərabər, Diqqətin davamlılığına onun marağı, yorğunluq dərəcəsi və s. təsir edir. Şagirdin diqqətinin inkişafı üçün müxtəlif təlim üsullarından da istifadə olunur. Dərsdə müxtəlif üsullar, müxtəlif qaydalar gözlənilmədikdə şagirdin diqqəti yayınır, dalğınlıq əmələ gəlir. Dərsdə şagirdlərin diqqətliliyini təmin edən amillərdən biri də təlim prosesinin səmərəli təşkilidir. Müəllim dərs zamanı, təlim prosesində dərs prosesini düzgün, maraqlı və dinamik şəkildə təşkil etməlidir ki, şagirdlər təlim prosesində aktiv iştirak etsinlər və təlim prosesi səmərəli olsun. Bunun üçün müəllim dərs prosesini sual-cavab əsasında, diskussiya formasında, qruplara ayıraraq, komandalar yaradaraq və oyunlar vasitəsilə təşkil edə bilər.

ƏDƏBİYYAT

1.Bayramov Ə.S.,Əlizadə Ə.Ə Psixologiya .Bakı: Çinar çap- 2002
2.Bayramov Ə.S. Əlizadə Ə.Ə.Sosial psixologiya.Bakı 2003
3.Vəliyev M.V.,Mustafayev A.M Uşaq psixologiyası (metodik vəsait). Bakı 2011
4.Həmzəyev M.Ə Yaş və pedaqoji psixologiyanın əsasları . Bakı 2003
5.Çələbiyev N.Z. Uşaq psixologiyası . Bakı,2005
6.Cabbarov R.,Əliyev B.,Əliyeva K. Pedaqoji psixologiya .Bakı : Təhsil,2011.
7.Vəliyev M.V.,Mustafayev A.M. İnkişaf və yaş psixologiyası.Bakı : Elm,2015
8.Driessen, G, Smit, Sleegers ,P.(2005)
9. https://www.trtcocuk.net.tr/ebeveyn-akademisi/cocuk-gelisimi/6-7-yas-araliginda-sizi-neler-bekliyor
10 .Грейс Крайг .Психология развития . Питер.2002

KİÇİK MƏKTƏBLİNİN TƏLİM FƏALİYYƏTİNİN GEDİŞİNDƏ VƏ ONUN SƏMƏRƏLİLİYİNDƏ DİQQƏTİN ROLU

İsgəndərova Rəxşəndə

XÜLASƏ

Təqdim etdiyim məqalədə ilk öncə kiçik məktəblilərin inkişaf və yaş xüsusiyyətləri,yaş dövrünün əsas keyfiyyətləri haqqında ümumi məlumatlar qeyd edilmişdir.Bildiyimiz kimi,kiçik məktəblilərin əsas aparıcı fəaliyyət növü təlim fəaliyyətidir.Məqalədə kiçik məktəblilərin təlim prosesi,təlim prosesinin gedişində və onun səmərəliliyində diqqətin rolu ön plana çəkilmişdir.Xüsusi olaraq Diqqət haqqında,onun növləri, xüsusiyyətləri haqqında qeyd olunmuşdur və kiçik məktəblilərdə diqqətin hansı növü,hansı xüsusiyyətləri özünü göstərdiyi təhlil olunmuşdur.

РОЛЬ ВНИМАНИЯ В ПРОЦЕССЕ ОБРАЗОВАТЕЛЬНОЙ ДЕЯТЕЛЬНОСТИ МАЛЫЙ ШКОЛЫ И ЕЕ ЭФФЕКТИВНОСТЬ

Искандарова Рахшанде

АННОТАЦИЯ

Представленная мною статья в первую очередь дает общую информацию о развитии и возрастных особенностях младших школьников, основных качествах возрастного периода. Как известно, основным ведущим видом деятельности младших школьников является учебная деятельность. В статье освещается процесс обучения юных студентов, роль внимания в процессе обучения и его эффективность. В частности, уделялось внимание вниманию, анализировались его виды и особенности, а также то, какое внимание и особенности проявляются у младших школьников.

THE ROLE OF ATTENTION IN THE PROCESS OF EDUCATIONAL ACTIVITY OF A SMALL SCHOOL AND ITS EFFICIENCY.

Isgandarova Rakhshanda

SUMMARY

The article I presented first of all provides general information about the development and age characteristics of young schoolchildren, the main qualities of the age period. As we know, the main leading activity of young schoolchildren is learning activities. The article highlights the learning process of young students, the role of attention in the learning process and its effectiveness. In particular, attention was paid to attention, its types and features, and what kind of attention and features are manifested in young schoolchildren were analyzed.

ЛИЧНОСТНЫЕ ОСОБЕННОСТИ РАЗВИТИЯ СИНДРОМА ЭМОЦИОНАЛЬНОГО ВЫГОРАНИЯ В ПРОЦЕССЕ ПРОФЕССИОНАЛЬНОЙ ДЕЯТЕЛЬНОСТИ ПЕДАГОГА

Мехрибан Нияз гызы Эюбова
Парвин Салимова-Адгезалова Мовлуд гызы,
магистрант 2-го курса БГУ
pervin.selimova.ps@gmail.com

Ключевые слова: синдром эмоционального выгорания, личностные особенности, акцентуации, самооценка, потребностно- мотивационная сфера, степень тревожности, социальная адаптация, уровень эмпатии, конкуренция,сотрудничество,трудоголизм.
Açar sözlər: emosional tükənmə sindromu, şəxsiyyət amilləri, aksentuasiyalar, özünüqiymətləndirmə, tələbat-motivasiya sahəsi, sosial adaptasiya, empatiya səviyyəsi, rəqabət, əməkdaşlıq, işgüzarlıq.
Key words: burnout syndrome, personality traits, accentuations, self-esteem, need-motivational sphere, degree of anxiety, social adaptation, degree of empathy, competition, cooperation, workaholism.

Важными составляющими в формировании преподавательского имиджа, наряду с профессиональными знаниями и мастерством являются личностные особенности педагога, позволяющие сохранять эффективность деятельности.

Необходимо отметить также, что преподавательская деятельность относится к типу профессий «человек-человек» и, поэтому, имеет по сутистрессогенную природу, что увеличивает риск развития эмоционального выгорания. К особенностям профессионального труда педагогов, способствующих развитию эмоционального выгорания, можно отнести: нехватку времени на усвоение и подготовку средств труда, а также информационную загруженность; большие социальные обязанности за результат работы; непредсказуемость обстоятельств на рабочем месте; каждодневная рутина; социальный отклик (педагог является обьектом оценивания не только со стороны учеников, но и со стороны администрации); осуществления постоянных и продолжительных контактов с коллегами, родителями, учащимися, администрацией приводит к «фактору пресыщению общением». Для благополучного разрешения всех вышеперечисленных вопросов педагог должен обладать подходящими личными особенностями, которые могут способствовать предупреждению или предотвращению развития эмоционального выгорания.

Прежде чем как перейти к рассмотрению личностных особенностей, приводящих к развитию синдрома эмоционального выгорания, нужно отметить, что на сегодняшний день нет четкого и системного представления о роли определенных детерминантов, приводящих к эмоциональному выгорания у педагогов. Многие исследователи устанавливают связь лишь между отдельными качествами и созреванием синдрома эмоционального выгорания.

Анализ многих работ дает нам право связывать с особенностями личности педагога, обусловливающих эмоциональное выгорание: типы акцентуаций, уровень самооценки, локус контроля, потребностно-мотивационную сферу, степень тревожности, уровень

эмпатии, уровень социально-психологической адаптации, трудоголизм, конкурентный тип взаимодействия и агрессивность.

Установлено три типа наличие связи между синдромом эмоционального выгорания и акцентуациями. Первый тип акцентуации: это педантичный тип, который определяется такой личностной чертой, как перфекционизм, выражающееся в стремление к совершенству, идеалу. В случаях, когда стремления личности не соответствуют его потенциалу, начинает развиваться чувство неудовлетворенности собой, что приводит снижению самореализации и работоспособности. С другой стороны, перфекционист для достижения желаемого совершенства выкладывает весь комплекс своих ресурсов, приводящих к быстрому истощению и развитию синдрома эмоционального выгорания. Второй тип: это демонстративный, который характеризуется желанием быть в центре внимания, показать себя, первенствовать, в результате чего однообразная работа приводит к быстрой истощаемости. Третий тип: это эмотивный, проявляющейся в переизбытке чувствительности, впечатлительности и сентиментальности. Если, у человека недостаточно внутреннего энергоресурса для совладания с неблагоприятными ситуациями, то он будет настолько переживать чужие эмоции, что доведет его вплоть до саморазрушающих тенденций.

Успешность деятельности педагога определяется ценностью и значимостью, которым он наделяет себя. Если самооценка у личности будет неадекватной или несоответствующей реальности, то это может послужить развитию синдрома выгорания. В случаях завышенной или заниженной самооценки результат деятельности будет не удачной, что приведет к увеличению эмоционального напряжения и чувству неудовлетворенности. Таким образом, человек на работе оказывается в субъективной «зоне постоянных неудач», что порождает хронический дискомфорт и созревание эмоционального выгорания. [6].

Локус контроля характеризуется как склонность человека приписывать ответственность деятельности к внешним силам или внутренним усилиям. Человеку с внешним (экстернальным) локус контролем свойственно чувство неуверенности в своих силах, несамостоятельности и зависимости, способствующих снижению трудовой активности, интереса и удовлетворенности профессией [6]. Важную роль в развитии синдрома выгорания играет и потребносто-мотивационная сфера личности, а именно: внешняя или внутренняя мотивированность профессиональной деятельности [1]. Деятельность с внешней мотивацией – это поведение, осуществляемое преимущественно с целью получить материальное или социальное вознаграждение, или избежать наказания. Внутренняя мотивированность предполагает подлинную вовлеченность в деятельность и удовлетворенность от процесса деятельности, ощущая ее ценности. Чем выше сила внешней мотивации личности, тем больше зависимость эффективности труда и эмоционального состояния от внешних факторов. И, если человек не получает ожидаемого результата ,он начинает испытывать чувство неудовлетворенности трудом, которому последует понижения интереса, профессиональной активности, снижение потребности в творческой самореализации себя, потеря смысла общественной значимости труда, развитие симптома эмоционального истощения и дегуманизация. Необходимо еще отметить, что если субъект испытывает эмоциональное истощение, то у него также повышается зависимость от внешних мотиваций трудовой деятельности.

Определенный уровень тревожности, служащий для самоконтроля является естественной и обязательной особенностью субъекта. Ряд авторов указывают на связь между повышенной тревожностью и синдромом выгорания. Надо отметить, что

исследователи выделяют ситуативные и личностные виды тревожности. Личностная тревожность-это устойчивая индивидуальная характеристика, предполагающая наличие у субьекта тенденции воспринимать достаточно широкий «каскад» ситуаций, как угрожающий, отвечая на каждую из них определенной реакцией. Особенно данный вид тревожности сталобьектом исследования со стороны многих авторов. Субьект, обладающий личностной тревожностью, воспринимает широкий спектр ситуаций, как угрожающий, что сказывается на деятельности, а именно, наблюдается менее устойчивая эмоциональная сфера, нерешительность и подозрительность, фрустрированность, также импульсивность [3].

Эмпатия, понимаемая как постижение эмоционального состояния, проникновения во внутренний мир другого человека, также относятся к личностным особенностям, играющаябольшую роль в развитии синдрома выгорания. В своих исследованиях Водопьянова Н.Е. отмечает, что низкий уровень эмпатии присущ лицам социально изолированным, сосредоточенным на собственном «Я» а также -эмоционально истощенным в результате наличия выгорания. Высокий уровень эмпатии характерен для лиц чувствительных, которые испытывают трудности к адаптации социальным условиям. Оптимальный уровень эмпатии присущ для зрелых, профессионально уверенных специалистов, обладающих высокой общительностью, умеющихотстаивать собственную позицию и держать психологическую дистанцию, одновременно с глубоким пониманием и сопереживанием других [2].

В ряде работ рассматривается связь между выгоранием и социальной адаптацией. Личность имеющий низкую адаптацию больше подвержен развитию синдрома эмоционального выгорания. [7]. Многие исследователи также указывает на корреляцию между синдромом эмоционального выгорания и формами взаимодействия. Наиболее уязвимыми являются личности, которые предпочитают разрешать стрессовые ситуации, реагируя агрессивно,в соперничестве. (Кондо1991, Н.Е.Водопьянова 1997). Низкое выгорание наблюдается у лиц предпочитающих компромисс и сотрудничество. Трудоголизм рассматривается со стороны многих авторов, как один из видов аддикций, который проявляется в бегстве от реальности, посредством изменения своего психологического состояния, достигаемое фиксацией на работе. (А.Ю.Егоров, Г.Портер, А.Шаев и др.). Этот вид аддикции ведет к эмоциональной опустошенности, субьект чувствует постоянную тревогу и боязнь нереализации ожиданий. Эти перечисленные особенности приводят к дальнейшей деперсонализации и эмоциональному истощению [4].

Итак, теоретические исследования литературы дает нам право говорить, о том, что на развитие синдрома выгорания наряду с организационными факторами, оказывают влияние и внутриличностные особенности. Преждевременной профилактикой или коррекцией наблюдаемых качеств, можно предотвратить синдром эмоционального выгорания.

Несмотря на то, что был проведен целый ряд исследований со стороны ученых психологических отраслей и других дисциплин, по проблемам эмоционального выгорания преподавателей, необходимо отметить, что некоторые аспекты требуют дальнейшего изучения. В частности, следует системно и комплексно изучить связь между личностными особенностями и развитием синдрома эмоционального выгорания.

ЛИТЕРАТУРА

1.Березовская Р.А., Кишка Т.Н. Роль процессуальной мотивации в развитии синдрома выгорания / Р.А. Березовская // Выгорание и профессионализация: сб. науч. тр. / под ред. В.В. Лукьянова, А.Б. Леоновой, А.А. Обознова, А.С. Чернышева, Н.Е. Водопьяновой; Курск. гос. ун-т. – Курск, 2013. – 440 с.

2. Водопьянова Н. Е. Синдром «психического выгорания» в коммуникативных профессиях // Психология здоровья / Под ред. Г. С. Никифорова. — СПб.: Питер, 2000. — 329 с.

3. Грабе М. Синдром выгорания - болезнь нашего времени. Почему люди выгорают и что можно против этого предпринять. Пер. с нем. – СПб.: Речь, 2008.

4. Ильин Е.П. Работа и личность. Трудоголизм, перфекционизм, лень/Е.П. Ильин. – СПб.: Питер. – 2016. – 224 с.

5.Китаев-Смык Л. А. Психология стресса: психологическая антропология стресса / Л. А. Китаев-Смык. – М. : Академический проект, 2009. - 943 с.

6.Совкова И.Ю., Деструктивное поведение личности в кризисных ситуациях служебной деятельности // Психопедагогика в правоохранительных органах. - 2003. - №1 (19). - С. 73-81.

7. Митина Л.М. Психология развития и здоровье педагога. / Л.М. Митина. – «Про-пресс». Библиотечка журнала «Вестник образования». – 2005. – №7.

ЛИЧНОСТНЫЕ ОСОБЕННОСТИ РАЗВИТИЯ СИНДРОМА ЭМОЦИОНАЛЬНОГО ВЫГОРАНИЯ В ПРОЦЕССЕ ПРОФЕССИОНАЛЬНОЙ ДЕЯТЕЛЬНОСТИ ПЕДАГОГА

Эюбова Мехрибан, Салимова-Адгезалова Парвин

АННОТАЦИЯ

В статье представлены результаты теоретического анализа влияния личностных факторов на развитие синдрома эмоционального выгорания. Отмечена высокая распространенность эмоционального выгорания у педагогов средних и высших школ. Наряду с личностными особенностями, оказывающими влияние на развитие синдрома выгорания, упоминаются и организационные факторы, увеличивающие риск эмоционального выгорания.

BİR MÜƏLLİMİN PEŞƏ FƏALİYYƏTİNİN GEDİŞİNDƏ EMOSİONAL YANMA SİNDROMUNUN İNKİŞAFININ FƏRDİ XÜSUSİYYƏTLƏRİ

Eyyubova Mehriban, Səlimova-Adgözalova Pərvin

XÜLASƏ

Məqalədə emosional tükənmə sindromunun inkişafına şəxsiyyət amillərinin təsirinin nəzəri təhlilinin nəticələri təqdim olunur. Orta və ali məktəb müəllimləri arasında emosional tükənmənin yüksək yayılması qeyd edilib. Tükənmə sindromunun inkişafına təsir edən şəxsiyyət xüsusiyyətləri ilə yanaşı, emosional tükənmə riskini artıran təşkilati faktorlardan da bəhs olunur.

PERSONAL FEATURES OF EMOTIONAL BURN OUT SYNDROME DEVELOPMENT IN THE PROCESS OF A TEACHER'S PROFESSIONAL ACTIVITY

Eyyubova Mehriban, Salimova-Adozalova Parvin

SUMMARY

The article presents the results of a theoretical analysis of the influence of personal factors on the development of burnout syndrome. High prevalence of emotional burnout among teachers of secondary and higher schools was noted. Along with the personality traits that influence the development of burnout syndrome, organizational factors are also mentioned that increase the risk of emotional burnout.

XARİCİ DİLİN ÖYRƏNİLMƏSİNDƏ NLP METODLARININ ROLU

Abdullayeva Sevinc Taryel qızı
BDU-nun II kurs magistrantı
Elmi rəhbər: prof Sədi Nuriyev Şəfaqət oğlu
asevinc98@mail.ru

Açar sözlər: xarici dil, psixoloji, metod, NLP, öyrənmə texnikaları
***Key words*:** foreign language, psychological, method, NLP, learning techniques
Ключевые слова: иностранный язык, психологический, метод, НЛП, методы обучения.

Nitq prosesi təkcə bioloji deyil, eyni zamanda psixoloji faktor olub, insanı xarakterizə edir. Yəni daha sadə desək, əgər ünsiyyətdə olduğumuz insanın nitqinə, tez-tez işlətdiyi ifadələrə fikir versək, o zaman həmin insanın xarakteri, onun düşüncəsi haqqında düzgün nəticələr çıxara bilərik [4].

1970-ci illərin əvvəlində Kaliforniyada riyaziyyatçı Riçard Bandler və dilçi Con Qrinderin müəyyən bacarıqlara sahib olan insanlar ilə bu bacarıqları təkmilləşdirmiş insanlar arasındakı fərqləri araşdırarkən, NLP-nin əsası qoyuldu. Onların başlanğıcda özlərinə verdiklər sual bu idi: "Hər hansı bir eyni qabiliyyətə malik olan insanların birinin digərlərinə nisbətən daha üstün olmasının səbəbi nədir?"

Hər kəs düşünə bilər ki, o idealdır. Amma bu elə də sadə məsələ deyil. Yəni biz gündəlik həyatda görürük ki, eyni şeyləri müxtəlif insanlar edir, amma hamı eyni yerə çata bilmir. Bunun əsasında inançlar, hisslər və davranışlar dayanır. NLP bəzən, "mükəmməllik elmi", "dəyişmə sənəti", "istədiklərini əldə etmə üsulu" kimi adlanır. NLP gündəlik həyatın bir çox sahələrində istifadə edilə bilər. "NLP və Satış", "NLP və Reklam", "NLP ilə işə qəbul", "Tibb və Səhiyyə NLP", "Fərdi İnkişafda NLP", "Yaradıcılıqda NLP", "Təhsildə NLP" və s.

Nəticədə, NLP bütünlüklə subyektiv insan təcrübəsinə və öz həyat tərzinə aid bir sistemin öz strukturuna malik olan proseslərə aid olduğunu əks etdirir [3].

NLP-nin inkişafının birinci mərhələsi Fritz Perls modelləşdirilməsi ilə başladı. O, Geştalt terapiyasının qurucusudur. Modelləşdirmə Geştalt psixologiyasının ən mühüm prinsipləri və yanaşmalarını nəzərə alaraq həyata keçirilmişdir. Buna görə də, NLP də zehni və davranış nümunələri çox olduğundan, Geştalt metodu ilə bir çox şəkildə əlaqələndirilir.

İstifadə olunan ikinci model "linqvistik nümunələr"dir. Onlar tanınmış hipoterapist Milton Eriksonun işində istifadə edilmişdir. Müəllif linqvistik strukturlarda subyektiv təcrübənin, onun daxili proseslərinin əks olunduğuna dair fikirlər irəli sürmüşdür.

NLP-nin elmi əsasları arasında, davranış psixologiyasının inkişafına da aid edilə bilər. Onun təsisçisi Rus akademik A.P. Pavlovdur. NLP-də bu mövzuya "anchoring" deyilir.

Ümumilikdə NLP-nin üç əsas sütunu məqsəd, həssaslıq və rahatlıqdır. Məqsədləri düzgün təyin edərək, hansı istiqamətdə hərəkət edəcəyinizi bilirsiniz. Həssaslığı, müşahidəni və intuisiyanı inkişaf etdirərək, məqsədə doğru hərəkət etmək üçün istifadə etdiyiniz vasitələrin adekvat olub olmadığı barədə məlumat alırsınız. NLP-dəki bütün təlim işləri bu bacarıqların inkişafına yönəldilmişdir. Nə əldə etmək istədiyiniz barədə əvvəlcədən bir konsentrasiya varsa, o insanın bütün mövcud mənbələrini bir hədəfə çatmaq üçün istiqamətləndirəcək bir bələdçi olacaqdır [2].

Burada öyrənmə prosesi dörd mərhələdə qurulur:

Mərhələ 1: Şüursuz səriştəsizlik. Bilmədiklərimi bilmirəm.

Mərhələ 2: Şüurlu səriştəsizlik. Bilmədiklərimi bilirəm.

Mərhələ 3: Şüurlu səriştəlilik. Mən bildiyimi bilirəm.

Mərhələ 4: Şüursuz səriştə. Mən nə bilirəm bilmirəm.

Daha əvvəl də qeyd edildiyi kimi, NLP-nin mahiyyəti modelləşdirmədir. Bu, uğurlu insanların əldə etdiklərini necə etdiyini öyrənmə prosesidir. Modelləşdirmə şüurlu və ya şüursuz şəkildə edilə bilər. Valideynlərin uşaq və ya övladları kimi dəyərlərinə və inanclarına sahib davranışlarının təqlidi şüursuzca modelləşdirmədir. Yetkinlərin də öz sahələrində mütəxəssisləri modelləşdirməsi şüurlu bir modelləşdirmədir. Modelləşdirmə öyrənmənin əsasını təşkil edən məlumat axınının baş verməsinə imkan verir.

NLP-yə görə inkişaf etmiş adam bəzi təbii imkanlarına görə digərlərindən fərqlənir. Məsələn, dilin qavranılması zamanı müvafiq təbii imkana malik olan uşaqlarda həmin fəaliyyətə meyl aydın təzahür edir. Qabiliyyətin bir-neçə növü vardır:

1. Ümumi qabiliyyətlər - bir sıra fəaliyyət sahələrində iştirak edən və hamının görə biləcəyi prosesləri icra etmək bacarığıdır.
2. Xüsusi qabiliyyət - müəyyən fəaliyyət növlərinin uğurla icra olunması bacarığıdır.
3. Nəzəri qabiliyyətlər - bu qabiliyyətə sahib olan adamlarda məntiqi və praktik təfəkkür daha üstün olur.
4. Təlim qabiliyyətləri - bu qabiliyyətə sahib olan adamlar pedoqoji fəaliyyətə, yeni ideyaların müvəffəqiyyət qazanmasına nail olurlar.
5. İnsanlarla birgə fəaliyyət və ünsiyyət qabiliyyəti - bu cür adamlar müxtəlif insanlarla ünsiyyət qura bilmək bacarığı, gözəl nitq qabiliyyəti ilə başqa insanlardan fərqlənirlər [5].

Xarici dil tədrisində dil öyrənənlər NLP ilə öyrənməyi daha əlverişli hesab edirlər. Bütün xarici dil tədris metodlarının dilçilik, psixologiya və sosiologiya kimi elmlər nəzəriyyələrindən qaynaqlanan fərqli əsasları vardır. Dilçilik prinsipləri dil nəzəriyyələrinə, psixoloji prinsiplər tədris nəzəriyyələrinə, sosioloji prinsiplər isə ünsiyyət səriştəsi nəzəriyyələrinə əsaslanır. Bütün bu nəzəriyyələri birləşdirən xarici dili öyrənmə hədəfidir. Texnika istifadə olunduğu yerə, eləcə də insandan insana görə dəyişir. Dil tədrisində məcburi olan və olmadıqda öyrədilə bilməyən əsas dil bacarıqları var. Bu bacarıqları; eşitmə, danışma, yazı və oxu bacarıqları. Hər hansı bir metodun müvəffəqiyyəti bu dörd əsas bacarığı şagirdə çatdırmaqdakı texnikanın gücündən asılıdır. Eşitdiklərinizi anlamaq, oxuduqlarınızı anlamaq və xüsusilə başqalarına bir mesaj çatdırmaq üçün istifadə olunan üsullar düzgün seçilməlidir.

Xarici dil tədrisi sahəsində metod və texnika anlayışları çox vaxt bir-biri ilə eyniləşdirilir. Xarici dil tədrisində metod, müəyyən olunmuş hədəflərə çatmaq üçün tədris texnikaları və vasitələrindən istifadə edərək bir dilin necə öyrədiləcəyini ortaya qoyan bir sıra prosedurlardır. Metod ümumiyyətlə hədəfə çatmaq üçün ən qısa yol kimi müəyyən edilir. Texnika isə tədris metodunun və ya sinifdə həyata keçirilən bütün əməliyyatların həyata keçirilmə yolu kimi müəyyən edilir. Daha geniş bir perspektivdən götürülən metod, hədəflərə çatmaq üçün tədris-öyrənmə prosesini planlaşdırmaqdır [1].

Xarici dil tədrisində istifadə olunan ümumi üsullar bunlardır:

Sual-cavab üsulu:

Ən çox sinif praktikasında istifadə olunur. Bu texnika şagirdlərin düşünmə və danışma vərdişlərinin qazanılması baxımından çox vacibdir və bu səbəbdən hər dərsin tədrisində istifadə olunur. Bu texnika xarici dil tədrisində eşitmə, oxu, anlama və danışıq bacarıqlarının artırılması kimi ünsiyyət mərkəzli tədqiqatların tətbiqində tez-tez istifadə olunan tədris üsuludur.

İkili və qrup çalışmaları üsulu:

Ümumi məqsədlər üçün ən azı iki, ən çox səkkiz-on nəfər tərəfindən görülən işlərə qrup işi deyilir. Xarici dil tədrisində mənalı və ünsiyyətli məşqlər apararkən, sual-cavab texnikası dialoqun tədrisində bu üsul tətbiq oluna bilər. Dil ünsiyyət vasitəsi olduğu üçün dildən istifadə

edən qəbuledici kimi danışılanları dinləyir və ya ötürücü kimi danışır. Dil tərəfindən həyata keçirilən hərəkətlər fərdi deyil, qarşılıqlı və ya sosial fəaliyyət olduğu üçün bu xüsusiyyət tədrisdə qorunulmasına diqqət edilməlidir. Bu səbəbdən xarici dil tədrisində cüt və ya qrup çalışmaları xüsusi əhəmiyyətə malikdir.

Təhsil oyunları ilə tədris texnikası:

Təhsil oyunları, xarici dil tədrisdə əhəmiyyətli texnikalardandır. Bu əhəmiyyət, şagirdin oynayarkən özünü öyrənmə prosesini keçməyəcəyinə inanaraq dilin şüuraltına yerləşdirilməsindən qaynaqlanır. Təhsil oyunları şagirdlərə dərs zamanı sinifin məlum təzyiqlərini hiss etdirmədən rahat bir mühitdə tədris təmin edir. Dilin tədrisində uğurlu nəticə əldə etmək üçün bu oyunlar ən uyğun üsuldur. Xüsusilə, şagirdin bütün psixoloji maneələri aşmasına və bütün bilik kanallarını açmasına, tələffüz və söz ehtiyatını anlamasına kömək edən vacib bir vasitədir. Misal üçün; Ünsiyyət oyunları şagirdlərdə ünsiyyət vərdişlərini inkişaf etdirməyi hədəfləyən təhsil oyunlarıdır. Xüsusilə son illərdə xarici dil tədrisində kommunikativ bir yanaşma ortaya çıxdıqdan sonra bu cür oyunlar çox vacib oldu. Maqnit lövhələrə maqnit şəkillər və rəqəmlər yapışdırmaqla fərqli hadisələr, dialoqlar və müxtəlif fəaliyyətlər canlandırıla bilər. Şagirdlər bu alətlərin yeni formalarını lövhədəki yerlərini dəyişdirərək izah edirlər və hətta onlarla müxtəlif dil oyunları oynaya bilər. Bütün bu hərəkətlər ünsiyyəti dəstəkləyən və sinif otağını uniformadan azad edən fəaliyyətlərdir. Eynilə qrammatika oyunları, qrammatika qaydalarını öyrətmək və gücləndirmək məqsədi ilə oynanan oyunlardır.

Proqramlaşdırılmış Təlimat Texnikası:

Proqramlaşdırılmış tədris texnikasında tələbə öz qavrayış sürəti ilə fərdi bir iş nəticəsində müəyyən olunmuş hədəflərə və davranışlara çatır. Proqramlaşdırılmış tədris vasitələri və metodlarına proqramlaşdırılmış tədrisə uyğun hazırlanmış kitablar, proqramlaşdırılmış tədris maşınları və kompüter dəstəkli təhsil vasitələri və metodları daxildir.

Simulyasiya texnikası:

Simulyasiya şagirdlərin sinifdəki bir hadisəsidir. Onları həqiqi kimi qəbul etmələrinə və bunun üzərində dilin öyrənilməsinə imkan verən bir tədris texnikasıdır. Bu sinifdə öyrənməyə dəstək olmaq üçün reallığa uyğun olaraq hazırlanmış bir modelə əsaslanır. Xarici dildə bir tamaşanın və ya qısa bir teatr əsərinin tələbələrin səviyyəsinə uyğun olaraq aralarında paylaşılan müxtəlif rollarla təmsil olunması söz və ifadələrin istifadə mövqelərinin müəyyənləşdirilməsi və qalıcılığını təmin etmək baxımından xüsusi əhəmiyyətə malikdir.

Drama və Rol Oynama Texnikası:

Rol oynamaq, şagirdin hisslərini və düşüncələrini başqa bir şəxsiyyətə girərək ifadə etməyə imkan verən bir öyrənmə texnikasıdır. Sosiodrama olaraq da bilinən rol oyunları, şagirdlərə insan münasibətləri haqqında daha çox bilik, bacarıq və anlayış yaratmağı hədəfləyən və oyun texnikasından istifadəyə əsaslanan eksperimental təlim metodudur. Eyni zamanda xarici dil tədrisində fəaliyyət göstərmək, şagirdlərə dialoq tədrisi yolu ilə danışıq vərdişlərini inkişaf etdirmək üçün dildən istifadə etmək imkanı verən yaxşı bir sinif fəaliyyətidir.

ƏDƏBİYYAT

1. Ali Çağrı Tepiroğlu. NLP Destekli Dil Öğrenme Modeli .İstanbul, 2007
2. Bandler, Richard. Using Your Brain for a Change. Utah, Real People Press,1985

3. Demet Özmat. İngilizce öğrenmeyi zorlaştıran faktörler .Hacettepe Üniversitesi Doktora Tezi, 2017
4. Fəxrəddin Veysəlli. Dil. Bakı, «Təhsil» NPM, 2007
5 Wallace Martine. Training Foreign Language Teachers: A Reflective Approach. Cambridge,Cambridge University Press, 1991

XARİCİ DİLİN ÖYRƏNİLMƏSİNDƏ NLP METODLARININ ROLU

Abdullayeva Sevinc

XÜLASƏ

Neuro Linqvistik Proqramlaşdırmanın əsası 1970ci ildə qoyulmuşdur. Hal-hazırda NLP-dən müxtəlif sahələrdə istifadə edilir. Xarici dil tədrisində dil öyrənənlər NLP ilə öyrənməyi daha əlverişli hesab edirlər. NLP-ə görə öyrənmə prosesi 4 mərhələyə bölünür. Burada müxtəlif texnikalardan istifadə olunur, fərqli texnika, hər bir insanın qarşılaşdığı problemlərin həllində fərqli yollardan istifadə etməyi tələb edir. Xarici dil tədrisində tədris texnikaları addım-addım tətbiq olunmalıdır. Başqa sözlə, tələbələrin fərdi öyrənmə xüsusiyyətlərinə uyğun texnika səmərəli öyrənmək üçün önəmlidir.

РОЛЬ МЕТОДОВ НЛП В ИЗУЧЕНИИ ИНОСТРАННОГО ЯЗЫКА

Абдуллаева Севиндж

АННОТАЦИЯ

Компания Neuro Linguistic Programming была основана в 1970 году. НЛП в настоящее время используется в различных областях. При обучении иностранным языкам изучающим язык удобнее учиться с помощью НЛП. Согласно НЛП, процесс обучения делится на 4 этапа. Здесь используются разные техники, разные техники требуют разных способов решения проблем, с которыми сталкивается каждый человек. При обучении иностранному языку методы обучения следует применять поэтапно. Другими словами, методы, соответствующие индивидуальным особенностям обучения учащихся, важны для эффективного обучения.

THE ROLE OF NLP METHODS IN LEARNING A FOREIGN LANGUAGE

Abdullayeva Sevinc

SUMMARY

Neuro Linguistic Programming was founded in 1970. NLP is currently used in various fields. In foreign language teaching, language learners find it more convenient to learn with NLP. According to NLP, the learning process is divided into 4 stages. Different techniques are used here, different techniques require different ways to solve the problems that each person faces. Teaching techniques should be applied step by step in foreign language teaching. In other words, techniques appropriate to students' individual learning characteristics are important for effective learning.

YENİYETMƏLƏRİN İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

Məmmədzadə Sevinc Burzu qızı
BDU-nun II kurs magistrantı
sevinc.mammadzada95@gmail.com

Açar sözlər: yeniyetməlik dövrü, inkişaf psixologiyası, şəxsiyyət inkişafı, emosional inkişaf, sosial inkişaf.
Ключевые слова: подростковый возраст, психология развития, развитие личности, эмоциональное развитие, социальное развитие.
Keywords: adolescence, developmental psychology, personality development, emotional development, social development.

Giriş. İnsan uşaqlıqdan qocalığa qədər inkişaf edən həyat xəttində fərqli inkişaf dövrlərini keçir. Bu dövrlərin hər biri özünəməxsus fizioloji və psixoloji xüsusiyyətlərə malikdir. Bu baxımdan insanın inkişafı yaş dövrlərinə ayrıldı. Hal-hazırda pedaqoji, psixoloji aspektdən insanın aşağıdakı yaş dövrləri müəyyən edilmişdir: çağalıq (0-1 yaş); körpəlik dövrü (1 -3 yaş); məktəbəqədər dövr (3-6 yaş); kiçik məktəbli dövrü (6-10 yaş); yeniyetməlik dövrü (10-15 yaş); gənclik dövrü (15-30 yaş); yetkinlik dövrü (30-60 yaş); ahıllıq dövrü (60-75 yaş); qocalıq dövrü (75-90 yaş); uzunömürlülük dövrü (90-150 yaş). [

Yeniyetməlik müxtəlif tərəflərdən təhlil edilə bilər. Yeniyetməlik dövrü nədir, hansı yaşları əhatə edir? Yeniyetməlik dövrü 11-12 yaşdan 14-15 yaşadək müddəti, orta məktəbin 5-8-ci sinif şagirdlərini əhatə edir. Lakin yeniyetməlik dövrünün başlanmasına və qurtarmasına dəqiq sərhəd qoymaq mümkün deyildir. Müxtəlif amillərin təsiri altında həmin yaş dövrü bir il tez və ya gec başlaya, və ya bitə bilər.[6,231]

Yeniyetməlik dövrü mexanizminin açılmasında görkəmli psixoloq A.N.Leontyevin-"uşağın psixi inkişafının hərəkətverici qüvvəsi onun ictimai münasibətlər sistemində tutduğu real yerin dəyişməsidir" müddəası çox böyük əhəmiyyət kəsb edir. A.N.Leontyevin yazdığı kimi, psixi inkişafın müəyyən mərhələsində "onu əhatə edən insani münasibətlər aləmində uşağın əvvəllər tutduğu yer, onun tərəfindən öz imkanlarına müvafiq gəlməyən kimi dərk olunur və uşaq onu dəyişməyə səy göstərir. Uşağın həyat tərzi ilə, artıq onun bu həyat tərzini qabaqlamış imkanları arasında açıq ziddiyyət meydana çıxmağa başlayır. Buna müvafiq olaraq, onun fəaliyyəti də yenidən qurulur. Bununla da onun psixi həyatının inkişafının yeni mərhələsinə keçid başa çatır.

Yeniyetməlik dövründə fizioloji və cinsi inkişaf

Yeniyetməlik dövrü, insanın inkişafında ən tez 2 böyümə mərhələsindən biridir. Bu dövrdəki fiziki inkişaf; emosional, sosial və zehni inkişafın təməlini yaradır. Bioloji dəyişməklə başlayıb bədən, zehni və emosional inkişafla tamamlanan yeniyetməlik dövründə; boy sürətlə uzamaqda, əllər, ayaqlar və burun böyüməkdədir.

Yeniyetməlik dövründə əllər və ayaqlar, qollar və qıçdan əvvəl böyüyür, üz cizgiləri və qulaqlar başdan əvvəl iriləşir.[6,242] Cinsi yetişkənlik də bu dövrə təsadüf edir ki, oğlanlarda testesteron, qızlarda estrogen hormonu ifraz olunur. Bu dəyişiklik 20 yaşa qədər davam edir. Yeniyetməlik dövrü boyunca bədən çəkisi qızlarda 16 kq, oğlanlarda isə 20 kq artır, daxili orqanlar sürətlə böyüyür, əzələ və yağlarda inkişaf və artım görülür. Bu dövrdə qızlar, həm boy həm də çəki baxımdan oğlanlardan daha sürətli inkişaf edirlər. [4]

Yeniyetməlik dövründə, qızlarda və oğlanlarda böyümə sıra ilə gedir. Əllər və ayaqlar ilk böyüyən orqanlardır. Daha sonra qollar və qıç inkişaf edir. Fiziki inkişaf baxımından qızlarda əzələ inkişafı, oğlanlara nisbətən ikinci planda qalır. Bunun nəticəsində tamamilə inkişaf etmiş

qadının bədənində daha çox yağ olur. Oğlanların bədənində isə, daha çox əzələ olur. Yeniyetməlik dövründəki fiziki inkişafın maraqlı tərəflərindən biri də, qızlar və oğlanlar arasındakı ürək və ağciyər inkişafındakı fərqliliklərdir. Oğlanların ağciyər və ürəyi qızlara görə daha böyükdür, ürək ritm sayı bədən sakit haldaykən az və qanın oksigen daşıma qabiliyyəti daha yüksəkdir. Bu səbəblə yeniyetməlik çağındakı oğlanlar, sürət və fiziki dayanıqlılıq baxımdan daha yüksək bir fəaliyyət göstərirlər.

Yeniyetməlik dövründə idraki inkişaf

Yeniyetməlik dövrü idraki inkişaf baxımdan vaciblik daşıyır, çünki bu dövr yeniyetmənin yetişkin düşüncəsinə xas idraki qabiliyyətlər qazandığı dövrdür. İdraki inkişaf anlayışı; yeniyetmənin təkcə özünü, ailəsini, yaşıdlarını, dostlarını və müəllimlərini deyil, dünyasını görmə baxımdan uzun müddətli təsirlər yaradır.

Yeniyetməlik dövrünün ən mühüm idrak xüsusiyyəti mücərrəd düşüncənin inkişafıdır. Bu dövrdə şəxsin ümumiləşdirmə, mücərrəd anlayışlarla başa çıxma, zaman anlayışını qavrama, öz anlıq tələbləri ilə əlaqəsi olmayan fikirlərlə maraqlanma, məntiqi düşünəbilmə və başqalarıyla əlaqə qurma qabiliyyətləri sürətlə artır. Yeniyetmə problemlərin həllində çevik davranır və sistemli bir plan daxilində, bir çox nəticəni gözündə canlandırır.

İdrakı inkişafı 4 dövrə ayıran Piajeyə görə şəxs, 11-12 yaşından etibarən abstrakt əməliyyat dövrünə girir. Bu nəzəriyyəyə görə şəxs, duyğu-hərəkət, əməliyyat əvvəli və abstrakt əməliyat mərhələlərini tamamladıqdan sonra bu dövrə keçə bilir.

Yeniyetməlik dövründə emosional inkişaf

Emosional inkişaf: Yeniyetməlik dövründəki emosional reaksiyaların ümumi ortaq xüsusiyyətləri vardır. Yeniyetmə, hər insan kimi müxtəlif yaşlarda və fərqli vəziyyətlərdə dəyişkən hisslər keçirə bilər, dəyişən yaşla, ətraf mühit şərtlərinin və stimulların dəyişməsi ilə xoşa gəlmək və əksi hisslər ilə hisslərini ifadə etmək bacarıqları dəyişir.[5]

Yeniyetməliyin başındakı böyümənin sürətli olması, cinsi inkişaf nəticəsində hormonların inkişafı yeniyetmənin həm hisslərində, həm də davranışlarında nəzərə çarpacaq fərqliliklər yaradır. Bunlar belə sıralanır: Hisslərin intensivliyində artım, hisslərdə qeyri-sabitlik, aşiq olmaq, xəcalət və çəkingənlik, hədsiz xəyal qurmaq, əsəbi və narahat olmaq, tək qalmaq istəyi, işləməyə qarşı həvəssizlik, tez həyacanlanma kimi.

Yeniyetməlik dövründə sosial inkişaf

şagirdlərin iştirakı ilə bullinq əleyhinə, onun müəyyən edilməsi və qarşısının alınması haqqında izah verəcək və ya bullinq qayda-qanunlarını əks etdirəcək kiçik hekayələrlə video çarxlar hazırlayıb daima təkrarlanan ekran lövhələrində yerləşdirə bilər. Məktəb rəhbərliyi nəzarət kameralarının məktəbdə müvafiq yerlərdə və müvafiq sayda yerləşdirməsinə diqqət yetirməlidir. Eləcə də onlar nəzarət kameralarının digərlərinin çox vaxt görünmədiyi, şagirdlərin əsas fəaliyyət sahələrindən uzaq guşələrdə də yerləşdirilməsindən əmin olmalıdırlar.

Bullinqin baş verdiyi an şagirdlər bunun məhz bullinq olduğunu və onun baş verdiyi vaxt nə edəcəklərindən məlumatları olmaya bilər. Buna görə də hər bir məktəb öz kurikulumunda hər rüb bullinq haqqında və bullinq probleminin həllində şagirdlərin nə kimi rolu ola biləcəyi haqqında məlumat verməli, icbari sinif müzakirələrini təşkil etməlidirlər. Bundan əlavə, şagirdlərə aktiv olaraq bullinq qurbanına necə yardım göstərə biləcəyi haqqında ipucları verilməli və onlarla bullinq qurbanına qarşı empatiya, bullinq törədənə qarşı isə dözümsüzlük yaratmağa kömək edəcək maarifləndirmə xarakterli söhbətlər aparılmalıdır. Məsələn, şagirdlərə məktəbdə hər hansı bir bullinq şahidi olarkən ilk növbədə kimə müraciət edəcəklərini və kimə ən birinci xəbər etməli olduqlarını dəqiq göstərən yol xəritəsi göstərilməlidir. Onlara həmçinin bullinqi dayandırmaq və bullinqə məruz qalan tərəfi xilas etmək üçün ona dəstək olmaqdan çəkinməməyi tərbiyə etmək lazımdır. Məsələn, əgər şagird bullinq törədənə qarşı səsini çıxara bilmədikdə, (öz təhlükəsizliyini qorumaq üçün) onlara bullinqə məruz qalanın dağılmış çantasını yığmaq, tullanmış əşyalarını tapıb gətirmək kimi hərəkətlərlə zərərçəkənə yardım edə biləcəklərini aşılamaq lazımdır. Şagirdlərə heç vaxt bullinqə səbəb olacaq davranışlara yol verməmələrini öyrətmək və bullinq törədənə dəstək olmamağa çağırmaq lazımdır. Onlar bilməlidir ki, açıq və gizli şəkildə onlar həmişə bullinqə məruz qalan tərəfi dəstəkləməlidirlər. Şagirdləri həmçinin bullinq törədən tərəfi sülh yolu ilə bu əməlindən daşındıracaq cəhdlərə səy göstərə biləcəkləri barədə də məlumatlandırmaq lazımdır.

Bullinq haqqında öyrənən sosial psixoloqlar bullinqin qarşısının alınması və bullinqi törətməyə meyilli olan şagirdlərin tərbiyəsində məhz empatiya hissinin yaradılmasını məqsədəuyğun hesab edirlər. Empatiya hissi "prososial və antisosial davranışlara təsir göstərən fundamental insan xarakteristikasıdır" (Noorden və b. 2015, 637). Empatiyanın "koqnitiv komponenti bir insanın başqa birinin duyğularını anlamaq qabiliyyətinə malik olduğunu göstərir" (2015, 638 vurğu orijinaldır). Bu o deməkdir ki, bullinqi törətməzdən əvvəl bir şəxs bullinqin təsirinə məruz qalacaq şəxsin özünü necə hiss edəcəyini və hansı sarsıntı keçirəcəyini anlaya bilir. Empatiyanın təsiredici komponenti isə "bir insanın başqa birinin duyğularını yaşaya bilmək qabiliyyətidir" (2015, 638 vurğu orijinaldır). Empatiya hissi emosional deyil, əqli vəziyyətlə idarə olunur və yaşa dolduqca insanlarda bu hiss daha çox müşahidə edilir. Buna görə də empatiya hissini şagirdlərdə inkişaf etdirmək mümkündür və şagirdlərə digərlərinin bullinq nəticəsində necə hiss etdiklərini və bullinqi törədən şəxsin nə səbəblə bunu etdiyi haqqında təlimlər verilməsi daha məqsədəuyğundur (2015, 653).

Məktəblər həmçinin şagird liderlər yetişdirilməsi işində daha təşəbbüskar olmalı və bullinqlə mübarizədə məhz şagird liderlərin köməyindən istifadə etməlidir. Belə ki, şagird liderlərə kommunikasiya bacarıqları, münaqişənin həlli yolları və şahid strategiyaları haqqında təlimatlar keçirilməlidir. Şahid strategiyaları dedikdə şagirdin şahidi olduğu bullinqin dayandırılması üçün atacağı ardıcıl addımlar strategiyası nəzərdə tutulur. Burada bullinqin baş verdiyi an onun effektiv dayandırılması və ondan sonra atılacaq addımlar haqqında biliklər toplusu izah olunur və şagird liderlər ilk imkanda onlardan istifadə etməli olduqları haqqında təlimatlandırılır.

Məktəb daxili ictimai tədbirlər əsasən məktəb rəhbərliyi tərəfindən irəli sürülən və keçirilməsi vacib hesab edilən tədbirlər siyahısıdır. Valideynlərin də dəvət olunduğu teatr tamaşaları və şer müsabiqələri, şagirdlərlə birgə "Bullinq əleyhinə qaç!" kimi marafon qaçışları,

antibullinq həftəsi və ya ayının keçirilməsi bullinq haqqında məlumatlılığın yaradılmasında böyük effektə malikdir. Bullinq əleyhinə yaradıcı tədbirlərdən isə bullinq əleyhinə rəsm sərgilərinin təşkili, "Bir-birimizə dəstəyik" başlığı altında şagirdlərin boyaya batırılmış və divara həkk edilmiş əl izləri olan məktəb divarı illustrasiyalarının yaradılması, məktəbin yerləşdiyi rayonlarda sosial ədaləti bərpa etmək mövzusunda olan tədbirlər üçün şagirdlərə pulsuz və ya endirimli girişlərin təmin edilməsi misal ola bilər.

Məktəbdən sonra şagirdlərin ən çox ünsiyyətdə olduğu ailə üzvləri və valideynləridir, buna görə də valideynlərin də bullinqin müəyyən edilməsində və dayandırılmasında birbaşa rolları vardır [3]. Valideynlər uşaqlarına düzgün nəzarət edə bilməyi öyrənməli və məktəblə, müəllimlərlə sıx əlaqədə olmağa çalışmalıdır. Valideyn ilk növbədə uşağın davranışlarına fikir verməyi bacarmalıdır, belə ki onun uşağı həm bullinqi törədən, həm də bullinqə məruz qalan tərəf ola bilər. Əgər uşaqda depressiv hallar müşahidə edilirsə, məktəbə getmək istəmirsə, dərslərində geriləmə müşahidə olunursa, evə müəyyən yaralar, cızıqlar ilə gəlirsə, əşyalarını tez-tez itirirsə və ya kitab-dəftərlərində cırılmış vərəqlər görmək olarsa və tez-tez ruh halında dəyişikliklər müşahidə olunursa, ümidsiz, intihara meyilli kəlimələr işlədirsə, o zaman valideyn ona qarşı məktəbdə və ya məktəbdən kənarda bullinqin baş verdiyindən şübhələnə bilər.

Əgər uşaq valideyninə hər hansı bir hadisə haqqında danışırsa, ona hadisəni ətraflı danışması üçün imkan verməli və lazım gələrsə suallarla ona kömək etməlidir. Əgər belə insidentlər təkrarlanırsa mütləq şəkildə vəziyyəti düzəltmək üçün valideyn hərəkətə keçməli və bullinq haqqında ölçü götürülməsi üçün məktəblə əlaqə saxlamalıdır. Bullinqin baş verdiyi məlum olarsa, insidentlər haqqında mütləq bir vərəqdə yazıb nüsxələri saxlamaq lazımdır, çünki yazıda olmayan şikayət çox zaman ciddi hesab edilmir. Eləcə də, məktəbə göndərilən şikayətlər nəticəsində məktəbin nə kimi ölçü götürdüyü haqqında da mütləq tarixçə qeyd edilməlidir. Ola bilsin ki, müəllim və sinif rəhbərləri, hətta şagirdin sinif yoldaşları da ona qarşı törədilən bullinqdən xəbər tutmasınlar. Buna görə də valideyn və ya valideyn rolunu daşıyan hər hansı bir şəxs sinif rəhbəri, məktəbin sosial işçisi və ya psixoloqu, eləcə də administrativ işçiləri ilə görüşüb məsələ haqqında onları məlumatlandırmalıdır. Valideynlər onlar üçün təşkil olunan sinif iclasında və məktəblə əlaqəli toplantılarda mütləq bullinq haqqında danışmağa səy göstərməlidir. BMT-nin uşaq hüquqları konvensiyasında deyildiyi kimi, hər bir uşağın evdə, məktəbdə və yaşadığı icmada təhlükəsiz hiss etmək haqqı var [2]. Buna görə də valideynlər uşaqlarının bullinq probleminə yetəri qədər ciddi yanaşmalı və onları bullinqin qurbanı olmaqdan maksimum dərəcədə qorumalıdırlar.

Bullinqin məktəblərdə hansı dərəcədə yayılmasının, kimlərin bullinq riski altında olmasının və hansı təxirəsalınmaz addımların atılmasının öyrənilməsi üçün məktəbdaxili bullinq sorğularının keçirilməsi çox vacibdir [4]. Belə ki, məxfi şəkildə keçirilən və şagirdlər tərəfindən doldurulan sorğu vərəqləri məktəbin daxili mühiti haqqında geniş məlumat verir. Məktəb rəhbərliyi, eləcə də bu iş üzrə peşəkar şəxs və qurumlar məktəbdaxili sorğu nəticələrini nəzərdən keçirməklə bullinqə səbəb olan müxtəlif faktorları müəyyən edə bilərlər. Sorğuların hazırlanmasını məktəb sosial işçisinə və ya bu işdə səriştəli peşəkarlara tapşırmaq olar və sorğuları elə tərtib etmək olar ki, burada ailədaxili vəziyyət, bullinqlə bağlı ailə tarixçəsi, şagird və valideynlərin məktəbdən razılıq dərəcəsi kimi detalları müəyyən etmək mümkün olsun. Belə sorğular həmçinin bullinqin baş verdiyi tezliyi və bullinqin baş verdiyi yer haqqında da məktəb heyətini xəbərdar etməyə müvəffəq olur. Bullinq insidentlərinin şagirdlər tərəfindən gizli saxlanmasını və çox zaman məktəb rəhbərliyinə və müəllimlərə xəbər vermədiklərini nəzərə alsaq, o zaman məktəbdaxili sorğuların keçirilməsinin nə dərəcədə əhəmiyyətli olduğu məlum olur.

Bullinqə dair məktəbdəki daxili mühiti öyrənmək üçün sorğu vərəqlərinə, əsasən, aşağıdakı detalları əhatə edəcək suallar daxil edilir: bullinqin baş verdiyi insidentlərin sayı, bullinq haqqında xəbər verildiyinin öyrənilməsi, bullinqin baş verdiyi qaynar nöqtələr, şagirdin özünü məktəbdə təhlükəsiz hiss etməsi üçün nələrin vacib olduğu haqqında fikirləri, məktəb heyətinin təhlükəsizlik haqqındakı fikirləri, bullinqin qarşısının alınması üçün məktəbin nə edəcəyi barədə fikirləri. Bu kimi sorğuları adətən dərs ilinin əvvəlində və ya həm əvvəlində, həm də axırında aparmaq olar. Yaxşı olardı ki, bu tip sorğular hər sinif üçün eyni anda aparılsın (və ya xüsusi siniflər üzrə eyni anda da aparıla bilər). Bu zaman şagirdlərin sualları və cavabları bir-biri ilə müzakirə etməyə imkanı olmayacaq və sorğular daha şəffaf (yalansız) cavablandırılacaq [6].

Sorğuların təşkil edilməsi məktəb üçün daxili mühiti qiymətləndirməyə imkan verən bir alətdir. Sorğuların nəticələrini və bu nəticələrə uyğun hansı addımların atılacağını məktəb bu zaman asanlıqla müəyyən edə və buna uyğun da müəyyən proqramları yerinə yetirə bilər. Məktəb keçirdiyi bullinq sorğularının nəticələri barədə müəllim, şagird və valideynləri xəbərdar etməlidir. Yazılanları ümumiləşdirsək, bullinq hadisəsinin profilaktikası üçün aşağıdakı üsullardan istifadə olunursa, əhəmiyyətli dərəcədə göstəricilərdə azalma müşahidə oluna bilər. Həmin preventiv üsullar bunlardır:

- Məktəblərdə sosial işçi ştatının açılması
- Bullinq mövzusunda məktəb rəhbərliyi tərəfindən maarifləndirici tədbir və ya teatrın təşkil olunması
- Məktəb psixoloqunun yeniyetmə və lazım gələrsə, valideynlərlə psixoloji konsultasiya aparması
- Azərbaycan Respublikası Qanunverciliyində bullinq əleyhinə qanun layihəsinin işlənib hazırlanması. Çünki bu mövzuda xüsusi bir qanun hələ də yoxdur.
- Məktəbdaxili bullinq sorğularının keçirilməsi

Nəticə. Azərbaycan məktəblərində bullinq, onun təzahür formaları və onunla mübarizə haqqında məlumat çatışmazlığı vardır. Bunun qarşısının alınması və şagirdlərin bullinqdən azad bir məktəbdə təlim-tərbiyə alması üçün təxirəsalınmaz şəkildə antibullinq proqramları yaradılmalıdır. Belə ki, hər bir məktəb öz daxili mühitində antibullinq qayda-qanunları yarada və onların tətbiqinə nəzarət edə bilər. Məktəb öz resursları hesabına bullinqin qarşısını alacaq sinif müzakirələri, ictimai tədbirlər, valideynlərlə görüşlər kimi fəaliyyət növlərini yaratmaqda maraqlı olmalıdır. Bunun üçün məktəb heyəti bullinq və digər sosial ədalət prinsiplərinə zidd olan davranışlar və onların qarşısının alınması haqqında təlimatlandırılmalıdır ki, onlar bu haqda düzgün bilik bazasına və qabiliyyətlərə malik olsunlar. Burada məktəbin işinə yardım edəcək dövlət strukturları olmalı, tapşırıq və göstərişlər məktəb və təhsil şöbələrinin iştirakı ilə birgə hazırlanmalıdır. Təlimatlandırma işləri yüksək instansiyalar, təhsil şöbələri, eləcə də sosial iş sahəsi üzrə çalışan mərkəzlər tərəfindən aparıla bilər. Ümumiyyətlə, təhsil nazirliyi və digər əlaqədar nazirliklər, eləcə də səlahiyyətli qurumlar ölkədə sosial işin təşkilinə dair müsbət dəyişikliklərə səbəb olacaq proqramlar yaratmaq işinə başlamalıdırlar.

ƏDƏBİYYAT

1. Polanin, Megan & Elizabeth Vera (2013) Bullying Prevention and Social Justice, Theory into Practice, 52:4, 303-310.Rivers, Ian, V. Paul Poteat, Nathalie Noret, and Nigel Ashurst. 2009. “Observing Bullying at School: The Mental Health Implications of Witness Status.” School Psychology Quarterly 24 (4): 211-22

2. United Nations (1998). UN convention on the rights of the child. 22 noyabr, 2008, http://www.unicef.org/crc

3. Zorakılığa məruz qalmış uşaqlara yardım göstərən əməkdaşlar üçün rəhbər (bələdçi) qaydalar. Bakı - 2012.
4. Cornell, Dewey, and Susan P. Limber. 2015. "Law and Policy On the Concept of Bullying at School." American Psychologist 70 (4): 333-343.
5. Barhight Lydia R., Julie A. Hubbard, and Christopher T. Hyde. "Children's Physiological and Emotional Reactions to Witnessing Bullying Predict Bystander Intervention." Child Development 84, no. 1 (2013): 375-90
6. Assess Bullying. 2019. Stopbullying.Gov.
https://www.stopbullying.gov/prevention/at-school/assess-bullying/

BULLİNQİN PREVENTİV ÜSULLARI

Hüseynova Lalə

XÜLASƏ

Bu məqalədə zorakılıq və onun qarşısının alınması üçün tətbiq oluna biləcək üsullar müəyyənləşdirilmişdir. Sosial iş üzrə təhsil alan tələbələrin çox olmasına baxmayaraq, hələ də məktəblərdə bu iş üzrə ştat yeri açılmayıb. Sosial iş üzrə başladılan proqramlar hələ də başlanğıc mərhələsindədir. Onun davam etməsi, sistemləşdirilməsi və məktəblərdə mühiti yaxşılaşdıracaq sosial işçi kimi kadrların fəaliyyət göstərməsinə göstəriş verilməlidir. Sorğuların keçirilməsi məktəbdaxili mühiti öyrənməyə imkan verdiyi kimi, sorğuların analizi zamanı bullinq hallarının xarakteri müəyyən edilir və buna uyğun olaraq preventiv proqramların hazırlanmasına imkan yaranır.

Bullinq hallarının qarşısının alınması üçün bullinqə geniş izah verə biləcək və profilaktika məqsədilə müəyyən proqramların yaradılmasını tələb edəcək qanun layihəsinin hazırlanması və tətbiq edilməsi məktəblərdə bullinqin qarşısının alınmasına ən böyük yardım göstərmiş olardı. Bullinq şagirdlərin böyümə prosesində ən ciddi problem olub, dərin travma izləri buraxacaq davranışlardan biridir və onun qarşısının alınması məktəblərin və təhsil sisteminin qarşısında duran ən vacib məsələdir.

ПРОФИЛАКТИЧЕСКИЕ МЕТОДЫ ЗАКРЫТИЯ

Гусейнова Лала

АННОТАЦИЯ

В этой статье описаны методы, которые можно использовать для предотвращения и предотвращения насилия. Несмотря на большое количество студентов, изучающих социальную работу, в школах по-прежнему нет вакансий. Программы социальной работы все еще находятся в зачаточном состоянии. Его следует продолжать, систематизировать и укомплектовать в качестве социальных работников, которые улучшат окружающую среду в школах. Подобно тому, как опросы позволяют изучать школьную среду, характер издевательств определяется в ходе анализа опросов, и есть возможность разработать соответствующие профилактические программы.

Самым большим подспорьем в предотвращении издевательств в школах станет разработка и реализация законопроекта, который бы подробно объяснял издевательства и требовал разработки конкретных профилактических программ. Издевательства - одна из

самых серьезных проблем роста учащихся, одно из самых травмирующих форм поведения, а его предотвращение - самая важная проблема, с которой сталкиваются школы и система образования.

PREVENTIVE METHODS OF BULLING

Huseynova Lala

SUMMARY

This article identifies methods that can be used to prevent and prevent violence. Despite the large number of students studying social work, there are still no vacancies in schools. Social work programs are still in their infancy. It should be continued, systematized and staffed as social workers who will improve the environment in schools.

Just as surveys allow the study of the school environment, the nature of bullying is determined during the analysis of surveys, and there is an opportunity to develop preventive programs accordingly. The development and implementation of a bill that would explain bullying in detail and require the development of specific prevention programs would be the biggest help in preventing bullying in schools. Bullying is one of the most serious problems in the growth of students, one of the most traumatic behaviors, and its prevention is the most important issue facing schools and the education system.

GƏNCLƏRİN PEŞƏ SEÇİMİ ZAMANI QARŞILAŞDIĞI ÇƏTİNLİKLƏR

Kuxareva Tamara Azadovna
BDU-nun II kurs magistrantı
tamara.kuxareva97@gmail.com

Açar sözlər: gənclər, peşə seçimi, çətinliklər.
Ключевые слова: молодежь, выбор карьеры, сложности.
Keywords: youth, career choice, difficulties.

Giriş. Gənclər zamanın tələblərinə uyğun həyata hazırlanır və gələcək həyat tərzlərini düzgün müəyyənləşdirməyə çalışırlar. Bu birbaşa bir peşə seçimi ilə əlaqəlidir və bu mərhələdə gənclər bir çox çətinliklərlə qarşılaşırlar. Ona görə də bu dönəmdə onlar tövsiyə və məsləhətlərə daha artıq ehtiyac duyurlar.

Peşə seçimi ilə əlaqədar bir çox məsələlər var. Bunlardan biri, peşənin onu seçən şəxsin imkanlarına və ya şəxsin özünün aldığı ixtisasın tələblərinə uyğun olub-olmamasıdır. Bunu bir şəxsin peşə hazırlığı da adlandırmaq olar. Peşə uyğunluğu bir insanın seçdiyi peşədə müvəffəqiyyət əldə etməsi üçün lazım olan əqli və psixofizioloji xüsusiyyətlərlə əlaqələndirilir. Başqa sözlə, peşə hazırlığı insanın sağlamlığı və bacarıqlarına verilən bir tələbdir. Onun sağlamlığı, bacarığı və başqa keyfiyyətləri seçdiyi peşənin təbiətinə uyğun olmalıdır.

Peşə, ixtisas seçimi insanın həyata vəsiqəsinin bir başlanğıcıdır. İnsanın gələcək həyatı, karyerası bu seçimdən asılıdır. Buna görə də bu seçimdə nələrin əsas olduğunu, səhv etməmək hansı məsələlərə daha çox diqqət yetirmək lazım olduğunu bilmək vacibdir.

Məzmunu. Hər bir gənc əmin olmalıdır ki, seçdiyi peşə məhz onun arzuladığı bir peşədir. Hər kəs peşə və ixtisas baxımından nə istədiyini əvvəlcədən aydın şəkildə təsəvvür etməlidir. Əlbəttə, seçilən ixtisas və peşə hər bir insanın istəyinə, cəmiyyətin sosial – iqtisadi tələbinə uyğun olmaqla yanaşı, seçim edənin də gələcək həyatını təmin edəcək səviyyədə olmalıdır.

Təcrübə göstərir ki, müasir dövrdə peşələrin sayının çox olması yeniyetmələrin və gənclərin düzgün seçimlə bağlı bir sıra çətinliklərlə üzləşmələrinə səbəb olur.

Hər şeyi zaman həll etdiyinə görə gənclik vaxtında, əllərində olan zamandan səmərəli və doğru istifadə etməyə çalışmalı, vaxtı boş yerə xərcləməli deyillər. Bu cür olsa, onlar çox şeyə nail olarlar.

Əbdürrəhman Dönər yazır ki: "Gənclik əbədi deyil, həyat yolunda bizə verilən roldur. Zaman ötdükcə insan dəyişir, rollar başqalaşır. Gənclik insana verilən ən böyük bir sərvətdir. Bu, doğru şəkildə xərclənməlidir. Gənclik... inanmaqdır, yaşamağa dəyən bir fürsətdir" [1, s.22].

Əsas odur ki, bu fürsəti əldən verilməsin, onun qaynarlığından isinilsin, gələcək üçün mühüm olacaq bir çox məsələlər yerinə yetirilsin. Bəli, həqiqətən də zaman heç bir şeyi gözləmir. Bir də unutmamaq gərəkdir ki, bu gün əldə olunan bir şey bəlkə də sabah əldə oluna bilməyəcək. Faydalı, yaxşı işlər sonraya saxlanılmamalıdır. Bu gün edilməsi mümkün olan işlər elə bu gün də edilməlidir. Çünki sabah özü ilə daha fərqli, daha yeni çətinliklər gətirəcəkdir. O zaman işlərin çoxluğu və zamanın azlığı insanda gərginlik yaradacaqdır. Bu halın baş verməməsi üçün hər günün, hər zamanın qədrini bilmək lazımdır.

İnsanı böyük həyat gözləyir. Bu həyatda çoxlu problemlər vardır. Bu problemlərin öhdəsindən gəlmək, dözümlü və dəyanətli olmaq məhz insanın özündən asılıdır. Yaxşı bilik, bacarıq və vərdişlər əldə olunmalı, hədəfi düzgün müəyyənləşdirmək və bu istiqamətdə inamla irəliləmək gərəkdir.

Gənc seçəcəyi peşə və ixtisas üçün fayda verə biləcək biliklərə üstünlük verməlidir. Bununla bərabər, o, başqa biliklərə də yiyələnməlidir.

Görkəmli rus pedaqoqu K.D.Uşinski yazırdı: "Hər hans biliyin əldə edilməsi üçün sərf edilən əmək onun verəcəyi fayda ilə ölçülüb biçilməlidir" [4, s. 10].

Ötən əsrin yetmişinci illərində görkəmli psixoloq alim E.A.Klimov əməyin dörd ünsürünü əsas götürmüşdür. Həmin 4 ünsür bunlardır:

1. əmək predmeti;
2. əmək məqsədi;
3. əmək vasitələri;
4. əmək şəraiti" [5, s.46].

Alim bu ünsürlərin hər birinin təsnifatını da vermişdir.

Peşə seçimində gənclərin önəm verdiyi məsələlərdən biri də az əmək sərf etməklə çoxlu gəlir etmələridir. Ancaq bu mənfi haldır. Həminin bu fikir seçimin düzgünlüyünə səbəb olmur. Seçiləcək peşə yaxşı öyrənilməli, onun barəsində müfəssəl informasiyalar toplandıqdan sonra qəti qərar verilməlidir.

Bunlarla yanaşı, düzgün peşə seçimi etmək üçün peşəyə maraq və həvəsin olması vacibdir.

Mütəxəssislər gənclərin peşə-ixtisas seçiminə təsir edən amilləri, yol verilən səhvləri, seçim zamanı olan çətinlikləri aşağıdakı kimi ümumiləşdirirlər.

1. Yaşlı ailə üzvlərinin mövqeyi.

Bu mövqe Azərbaycanda çox vacibdir. Əksər hallarda, problem böyüklər tərəfindən, xüsusilə də atalar və analar tərəfindən həll olunur, buna görə bu həmişə uğurlu nəticələr əldə etmək mümkün deyil. Ancaq ailənin böyük üzvləri məsələyə övladlarının istək və qabiliyyəti prizmasından yanaşdıqda uşaqların öz gələcəkləri barəsində fikirləri, atdıqları addım daha inamlı olur. Ailənin yaşlı üzvləri ilə uşaqların fikirləri üst-üstə düşdükdə məsələnin həlli daha yaxşı olur.

2. Dostların, rəfiqələrin mövqeyi.

Bəzən peşə seçiminə edən bu təsir digər təsirlərdən daha güclü olur. Bu, xüsusən də peşə seçimində dərin və davamlı marağı olmayan, "təki ali təhsil olsun"- fikri ilə seçim edənlərdə özünü daha çox biruzə verir. Gənclər başqalarının təsiri və təkidi ilə peşə seçmək məcburiyyətində qalırlar və nəticə həmişə uğurlu olmur.

3. Müəllimlərin, sinif rəhbərlərinin mövqeyi.

Müəllim təkcə dərs deyən, bilik öyrədən deyildir. O, həm psixoloq, həm də müşahidəçidir. Müəllim bəzən nə uşaqların, nə də valideynlərinin görüb duya bilmədikləri müəyyən bacarıqları daha yaxşı görür. Bu səbəbdən də peşə seçimindən müəllimlərinin mövqeyini bilmək, və onların tövsiyələrini dinləmək çox faydalıdır.

4. Şəxsi peşə planı (özünün planı).

Peşə seçiminin, ən uğurlu ən zəruri meyarlarından olan şəxsi peşə planının olması peşə seçimində mühüm mövqe tutur. Bu mövqe istək və marağı reallaşdıra bilmə nöqteyi nəzərindən şəxsi peşə planı hədəfi və ona çatmağın real mənzərəsini göstərən kompas rolunu oynayır.

5. Qabiliyyətlər.

Hər bir sahə özünün tələblərinə uyğun olan müəyyən qabiliyyətlər tələb edir. Qabiliyyətin uyğun gəldiyi peşə və iştisası seçmək əsl xoşbətlikdir. Çünki o sahədə uğur qazanmaq üçün imkanlar daha çoxdur" [3, s. 19 - 20].

Professor Ə. Əlizadə yazır: "Qabiliyyət və istedad şəxsi məsələ deyil, milli sərvətdir. Onu göz bəbəyi kimi qorumaq, xalqa qaytarmaq valideynin də, tərbiyəçinin də, müəllimin də ən şərəfli missiyasıdır" [2, s. 22].

Müasir dövrdə peşə və ixtisaslar fasiləsiz olaraq dəyişilir və yenilənir. Dünya tərəqqiyə doğru sürətlə inkişaf edir, cəmiyyətin yeni tələbatları meydana çıxır, demək olar ki, hər gün yeni texnologiyalar yaranır, kəşf edilir. Texnologiyaların biri digərini əvəz edir.

Yeni texnologiyaların kəşfi və inkişafı da yeni peşə və ixtisasların yaranmasına səbəb olur. Bunun üçün də xüsusi bilik, spesifik bacarıq və vərdişlər lazım olur. Zamanın tələbləri ilə ayaqlaşmaq məcburiyyət halına çevrilir.

Beləliklə, gənclər dürüst peşə-ixtisas seçimi etməklə öz gələcək həyat yollarını doğru müəyyənləşdirmiş olarlar və nəticədə də rahat peşə fəaliyyəti göstərərlər, maddi vəziyyətləri yaxşılaşar, rifahı artar, cəmiyyətdə özünə layiqli yer tutar, nüfuz və hörmət qazanmış olar və ümumilikdə istəklərinə nail ola bilərlər. Bundan gənclərlə bərabər, cəmiyyət də faydalanar.

Nəticə. Həyatda səhv etməyən insan yoxdur. Amma çox acı nəticələrə və insanı bütün ömrü boyu narahat edən problemə çevrilən məsələlər vardır. Bu, ən çox seçim olan məsələlərlə əlaqəlidir. Buna görə də seçimlə əlaqəli olan məsələlərdə, xüsusilə də gənclər çox diqqətli olmalıdırlar. Müəyyən seçimlər qarşısında qaldıqda doğru qərar qəbul edə bilmək insanın ən üstün keyfiyyətlərindən biridir.

Gənclərin əksəriyyəti yanlış peşə seçdikləri üçün işsiz qalırlar. Hər kəsin potensialı olan, və sevdiyi işində çalışması daha uğurludur. Əks təqdirdə məqsədsiz və ruhsuz bir gənc formalaşır. Nəticə olaraq da gəncin beynində xaos yaranır və bu xaosun yaratdığı çətinlikləri öhdəsindən gəlmək çox çətin olur.

Bu gün gənclər peşə seçərkən bir çox çətinliklərlə qarşılaşırlar. Valideynlərin, müəllimlərin gəncin seçiminə müdaxilə etməsi onun sərbəst seçim etməsinə mane ola bilər. Bəzən isə gənc arzuladığı peşəyə yiyələnmək imkanı olmur. Buna görə də o, daha uyğun olan bir peşə seçmək məcburiyyətində qalır. Hər bir halda həyatda daima mübariz olmalı, öz istəyinə çatmaq üçün dayanmadan çalışmalı, çətinliklərin öhdəsindən gəlməlidir.

ƏDƏBİYYAT

1. Əbdürrəhman Dönər. Yeniyetməlik dövrünün yol xəritəsi. Bakı: Xəzər nəşriyyatı, 2009, 143 s;
2. Əlizadə Ə.Ə. İstedadlı uzaqlar. Psixopedaqoji məsələlər: esselər və etüdlər. Bakı: Ozan, 1998, 237s;
3. İlyasov M.İ.. Peşə, ixtisas seçimi. Bakı: ADPU, 2015, 100 s.;
4. Uşinski K.D. Seçilmiş pedaqoji əsərləri . Bakı: 1953, 296 s;
5. Климов Е.А. Путь в профессию. Л.: Лениздат, 1974, 109 s.

GƏNCLƏRİN PEŞƏ SEÇİMİ ZAMANI QARŞILAŞDIĞI ÇƏTİNLİKLƏR

Kuxareva Tamara

XÜLASƏ

Bu məqalədə gənclərin peşə seçimindən və bu seçim zamanı qarşılaşdığı çətinliklərdən bəhs edilmişdir.

Müasir dövrdə ölkəmizin sosial – iqtisadi, siyasi və təhsil həyatında baş verən intensiv tərəqqinin tələblərinə uyğun olaraq kompleks islahatlar proqramı həyata keçirilir. Təxirəsalınmaz islahatların keçirilməsində əsas məqsəd formalaşmaqda olan gənc nəsli kiçik yaşlardan həyata uğurlu hazırlamaqdan ibarətdir. Həyata, hazırlıq isə ölkədə gedən yeni iqtisadi inkişaf tempinin

tələbinə uyğun ixtisaslı peşə sahiblərinin yetişdirilməsidir. Gənclər peşə seçimində diqqətli və məsuliyyətli olmalı, böyüklərin tövsiyələrini dinləməlidirlər. Eyni zamanda da hər deyiləni etmək məcburiyyətində deyillər, öz istəklərini də nəzərə almalı, gələcəkdə uğurlu ola biləcəyi, daha da inkişaf etdirə biləcəyi bir peşəni seçməlidir.

ТРУДНОСТИ МОЛОДЕЖИ ПРИ ВЫБОРЕ ПРОФЕССИИ

Кухарева Тамара

АННОТАЦИЯ

В этой статье обсуждается выбор карьеры молодыми людьми и проблемы, с которыми они сталкиваются при этом.

В наше время реализуется комплексная программа реформ в соответствии с требованиями интенсивного прогресса социально-экономической, политической и образовательной жизни нашей страны. Основная цель неотложных реформ - успешно подготовить молодое поколение к жизни с ранних лет. Реализация и подготовка - это подготовка квалифицированных специалистов в соответствии с требованиями новых темпов экономического развития страны. Молодым людям следует внимательно и ответственно подходить к выбору профессии, прислушиваться к советам взрослых. При этом не обязательно делать все, они должны учитывать свои желания, выбирать профессию, в которой они смогут добиться успеха и развиваться дальше.

DIFFICULTIES OF YOUNG PEOPLE WHEN CHOOSING A PROFESSION

Kukhareva Tamara

SUMMARY

This article discusses the career choices of young people and the challenges they face in making them.

In modern times, a comprehensive reform program is being implemented in accordance with the requirements of intensive progress in the socio-economic, political and educational life of our country. The main goal of urgent reforms is to successfully prepare the younger generation for life from an early age. Implementation and preparation is the training of qualified professionals in accordance with the requirements of the new pace of economic development in the country. Young people should be careful and responsible in choosing a profession, listen to the advice of adults. At the same time, they do not have to do everything, they must take into account their desires, choose a profession that they can be successful and further develop in the future.

MÜXTƏLIF YAŞ MƏRHƏLƏLƏRINDƏ PEŞƏ ÖZÜNÜTƏYINETMƏNIN FORMALAŞMASI

Dos. Mirələm Vəliyev
Dos. əvəzi Azər Mustafayev
BDU-nun Psixologiya kafedrası
miralam47@mail.ru

Açar sözlər: yaş mərhələləri, peşə, ixtisas, özünütəyinetmə, şəxsiyyətin peşəkar inkişafı, peşə psixologiyası, konfiliktlər, ziddiyyətlər, peşəkar fəaliyyət.
Ключевые слова: возрастные этапы, профессия, специальность, самоопределение, профессиональное развитие личности, психология профессии, конфликты, противоречия, профессиональная деятельность.
Keywords: age stages, profession, specialty, self-determination, professional development of personality, occupational psychology, conflicts, contradictions, professional activity.

Peşəşünaslığın əsas konseptual anlayışı **peşədir**. Ədəbiyyatlarda peşə anlayışının müxtəlif izahları mövcuddur. Peşə eyni tip fəaliyyəti icra edən insan qruplarını birləşdirir, fəaliyyətin daxilində isə davranışın norma və əlaqələri qurulur. Peşə cəmiyyətdə əmək qabiliyyəti olan insanların xüsusi iş forması kimi çıxış edir. Görkəmli rus psixoloqu E.A.Klimov peşəni şəxsiyyətin ifadəsi, fəaliyyəti, cəmiyyətin tarixi inkişafının məcmusu kimi xarakterizə edir. Cəmiyyətin nöqteyi-nəzərinə görə, peşə - peşəkar vəzifə, forma və növlərin, peşəkar fəaliyyətin, şəxsiyyətin peşəkar xüsusiyyətlərinin, bu və ya digər nəticəyə nail olmaq üçün məmnunluq hissinin təmin olunması sistemidir. E.A.Klimovdan fərqli olaraq V.Q.Maquşin peşəni nisbətən dar mənada xarakterizə edir: peşə - insanın cəmiyyət həyatında iştirakı vasitəsilə fəaliyyətin icra olunmasıdır.

Beləliklə, **peşə (lat. professio)** – xüsusi qabiliyyət və peşəkar əhəmiyyətli keyfiyyətlərin inkişafı, habelə insanın müəyyən olunmuş bilik və bacarıqlarının həyata keçirilməsindən ibarət olan əmək fəaliyyətinin tarixi formasıdır.

İngilis ədəbiyyatlarında "peşə" və "məşğuliyyət" anlayışları bir-birindən fərqləndirilir. Peşə termini fəaliyyətin yüksək statuslu növləri üçün tətbiq olunur. Fəaliyyətin digər növləri işin, məşğuliyyətin əsasını təşkil edir.

Peşəşünaslıqda həmçinin "peşə" və "ixtisas" anlayışları fərqləndirilir. İxtisas anlayışından fərqli olaraq peşə anlayışı daha geniş anlayışdır, onun fərqləndirici əlaməti peşəkar kompetentlik, peşəkar avtonomluq, özünənəzarət, qrup normaları və dəyərlər sistemi anlayışlarıdır. Peşə bir-birinə yaxın ixtisas qruplarını birləşdirir. Məsələn: peşə - həkim, ixtisas – terapevt, pediatr, uroloq və s; peşə - mühəndis, ixtisas – konstruktor, texnoloq və s.

Hər bir insanın həyatında peşə fəaliyyəti mühüm əhəmiyyət kəsb edir. Hələ valideynləri kiçik yaşlardan başlayaraq uşaqların gələcəkdə hansı peşə dalınca getmələri haqda fikirləşir, onların gələcək talelərini düşünürlər. Məktəbdə təhsil və onun səviyyəsi, fənlərə seçici münasibət peşə seçimində zə-ruri faktor kimi inkişaf edir. Uşaqların nəyə maraq göstərməsi, hansı sahədə qabiliyyətlərinin olması da əsas götürülür. Yeniyetməlik dövründə peşə seçimi emosional çalarlarla biruzə verir. "Mən həkim, yaxud müəllim olacağam" fikrini özünə-məxsus halda izah edirlər. IX sinifdən sonra bir qrup mək-təblidə peşə seçimi aktual xarakter kəsb edir.

Orta ümumtəhsil məktəbini bitirənlərdən peşəni təsadüfi seçənlər də olur. Peşəni düzgün seçmək onların gələcək talelə-rini həll edir. "Kim olmalı?" sualı onları hər an düşündürür, narahat edir. Peşə seçimində gənclərin fərdi-psixoloji xüsusiyyətləri nəzərə alınmalıdır. Bizə elə

gəlir ki, böyük məktəblilərin aşağıda göstərilən temperament tiplərinə uyğun peşə seçimi etməsi həyatda, istehsalatda və cəmiyyətdə onların lazımı uğur qazanmasına səbəb ola bilər:

1. Sanqviniklər-menecer, müəllim, həkim, sürücü, dispetçer, pilot, tibb bacısı, psixoloq, tərbiyəçi, təşkilatçı, satıcı, ofsiant və s.;

2. Xoleriklər-kaskadçı (sirkdə atdan hoppanma, atdan düşmə üsul), professional idmançı, televiziya müxbiri, artist, diplomat, jurnalist, djey, sahibkar və s.;

3. Fleqmatiklər-mühasib, iqtisadçı, mexanik, elektirik, mühəndis, aqranom, sürücü, botanik, astronom, fizik, riyaziyyatçı və s.;

4. Melanxoliklər-incəsənət xadimi, rəssam, dərzi-modelyer, rəngsaz, şəkillərin sürətini çıxaran, bəstəkar, yazıçı, baytar həkim, geoloq, aqranom, zootexnik, mühasib, maşın ustası, çilingər, xarrat, radiomexanik və s. peşələrini seçməsi tövsiyə olunur.

Bu keyfiyyətlər nəzərə alınarsa, seçilmiş peşə sahəsində uğur qazanmaq olar. Bu zaman peşənin normativ səviyyəsi, psixoloji keyfiyyətləri və xüsusiyyətləri, fəaliyyət üçün zəruri keyfiyyətləri nəzərə alınmalıdır.

Peşədə insanın sosial rolu (statusu), kollektivə uyğunlaşması (adaptasiyası) vacibdir. Peşə adaptasiyasında şəxsin sosiallaşması və sosial identikliyi prosesi baş verir. Peşə situasiyaları dəyişdikdə yeni psixoloji keyfiyyətlər də formalaşır, şəxsiyyətin strukturunda əsaslı dəyişiklik yaranır.

Yeni tələblər üzə çıxır: " Peşə - ailə - sosial-iqtisadi şərait".

Hər bir insanda yeni normativ yanaşma, hadisə baş verir. Ali məktəbə qəbul, onun rejim qaydalarına, normalarına əməl etmə, müəyyən çətinliklər, yüksəlmə, formalaşmaya xidmət edən normalar və s. buna misaldır. Bəzən əksinə olur. Nor-malara əməl etməyənlər cəzalanır, qovulur və s. İnsanın peşə fəaliyyətində, həyatında kritik məqamlar, böhranlar da yaşanır. Bir neçə il işləməsinə baxmayaraq uyğunlaşa bilmir, peşə ilə xarakteri uzlaşmır. Lakin özü istəyərək peşəni seçibsə, burada uzun müddət işləyirsə, onda peşəkarlıq keyfiyyətləri formalaşır. Bu da məhsuldar fəaliyyətlə nəticələnir. Bizim cəmiy-yətimizdə insanların təqaüdə (pensiyaya) çıxması ilə əlaqədar psixoloji problemlər yaranır. İnsanın sosial-iqtisadi həyatı dəyişir, həyatının, fəaliyyətinin rejim qaydaları dəyişir, sosial münasibətləri dəyişir, bu da təbii olaraq psixoloji çətinliklər yaradır. Bunlara psixoloji kömək və yardım lazımdır.

Peşə seçimi problemini peşə psixologiyası öyrənir. Peşə psixologiyasının predmetini şəxsiyyətin inkişafının peşə mexanizmləri, qanunauyğunluqları və psixoloji xüsusiyyətlərini öyrənmək təşkil edir. Peşə psixologiyası tətbiqi psixologiyanın sahələrindən biri olaraq şəxsiyyətin peşə fəaliyyətini, onun peşə maraqlarını, niyyətlərini, peşə seçməsinin qanunauy-ğunluqlarının formalaşması xüsusiyyətlərini, habelə şəxsiy-yə-tin peşəyə yararsızlığının xüsusiyyətlərini öyrənir. Psixolo-giyanın tətbiqi sahələri olan –mühəndislik psixologiyası, pedo-qoji psixologiya və yaş psixologiyası ilə sıx əlaqədardır.

Peşəseçmə yaradıcı fəaliyyətdir. Məşhur rus psixloqu L.S.Vıqotski deyirdi ki, bu proses uşaqlıq illərindən başlayır, yeni hərəkətlər, yeni obrazlar yara-dır. Peşəni vaxtında düzgün seçmək lazımdır, sonra hər şey gec olur. Peşə seçmədə bir sıra tədbirlər həyata keçirilməlidir:

1. Məktəblilərdə peşə və onun əhəmiyyəti haqqında söhbətlər aparmalıdır.
2. Peşə texniki məktəblərə, iş yerlərinə ekskursiyalar təşkil olunmalıdır.
3. Peşə məktəblərinin həyatından, fəaliyyətindən kinofilmlər göstərilməlidir.
4. Məktəblərdə yüksək peşəkarlıq göstərən işçilərin əmək fəaliyyətini səciyyələndirən sərgi düzəldilməlidir.
5. Görüşlər təşkil olunmalıdır.
6. Peşə məktəb məzunları, qabaqcıl əmək adamları, əmək qəhrəmanları ilə, qabaqcıl müəllim və alimlərlə, sənət adamları ilə görüşlər təşkil olunmalıdır.

7. Peşə komissiyaları təşkil olunmalıdır.

Komissiyanın işində müvafiq mütəxəssislər iştirak etməlidirlər.

Bildiyimiz kimi, peşə-latın sözü olan professio–sözündən götürülərək–ixtisas, peşə deməkdir.

Peşə-əmək fəaliyyəti növü olmaqla insanın bilik, bacarıq və vərdişlərlə müəyyən fəaliyyət sahəsinə hazırlığı prosesidir.

Peşə insan cəmiyyətində yaranmışdır. Texniki tərəqqinin inkişafından asılı olaraq peşələrin xarakteri dəyişmişdir.

Peşə psixologiyasının görkəmli tədqiqatçısı Prof. E.A. Klimov peşələri insan əməyinin predmeti olmaqla 5 tipə bölür:

1) "İnsan – insan " – əmək predmeti insandır.(məs: müəllim, həkim və s.

2) "İnsan - texnika"- əməyin predmeti maşın, dəzgah, apparat, alət və s.(məs: traktorist-mexanizator, elektrovoz maşinisti və s.)

3) "İnsan-təbiət"–Əməyin predmeti torpaq, su, heyvan (geoloq, çöl işçisi, heyvandar, zootexnik və s.)

4) "İnsan–tanış sistem"-predmeti şərti işarələri, formullar, söz (məsələn: mühasib, korrektor, proqramçı, stenoqrafist, makinaçı və s.)

5) "İnsan–bədii obraz". Əməyin predmeti–bədii obraz, obrazın elementləri (məs: zərgər, suvaqçı,aktyor, rəssam)

Göstərilən tiplər də özlüyündə yarım tiplərə bölünür. Psixoloqlar peşə seçmənin bir sıra komponentlərini (ünsürlərini) də müəyyən etmişlər:

1) Peşə maarifləndirmə işi sistemli halda aparılmalıdır. Peşələr haqqında, onun əhəmiyyəti, cəmiyyətdə yeri, xeyri, əraziyə yaxınlığı və s. izah olunmalıdır.

2) Peşə məsləhəti – mühüm komponent kimi diqqəti cəlb edir. Peşə istiqaməti, maraqları formalaşır.

Peşə məsləhəti–məlumatlı, pedoqoji-psixoloji xarakterli olub, şagirdlərin çoxsaylı suallarına cavab vermək iqtidarında olmalıdır.

3) Peşə seçimi – Peşə seçmə motivləri əsasında düzgün seçim edilməlidir.

4) Peşə adaptasiyası (alışma, uyğunlaşma)–Peşə sahəsində şərait yaradılmalıdır ki, psixofizioloji adaptasiya prosesi baş versin. Əməyin xarakteri, şəraitin yaradılması, peşənin insanın ürəyincə olması və s. amillər peşəyə adaptasiyanı stimul-laşdırır.

Beləliklə, böyük məktəblilərin peşə seçmələrinə diqqət və qayğı göstərmək, onları bu istiqamətdə hazırlamaq zəruridir.

Ümumiyyətlə, peşələr aləmində 20 mindən artıq peşə vardır və onları təsnif etmək üçün müxtəlif meyarlardan istifadə olunur. Psixoloji təsnifatın əsas xüsusiyyəti sosioloji, iqtisadi və texnoloji meyarlardan imtina edilməsidir.

Peşənin psixoloji təsnifatı peşəkar maraq, meyl və qabiliyyətlərin diaqnostikasının validliyini təmin edir. Peşələrin təsnifatının vacib problemi peşəni xarakterizə edən metodların seçilməsidir. Bura müşahidə, fəaliyyətin müstəqil şəkildə icrası (əmək metodu), işçilərin sorğusu, iş yerlərinin müşahidəsi və s.

Xarici ölkələrdə peşələrin şəxsiyyətin qabiliyyətlərinə, maraqlarına əsasən təsnifatı geniş yayılmışdır. Bununla əlaqədar olaraq 1966-cı ildə Amerika psixoloqu C.Holland tərəfindən işlənilmiş təsnifatı qeyd etmək mümkündür. Bu təsnifatda şəxsiyyət ilə peşə seçimi qarşılıqlı əlaqədə nəzərdən keçirilmişdir. C.Holland bu təsnifatda şəxsiyyətin bir sıra əhəmiyyətli istiqamətlərini – motivi, yönəlişliyi, maraqları, münasibəti ön plana çəkmişdir. Bu xüsusiyyətləri əsas götürərək C.Holland şəxsiyyətin peşəkarlığa yönəlmiş 6 tipini ayırmışdır: 1) praktik tip; 2)

intellektual tip; 3) sosial tip; 4) şərti (ümumi qəbul olunmuş norma və ənənələrə istiqamətlənmiş) tip; 5) sahibkar tip; 6) bədii tip.

Şəxsiyyətin hər bir tipi fərqli peşəkar mühitə istiqamətlənir: praktik tip– texniki-texnoloji proseslərə, maddi vasitələrin yaradılmasına; intellektual tip-əqli fəaliyyətə; sosial tip – sosial mühitdəki qarşılıqlı münasibətlərə; şərti tip– fəaliyyətin dəqiq şəkildə strukturlaşmasına; sahibkar tip–insanlara rəhbərlik etməyə və biznesə; bədii tip–yaradıcılığa xidmət edir.

C.Hollandın nəzəriyyəsi onunla nəticələnir ki, peşəkar fəaliyyətdə uğur qazanmaq, peşəkar işdə məmnunluq hissi, ilk növbədə, şəxsiyyət tipi ilə peşəkar mühit tipinin qarşılıqlı əlaqəsindən asılıdır.

Digər təsnifat E.A.Klimov tərəfindən işlənib hazırlanmışdır. **Əmək obyektinə** uyğun olaraq peşələrin 5 tipi fərqləndirilir:

1) İnsan-təbiət : Bu tipin nümayəndələri bitki və heyvan orqanizmləri, mikroorqanizmlər və onların mövcud olduğu şəraitlə tanış olurlar. Məsələn: aqronom, zootexnik, veterenar, mikrobioloq və s.

2) İnsan-texnika: İşçilərin əməyin texniki obyektləri ilə qarşılıqlı əlaqəsidir. Məsələn: texnik-mexanik, mühəndis-mexanik, mexanik-elektrik, texnik-texnoloq, çilingər və s.

3) İnsan-insan: Burada əsas predmet sosial sistemlər, cəmiyyət, insanlar qrupu və s.dir. Məsələn: həkim, müəllim, bərbər, ərzaq məhsulları satıcısı və s.

4) İnsan-işarə sistemi : təbii və qeyri-təbii dillər, şərti işarələr, simvollar, şifrələr, formullar – bu peşə növünün əsas predmetidir. Məsələn: proqramist, çertyojçu-kartoqraf, nəşriyyat redaktoru, dilçi, riyaziyyatçı və s.

5) İnsan-bədii obraz: Reallığın bədii hadisələrlə, faktlarla təsvir olunmasıdır. Məsələn: musiqi alətlərini kökləyən usta, teatr aktyoru, konsert ifaçısı və s.

Peşənin bu 5 tipi **məqsədinə görə** 3 sinfə ayrılır:

1) Qnostik peşələr (yun.”qnozis”-bilik) Məsələn: “insan-təbiət” tipində meyvələri qəbuledən-yoxlayan, çay dequstatoru; “insan-texnika” tipində kənd təsərrüfatı texnikaları mütəxəssisi, maşın istehsalına nəzarət edən; “insan-insan” tipində məhkəmə-tibbi ekspert, tibb-əmək eksperti, sosioloq; “insan-işarə sistemi” tipində mətbəə mütəxəssisi, mühasib və s; “insan-bədii obraz” tipində teatrşünas, musiqişünas, incəsənət xadimi və s.

2) İslahatçı peşələr. Məsələn: “insan-təbiət” tipində heyvandarlıq mütəxəssisi, bitkilərin mühafizəsi üzrə aqronom, zoomühəndis; “insan-texnika” tipində çilingər ustası, xarrat ustası, toxucu dəzgahı operatoru; “insan-insan” tipində müəllim, pedaqoq-trener, mühəndis-pedaqoq, ekskursiya rəhbəri; “insan-işarə sistemi” tipində mühasib, çertyojçu; “insan-bədii obraz” tipində rəssam, naxış ustası və s.

3) Kəşfiyyatçı peşələr. Məsələn: “insan-təbiət” tipində tədqiqatçı bioloq, balıqçılıq təsərrüfatı üzrə mütəxəssis; “insan-texnika” tipində mühəndis-konstruktor, “insan-insan” tipində tərbiyəçi, istehsalat təşkilatçısı; “insan-işarə sistemi” tipində proqramçı, riyaziyyatçı; “insan-bədii obraz” tipində bəstəkar, rəssam və s.

Əsas əmək vasitələrinə görə hər bir sinif 4 şöbəyə bölünür: 1) əl əməyi peşələri; 2) maşın-əl əməyi peşələri; 3) avtomatik sistemlərin tətbiqi ilə bağlı peşələr; 4) əməyin funksionallığı ilə bağlı peşələr.

Peşə fəaliyyətinin təhlili professiqrafiya metodunun tətbiqinə əsaslanır. 1920-ci ilin II yarısında sovet psixotexnikləri intensiv şəkildə peşəkar fəaliyyətin təhlilinin metod və prinsiplərini işləyib hazırlamışlar. Belə tədqiqatların ümumiləşdirilməsi psixotexnikada xüsusi yanaşmanın – **professioqrafiyanın** yaranmasına gətirib çıxardı. Professioqrafiya anlayışı peşənin planlaşdırılması və psixoloji xarakteristikasının öyrənilməsi prosesini özündə ehtiva

edir. Professioqrafiyada bu və ya digər əmək prosesində mərkəzi yeri tutan obyektlərin əlamətləri tədqiq edilir: əməyin subyekti, predmeti, vəzifəsi, vasitəsi və əmək şəraiti.

Professioqrafiyanın əsasını təşkil edən prinsiplərdən biri peşəkar fəaliyyətin öyrənilməsinə differensial yanaşma prinsipi olmuşdur. Bu prinsipin mahiyyəti – konkret praktik məsələlərin həll edilməsidir. Məsələn: peşəkar yorğunluğun öyrənilməsi zamanı peşəkar yorğunluğa səbəb olan faktorların aşkar edilməsi ön plana çəkilir.

Bu mənada differensial professioqrafiya peşələrin öyrənilməsi metodlarını, onun xarakteristikasını şərtləndirir, yəni professioqrafiyanın tətbiqi xüsusiyyətləri onun məqsədi ilə müəyyən olunur. Bu məqsədlər aşağıdakı fəaliyyət xüsusiyyətləri ilə əlaqədardır: işçilərin attestasiyası; yeni peşə və ixtisasların planlaşdırılması; işçilərin peşə məsləhəti və mütəxəssislərin seçilməsi; peşəkar təhsilin və peşəkar hazırlığın təkmilləşdirilməsi, ixtisas artırma; şəxsiyyətin peşəkar inkişafının elmi cəhətdən tədqiqi.

Professioqrafiyanın nəticəsi **professioqrammada** formalaşır. Professioqramma özündə əmək şəraitini, işçilərin əsas vəzifələrini, bilik, bacarıq və vərdişləri, peşəkar əhəmiyyətli keyfiyyətləri, həmçinin sağlamlıq vəziyyətinə əks göstərişləri ehtiva edir.

Professioqrammanın əsasını **psixoqramma** təşkil edir. Psixoqramma–mütəxəssisin motivasiya, rollu və emosional xüsusiyyətlərinin xarakteristikasıdır. Psixoqramma psixoloji funksiyalar qrupu ilə təsvir olunan konkret peşənin aktuallaşmasından ibarət olan peşənin psixoloji portretidir.

Professioqrammanın işlənilməsi aşağıdakı prinsiplər əsasında aparılır:

- peşəkar fəaliyyətin öyrənilməsinə kompleks yanaşma;
- konkret praktik məsələlərin həllində professioqrammanın məqsədəuyğun məzmunu;
- peşələrin standart və spesifik əlamətlərini ifadə edən professioqrafik xarakteristikaların differensiasiyası;
- konkret sosial-iqtisadi şəraitdə peşənin real ifadəsi;
- peşəkar inkişaf və karyeranın perspektivinin nəzərə alınması.

Ailədə, məktəbdə, ümumiyyətlə cəmiyyətdə uşaqların, məktəblilərin, gənclərin özünütəyinetməsi problemi aktualdır. Şəxsiyyətin peşəkar inkişafının məhsuldarlığının və dərk etmənin vacib meyarı peşəkar işdə şəxsi düşüncəni müəyyən etmək qabiliyyəti, öz peşəkar həyatını müstəqil şəkildə planlaşdırmaq, peşənin, ixtisasın və iş yerinin seçilməsində məsuliyyətli qərar qəbul etməkdir. Doğrudur, bu əhəmiyyətli problem şəxsiyyətin qarşısında bütün həyatı boyu yaranır. Şəxsiyyət isə həmişə dəyişir, inkişaf edir. Deməli, onun inkişafının müxtəlif dövrlərində peşəkar özünütəyinetmə məsələsi fərqli şəkildə həll olunur. Peşələr aləmində (və ya konkret peşədə) öz yerinin daimi müəyyənləşdirilməsi, sosial-peşəkar rolun dərk olunması, insanın peşəkar işə, kollektivə, özünə münasibəti insan həyatının mühüm komponentinə çevrilir. İnsan bəzən çətinliklərə dözməyərək peşədən uzaqlaşır, mövcud vəziyyətdən qeyri-məmnunluq hissi keçirir. İş yerinin və peşənin (ixtisasın) məcburən dəyişilməsi nadir hal deyil.

Qeyd etmək lazımdır ki, şəxsiyyətin qarşısında daim peşəyə münasibətini müəyyənləşdirməyi tələb edən, bəzən peşəkar fəaliyyətin təhlili, peşə seçmə və ya onun dəyişdirilməsi qərarının qəbulu, nüfuzun dəqiqləşdirilməsi və korreksiyası, peşəkarlıq cəhətdən şərtlənmiş digər sualların həlli problemləri yaranır. Bütün bu kompleks problemlər peşəkar özünütəyinetməni izah edir.

Məşhur amerika alimi A.Maslou peşəkar inkişaf konsepsiyası təklif etmişdir və insanın onun üçün əhəmiyyətli işdə təkmilləşməyə, inkişafa təşəbbüsü kimi "özünüaktuallaşdırma" anlayışını fərqləndirmişdir. Onun konsepsiyasında "özünütəyinetmə" anlayışı "özünüreallaşdırma", "özünüaktuallaşdırma" anlayışlarına yaxındır.

Peşəkar özünütəyinetməni ətraflı şəkildə məşhur rus alimi E.A.Klimov təhlil etmişdir. E.A.Klimov mülahizələrinin ümumi məntiqi ondan ibarətdir ki, peşəkar özünütəyinetmə bir anlıq həyata keçirilən akt deyil və seçilmiş ixtisasa əsasən peşəkar hazırlığın tamamlanması ilə başa çatmır, o, peşəkar həyat boyu davam edir.

Peşəkar özünütəyinetmə N.S.Pryajnikovun geniş tədqiqat predmeti olmuşdur. O yazırdı: "Peşəkar özünütəyinetmənin mahiyyəti konkret mədəni-tarixi (sosial-iqtisadi) situasiyada işin və bütün həyat fəaliyyətinin müstəqil şəkildə həyata keçirilməsidir". Şəxsiyyətin peşəkar inkişafının təhlili zamanı bu prosesin əsas xüsusiyyətlərini fərqləndirmək olar:

1) peşəkar özünütəyinetmə - fərdin peşələr aləminə və ya konkret peşəyə seçici münasibətidir.

2) peşəkar özünütəyinetmənin mahiyyətini peşəkar fəaliyyətin və sosial-iqtisadi şəraitin tələbləri, peşənin şüurlu seçimi təşkil edir.

3) peşəkar özünütəyinetmə bütün peşəkar həyat fəaliyyəti boyu həyata keçirilir: şəxsiyyət peşəkar varlığını yenidən düşünür və peşədə özünü təsdiq edir.

4) peşəkar özünütəyinetmənin aktuallığı müxtəlif hadisələrlə, məsələn: ümumi təhsil məktəbləri, peşəkar təhsil müəssisələri, ixtisas artırma, daimi yaşayış yerinin dəyişdirilməsi, attestasiya, işdən qovulma və s. ilə şərtlənir.

5) peşəkar özünütəyinetmə şəxsiyyətin özünüreallaşdırma və özünüaktuallaşdırma prosesində sosial-iqtisadi yetkinliyinin, onun tələbatlarının mühüm xarakteristikasıdır.

Şəxsiyyətin özünütəyinetməsinin potensial imkanlarını təhlil edərək N.S.Pryajnikov özünütəyinetmənin 7 tipini təklif edir:

1) **Konkret əmək funksiyasında özünütəyinetmə.** Özünütəyinetmənin bu tipi üçün icra edilən fəaliyyət çərçivəsində özünüreallaşdırma xarakterikdir. İşçi ayrıca əmək vəzifələri və əməliyyatlarını həyata keçirərək öz fəaliyyətinin məqsədini müəyyən edir. Fəaliyyətin həcminin seçilməsi azadlığı minimal səviyyədədir. İşçilərin əksəriyyəti üçün belə monoton iş demək olar ki, dözülməzdir. Ona görə də təşkilatçılar yerinə yetirilən əməliyyatların xarakterinin dəyişdirilməsi hesabına belə işi əlavə funksiyalarla zənginləşdirməyə cəhd edirlər, işçilərin özünüreallaşdırması imkanlarını genişləndirərək fəaliyyətdə kooperativ başlanğıcı gücləndirirlər. Bununla yanaşı, qeyd etmək lazımdır ki, bəzi insanlar belə monoton işdən məmnunluq hissi keçirir.

2) **Konkret əmək vəzifəsində özünütəyinetmə** kifayət qədər dəyişkən funksiyaların həyata keçirilməsini tələb edir. Əmək vəzifəsi ayrıca müəyyən olunmuş istehsalat tapşırıqları, təbii istehsalat mühiti, əmək mühiti ilə xarakterizə olunur. İcra olunan fəaliyyət çərçivəsində özünüreallaşdırma imkanı 1-ci vəziyyətlə müqayisədə xeyli yüksəkdir. Konkret əmək vəzifəsinin dəyişilməsi işçiyə qeyri-məmnunluq və neqativlik hissi verir.

3) **Konkret ixtisas səviyyəsində** özünütəyinetmə müxtəlif əmək vəzifələrinin nisbətən zərərsiz dəyişilməsini təklif edir və bu mənada şəxsiyyətin özünüreallaşdırması imkanlarını genişləndirir. Məsələn, nəqliyyat sürücüsü istənilən avtomobil növlərini asanlıqla idarə edir.

4) **Konkret peşədə özünütəyinetmə** təklif edir ki, işçi bir-birinə yaxın əmək fəaliyyəti növlərini icra edə bilər. Məlum olduğu kimi, peşə bir-birinə yaxın ixtisas qruplarını birləşdirir. Ona görə də özünütəyinetmənin əvvəlki tipi ilə müqayisədə işçi əmək vəzifəsi deyil, artıq ixtisas seçir.

5) Növbəti tip–**həyati özünütəyinetmədir.** Peşəkar fəaliyyətdən asılı olmayaraq bura təhsil, asudə vaxt, işsizlik və s. daxildir. Əslində, burada söhbət insanın həyat tərzinin seçilməsindən gedir. Qeyd etmək lazımdır ki, insanların əksəriyyəti öz həyatının mənasını peşəkar fəaliyyətdə görmürlər. Həyati özünütəyinetmə insanın təkcə bu və ya digər sosial rolunun seçimi və

reallaşdırılması yox, həm də həyat üsulunu, həyat tərzini seçməyi təklif edir. Bu zaman peşə həyat tərzinin reallaşdırılması vasitəsi ola bilər.

6) Nisbətən çətin tip **şəxsi özünütəyinetmədir.** Əgər insan situasiyanın və özünün bütün həyatının sahibi olarsa, bu tip həyati özünütəyinetmənin yüksək mövcudluğu kimi nəzərdən keçirilir. Şəxsiyyət bu zaman həm peşədə, həm də sosial rol və stereotiplərdə müəyyən qədər yüksəlir. İnsan təkcə sosial rola yiyələnmir, onu əhatə edənlər həmin insan haqqında yaxşı mühəndis, həkim, pedaqoq kimi deyil, sadəcə möhtərəm insan – unikal və təkrarolunmaz şəxsiyyət kimi danışırlarsa, o zaman yeni sosial-psixoloji rol yaranır. Şəxsi özünütəyinetmə – bu, bənzərsiz "Mən obrazının" mövcudluğudur, bu obraz daima inkişaf edir və onu əhatə edən insanlar arasında möhkəmlənir.

7) Nəhayət, ən çətin tip **şəxsiyyətin mədəniyyət sistemində özünütəyinetməsidir.** (özünütəyinetmənin yüksək mövcudluq forması). Burada xarici aktivlik, "digər insanlarda özünü davam etdirmək" istiqaməti (yəni, insanın sosial cəhətdən əbədiliyi) mütləq şəkildə aşkar olunmalıdır.

Şəxsiyyətin inkişafının müxtəlif yaş mərhələlərində aşağıdakı kimi səciyyələnir:

Məktəbəqədər dövr. Məktəbəqədər dövrdə süjetli-rollu oyunlar geniş yayılır və onların bir hissəsi peşəkar xarakter daşıyır. Uşaqlar bu dövrdə həkim, satıcı, tərbiyəçi, aşpaz və s. oyunlar oynayırlar. Bundan sonrakı peşəkar özünütəyinetmə üçün vacib əlamət ilk iş təcrübəsinin - bitkilərə qulluq, otağın təmizlənməsi və s. kimi çətin olmayan fəaliyyətlərin həyata keçirilməsi təşkil edir. Bu iş təcrübələri uşaqların əməyə marağını inkişaf etdirir. Peşəkar-rollu oyunların nəticəsi kimi sadə iş təcrübələrinin həyata keçirilməsi, böyüklərin işinin müşahidəsi məktəbəqədər uşaqların "özünütəyinetməsinin" əsasını təşkil edir.

Kiçik məktəbli yaşı. Kiçik məktəbli dövrünün əsas psixoloji xüsusiyyəti – böyüklərin təqlid edilməsi (yamsılanması) təşkil edir. Böyük vəzifəsində: müəllim, valideyn, qohumlar, ailənin yaxınları çıxış edir. Bu yaşın iki mühüm xüsusiyyəti nailiyyət motivasiyası və aparıcı fəaliyyət–təlim fəaliyyətidir. Təhsil təcrübəsinin bazası əsasında qabiliyyət və imkanların şüurlu dərk olunması, oyun və əmək fəaliyyəti arzu olunan peşə haqqında təsəvvürləri formalaşdırır.

Yeniyetmə yaşı. Şəxsiyyətin inkişafının məsuliyyətli dövrlərindən biridir. Bu yaşda əməyin müxtəlif növlərinə əxlaqi münasibətin əsası qoyulur, şəxsi dəyərlər sisteminin formalaşması baş verir. Oğlan-yeniyetmələr "əsl kişi sənətlərinə" (kosmonavt, pilot, sürücü və s), qız-yeniyetmələr isə "əsl qadın peşələrinə" (aparıcı, tərbiyəçi və s.) istiqamətlənir.

Erkən gənclik. Bu yaşın əsas məsələsi – peşə seçimidir. Refleksiyanın inkişafı – "Mən"in dərk edilməsini stimullaşdırır: "Mən kiməm?"; "Mənim qabiliyyətlərim nələrdir?"; "Mənim həyat idealım nədir?"; "Kim olmaq istəyirəm?" və s. Özünütəhlil bu yaşda peşəkar özünütəyinetmənin psixoloji əsasını təşkil edir. İlk baxışdan insana elə gəlir ki, peşə məktəblərində, texnikumlarda, kolleclərdə, liseylərdə təhsil alanlar artıq öz peşəsini müəyyən etmişlər. Ancaq statistika bunu göstərmir. O qızlar və oğlanlar psixoloji cəhətdən özlərini daha rahat hiss edirlər ki, onlar tam ümumi təhsil alırlar. Məktəbi bitirən oğlan və qızlar fantastik peşələrdən özlərinə daha real olan variantı seçirlər.

Gənclik yaşı. 16-23 yaşında olan oğlan və qızların əksəriyyəti təhsil müəssisələrində peşəkar təhsil alırlar. Artıq arzular keçmişdə qaldı. Arzu edilən gələcək isə indidən başlanır. Əksəriyyət peşəkar təhsil sahəsində etdiyi seçimdən qeyri-məmnunluq və ümidsizlik hissi keçirir. Peşəkar başlanğıclarda korreksiya işinin aparılmasına təşəbbüs edilir.Qızların və oğlanların əksəriyyətində peşə seçimində inam hissi möhkəmlənir.

Cavanlıq (gənclik) dövrü. (27 yaşa qədər). Bu – peşəkar aktivlik yaşıdır. Artıq müəyyənləşdirilmiş peşəkar seçimin düzgünlüyünə şübhə arxada qalır. Nəticədə, müəyyən olunmuş peşəkar təcrübə və iş yeri mövcuddur. Burada əsas məsələ peşəkar yüksəlişlə bağlıdır.

Yaşıdlarının bir hissəsi artıq qarşıya qoyulan peşəkar nailiyyətləri əldə edir. Lakin cavanların böyük əksəriyyətində peşə ilə, yüksəlmə ilə bağlı diskomfort hissi yaranır (Məsələn, görəsən seçdiyim peşəkar işdə yüksələ biləcəyəmmi? və s.). 30 yaşında cavanların əksəriyyətində peşəkar özünütəyinetmə məsələsi yenidən aktual olur. Burada 2 yol vardır: seçdiyi peşədə qalmaq, özünü burada doğrultmaq və peşəkar olmaq və ya iş yerinin və peşənin dəyişilməsi ilə ifadə olunan peşəkar miqrasiya.

Yetkinlik dövrü. Bu, daha məhsuldar yaşdır – insan peşəkar-psixoloji potensialından istifadə edərək, özünü şəxsiyyət kimi reallaşdırır. Məhz bu yaşda həyati və peşəkar planlar aktuallaşır. Bu dövrdə konkret əmək fəaliyyətindən istifadə edərək insan öz qabiliyyətlərini tətbiq etməkdə müstəsna imkanlar əldə edir, fərdi əmək üslubunu seçir. Yüksək peşəkarlıq nəticəsində insan normativ peşəkar aktivliyə meyl edir, öz imkanlarını maksimal dərəcədə əks etdirir.

Qocalıq dövrü. Təqaüd yaşına çatma insanın peşəkar həyatdan getməsi ilə müşayiət olunur.

Peşəkar özünütəyinetmə prosesində konfliktlər də diqqəti cəlb edir. Peşəkar özünütəyinetmə qeyri-müəyyənliklə xarakterizə olunan situasiyada şəxsi mövqeyini bildirməyi təklif edir. "Hansı peşəni seçmək?"; "Bu peşədə işə düzəlmə imkanları varmı?"; "Bu peşənin maddi şəraiti necədir?" və s. suallar insanları narahat edir. Bu problem situasiyaları müəyyənləşdirmək üçün şəxsiyyət öz tələbatlarını, mövqeyini, maraqlarını, öz qabiliyyətləri, emosional-rollu keyfiyyətləri, sağlamlığı ilə əlaqələndirməlidir. Həmçinin peşəkar təhsil müəssisələri, peşə, ixtisas, konkret əmək vəzifəsi bir-birilə əlaqələndirilməlidir.

Tez-tez bu vəziyyətlə razılaşmaq çətinləşir. Əgər sosial-iqtisadi amilləri də nəzərə alsaq, bir qayda olaraq, peşəkar özünütəyinetmədə **konfliktlər** meydana çıxır. Söhbət peşəkar özünütəyinetmədən gedirsə, o zaman bu konfliktlər şəxsiyyətdaxili xarakter daşıyır. Şəxsiyyətdaxili konfliktlər produktiv və destruktiv ola bilər. Aşağıdakı faktorlarla şərtlənmiş konfliktləri fərqləndirmək olar:

1) Peşəkar inkişafın, uğurun motivləri ilə maddi rifah arasında, yüksək iddia səviyyəsi (özünüqiymətləndirmə) ilə özünəhörmət arasında, dərkolunmayan motivlərlə (hakimiyyətə, tabeliyə meyl) dəyərli istiqamətlər arasındakı konfliktlər;

2) Peşəkar fəaliyyətin xarakteri ilə peşəkar kompetentliyin (bacarıqlılıq) üst-üstə düşməməsi, ixtisasın yüksəlməsi zərurəti ilə peşəkar aktivliyin azlığı arasında, işdən narazılıq və peşənin dəyişilməsinin arzu edilməməsi arasında, karyeranın perspektivinin yoxluğu və peşəkar kompetentlik arasında yaranan konfliktlər;

3) Şəxsiyyətin uğur, karyera, yüksək maddi rifaha nail olmaq istəyi ilə sosial-peşəkar qabiliyyətlər, keyfiyyətlər, psixofizioloji xüsusiyyətlər, sağlamlıq vəziyyəti arasındakı ziddiyyətlər;

4) Peşəkar qiymət haqqındakı təsəvvürlə real peşəkar imkanın üst-üstə düşməməsi: "mümkün-Mən" və "real-Mən", "ideal-Mən" və "deformasiya olunmuş-Mən " arasındakı ziddiyyətlər;

5) Yaş, cins, etnik mənsubiyyətlə şərtlənmiş peşəkar imkan, potensial, qabiliyyət və sosial məhdudiyyət arasında, peşəkar mobillik ilə yaş rigidliyi, peşəkar karyeranın davam etdirilməsi ehtiyacı ilə təqaüdə çıxma arasındakı ziddiyyətlər;

I qrup ziddiyyətlər optasiya mərhələsində, II qrup ziddiyyətlər peşəkar hazırlıq və peşəkar adaptasiyası mərhələsində, III və IV qrup ziddiyyətlər peşəkarlaşma və rəhbərlik mərhələsində, V qrup ziddiyyətlər isə peşəkar inkişafın həlledici mərhələsində təzahür edir.

Beləliklə, qeyd edə bilərik ki, müxtəlif yaş mərhələlərində konfiliktlər, ziddiyyətlər baş verir, özünütəyinetmə prosesi formalaşır.

ƏDƏBİYYAT

1. Vəliyev M.V. Müəllimlik peşəsini seçməyə təsir göstərən bəzi etnopsixoloji xüsusiyyətlər haqqında. Şəxsiyyətin inkişafının etnopsixoloji məsələləri (Elmi əsərlərin tematik məcmuəsi) S.M.Kirov adına ADU-nun nəşri. B.: 1985. s. 112-119.
2. Vəliyev M.V. Peşəseçmənin psixoloji məsələləri. Magistratura pilləsi üçün. (Tədris proqramı) ADPU-nun nəşriyyatı. B.: 2008.
3. Vəliyev M.V., Mustafayev A.M. Böyük məktəblilərin peşə seçiminin psixoloji xüsusiyyətləri. Sosial və humanitar elmlərin müasir problemləri. Ali məktəblərarası elmi əsərlər toplusu. Buraxılış №7. BDU-nun nəşri. Bakı: 2012. s. 170-174.
4. Vəliyev M.V., Mustafayev A.M. Inkişaf və yaş psixologiyası. (Dərs vəsaiti) ADPU-nun nəşriyyatı. B., 2013.
5. Mirələm Vəliyev, Azər Mustafayev, Nərmin Sədirova. Peşəseçmə psixologiyası. Tədris vəsaiti. Bakı, 2013.
6. Велиев М.В. Мотивы выбора профессии учителя и ценностные ориентации студентов. Серия философии и психол. Известия АН Гр. Изд. Мецинероба, Тбилиси, 1986 г. Стр. 103-110.
7. Велиев М.В., Мустафаев А.М. Мотивы выбора педагогической деятельности как важный фактор формирования положительных социальных качеств личности. // Отклоняющееся поведение человека в современном мире: проблемы и решения. Материалы Междинародной заочной научно-практической конференции. Владимир. 12 мая 2010 г. стр.214-215
8. Гарбер Е.И. Методика профессиографии. Саратов: 1992.
9. Голомшкок А.Е. Выбор профессии и воспитание личности школьников. М.: 1979.
10. Захаров Н.Н. Профессиональная ориентация школьников. М.: 1988.
11. Зеер Э.Ф. Личностно-ориентированное профессиональное образование. Екатеринбург: 1998.
12. Зеер Э.Ф. Психология профессий М.: 2006.
13. Климов Е.А. Введение в психологию труда. М.: 1988.
14. Климов Е.А. Психология профессионала. М.-Воронеж: 1996.
15. Пряжников Н.С. Профессиональное и личностное самоопределение. М.-Воронеж: 1996.
16. Чистякова С.Н., Захаров Н.Н. Профессиональная ориентация школьников: организация и управление. М.: 1987.
17. Шадриков В.Д. Проблема системогенеза профессиональной деятельности. М.,1982.

MÜXTƏLIF YAŞ MƏRHƏLƏLƏRINDƏ PEŞƏ ÖZÜNÜTƏYINETMƏNIN FORMALAŞMASI

Mirələm Vəliyev, Azər Mustafayev

XÜLASƏ

Məqalədə peşə seçiminin mahiyyəti, motivasiyası, peşə seçimi prosesində peşə maraqları, temparament tiplərinin müstəsna rolu və şəxsiyyətin peşəkar inkişaf xüsusiyyətləri araşdırılır. Görkəmli tədqiqatçıların xüsusilə amerika alimi C.Hollandın, rus psixoloqları E.A.Klimovun, N.S.Pryajnikovun və başqalarının fikirlərinə istinad olunur. Məqalədə peşə özünütəyinetmənin

yaş mərhələlərindən asılı olaraq formalaşması nəzərə çarpan konfilikt və ziddiyyətlərin öyrənilməsinə xüsusi diqqət yetirilir.

ФОРМИРОВАНИЕ ПРОФЕССИОНАЛЬНОГО САМООПРЕДЕЛЕНИЯ НА РАЗНЫХ ВОЗРАСТНЫХ ЭТАПАХ

Миралам Велиев, Азер Мустафаев

АННОТАЦИЯ

В статье анализируются сущность выбора профессии, мотивация профессиональные интересы особенностей роль типов темперамента, особенности профессионального развития личности. Указываются идеи извезных психологов: Дж. Холланд, Е.А. Климова, Н.С. Пряжникова и другие. В работе анализируются внимание формировании профессиональной аспекты самоопределения возрастных этапов, на разных этапа, а также отличается соответсиющие конфликты и противоречие самоопределения.

FORMATION OF PROFESSIONAL SELF-DETERMINATION AT DIFFERENT AGES

Miralam Valiyev, Azar Mustafayev

SUMMARY

The article examines the essence and motivation of career choice, professional interests in the process of career choice, the exceptional role of temperament types and features of professional development of personality. The opinions of prominent researchers, especially the American scientist J. Holland, Russian psychologists E.A Klimpov, N.S Pryagnikov and others are referred to. The article pays special attention to the study of conflicts and contradictions in the formation of professional self-determination depending on the age.

YENİYETMƏLƏRDƏ TƏŞVİŞ POZUNTUSUNUN ƏSAS ƏLAMƏTLƏRİ

Hakan Seyhan
BDU-nun II kurs magistrantı
Elmi rəhbər dos.Sevinc Allahyarova
hknsyhnnn@gmail.com

Açar sözlər: yeniyetmələr, təşviş, təşviş pozuntusu, çəkingənlik, diaqnostika, komorbidlik.
Keywords: adolescents, anxiety, anxiety disorder, shyness, diagnosis, comorbidity.
Ключевые слова: подростки, тревога, тревожное расстройство, застенчивость, диагностика, коморбидность.

Çəkinmə və çəkingənlik təşviş pozuntularının əsas simptomlarındandır. Əksər hallarda, bu, müəyyən situasiyalardan, yerlərdən və ya qıcıqlandırıcı məqamlardan həddindən artıq qaçınmaqla özünü göstərir, lakin qeyri-əminlik, çəkingənlik və ya ritual hərəkətlər kimi formalarda da heç də özünü az göstərmir. Bu cür davranışlar bütün təşviş pozuntuları üçün kifayət qədər səciyyəvidir. Çəkingənlik adətən ürkəklik, sıxıntı və ya utancaqlıq şəklində affektiv təzahürlərlə müşayiət olunur. Təşviş bəzi təhlükəli və ya neqativ hadisələrin baş vermə gözləntisi ilə, başqa sözlə təhdid gözləntisi ilə əlaqəli olur. Beləliklə, təşviş pozuntusu olan bir yeniyetməni aşkar edərkən onun çəkingənliyinin hansısa bir təhdidlə əlaqəli olmasından əmin olmaq olduqca vacibdir. Məsələn, yeniyetmə məktəbə getmək istəmədiyini söyləyə bilər. Birinci halda, bu o faktorla izah oluna bilər ki, yeniyetmə dostları ilə alış-veriş zamanı əylənməyi sevir, dərslərdən yayınıb çöldə gəzmək istəyir, ikinci halda isədigər bir faktorla izah oluna bilər: ola bilsin ki, yeniyetməni məktəbdə kimlərsə lağa qoyur, ona məzhəkə edirlər. Hər iki haldadavranışzahirən məktəbdən yayınma kimi görünür, belə ki, birinci situasiyatəşviş pozuntusunun təzahürü ola bilməz, çünki burada hər hansı qavranılan bir təhdiddən söhbət getmir.Bütün təşviş pozuntularında narahatlıq,obsesif düşüncələr, təşviş çəkingənlikləri və ya mənfi düşüncələr şəklində ola biləcək təhlükə qabağı hisslər müşahidə olunacaqdır. Pozuntular arasındakı əsas fərq, onların daha sonrakı gedişatına bağlıdır. Artıq qeyd olunan etiqad, davranışlar və emosiyalardan əlavə, təşviş pozuntusu olan yeniyetmələr tez-tez onların artan həyəcanını əks etdirən bir sıra fiziki hisslərdən şikayətlənəcəklər; bununla belə, onlar nadir hallarda müəyyən bir xəstəlik üçün spesifik olur və bu nəticədə nadir hallarda diaqnostik dəyərə malik olur.

Təşviş pozuntusu müşahidə olunan yeniyetmələrdə fiziki simptomlara baş ağrısı, mədə ağrısı, ürək bulanması, qusma, ishal və əzələ gərginliyi aiddir. Bundan əlavə, bir çox təşviş pozuntusu, xüsusən də ciddi narahatlığı olanlar üçün yuxu problemi xarakterikdir.

Obsesif-kompulsiv pozuntusu olan uşaqlar və yeniyetmələr, tez-tez məqsədi təşvişi azaltmaq olan xarakterik stereotipik hərəkətlər və ya əməllərlə müşayiət olunan və periodik olaraq təkrarlanan obsesif düşüncələr, görüntülər və təhriklər barədə söz açırlar. Bəzi obsesif-kompulsiv pozuntu formalarında pasientlərin özlərində yaxınlıqda olan bir təhlükəhiss etməməsinə və əksər çoxluqda ikrah hissinə konsentrasiya oluna bilməsinə vəmüəyyən hərəkətlərin sadəcə onlara "hər şey normaldır" kimi hiss etməyə imkan verdiklərini hesab etməsinə baxmayaraq, psixoloji komponentlər bir qayda olaraq bəzi gözlənilən təhdid və ya təhlükələrəfokuslanır (nəticədə bu, təşviş pozuntusudur) [1,s.18].Təhdid öncəsi düşüncə yer aldıqda,müvafiq rituallar adətən gözlənilən təhlükə barədə xəbərdarlığa və ya onun aradan qaldırılmasına istiqamətlənir. Yeniyetmə uşaqlarda ən geniş yayılmış rituallara yuyulma və yoluxma qorxusu, həmçinin müəyyən bir qaydada və qorxu ilə əşyaların yoxlanılması və

paylaşdırılması aiddir və onlara elə gəlir ki, müəyyən tədbirlər görülməyib düzgün yerinə yetirilmədiyi təqdirdə fəlakət baş verəcək.

Travma sonrası stres pozuntusuçətin (həyati təhlükəli) bir hadisədən sonraartan həyəcan (məsələn, əsəbilik, həyəcanlılıq), vəsvəsə (məsələn, travmanı xatırladıqda yaranan gərginlik hissi), yabançılıq (məsələn, psixo-travmatik hadisənin vacib aspektlərini xatırlamaq qabiliyyətinin olmaması, apatiya və həyata marağın itməsi), çəkingənlik reaksiyaları kimi simptomların cəmini özündə təmsil edir. Bu da nəticədə koqnitiv inkişaf nəticəsində yeniyetmələrdə keçmiş və gələcək haqqında natamam formalaşmış qavrayışı əks etdirmiş olur [1,s.26].

Məktəbdən imtina təşviş pozuntularının diaqnostikasında elə də önəmli bir rol oynamasa da, tez-tez müzakirə obyekti olduğu üçün bir qədər diqqət çəkir. Məlumdur ki, məktəbli yeniyetmələrdə bu yaş dövründə məktəbdən yayınma hallarına tez-tez rast gəlinir. Buna müəyyən mənada məktəbdən imtina kimi baxılır. Məktəbə getməmək istəyi bir sıra faktorlardan qaynaqlana bilər, lakin yayınma halları geniş vüsət aldıqda təşviş bu davranışın əsas elementinə çevrilir. Lakin bu kimi hallar yalnızistisna olaraq təşvişlə də bağlı deyil. Məktəbdən imtina, cəmiyyətin və valideynlərin bu tələblə razılığı ilə birlikdə yeniyetmə tərəfindən məktəbə getməmək (bəzən təşvişlə əlaqədar olaraq) motivasiyasını əhatə edir.Təbii ki, sonuncu komponent məktəb davamiyyəti, sosial normalar və valideyn ehtiyaclarına (həddindən artıq yoxsulluq kimi) aid olan qanunlardan asılı olaraq fərqli cəmiyyətlərdə fərqli şəkildə dəyişəcəkdir. Bununla belə, qaydaların və qanunların məktəbə getməyi tələb etdiyi yerlərdə (əksər Qərb ölkələrində olduğu kimi), məktəbdən imtina adətən ailədə və ya valideynlərdən ən azı birində problemlərin yaranmasına gətirib çıxarır. Məsələn, bəzi hallarda, məktəbə getməmək, bir uşağın öz problemləri ilə ona kömək etməsini istəyən bir valideyn tərəfindən qismən təşviq edilə bilər (məsələn, somatik və ya ruhi xəstəliklər nəticəsində yaranan əlillik) və ya ailə həyatındakı problemlərlə əlaqədar olaraq valideyn-övlad münasibətləri patoloji hal ala bilər. Başqa sözlə, məktəbdən xroniki olaraq imtina etmək, bir yeniyetmənin təşvişi ilə (və ya digər) bağlı bir sıra problemlər yarada bilər.Məsələn, məktəb tapşırıqlarına qarşı fobiya, ayrılıq təşvişi, sosial qorxular, zorbalıq və s [10, s.128].

Komorbidlik. Daha öncə də yazdığımız məqalədə qeyd etdiyimiz kimi, uşaqlarda və yeniyetmələrdə təşviş pozuntusundan bəhs edərkən, konkret bir təşvişə diqqət yetirməkdənsə, onu ümumi bir fenomen (və bəzən təşviş pozuntusundan yaranannarahatlıqlar ilə əlaqəli) nəzərdən keçirmək daha münasibdir.

Bu yanaşmanın əsas səbəblərindən biri, təşviş pozuntuları arasında, və həmçinin təşviş və digər daxili pozuntular,xüsusilə depressiya arasında açıq-aşkar üst-üstə düşməsidir. Klinik olaraq təşvişdən əziyyət çəkən yeniyetmələr nadir hallarda yalnız bir təşviş diaqnozunun meyarlarına cavab verirlər. Tibbi kömək üçün müraciət edən populyasiyalarda yeniyetmələrin təxminən 80-90% -i birdən çox psixoloji pozuntu meyarlarına cavab verir. Əksəriyyət, 75% -ə qədər, birdən çox təşviş pozuntusu meyarlarına cavab verir. Növbəti 10 - 30%, eyni zamanda müşayiətedici əhval pozuntuları meyarlarına cavab verir. Yaş fərqləri burada özünü qabarıq şəkildə göstərir – kömək üçün müraciət edən yeniyetmələrin təxminən 30% -i müşayiət olunan əhval pozuntusu meyarlarına cavab verir, halbuki, kiçik yaşlı uşaqların yalnız 10-15% -i bu cür əhval pozuntusu meyarlarına cavab verirlər [4, s. 228].

Kömək üçün müraciətedən azyaşlı uşaqların təxminən 25% -i müşayiət olunan əhval-ruhiyyə pozuntusu meyarlarına cavab verir. Aparılan eksperimentlər sayəsində azyaşlı uşaqların və yeniyetmələrin təşviş pozuntuları və onların faiz nisbətləri müəyyən edilmişdir. Həmçinin təyin edilmişdir ki, təşvişi pozuntusu olan yeniyetmələr daha çox əlavə təşviş pozuntularına, davranış və müşayiət olunan əhval pozuntularına meyllidirlər.Maraqlıdır ki, təşviş pozuntusu

olan uşaqlarda psixo-aktiv maddələrdən sui-istifadə riski elə də yüksək deyil, bu uşaqlar adətən qaydalara tabe olurlar. Təşviş pozuntularının qarşılıqlı komorbidliyi və alkoqoldan sui-istifadəyəcinsi yetişkənlik dövrü başlayandan sonra və gec yeniyetməlik yaş dövrlərində daha çox təsadüf olunur [4,s.230].

Yeniyetmələrdətəşviş pozuntusunun yayılması ehtimalı müxtəlif ölkələrdəvə tədqiqatlarda meyarlar, qiymətləndirmə alətləri və seçim nümunələrindəki fərqlər də daxil olmaqla bir çox faktorlar səbəbiləmüxtəlif göstəricilərdə var-gəl edib. Ümumilikdə, hazırki dövrdə Qərb populyasiyasında uşaqların və yeniyetmələrin təxminən 5% -i təşviş pozuntusunun diaqnostikası meyarlarına cavab verir. Digər mədəniyyətlərdətəşviş pozuntusunun vüsət dairəsi haqqında az məlumat var, lakin Puerto Rikodan aparılan tədqiqatlardan birində oxşar göstəricilər alınmışdır. Əksər tədqiqatların nəticələrinə görə, təşviş pozuntusunun ən yüksək vüsət dairəsi spesifik fobiyalar üçün xarakterikdir, orta vüsət ehtimalı isə ayrılma təşvişi, ümumiləşdirilmiş təşviş və sosial fobiyalar üçün xarakterikdir. Nisbətən daha aşağı vüsət dairəsi obsesif-kompulsiv pozuntu üçün,ən aşağı vüsət dairəsi isə travma sonrasıstres pozuntusu üçünqeydə alınıb [6,s.57].

Təşviş pozuntuları ən çox uşaqlıq vəyeniyetməlik dövrlərinin ortalarındanyaranan və erkən başlayan xəstəliklər qrupuna aiddir. Təşviş pozuntularına xas olan – temperament və ürkəklik kontekstindən meydana çıxmaqdır. Beləliklə də, mövcud təşviş pozuntusunun nə vaxt başladığını dəqiq olaraq təyin etmək çətindir və müəyyən dərəcədə təşviş pozuntusu müşahidə olunan uşaqlar və ya yeniyetmələr üçün onların anadan olandan bəri təşvişli olduqlarını söyləmək çətindir. Bununla belə, qiymətləndirmə nəticələrinə görə, müxtəlif pozuntular üçün orta başlanğıc yaşı aşağıdakı kimidir:[3,s.587]

- Heyvan ürküsü – erkən uşaqlıq dövrü (təxminən 6-7 yaş);
- Ayrılma ilə bağlı təşviş pozuntusu – erkən uşaqlıq - orta uşaq yaşı (7-8 yaş);
- Ümumiləşdirilmiş təşviş pozuntusu – gec uşaqlıq dövrü (təxminən 10-12 yaş);
- Sosial təşviş pozuntusu– erkən yeniyetmə pozuntusu (təxminən 11-13 yaş);
- Obsesif-kompulsiv pozuntu– orta yeniyetmə yaşı (təxminən 13-15 yaş);
- Panik pozuntu – yetkinlik dövrünün başlanğıcı (təxminən 22-24 yaş).

Təşviş pozuntuları ən sabit psixopatologiya formalarındandır və nisbətən aşağı dərəcədə spontan remissiyalar nümayiş etdirir. Təşvişli uşaqlar həmçinin yeniyetməlik və yetkinlik yaşlarında digər pozuntuların yaranması riskinə məruz qalırlar. Uzun-uzadı aparılan tədqiqatlar göstərir ki, təşvişdən əziyyət çəkən uşaqlar daha yüksək təşviş pozuntusu riskinə və yeniyetməlik dövründə əhval-ruhiyyənin pozulmasına məruz qalırlar. Və həmçinin onlarda yeniyetməlik dövründə psixo-aktiv maddələrdən sui-istifadə, depressiya və psixi pozuntular kimi digər pozuntular da müşahidə olunur, hətta yetkin yaşlarında intihar riski də labüddür.

Yeniyetmələrdə təşviş pozuntusunun risk faktorları haqqında biliklər daim təkmilləşdirildiyi üçün, son zamanlarda təşviş pozuntusunun çox erkən aşkarlanması və profilaktikası ilə bağlı maraq artmağa başlayıb. Bundan əlavə, psixopatologiyanın əhalinin sağlamlığına təsirinin getdikcə artmasının dərk edilməsişiddətli təşviş keçirən, lakin pozuntu diaqnostikasınınmeyarlarına cavab verməyən yeniyetmələrin xeyli hissəsinin əzab çəkməsinin və həyatlarında məhdudiyyət hiss etməsinin dərindən dərk edilməsinə gətirib çıxardı. Nəticədə, son vaxtlar təşviş pozuntularının profilaktikası və erkən müdaxilə proqramlarının qiymətləndirməsinə başlanıldı. Bu proqramlar, müdaxilənin bütün səviyyələrini əhatə edir:

- universal;
- seçici; və
- göstəricilər üzrə.

Universal proqramlar.Bir neçə böyük tədqiqatda məktəblərdə nümunə götürülmüş supopulyasiyalarda geniş tətbiq olunan, təşvişin öhdəsindən gəlmək üçün nəzərdə tutulan

idarəetmə proqramlarının effektivliyi sübut olunub. Bu proqramlartəhsil, dincəlmə, koqnitiv yenidən qurma *və* ***in-vivo***(təbii şəraitlərdə) təsirinə məruz qalma da daxil olmaqla klinik kompleks metodlarda tapılan bacarıqlarla eyniyyət təşkil edən bacarıqları əhatə edir [8,s.302]. Çox vaxt bu proqramlar kommunikasiya və problem həll etmə kimi bir-birini tamamlayan əlavə bacarıqların işlənməsini də əhatə edir. Beləliklə, bu proqramları uşaqlara və yeniyetmələrə bütün ağrılı duyğuların öhdəsindən gəlmək bacarıqlarını öyrətməyə yönəlmiş *geniş emosional sağlamlıq proqramları* adlandırmaq olar. Nəticələr bir qədər eynicins deyildi, lakin böyük təsiredici effektləri olmasa da, təşvişin azalmasına qatqı göstərə bilmişdir. Bunların universal proqramlar olduğunu və risk qruplarına yönəlmədiklərini nəzərə alsaq, elə bir böyük effekt gözlənilmir, lakin hətta kiçik bir effekt belə bütün əhali üçün mühüm əhəmiyyət kəsb edir.

Seçicivə ya ***selektivproqramlar.***Belə proqramlara pozuntu meyarlarına mütləq cavab verməyən, orta və ya şiddətli təşviş simptomları müşahidə olunan yeniyetmələr üçün təyin olunan proqramlar aiddir. Güman edilir ki, belə yeniyetmələrdə gələcəkdə təşviş pozuntusunun inkişaf riski yüksəkdir və bu səbəbdən onlara təşvişin öhdəsindən gəlməkbacarıqlarının öyrədilməsi həm də profilaktikaya öz qatqısını göstərir. Lakin, təşviş pozuntuları inkişaf etməsə də,həyəcandan yaranan zəif və ya şiddətli sıxıntı və yaşanılan həyati çətinliklər bu cür yeniyetmələrətəşvişin öhdəsindən gəlmək bacarığının aşılanmasına kifayət qədər əsas verir, xüsusən də nəzərə alsaq ki, onlardan çox az qismi peşəkar kömək üçün müraciət edir. Universal proqramlarda olduğu kimi, bu müdaxilələrin əksəriyyəti məktəb populyasiyalarında geniş tətbiq olunur. Əvvəldə olduğu kimi, bu proqramlar da məzmunca klinik müalicə proqramlarına çox oxşardır (və ya identikdir). Hətta aaparılan bir neçə tədqiqat müdaxilədən iki ilə sonra belə öz davamlı faydasını göstərib [8,s.307].

Nəhayət, bəzi tədqiqatlarda təşvişin qarşısının alınması üçün göstəricilərə əsaslanan proqramlar, yəni, təşviş pozuntusu riski daha yüksək olan yeniyetmələri təyin etməyə yönəlmiş proqramlaröyrənilməyə başlanılıb. Yeniyetmələrin hədəf qrupuyüksək dərəcədə temperamentli süstlük əsasında seçilib, və bundan əlavə müvafiq yeniyetmələrin identifikasiyası üçün təşviş səviyyəsi yüksək olan valideynlər də cəlb olunub. Bu günə qədər sürən uzunmüddətli araşdırmalar əsasında biz *"Sakit yeniyetmələr – Sakiterkən yeniyetmələr"*adlı modifikasiya olunmuş bir proqram versiyasını hazırladıq. Proqram olduqca süst yeniyetmələrin valideynlərinə yönəlikdir və proqram komponentlərinin məqsədi əsasən valideynlərin hiper mühafizəsinin azaldılması və yeniyetmələrinin vivotəsirlərinə sövq edilməsidir [5, s.104]. Valideynləri proqrama qatılan on yeddi yaşınadək olan yeniyetmələrdə valideynləri poqrama qatılmayan yeniyetmələrlə müqayisədə xeyli dərəcədə aşağı təşviş pozuntuları və daha nadir təşviş pozuntusu diaqnozları müşahidə olunub.

Bəzi perspektivli tədqiqat sahələri yeni inkişaf etməyə başlayır və gələcək illərdə daha da irəliləyiş təmin edəcəyinə ümid edilir. Bunlara aiddir:

- Uzunmüddətli tədqiqatlar yolu ilə təşviş risk faktorlarının daha yaxşı başa düşülməsi;
- Gen-ətraf mühit qarşılıqlı əlaqələrinin təşvişin inkişafına təsirinin daha dəqiq qiymətləndirilməsi;
- Təşviş içərisində olanhəmyaşıdların qarşılıqlı münasibətlərinin və bu cür münasibətlərin onların inkişafına təsirinin daha dərindən başa düşülməsi;
- İnternet və distant – məsafədən (teletibb) proqramları vasitəsilə informasiya ötürülməsindən istifadə edilməsilə daha effektiv terapiya metodları;
- Müalicədə yaddaş konsolidasiya vasitələrinin istifadəsi və ya koqnitiv (idrak) təhriflərin modifikasiyası kimi yeni nailiyyətlərin qiymətləndirilməsi.

ƏDƏBİYYAT

1.Bipolyar affektiv pozuntunun diaqnostika və müalicəsi üzrə klinik protokol – 43 səh.
2.Ədalət Həsənov. "Patoloji anatomiya" (Hipertoniya xəstəliyi). (Bakı 2003, 761 səh).
3.Anderson, E. R., & Hope, D. A. (2009). The relationship among social phobia, objective and perceived physiological reactivity, and anxiety sensitivity in an adolescent population. Journal of Anxiety Disorders, 23, 18–26.
4.Babio, N., Canals, J., Pietrobelli, A., Perez, S., & Arija, V. A. (2009). A two-phase population study: Relationships between overweight body composition, and risk of eating disorders. Nutricion Hospitalaria, 24, 485–491.
5.Coles, M. E., & Heimberg, R. G. (2002). Memory biases in the anxiety disorders: Current status. Clinical Psychology Review, 22, 587–627.
6.Davila, J., La Greca, A. M., Starr, L. R., & Landoll, R. R. (2010). Anxiety disorders in adolescence. In J. G. Beck (Ed.), Interpersonal processes in the anxiety disorders: Implications for understanding psychopathology and treatment. Washington, DC: American Psychological Association. Pp. 228-230.
7.Deardorff, J., Hayward, C., Wilson, K. A., Bryson, S., Hammer, L. D., & Agras, S. (2007). Puberty and gender interact to predict social anxiety symptoms in early adolescence. Journal of Adolescent Health, 41, 102–104.
8.Doer fl er, L. A., Connor, D. F., Volungis, A. M., & Toscano, P. F. (2007). Panic disorder in clinically referred children and adolescents. Children Psychiatry and Human Development, 38 , 57–71.
9.Fang, A., & Hofmann, S. G. (2010). Relationship between social anxiety disorder and body dysmorphic disorder. Clinical Psychology Review, 30, 1040–1048.
10. Foa, E. B., Chrestman, K. R., & Gilboa-Schechtman, E. (2009). Prolonged exposure therapy for adolescents with PTSD: Emotional processing of traumatic experiences: Therapist guide . New York: Oxford University Press. Pp. 302-307.
11. Grant, D. M., Beck, J. G., Marques, L., Palyo, S. A., &Clapp, J. D. (2008). The structure of distress following trauma: Posttraumatic stress disorder, major depressive disorder, and generalized anxiety disorder. Journal of Abnormal Psychology, 117, 662–672.
12. Harvey, A. G., & Bryant, R. A. (2002). Acute stress disorder: A synthesis and critique. Psychological Bulletin, 128, 886–902.

YENİYETMƏLƏRDƏ TƏŞVİŞ POZUNTUSUNUN ƏSAS ƏLAMƏTLƏRİ

Hakan Seyhan

XÜLASƏ

Bir insan qorxanda və təşviş hissi keçirəndə daha çox adrenalin ifraz edir. Belə hallarda hər şeyə skeptik yanaşır və sürətli davranır. Normal həyatda bizi qoruyan qorxu, həddindən çox və vəziyyətdən əlaqəsiz ortaya çıxarsa, təşviş pozuntusuna gətirib çıxara bilər. Ən sıx görülən fizioloji əlamətləri isə ürək döyüntüsü, baş dönməsi və boğulma qorxusudur.

Bu məqalədə, biz yeniyetmə məktəblilərdə müşahidə olunan təşviş pozuntularına aydınlıq gətirəcək və onların həlli yollarını göstərəcəyik.

MAIN SYMPTOMS OF ADVERTISING DISORDERS IN ADOLESCENTS

Hakan Seyhan

SUMMARY

When a person is scared and anxious, he secretes more adrenaline. In such cases, he/she is skeptical and quick. Fear that protects us in normal life can lead to anxiety disorder if it is excessive and irrelevant to the situation. The most common physiological symptoms are palpitations, dizziness and fear of suffocation.

In this article, we will clarify the anxiety disorders observed in adolescentsschoolchildrenand show ways to address them.

ОСНОВНЫЕ СИМПТОМЫ РЕКЛАМНЫХ НАРУШЕНИЙ У ПОДРОСТКОВ

Хакан Сейхан

АННОТАЦИЯ

Когда человек напуган и встревожен, он выделяет больше адреналина. В таких случаях он настроен скептически и быстро. Страх, который защищает нас в обычной жизни, может привести к тревожному расстройству, если он чрезмерен и не имеет отношения к ситуации. Наиболее частые физиологические симптомы - учащенное сердцебиение, головокружение и боязнь удушья.

В этой статье мы проясним тревожные расстройства, наблюдаемые у школьников подросткового возраста, и покажем способы их решения.

POSTTRAVMATİK STRESSİN ELMİ-NƏZƏRİ ƏSASLARI

p.ü.f.d. Kamilə Kazımova
BDU-nun Psixologiya kafedrasının baş müəllimi
Babazadə Aytən Samir qızı
BDU-nun I kurs magistrantı
babazade.aytan@gmail.com

Açar sözlər: Stress, travmatik hadisə, Posttravmatik stress pozuntusu
Ключевые слова: Стресс, травматическое событие, посттравматическое стрессовое расстройство
Key words: Stress, traumatic event, Posttraumatic stress disorder

Çətin və ya travmatik bir həyata məruz qalan hər kəs "stress reaksiyaları" yaşayır. Bu reaksiyalar ilk növbədə "anormal hadisəyə normal reaksiyalar" olaraq təyin olunur və onlar aşağıdakı şəkildə özünü biruzə verir:

Davranış əlamətləri: insanlar əvvəlkindən fərqli davrana bilər. Məsələn, daha kəskin davrana, sürətli reaksiya göstərə və qəzəb partlayışları yaşaya bilərlər. Bəzən alkoqol və narkotik maddələrdən asılıq, bəzən isə qida qəbulu pozuntularına rast gəlinə bilər.

Şəxsiyyətlərarası problemlər: insanlar sosial həyatlarında müəyyən problemlər yaşaya bilərlər. Tək qala və ya özünə qapana bilərlər, ətrafdan uzaqlaşmaq istəyi yaranar. Bəzi hallarda insanlara qarşı etibarsızlıq hissi yarana bilər və s [3].

İnsanların müəyyən travmatik hadisələrdən sonra belə reaksiyalar verməsi normaldır. O reaksiyalar verən insanların yeni şəraitə uyğunlaşması gözlənilir. Olub keçmişlərə baxmayaraq, insan həyata davam edə biləcəyini, bu vəziyyətin öhdəsindən gəldiyini və ətrafındakıların dəstəyini nə qədər çox görsə, onun özünə inamı və həyat eşqi o qədər çox artacaq. Bəzi insanlar hansı vəziyyətə düşmələrindən asılı olaraq, özlərinə olan inamlarını artırırlar, düşdükləri vəziyyəti bir fürsət olaraq yeni problemi həll etmə bacarıqlarının artırılması kimi qəbul edirlər. Belə ki, insan həyatında sıxıntı və kədərə səbəb olan bir çox hadisə var, heç də onların hamısı psixi travma yaratmır.

Psixi travma həddindən artıq qorxulu, dəhşətli, qeyri-adi və gözlənilməz hadisələr, şəxsiyyətlərarası və şəxsiyyətdaxili konfliktlər zamanı motivlər mübarizəsi zamanı yaşanan çarəsizlik halları, ailədaxili münaqişələrdə fiziki və mənəvi zorakılığa məruz qalma və s. təsiri nəticəsində yaranır [6].

Əgər travmatik hadisənin üstündən 3 ay keçibsə, lakin stress reaksiyaları bir ay ərzində davamlı olaraq yaşanılırsa, bu hala diqqət yetirmək lazımdır. Belə uzunmüddətli stress reaksiyaları PTSP-na gətirib çıxara bilər [2].

Travmatik stress – ümumi stress reaksiyalarının xüsusi formasıdır. Stress, insanın fizioloji və psixoloji uyğunlaşma imkanlarını aşağı və müdafiəni məhv etdiyi zaman travmatik olur [4].

Travmatik hadisə, bir insanın özünün və ya başqalarının həyatı və təhlükəsizliyi üçün həddinən artıq təhlükəli və ya qorxulu vəziyətdir. Belə vəziyyətlərə təbii fəlakətlər, ağır qəzalar, müharibələr, ölümcül xəstəliklər, fiziki və cinsi zorakılıq göstərilə bilər. Bir və ya bir neçə travmatik vəziyyətin nəticəsində, əgər bir nəfərin özü qurban vəziyyətindədirsə və ya başqa bir insanın başına gələn qorxulu bir hadisəyə şahid olmuşdursa, PTSP formalaşa bilər [7].

Posttravmatik stress pozuntusu (PTSP), insanlar arasında şiddət, döyüş yarası, həyati təhlükəsi olan qəzalar və ya təbii fəlakətlər kimi son dərəcə travmatik hadisələrə məruz qaldıqdan sonra inkişaf edə biləcək bir vəziyyətdir [1].

Tədqiqatlar göstərir ki, travmalardan sonrakı ilk günlərdə hadisəni yaşayan insanların əksəriyyəti psixoloji cəhətdən təsirlənir, qorxur və qarabasmalar görür, lakin bu simptomlar bir çox insanda günlər və ya həftələr içində yox olur. Bununla birlikdə, simptomların aradan qalxması təsirlənən hər 5-6 nəfərdən birində, bəzən illərlə, bəzən də daha uzun çəkə bilər [8].

PTSP olan insanlar travmatik hadisənin bitməsindən çox sonra davam edən təcrübələri ilə əlaqəli sıx, narahat düşüncə və hisslərə sahibdirlər. Hallüsinasiya şəklində hadisəni yenidən yaşaya, kədər, qorxu və ya qəzəb hiss edə və başqa insanlardan ayrı və ya kənar hiss edə bilərlər. PTSP olan xəstələr travmatik hadisəni xatırladan vəziyyətlərdən və ya insanlardan qaça bilər və yüksək səs və ya təsadüfən toxunma kimi adi bir şeyə güclü mənfi reaksiyalar göstərə bilər.

PTSP diaqnozu bir travmatik hadisəyə məruz qalmağı tələb edir. Məsələn, PTSP yaxın bir ailənin və ya dostunun şiddətli ölümü haqqında məlumat əldə edən bir şəxsdə baş verə bilər.

PTSP simptomları dörd kateqoriyaya bölünür.

- Yenidən yaşamaq: təkrarlanan, istəmədən yada düşən əziyyətli xatirələr və ya travmatik hadisənin emosional yaşantıları. Emosional yaşantılar o qədər canlı ola bilər ki, insanlar travmatik hadisəni sanki, yenidən yaşadıqlarını və ya gözləri qarşısında gördüklərini hiss edirlər. Travma almış insanın hadisədən sonra hadisə ilə bağlı xatirələri olması adi haldır. Hadisənin görüntüləri (məsələn, cəsəd şəkilləri), səslər (kömək axtaranların qışqırıqları), onlar haqqında düşünmək üçün heç bir səbəb olmadıqları zaman da insanın ağlına gələ bilər. Bu yaşanılmış hadisənin yada düşməsi adətən insanı çox narahat edir və daxili narahatlıq, ürək döyüntüsü, tərləmə, titrəmə və nəfəs ala bilməmək kimi narahatlıq əlamətlərinə səbəb olur. Bəzən adama elə gəlir ki, bu hadisəni həqiqətən yaşayır. Məsələn, əsl sarsıntı olmadığı zaman yerin titrəməsi kimi hiss etmək və oyaq ikən sanki, travma halını yaşamaq. İnsan bu vəziyyəti o qədər real şəkildə yaşayır ki, ona uyğun hərəkət edə bilər: məsələn, hadisədən danışa bilər, təhlükə olmadan qaçmağa çalışar.

- Travmatik hadisəni xatırlamaqdan çəkinmək: mənfi emosional hadisəyə səbəb ola biləcək insanlardan, yerlərdən, fəaliyyətlərdən, obyektlərdən və vəziyyətlərdən çəkinməyi ehtiva edə bilər. İnsanlar travmatik hadisəni xatırlamaqdan və düşünməkdən çəkinməyə çalışa bilərlər. Baş verənlər və ya bu barədə nə hiss etdikləri barədə danışmağa müqavimət göstərə bilərlər.

- İdrak və əhval-ruhiyyədəki dəyişikliklər: Travmatik hadisənin, özünə və ya başqalarına dair davamlı və təhrif olunmuş inanclara səbəb olan mənfi düşüncə və hisslərin vacib cəhətlərini xatırlaya bilməməyiniz (məsələn, "mən pisəm", "heç kimə etibar etmək olmaz"), hadisənin səbəbi və ya nəticələri haqqında yanlış - özünü və ya digərini günahlandırmağa səbəb olan təhrif olunmuş düşüncələr, davam edən qorxu, dəhşət, qəzəb, günahkarlıq və ya utanc, əvvəllər zövq alınan fəaliyyətlərə daha az maraq, başqalarından ayrı və ya kənar hiss etmək, ya da müsbət hisslər izah edə bilməmək (xoşbəxtlik və ya məmnunluq boşluğu). İnsan hadisəni xatırladan yerdən, vəziyyətdən, danışıqdan, hiss və düşüncələrdən belə uzaq durmağa çalışır. Hadisəni xatırlamaq böyük bir əziyyət, ağrı və qorxu hissinə səbəb olduğu üçün insan hadisəni xatırladan yerlərə getmir, bu mövzularda danışmır. Dağıntılar altında qalan bəzi insanlar evin dağıntılarının yerləşdiyi yeri, hətta o şəhəri ziyarət edə və hadisə barədə danışa bilmirlər.

- Həyəcan və reaktivlikdə dəyişikliklər: Psixi travmadan təsirlənən insanlar özlərini daim ayıq vəziyyətdə hiss edə bilərlər. O hadisənin hər an yenidən baş verəcəyini hiss edə bilər. Bu ehtimalı nəzərə alaraq davranışlarını formalaşdırırlar və bu mövzuda həddindən artıq ehtiyatla davranırlar. Həyəcan və reaktiv simptomlara əsəbi olmaq və qəzəbli partlayışlar daxil ola bilər, ehtiyatsızlıq və ya özünü məhv edən bir şəkildə davranmaq, ətrafını şübhəli bir şəkildə

həddindən artıq seyr etmək, asanlıqla vahimə və ya konsentrasiya və ya yuxuda problem yaşamaq. Məsələn, istəmədən daxil olduqları binada bir çat olub-olmadığını və onun qapısından asanlıqla qaçaraq çıxa bilməyəcəyini yoxlayırlar. Yolda gedərkən aşmağından qorxaraq dirəklərə yaxınlaşmırlar. Təhlükələrlə bağlı şişirdilmiş tədbirlər görə bilərlər [6, 10].

Çətinliklə yuxuya getmək xüsusilə geniş yayılmışdır. Travma qorxusu səbəbiylə yuxuya getmək bir neçə saat çəkə bilər və insan normalda oyanmayacaq səslərlə asanlıqla oyana bilər.

Travmatik hadisəyə məruz qalan bir çox insan hadisədən sonrakı günlərdə yuxarıda göstərilənlərə bənzər simptomlarla qarşılaşır. PTSP diaqnozu qoyulan bir şəxs üçün simptomlar bir aydan çox davam etməli və şəxsin gündəlik işində əhəmiyyətli bir narahatlıq və ya problem yaratmalıdır. Bir çox insanda travmadan sonra üç ay ərzində simptomlar yaranır, lakin simptomlar daha sonra görünə bilər və tez-tez aylar, bəzən də illər davam edir. Simptomlar şiddətinə görə dəyişə bilər. PTSP tez-tez depressiya, narkotik maddə istifadəsi, yaddaş problemləri və digər fiziki və zehni sağlamlıq problemləri kimi digər əlaqəli xəstəliklərlə ortaya çıxır [10].

Travma keçirmiş insanlar bəzən hadisənin təsüratlarını unuda bilərlər. Çox vaxt hadisənin ən ağır epizodları unudulur və ya çətin xatırlanır. Bu vəziyyət "hadisə haqqında düşünmək istəməmək" dən fərqlidir və insan xatırlamaq istəsə də, xatırlaya bilmir.

Müəyyən amillər posttravmatik stress pozuntusunun inkişaf riskini artıra bilər. Bunlara qısamüddətli və ya uzunmüddətli yaşanılan bir travma, hüquq mühafizə orqanları, hərbi xidmət, xilasetmə qrupları və ya sağlamlıq xidmətləri, digər psixi sağlamlıq kimi travmatik hadisələrə məruz qalma riskini artıran bir işə sahib olmaq, narahatlıq və ya depressiya problemləri, həddindən artıq alkoqol və ya narkotik istifadəsi, ailə və ya dostlar arasında yaxşı bir dəstəyin olmaması və ailədə narahatlıq və ya depressiya daxil olmaqla ruhi sağlamlıq problemləri olan qan qohumlarının olması daxildir.

PTSP simptomları arasında travma, əsəbilik, hiperviqans (təhlükə potensialı ilə məşğul olmaq) vəziyyəti, narahat yuxu, zəif konsentrasiya və emosional vəziyyətin ifadə edilə bilinməməsi və ya qeyri-müəyyənliyi ilə əlaqəli sıxıcı və müdaxiləli xatirələr və qarabasmalar var. PTSP olan şəxslər tez-tez travmanı xatırladan yerlərdən, fəaliyyətlərdən və ya şeylərdən uzaq olmağa çalışırlar. Birgə yaranan şərtlərə narkotik maddə asılılığı, əhval-ruhiyyə və narahatlıq pozğunluqları, impulsiv və ya təhlükəli davranış və ya özünə zərər vermə daxildir [10].

PTSP ayrıca xroniki ağrı və iltihab, kardiometabolik pozuntular və yüksək demensiya riski və s. daxil olmaqla düşünülmüş tibbi xəstəliklərlə də əlaqələndirilir.

XBT-10 üzrə təsnifatda F43.1 Posttravmatik stress pozuntusu olaraq adlandırılır. PTSP-nin XBT-10 diaqnostikası pasiyentin ilk növbədə travmatik hadisə ilə üzləşməsini, ikincisi isə təkrar yaşama simptomlarından əziyyət çəkməsini tələb edir. Bununla yanaşı pasiyentlərdə travmatik hadisənin xatırladan hər şeydən qaçma və bəzi yüksək oyanıqlıq, yaxud emosional donma simptomları da müşahidə oluna bilər [5].

Beləliklə, PTSP-ə aid olan ümumi xəstəlik yükü (əlillik və vaxtından əvvəl ölüm) DSM-5-ə uyğun olaraq PTSP üçün mövcud diaqnostik meyarları son dərəcə açıqlayır. Bunlara yerinə yetirilməsi lazım olan bir neçə kriteriya və simptom daxildir. Diaqnostik kriteriyalardakı bu dəyişikliklərlə yanaşı PTSP-da elmi tədqiqatlarda böyük bir dəyişiklik olmuşdur [11].

PTSP, keçmişdə Birinci Dünya Müharibəsi illərində “qabıq şoku” və II Dünya Müharibəsindən sonrakı “döyüş yorğunluğu” kimi bir çox adla tanınmışdı. PTSP, hər hansı bir etnik, milliyət və ya mədəniyyətdən olan bütün insanlarda və hər yaşda ola bilər. PTSP hər il ABŞda səlahiyyətli şəxslərin 3,5%-nə təsir göstərir və təxminən 11 nəfərdən birinə həyatı boyunca PTSP diaqnozu qoyulacaqdır. PTSP xəstələrinin qadınlara nisbətən kişilərdə iki dəfə

çoxdur. Üç etnik qrup - Latın Amerikalıları, Afro Amerikalılar və Amerikalı Hindistanlılar – qeyri-mütənasib şəkildə təsirlənir və PTSP nisbətləri Latın Amerikalı olmayan ağlardan daha yüksəkdir.

Besse van der Kolk, travmadan sonra stress mövzusunda araşdırması ilə tanınan Hollandiyalı bir psixiatrdır. Kolk, travma zamanı beynin indiki anı yaşamağa cavabdeh olan hissəsi olan medial frontal korteksin nitq mərkəzinə bağlandığını izah edir. İnsanlar travmatik təcrübələrini yüngülləşdirdikdə, prefrontal korteksin zəiflədiyini və nəticədə düşünmək və danışmaqda çətinlik çəkdiklərini söyləyir. Nə baş verdikləri barədə nə özləri, nə də başqaları ilə ünsiyyət qura bilmirlər[4].

Rachel Yehuda, Nyu-Yorkdakı Mount Sinai Tibb Fakültəsində Psixiatriya və Nevrologiya üzrə professor və aparıcı mütəxəssisdir. Yehuda, çoxsaylı araşdırmalarda PTSP-nun soyqırımdan xilas olanların və onların uşaqlarının neyrobiologiyasını araşdırmışdır. Kortizol (travmadan sonra bədənimizin normala dönməsinə kömək edən stress hormonu) və kortizolun beyin funksiyalarına təsiri üzərində apardığı tədqiqatlar, PTS-in dünya səviyyəsində başa düşülməsində və müalicəsində köklü dəyişikliklər etdi.

Yehuda və əməkdaşları, PTSP olan, soyqırımdan sağ qalanların uşaqlarının, valideynləri kimi olan kortizolun miqdarının az olduğunu, əvvəlki nəslin PTSP simptomlarını canlandırmağa meylli olduğunu araşdırıb tapdılar. Yehudanın kəskin travmatik hadisəni yaşayan insanlarda kortizol hormonunun ifrazının aşağı olmasını aşkar etməsi uzun müddətdir narahatlıq doğurur. Stressin yüksək kortizol səviyyəsi ilə əlaqəli olduğu fikirlərinə zidd olduğu üçün mübahisələrə səbəb oldu. Xüsusilə xroniki PTSS vəziyyətində kortizol ifrazı azalır və həm soyqırımdan sağ qalanlar, həm də uşaqlarında belə kortizol ifrazının azalması, kortizolun aşağı səviyyədə olmasına gətirib çıxarır.

Yehuda, PTS də daxil olmaqla bir çox stresslə əlaqəli psixiatrik xəstəliklərin xroniki ağrı sindromu və onun səviyyələri ilə əlaqəli olduğuna diqqət çəkdi. PTSP olan xəstələrin 50-70%-i getdikcə daha çox depressiya və ya başqa bir nevroz və ya narahatlıq pozğunluğu üçün diaqnoz meyarlarına cavab verir.

Yehudanın araşdırması göstərir ki, valideynlərimizdən birində PTSP varsa, PTSP simptomları ilə qarşılaşma ehtimalımız üç dəfə çoxdur və nəticədə depressiya və ya narahatlıq keçirmə ehtimalımız yüksəkdir. Yehuda travmadan xilas olanların yaşadıqları travmaların fiziki və emosional simptomlarını necə birbaşa çatdırdığını göstərən ilk tədqiqatçılardan biri idi.

Rachel Yehudaya görə, epigenetik dəyişikliklər, valideynlərimizin yaşadığı travmalarla mübarizə aparmaq üçün bizi bioloji cəhətdən hazırlayır. Oxşar stresslərə hazır olmağımız və həyatda qalmağımız üçün müəyyən vasitələrlə doğuluruq. Yehuda qeyd edirdi ki, stressli vəziyyətlərə uyğunlaşmağımızı təmin edən, "ətraf mühitə uyğunlaşma" qabiliyyətinə sahib olan anadangəlmə bir qabiliyyətə sahibik. Lakin bu bir tərəfdən də zərərlidir. Daha əvvəl müharibə bölgəsində yaşayan bir valideynin uşağı bu qabiliyyət yolu ilə anidən verilən yüksək səslərə qarşılıq olaraq həyəcanlı reaksiya verir. Belə bir vəziyyətdə uşağın epigenetik olaraq xarici qıcıqlara daha həssas olması və onun ətraf mühitlə arasında uyğunlaşması pozulur. Belə pozuntunun yaranması insanın həyatının müəyyən mərhələsində stress pozuntuları və xəstəliklərə meyilli bir hala gətirir.

Yehuda və əməkdaşları, Bioloji Psixiatriya jurnalında 2015-ci ilin avqust ayında nəşr olunan bir araşdırmada, Nyu-Yorkdakı Mount Sinai Xəstəxanasında gen dəyişikliyindən sonra onları valideynlərindən övladlarına ötürə biləcəklərini izah etdi. Yehuda və əməkdaşları, FKBP5 geninin stressi tənzimləyən müəyyən bir hissəsini araşdırdıqdan sonra, travma almış Yəhudiləri və uşaqlarını, soyqırım zamanı oxşar genetik bir qanunauyğunluqla bölüşdüklərini aşkarladı. Xüsusilə, həm valideynlərin, həm də uşaqların eyni gen seqmentində epigenetik markerlərə sahib

olduqlarını fərq etdilər. Bu nəticələr müharibə dövründə Avropadan kənarda yaşayan Yəhudi ailələri ilə müqayisə edildi və uşaqlarda gen dəyişikliyinin yalnız valideynlərinin yaşadığı travma səbəbi ola biləcəyi qənaətinə gəldilər [4].

Asılılıq mövzusunda uzman bir psixiatr Dr. David Sack, "Psychology Today" nəşr olunan məqaləsində, "Travma keçmişə uzanaraq yeni bir qurban seçmək gücünə sahibdir" yazmışdı. "Travma sonrası stress pozuntusu ilə mübarizə aparan bir valideynin uşaqları bəzən PTS inkişaf edə bilər və buna ikincilli PTS deyilir."Dr. Sack İraq və Əfqanıstanda işləmiş və PTSP inkişaf edən valideynləri olan uşaqların təxminən 30%-inin oxşar simptomlarla qarşılaşdığını qeyd etmişdir. Dr. Sack, izah etmişdir ki", Valideynin travması uşağın travmasına çevrilir və uşağın davranış və emosional problemləri valideynin vəziyyətini anlaya bilər" [4].

Aparılan tədqiqatlar nəticəsində müəyyən olunmuşdur ki, əhalinin 39-90%-i ən az bir dəfə olsun travmatik hadisə yaşayır. Onlar arasında keçirilən tədqiqatlarda ən geniş yayılmış psixotravmatik faktorlara - ağır somatik travmalar (9,4%), fiziki təzyiq (8,3%), başqasının ağır yaralanması və ya ölümünə şahid olma (7,1%), yaxınlarının qəflətən ölümü və ya ağır xəstələnməsi (5,7%), cinsi zorakılıq (2%) aiddir.

Kessler apardığı tədqiqatlar nəticəsində belə qərara gəldi ki, travmatik hadisədən sonra PTSP-nin yaranma ehtimalı kişilərdə 8,1%, qadınlarda 20,4%-dir. Nisbətən gənc şəhər əhalisində bu göstərici isə daha yüksəkdir, kişilərdə 13%, qadınlarda isə 30,2% [5].

Beləliklə PTSP-nu yaradan amillər çox müxtəlifliyi ilə seçilir və insanın psixi travma alması ilə nəticələnir ki, bunun da qarşısı vaxtında alınmasa, daha da ağır fəsadlara yol açа bilər.

ƏDƏBİYYAT

1. N. İsmayılov. Psixiatriya. "Apostroff", Bakı: 2013
2. R.Ə.Cavadov, G.B.Tağıyeva. Ekstremal şəraitlərdə psixoloji xidmət. Bakı:2006
3. Dr. Claudia Herbert. Travma sonrası psikolojik tepkileri anlamak. Travmaya uğrayanlar ve aileleri için rehber. Psikonet yayınları: 2015
4. Mark Wolynn. It didn't start with you. How Inherited Family Trauma Shapes Who We Are and How to End the Cycle/2016
5. https://www.isim.az/upload/File/reports/73_POSTTRAVMATIK_STRESS_A5.pdf
6. https://www.acibadem.com.tr/ilgi-alani/travma-sonrasi-stres-bozuklugu/
7. https://www.dbe.com.tr/tr/yetiskin-ve-aile/8/travma-sonrasi-stres-bozuklugu-tssb-nedir/
8. http://www.humanitepsikiyatri.com/wp-content/uploads/2018/01/travma-sonrasi-stres-bozukluklari-kitap.pdf
9. https://www.psikiyatri.org.tr/halka-yonelik/28/travma-sonrasi-stres-bozuklugu
10. https://www.psychiatry.org/patients-families/ptsd/what-is-ptsd
11. https://www.researchgate.net/publication/282796995_Post-traumatic_stress_disorder

POSTTRAVMATİK STRESSİN ELMI NƏZƏRİ ƏSASLARI

Kazımova Kamilə, Babazadə Aytən

XÜLASƏ

Travma, bir insanın narahat edən bir hadisəyə emosional reaksiyasıdır. Az adam həyatdan bir növ travma ilə qarşılaşmadan keçə bilər. Adi çətinliklərdən fərqli olaraq, travmatik hadisələr

ani və gözlənilməz olur, bədən xəsarəti və ya ölüm kimi həyat üçün ciddi bir təhlükə ehtiva edir və bir insanın nəzarətindən kənar hiss edirlər. Ən başlıcası, hadisələr bir insanın dünyadakı təhlükəsizlik hissini zəiflətdiyi və fəlakətin hər an baş verə biləcəyi hissi yaradan dərəcədə travmatikdir. Uşaqlıqda valideyn itkisi, avtomobil qəzaları, fiziki zorakılıq, cinsi təcavüz, hərbi döyüş təcrübələri, yaxınlarınızın gözlənilməz itkisi ümumiyyətlə travmatik hadisələrdir. Bir və ya bir neçə travmatik vəziyyətin nəticəsində, əgər bir nəfərin özünü qurban vəziyyətindədirsə və ya başqa bir insanın başına gələn qorxulu bir hadisəyə şahid olmuşdursa, PTSP formalaşa bilər.

Kiber zorakılıq çox tədqiqat tələb edən çox konseptual bir mövzudur. Hərtərəfli ədəbiyyat axtarışından sonra kiber zorakılığın yeniyetmələrə dağıdıcı təsirlərini göstərən ən pis zorakılıq növlərindən biri olduğu qənaətinə gəlinmişdir. Hədəfli bir qurban, kiber zorakılıq nəticəsində özünə inamsızlıq, zəif məktəb müvəffəqiyyəti, asılılıq, psixosomatik pozğunluqlar, intiqam davranışı, emosional sıxıntı, intihar meylləri və s. ilə qarşılaşa bilər(Mir Ali Raza Talpur, Tabinda Touseef, 2018). Kiber zorakılıq həm də cinayətkarlarda da ciddi psixososial pozuntular yarada bilər. Kiber zorbalığa qurban və ya cinayət törətmiş şəxs kimi daxil olan bütün şəxslər bu problemin bəzi ciddi nəticələri ilə qarşılaşırlar ki, bu problem yalnız onunla mübarizə aparmaq üçün aktiv tədbirlərlə azaldıla bilər.

Onlayn kiber zorakılığın artan yayılması yeni bir problemə - gənclərdə depressiyaya səbəb olmuşdur. Kiber zorakılığın qurbanı olan gənclər, kədər, tənhalıq, özünə inamsızlıq, zəif hörmət, təcrid, akademik tənəzzül və intihar düşüncələri də daxil olmaqla depressiya əlamətləri ilə qarşılaşa bilərlər. İnternetdəki zorakılıq qurbanı olduqdan sonra intihar edən bir gəncin xəbərini eşitmək geniş yayılmışdır.

Yeniyetmələr cəmiyyətin həssas bir hissəsinə aid olduqları və onlayn məkanlardan həddindən artıq istifadə etdikləri üçün bunun ən çox görülən qurbanıdırlar. Kiber zorakılığa məruz qalan yeniyetmələrdə artan narahatlıq, aşağı və kədərli əhval-ruhiyyə, məktəbdə dərsdən kənar qalma, özünə hörmətin azaldılması, fokuslaşma çətinliyi və həddindən artıq vəziyyətdə intihar kimi bir sıra duyğular yaşanır (https://digitalrightsfoundation.pk/cyber-bullying-and-its-effects-on-teenagers-adolescents/, 19.02.2021). Kiber zorakılıq və yeniyetmələrin zehni sağlamlığı bir-biri ilə güclü bir əlaqə yaradır. İnternetdəki təcavüzün günahkarlıq, narahatlıq və depressiya hisslərini meydana gətirdiyini təsdiqləyən geniş bir araşdırma aparılmışdır. Bir çox

yeniyetmənin ünsiyyət qurmaqda çətinlik çəkdiyi üçün bu vəziyyət daha da ağırlaşır. Bu, özlərini günahlandırmaya səbəb olur ki, nəticədə intihar etmələrinə səbəb ola bilər.

Bəzən kiber zorakılıq həm də yeniyetmələrin özlərini təcrid etmələrinə və vaxtlarını onlayn utanmağın nəticələri barədə narahatlıqla keçirməsinə gətirib çıxarır. Eynilə, kiber təcavüzə məruz qalan uşaqlar hiddətlənə bilər və sonrakı yaşlarında münasibət problemi ola bilər. Kiber qurbanları təsirsiz yaşıdlarına nisbətən yuxu çətinliyi, baş ağrısı və mədə ağrısı da daxil olmaqla somatik problemlərlə qarşılaşırlar. Bir çox uşaq, kiber təcavüzdən sonrakı utancını aradan qaldırmaq üçün narkotik maddə istifadəsinə yönələ bilir (Amerika Birləşmiş Ştatları. Konqres. Cinayət üzrə Alt Komitə, 2001).

Təəssüf ki, yeniyetmələrin əksəriyyəti rəqəmsal təhlükəsizlikdən xəbərsizdirlər, buna görə də kiber zorakılığın qurbanı olurlar. Araşdırmaların böyük əksəriyyəti son on ildə kiber təcavüzün o qədər geniş vüsət aldığını göstərir ki, bu, ictimai səhiyyə problemi hesab edilməkdədir.

Bir yetişkin fərd olaraq, yeniyetmənin kiber zorakılığın qurbanı olub olmadığını bilmək çətin ola bilər, çünki bir çox araşdırma gənclərin və yeniyetmələrin yaşadıqlarını nadir hallarda bir yetkinə izah etdiklərini göstərməkdədir. Yeniyetmənizdə müşahidə edilməli olan bəzi əlamətlər bunlardır:

1. Əvvəllər sevdikləri ailədən, dostlarından və fəaliyyətlərindən geri çəkilmək;
2. Dərs qiymətlərin açıqlanmayan bir azalması;
3. Məktəbə, xüsusi siniflərə və ya müəyyən qrup fəaliyyətlərinə getməkdən imtina etmək;
4. Əhval, davranış, yuxu və iştahdakı dəyişikliklər;
5. Müzakirələrdən qaçmaq, cib telefonu və ya kompüter fəaliyyətləri ilə bağlı gizlilik(Chadwink, S, 2014).

Qarşısının alınması üçün görülə biləcək tədbirlər

Zorakılığın bu forması onlayn baş verdiyindən, idarə olunması və mübarizə aparmaq hər zaman çətin olmuşdur. Bununla birlikdə, valideynlərin və məktəb rəhbərlərinin problemi idarə etmək və kiber zorakılığın hədəfi olanlara kömək etmək üçün atacaqları addımlar var:

Gənclərə yaxşı rəqəmsal vətəndaşlığın təbliğ edilməsi - Valideynlər və müəllimlər eyni zamanda uşaqlara düzgün onlayn davranışın vacibliyini və yaxşı davranış qaydalarına onlayn əməl etməməyin nəticələrini öyrətmək üçün səy göstərməlidirlər (https://www.sageday.com/blog/how-cyberbullying-impacts-teens, 21.02.2021).

Qurbanların önə çıxmasının təhlükəsizləşdirilməsi - Kiber təcavüzə məruz qalan bir çox gənc, ciddi qəbul olunmayacaqlarından və ya yaşıdlarına xəbər verdikləri üçün sosial olaraq əziyyət çəkəcəklərindən qorxaraq irəli çıxmaqdan qorxurlar. Valideynlər və məktəblər qurbanların nəticəsiz və gözardı olunma qorxusu olmadan ortaya çıxmalarını təhlükəsiz etməlidirlər.

Kiber zorakılığın təsirlərinə ciddi yanaşılması - İnsanda baş verən zorakılıq kimi, kiber zorakılıq da qurbanlarında ciddi zehni və fiziki sağlamlıq problemlərinə səbəb ola bilər (https://www.sageday.com/blog/how-cyberbullying-impacts-teens, 21.02.2021).

Yeniyetmələrin kiber zorakılığın zərərli təsirlərini yaşamağının qarşısını almaq üçün ən yaxşı yollardan biri, ilk növbədə meydana gəlməsini dayandırmaqdır, ancaq yeniyetməniz onlayn zorakılığın qurbanı olmuşdursa, depressiya və narahatlıq üçün bir psixiatr kömək edə bilər. Şəxsi zorakılığın digər formalarından fərqli olaraq, kiber zorakılıq həftənin 7 günü 24 saat davam edə bilər. Qurbanları onlayn təcavüzkarlarını müəyyənləşdirə bilmədikdə, hər kəsin onlara qarşı olduğunu düşünürlər.

Valideynin övladının kiber zorakılığın qarşısını almaq və ya onu açmaq üçün edə biləcəyi ən vacib şeylərdən biri də ünsiyyət sahələrini açıq saxlamaqdır. Yeniyetmələrə onlayn həyatları

haqqında danışmağa vadar etmək lazımdır. Uşaqların ağıllı telefonunda və ya planşetində valideyn nəzarəti tətbiqetmələrindən istifadə edilməli və onların onlayn fəaliyyətlərinin izləmənməsi üçün kompüterlərində filtrlər quraşdırılmalıdır (Mike Brooks, Jon Lasser, 2018).

Yeniyetmənin dostlarının kim olduğunu bilmək və yeniyetmənin onlayn ünsiyyətlərini yoxlamaq lazımdır. Yeniyetmələrin təhdid edici mesajlar aldıqlarını və ya başqa şəkildə kiber hədəf alındıqlarını söyləməyə təşviq edilməlidir. Valideynlər övladlarının adını internetdə axtarışa verərək, onun haqqında mənfi və ya yalan məlumat yerləşdirilməsini vaxtında müəyyən edə bilərlər. Zorakılıq davranışı aşkar edildikdə, veb saytı və ya tətbiqetmə rəhbərliyi dərhal xəbərdar edilməli və hadisə ilə bağlı istintaq başlanması tələb edilməlidir. Kobud davranış barədə yeniyetmənizin məktəbinə xəbərdarlıq etməklə, zorakılıq müəyyənləşdirilə bilməsi də faydalı ola bilər (Michelle Mei Ling Yeo, 2016).

Nəticə. Kiber zorakılıq çox tədqiqat tələb edən çox konseptual bir mövzudur. Hərtərəfli ədəbiyyat axtarışından sonra kiber zorakılığın yeniyetmələrə dağıdıcı təsirlərini göstərən ən pis zorakılıq növlərindən biri olduğu qənaətinə gəlinmişdir. Kiber zülmkar cinayətkarlar, hədəf almış qurbanları və eyni zamanda aktiv cinayətkarı pis təsir edən psixoloji məmnuniyyəti naminə insanları onlayn şəkildə sataşmaq üçün kiber mənbələrdən müxtəlif yollarla sui-istifadə edirlər.

Hədəfli bir qurban, kiber zorakılıq nəticəsində özünə inamsızlıq, zəif məktəb müvəffəqiyyəti, asılılıq, psixosomatik pozğunluqlar, intiqam davranışı, emosional sıxıntı, intihar meylləri və s. ilə qarşılaşa bilər. Kiber zorbalığa qurban və ya cinayət törətmiş şəxs kimi daxil olan bütün şəxslər bu problemin bəzi ciddi nəticələri ilə qarşılaşırlar ki, bu problem yalnız onunla mübarizə aparmaq üçün aktiv tədbirlərlə azaldıla bilər.

Bir yeniyetmə bir müddət zorakılığa məruz qalıbsa, bu zorakılığın təsirlərinə qarşı durmaq vacibdir. Yeniyetməlikdəki zorakılıq zamanı başlıca ziyan gəncin özünə hörmət etməsi və özünə dəyər vermək hissində meydana gələn zərərdir. Bu zərərdən yaxa qurtarmaq üçün qurbanın həyatda yaşanan çətinliklərlə üzləşməsini təmin edəcək güclü, möhkəm və çevik bir şəxsiyyət yaratmağa kömək edilməlidir. Ağıllarına qoyduqlarını həyata keçirə biləcəyinə inanmağa imkan verən daxili inamı inkişaf etdirməlidirlər, əks halda həyatı ümidsiz və mənasız olaraq qəbullana bilərlər.

ƏDƏBİYYAT

1. Amerika Birləşmiş Ştatları. Konqres. Cinayət üzrə Alt Komitə(2001), “Fighting Cyber Crime”, U.S. Government Printing Office, Vaşinqton, s.92.
2. BOCİJ Paul (2004), “Cyberstalking: Harassment in the Internet Age and how to Protect Your Family”, Greenwood Publishing Group, London, s.5.
3. BROOKS Mike, LASSER Jon (2018), “Tech Generation: Raising Balanced Kids in a Hyper-Connected World”, Oxford University Press, s.149.
4. Oswaal Editorial Board(2020), “Oswaal CBSE Question Bank Class 12 Informatics Practice Chapterwise”, Oswaal Books and Learning Pvt Ltd, Aqra, s.80.
5. KOUTOUKİDİS Gabrielle, STAİNTON Kate(2020), “Tabbner's Nursing Care: Theory and Practice”, Elsevier, Melburn, s.347.
6. Milli Elmlər Akademiyası ABŞ(2004), “Issues in Science and Technology,”, Ohio Dövlət Universiteti, s.43.
7. MOORE Michael J., TADASHİ Tadashi Nakano(2012), “Anonymity and roles associated with aggressive posts in an online forum”, Computers in Human Behavior jurnalı, London, s.3.
8. NİXON Charisse L(2014), “Current perspectives: the impact of cyberbullying on adolescent health”, Adolesc Health Med Ther, s.3.

9. RİCHARDSON Chris(2020), "Violence in American Society: An Encyclopedia of Trends, Problems, and Perspectives", ABC-CLIO, Santa Barbara, s.143.
10. S. Chadwink(2014), "Impacts of Cyberbullying, Building Social and Emotional Resilience in
Schools", Springer, New York, s.45.
11. TALPUR Mir Ali Raza, TOUSEEF Tabinda (2018), "Effects of Cyber Bullying on Teenagers: a Short Review of Literature", Journal of Addiction and Psychology, San Fransisko, s.4.
12. YEO Michelle Mei Ling(2016), "Why Are You Always On The Phone? Smart Skills With The Smartphone Generation", World Scientific, Sinqapur, s.40.
13. Cyberbullying Research Center, "What is Cyberbullying?", Giriş adresi: https://cyberbullying.org/what-is-cyberbullying,
14. İSRAA Sara(2020), "Cyber Bullying And Its Effects On Teenagers/Adolescents", Giriş adresi: https://digitalrightsfoundation.pk/cyber-bullying-and-its-effects-on-teenagers-adolescents/,
15. Staff Writers(2021), "Cyberbullying in School: Prevention and Support", Giriş adresi: https://www.accreditedschoolsonline.org/resources/cyberbullying-prevention-and-support/,
16. Yael (2015), "How Cyberbullying Impacts Teens", Giriş adresi: https://www.sageday.com/blog/how-cyberbullying-impacts-teens.

KİBER ZORAKILIĞA MƏRUZ QALAN YENİYETMƏLƏRİN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

Nur Özge

XÜLASƏ

İnternet müasir təhsilin müəyyənedici amilidir. Əslində, təhsil internet səbəbindən hər zamankindən daha əlçatan və geniş yayılmışdır. Rəqəmsal dərsliklərdən onlayn dərəcə almağa qədər daha çox sinif funksiyası və tələbə təcrübəsi kiberməkana keçir - təəssüf ki, zorakılıq da daxil olmaqla. İnternetin şagirdlərə, valideynlərə və müəllimlərə bəxş etdiyi bütün yaxşılıqlara baxmayaraq, ondan pis niyyətlə istifadə edən insanlar vardır. Zorakılıq zamanın başlanğıcından bəri mövcud olduğu kimi, virtual zorakılıq da internetin başlanğıcından bəri mövcuddur.

ПСИХОЛОГИЧЕСКИЕ ХАРАКТЕРИСТИКИ ПОДРОСТКОВ, ПОДВЕРГАЮЩИХСЯ КИБЕРНСИЛИЯМ

Нур Озге

АННОТАЦИЯ

Интернет - определяющий фактор в современном образовании. Фактически, благодаря Интернету образование стало более доступным и распространенным, чем когда-либо. От цифровых учебников до онлайн-дипломов все больше функций в классе и студенческий опыт переходят в киберпространство - к сожалению, включая насилие. Несмотря на все хорошее, что Интернет сделал для учащихся, родителей и учителей, есть люди, которые злоупотребляют им. Подобно тому, как насилие существовало с

незапамятных времен, виртуальное насилие существовало с момента появления Интернета.

PSYCHOLOGICAL CHARACTERISTICS OF ADOLESCENTS EXPOSED TO CYBER VIOLENCE

Nur Özge

SUMMARY

The Internet is a determining factor in modern education. In fact, education is more accessible and widespread than ever because of the Internet. From digital textbooks to online degrees, more classroom function and student experience are shifting to cyberspace - unfortunately, including violence. Despite all the good things the Internet has done for students, parents, and teachers, there are people who use it in bad faith. Just as violence has existed since the beginning of time, so virtual violence has existed since the beginning of the Internet.

YENİYETMƏLƏRİN SOSİALLAŞMASINA TƏSİR EDƏN FAKTORLAR

İsmayıllı Nərgiz Firdovsi qızı
BDU-nun II kurs magistrantı
nergiz.ismayıllı@gmail.com

Açar sözlər: sosiallaşma, yeniyetmələk,yeniyetmələk, ailə, məktəb.
Ключевые слова: социализация, юность, подросток, семья, школа.
Key words: socialization, teenager, adolescence, family, school.

Yeniyetmələk dövrü fiziki, cinsi və psixo-sosial yetkinləşmə ilə başlayıb fərdin müstəqilliyinin, mənlik hissinin və sosial zəkasının, bacarıqlarının formalaşması ilə başa çatan bir dövrdür. Klassik ədəbiyyatlarda yeniyetmələk yaş dövrü 11-15 yaşları götürülür. Bu dövr etnik, mədəni, sosial amillərdən asılı olaraq bir il gec və ya tez başlaya bilər. Uşaqlıqdan yeniyetməliyə keçid bəzi bioloji, psixoloji, sosial dəyişikliklərlə xarakterizə edilir. Yeniyetmələrdə bioloji inkişaf skelet sistemindəki sürətli böyümə və cinsi inkişafla, psixoloji inkişaf psixi proseslərin inkişafı və şəxsiyyətin strukturunun formalaşmasıla xarakterizə edilir. Sosial olaraq da yeniyetmə yetişkin roluna hazırlanır. Yeniyetmələk uşaqlar və ailələrində bir çox dəyişikliklərin meydana gəldiyi dövrdür. Yeniyetmələr artıq daha mürəkkəb problemləri həll etməyə, digər insanların baxışlarını anlamağa başlayırlar. Yeniyetmələr bu dövrdə müstəqil olmaq və şəxsiyyətlərini formalaşdırmaq yolunda çox çətin bir dövrdən keçirlər.

Yeniyetmələrin formalaşmasında və inkişafında hansı amillərin üstün olduğula bağlı ədəbiyyatlarda xeyli sayda tədqiqatlara rast gəlmək mümkündür. G. Stanly Hallun 1904-cü ildə yayımlanan "Yeniyetmələk" kitabı yeniyetməliyə aid fikirlərin yenidən formalaşdırılmasında önəmli rol oynamışdır. Hall o dövrdə yeniyetmələrlə bağlı elmi çalışmalara rəhbərlik etmişdir. Hall Darvinin təkamül nəzəriyyəsindən olduqca çox təsirlənmişdir. O, Darvinin düşüncələrini yeniyetmələrin inkişafıla bağlı apardığı tədqiqatlara uyğunlaşdırmış və inkişafın bioloji faktorlar tərəfindən idarə edildiyini irəli sürmüşdür. Yeniyetməliyə Fırtına- stress baxışı, yeniyetməliyin münaqişələr və əhval – ruhiyyə dalğalanmaları ilə müşahidə olunan tələtümlü zaman olduğuna dair Hallun yanaşmasıdır.[4,s.21] Halla görə yeniyetmələrin düşüncələri, duyğuları və hərəkətləri xoşbəxtlik və üzüntü kimi iki qütb arasında gedib gəlməkdədir. Hallun tədqiqatları yeniyetmələk dövrünün öyrənilməsi baxımından önəmli yerə sahibdir.

Yeniyetmələk dövrünə sosial-mədəni baxış etnoqraf Marqaret Midə məxsusdur. Mid insan şəxsiyyətinin formalaşmasına mühitin və ictimai tarixi şəraitin təsirini müəyyənləşdirmək üçün Samoa adasında yaşayan yeniyetmələr üzərində tədqiqat aparmış və müəyyən etmişdir ki, qız və oğlanlarda yeniyetmələk düvrünün böhranı heç də bioloji amillərlə deyil, sosial amillərlə şərtlənir. Mid Samoada uşaqların yeniyetmələk dövrünü problemsiz, stressdən uzaq keçirdiklərinin şahidi olmuşdur.[1, s.303]

Yeniyetmələrin inkişafına Ekoloji yanaşma Urie Bronfenbrennerə məxsusdur. Bronfenbernnerin ekoloji yanaşmasına görə yeniyetmələrin inkişafına mikro, makro, mezo,krono və ekzosistemlər təsir göstərir.[4, s.32]

Mikrosistem, yeniyetmənin içərisində yaşadığı mühitdir. Bura yeniyetmənin ailəsini, həmyaşıdlarını, məktəbini və s.aid etmək olar. Valideynlər, həmyaşıdlar və müəllimləri kimi sosial aktyorlarla birbaşa münasibətlər mikrosistemdə meydana gəlir.

Mezosistem, mikrosistemlər arasındakı münasibətləri özündə ehtiva edir. Ailə yaşantısı və məktəb həyatı arasındakı münasibət, ailə ilə həmyaşıdlar arasındakı münasibət mezosistemə

nümünədir. Məsələn, valideynləri tərəfindən rəddedilən yeniyetmələr müəllimlərilərilə müsbət münasibətlər qurmaqda çətinlik çəkərlər.

Ekzosistem yeniyetmənin aktiv bir rol almadığı sosial əhatə və fərdin yaxın ətrafı arasındakı münasibətləri əhatə edir. Məsələn, ata-ananın iş yeri. Ananın iş yerindəki mühiti evdəki münasibətlərə təsir edə bilər.

Makrosistemə yeniyetmənin yaşadığı mədəniyyət daxildir.

Kronosistem, ətraf mühit hadisələri, həyat boyu keçidlər və sosial- tarixi şərtləri özündə ehtiva edir. Məsələn, boşanma bir keçiddi. Araşdırmacılar boşanmanın yeniyetmələrə mənfi yöndən təsir etdiyini və boşanmadan sonrakı iki ilin yeniyetmə üçün çətin keçdiyini müəyyənləşdirmişlər.

Bronfenbrenner yanaşmasına sonradan bioloji faktorları əlavə etmiş və bioekoloji bir yanaşma olaraq tamamlamışdır. Lakin, onun yanaşmasında ekoloji, ətraf mühit faktorları daha ağır basır.[4,s.33]

Qeyd edək ki, yeniyetmələrin inkişafına həm bioloji, həm sosial-mədəni, həm də ətraf mühit amilləri təsir göstərir.

Yeniyetməlik dövrünün başlanğıcında özünü göstərən dəyişikliklər yeniyetmənin valideynləri və sosial əhatəsindəki insanlara münasibətlərinə təsir edir. Yeniyetməliyin ortalarına doğru fərd yeni bədəninə öyrəşərək daha rahat davranmağa başlayır və yeni bədənini əhatə edəcəkyeni mənlik axtarışına girir. Bu dövrdə müstəqillik istəkləri gücləndiyi üçün özlərini valideynlərindən uzaq tutmağa, böyüklərlə hesablaşmamağa başlayırlar. Bu yaş dövründə yeniyetmələr valideynlərindən daha çox sosial əhatəsilə vaxt keçirdirlər. Yeniyetmələrin cəmiyyətdə mövcüd olan sosial normaları, davranış qaydalarını mənimsəmələri sosiallaşma prosesi vasitəsilə gərçəkləşir. Sosiallaşma sosial proses olaraq fərdin doğuşdan etibarən cəmiyyətin üzvlüyünü qazanmaq üçün müəyyən mərhələlərdən keçərək ondan gözlənən rol və sosial normaları mənimsəməsi prosesidir. Başqa sözlə, sosiallaşma bir öyrənmə müddəti olaraq yaşadığı cəmiyyətin istəyinə uyğun olaraq sosial-mədəni dəyərlərin uşağa ötürülməsi prosesidir. Məlum məsələdir ki, fərdin sosiallaşması ailədən başlayır. Məktəb, həmyaşıdlar qrupu və KİV sosiallaşma prosesinə təsir edən faktorlardır.

Cəmiyyətdə mövcüd olan yaxşı və pis, doğru və yanlış kimi dəyərlər ailə süzgəcindən keçərək fərdin şüüruna yerləşdirilir. Ailə bir bütündür. Bu yaş dövründə valideynlərin təsiri yeniyetmələr üzərində zəifləmiş olur. Valideynlər arasındakı münasibətlərin xüsusiyyətləri uşaqlara da təsir edir. Sağlam ailə münasibətləri və ata- ana rollarındakı uyğunluq yeniyetmələrin sosiallaşması üçün önəmli rola sahibdir. Çünki, uşaq ailəsini model olaraq götürür və ailə üzvləri arasındakı ünsiyyət formaları və münasibətlər onun sosial həyatındakı şəxsiyyətlərarası münasibətlərinin qurulmasına təsir edir. Ailənin sosial, iqtisadi, mədəni vəziyyəti yeniyetmələrin sosiallaşmasına təsir edir. Bəzi ailələrdə usaq bir fərd olaraq ciddiyə alınmaz, duyğu və istəklərinə reaksiya verilməz, bir digərində isə uşağın istək və maraqları ciddiyə alınır və uşağa hər mövzuda lazım olan açıqlama verilir. Təbii ki, bu iki ailədədn çıxan yeniyetmələrin sosiallaşması bir olmayacaq. Yeniyetmələrin sosiallaşma müddətinə ailənin rəhbərlik formaları də təsir göstərir. Demoktatik valideynlərin böyütdüyü yeniyetmələr özlərinə güvənən və sosial məsuliyyət sahibi fərdlər kimi formalaşırlar. Bundan fərqli olaraq avtoritar ailələrdə böyüyən yeniyetmələr özünü ifadə etməkdə çətinlik çəkən, ünsiyyət bacarıqları zəif formalaşmış, özünüqiymətləndirməsi aşağı olan fərdlər kimi formalaşarlar. Yeniyetmələrdə davranış pzountularının, şəxsiyyətlərarası münasibətlərdəki uyğunsuzluğun, yeniyetmənin intihara meyilliyinin səbəbləri ailə içərisindəki problemlərdən qaynaqlanır (Kelly, Donavan, Clark, 2001). Bununla yanaşı, valideynlərin uşaqlara qarşı laqeyd münasibəti və ailənin psixiyatrik keçmişinin olması da yeniyetmələrdə intihar, deviant davranışlar göstərməsinə, alkaqol, narkotik

maddələrəin istifadəsinə şərait yaratdığı vurğulanmışdır. Heç sübhəsiz hər valideyn övladının yetkin fərd halına gəlməsini istəyir. Psixoloqlar yeniyetmələrdə yetərli sosial inkişafı dəstəkləyən valideynlik tiplərini uzun müddət araşdırmışlar. Məsələn, davranışçı John Uotson valideynləri uşaqlarına qarşı çox mərhəmətli davranmamaları mövzusunda təkid etmişdir. Valideynlərin yeniyetmələrə qarşı nə cəzalandırıcı, nə də qayğısız olmalarını, lakin qaydalar qoymağı və yeniyetmələrlə rəftarda mərhəmmətli olmalarını bildirən Diana Baumrindin yanaşmaları olduqca məhşurdur [4,s. 260].

Şəxsiyyətlərarası münasibətləri qurmaq, onları davam etdirmək və bu münasibətlərdən zövq almaq üçün fərdlər bir-birlərinə duyğu, düşüncə və istəklərini bildirməlidirlər. Bütün bunların mövcüd olması üçün fərdlərin bəzi bacarıqlara sahib olmaları lazımdır. Sullivan yeniyetmələrin inkişafında sosial gücün digər insanların təsirinə bağlı olduğunu vurğulamış və insanın şəxsiyyətlərarası münasibətlərə ehtiyac duyduğu üçün digərləri ilə münasibətlərini davam etdirdiyini, nadir hallarda digərlərilə münasibətlərini kəsdiyini bildirmişdir.

Sullivan şəxsiyyətin normal ya da pataloji olaraq formalaşmasında insanlarla olan münasibətlərin çox vacib olduğunu bildirmiş və müsbət şəxsiyyətlərası münasibətlərin qurulmasının xoşbəxt və zövq verici həyat üçün vacib olduğunu vurğulamışdır. Bu cür münasibətlərin qurulması da fərdin ailəsilə qurulan münasibətlərindən asılıdır. Xüsusilə də, yeniyetməlik dövrü bu baxımdan ən həssas dövr hesab edilir.

Yeniyetmələrin sosiallaşmasına ailənin mədəni vəziyyəti də təsir edir. Boşanmış ailələrdən çıxan yeniyetmələr boşanmamış ailələrdən çıxan yeniyetmələrə nisbətən daha çox uyğunlaşma problemi yaşayırlar. Bununla yanaşı ögey valideynlərlə yaşayan yeniyetmələrin uyğunlaşma problemləri boşanmiş ailələrdən çıxan yeniyetmələrdən çoxdur. Uyğunlaşma ögey ailənin formalaşmasının ilk illərində və erkən yeniyetmələr üçün daha çətindir.

Ailənin üzərinə düşən əsas məsuliyyət inkişaf edən cəmiyyətin tələbələrinə cavab verən ahəngdar şəxsiyyət yetişdirməkdir. Bunun üçün valideynlər cəmiyyətdə gedən prosesləri yaxından izləməli, davamlı olaraq özlərini inkişaf etdirməlidirlər. Bu baxımdan valideynlər üçün nəzərdə tutulmuş psixoloji treninqlərdə, seminarlarda iştirak edərək səmərəli ünsiyyət vərdişlərinə yiyələnə, yeniyetməlik dövründə baş verən çətinlikləri və onların həlli yollarını öyrənə bilərlər. Valideynlər arasında psixoloji maarifləndirmənin aparılması yeniyetməlik yaşı dövründə yarana biləcək problemlərin həllinə kömək edə bilər.

Həmyaşıdlar qrupu. Yeniyetmələrin dostları və geniş həmyaşıdlar qrupu tərəfindən sevilməyə və qəbul edilməyə ehtiyacları vardır. Həmyaşıdlar tərəfindən qəbul edilmək onlarda xoş duyğular yaradır. Əksinə, bu qruplar tərəfindən qəbul edilməyən yeniyetmələrdə hədsiz stress və gərginliyə səbəb olur. Bu yaş dövründə bir çox yeniyetmənin həmyaşıdları tərəfindən necə göründükləri onların həyatlarının önəmli hissəsinə çevrilmiş olur. Bu baxımdan yeniyetmələrin sosiallaşmasında həmyaşıdlar qrupu ilə qurulan münasibətlər xüsüsi əhəmiyyət kəsb edir. Yeniyetmələrin həmyaşıdlar qrupundakı statusunu öyrənmək üçün istifadə edilən sosiometrik metod vsitəsilə yeniyetmənin qrupdakı mövqeyini öyrənmək mümkündür. Yeniyetmə qruplarında populyarlıq qazananlar bir sıra sosial bacarıqlara malik olurlar. Araşdırmacılar (Cellessen və Belmore,2011) populyar yeniyetmələrin ünsiyyətcil, öz duyğularını idarə edə bilən, başqaları üçün narahat olan,özünəinamlı yeniyetmələr olduğunu aşkarlamışlar. Bir digər araşdırmanın nəticələrinə görə (La Fantone və Cilleson 2010) populyarlıq erkən yeniyetməlik dövründə yeniyetmə üçün xüsusi əhəmiyyət kəsb edir.

John Coie tərəfindən aparılan araşdırmada həmyaşıdları tərəfindən rədd edilən oğlan yeniyetmələrin sosial münasibətlərdə problem yaşamalarının üç səbəbi olduğu müəyyənləşdirilmişdir [4, s.300].

Ilk olaraq, rəddedilən davakar oğlan uşaqlarının daha impulsiv və diqqət əksikliyi problemləri vardır. Bunun nəticəsi olaraq, sinifdə və qrup oyunlarında davam edən fəaliyyətləri pozma cəhdləri vardır.

Ikincisi rəddedilən davakar yeniyetmələr hadisələrə daha duyğusal reaksiya verirlər. Daha tez əsəbləşir və daha gec sakitləşirlər. Bu səsəblə də həmyaşıdlarına verbal və fiziki olaraq şiddət göstərməyə meyilli olurlar.

Üçüncusu bu yeniyetmələrin sosial bacarıqları formalaşmamış olur. Bütün bunlarla yanaşı rəddedilən yeniyetmələrin 10-20% i utancaqdırlar. Həmyaşıdlarla olan münasibətləri müsbət yöndə cərəyan etməsi üçün yeniyetmədə sosial bacarıqları bir sözlə, onun sosial zəkasını formalaşdırmaq lazımdır.

Yeniyetmələr üçün yoldaşlıq, dostluq münasibətləri xüusi önəm kəsb edir. Gottman və Parker (1987) dostluğun yeniyetmələr üçün oynadığı rolu 6 qrupda birləşdirmişlər [4,s. 303].

1. Yoldaşlq. Dostluq yeniyetmələrə onlarla birlikdə vaxt keçirmək və ortaq fəaliyyətlərdə iştirak etmək üçün önəmlidir.

2. Stimullaşdırma . Dostluq yeniyetmə üçün informasiya, həyəcan və əyləncə imkanları yaradırlar.

3. Fiziki dəstək. Dostluq yeniyetməyə kömək və yeni imkanlar yaradır.

4. Ego dəstəyi. Dostluq yeniyetməyə özünü cazibadar və dəyərli fərdlər olaraq görmələri üçün dəstək, cəsarət və geriqaydış sağlayır

5. Sosial qarşılaşdırma. Dostluq yeniyetməyə həmyaşıdları içərrisində harda olduğu və hərərkətlərinin doğru olub olmadığı haqqında informasiya verir.

6. Yaxınlq. Mərhəmmət. Dostluq yeniyetməyə digərlərinə yxın güvənə arxalanan münasibətlərin qurulmasına şərait yaradır.

Dostluğun önəmini Wentzel, Barry və Caldvell (2004) 2il çəkən tədqiqatları ilə vurğulamışlar. Yoldaşı olmayan 6-cı sinif şagirdləri bir və ya çox dostu olanlara görə daha az sosial davranış (əməkdaşlıq, paylaşmaq, digərlərinə kömək etmək və s.) sərgilədiklərinin və digərlərinə görə akademik nailiyyətlərinin də aşağı olduğunu və daha çox duyğusal problemlər yaşadıqlarını müəyyən etmişlər [3, s.47].

Bütün bu deyilənlərdən belə nəticəyə gəlmək olar ki, yeniyetmənin həmyaşıdları ilə müsbət münasibətlər qurması onun sosial bacarıqlarının formalaşmasına imkan yaradır.

Məktəb bütün cəmiyyətlərdə uşağın psixososial inkişafındakı gözləntilərə cavab verən təlim-tədris müəssəsidir. Müasir dövrdə məktəb təkcə təhsil mərkəzi deyil, həmçinin fərdin şəxsiyyətinin ahəngdar inkişafı onun gələcək həyata hazırlanması üçün lazım olan bacarıqlara yiyələnməsi, şəxsiyyətlərarasə münasibətlərin qurulması, asudə vaxtın təşkil edilməsi, həmyaşıdlar qrupu ilə ünsiyyətin təmin edilməsi, bir sözlə yeniyetmənin sosial bacarıqlarının formalaşması üçün mühüm önəmə sahibdir. Yeniyetmələr həmyaşıdları ilə məktəbdə idman cəmiyyətlərində, rəqs, dini qurumlarda bir araya gəlirlər. Məktəb yeniyetməyə qabiliyyət və bacarıqlarını formlaşdırmaq onlardan gələcək həyatlarında düzgün istifadə edə bilmək üçün geniş imkanlar açır.

Dövrümüzdə sosial şəbəkələr, telekomunikasiya vasitələri həyatımızın bir hissəsini təşkil edir. Yeniyetmələr sosial şəbəkələrdən təkcə ünsiyyət vasitəsi kimi deyil, eyni zamanda informasiya mənbəyi, əyləncə vasitəsi kimi istifadə edirlər. Internet bir tərəfdən insanlar arasındakı məsəafələri qısaldıb, yeni dostluq münasibətlərinin formalaşmasına şərait yaratsa da, digər tərəfdən də həyatımza internetin daxil olmasıla insanlar ailə və yaxın çevrəsilə daha az zaman keçirmeye başlamışlar. Bu baxımdan KİV sosiallaşma prosesinə mənfi yöndən təsir edə bilir.

Cəmiyyətə, cəmiyyətdəki dəyərlərə uyğunlaşmağa çalışan yeniyetmənin şəxsiyyətinin formalaşması diqqət edilməli məsələdir. Yeniyetmənin sosiallaşma prosesində dünyada gedən prsoseslərə uyğunlaşması və cəmiyyətdə hörmət qazanması üçün bu prosesə rəhbərlik edə biləcək şəxslərə ehtiyacı var. Yeniyetmənin sosiallaşma baxımından ailə, məktəb, həmyaşıdlar qrupu və KİV vasitələri çox vacib təsiredici faktorlardır.

ƏDƏBİYYAT

1. Ələddin Qədirov Yaş psixologiyası, Bakı, 2008,386s.
2. Elif Oral Çocuk ve ergen odaklı klinik görüşme, İstanbul, 2019, 333s.
3. Özgün Kızıldağ Ergenleri anlama kılavuzu, istanbul, 2020
4. John W.Santrock Ergenlik (Adolesence) Istanbul, Nobel yayıncılıq, 14-cü baskı, Nisan 2020, 488s.

YETKİNLƏRİN SOSİALLAŞMASINA TƏSİR GÖSTƏRƏN AMİLLƏR

XÜLASƏ

Məqalədə ergenlik dövründə yeniyetmələrin sosiallaşmasına təsir edən amillər araşdırılmışdır. Ailə, məktəb, həmyaşıd qrupu və digərləri yeniyetmələrin sosiallaşmasına təsir göstərir. Xüsusilə bu müddətdə ailələrin üzərinə böyük bir məsuliyyət düşür.

ФАКТОРЫ ВЛИЯЮЩИЕ НА СОЦИАЛИЗАЦИЮ ПОДРОСТКОВ

Исмаиллы Наргиз

АННОТАЦИЯ

В статье исследуются факторы влияющие на социализацию подростков в подростковом возрасте. Семья, школа, группа сверстников и другие влияют на социализацию подростков. Особенно в этом процессе семьи несут большую ответственность.

FACTORS INFLUENCING THE SOCIALIZATION OF ADOLESCENTS

Ismayilli Nargiz

SUMMARY

The article examines the factors influencing the socialization of adolescents during adolescence. Family, school, peer group and others influence the socialization of teenagers. Especially in this process families have a great responsibility.

МОЗГ, ПСИХИКА, ПСИХИЧЕСКОЕ РАЗВИТИЕ

проф. Эльнара Шафиева
Преподаватель кафедры психологии БГУ
Садыг-заде Санубар Рафиг г.
магистрат II курса БГУ
sanubar98@mail.ru

Ключевые слова: эволюция психических функций, психика и мозг, психическое развитие, этапы жизни, асимметрия мозга
Açar sözlər: zehni funksiyaların təkamülü, psixika və beyin, zehni inkişaf, həyat mərhələləri, beynin asimmetriyası.
Keywords: evolution of mental functions, psyche and brain, mental development, stages of life, asymmetry of the brain

Анализ эволюционного развития психических функций обеспечивает выделения исходных основани для определения психических явлений и предмета изучения психологии. В контексте изложенных выше подходов психология может выделяться как наука о законах порождения и функционирования в жизнедеятельности животных организмов способов ориентировки в предметном мире, которые обеспечивают избирательную организацию и регуляцию взаимодействий с окружающим миром и позволяют реализовать направления жизненной активности. Подобное выделение предмета исследования представлено в работах П.Я. Гальперина, а также в ряде последующих работ отечественных психологов [3,4]. Поэтому ошибочным оказывается известное противопоставление психических функций «внутри организма» и действий «снаружи».

И поэтому в отечественной психологии относительно строго разводятся эмпирически регистрируемые особенности поведения животных и объяснительное понятие действие. В составе любого действия необходимо присутствуют психические составляющие в форме разнообразных операций установления мотивационных отношений, постановки целей, предварительной ориентировки и планирования способов достижения целей, исполнительных операций, операций контроля и коррекции. Способность людей к активному воспроизведению психических образов в форме субъективных представлений формируется в период антропогенеза. Это связано с тем, что отношения между предковыми формами современного человека и природной средой начинают осуществляться через совместную трудовую деятельность с использованием орудий, которая организуется с помощью языковых средств. Специфической видовой особенностью жизнедеятельности человека становится общественная трудовая деятельность, направленная на производство общественно-полезных продуктов – материальных и идеальных [3,1].

В таких сообществах людей на основе накапливаемого и транслируемого культурно-исторического опыта потребности каждого субъекта начинают удовлетворяться не результатами индивидуальной деятельности, а на основе разделения действий в рамках совместной (общественной) деятельности через процессы производства, распределения, обмена и потребления общественно создаваемых продуктов. Формируется общественное сознание – совместные обобщенные способы ориентировки и организации действий, в составе которых прижизненно строится индивидуальное сознание и образ мира каждого человека [5,8]. Можно полагать, что в основе представлений и понятий лежит

актуализация с помощью языковых и знаково-символических средств нейрофизиологических функций мозга, которые в свою очередь актуализируют локализованные на разных тканях и органах психофизиологические функциональные системы возможных способов ориентировки и возможных взаимодействий с возможными предметными ситуациями, образуя функционально-анатомический субстрат умственных действий [6].

Все изложенное выше позволяет конкретизировать известную позицию, на которую опиралась отечественная психология: нейрофизиологические процессы выступают только одним из необходимых условий формирования психических функций; другим необходимым условием и основной причиной их актуализации и развития выступают взаимодействия животного организма с окружающим миром [7].

Развитие психики – это процесс накопления количественных и качественных изменений психики, обусловливающих формирование и функционирование личности.

Исследователями выработано две основных подхода к пониманию данного процесса. Представители первого утверждают, что психическое развитие носит непрерывный характер, т.е. не останавливается, не ускоряется и не замедляется. поэтому каких-либо четких границ, отделяющих один его этап от другого, не существует. Однако большинство исследователей являются сторонниками второго подхода: они убеждены, что развитие дискретно (носит прерывистый характер). начавшись еще до рождения ребенка, оно разворачивается и продолжается неравномерно (то ускоряется, то замедляется). Это даёт основания для выделения стадий или этапов развития, качественно отличающихся друг от друга. Все люди независимо от индивидуальных особенностей проходят каждую стадию развития. Психическое развитие человека проявляется в возрастных изменениях психики и поведения. Данные изменения могут быть:

1. Эволюционными (сравнительно медленными и постепенными). Пример. развитие интеллекта в школьные годы.

2. Революционными (быстрыми, занимающими короткий промежуток времени). Пример. Изменения в периоды психологических кризисов.

3. Ситуационными (связанными с изменяющимися обстоятельствами). Пример. развитие музыкального или хореографического мастерства под воздействием интенсивной тренировки. Если человек перестает тренироваться, уровень мастерства падает.

Эволюционные и революционные изменения являются постоянными и необратимыми, ситуативные – нуждаются в закреплении.

Как показали научные исследования, в головном мозгу человека, по существу, заключено два мозга – каждое из болших полушарий обладает собственными, независимыми от другого функциями.

Сорок лет назад крупнейший физиолог И.П.Павлов пришел к выводу, что в принципе всех людей можно разделить на два типа- художников и мыслителей. Нейрофизиология наших дней находит этому анатомическое обоснование. Одна из особенностей мозга человека – так называемая функциональная специализация полушарий мозга. Буквально в последние годы стало известно, что левое полушарие – база логического абстрактного мышления, а правое – база конкретного образного. И от того, какое из полушарий наиболее развито у человека (в силу ли врожденных свойств или воспитания), зависит его индивидуальность, особенности его восприятия.

Хотя мозг человека имеет большие размеры и большой вес, есть животные, у которых мозг крупнее и тяжелее. У человека велик относительный вес мозга, то есть доля веса мозга на килограмм общего веса тела. Но и в этом отношении мы уступаем животным –

по относительному весу мозга лидируют китообразные. Если не размеры и не вес, то что же является отличительной особенностью мозга «человека разумного»? Сегодня можно указать лишь на одну уникальную особенность нашего головного мозга – функциональную ассиметрию.

Индивидуальный профиль межполушарной асимметрии, который представляет собой изменчивое в онтогенезе образование, имеет половые различия, закономерную возрастную динамику и зависит от гормонального статуса, средовых влияний, а также от особенностей биохимических процессов в головном мозге. Межполушарная асимметрия мозга у взрослого человека — комплексный продукт действия биосоциальных механизмов. Основы функциональной специализации полушарий являются врожденными, однако по мере развития ребенка происходит совершенствование и усложнение механизмов межполушарной асимметрии и межполушарного взаимодействия, которое и приводит к формированию определенного профиля межполушарной асимметрии (латеральности). В настоящее время имеется большое количество данных о неравнозначности левого и правого полушарий головного мозга человека как на уровне анатомических особенностей, так и психологических проявлений [9].

По данным современной нейропсихологии и психофизиологии, левое полушарие мозга человека специализируется на выполнении вербальных символических, правое — пространственных, образных функций, что опосредует асимметрию психической деятельности человека. Установлено, что правое полушарие быстрее обрабатывает информацию, чем левое. Человек с преобладанием правого полушария предрасположен к созерцательности и воспоминаниям, он тонко и глубоко чувствует и переживает, но медлителен и малоразговорчив. Доминирование левого полушария ассоциируется у человека с большим словарным запасом, активным его использованием, с высокой двигательной активностью, целеустремленностью, рациональностью. В процессах обучения, познания правое полушарие реализует процессы дедуктивного мышления (вначале осуществляются процессы синтеза, а затем анализа). Левое полушарие преимущественно обеспечивает процессы индуктивного мышления (вначале осуществляется процесс анализа, а затем синтеза). Соответственно левое полушарие является ведущим в осуществлении абстрактной, символической интеллектуальной деятельности. Правое же — доминирует в реализации конкретно-образного мышления и эмоциональной деятельности.

ЛИТЕРАТУРА

1. Выготский Л.С. Собрание сочинений. Том 5. Основы дефектологии. – М.: «Педагогика», 1983. – 368 с.
2. Выготский Л.С., Лурия А.Р. Этюды по истории поведения: Обезьяна. Примитив. Ребенок. – М.: Педагогика, 1993. – 224 с.
3. Гальперин П.Я. Психология как объективная наука. – М.: Московский психолого-социальный институт, Воронеж: НПО «МОДЭК», 1998. – 480 с. Гальперин, П.Я. Лекции по психологии / П.Я. Гальперин – М.: Книжный дом «Университет»: Высшая школа, 2002. – 400 с.
4. Давыдов В.В. Лекции по общей психологии: учеб. Пособие для студ. Высш. Учеб. Заведений. – М.: Издательский центр «Академия», 2008. – 176 с.
5. Леонтьев А.Н. Лекции по общей психологии. – М.: Смысл, 2000. – 511 с.
6. Леонтьев А.Н. Проблемы развития психики – М.: Мысль, 1965. – 574 с.

7. Леонтьев А.Н. Эволюция, движение, деятельность. – М.: Смысл, 2012. – 560 с.
8. *Смирнов С.Д.* Психология образа: проблема активности психического отражения. – М.: Издательство Московского университета, 1985. – 232 с.
9. Реброва Н. П. Межполушарная асимметрия мозга человека и психические процессы / Н. П. Реброва, М. П. Чернышева. — СПб., 2004. — 96 с.

МОЗГ. ПСИХИКА. ПСИХИЧЕСКОЕ РАЗВИТИЕ

Эльнара Шафиева, Садыг-заде Санубар

АННОТАЦИЯ

Развитие психики включает в себя теоретическую и практическую литературу, помогающую понять и изучить специфику работы человеческого мозга на разных этапах жизни. От рождения до старости мы проходим сложный путь, на котором не редко требуются советы специалистов для целостного формирования личности. Литература в данном направлении предназначены для решения широкого круга проблем: начиная от отсутствия силы воли и заканчивая поиском собственного «я». Такие авторы, как Хозе Сильва, Константин Шереметьев, Род Джадкинс и многие другие, дают рекомендации, необходимые для раскрытия потенциала и человеческих возможностей. Читая краткую статью по развитию психики вы получаете уникальную возможность ознакомиться с информацией, которая поможет развиваться и совершенствоваться.

BEYİN PSİXİKA PSİXİKİ İNKİŞAF

Elnarə Şəfiyeva, Sadıq-zadə Sənubər

XÜLASƏ

Psixikanın inkişafı insan beyninin, həyatın müxtəlif mərhələlərində işinin xüsusiyyətlərini anlamağa və öyrənməyə kömək edən nəzəri və praktik ədəbiyyatları əhatə edir. Doğuşdan qocalığa qədər bir şəxsiyyətin hərtərəfli formalaşması üçün tez-tez mütəxəssis tövsiyələrini tələb edən çətin bir yoldan keçirik. Bu istiqamətdəki ədəbiyyat geniş bir problemi həll etmək üçün hazırlanmışdır: iradə çatışmazlığından və öz "mən" lərini axtarmağa qədər. Jose Silva, Konstantin Sheremetyev, Rod Judkins və bir çox başqaları kimi müəlliflər potensialı və insan qabiliyyətlərini ortaya çıxarmaq üçün lazımi rəhbərliyi təqdim edirlər. Psixikanın inkişafı ilə bağlı qısa bir məqalə oxumaqla inkişaf etməyinizə və inkişaf etdirməyinizə kömək edəcək məlumatlarla tanış olmaq üçün unikal bir fürsət əldə edirsiniz.

BRAIN. PSYCHE. DEVELOPMENT OF THE PSYCHE

Elnara Shafieva, Sadig-zada Sanubar

SUMMARY

The development of the psyche includes theoretical and practical literature that helps to understand and study the specifics of the work of the human brain at different stages of life. From birth to old age, we go through a difficult path, which often requires expert advice for the holistic formation of a personality. Literature in this direction is designed to solve a wide range of problems: from lack of willpower and ending with the search for their own "I". Authors such as Jose Silva, Konstantin Sheremetyev, Rod Judkins, and many others provide the guidance needed to unleash potential and human capabilities. By reading a short article on the development of the psyche, you get an unique opportunity to get acquainted with information that will help you develop and improve.

GENDER STEREOTİPLƏRİNİN FORMALAŞMASINDA TƏLİMİN ROLU

Məmmədova Arzu Afiq
BDU-nun II kurs magistrantı
Elmi rəhbər:p.ü.f.d.Aslanova Şahnaz
BDU-nun sosial və pedaqoji psixologiya kafedrasının müəllimi
arzummmdva@gmail.com

Açar sözlər: gender, stereotiplər, təlim.
Ключевые слова: пол, стереотипы, обучение.
Key words: gender, stereotypes, training.

Müasir dövrdə texnologiya, öyrənmə və informasiya qaynaqlarının təqdim etdiyi imkanlar getdikcə genişlənsə də, məktəb hələ də biliyi gücə çevirən ən vacib sosializasiya institutudur. Əlavə təhsilə giriş həddini təşkil edən məcburi təhsilin ümumdünya səviyyəsi norma kimi qəbul olunur və onun uzadılması fərdlər üçün əhəmiyyətini gücləndirir. Bu təlim-metodiki kompleksdə gender münasibətləri sahəsində humanitar texnologiyaların inkişafı üçün zəruri olan tədris materialları təqdim olunur. Bu təlimat cinsi sərişlərini artırmaq istəyənlər üçün nəzərdə tutulmuşdur. Hər birimizin doğuşdan sahib olduğu bioloji cinsiyyət və cəmiyyətdə oynadığımız sosial rollar çoxdur, həmçinin cinsiyyət nəzəriyyəsinin bu təməl prinsipi gender stereotipləri kimi ayrılmaz bir sahədir. Bu mövzunun xüsusi aktuallığı bir neçə faktorla əlaqələndirilir. Birincisi, istər cinsiyyətle əlaqəli, istərsə də digər davranış normaları ilə bağlı stereotiplər insanların həyatında böyük rol oynayır. İkincisi, nisbətən daha sabit olan şəxsiyyət xüsusiyyətləridir. Yaşımız dəyişir yetkinlik dövrünün problemlərindən gənclik problemlərinə, daha sonra mərhələli problemlərə keçirik. Ailə vəziyyəti və sosial vəziyyət dəyişikliyi olsa da, dəyişməz olaraq qalan cinsimizdir. Bu o deməkdir ki, kişi və qadınların sosial rolları problemləri həyat boyu kəskinliyini itirmir. Üçüncüsü, məhz gender sferasında kişilər və qadınlar arasında elan edilmiş bərabərlik prinsipi ilə onun həyata keçirilməsinin real imkanları arasındakı uçurum bu qədər böyükdür. Konstitusiyada və ya başqa bir qanunvericilik sənədində müvafiq normanı təyin etmək kifayət deyil. Onların həyata keçirilməsi üçün mexanizmlər təmin etmək vacibdir və burada hər ikisi də çox əhəmiyyətli bir rol oynayır. Dördüncüsü, bu məsələnin xüsusi aktuallığı cəmiyyətin zehniyyətinin xüsusiyyətləri ilə müəyyən edilir [1].

Bir çox insanın düşüncəsində, bioloji cinsiyyət bir insanın sosial rolu ilə o qədər qaynaşmışdır ki, bundan sonrakı tələblər əvvəlcədən təyin edilmiş bir şey kimi qəbul edilir. Məsələn: tərəddüd etmədən deyirik: "Sən qadınsan, buna görə də evə baxmalısan" və ya "sən kişisən, buna görə ailəni təmin etməlisən". Gender məsələsində birini digərindən ayırmaq üçün edilən hər hansı bir cəhd bioloji cinsi sosial roldan müqavimətlə qarşılanır. Bioloji cins bizə doğuşdan verilir və dəyişdirilə bilməz. Bu qaydaya aid tək istisnalar, təkamülün çıxılmaz bir qolunu təmsil edir. Cins bərabərliyi, kişilər və qadınlar tərəfindən azad, şüurlu seçimdir.

Kişilərin və qadınların sosial rolları bir-birini tamamlayır, bu səbəbdən bəzilərindəki dəyişiklik istər-istəməz başqalarındakı dəyişikliyə səbəb olur və ya əksinə. Cinsiyyət anlayışı qadınların problemlərini görməyə və həll etməyə imkan verir. Cinsiyyət perspektivinin bu bütövlüyü onu çox güclü edir. Cinsi əlaqələndirmə problemi dünyanı dəyişdirməkdir. Sosial cinsi və bioloji cinsi ayırmanın metodoloji prinsipinə əməl edən tədqiqatlara gender tədqiqatları deyilir. Gender tədqiqatlarının əsas müddəalarından biri, patriarxal olaraq yaşadığımız cəmiyyətin tərifidir. Gender stereotiplərinin formalaşmasında təlimin rolu əvəzsizdir. Mənbə və subyektivliyin qurulmasında məktəb digər mədəniyyət müəssisələrinə nisbətən daha əlverişli

imkanlara malikdir. Əlində bu fərqləri və asimmetriyaları istehsal etmək üçün daha çox qanuniləşdirmə vasitəsi var. Elm və pedaqogika adına bir çox asimmetriyanı asanlıqla qəbul edə bilərsiniz. Analizdə bu münasibətlər daha geniş cəmiyyətdəki güc münasibətləri kontekstində həll olunur. Axı məktəb cinslər arasındakı qüvvələr balansının istiqamətinə ağırlıq verir. Beləliklə, məktəb çoxalma prosesində patriarxal kapitalist ictimai münasibətlər rolunu oynayır, dövrün cinsi kodları verilmişdir. Təlim prosesində cəmiyyətdə qadınlara ailədəki rolundan başqa sosial həyatda və siyasi sahədə şəxsiyyətini müəyyənləşdirmək üçün, habelə özlərini qadınlardan daha ağıllı və üstün olduqlarını fərz edən kişilərindən heç də geridə qalmadıqları stereotiplərini yıxmaq lazımdır. İdeoloji və sosial çoxalmada bu rola görə təhsil sistemi kapitalist iş həyatı, başqa ailə və cəmiyyətdəki dəyişikliklərdən də təsirlənir. Sistem və məktəb bu dəyişikliyi idarə etmək potensialına malikdir. Çünki, məktəblər yalnız dominantdır, dəyərlərin və verilən güc münasibətlərinin çoxaldılmasını təmin etmir, həm də suallara zəminlər, şərtlər və subyektivliklər yaradaraq sosial dəyişikliklərdə vacib rol oynayır. Bu nöqtədə təhsildə gender bərabərliyinin əhəmiyyətinə çatırıq. Hər iki cins təhsil səviyyəsi ilə gələcək nailiyyətlər və həyat standartları arasında birbaşa əlaqə mövcuddur. Bir münasibət var ki, şəxsiyyət, status, gəlir və daha sağlam, daha keyfiyyətli bir həyat kimi imkanların verilməsidir. Təhsil sistemləri giriş üçün açardır. Buna görə təhsildə gender əsaslı ayrı-seçkilik, həm geniş cəmiyyətdə gender bərabərsizliyi formalarının səbəbidir. Təhsildə gender bərabərsizliyi kontekstdən asılı olaraq fərqlənir. Bu müxtəlif formalarda baş verə bilər. Bu gün təhsil sistemlərində bərabərlik, ümumiyyətlə təhsilin ümumiləşdirilməsi istiqamətində əhəmiyyətli addımlar atmağa ehtiyac vardır. Qadınlar və kişilər arasında təhsil alma səviyyəsindəki bərabərsizlik azalsa da, hələ də aradakı fərq bağlanmamışdır. Qadınlar təhsildən daha az faydalanırlar. Təhsildə olduqda və iştirak etdikdə belə, təlim proqramı və gender ayrıseçkiliyinə əsaslanan məktəb mədəniyyəti kifayət qədər güclənə bilməzlər. Bu səbəbdən təhsilin dəyişdirici potensialı icazə verilən bərabərlik təhsil siyasətləri, qadınlar və ümumilikdə təhsil baxımından ayrı-seçkiliyin qarşısını alır [2].

Təhsil və cinsi münasibətlərin başqa bir ölçüsü cinsi şəxsiyyət və istiqamətlərdir. Söhbət ayrıseçkilikdən gedir. Təhsil sistemlərinin feminist tənqidi (rəsmi və qeyri-rəsmi) təhsil cinsi şəxsiyyət və oriyentasiya ayrıseçkiliyindən cinsi münasibətlərin məzmunu genişlənmişdir. Təhsildən və təhsildəki ayrı-seçkilikdən daha az faydalanmaq əhəmiyyətli bir bərabərlik başlığını təşkil edir. Təhsil ilk növbədə əsas insan hüququdur. Təhsil sistemləri hər kəs üçün bərabər imkanlar təmin edir və gender stereotiplərlə mübarizədə mühüm rol oynayır. Çünki, təhsilə münasibət və davranışı dəyişdirmək üçün güclü bir vasitədir. Ancaq bir cəmiyyətdə bərabər fürsət var. Bu cəmiyyətdəki şərtlərin giriş prosesi üçün müəyyənedici olduğunu söyləmək üçün bərabər fürsət siyasəti, həqiqi bərabərliyə nail olmaq üçün yalnız zəruri bir şərtdir. Təhsilə girişə mane olan şərtlər kompensasiya yanaşmalarını tələb edir. Məsələn, qızların təhsil almaq imkanı əsas maneə yoxsulluq və ya təhsilə nisbi müqavimətdirsə, qızların təhsili üçün və mənfi münasibətlərini dəyişdirmək üçün dəstək proqramlarına ehtiyac var. Ümumiyyətlə fürsət və bərabərlik siyasətinin laqeyd qaldığı bu vəziyyət, universal xüsusiyyətlər göstərir. Buna görə dünyadakı təhsil bərabərsizliyinin ən gözə çarpan tərəfi gender bərabərsizliyidir. Ən çox gəlir vəziyyətində və sinif mövqeyi və ya etnik mənsubiyyəti ilə əlaqəli olsa da, qızların təhsil almaq hüququ hələ də vacib bir problem sahəsidir. Təhsil hüququ cinsiyyətə gəldikdə istifadə üçün maneələr və təhdidlər ümumiyyətlə təbii qəbul edilir. Həm də qlobal göstəricilər, ənənəvi gender rolları və stereotiplər hələ də bütün təhsil sistemlərində və bütün təhsillərdə mövcuddur, təhsil sisteminin səviyyələri, peşəyə çıxış, bilik və gəlir, karyera qurma, sosial və siyasi iştirak kimi sosial nəticələr baxımından, bu da qadına qarşı olduğunu göstərir. Bu səbəbdən qadınlara və kişilərə təhsildə bərabər fürsətlərin yaradılması və bərabərliyin təmin edilməsi baxımından minimum şərtdir, tam bərabərliyə nail olmaq üçün təhsil proseslərinin həyata keçirilməsini təmin

etmək lazımdır. Hər şeydən əvvəl giriş, iştirak, təhsili təmin edən qanuni əsasların mövcudluğu məzmunun cinsə həssas olmasını təmin etmək üçün tədbirlər tələb olunur.

Təhsildə gender bərabərliyi siyasətinin əsas məqsədi ənənəvi gender rolları və stereotipləri aradan qaldırmaq lazımdır. Bu rollardan biri, təhsil sistemində həm cinslərə, həm də cinsiyyət şəxsiyyətlərinə bərabərhüquqlu davranışın olmasıdır. Təhsildə gender bərabərliyinin ikinci ölçüsü təhsilin məzmundur və məktəb həyatının necə qurulduğu vacibdir. Məktəblər və təhsil sistemi rəsmi hər iki cins üçün bərabər fürsətlər təqdim etdiyi görünsə də, gender bərabərliyi kimi təmin edə bilməz. Çünki, təhsil sosiallaşma ilə yanaşı informasiya proseslərindən də xəbər verir. Sahə seçimi kimi məsələlər əhəmiyyət kəsb edir. Bu nöqtədə hər iki cins bərabərdir və müəllimlərin ədalətli davranış və məktəbdəki mədəni mühit baxımından tutum və davranışları eyni olmalıdır. Qlobal bərabərlik siyasətinin məqsədi formal və qeyri-rəsmi təhsil təlimidir. Fürsətlərdən istifadə və iştirakda gender bərabərliyini təmin edərkən, qızların təhsil almaq imkanlarının artırılması, məktəb buraxma hallarının azaldılması və yetkin qadınların savadlılığının artırılması, təhsil, davamiyyət və bitirmə imkanı qanuni təhsildə ədalət və ədaləti təmin edən göstəricilərdir [3].

ƏDƏBİYYAT

1. Xəlilov S. “Təhsil, təlim, tərbiyə”. Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 2005.
2. Mirzəzadə R. “Siyasət.Gender. İnsan hüququ. Cəmiyyət”. Bakı, 2003.
3. Mirzəzadə R. “Gender və feminizm”. Bakı, 2003.

GENDER STEREOTİPLƏRİNİN FORMALAŞMASINDA TƏLİMİN ROLU

Məmmədova Arzu

XÜLASƏ

Bu gün UNESCO və UNICEF kimi təhsildə gender bərabərliyinin hədəfi dövlətlərin hədəfinə çevrildi. Bu mövzuda ilk növbədə təhsilin bütün səviyyələrində hər iki cinsin bərabər çıxışını və iştirakını təmin etmək. Kəsirlərin səbəblərini müəyyənləşdirmək və aradan qaldırmaq üçün tədbirlər, yanaşmalar gündəmə gəlir. Qızların və ya oğlanların təhsildə çıxışını və davamiyyətlərini təhdid edən, iqtisadi, sosial və mədəni şəraitin qarşısını almaq üçün müxtəlif tədbirlər görülür. Bəzi stereotiplər bizə nə qədər möhkəm kök atırsa, həqiqi təcrübəmiz fikirlərimizə bir o qədər az təsir göstərir. Həyat həmişə hər cür stereotipdən daha zəngin, daha müxtəlifdir.

РОЛЬ ОБУЧЕНИЯ В ФОРМИРОВАНИИ ГЕНДЕРНЫХ СТЕРЕОТИПОВ

Маммадова Арзу

АННОТАЦИЯ

Сегодня цель гендерного равенства в образовании, таких как ЮНЕСКО и ЮНИСЕФ, стала целью государств. В этой связи, прежде всего, обеспечить равный доступ и участие обоих полов на всех уровнях образования. На повестке дня меры и подходы к выявлению и устранению причин дефицита. Принимаются различные меры для предотвращения экономических, социальных и культурных условий, которые угрожают успеваемости и

посещаемости девочек и мальчиков в системе образования. Чем прочнее укоренились в нас стереотипы, тем меньше реальный опыт влияет на наши мысли. Жизнь всегда богаче и разнообразнее любого стереотипа.

THE ROLE OF TRAINING IN THE FORMATION OF GENDER STEREOTYPES

Mammadova Arzu

SUMMARY

Today, the goal of gender equality in education, such as UNESCO and UNICEF, has become the goal of states. In this regard, first of all, to ensure equal access and participation of both sexes at all levels of education. Measures and approaches to identify and eliminate the causes of deficits are on the agenda. Various measures are taken to prevent economic, social and cultural conditions that threaten the performance and attendance of girls or boys in education. The more firmly rooted some stereotypes are in us, the less our true experience affects our thoughts. Life is always richer and more diverse than any stereotype.

YENİYETMƏLƏRİN ŞƏXSİYYƏTLƏRARASI MÜNASİBƏTLƏRİNİN XÜSUSİYYƏTLƏRİ

Əliyeva Rəhiməxanım Tağı qızı
BDU-nun II kurs magistrantı
rehime.eliyeva97@gmail.com

Açar sözlər: Yeniyetməlik dövrü, ünsiyyət, şəxsiyyətlərarası münasibət, təlim fəaliyyəti, davranışlar
Ключевые слова: Подростковый возраст, общение, межличностные отношения, учебная деятельность, поведение
Key words: Adolescence, communication, interpersonal relationships, learning activities, behaviors

Yeniyetmələr təlim fəaliyyətində olduqları bütün dövr ərzində şəxsiyyətlərarası münasibətləri formalaşır və inkşaf edir. Yeniyetmədə uşaqlar zehni inkişaf üçün əhəmiyyətinə görə fərqli olan iki münasibət sistemi qeyd edilir: biri böyüklərlə, digəri yaşıdları ilə. Hər ikisi də məktəbin orta siniflərində formalaşmağa başlayır. Eyni ümumi sosiallaşma rolunu yerinə yetirən bu iki münasibət sistemi arasında , məzmunu və onları tənzimləyən normalar baxımından bir-birləri ilə tez-tez qarşıdurma yaranır.

Bir yeniyetmənin artıq uşaqların maraqları olmayan orbitdə iştirakı onu ətrafdakı insanlarla münasibətləri proaktiv şəkildə yenidən qurmağa sövq edir.Özünə və böyüklərə qarşı tələblər qoymağa başlayır, müqavimət göstərir və kiçik kimi davranılmasına etiraz edir. Yeniyetmə, yetkinlərin vurğuladığı vəzifələrə uyğun olaraq hüquqlarının genişləndirilməsini tələb edir. Bir yetkinin anlaşılmazlığına reaksiya olaraq, bir yeniyetmə tez-tez son dərəcə açıq şəkildə itaətsizlikdə, neqativlikdə təzahür edən müxtəlif növ etirazlar göstərir. Yetkin səxs yemiyetmənin etiraz səbəbini dərk edərsə, münasibətlərin yenidən qurulmasında təşəbbüsü öz üzərinə götürür və bu yenidənqurma mübahisəsiz həyata keçirilir. Əks təqdirdə ciddi bir xarici və daxili ziddiyyət yaranır,yeniyetmələrin və yetkinlərin adətən eyni dərəcədə rastlaşdığı yeniyetmə böhranı yaranır. Yeniyetmələr və böyüklər arasında ziddiyyətlər, xüsusən də uşaqların və valideynlərin, böyüklərin və uşaqların hüquqları və vəzifələri barədə fikir ayrılıqları səbəbindən ortaya çıxır. Münaqişənin qarşısını almaq və aradan qaldırmaq üçün vacib bir şərt,münaqişə artıq yaranmışsa, bir yetkinin bir yeniyetmə ilə yeni bir ünsiyyət tərzinə keçməsi, əsassız bir uşaq kimi ona münasibətinin bir yeniyetməyə olan münasibətinə dəyişməsidir [1].

Bununla birlikdə, yeniyetmələrdə psixologiyasında və davranışlarında bir çox sırf uşaq xüsusiyyətlərinin həqiqi olaraq qorunması, xüsusən vəzifələrinə kifayət qədər ciddi olmayan münasibət, habelə məsuliyyətli və müstəqil fəaliyyət göstərmək qabiliyyətinin olmaması, tez-tez yeniyetmədə sürətli dəyişikliklərin qarşısı alına bilər. Yenə də yetkinin yeniyetməyə olan münasibəti düzgün istiqamətdə dəyişdirməsinin gecikməsi demək olar ki, həmişə yeniyetmənin müqavimətinə səbəb olur. Əlverişsiz şəraitdə bu müqavimət davamlı bir şəxsiyyətlərarası qarşıdurmaya çevrilə bilər, davamlılığı çox vaxt yeniyetmənin fərdi inkişafında ləngimələrə səbəb olur. Apatiya, yadlaşma baş verir, yetkinlərin onu başa düşə bilməyəcəklərinə inamı güclənir. Nəticə olaraq, həyatın elə həmin anında,bir yeniyetmənin ən çox böyüklərdən anlayışa və dəstəyə ehtiyacı olduqda, ona təsir etmək qabiliyyətini itirirlər.

Bir yeniyetmə ilə bir yetkin arasındakı şəxsiyyətlərarası ziddiyyətin aradan qaldırılması ümumiyyətlə aralarında etibarlı, dostluq münasibətləri və qarşılıqlı hörmət qurulması ilə asanlaşdırılır. Həmyaşıd münasibətləri bərabərlik normaları ilə tənzimlənir, valideynlər və

müəllimlərlə münasibətlər qeyri-bərabər qalır. Yoldaşlarla ünsiyyət, yeniyetmənin mövcud maraqlarını və ehtiyaclarını ödəmək üçün daha çox fayda verməyə başladığı üçün məktəbdən və ailədən uzaqlaşır, yaşıdları ilə daha çox vaxt keçirməyə başlayır [2].

Yeniyetmənin ikinci yarısına keçid ilə yeniyetmələrdə ünsiyyət çox vaxt aparan və mühüm bir həyat rolu oynayan müstəqil bir fəaliyyət növünə çevrilir və bir yeniyetmə üçün yaşıdları ilə ünsiyyətin əhəmiyyəti, bir qayda olaraq, digərlərindən daha çox əhəmiyyət kəsb edir. Dost qazanmaq, yoldaşlarının diqqətini cəlb etmək üçün bir yeniyetmə mümkün olan hər şeyi etməyə çalışır; bəzən bunun üçün, qurulmuş sosial normaların birbaşa pozulmasına, böyüklərlə açıq qarşıdurma yaranır .

Yeniyetmələrin münasibətlərində birinci yerdə yoldaşlıq var. Bu cür münasibətlərin atmosferi, başqa bir insanın şəxsi ləyaqətinə hörmət, bərabərlik, sədaqət, dürüstlük, ədəb, kömək etmək istəyi daxil olan "ortaqlıq məcəlləsinə" əsaslanır. Xüsusilə yeniyetmə qruplarında eqoistlik, xəsislik, sözün pozulması, bir dostuna xəyanət, məğrurluq, əmr etmək istəyi, yoldaşların fikirləri ilə hesablaşmaq istəməməsi qəbul edilmir. Yeniyetmələrin yaşıdları qruplarındakı bu cür davranışlar nəinki rədd edilir, əksinə tərəfdaşlıq qaydalarını pozanlara münasibətdə əks reaksiyalara səbəb olur [3].

Yeniyetmələrin qruplarında liderlik əlaqəsi qurulur. Liderin şəxsi diqqəti, yaşıdlarının diqqət mərkəzində olmayan bir yeniyetmə üçün xüsusilə dəyərlidir. Liderlə şəxsi dostluğu həmişə yüksək qiymətləndirir və hər vasitə ilə onu fəth etməyə çalışır. Yaxın dostlar, özləri üçün bərabər ortaq və ya lider kimi çıxış edə biləcəkləri yeniyetmələr üçün eyni dərəcədə maraqlı olurlar.

Maraqlar və işlərdə oxşarlıq yeniyetmələrin dostluğunda ən vacib amildir. Bəzən bir yoldaşa simpatiya, onunla dost olmaq istəyi yoldaşın məşğul olduğu işə marağın yaranmasına səbəb olur. Nəticədə yeniyetmə yeni idrak maraqlarını inkişaf etdirə bilər. Dostluq yeniyetmələrin ünsiyyətini aktivləşdirir, müxtəlif mövzularda çox vaxt sərf edirlər, təlim fəaliyyətindəki hadisələri, şəxsi münasibətlərini, həmyaşıdları və böyüklərin hərəkətlərini müzakirə edirlər [4].

Daha sonra, yetkinlik dövrünün sonunda yaxın bir dosta ehtiyac duyulur, dostluq münasibətləri üçün xüsusi əxlaqi tələblər ortaya çıxır: qarşılıqlı səmimiyyət, qarşılıqlı anlaşma, həssaslıq və sirr saxlamaq bacarığı. “Ruh qohumluğu” yeniyetmələrin şəxsi münasibətlərini müəyyənləşdirmək üçün getdikcə daha vacib bir faktora çevrilir. Əxlaq normalarına yiyələnmək, yeniyetmənin ən vacib şəxsi mənimsəməsidir.

Bu yaşın sonuna qədər yeniyetmələrdə qarşı cinsin dostluğuna maraq yaranır, və bunun nəticəsində xarici görünüşlərinə, geyimlərinə və davranışlarına diqqət artır. Başlanğıcda əks cinsdən olan bir insana maraq çox vaxt yeniyetmələrə xas olan qeyri-adi bir xarici ifadəni alır. Bu yaşda uşaqların çoxu özünütərbiyə ilə məşğul olmağa başlayır.

Yeniyetmələrdə şəxsiyyətlərarası münasibətlər fərqlənir. Bir tərəfdən sosial dairə sürətlə genişlənir, sinifdən və məktəbdən kənar dostların sayı və nisbəti artır, digər tərəfdən ən yüksək səviyyəli komandada şəxsiyyətlərarası münasibətlərin nəzərəçarpacaq dərəcədə fərqlənməsi müşahidə edilir. L.Kolominskynin sosiometrik tədqiqatlar, A.V. Kirichuk, H.Y. Liimetsa və digər pedaqoqlar və psixoloqlar tədqiqatlar aparmışlar. B.N.Volkovun fikrincə, onuncu sinif şagirdləri ünsiyyətdə, yoldaşlarla qarşılıqlı münasibətdə (dürüstlük, həyatın çətin anlarında kömək etmək istəyi) özünü göstərən şəxsiyyət xüsusiyyətlərini qiymətləndirir, ikinci yerdə iradəli şəxsiyyət xüsusiyyətləri, üçüncü yerdə - intellektual ləyaqət dayanır.A.N.Lutoşkinin işi fərqli üstünlüklər ardıcıllığı verir: intellektual keyfiyyətlər, insanlara münasibət (xeyirxahlıq, həssaslıq), əxlaqi keyfiyyətlər, iradi keyfiyyətlər, işgüzar keyfiyyətlər, xarici məlumatlar (xarici cəlbedicilik, özünə qulluq etmək bacarığı və s.) [5].

Bu məlumatların uyğunsuzluğu həm tədqiqat metodlarında, həm də təcrübə şəraitində subyektlərin tərkibindəki fərqlə izah edilə bilər. Birgə fəaliyyətlərin məzmununun və kollektivin

strukturunun artan mürəkkəbliyi ilə bir fərdin qrup statusu, kollektivə münasibət, sosial məsuliyyət səviyyəsi və s. daxil olmaqla işgüzar və mənəvi keyfiyyətləri ilə daha çox müəyyən edilir.

Yeniyetmələrin komandadakı statusu nə ilə təyin olunursa olsun, davranışlarına və özlərini dərk etmələrinə güclü təsir göstərir. Sinifdəki əlverişsiz vəziyyət şagirdlərin məktəbdən vaxtından əvvəl getməsinin əsas səbəblərindən biridir və bu cür uşaqlar tez-tez məktəb xaricində mənfi təsirə məruz qalırlar. Bu problemli yeniyetmələr üzərində aparılan tədqiqatlarla dəstəklənir. M.A Alemaskin tərəfindən araşdırılan və yetkinlik yaşına çatmayanların işləri üzrə müfəttişliklərində qeydiyyata alınan cinayətkarların çox hissəsi məktəb siniflərində "təcrid olundu"; demək olar ki, hamısı sinifdəki mövqelərindən narazı idi, bir çoxu sinif yoldaşlarına mənfi yanaşırdı. G.G Bochkareva tərəfindən sorğu edilən 140 az yaşlı cinayətkardan təqribən yarısı sinif yoldaşlarına laqeyd və ya düşmən idi; qalan məktəblilər arasında yalnız 19% bu şəkildə cavab verdi [5].

Çətin bir yeniyetmənin sinifdə təcrid olunması yalnız bir səbəb deyil, həm də komandadan kənarda qalması, məqsədlərini və davranış normalarını laqeyd etməsi və s.-nin nəticəsi ola bilər. Kollektiv münasibətlər sistemində bir şagirdin vəziyyətini obyektiv qiymətləndirmək bacarığı olmadan, bir müəllimin bir uşağa fərdi yanaşma tapması və çətin vəziyyətdən çıxmasına kömək etməsi daha çətindir.

Məqalənin aktuallığı. Müasir dövrdə bu və ya digər formada təzahür edən yeniyetmələrin davranış və münasibətlərindəki problemlərin səbəbinin tədqiqi, aradan qaldırılması yolları bu gün qarşıda duran ən mühüm məsələlərdən biri hesab olunur. Bu səbəbdən onların davranışlarının, şəxsiyyətlərarası münasibətlərinin tədqiqinə diqqət edilir.

Məqalənin elmi yeniliyi. Yeniyetməlik dövrü çətin və ziddiyyətli bir dövr kimi hər zaman diqqət mərkəzindədir və yeniyetmələrlə iş zamanı daim yeni metodlar araşdırılır.Müxtəlif elmi mənbələrə istinad edilərək problemin təhlili mühüm elmi əhəmiyyət kəsb edir.

Məqalənin praktik əhəmiyyəti və tətbiqi. Məqalədən hüquq, yaş, sosial psixologiya kurs üzrə mühazirə və məşğələlərdə, eləcə də, müəllim, valideynlər tərəfindən istifadə edilə bilər.

ƏDƏBİYYAT

1. Андреева, Г. М. Социальная психология / Г. М. Андреева. – М. : Аспект-Пресс, 2002,427s
2. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı: Çinar–çap 2002,625s
3. Əzizov.Q.Q. Psixologiya.Baki.Muntərcim nəsriyyat,2011,176s
4. Qədirov Ə.Ə. Yaş psixologiyası. Bakı: Maarif, 2002, 389s
5. Seyidov.S.İ., Həmzəyev.M.Ə. Psixologiya, Baki-2007,471s

YENİYETMƏLƏRİN ŞƏXSİYYƏTLƏRARASI MÜNASİBƏTLƏRİNİN XÜSUSİYYƏTLƏRİ

Əliyeva Rəhiməxanım

XÜLASƏ

Bu məqalədə,yeniyetməlik dövrünün xarakterik xüsusiyyətləri,onların şəxsiyyətlərarası münasibətləri təsvir edilir. Belə bir dövrdə valideynlərin, müəllimlərin, eyni zamanda məktəb psixoloqlarının vahid movqedə olması və yeniyetmələrlə psixoloji işin xüsusiyyətləri izah

olunur. Yeniyetmələrlə davranış qaydaları,ünsiyyət tərzi,eyni zamanda təlim fəaliyyətində onların şəxsiyyət kimi formalaşmasına təsir yollari məqalədə oz əksini tapmışdır. Yeniyetmənin şəxsiyyət kimi formalaşması zamanı ailənin, ətraf aləmin, təlim mühiti və ən əsas həmyaşıdları ilə qarşılıqlı münasibətlərin rolu gostərilir.

ОСОБЕННОСТИ МЕЖЛИЧНОСТНЫХ ОТНОШЕНИЙ ПОДРОСТКОВ

Рагимаханум Алиева

АННОТАЦИЯ

В статье описаны особенности подросткового возраста, их межличностные отношения. В такой период родители, учителя, а также школьные психологи находятся в единой позиции и объясняют особенности психологической работы с подростками. Отражены способы воздействия на формирование подростков. В статье показана роль семьи, окружения, среды обучения и, самое главное, взаимодействия со сверстниками в формировании подросткового возраста как личности.

FEATURES OF INTERPERSONAL RELATIONSHIPS OF ADOLESCENTS

Rakhimakhanim Aliyeva

SUMMARY

İn this article, the characteristics of period of adolescence, their interpersonal relationships are described. In such a period, parents, teachers, as well as school psychologists in a unified position and the features of psychological work with adolescents are explained. The article reflects the rules of behavior with adolescents, the way of communication, as well as the ways in which learning activities affect their formation as individuals. The role of the family, the environment, the learning environment and, most importantly, interactions with peers in the development of the adolescent's personality is highlighted.

YENİYETMƏLİK YAŞ DÖVRÜNÜN PSİXOLOJİ XARAKTERİSTİKASI VƏ XÜSUSİYYƏTLƏRİ

Cəlilzadə Aytac Hüseyn qızı
BDU-nun II kurs magistrantı
aytajjalilzadeh98@gmail.com

Açar sözlər: yeniyetmələr, yeniyetməlik dövrü, dəyişiklik, inkişaf, valideynlər
Ключевые слова: подростки, юность, изменять, разработка, родители
Key words: teenagers, adolescence, change, development, parents.

Latınca yetkinliyə çatmaq mənasına gələn "adolescent" sözündən yaranan yeniyetməlik əhəmiyyətli bir həyat dönəmi kimi qəbul edilə bilər [4]. Yeniyetməlik gələcəyə yönəlmiş qərarlar vermək və seçim etmək dövrüdür. Həmçinin, bu dövr uşağın yetkinlik yaşına çatmasını təmin edən mürəkkəb həyat tapşırıqları ilə dolu olan bir dövrdür. Freyd başda olmaqla bir çox tədqiqatçılar yeniyetməlik dövrünü balanssız, fırtınalı, dəyişkən və stressli bir dövr olaraq qəbul edirlər. Xolla görə, yeniyetməlik, fərdiyyət hissinin inkişaf etdiyi yenidən doğuş dövrüdür.

Yeniyetməlik dövrü sosial, psixoloji və fizioloji inkişafın sürətlə getdiyi keçid dövrüdür [1]. Bu dövr fərdin inkişafının vacib bir dönüş nöqtəsidir. Uşaqlıqdan yetkinliyə keçid dövrü kimi xarakterizə edilə bilən yeniyetməlik, əslində uşaqların sağlam olmasının göstəricisidir. Yeniyetməlik uşaqların fiziki olaraq böyüdüyü, reproduktiv funksiyaların əldə edilməsi ilə bitən prosesin adıdır. Yeniyetməlik hər bir uşağa xasdır və hər uşaq üçün xüsusi olaraq qiymətləndirilməlidir.

Yeniyetməlik illərinə dair mübahisələr qədim yunan filosofu Aristotelə qədər gedib çıxır. Aristotel yeniyetməlik dövrünün 14-21 yaş arasını əhatə etdiyini iddia etmişdir. Santrock bu dövrün 10-13 yaşda başlayıb, 18-22 yaşlarında bitdiyini bildirmişdir. Ümumdünya Səhiyyə Təşkilatı isə yeniyetməliyi 10-19 yaşları arasında olan dövr kimi qəbul edir.

Bu dövrün başlanğıcı fərqli şəkildə özünü göstərir. Bu əsasən sümük yaşı ilə əlaqədardır. Lakin bir sıra amillərin təsiri ilə həmin yaş dövrünün başlanmasında və qurtarmasında fərq yarana bilər.

Adətən, 10 yaşlı qızlarda və 11 yaşlı oğlanlarda yetkinlik əlamətləri meydana çıxır. Buradan belə nəticəyə gəlmək olar ki ,yetkinlik əlamətləri oğlanlarda qızlardan 1-2 il gec başlayır.

Təxminən 5-10 il davam edən yeniyetməlik dövrü fərdin qalan 50-60 illik həyatına təsirsiz ötüşmür. İnsanın xarakterinin formalaşmasında, onun şəxsiyyət kimi yetişməsində bu dövr aparıcı yer tutur [2].

Ən çətin inkişaf dövrü olan yeniyetməlik dövründə fərd həm fizioloji, həm sosialoji dəyişikliklər yaşayır. Bu dəyişikliklər nəticəsində fərd yetkin həyatın emosional vədavranış stimullarını kəşf edir [5]. Bu dövrdə ən çox nəzərə çarpan fiziki dəyişiklik və inkişafdır. Baş verən dəyişikliklər və cinsi xüsusiyyətlərin qabarıqlığı fiziki dəyişiklik və inkişafın əsas təməlidir. Həmçinin, cinsi xüsusiyyətlərin aydınlaşdırılması yeniyetmənin fiziki olaraq psixososial inkişafına təsir göstərir.

Bu dəyişikliklərə çəki artımı, boy uzaması, səsin qalınlaşması daxildir. Oğlanlarda boy artımı 9-10 yaşlardan başlayır, 13-14 yaşlarda ən yüksək dövrə çatır. Qızlarda isə boy artımı oğlanlara nisbətən daha tez başlayır, lakin getdikcə bu artım aşağı düşür. Yeniyetməlik dövründə oğlanlarda çəki artımı qeyri-bərabər şəkildə gedir. Bu artım qızlarda da təxminən oğlanlardakı kimi eyni şəkildədir.

Bu dövrdə baş verən fiziki inkişaf yeniyetmələrin bədənləri haqqında düşüncələrinə təsir edir. Tədqiqatlar göstərir ki, yeniyetmələrin bədənlərinin görünüşü ilə bağlı narahatlıqları vardır [3]. Yeniyetməlik dövründə öz bədən quruluşu haqqında pozitiv bir fikir formalaşdırmaq yeniyetmənin qarşısında duran vəzifələrdən biridir. Uşaq yetkinlik dövründə fiziki cəhətdən əhəmiyyətli dərəcədə dəyişməyə başlayır.

Şəxsiyyətin inkişafı da məhz dövrdən formalaşmağa başlayır. Yeniyetmə yeni dəyişənlər axtarır, dəyişir və inkişaf edir. Muxtariyyət və məsuliyyət anlayışlarına cavab tapmağa çalışır. Bu anlayışlar yeniyetmələrə şəxsiyyət verir, cəmiyyətlə münasibətlərini və cəmiyyətdəki rollarını formalaşdırır. Yeniyetməlik dövründə fərd kim olduğu sualına cavab verə biləcək bir səviyyəyə çatır.

Eriksona görə, yeniyetmələr valideynlərindən asılı olmaqdan imtina edib özlərinə bağlı olmağa keçid etmək üçün statik bir konsepsiya inkişaf etdirir. Bu proses şəxsiyyət formalaşması adlanır. Eriksonun psixoloji inkişaf nəzəriyyəsinin beşinci mərhələsi olan "Şəxsiyyətə qarşı mübarizə rolu" yeniyetməlik dövrünü əhatə edir. Bu dövrün ən vacib problemi yeniyetmənin şəxsiyyət qazanması və ya buna nail ola bilməməsi halında rol qarışıqlığı yaşamasıdır. Yeniyetmə bu dövrü sağlam bir şəkildə yaşaya bilmirsə, bir şəxsiyyət və müvəffəq bir "mən" inkişaf etdirə bilməyəcəkdir.

Yeniyetməlik dövründə müstəqilliyə artan tələbat, cəmiyyətin təsirləri ilə gərginlik və sıxıntı yaranır. Bu çətinliklər yeniyetmənin vəziyyətini daha mürəkkəbləşdirir. Yeniyetmə bütün bu böhranları aradan qaldırmalı, şəxsiyyət bütövlüyünə çatmalı və bu nöqtəyə qədər inkişaf etdirdiyi ego gücünü aşaraq, bütün ziddiyyətləri aradan qaldırmalıdır. Buna görə də, bu dövrdəki inkişaf şəxsiyyət inkişafı və uyğunlaşma baxımından bir bütün olaraq qəbul olunmalıdır [4].

Bu dövrdə yeniyetmənin sosial inkişafında da dəyişikliklər baş verir. Həyatın bu dövründə yeniyetmə bir şəxsiyyət kimi yetişməyə çalışır. Şəxsiyyətini tapmağa çalışan yeniyetmə yetkin əlaqələr qurmağa, sosial rolunu dərk etməyə, dəyərləri və əxlaqını inkişaf etdirməyə səy göstərir [2]. Yeniyetmələr cinslərinə uyğun sosial rollarını mənimsəməli və buna uyğun davranmalıdırlar. Bu dövrdə yetkinliyə addım atmağa başlayan uşaq sosial inkişafın təbii nəticəsi olaraq ailədən uzaqlaşmağa və ailədən kənardakı fərdlərə maraq göstərməyə başlayıt. Bu maraq xüsusilə dost qrupuna yönəldilir. Dostlarının onun haqqında söylədiyi fikirlərə əhəmiyyət verən yeniyetmə, xoşa gəlmək üçün davranış və münasibətlərini dəyişdirə bilər.

Yeniyetmədə hər sahədə olduğu kimi emosional baxımdan da əhəmiyyətli dəyişikliklər baş verir. Yeniyetmənin ətraf mühit şərtlərində olan dəyişikliklər duyğularının ifadə edilməsinə təsir göstərir. Hisslərini daha açıq ifadə edərkən yeniyetmələr bu hissləri gizlədir, maskalayırlar. Qız yeniyetmələr oğlanlardan daha tez duyğu yetkinliyinə çatırlar. Uşaqlığın sona çatması və yetkinliyin başlaması ilə əlaqədar olaraq yeniyetmədə güclü emosional davranış və reaksiyalar ortaya çıxmağa başlayır. Bu dövrdə ahəngdar və balanslı uşaq yerinə, narahat, tez reaksiya göstərən bir gənc formalaşır. Nəticədə yeniyetmədə birdən sevinmək və kədərlənmək, tez qəzəblənmək kimi emosional enişlər və çıxışlar yaşayırlar. Yetkinlik dövründə təsadüf olunan bu eniş çıxışların səbəbləri vardır. Cinsi hormonların və sosiomədəni amillərin təsiri əsas səbəblərdəndir.

Zehni qabiliyyətlərdəki dəyişikliklər də bu dövrdəki dəyişikliklər sırasında əsas yerlərdən birini tutur. Bu dövrdə yeniyetmənin düşüncə prosesləri dəyişir. Yenioyetmə konkret düşüncədən mücərrəd düşüncəyə keçir. Həmçinin bu dövrdə mücərrəd sözləri istifadə etmək və anlamaq qabiliyyəti də inkişaf etmişdir. Yeniyetmə fəlsəfə, din, siyasət və əxlaq kimi mücərrəd mövzular üzərində düşünməyə başlayır [5].

Bu həssas dönəm 3 dövrə bölünür.

1) erkən yeniyetməlik 2)orta yeniyetməlik 3)gec yeniyetməlik.

Erkən yeniyetməlik 12-14 yaş aralığını əhatə edir. Yeniyetməlik dövrünün ilkin mərhələsi hesab edilən bu mərhələ hormon sisteminin aktivləşməsi ilə başlayır. Hormondakı dəyişikliklər birbaşa olaraq beyinə təsir göstərir, duyğu və davranışlarda dəyişikliklər başlayır. Yeniyetmələr valideynləri ilə toqquşur. Şəxsiyyət məsələləri ön plana çıxır. Zaman qavramında da dəyişikliklər özünü göstərir. Bu zaman onlar özlərini sıxılmış hiss edir, gözlə\məkdə çətinlik çəkirlər. Erkən yeniyetməlik dövründə onlar öz dostları ilə vaxt keçirməyi daha üstün tuturlar, otaqlarında tək qalmağı xoşlayırlar. Bu dövrün son hissəsində yavaş-yavaş cinsi istəklər formalaşmağa başlayır.

Orta yeniyetməlik dövrü 14-17 yaş aralığını əhatə edir. Bu dövr yeniyetmələrin tədricən dəyişikliklərə alışdığı dövrdür. Hər gün onların fikri dəyişə bilər. Örnək aldığı insanlarla vaxt keçirməyə meyilli olurlar. Subyektiv dünyagörüşünün formalaşmasında vacib olan təcrübələr gəncin uyğunsuz imic nümayiş etdirməsinə səbəb olur.

Gec yeniyetməlik dövrü isə 17-19 yaşları əhatə edir. Bu zaman böyümə və dəyişikliklər azalmağa, yavaşlamağa başlayır. Onlar sosial və mədəni gözləntilərə uyğun metodlardan istifadə edir. Hissləri və düşüncələri mənalı şəkildə öz yerini tapır. Başqa sözlə desək, şəxsiyyət fikirlərin daxili uyğunluq qazanması ilə sabitləşir. Bu dövrdə yeniyetmə öz hüdudlarını kəşf edir. Nəyi bacardığını bilməsi və hansı sahədə bacarığının olduğunu başa düşməsi yeniyetməlik dövrünün bitməsindən xəbər verir [2].

Yetkinliyə daxil olan uşağın inkişafı üçün həyata keçirməli olduğu bir sıra tapşırıqları vardır. Havighursta görə, peşə seçimi, əxlaqi dəyərlər qazanmaq, daha yaxşı münasibətlər qurmaq, evlilik və ailə həyatına hazırlanmaq, məsuliyyətli olmaq bu tapşırıqlar sırasındadır. Göstərilən tapşırıqlardan bəziləri erkən yeniyetməlik, bəziləri isə gec yeniyetməlik dövründə yerinə yetirilməlidir [4].

Fərdi amillərdən, ailədəki inkişafdan, cəmiyyətin şərtlərindən asılı olaraq yeniyetmənin həyatında ciddi problemlər yarana bilər. Valideynlər bu dövrü problemsiz keçmək üçün böyük məsuliyyət daşıyırlar. Bu vaxt ərzində valideynlər fiziki, zehni, mənəvi, sosial inkişaf mərhələləri haqqında məlumatlı olmalıdırlar.

Bu dövrdə yeniyetmələr həssas olur, hər bir söz onlara təsir edir, hər şeyə reaksiya verirlər.Yeniyetmələr öz ailələrini anlayışsız ailə kimi görürlər. Onlara görə digərlərinin ailəsi, valideynləri daha anlayışlıdır. Bu dövrdə yeniyetmələr özlərini böyük kimi aparırlar və onlarla uşaq kimi rəftar olunmasını heç cürə qəbul etmirlər. Bu səbəbdən onlarla valideynləri arasında neqatif hallar meydana çıxır. Valideynlə yeniyetmə arasında sağlam münasibət formalaşdırmaq əsas şərt hesab olunur.

Yeniyetməlik dövründə valideynlər yeniyetmələrlə qarşıdurma etməməlidirlər. Onların dostları ilə münasibətləri qəbul edilib, dəstəklənməlidir. Valideynlər yeniyetmələrin fikirlərini almalı, fikirlərinə dəyər verməlidirlər. Həmçinin maraqlarını dəstəkləməlidirlər. Bu da öz növbəsində yeniyetmənin özünə inamını artıracaq. Valideynlər yeniyetmələrin gələcək haqqında düşüncələrinə müdaxilə etməməlidir. Düşüncələrinin mənfi və müsbət tərəflərini onlara izah etməlidirlər.

ƏDƏBİYYAT

1. Qədirov Ə.Ə. Yaş psixologiyası. Bakı: Maarif, 2002, 386 s
2. Abalı O. Ergenlik dönemi ve sorunları. İstanbul: Epsilon yayıncılık, 2006, 202 s.
3. Aydın B. Çocuk ve ergen psikolojisi. Ankara: Atlas yayınları, 2005, 276 s.
4. Bilgin O., Koç M. Ergenlerde çözüm odaklı psikolojik danışma. Ankara: Nobel yayıncılık, 2020, 138 s.
5. Lethem J. Child and adolescent mental health. Brief solution focused therapy. 2002, 192 pp.

YENİYETMƏLİK YAŞ DÖVRÜNÜN PSİXOLOJİ XARAKTERİSTİKASI VƏ XÜSUSİYYƏTLƏRİ

Cəlilzadə Aytac

XÜLASƏ

Yeniyetməlik sözü latın sözü olaraq "adolescent" adlandırılmışdır. Bu dövr uşaqlıq dövrünün sonu, yeni bir dönəmin başlanğıcı kimi izah oluna bilər. Yeniyetmələrin yeniyetməlik dövründə düzgün şəkildə yönəldilməsi onun gələcək uğurlu həyatının əsasını təşkil edir. Yeniyetməlik dövründə olan bir fərd ətrafdakıları və cəmiyyəti düzgün dərk etmək üçün səy göstərir. Bu dövrdə yeniyetmələrdə xarakter formalaşır və bu onun gələcək inkişafının əsas amilidir. Həmçinin bu dövrdə onlarda mücərrəd sözlərdən istifadə etmək və anlamaq qabiliyyəti də inkişaf edir. Belə ki, yeniyetmə fəlsəfə, din, astronomiya, siyasət və bu kimi əxlaqi dəyərlərə malik olan mücərrəd mövzular üzərində düşünməyə başlayır. Uğurlu yeniyetməlik uğurlu həyatın astanasıdır. Yeniyetmə konkret düşüncədən mücərrəd düşüncəyə keçir. Yeniyetməliyə daxil olan uşağın inkişafı üçün həyata keçirməli olduğu bir sıra tapşırıqları vardır. Bu dövrdə yaxşı münasibətlər qurmaq, evlilik və ailə həyatına hazırlanmaq və məsuliyyətli olmaq kimi tapşırıqlarla qarşılaşır. Bu kimi tapşırıqlardan bəziləri erkən yeniyetməlik, bəziləri isə gec yeniyetməlik dövrünə aiddir. Bu dövrdə yeniyetmələr həssas olurlar. Deyilən hər sözə reaksiya verirlər. Öz ailələrini anlayışsız ailə kimi görürlər.

Bu dövrdə yeniyetmələr özlərini böyüklər kimi aparır, onlarla uşaq kimi rəftarı qəbul etmirlər. Buna görə də valideynləri ilə onlar arasında anlaşılmazlıqlar yaranır. Valideynlər öz növbəsində yeniyetmələrə qarşı daha həssas olmaqla, sağlam münasibət formalaşdırmağa çalışmalıdırlar. Bu dönəmdə onların həssas olduğunu nəzərə alaraq yeniyetmənin bu dövrə adaptasiyasına dəstək olmalı, düşüncələrinin yeniyetmələr üçün nə dərəcədə uğurlu və ya uğursuz olacağını onlara izah etməlidirlər.

ПСИХОЛОГИЯ ПОДРОСТКОВ ХАРАКТЕРИСТИКИ И ОСОБЕННОСТИ

Джалилзаде Айтадж

АННОТАЦИЯ

Слово «подростковый возраст» на латыни называется «подростковый», и этот период можно интерпретировать как конец детства, начало новой эры. Правильное руководство подростком - основа его будущей успешной жизни. В подростковом возрасте человек стремится понять окружающий его мир и общество. В этот период у подростка формируется характер, который является ключевым фактором его будущего развития. постигать также развивается. Таким образом, подросток начинает думать об абстрактных темах, имеющих моральную ценность, таких как философия, религия, астрономия, политика. Успешный отрочество - это порог успешной жизни. Подростки переходят от конкретного мышления к абстрактному мышлению. Существует ряд задач, которые ребенок, вступающий в подростковый возраст, должен выполнять для развития. В этот период перед ним стоят такие задачи, как построение хороших отношений, подготовка к браку и семейной жизни, а также ответственность. Некоторые из этих задач относятся к

раннему подростковому возрасту, а некоторые - к позднему подростковому возрасту. В этот период подростки чувствительны.

Они реагируют на каждое слово. Они считают свою семью непонятной. В этот период подростки ведут себя как взрослые, не принимают их как детей. Поэтому между их родителями и родителями возникают недопонимания. Им следует стараясь сформировать здоровый настрой, проявляя чуткость. Учитывая, что они чувствительны в этот период, они должны поддерживать адаптацию подростка к этому периоду и объяснять им, насколько успешным или неудачным будет их мышление для подростка.

PSYCHOLOGY OF ADOLESCENCE CHARACTERISTICS AND FEATURES

Jalilzade Aytaj

SUMMARY

The word teenager management is called “adolescent” in Latin. This period can be interpreted as the end of childhood, the beginning of a new era. Proper management of adolescents in the period of renewal is the basis of their future successful life. An individual in the period of new ownership strives to properly understand the environment and society. And these words are used and the ability to understand is developed. Thus innovation begins to think about abstract topics with moral values such as philosophy, religion, astronomy, politics and so on. Successful adolescence is the threshold of a successful life. Adolescents moves from concrete thinking to abstract thinking. There are a number of tasks that a child entering adolescence must perform for development. During this period, he is faced with tasks such as building good relationships, preparing for marriage and family life, and being responsible. Some of these tasks are related to early adolescence and some to late adolescence. During this period, teenagers become sensitive.

They react to every word. They see their families as an incomprehensible. During this period, teenagers behave like adults, do not accept them as children. Therefore, misunderstandings arise between their parents and their parents. They should try to form a healthy attitude by being sensitive. Given that they are sensitive during this period, they should support the adolescent's adaptation to this period and explain to them how successful and thoughts will be for the adolescent.

PEDAQOGİKA

ÜMUMİTƏHSİL MƏKTƏBLƏRİNDƏ ŞAGİRD ŞƏXSİYYƏTİNİN FORMALAŞDIRILMASINDA VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİ

Məlikova Xalidə Vaqif qızı
BDU-nun II kurs magistrantı
khalidamalikova@yahoo.de

***Acar sözlər*:** Vətən, vətənpərvərlik, təfəkkürün formalaşdırılması, ana dili
Ключевые слова: Родина, патриотизм, формирование представлений, родной язык
Key words: Native land, patriotism, formation of representation, mother tongue

Vətən – sadə və eyni zamanda mürəkkəb anlayışdır. Vətənə məhəbbət dostluq, zəhmətkeşlik, kollektivçilik və daxili mədəniyyət kimi bir sıra mənəvi dəyərləri özündə ehtiva edir. Qloballaşan dünyamızda elmi biliklərə dərindən yiyələnməklə yanaşı, milli mənəvi dəyərlərə sadiq gənc nəslin formalaşdırılmasının əhəmiyyətini nəzərə alaraq, tədris prosesində vətənpərvərlik məsələsi hər zaman diqqət mərkəzində saxlanılmalıdır.

Təsadüfi deyil ki, Azərbaycan Respublikasının "Azərbaycan Gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramında vətənpərvərlik və vətəndaşlıq tərbiyəsi əsas vəzifələrdən biri kimi öz əksini tapmışdır. Proqramda gənclərin hərtərəfli inkşafı üçün şərait yaratmaq və onlarda azərbaycançılıq və dövlətçilik prinsipləri əsasında vətəndaşlıq və vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi prioritet vəzifə hesab edilmişdir (1).

Vətənpərvərlik Azərbaycan xalqı üçün xarakterik xüsusiyyətdir. Vətənpərvərlik ən mühüm mənəvi dəyər kimi kökləri müəyyən bir millətin, dövlətin tarixinə, iqtisadiyyatına, siyasətinə və mədəniyyətinə istinad edərək vətəndaş tərbiyəsinin əsasını təşkil edir. Bu aparıcı əxlaqi keyfiyyət olub digər əxlaqi keyfiyyətlərin əsasını qoyur. Vətənpərvərlik tərbiyəsi insanın yaşadığı mikro mühitdən, doğma ata yurdunu, kəndini, küçə və şəhərini sevməkdən başlayır. İnsan vətənpərvərlik hissinin ciddiliyini və dərinliyini yalnız gündəlik həyatda vətənin taleyi ilə əlaqədar hadislərlə rastlaşdıqda daha dərindən hiss edir (2). Azərbaycan tarixi və mədəniyyətində vətənpərvərlik nümunələri çoxdur və onlar gənclərin vətənpərvərlik tərbiyəsi üçün baza rolunu oynadığı faktdır. Tarixə məlum olan qəhrəman şəxsiyyətlərimiz öz cəsarətli əməlləri ilə, hətta bəziləri öz həyatları bahasına ictimai maraqları her şeydən yüksək tutaraq vətənə sevgilərini isbat etmişdirlər. Neçə-neçə iğidlərimiz, milli qəhrəmanlarımız torpağımızı işğalçılardan təmizləmək üçün vətən uğrunda canlarını fəda etmişdirlər. Müəllim və psixoloqlar tarixi epizodların şagirdin yaddaşında silinməz iz buraxdığından, məktəb illərini vətənpərvərlik tərbiyəsi üçün ən əlverişli dövr hesab etmişdirlər.

Tədris planindakı bütün fənlər vətəndaş tərbiyəsi baxımından zəngindir. Bununla əlaqədar olaraq Avropa şurasının tövsiyyəsi ilə hazirda Azərbaycanda ümumtəhsil məktəblərində keçilməsi ücün "Vətəndaşlıq və vətəndaş hüquqları" fənni təsis edilmişdir (3). Həmçinin Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən tədris ilinin ilk dərs saatının vətənpərvərlik mövzusuna həsr olunması ölkənin bütün pedaqoji ictimaiyyətini bu sahəyə bir daha nəzər salmağa və şagirdlərin vətənpərvərlik tərbiyəsinə xüsusilə həssas yanaşmağa sövq edir.

Ümumtəhsil məktəblərində vətənpərvərlik tərbiyəsi özündə aşagıdakıları ehtiva edir;

- Vətənə məhəbbət hissinin aşılanması;
- Öz mənafeyinə zidd olsa belə Vətən maraqları naminə hərəkət etməyə hazır olmaq;
- Vətəninin uğurlarına sevinmək və qürurlanmaq;

- Ehtiyac olduğunda Vətən və xalqın maraqları üçün ayağa qalxmağa hazır olmaq;
- Vətənə sədaqət (4);

Elmi ədəbiyyatda vətənpərvərliyin səviyyələri **Şəxsi və İctimai** olmaqla iki hissəyə bölünür. Şəxsi səviyyə kimi insanın ümumi dunyagörüşü, ictimai normaları və ideallar, ictimai səviyyədə isə vətənpərvərliyin makrosəviyyəsi - bəşəri dəyərlər, mədəniyyət, adət - ənənələr çıxış edir (5).

Ahəngdar inkişaf etmiş şəxsiyyət vətəndaşlıq keyfiyyətlərinin özündə əks etdirməlidir. Ümumtəhsil məktəblərində şagirdlərin vətənpərvərlik tərbiyəsi düzgün qurularsa bu onların gələcək vətəndaş kimi formalaşmasına, məsuliyyət hissinin inkişafına və dövlətçiliyin möhkəmlənməsinə xidmət edəcəkdir. Vətənpərvərlik məktəblərdə Vətən haqqında ümumi bilik və təsəvvürlərin formalaşması ilə başlayır. Tədris planına daxil olan bütün fənlər vətənpərvərlik tərbiyəsi ünsürlərini özündə birləşdirir. Belə ki, orta məktəbdə tədris olunan həyat bilgisi fənninin məqsədlərindən biri şagirdlərin aktiv həyat mövqeyinin inkişafıdır. Uşaqlar burada fəal şəkildə fikirlərini bildirir, həmyaşıdları ilə qarşılıqlı əlaqədə olur və məktəbin sosial həyatında, o cümlədən tədbirlərinin təşkilində iştirak edirlər. Hazırlıq zamanı uşaqlar ümumi bir məqsəd ətrafında birləşərək birgə fəaliyyət göstərirlər və bu birgə fəaliyyət zamanı, ədəbiyyatın və sosial medianın araşdırılması məktəbliləri ölkənin ictimai həyatı ilə daha yaxından tanış edir.

Müəllim başqa fənlərdə olduğu kimi tarix və coğrafiya dərslərində də vətənin iqlimi, iqtisadiyyatı, demoqrafiyası, mədəni xüsusiyyətləri barədə məlumatla bölüşür. Vətənin tarixini bilmək, onun keçmişini ətraflı araşdırmadan bu günün anlamaq mümkün deyildir. Bu məqsədlə orta məktəb kurikulumuna ölkənin tarixi, doğma diyar, dünya tarixi və onun ülkəmizə proyeksiyası kimi mövzular daxil edilir.

Məktəblilərin ətraf aləmə marağını inkişaf etdirmək üçün biologiya dərsində vətənin təbiəti, flora və faunası ilə tanış edilir, doğma təbiətə böyük maraq inkişaf etdirilir. Bu baxımdan vətənin gözəl guşələrinə təşkil olunmuş ekskursiyalar məktəblilər arasında çox populyardır.

Cəmiyyətdən kənarda vətənpərvərlik tərbiyəsi mümkün olmadığını üçün müəllim və psixoloqlar çox vaxt bunun sosial-vətənpərvərlik tərbiyəsi olduğunu vurğulayırlar. Şagirdlərin ümumi məktəb işinə cəlb edilməsi çox vacib bir hadisədir. Belə ki, şagird məktəbin təmizlənməsində, ərazisinin abadlaşdırılmasında, nizamın qorunmasında iştirak etdikdə, təhsil ocağı, doğma diyar, ölkə ilə doğmalaşma baş verir. Bundan əlavə yaxın keşmişimizdə baş vermiş və hələ də davam edən Qarabağ müharibəsi əlillərinə və şəhid ailələrinə baş çəkmək, onlarla söhbətlər etmək, görüşlər keçirmək məktəblilərin vətənpərvərlik tərbiyəsində mühüm rol oynayır. Hər hansı bir tarixi hadisənin il dönümündə, bu günü yaddaşlara həkk edən tədbirin hazirlanması və bu müddət ərzində geniş tədqiqat və hazırlıq işlərinin görülməsi məktəblilərdə həmin hadisələrin iştirakçılarına hörmət və dəyər hissi yarada bilər. Müharibə ıtirakçıları ilə görüş uşaq yaddaşında silinməz iz buraxaraq onun vətənpərvərlik hisslərini gücləndirir.

Vətənpərvərlik tərbiyəsi üçün sinif saatları da çox vacibdir. Bu müddət ərzində doğma diyar, sevilən yeməklər haqqında söhbətlər edilir və anlayışlar vizual şəkillər olaraq yaddaşlarda əbədi olaraq qalır. Məsələn kimin hansi yemeyi sevdiyi soruşulur, onun kim tərəfindən daha yaxsi hazirlandigi barədə diskusiya aparılır. Bu cür xatirələr sayəsində insan vətənini tərk etdikə belə, tanış bir qoxu onda vətən həsrətinin qabarmasina və nostalji hisslərin oyanmasına kifayət edir. Bu səbəbdən vətəndən uzaqlarda yaşayan çoxu mühacirlər deyirlər ki, vətən həsrəti heç bir rahat və firavan şəraitlə əvəz edilə bilməz.

Sosial-vətənpərvərlik tərbiyəsində müəllimin şəxsiyyəti çox vacibdir. İbtidai və orta məktəb şagirdləri müəllimin sözlərini qanun kimi qəbul edirlər. Buna görə müəllimlərin təhsili və onların fərdi hazırlığı çox vacibdir. Uşaqlar çox həssasdırlar və əgər müəllim uşağı özünün inanmadığı bir şeyə inandırmağa çalışırsa, hədəfə çata bilməz. Müəllimlərin vətənpərvərlik tərbiyəsində istifadə etdiyi metodlar müxtəlifdir. Uşaqların vətənpərvərlik tərbiyəsi üzrə planı hazırlayarkən

müəllimlər uşaqların yaş xüsusiyyətlərini mütləq nəzərə almalıdır. Belə ki, uşaqların bu və ya digər məsələni qavrayışı bir yetkindən fərqlidir. Uşaqlar obrazlı düşünür, vizual olaraq rəngli rəsmlər canlandırır və qavrayışa emosiyaları da əlavə edərək hadisələrə ani reaksiya göstərirlər. Onlar həmçinin çox konkret düşünürlər, mücərrəd obraz və anlayışlar onlar üçün yaddır. Vətənpərvərlik və vətən sevgisi onlar üçün en yaxınlarından başlayır: ana, ata, baba, nənəyə olan sevgidən. Uşaq başa düşəndə ki, ətrafındakılar da kiminsə valideynidir, oğlu, qızıdır onlarda da yaxınlara sevgi hissi formalaşmağa başlayır.

Qeyd etiyimiz kimi vətənpərvərlik tərbiyəsində uşaqlarin yaş xüsusiyyətləri nəzərə alınmalıdır. Vətənpərvərlik tərbiyəsi zamanı ibtidai siniflərin şagirdləri üçün oyun metodu aktual olduğu halda daha böyük uşaqlarda tarixdəki vacib hadisələrin səhnələşdirilməsi, konsert proqramları, görkəmli şəxsiyyətlərin həyatı ilə tanışlıq aktual ola bilər. Bu metodlarin istifadəsi uşaqların materialı mənimsəməsini və yadda saxlamasını asanlaşdırır. Bundan əlavə tarix kabinetində ölkənin həyatında yaddaqalan hadisələrin təqvimi yerləşdirilə bilər. Təqvim yaratmaq prosesi şagirdlər üçün real tədqiqata çevrilərək onların yaddaşında silinməz iz qoyur.

Sosial-vətənpərvərlik hisslərinin formalaşmasında sosial mühit də çox vacib bir komponentdir. Bir uşaq mədəniyyətli və savadlı həmyaşıdları ilə ünsiyyət qurarsa, onda vətənə sevgi hissinin artması ehtimalı dəfələrlə artır. Tarixdən yüksək mənəvi dəyərlərə sahib olan zadəganların xatırlanması, onlarin həyat və fəaliyyətinin təhlil olunması bu baxımdan çox vacibdir. Görkəmli şəxsiyyət H.Z.Tagiyevin həyatindan, xeyriyyəçilik fəaliyyətindən misallar gətirərək, onun xalqının rifahı üçün gördüyü işlərdən, vətən üçün döyünən böyuk ürəyindən danışaraq şagirdlərdə mənəvi zənginlik tərbiyə etmək mümkündür.

Sosial-vətənpərvərlik tərbiyəsinin inkişafı üçün hüquqi mühitin folması vacib şərtdir. Uşaqların sinif və məktəb həyatında iştirakı zamanı, qaydaların və qanunlarının birgə öyrənilməsi və inkişafı təmin olunmalıdır. Belə ki, uşaq öz hüquq və vəzifələrini aydın şəkildə anlamalıdır. Üstəlik, bunlar yalnız müzakirə olunmamalı, ona ətraflı izah edilməlidir. Bunun üçün şagirdlərin məktəb həyatında aktiv və fəal iştirakı, tədbirlərin təşkili zamanı məsuliyyətə cəlb olunması təmin olunmalıdır. Bu zaman uşağın təhlükəsizlik tələbatının ödənilməsi, mübahisəli məsələlərin ədalətli şəkildə həllinin tapması çox vacibdir. Yaradıcı iş üçün atmosferinin və psixoloji mühitin yaradılması və uşağın şəxsiyyətinə humanist yanaşma təmin olunmalıdır. Uşaqlar gördüyü, eşitdiyi, müşahidə etdiyi hadisələri müzakirə etməyə, ona öz münasibətini bildirməyə daha çox cəhd edirlər. Kimin doğru, kimin səhv, kimin pis, kimin isə yaxşı hərəkət etdiyini öyrənmək istəyirlər. Uşaqlar ictimai-siyasi hadisələrə də etinasız yanaşa bilmir. Xoşbəxtlik, qəhrəmanlıq, ədalət və s. haqqında mübahisə etməyə, fikrini bildirməyə, öz sözünü deməyə çalışır. Bu məsələlərin düzgün təhlil edilməsi və başa düşülməsində təşkil olunan disputların böyük əhəmiyyəti vardır. "Kimə qəhrəman deyirik" adlı disputun keçirilməsi daha məqsədəuyğun olar. Disput müəllimin qısa müsahibəsi ilə başlanmalıdır. O, müzakirə ediləcək mövzunu şagirdlərə bildirməlidir. Daha sonra şagirdlərin çıxışları başlanmalıdır. Belə tədbirlərdə uşaqlar öz bilik dairələrini və təfəkkürlərini daha da zənginləşdirə bilirlər. Disputun sonunda maraqlı çıxışla öz fikrini bildirən şagird müəllim tərəfundən yüksək qiymətləndirilir. Ümumi nizam-intizam üzərində iş, bir birinə qarşı mehriban münasibətin formalaşdırılması vətəndaşliq tərbiyəsinin tərkib hissəsidir.

Vətənpərvərlik tərbiyəsinin ən mühüm amillərindən biri də doğma ana dilimizi gələcəyin vətəndaşlarına sevdirməkdən ibarətdir. Xalqımızın folklorla yoğrulmuş təfəkkür süzgəcindən keçərək cilalanan və bu gün milyonlarla azərbaycanlının mənəvi sərvətinə çevrilən doğma dilimiz haqqında ulu öndərimizin bir kəlamında deyilir: "Öz ana dilini bilməyən adamlar şikəst adamlardır". Bunu nəzərə alaraq müəllimlər uşaqlarla dilimiz haqqında söhbətlər aparmalı, onlara ana dilimizi bütün dillərdən üstün tutmağı öyrətməlidir.

Dövlətçiliyimizin qorunmasının əsas amillərindən biri də hərbi vətənpərvərlik tərbiyəsidir. Cünki, hər bir azərbaycanlı yaxşı bilməlidir ki, mənsub olduğu xalq suverenliyini və müstəqilliyini qazanmaq üçün nə qədər uzun bir yol keçib, tarixin hansı məhrumiyyətlərinə məruz qalıb. Vətən hər bir kəsin and yerinə çevrilməli, vətənimizin sərhədlərinin toxunulmazlığı onun böyükdən kiçiyə bütün vətəndaşlarının əzəli və əbədi borcu olmalıdır. Digər tərəfdən müstəqil dövlət quruculuğu yolunda gənclərin üzərinə böyük və məsuliyyətli vəzifələr də düşür. Bu vəzifələri isə yalnız öz vətənini sevən, onun tərəqqisinə çalışan və azadlığı uğrunda canını qurban verməyə hazır olan gənclər yerinə yetirə bilər. Bu yolda müəllimlərin zəhməti böyükdür. Bu gün sevindirici məqam odur ki, əsgəri xidmətə çağırılan gənclərimiz ordu quruculuğundan məlumatlıdırlar. Gənclərin ordu həyatı ilə ilkin tanışlıqları onların hərbi xidmətə fiziki və psixoloji cəhətdən hazır olmalarına zəmin yaradır. Hansı peşədə çalışmasından asılı olmayaraq, gənclərimizin milli qürur hissinə sahib olan, dövlətçiliyimizi qoruyub saxlayan, Vətənini sevən, onun yolunda canından keçməyə hazır olan vətəndaşlar kimi formalaşmasında hər kəs bir olmalı, birgə fəaliyyət göstərməlidir. Şagirdlərdə Vətənə məhəbbət hissini daha da qüvvətləndirmək, vətənpərvərliyin məzmununu onlara düzgün çatdırmaq əsas vəzifələrdəndir. Yeniyetmə və gənclərin milli köklərimizə bağlılıq, vətənpərvərlik, dövlətçiliyə sədaqət ruhunda tərbiyə olunması işi peşəsindən asılı olmayaraq hər kəsin qarşısında duran ən ümdə vəzifələrdəndir. Bu gün şagirdlərimizdə olan vətənpərvər ruh onun göstəricisidir ki, dövri-qədimdən qəhrəmanlarımız olub, bu gün də var, sabah da olacaq!

Məqalənin akuallığı: Vətənpərvərlik insanı səciyyələndirən ən mühüm keyfiyyətlərdən olduğundan onun böyüməkdə olan nəslə aşılanması, uşaq, yeniyetmə və gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi həmişə təlim-tərbiyə işinin ən mühüm istiqamətlərindən, məktəbin ən vacib vəzifələrindəndir.

Məqalənin elmi yeniliyi: Bu məqalədə vətənpərvərlik tərbiyəsini sosial vətənpərvərlik və hərbi vətənpərvərlik aspektləri qeyd edilmişdi. Bundan əlavə vətənpərvərlik tərbiyəsinin səviyyələri qeyd edilərək onlarin məktəbdə tədrisinin yeni metod və üsulları araşdırılmışdır.

Məqalənin praktik əhəmiyyəti və tətbiqi: Vətənpərvərlik təkcə vətəni sevmək deyil. Vətənpərvərlik həm də vətəni qorumağa hər an hazır olmaq, onun yolunda fədakarlıqlar göstərmək, vətənin, xalqın hər bir uğuruna sevinməkdir.

ƏDƏBİYYAT

1. Qasımova L., Mahmudova R. Pedaqogika Bakı 2012
2. Ağayev Ə. Vətənə sədaqət tərbiyəsi Bakı 2010
3. Rüstəmov F. Pedaqogika Bakı 2010
4. Azərbaycan Respublikasının "Azərbaycan Gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı
5. Агапова И. Мы –патриоты: классные часы и внеклассные мероприятия Москва 2018. – 366 s

ÜMUMİTƏHSİL MƏKTƏBLƏRİNDƏ ŞAGİRD ŞƏXSİYYƏTİNİN FORMALAŞDIRILMASINDA VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİ

Məlikova Xalidə

XÜLASƏ

Vətənpərvərlik insanı səciyyələndirən ən vacib keyfiyyətlərdən biri olduğundan onu gənc nəslə aşılamaq, uşaqları, yeniyetmələri və gəncləri vətənpərvərlik ruhunda tərbiyə etmək həmişə təhsilin ən vacib sahələrindən biri olmaqla yanaşı məktəbin vəzifələri. Məqalədə vətənpərvərlik tərbiyəsi, sosial vətənpərvərlik və hərbi vətənpərvərlik aspektləri vurğulanır. Çünki vətənpərvərlik yalnız Vətənə məhəbbət deyil. Vətənpərvərlik eyni zamanda hər an Vətəni qorumağa, yolda fədakarlıq göstərməyə, Vətənin və xalqın bütün uğurlarına sevinməyə hazır olmaq deməkdir.

ПУТИ ФОРМИРОВАНИЯ И РАЗВИТИЯ ПАТРИОТИЧЕСКИХ ЧУВСТВ У УЧАЩИХСЯ В ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛАХ

Маликова Халида

АННОТАЦИЯ

Поскольку патриотизм - одно из важнейших качеств, характеризующих человека, привитие его подрастающему поколению, воспитание детей, подростков и молодежи в духе патриотизма всегда было одним из важнейших направлений воспитания, а также важнейшими задачами школы. В статье освещены аспекты патриотического воспитания, социального патриотизма и военного патриотизма. Потому что патриотизм - это не только любовь к Родине. Патриотизм - это также быть готовым в любое время защищать Родину, приносить жертвы на своем пути, радоваться всяким успехам Родины и народа.

WAYS OF FORMATION AND DEVELOPMENT OF PATRIOTIC FEELING THE STUDENTS IN THE GENERAL EDUCATION SCHOOL

Malikova Khalida

SUMMARY

Since patriotism is one of the most important qualities that characterize a person, his inculcation in the rising generation, upbringing of children, adolescents and youth in the spirit of patriotism has always been one of the most important directions of educational work, one of the most important tasks of school. This article highlighted the aspects of patriotic education, social patriotism and military patriotism. Because patriotism is not just about loving the homeland. Patriotism is also to be ready to defend the homeland at any time, to make sacrifices in its path, to rejoice in every success of the homeland and the people.

ALİ TƏHSİLİN KVALİMETRİYASININ ÜMUMİ PROBLEMLƏRİ

Əfəndiyeva Aysel Kamran qızı
BDU-nun II kurs magistrantı
psy.ayselefendiyeva@gmail.com

Açar sözlər: təhsilin keyfiyyəti idarəetməsi, ali təhsil, pedaqoji kvalimetriya, peşə təhsili, kvalimetrik yanaşma
Ключевые слова: управление качеством образования, высшее образование, педагогическая квалиметрия, профессиональное образование, квалиметрический подход.
Keywords: education quality management, higher education, pedagogical qualimetry, vocational education, qualimetric approach

Hər hansı bir universitetin əsas sistem formalaşdıran komponenti, peşə yönəldilməsi müəyyən fənn blokları (modulları) ilə təyin olunan təhsil komponenti ilə xarakterizə olunur. Bu gün yüksək səviyyəli peşəkar təhsilin təmin edilməsində aparıcı tendensiyalar bunlardır:

- əmək bazarının tələblərinə yönəlmə;
- təhsil prosesinin maddi-texniki təminatının beynəlxalq standartlarına keçid;
- tələbələrin bilik və bacarıqlarının keyfiyyətini izləmək və qiymətləndirmək üçün pedaqoji kvalimetriyanın təyini;
- tələbələrin təlimi və inkişafı üçün ən təsirli pedaqoji şəraitin yaradılması və s (Аркаева, 2017: 38).

Eyni zamanda, müasir pedaqoji nəzəriyyə ən rasional qərarlar qəbul etməyə yönəldilmiş idarəetmə fəaliyyətləri baxımından bütöv bir təhsil prosesini nəzərdən keçirməyə imkan verir. Bu da öz növbəsində qarşıya qoyulmuş məqsəd və vəzifələrə uyğun olaraq təhsilin keyfiyyətinə nəzarət və tənzimləmə, təhsil prosesinin uğurlu təşkili, obyektiv məlumatlar əsasında öyrənmə nəticələrinin təhlili və təfsirini özündə ehtiva edir.

Ali təhsilinin məzmunu və quruluşunun modernləşdirilməsi ilə əlaqədar olaraq, elm adamları təhsilin keyfiyyətinin idarə olunması ilə birbaşa əlaqəli problemləri (Z.K. Kargieva, A.A. Korostelev, D.A. Poltoretskiy, V.N. Fomin və b.) ən fəal şəkildə araşdırmışlar. Ali təhsilin keyfiyyətinin idarə olunması ali təhsilin keyfiyyətinin kəmiyyət xarakteristikası ilə (R.P. Arkaeva, N.V. Basova, A.A. Ponukalin, A.I. Subetto, V.V. Schipanov və b.), təhsil keyfiyyətinin yaxşılaşdırılması və idarə olunması üçün metodlar, texnologiyalar və mexanizmlərin inkişaf etdirilməsi ilə (M.I. Bekoeva, I.P. Dudina, V.I. Zagvyazinsky, N.V. Lyachenkov, V.P. Mizintsev, V.P. Sergeeva, A.N. Yarygin və b.), biliklərin mənimsənilmə keyfiyyətinin müxtəlif nəzarət və ölçmə sistemləri ilə yoxlanılmasının tətbiqi (S.S. Andreev, A.N. Mayorov, V.Y. Pereverzev və b.), qiymətləndirmə vasitələrinin keyfiyyəti (F.R. Miftahutdinova, A.O. Tatur və b.) ilə ölçülür (Бекоева, 2015: 352).

Elmi və pedaqoji ədəbiyyatların təhlili göstərir ki, bəzi müəlliflər diqqəti idarəetmə aspektində "keyfiyyət texnologiyası" kateqoriyasının inkişafına cəmləşdirirlər (S.İ. Arxangelski, M.I.Bekoeva, M.V. Nikitin, V.K. Fedyukin, A.V. Çerexoviç və b.).

İdarəetmə təhsil sistemlərinin qarşılıqlı əlaqələri və işləmə qanunauyğunluqları nəticəsində yaranan obyektiv olaraq şərtlənmiş bir prosesdir. Pedaqoji ensiklopediyada bu yanaşma ilə bağlı aşağıdakı formulalar verilmişdir: "Kvalimetriya - idarəetmə strukturun bütövlüyünü, müəyyən bir fəaliyyət rejiminə uyğunluğunu və məqsəd və vəzifələrinin səmərəli həyata keçirilməsini təmin edən müxtəlif yönümlü mütəşəkkil sistemlər məcmusudur" (Дудина, 2014: 91).

Kvalimetriya - (Latın dilindən quolis - keyfiyyət və metro - ölçü) mənəvi və ya maddi xarakterə malik, təbii və ya süni mənşəli hər hansı bir obyektlərin keyfiyyətinin kompleks kəmiyyət qiymətləndirmə metodologiyası və metodlarının araşdırıldığı elmi bir sahədir. Buna uyğun olaraq keyfiyyət texnologiyaları dedikdə keyfiyyətin kəmiyyət xüsusiyyətlərinə uyğun olaraq tərtib edilmiş və ali təhsilin keyfiyyətini təhsil fəaliyyətinə idarə etmək üçün yeni bir metodologiya tətbiq olunan bir təhsil texnologiyası və sistemi kompleksi nəzərdə tutulur. Lakin qeyd etmək lazımdır ki, belə bir ümumi fikir "təhsilin keyfiyyəti", "pedaqoji kvalimetriya", "kvalimetrik yanaşma" kimi anlayışların bir qədər konkretləşdirilməsini və dəqiqləşdirilməsini tələb edir (Бекоева, 2012: 191).

Ali təhsil ocaqlarında R.P. Arkaev, effektivlik meyarlarını göstərən əsas göstərici olaraq aşağıdakıları qeyd etmişdir:

- bir təhsil müəssisəsinin tədris və təhsil fəaliyyətinin keyfiyyət və kəmiyyət xüsusiyyətləri;
- tələbə şəxsiyyətinin peşəkar inkişaf mərhələləri;

Faktiki olaraq əldə edilmiş nəticələrin sosial gözləntilərə, şəxsi ehtiyaclara və maraqlara, eləcə də yeni nəslin dövləint təhsil standartının tələblərinə uyğunluq əlamətləri təhsilin keyfiyyəti ilə xarakterizə olunur.

Müasir elmdə "təhsilin keyfiyyəti" konsepsiyası, ilk növbədə, ali təhsil sisteminin məqsəd və vəzifələri ilə əlaqəli müxtəlif izahlara malikdir. Əksər elm adamları (İ.V. Aleksandrov, V.A Bolotov, N.N Dikanskaya, Z.K Kargieva, B.A Savelyev, B.A. Taxoxov və s.) bu fenomeni universitetin təhsil və idrak prosesində biliklərin yaxşılaşdırılmasına kömək edən "keyfiyyət dəyişiklikləri" kimi, tələbələrin müəyyən bir təhsil səviyyəsini bitirdikdən sonra formalaşdırdıqları bacarıq və dəyərlər kimi şərh edirlər. Obyektin xarici və daxili quruluşunun bütövlüyü haqqında olduğu kimi təhsilin keyfiyyətinə müasir yanaşmalara əsaslanaraq qeyd etmək lazımdır ki, şagirdlərin biliklərini izləyərkən yalnız fərdi şəxsiyyət xüsusiyyətlərini deyil, həm də həm də onun daxili əlamətləri və xüsusiyyətləri, sabitliyi və s. nəzərə almaq vacibdir (Дудина, 2014: 91).

B.A. Taxoxov qeyd edir ki, təhsilin keyfiyyətinin idarə olunması, yalnız yekun nəticəyə, tələbələrin müvafiq səriştələrə yiyələnmə keyfiyyətinə deyil, həm də istənilən nəticəni əldə etmək üçün "çalışan" təhsil sisteminin bütün elementlərinə aid olan çox mürəkkəb bir problemdir. Bu mənada təhsilin keyfiyyəti müəyyən bir təhsil xidmətinin bir atributu kimi deyil, prosedur və məhsuldar tərəflərini, sosial məqsədi və sosial-mədəni mənasını əks etdirən təhsil sisteminin özünün vacib bir xüsusiyyəti kimi qəbul edilir (Каргиева, 2015: 122).

Aparılan tədqiqatlar, ali təhsilin kvalimetriyası problemi üzərində görülən işlərin təhlili (R.P. Arkaeva, M.I. Bekoeva, F.A.Kokaeva, I.I.Litvinov, A.N. Maiorov, V.P. Simonov, A.I.Subetto və s.) pedaqoji nəzəriyyədə və praktikada konstruktiv ehtiyacın artdığını iddia etməyə imkan verir. Yüksək keyfiyyətli təhsilə keçid şəraitində tələbələrin biliklərinin keyfiyyətini müəyyənləşdirmək üçün pedaqoji kvalimetriya texnologiyaları geniş surətdə istifadə edilir. Bununla birlikdə, müasir bir universitetin tələbələrinin biliklərinin monitorinqi və qiymətləndirilməsinə dair kvalimetrik yanaşmanın hərtərəfli öyrənilməsinə həsr olunmuş tədqiqatlar hələ də tam olaraq tədqiq edilməmiş və pedaqoji problem kimi kvalimetrik təhsil texnologiyası praktik olaraq öyrənilməmişdir (Коростелев, 2016: 38).

"Bilik keyfiyyəti" konsepsiyasının məzmununu hazırlayarkən I.I. Litvinov aşağıdakı komponentləri müəyyənləşdirmişdir:

- biliklərin şüurlandırılması - tələbənin səbəb-nəticə əlaqələrini və nəzəri materialla praktiki tətbiqetmə bacarıqları arasındakı əlaqəni başa düşməsi ilə xarakterizə olunur;

- biliyin dərinliyi - assimilyasiya edilmiş təriflərin, əsas qaydaların, qanunların, formulasiyaların, konseptual aparatların və s.-nin sayı və gücü ilə müəyyən edilir;
- biliyin gücü - tələbənin əvvəllər əldə olunmuş nəzəri biliklərlə təhsil, idrak və praktik fəaliyyətində fəaliyyət göstərmək bacarığında ifadə olunur;
- biliklərin ardıcıllığı - dünyanın konseptual vahid baxışına əsaslanan akademik biliklərin tutarlılığının strukturlaşdırılması ilə müəyyən edilir.

Ali təhsil ocaqlarında tələbələrin öyrənmə keyfiyyətinin idarə olunması, hər hansı bir fəaliyyət kimi (G.X. Valeev, A.V. Glichev, V.V. Kraevsky, Y.A. Konarzhevsky, I.I. Litvinov, L.V. Makarova, V.V. Nevskaya, V.K. Fedyukin, V.V. Schipanov və b), müəyyən prinsiplərə əməl edilməsinə əsaslanır (Дудина, 2014: 91):

1. Təhsil sistemlərinin idarə edilməsinin humanistləşdirilməsi və demokratikləşmə prinsipi. Bu prinsipin həyata keçirilməsi şagirdlərin, müəllimlərin, valideynlərin, ictimai strukturların və təhsil prosesinin digər iştirakçılarının təşəbbüskarlığının və fəaliyyətinin gücləndirilməsini əhatə edir.
2. Təhsil keyfiyyətinin idarə edilməsində dürüstlük və ardıcıllıq prinsipi. Bu prinsipin həyata keçirilməsi bütün idarəetmə funksiyalarının əlaqəsi və qarşılıqlı əlaqəsinə əsaslanır, idarəetmədə birtərəfli xarakteri istisna edir. Təhsilin keyfiyyətinin səmərəli idarə olunması üçün real şərait yaradan M.İ.Bekoeva yazır ki, pedaqoji prosesin sistemli bir fenomen kimi başa düşülməsi, onun ayrılmaz mahiyyətini əks etdirir.
3. İdarəetmə tədbirlərinin həyata keçirilməsində səlahiyyətlərin bölüşdürülməsindən ibarət olan mərkəzləşmə və mərkəzsizləşmənin optimal birləşməsi. Mərkəzləşdirilmədən imtina, bir tərəfdən, rəhbərliyin, müəllimlərin və tələbələrin fəaliyyətini məhdudlaşdırır. Bu da öz növbəsində, idarəetmə funksiyalarının üst-üstə düşməsi nəticəsində vaxt itkisi ilə nəticələnir. Digər tərəfdən, mərkəzləşmənin inkar edilməsi pedaqoji sistemlərin fəaliyyətində uğursuzluqların yaranmasına təkan verir, rəhbərliyin rolunu xeyli azaldır.
4. Kollegiallıq prinsipi, müxtəlif səviyyəli liderlərin, konkret qərar və qərarların icraçılarının fikirləri nəzərə alınaraq kollektiv qərarın hazırlanmasına əsaslanır. Bu prinsip, təhsilin keyfiyyətinin idarə edilməsində avtoritarizm və subyektivliyi aradan qaldırmağa imkan verir. Lakin kollegiallıq, komandanın hər bir üzvünün müəyyən bir tapşırıq üçün şəxsi məsuliyyətini istisna etmir.
5. Təhsil keyfiyyətinin idarə olunmasının elmi xarakteri və etibarlılığı prinsipi. Hər bir lider pedaqoji sistemlərin, təhsil məkanının inkişafının obyektiv meyllərini və qanunauyğunluqlarını mənimsəməli və düzgün istifadə etməli, obyektiv inkişaf etmiş vəziyyətləri və gələcək üçün proqnozun nəticələrini nəzərə alaraq elmi əsaslandırılmış bir qərar verməlidir (Арқаева, 2017: 40).

A.V. Osovski yazır ki, təhsildə qiymətləndirmə meyarlarının əsas problemi, keyfiyyətin mənalı, daxili, semantik bir kateqoriya olmasıdır, lakin mövcud meyarlar yalnız xarici, prosedur qiymətləndirməsinə yönəlmişdir. Bu yanaşma təhsilin məzun üçün qərarların qəbul edildiyi, rəhbərlik etdiyi, dövlət tərəfindən idarə olunduğu və maliyyələşdirildiyi həyat üçün bir hazırlıq kimi rolunun ənənəvi baxışını əks etdirir. Siyasət direktivlərinə əməl etməyə hazırlaşmaq təhsilin və keyfiyyət idarəetməsinin mahiyyətidir. Dəyişmiş həyat keyfiyyəti, məzundan həyatın problemlərini özbaşına həll etmək qədər təlimatları izləmək bacarığını tələb edir. Hər hansı bir hərəkət, yalnız onun arxasında şəxsi bir məna, bu hərəkətin başqaları tərəfindən tanınan keyfiyyətini təmin edən daxili bir hissə olduğu zaman tanınır. Dövlətin təhsildə rolu da zamanla dəyişir, lakin təhsilin keyfiyyətinin idarə olunmasına təsiri birmənalı olaraq stabil qalır (Бекоева, 2012: 196).

Təhsilin keyfiyyətinin idarə olunmasında keyfiyyət komponentinin tətbiqi, fikrimizcə, aşağıdakı əsas müddəalarla şərtlənir. Birincisi, yeni bir nəslin dövlət təhsil standartlarına keçidlə əlaqədar olaraq təlim nəticəsində səriştələrin rolu artır. Təbiidir ki, yüksək keyfiyyətli bilik və bacarıqlara sahib olan tələbənin lazımi səviyyədə peşəkar fəaliyyət göstərməsi ehtimalı daha yüksəkdir. Bu, mütəxəssis modelini müştərinin tələblərinə uyğunlaşdırmaq üçün növbəti addım olacaqdır. İkincisi, tələbənin peşə fəaliyyətinin yüksək keyfiyyətli nəticələrinə daxili ehtiyacı ilə vəhdətdə keyfiyyətli təhsil onun səriştəsinin artırılması üçün optimal şərait yaradır. Üçüncüsü, təhsilin keyfiyyətini idarə etmək üçün təlim sistemi yeniliklə sıx əlaqəlidir, onun mahiyyəti yalnız təhsil prosesinin səmərəliyini deyil, həm də keyfiyyətini yüksəltməklə təhsil prosesində yeni texnologiyaların tədbiqi üçün şərait yaratmaqdır. İnnovasiya prosesində təqdim olunan keyfiyyətin müxtəlifliyi, öz növbəsində, tələbələrin - gələcək mütəxəssislərin təhsil keyfiyyət idarəetmə sisteminin bütün inkişafına kömək edir.

Nəticə. Beləliklə, belə bir nəticəyə gəldik ki, müasir bir ali təhsil ocaqlarının tələbələrinin təhsil keyfiyyətinin idarə edilməsində pedaqoji kvalimetriya müəllimin təhsilin keyfiyyətinin forması, nəzarəti, qiymətləndirilməsi və idarəedilməsində bilik və bacarıqlarının formalaşdırılmasına yönəlib. Bu prosesdə ali təhsilin kvalimetriyasının vacib komponentləri aşağıdakılardır:

- keyfiyyətli qiymətləndirmə əsas təhsil proqramlarını bilmək;
- tələbə səriştəsinin düzgün qiymətləndirilməsi;
- mütəxəssislərin sosial norma və modellərinin keyfiyyətinin qiymətləndirilməsi;
- elmi və maddi-texniki bazanın keyfiyyətinin qiymətləndirilməsi;
- elmi və pedaqoji potensialın keyfiyyətinin qiymətləndirilməsi.

Təhsilin keyfiyyəti idarəetmə prosesinin mühüm tərkib hissəsi kimi pedaqoji kvalimetriyadan istifadənin perspektiv meylləri kimi təhsilin keyfiyyətinin kəmiyyət qiymətləndirilməsi üçün elmi olaraq əsaslandırılmış texnologiyaya əsaslanır. Onun həyata keçirilməsinin əsas istiqamətləri:

- təhsil xidmətlərinin daxili və xarici bazarlarında yüksək səriştəlilik və rəqabətqabiliyyətliliyini təmin etmək;
- milli təhsilin modernləşdirilməsi kontekstində təhsil prosesinin vəziyyəti və inkişaf mexanizmlərinin araşdırılması;
- müasir bir ali təhsil ocağının tələbəsində ümumi mədəni, ümumi peşə bacarıqlarının formalaşmasına kömək edən yeni pedaqoji sistemlərin və təhsil texnologiyalarının yaradılması problemlərinin həllini həyata keçirmək.

ƏDƏBİYYAT

1. Аркаева Р.П. Квалиметрический подход в управлении качеством образования студентов //Вектор науки Тольяттинского государственного университета. Серия: Педагогика, психология. 2017. №1. С. 38-40.

2. Бекоева М.И. Интеграция европейских образовательных систем как основа развития международного образовательного пространства //Вестник Иркутского государственного технического университета. 2012. №5 (64). С. 191-196.

3. Бекоева М.И. Многоуровневая система высшего профессионального образования как объект научно-педагогического анализа //Вектор науки Тольяттинского государственного университета. Серия: Педагогика, психология. 2015.№1. С. 352-354.

4. Дудина И.П., Ярыгин А.Н. Проектирование информационного пространства образовательного учреждения //Вектор науки Тольяттинского государственного университета. Серия: Педагогика, психология. 2014.№ 3. С. 91-93.

5. Каргиева З.К. Повышение конкурентоспособности современной высшей школы как необходимая составляющая системы подготовки кадров //Вестник Северо-Осетинского государственного университета имени Коста Левановича Хетагурова. 2015. №4. С. 122-124.

6. Коростелев А.А., Полторецкий Д.А. Автоматизированные информационно-аналитические системы в аналитической деятельности управления //Азимут научных исследований: педагогика и психология. 2016. № 1. С. 38-41.

ALİ TƏHSİLİN KVALİMETRİYASININ ÜMUMİ PROBLEMLƏRİ

Əfəndiyeva Aysel

XÜLASƏ

Azərbaycanın ali təhsil sisteminin beynəlxalq təhsil məkanı ilə inteqrasiyası prosesi peşə təhsili idarəetməsinin keyfiyyəti və səmərəliliyinin daim yaxşılaşdırılmasına, məzmunu, quruluşu və metodikasının yenilənməsinə və beynəlxalq maddi-texniki standartların tətbiqinə obyektiv ehtiyac yaratmışdır. Bu da öz növbəsində təhsil prosesini dəstəkləmək, şagirdlərin biliklərini və ümumilikdə təhsilin keyfiyyətini izləmək və qiymətləndirmək üçün vahid daxili və xarici sistemin inkişafına təkan verdi. Məqalədə müəllif ümumi metodoloji prinsiplərin, təhsilin keyfiyyət göstəricilərinin strukturlaşdırılmasının, təhsilin keyfiyyətinin qiymətləndirilməsinin aksiomatik nəzəriyyəsinin, tələbə biliklərinin ölçülməsi metodlarının nəzəri ümumiləşdirilməsinin həyata keçirilməsinin mümkünlüyünü inandırıcı şəkildə sübut edir. Ali təhsil kvalimetriyasına kvalimetrik yanaşma sıradakı əsas funksiyalara əsaslanır: idarəetmə, diaqnostika, planlaşdırma, düzəliş, motivasiya stimullaşdırma və qiymətləndirmə.

ОБЩИЕ ПРОБЛЕМЫ ВЫСШЕГО ОБРАЗОВАНИЯ

Афандиева Айсель

АННОТАЦИЯ

Процесс интеграции системы высшего образования Азербайджана с международным образовательным пространством создал объективную потребность в постоянном повышении качества и эффективности управления профессиональным образованием, обновлении его содержания, структуры и методологии, применении международных материально-технических стандартов. Это, в свою очередь, дало толчок к развитию единой внутренней и внешней системы поддержки образовательного процесса, мониторинга и оценки знаний учащихся и качества образования в целом. В статье автор убедительно доказывает возможность реализации общих методологических принципов, структурирования показателей качества образования, аксиоматической теории оценки качества образования, теоретического обобщения методик измерения знаний студентов. В основе квалиметрического подхода к квалиметрии высшего образования лежат

следующие основные функции: управление, диагностика, планирование, коррекция, мотивационное стимулирование, оценка.

GENERAL PROBLEMS OF HIGHER EDUCATION QUALIETRY

Afandiyeva Aysel

SUMMARY

The process of integration of the higher education system of Azerbaijan with the international educational space has created an objective need for continuous improvement of quality and efficiency management of vocational education, updating its content, structure and methodology, application of international material and technical standards. This, in turn, has given impetus to the development of a single internal and external system to support the educational process, to monitor and evaluate students' knowledge and the quality of education in general. In the article, the author convincingly proves the possibility of implementation of general methodological principles, structuring of education quality indicators, axiomatic theory of education quality assessment, theoretical generalization of methods of measuring students' knowledge. The basis of the qualimetric approach to the qualimetry of higher education is the following main functions: management, diagnostics, planning, correction, motivational stimulation, assessment.

GENDER TƏRBİYƏSİNİN GƏNC NƏSİLDƏ FORMALAŞDIRILMASINDA AİLƏ VƏ MƏKTƏBİN BİRGƏ İŞİ

Əlizadə Səbinə Vahid qızı
BDU-nun II kurs magistrantı
sebine.elizade.1996@bk.ru

Açar sözlər: ailə, ailədaxili münasibətlər, cəmiyyət, gender bərabərliyi, valideyn, uşaqlar, məktəb, müəllim-şagird münasibəti.
Ключевые слова: семья, семейные отношения, общество, гендерное равенство, родитель, дети, школа, отношения между учителем и учеником.
Key words: family, family relationships, society, gender equality, parents, children, school, teacher-student relationship.

Müasir dövrdə cəmiyyətdə baş verən ictimai və siyasi proseslər bir sıra stereotiplərə baxışları kökündən dəyişir. Demokratik dəyərlərə önəm verilməsi bu gün hər bir sivil dövlətin mədəni səviyyəsinin əsas göstəricilərindəndir. Bu göstəricilərdən biri də cinslərarası münasibətlərdə balanslaşmanın, bərabərliyin vacib olmasını özündə ehtiva edən gender problemidir.

Demokratik dəyərləri hər şeydən üstün tutan Azərbaycan Respublikası gender bərabərliyini vətəndaş cəmiyyətinin, hüquqi dövlətin yaranmasının başlıca amili hesab edir. Mühüm sosial və pedaqoji əhəmiyyətə malik olan bu problemə bütün zamanlarda olduğu kimi müasir dövrdə də müxtəlif yanaşmalar mövcuddur. XXI əsrə inamlı addımlarla keçən, müstəqilliyin çətin yollarında cəsarətlə irəliləyərək öz varlığını dünyaya sübut edən Azərbaycanda insanlar arasında hüquq bərabərliyinin düzgün təyin edilməsi həmişə dövlətin və hökumətin diqqət mərkəzindədir. Bunun da bir sıra sosial səbəbləri vardır. Çünki cəmiyyətdə hələ də cinslərarası münasibətlərə neqativ təsir göstərən, patriarxal qaydalara əsaslanan adət-ənənələr qalmaqdadır. Qadınla kişinin cəmiyyətdəki sosial mövqeyinə, əmək bölgüsünə, ailədaxili roluna baxışlar birmənalı deyildir.

Gender problemi, tərbiyə və təhsil sahəsində gender stereotiplərinin rolu, təhsildə gender aspektləri, ali məktəbdə gender tədrisinin əsas cəhətləri Rusiyada pedaqoji tədqiqatların obyektinə çevrilmiş və xeyli araşdırmalar aparılmışdır (S.N.Nadolinskaya, S.Bulatova, N.Y.Yerofeyeva, C.Roşkova, O.Çesnokov, L.Şustora və b.).

Azərbaycanda pedaqoji sahədə mövcud gender problemlərinə pedaqogika sahəsində aparılan tədqiqatlarda ümumi fonda toxunulsa da , pedaqoji sahədə gender tədqiqatlarına ciddi zərurət var. Azərbaycanda genderi sistemli şəkildə, pedaqoji aspektdə tətqiq edən p.ü.e.d E.Mollayevanın qənaətinə görə gender bərabərliyinin tərbiyə edilməsi hələ ailədən başlamalı, sonralar məktəbdə, ali təhsil müəssisəsində də davam etdirilməlidir. Yəni gender problemi yalnız psixoloji, kulturoloji, ictimai-siyasi, hüquqi aspektdən deyil, pedaqoji aspektdən də elmi tədqiqatların predmetinə çevrilməlidir. Çünki böyüyən nəslin cinsi tərbiyəsinə və təhsilinə neqativ təsirin güclü olması gender probleminin araşdırılmasını zərurətə çevirir.

Gender bərabərliyi istər ötən dövrlərdə, istərsə də müasir dövrdə əhəmiyyət daşıyan aktual problemlərdən olmuşdur. Buna görə də gender bərabərliyinin aşılanması valideynlərin mühüm vəzifəsinə çevrilmişdir.Hal-hazırda baş verən dəhşətli hadisələrin, cinayətlərin, intiharlarin daha çox gənclər arasında baş verməsi və boşanmaların artması bu sahədə tədqiqatları aktuallaşdırır və bizim bu məsələ ilə bağlı narahatlığımıza əsas verir. Buna görə də gənc nəsildə gender tərbiyəsi mühüm əhəmiyyət kəsb edir.

Bir insanın şəxsiyyət kimi formalaşması, tərbiyələnməsi ilk öncə ailədə baş verir. Uşaqlar valideynlərindən gördükləri, eşitdikləri hər şeyin düzgün olduğunu düşünərək onların izi ilə gedirlər. Bu da o deməkdir ki, gənc nəsildə gender tərbiyəsinin formalaşması üçün həmin tərbiyənin valideynlərdə də olması mühüm əhəmiyyət kəsb edir. Bunun üçün yaşından asılı olmayaraq hər kəs gender bərabərliyinin mahiyyətini anlamalı və bu tərbiyəni özlərində formalaşdırmalıdırlar.

Bu gün tələbələrə və eləcə də gənc nəslə gender bərabərliyi dəyərlərinin aşılanmasında ailə əsas sosial-mədəni mühit, cəmiyyət kimi götürülməlidir. Hər bir insanın həyatında xüsusi yer tutan və cəmiyyətin sosial özəyi olan ailə daxilində təsir və əks təsir vasitəsilə həm tələbələr, həm də böyüklər tərbiyə olunurlar. Bu mənada "müəyyən tarixi dövrlərdə maddi-mənəvi həyat tələbatından doğan, yaşlı nəsildən gənc nəslə çatdırılan davranış qaydaları və əxlaq normaları ailədə formalaşır və nəsildən nəsilə adlayır" [1,s.104].

Ailədaxili münasibətlər gələcəkdə qurulacaq ailələrə də təsir göstərir. Həmişə fiziki və mənəvi zorakılığın, gərginliklərin, mübahisələrin şahidi olan gənclərdə gender tərbiyəsi çox çətin şəkildə formalaşır. Buna görə də valideynlər bilməlidirlər ki, bu günün gənci sabahın potensial valideyni və ya həyat yoldaşıdır.

Ailə daxilindəki münasibətlərdən danışarkən ortaya ənənəvi bir sual çıxır: ailənin başçısı kim olmalıdır? Hər bir xalqın mədəniyyətində ailə daxilində kişi və qadın rollarını tənzimləyən özünəməxsus ənənəvi qaydalar olmuşdur və onların hamısını kişinin başçılığına üstünlük verməsi birləşdirir. Ailə başçısı və ya ailənin lideri kimi kişinin əsas götürülməsi Azərbaycan ailələri üçün ənənəvi haldır və çox vaxt bu qadınların özləri tərəfindən də könüllü qəbul edilir [3, s. 166].

Gender bərabərliyi dedikdə, cəmiyyətimizin bəzi üzvləri tərəfindən bu ifadə birmənalı olaraq qarşılanmır. Onlar düşünürlər ki, gender bərabərliyi yalnız qadınların hüquq və azadlıqlarını müdafiə edir. Amma sadəcə gender sözünün mənasına baxsaq görərik ki, gender "cins", "sosial cins" deməkdir. Cins isə qadın və kişi kateqoriyalarına bölünür. Yəni bir sözlə, Gender bərabərliyi- Qadın və kişilərin sosial, ictimai həyatda bərabər haqqa, hüqüq və imkanlara malik olduqlarını nəzərdə tutur.

Gender bərabərsizliyi yalnız sosial həyatda deyil, təlim və tərbiyə prosesində də özünü büruzə verir. Ailədə oğlan və qız övladların tərbiyəsində ayrı- seçkilik qoyulur. Bəzi ailələrdə oğlan övladlarına sərbəstlik verildiyi halda, qız övladları çox sıxışdırılır. Hətta təhsil almağın belə qızların əxlaqına mənfi təsir edəcəyini düşündükləri üçün onları təhsil müəssisəsindən çıxarırlar. Bu tip ailələr qız övladı özlərinə yük kimi görürlər və onları erkən nigah bağlamağa məcbur edirlər.

Gender bərabərsizliyi oğlan övladlarına qarşı da baş verir. Məsələn, qız övladların əzizləndiyi halda oğlanlara sərt yanaşılması, onlara ağlamağın ayıb bilinməsi, erkən yaşlardan işləyib evə qazanc gətirməsi və s. oğlanlara qarşı edilən ayrı-seçkilikdir.

Təhsil cinsindən asılı olmayaraq, hər kəsə ictimai həyatın müxtəlif sahələrində, idarəçilikdə iştirak etməyə imkan verir və onları layiqli fəaliyyət şəraiti ilə təmin edir. Məhz buna görə də təhsili gender bərabərliyinə nail olmaq və qadınların imkanlarının genişləndirilməsinin mühüm vasitələrindən biri kimi qiymətləndirmək lazımdır.

Bütövlükdə təhsil sistemində, həmçinin orta və ali təhsil sistemində gender bərabərsizliyi problemi xüsusi aktuallıq kəsb edir. 2006-cı il 30 noyabr tarixində Gender qanunu Azərbaycanda təhsil sistemini tənzimləyən hüquqi-normativ sənədlərə əlavə olundu. Beləliklə, Azərbaycan Respublikasının Konstitusiyası, "Təhsil haqqında qanun" və "Gender Qanunu" cinsindən asılı olmayaraq hər bir vətəndaşın təhsil almaq hüququna malik olmasını qanunvericiliklə təsbit edir. 2006-cı ildə qəbul olunmuş Gender Qanununda təhsildə gender bərabərliyinin təsbit olunması öz

əksini tapmışdır. Bu qanunun 13-cü maddəsində deyilir: "2 13.1. Dövlət kişi və qadınlara təhsil hüququnun həyata keçirilməsi üçün bərabər imkanların yaradılmasını təmin edir. 13.2. İşəgötürən kişi və qadınlara əsas və əlavə təhsil almaq, təhsillə bağlı məzuniyyət hüququndan istifadə etmək üçün bərabər şərait yaratmalıdır. 13.3. Dövlət mülkiyyət növündən asılı olmayaraq, bütün tədris müəssisələrinə qəbulda, tələbələrin təqaüdlə təmin edilməsində, tədris planının seçilməsində və biliyin qiymətləndirilməsində kişi və qadınlar üçün bərabər imkanlar yaradılmasını təmin edir. 13.4. Dərsliklər gender bərabərliyi prinsipinə əsaslanmalıdır" [2, s. 1-5].

Bu gün gender bərabərliyinin aşılanmasında, tərbiyə edilməsində əsas məsələ kişi və ya qadın hökmranlığının dəyişdirilməsindən ibarət deyil. Burada əsas diqqət hər iki tərəfin bir-birinə münasibətlərində gender bərabərliyinə əsaslanan tərbiyəni, əxlaqi dəyərləri əsas götürmələri və hər iki cinsin köhnə streotiplərdən azad olmasına yönləndirilməsidir. Məhz buna görə bu gün cəmiyyətimiz ümumiləşdirilmiş əxlaq nümunələrinə, davranış normalarına ehtiyac duyur. Bu aspektdən gender-cinsi münasibətlər, cinslər arasında sosial bərabərlik, əxlaqın mühüm tərkib hissəsini təşkil edir. Genderə dair müxtəlif elmi istiqamətlərdə tədqiqatlar çoxdur. Lakin gender bərabərliyinə nail olmaq üçün əsas olan əxlaq və tərbiyə məsələlərinə çox az diqqət yetirilir və tədqiq edilir, onların əhəmiyyəti lazımınca qiymətləndirilmir. Dəyər xarakteri daşıyan əxlaq hüquqdan onunla fərqlənir ki,əxlaqi norma və prinsiplərə əməl etmək qanuna yox, vicdan və ictimai rəyə əsaslanır [4, s.14].

Təhsil prosesində gender problemindən bəhs edərkən peşə seçimində gender balansının pozulmasından və gələcəkdə baş verə biləcək fəsadlara da toxunmaq yerinə düşər. Ali təhsil sahəsində aparılmış tədqiqatlara əsasən aydın olmuşdur ki, oğlanların əksəriyyəti texniki və iqtisadi, qızların əksəriyyəti isə humanitar və pedaqoji ixtisaslara üstünlük verir. Buna görə də, sosialogiya, pedaqogika, psixologiya ixtisasları üzrə təhsil alanların böyük əksəriyyəti qızlardır. Pedaqogika və tibb sahələrinə qızların daha çox meyl etməsi, oğlanların bu peşələri "qeyri-kişi" peşələri kimi qəbul etməsi gələcəkdə məktəbəqədər və orta təhsil müəssisələrində uşaqların təlim-tərbiyəsində qadın rolunun güclənməsindən və təhsilin müxtəlif mərhələlərində gender balansının pozulacağından xəbər verir. Pedaqoji sahəni "qadın sahəsi" hesab edən oğlanlar cəmiyyətdə mövcud olan stereotiplər və bu sahədə iqtisadi çətinliklərin olması nəticəsində bu peşə üzrə təhsil almağa və çalışmağa tərəddüd edirlər. Bu isə oğlanların şüurunda da sosial rolların bölgüsünə dair gender stereotipinin mövcudluğundan xəbər verir və bu stereotiplər gənclər arasında aktualdır.

Təhsildə əsas gender problemlərindən biri isə təhsil almada qız və oğlan övladları arasında fərqin qoyulmasıdır. Bəzi valideynlər oğlan uşaqlarının təhsilini ailədə prioritet məsələ səviyyəsinə qaldırsalar da, qızların təhsilinə olduqca biganə yanaşırlar.

Müasir dövrə və dünyagörüşünə zidd olan köhnə baxışları inkar etmək və zəruri olanı təsdiq etmək təhsildə mövcud olan gender problemlərini aşkarlamaq, həll etmək üçün günün tələbidir. Bu baxımdan pedaqoji fikir tarixində, digər humanitar elm sahələrində tarixi-nəzəri ümumiləşdirmələr, tarixi-məntiqi təhlillər aparmaq və çıxarılan nəticələri düzgün şəkildə tətbiq etmək lazımdır. Çünki əldə etdiyimiz keçmiş sosial təcrübəyə, malik olduğumuz əxlaqi-mənəvi dəyərlərə istinad etdikdə bu sahədəki çətinlikləri asanlıqla aradan qaldıra və hətta faydalı ola biləcək yeni təcrübələr qazana bilərik.

Gənc nəsildə gender mədəniyyətinin, gender tərbiyəsinin formalaşması üçün aşağıdakı amillər nəzərə alınmalıdır:şagirdin, valideynin, ictimaiyyətin və müəllimin mövqeyi. Bu 4 kateqoriyanı əhatə edən məsələlər genderlə bağlı tədqiqatlarda öz əksini tapmalıdır. Onun da əsasında aşağıdakılar məsələlər dayanır:

- oğlan və qızların arasında qarşılıqlı münasibətlərdə meydana çıxan problemlər;

- kütləvi informasiya vasitələrinin gender tarazlığına mənfi təsiri;
- kişi və qadın idealları haqqında mövcud olan sadə təsəvvür, kişilərin gənc nəslin mənəvi tərbiyəsində passiv rolu, davranış mədəniyyətinin formalaşmasına olan laqeyd münasibət;
- valideynlərin gender təybiyəsi ilə bağlı maarifləndirilməsi işinin və onlarla əməkdaşlığın zəif olması.

Gənc nəsildə gender tərbiyəsinin formalaşdırılmasında müəllimlərin xüsusi rolu vardır. Bu tərbiyənin gənclərə effektiv şəkildə ötürülməsi üçün ilk öncə müəllimin özündə gender tərbiyəsi olmalıdır. Buna görə də pedaqoji təmayüllü ali məktəblərin başlıca vəzifələrindən biri gender mədəniyyətinə, gender tərbiyəsinə malik olan şəxsiyyətin formalaşdırılmasından ibarətdir. Çünki, ali təhsil müəssisələrində təhsil alan tələbəni sabahın pedaqoqu, pedaqoji işçisi kimi qəbul etməliyik. Buna görə də tələbənin gender mədəniyyətini və tərbiyəsini anlaması və ona hansı dərəcədə malik olması gələcək nəsillərin gender ruhunda böyüməsinə müsbət və yaxud mənfi təsir göstərəcək. Müəllimlər bu sahədə nəticə və uğur əldə etmək üçün diqqətini yalnız şablonluğa və bilik öyrətməyə yönəltməməlidirlər. Onlar tədris etdiyi fənnin gender aspektindən, imkanlarından maksimum dərəcədə yaralanmalıdırlar. Eləcə də, genderlə bağlı problemin düzgün həll olması üçün valideyn, müəllim və gender üzrə mütəxəssislərin vahid gender yanaşmasına riayət etməsi olduqca vacibdir. Bu zərurət gender tərbiyəsinin və təhsilinin məqsəd, vasitə, məzmun və metodunun hər yaş xüsusiyyətindən asılı olaraq dəyişməsi ilə ortaya çıxarır və buna müvafiq olaraq yaşa uyğun olaraq həll yolları formalaşdırılır. Tələbələrin gender tərbiyəsi ər-arvadın psixoloji, fizioloji, sosioloji uyğunluğunun müxtəlif istiqamətini, ailə qurmaq və nikaha daxil olma məsələlərini də əhatə etməlidir.

Məktəblərdə, ali məktəblərdə gənclərin gender tərbiyəsinin aparılması zamanı müəllim heyətinin əsas rolu bu prosesi daha dərindən onlara aşılamaqdır. Çünkü bu elə prosesdir ki, həm tələbə, həm də müəllim bu prosesin bilavasitə iştirakçı olmalıdır. Fikrimcə, genderin tərbiyə vasitəsilə aşılanması gender tərbiyəsinin əsas göstəricisidir. Çünki hər şeyin əzəli tərbiyədirsə, bunun genderə də təsiri mühüm amildir. Cinsi fərqliliklərin olduğu bir dünyada gənc nəslə gender tərbiyəsi vasitəsi ilə təlim keçmək bu fərqlilikləri aradan qaldırmağa yardımcı olacaqdır. Düşünürəm ki, gender tərbiyəsinin formalaşması və aşılanması lap kiçik yaşlardan başlamalı və uşağın məhz ailə daxilində bu prosesi yaşaması daha məqsədəuyğundur. Çünki lap kiçik yaşlardan qoyulan bu təməl daş sonrakı inkişaf mərhələlərində mühüm rola malik olacaqdır. Tərbiyədə rast gəlinən kobud səhvlər gender münasibətlərinin və gender tərbiyəsinin inkişafına mane olacaq və onu yavaşladacaqdır. Bunun qarşısı isə lap uşaq vaxtlarından olunsa bu proses gələcək üçün stimul olacaq [6].

Təhsildə gender problemlərindən danışarkən müəllim və tərbiyəçinin özünün gender tərbiyəsinə və mədəniyyətinə nə dərəcədə malik olması və riayət etməsi məsələsinə xüsusilə diqqət yetirmək lazımdır. Müəllim, pedaqoq özü gender mədəniyyətinin daşıyıcısı və eyni zamanda ötürücüsü olmalıdır, eyni zamanda bu barədə özünü inkişaf etdirməlidir. Bu problemin həllində xoşagəlməz halların yaranmaması üçün pedaqoqların ixtisasının artırılması və yenidən hazırlanması üzrə kurslarda gender probleminə dair həsr olunmuş mövzuların da salınması və bu yöndə tədqiqatların aparılması mühüm əhəmiyyət kəsb edir.

Gender tərbiyəsi uzun sürən bir proses olduğu üçün bu prosesə orta məktəbdən başlayıb ali məktəbdə davam etdirmək lazımdır. Belə ki, şagirdlərin və tələbələrin bir-birinə münasibətlərində cinslərarası hörmətin əsas götürülüb tərbiyə edilməsi təlim prosesində həyata keçirilməlidir. İdrak prosesinə əsaslanan təlimin gedişində dərsin yaradıcı xarakterinin, şagirdləri fəal düşünməyə, elmi biliklərin aydın dərk olunmasına, onların tərbiyə edilməsinə yönəldən şəraitin olması böyük əhəmiyyətə malikdir. Böyük rus pedaqoqu K.D Uşinski yazırdı: “Təlim tərbiyənin olduqca qüdrətli üzvüdür və bu üzvdən məhrum olan müəllim uşaqlar üzərində

məhrum olan müəllim uşaqlar üzərində ən başlıca və ən gerçək təsir vasitəsini itirmiş olur" [5, s.18].

Gender tərbiyəsinin gənc nəsildə formalaşdırılması ailə və təhsil müəssisəsində ayrı-ayrılıqda getsə də, onların bu işdə birgə fəaliyyəti daha əlverişli və təsirli olur. Gənc həm ailədə, həm də məktəb mühitində eyni cür tərbiyə gördükdə bu proses onda daha sürətli baş verir və o bu tərbiyəni daha düzgün şəkildə anlayır, tətbiq edir. Bunun üçün həm valideynlər, həm də müəllim heyəti ilk öncə özündə bu tərbiyəni yüksək şəkildə formalaşdırmalı, sonra isə əldə etdikləri tərbiyəni gənclərə aşılamalıdırlar.

Məqalənin aktuallığı. Gender anlayışı dedikdə bir çox gənclərimiz ya bu haqda heç nə bilmirlər, ya da düzgün şəkildə anlamırlar. Buna görə də bu məsələ aktual olaraq öyrənilməli, qavranılmalı, aşılanmalı və tətbiq edilməlidir.

Məqalənin elmi yeniliyi. Gender bərabərliyi, onun aşılanmasında ailə və məktəbin birgə fəaliyyəti sferasında valideyn-övlad, müəllim-şagird münasibəti, valideynlərin, müəllimlərin və pedaqoqların rolu məsələləri sistemli şəkildə araşdırılmışdır.

Məqalənin praktik əhəmiyyəti və tətbiqi. Gender bərabərliyi, onun aşılanması prosesində müəllim və valideynlərin təşəbbüsləri ilə bağlı tədqiqatlarda, ali məktəb tələbələrinə mühazirələr zamanı, kurslarda seminarların təşkilində istifadə etmək konteksində əhəmiyyət kəsb edir.

ƏDƏBİYYAT

1. Quliyeva N. Azərbaycanda müasir kənd ailəsi və ailə məişəti. Bakı: "Bakı Universiteti" nəşriyyatı, 2005
2. Gender (kişi və qadınlar) bərabərliyinin təminatları haqqında Azərbayan Respublikasının Qanunu. Bakı, 10 oktyabr, 2006
3. Mollayeva E. Pedaqoji kadr hazırlığının gender aspektləri. "Elm və təhsil" Bakı-2021, s. 430
4. Mollayeva E. Gender tərbiyəsi:tarixi, nəzəriyyəsi və müasir problemləri. "Elm və təhsil" Bakı, 2013,s.268
5. Uşinski K.D. Seçilmiş pedaqoji əsərləri. Bakı: Azərnəşr, 1953, s.18
6. https://www.oecd-ilibrary.org/docserver/9789264229945-8-en.pdf?expires=1617285364&id=id&accname=guest&checksum=8600B3E9AB99F5AFF0DB1716AB36115E

GENDER TƏRBİYƏSİNİN GƏNC NƏSİLDƏ FORMALAŞDIRILMASINDA AİLƏ VƏ MƏKTƏBİN BİRGƏ İŞİ.

Səbinə Əlizadə

XÜLASƏ

Gender bərabərliyinin gənc nəsildə formalaşdırılması prosesi mürəkkəb və çətindir. Valideyn və müəllimlərin yəni, ailə və məktəbin birgə işi sayəsində gəncdə bu tərbiyəni formalaşdırmaq daha asan şəkildə həyata keçirilir. Çünki, uşaq ailə və məktəb vasitəsilə bir şəxsiyyət kimi formalaşır və orada gördükləri davranış və münasibətləri özü üçün daha düzgün hesab edir. Buna görə də istər ailələr, istərsə də təhsil müəssisələri gender tərbiyəsi və mədəniyyəti ilə bağlı maarifləndirilməlidir.

СОВМЕСТНАЯ РАБОТА СЕМЬИ И ШКОЛЫ В ФОРМИРОВАНИИ ГЕНДЕРНОГО ВОСПИТАНИЯ ПОДРАСТАЮЩЕГО ПОКОЛЕНИЯ

Сабина Ализаде

АННОТАЦИЯ

Процесс достижения гендерного равенства в подрастающем поколении сложен и труден. Благодаря совместной работе родителей и учителей, то есть семьи и школы, у молодежи легче сформировать это образование. Потому что ребенок формируется как личность через семью и школу, и он считает, что поведение и отношения, которые они видят, более подходящими для него. Следовательно, и семьи, и образовательные учреждения должны быть осведомлены о гендерном образовании и культуре.

JOINT WORK OF FAMILY AND SCHOOL IN THE FORMATION OF GENDER EDUCATION IN THE YOUNGER GENERATION

Sabina Alizada

SUMMARY

The process of building gender equality in the younger generation is complex and difficult. Thanks to the joint work of parents and teachers, that is, the family and the school, it is easier to form this education in young people. Because the child is formed as a person through family and school, and he considers the behavior and attitudes they see there to be more correct for himself. Therefore, both families and educational institutions need to be educated about gender education and culture.

ŞƏXSİYYƏTİN HƏRTƏRƏFLİ FORMALAŞMASINDA VALİDEYNLƏRİN ROLU

Hüseynova Əsmər Osman qızı
BDU-nun II kurs magistrantı
esmer.huseynova095@gmail.com

Açar sözlər: ailə, şəxsiyyət, tərbiyə, ailədaxili münasibətlər, ailədaxili münaqişələr, müsbət və mənfi keyfiyyətlər.
Ключевые слова: семья, личность, воспитание, семейные отношения, семейные конфликты, положительные и отрицательные качества.
Keywords: family, personality, upbringing, family relationships, family conflicts, positive and negative qualities.

Ailə - insanların davamlı sosial birliyidir. Elə bir sosial birlikdir ki, min illər boyunca təşəkkül tapıb, inkişaf edir. İnsan ailədə bir şəxsiyyət kimi formalaşaraq, ictimai varlığa çevrilir və insanlıq dünyasına qədəm qoyur.

Ailə - şəxsiyyəti formalaşdıran sosial institutdur. Şəxsiyyətlərarası münasibətlər və anlayışlar ailə mühitinin təsirinə məruz qalaraq, inkişaf edir. Uşaq şəxsiyyətinin formalaşmasında, pozitiv davranışlar aşılanmasında, eləcə də fiziki və əqli baxımdan sağlam, həm özü, həm də yaşadığı cəmiyyət üçün xeyirli bir fərd kimi böyüyüb, inkişaf etməsində valideynlərin və ailədaxili münasibətlərin təsiri güclüdür. Kiçik bir dövlət hesab olunan ailədə zəngin mənəviyyata, dünyagörüşünə və nəcib əxlaqi keyfiyyətlərə sahib fərdlərin yetişib yetişməməsi birmənalı şəkildə valideynlərdən qaynaqlanır. Çünki hər bir uşaq şəxsiyyətinin formalaşması müddətində ona lazım olacaq həyati dərsləri və gözəl keyfiyyətləri ailəsində ata-anasından, böyüklərindən alır. Bu insanın sonrakı taleyi və yaxud cəmiyyətimizdə tutacağı mövqeyi ailəsinin onu nə dərəcədə düzgün öyrədib, istiqamətləndirib, müsbət və xoşagələn mənəvi keyfiyyətlər formalaşdırması ilə bilavasitə bağlıdır.

Görkəmli etikşünas, professor Z.Göyüşovun "Həzz və iztirab" adlı əsərində deyildiyi kimi "Hər adamın ailəsi, evi onun həyat dənizində lövbər saldığı sahilidir. Dünyanın heç bir guşəsi adamın öz evinin verdiyi ləzzəti verə bilməz." Tarixi inkişaf məhsulu olan ailə həm də elə bir səmimiyyət ocağıdır ki, onun üzvləri ailədənkənar fəaliyyətlərində yaranan narahatlıqları və çətinlikləri ailəsində gördüyü xoş insani rəftar ilə aradan qaldırır. Lakin ədavətli ailələrdə övladlar mütəmadi olaraq valideynlərinə qarşı müxaliflik mövqeyində dururlar. Davamlı baş verən çaxnaşmalardan tənə gələrək, ailəsini tərk edib, başqa bir mühitdə yaşamağı valideynləri ilə yaşamaqdan üstün tutan uşaqlar da az deyil.

Lakin kənardan asan görünsə də, heç bir kəs ailənin içərisindəki münasibətləri, bu münasibətlərin doğru və ya yanlış olduğunu dəqiqliyi ilə bilmir. Ona görə də deyə bilərik ki, ailədə uşaqları düzgün, ahəngdar şəxsiyyətlər kimi formalaşdırmaq asanlıqla başa gəlmir. Bu, valideynlərdən hədsiz səbirlə, hər cür səylə, min bir əziyyətlə öz üzərlərində mütəmadi işləmək tələb edir. Valideynlər nə qədər ki bu işdə pedaqoji və psixoloji cəhətdən maariflənəcək, təcrübə qazanacaq, övladlarının uğurlu bir şəxsiyyət olma şansı da bir o qədər çox olacaqdır.

Bəs görəsən, valideynlər bilirmi ki, övladlarını düzgün şəxsiyyətlər kimi formalaşdırma yolunda nələrə xüsusi diqqət və həssaslıqla yanaşmalıdırlar ? Boş yerə deməyiblər ki, uşaq evin güzgüsüdür. Valideynlər həm bir-birinə qarşı münasibətlərində, həm də uşaqları ilə rəftarında son dərəcə ehtiyatlı addımlarla, müsbət davranışlar sərgiləməlidir ki, uşaq da bunları müşahidə edən zaman onda mənfi hallar yaranmasın. Çünki bir müddət sonra bu yalnış davranışları uşaqları da təqlid etməyə başlayacaqdır. Əksərən oğlan uşaqları atalarının, qız uşaqları isə

analarının davranışlarını kopyalamaq istəyir. Lakin onlar hələ uşaqdır və bu davranışların hansını mənimsəməli olacaqlarını tam aydın dərk etməməsi də normaldır. Düzdür, hər bir insan, hətta böyüklər də səhv edə bilər.

Bir çox halda, valideynlər övladları üçün mənfi örnək ola biləcəklərini dərk etmirlər, yaxud da uşaqlarının bundan pis nəticələr çıxaracağını görmürlər. Valideynlərinin söyüş söyməsini, bir-birilərini alçaltmasını, kötəyə əl atmağını, qab–qacağı sındırdığını görən uşaq psixoloji baxımdan sarsılır. Uşaq da getdikcə əsəblərini idarə edə bilməyən bir şəxsiyyətə dönür. Ailəsində gördüyü səhnələr onu qorxuya salır. Aldığı psixoloji zədələri onun həm fərd olaraq, həm də cəmiyyətin bir üzvü olaraq davranışlarında özünü mənfi şəkillərdə təzahür edir. Buna görə də valideynlər mübahisəni də uşaqların görməyəcəyi və eşitməyəcəyi formada etməlidirlər.

Valideynlər nə qədər ki, bir-birinə əks mövqedə dayanıb, çarpışmalara səbəb olacaq, uşaqları da o qədər çox bəd əməllərin sahibi olacaq. Tədricən ata-analarına qarşı hörmətsiz davranacaqlar. Bu da özlüyündə uşaqları ehtiram bəsləməli olduqları, müqəddəs valideynlərinə qarşı kobud rəftar etməyə cürətləndirəcək. Nəticədə naxələf övladların ərsəyə gəlməsi qaçılmazdır. İmam Həsən Əskəri (Əleyhissalam) buyurur: "Övladın uşaqlıqda ataya qarşı etdiyi kobudluq və hörmətsizlik böyüyündə onun üzünə durmasına səbəb olur"

Uşaqların hər biri fərqli xarakterə və şəxsiyyətə malik olduqlarından dolayı, mənfi hadisələr bəzilərində əks təsirə çevrilə bilir. Məsələn: eyni valideynin iki övladından biri onun pis əməlindən pis nəticə çıxardığı halda, digəri bundan gözəl nəticə çıxarır. Uzun müddət müşahidə edir və ona aydın olur ki, atası şiddətə meyilli və aqressiv insandır, təhqiramiz ifadələrlə danışır və yaxud alkoqolikdir. Uşaq başa düşür ki, buna görə ailədə daim söz söhbət yaranır. O düşünür ki, əgər gələcəkdə atam kimi pis keyfiyyətlərə malik insan olsam, mənim də əhatəm, dost-tanışlarım və gələcək ailəm məni sevməyəcək, hətta mənə qarşı nifrət bəsləyəcəklər.

Ailədə aura mənfidirsə, ailədaxili dəyərlər düzgün aşılanmayıbsa, daim valideynlər öz aralarında hər xırda məsələdə də mübahisəyə qaçırlarsa, bir-birilərinə qarşı fiziki və psixi şiddət göstərirlərsə, uşaq bundan nə kimi xoş əxlaqi və mənəvi keyfiyyətlər götürə bilər ki ? Əksinə, bu kimi hallar hələ erkən yaşlarından övladlarında psixoloji travmaların yaranmasına vəsilə olacaqdır. Və bu travmalar altında yetişən gənclər zamanla aqressiv şəxsiyyətlərə çevriləcək. O şəxsiyyətlərə ki, öz ətrafındakı insanları incitməkdən qorxmayacaq, onların şəxsiyyətlərinə toxunmaqdan, alçaltmaqdan xüsusi bir mənəvi həzz alacaqlar.

Sosial həyatdan tanıdığım bir şəxsdən misal gətirə bilərəm ki, uşaqlıqda atası tərəfindən amansız şiddətə məruz qaldığı üçün travmalı insana çevrilib və artıq gənc yaşda öz atasına şiddət göstərməyə başlayıb. Təəssüf ki, bu təkcə onun valideynlərinə qarşı münasibətində deyil, həm də kənardakılara qarşı da hərəkətlərində özünü göstərir. Gördüyü şiddətləri bir növ digər insanlardan çıxmaqla zövq alır. Deməli, aydın olur ki, bu insan hələ uşaqlıqdan özünütəsdiq zamanında düzgün rəftar görmədiyi səbəbindən bir şəxsiyyət kimi formalaşa bilməyib.

Bu isə özlüyündə gələcəkdə bu kimi gənclərin iş yerlərində və şəxsi həyatlarında, quracaqları ailələrdə özünü açıq aşkar biruzə verəcək. Hətta biraz da irəli getsək, belə bir sual yaranır ki, ailədə düzgün formalaşdırılmayan gənc özü ailəsinin məsuliyyətini daşıya biləcək ? Təbii ki, gələcəkdə az da olsa bu fəsadlar ona da maneələr törədəcək. Valideynlərindən şiddət görən şəxs öz övladına da qarşı eyni hərəkətləri sərgiləməsinin müəyyən qədər doğru olduğuna inanacaq. Və beləliklə, düzgün formalaşmayan şəxsiyyətlər nəticəsində cəmiyyətin sonu daha da uçuruma sürüklənəcək. Elə məhz günümüzdə durmadan artan cinayətlərin, narkomaniya və alkoloqizm kimi pis və zərərli vərdişlərə qurşanan övladların vəziyyətini təhlil etdikcə, aydın olar ki, ailələrində onlara qarşı da valideynlərinin hərəkətlərində, rəftarlarında müəyyən nöqsanlara və yaxud tərbiyələrində ciddi boşluqlara yol verilmişdir.

İnsanların şəxsiyyət kimi təşəkkülündə ailəsində aldığı tərbiyə də önəmli rola malikdir. Tərbiyə edənin və yaxud münasibətdə olduğu insanların təsiri altına düşən şəxsiyyət yaxşı tərəfə də, pis tərəfə də istiqamətlənə bilər. Yəni təsir edənin şəxsiyyəti, ona xas olan şəxsi keyfiyyətləri və xüsusiyyətləri, şəxsi nümunəsi önəmli faktordur. Çünki mərdlik-namərdlik, yaxşılıq-pislik anadangəlmə xüsusiyyətlər deyil. İnsan həyata atılaraq, bu sifətlərə malik olur. Bir sözlə, mərd insan qəddar və amansız bir mühitin təsirinə düşərək namərdə dönə bilər. Eləcə də namərd insan yaxşı bir mühit tərəfindən təqib olunaraq mərd insana çevrilə bilər. Lakin əfsuslar olsun ki, bu həmişə belə olmur. Namiq Kamal "Tərbiyə ana qucağında başlayır, hər deyilən kəlmə isə uşağın şəxsiyyətini formalaşdıran bir kərpicdir".

Bu səbəbdən, valideynlər övladlarını tərbiyə edərkən, işə ciddi yanaşmalı, heç bir boşluq buraxmamalıdır. Çünki bu boşluq zərrə qədər belə olsa, böyük fəsadlara səbəb ola bilər. Düzgün tərbiyə etdiyini düşündükləri uşaqlar, cəmiyyət üçün ağır bir yükə çevrilir. İlk növbədə, valideyn övladına sevgi ilə yanaşmalıdır. Uşaq hiss etməlidir ki, valideynləri həqiqətən də onu çox sevir və onun gələcəyi üçün narahatlıq keçirir.

Education is the key to human progress. In any administration, education is seen as the main pillar that holds the whole country together and leads the state to extreme success. Assessment is a key part of today's education system. The purpose of the assessment is to gather relevant information about students ' performance or progress or to determine students' interests in judging the learning process. Ongoing assessment provides a daily assessment of the learning process. This is an opportunity to improve the quality of education, helps to inform the public.

TƏHSİLDƏ MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ İŞİNİN APARILMASI

Hüseynova Ləman Şahin qızı
BDU-nun II kurs magistrantı
Elmi rəhbər:p.ü.f.d. Vəfa Çıraqova
BDU-nun Pedaqogika kafedrasının müəllimi
lemahuseynova@gmail.com

Açar sözlər: monitorinq, qiymətləndirmə, keyfiyyət, bilik, bacarıq, effektivlik, səmərəlilik, nailiyyətlər, pedaqoji monitorinq, pedaqoji ustalıq.
Ключевые слова: мониторинг, оценка, качественный, знание, навык, эффективность, достижения, педагогический мониторинг, педагогические навыки.
Key words: monitoring, assessment, quality, knowledge, skill, efficiency, productivity, achievements, pedagogical monitoring, pedagogical skill.

Monitorinq və qiymətləndirmə iki fərqli ünsürlərdir, lakin qarşılıqlı olaraq bir-birini gücləndirmək üçün tamamlayıcı proseslərdir. Monitorinq və qiymətləndirmənin tərifi bu mövzuda iştirak edənləri təmin edir, belə ki, monitorinq və qiymətləndirmə zamanı doğru hesabat verilməlidir ki, problemlər barədə də doğru hesabatlar hazırlansın,təhlillər aparılsın. Monitorinq və qiymətləndirmə ayrıca fərqli hədəflər üçün təyin olunan maliyyə hədəflərinə çatmağı da diqqət mərkəzində saxlayır. Monitorinq işləyən davamlı bir funksiyadır. Bu müəyyən göstəricilərlə əlaqəli məlumatların sistematik toplanmasıdır. Monitorinq qiymətləndirmə üçün vacib məlumatlar verir bu səbəbdən ümumi qiymətləndirmə prosesinin bir hissəsini təşkil edir.

Hər bir sahədə keyfiyyəti yüksəltmək üçün monitorinq və qiymətləndirmə aparılır. Monitorinqlər aparılarkən çatışmazlıqlar, qüsurlar qeyd edilir,növbəti yoxlamaya kimi qüsurları aradan qaldırmağa çalışılır. Monitorinq və qiymətləndirmə hər bir layihənin və ya proqram dizaynının yerləşmiş konsepsiyası və təsis hissəsidir.

Monitorinq və qiymətləndirmə donor tərəfindən tətbiq olunan bir nəzarət vasitəsi deyil. Monitorinq və qiymətləndirmə ideal olaraq bütün maraqlı tərəflər arasında inkişaf və onun inkişafı ilə bağlı dialoq kimi başa düşülür.

Qiymətləndirmə sistematik və obyektiv(bəzi hallarda istisna) xarakterizə olunur. Bu hansısa proqramın, layihənin tətbiqi nəticələridir. Hədəflərə çatmaq üçün məqsədi vaxtında qiymətləndirmə aparıb,müdaxilələri dəf edib,irəliləməkdir. Qiymətləndirmələr, müdaxilənin beş əsas aspekti haqqında nəticə çıxarmağa kömək etməlidir:

Aktuallıq
Effektivlik
Səmərəlilik
Təsir
Davamlılıq

Monitorinq prosesi zamanı bu aspektlərlə əlaqəli toplanan məlumatlar qiymətləndirmə təhlili üçün zəmin yaradır. Qiymətləndirmə isə aşağıdakı suallarla əhəmiyyətli dərəcədə əlaqəlidir:

Biz qiymətləndirməni obyektivmi aparırıq?

Nəticələrə nail olmaq üçün başqa hansı yollar var?

Nəticələrin yaxşılaşdırılması üçün ən yaxşı qiymətləndirmələr tətbiq mərhələsində aparılır. Qiymətləndirmə hər hansısa müəssisə, təşkilat tərəfindən aparılır.

Hazırkı dövrdə təhsilin keyfiyyəti dedikdə, cəmiyyətin inkişafı nəzərdə tutulur. Çünki, inkişaf etmiş cəmiyyət təhsilin sayəsində olur. Təsadüfi deyil ki, ölkəmiz müstəqillik

qazandıqdan sonra təhsilin keyfiyyətinin yüksəldilməsinə münasibət dəyişmişdir. Təhsil sahəsində islahatlar aparılmışdır. Əslində islahatlar həssas bir prosesdir. Belə ki, o bəzən uğursuzluqla nəticələnir. İslahatlar o zaman uğurlu olur ki, dövrün tələbatını özündə əks etdirsin. Təhsil sahəsində islahatlar Ulu Öndər Heydər Əliyevin dövründən başlamışdır. 1999-cu il iyunun 15-də Ulu Öndər Heydər Əliyevin sərəncamı ilə təsdiqlənən "Azərbaycan təhsil sahəsində islahatlar" təhsilin inkişaf etdirilməsinə yönəlmişdir. Təhsil sahəsində keyfiyyət dedikdə, təhsilin nəticələrinə uyğun, əvvəlcədən müəyyən edilmiş standartlara müvafiq öyrənənlərin səviyyəsi, ümumi halda isə təhsil sisteminin durumu başa düşülür. Təhsilin keyfiyyətini artırmağa xidmət edən ünsürlər monitorinq və qiymətləndirmədir. Ümumiyyətlə, monitorinq qiymətləndirmənin ayrılmaz hissəsidir. Qiymətləndirmə zamanı layihə və ya proqramın inkişaf etdirilməsini və dəyişikliyi stimullaşdırma yollarını anlamaq üçün əvvəlki monitorinq proseslərindən məlumatlar istifadə olunur. Qiymətləndirmə prosesi, layihə / proqramın nəticələri, layihənin / proqramın yaratdığı təsirlər və layihənin / proqramın ümumi təsiri arasındakı əlaqələri daha dərindən araşdıran toplanmış məlumatların təhlili və ya şərhidir.

"Müəllim - tələbə" sistemində pedaqoji prosesdə izləmə - tədris prosesinin məqsədyönlüyü və tələbələrin tədris materialı və onun düzəldilməsi səviyyələrini dinamik şəkildə təmin etməsi ilə müəyyən edilmiş nəzarət və diaqnoz fəaliyyətlərinin məcmusudur.

Başqa sözlə, monitorinq tələbənin cəhalətdən biliyə doğru irəliləməsini müşahidə etməyə və düzəltməyə imkan verən "müəllim - tələbə" sistemində davamlı nəzarət fəaliyyətidir. Beləliklə, monitorinq təhsil prosesində mənimsənilən bilik və bacarıqların müntəzəm izlənmə keyfiyyətidir. Monitorinq müəllimin və ya pedaqoji sistemin fəaliyyətinin faktiki nəticələrinin və onun son məqsədlərinə uyğunluğu barədə əks əlaqə yaradır və məlumat verir.

Qiymətləndirmə hər hansı bir inkişafın əsasını təşkil edir. İnkişafı qiymətləndirmə olmadan təsəvvür etmək olmaz. Təhsil sahəsində hal-hazırda keçirilən inkişafyönümlü, nəticəyönümlü, şagirdyönümlü və şəxsiyyətyönümlü bacarıq və vərdişlərə əsaslanan islahatlar qiymətləndirmə prosesini,nəhayət ki, formal xarakterli çıxarıb, müasir dövrün ehtiyaclarına cavab verməsini sövq edir. Qiymətləndirmə təhsil prosesinin ən vacib şərtlərindən biridir. Bu, sadəcə əldə olunmuş biliklərin yoxlanılmasında deyil, həm də tədris prosesinin təyin edilməsi zamanı özünü biruzə verir. Qiymətləndirmə həmçinin şagirdin öhdəsinə verilə biləcək yeganə təhsil prosesidir. Onun əsas xüsusiyyəti isə hər bir şagirdin ayrılıqda yeni şəxsi keyfiyyətini üzə çıxarmasıdır.

Monitorinq baş verən dəyişikliklərin xüsusiyyətlərini öyrənmək və müvafiq qərarların qəbul edilməsi məqsədi ilə vəziyyət haqqında informasiyanın fasiləsiz və sistemli şəkildə yığılması və təhlili prosesidir. Müasir dövrdə monitorinq müxtəlif fəaliyyət sahələrində, o cümlədən təhsildə uğurla tətbiq olunan texnologiya kimi qəbul olunur.

Göründüyü kimi, qiymətləndirmə və monitorinq anlayışları bir-birilə əlaqəli, daha doğrusu biri (qiymətləndirmə) digərinə (monitorinqə) xidmət edən anlayışlardır. Qiymətləndirmə faktiki vəziyyətin,monitorinq isə vəziyyətin dəyişmə dinamikasının, başqa sözlə,prosesin qiymətləndirilməsidir. Monitorinq faktiki vəziyyətin müntəzəm şəkildə qiymətləndirilməsi nəticəsində alınan informasiyanın toplanması və təhlil edilməsi yolu ilə həyata keçirilir.

Təhsildə ənənəvi qiymətləndirmə ona görə yalnız nəzarət mexanizmi sayılmışdır ki, inzibati amirliyə əsaslanaraq monitornqə deyil, idarəetməyə xidmət etmişdir.

Monitorinq sözü latın mənşəli "monere" felindən götürülüb, "xəbərdar etmək" mənasını verir. Monitorinq müəyyən fəaliyyət növünün və onun inkişafının sistemli və məqsədli şəkildə müşahidə edilməsi və nəticələrin qeydə alınmasıdır. Monitorinq müşahidə edilən fəaliyyət növünün bütün aspektləri haqında sistemli şəkildə məlumat toplamağa və bu məlumatları təhlil etməyə,həmin fəaliyyətin effektivlik və səmərəlilik dərəcəsini artırmağa, fəaliyyətin

uyğunsuzluqları barədə məlumatın idarə edənlər və qərar verənlərə vaxtında ötürülməsinə imkan verir.

Planlaşdırmada monitorinqin həyata keçirilməsi velosiped sürərkən getdiyin yola nəzarət etməyə bənzəyir: velosipeddən enmədən onu nizamlaya bilər və düzgün cığırla getdiyinə əmin ola bilərsən. Müasir dövrümüzdə təhsil sisteminin monitorinqini təhsil keyfiyyətinə nəzarəti təmin edən ən vacib mexanizm hesab etmək olar.

Şagird nailiyyətlərinin monitorinqindən alınan məlumatlar vasitəsilə məktəb fəaliyyətinin hazırkı vəziyyətini sistemli və obyektiv şəkildə proqnozlaşdırmaq mümkündür.

Qiymətləndirmə ölçülən parametrin qiymətinin, obyektin və sistemin halının hər hansısa qəbul olunmuş standarta nisbətdə müəyyən olunmasıdır. Bu prosedur ölçmə nəticəsinin standarta yaxınlıq dərəcəsini kəmiyyət göstəricisinə çevirməyə imkan verən qiymətləndirmə şkalasının olmasını tələb edir.

Bu cür müəyyən olunan qiymətləndirmə faktiki vəziyyətin qiymətləndirilməsidir. O, standartlara əsaslansa da, bəzi hallarda reallığı əks etdirməyə də bilər. Belə ki, insanın qan təzyiqi və nəbzinin tezliyi keçirdiyi hissdən asılı olaraq, qanın tərkibi qidalanma ilə əlaqədar dəyişə bilər. Şagirdin yoxlama suallarına verdiyi cavablara da bəzən onun bilik və bacarığından əlavə kənar amillər təsir edə bilər (sağlamlıq vəziyyəti,keçirdiyi hisslər və s.). Digər tərəfdən, faktiki vəziyyətin qiymətləndirilməsi statik xarakter daşıyır və nəticələr qiymətləndirmənin aparıldığı zamandakı vəziyyəti əks etdirir. Zaman keçdikcə obyektin və ya sistemin halını xarakterizə edən parametrlər dəyişir. Əgər fasiləsiz olaraq sistemli şəkildə belə qiymətləndirmələr aparılsa, müəyyən dövr ərzində parametrin qiymətini və vəziyyətin dəyişmə dinamikasını müəyyən etmək olar. Bu proses monitorinq adlanır. Monitorinq parametrin qiymətinin, obyekt və ya sistemin halının(keyfiyyət göstəricisinin) dəyişmə xüsusiyyətlərinin, bu dəyişmələrin səbəblərini,onlara təsir etmək yollarını müəyyən etməyə imkan verir. Təhsildə monitorinq və qiymətləndirmənin ən böyük fərqi ondan ibarətdir ki, monitorinqin nəticələrindən proses davam edərkən prosesin səmərəliliyində,müəyyən düzəlişlər edilməsində istifadə etmək mümkündür. Belə ki, monitorinq fəaliyyətin hazırkı vəziyyətini müəyyən edir. Qiymətləndirmə isə fəaliyyətin təsirini müəyyənləşdirdiyi üçün monitorinq məqsədilə onun nəticələrindən yalnız növbəti dərs illərində və ya növbəti qiymətləndirmə proqramının həyata keçirilməsi zamanı istifadə etmək olar.

Təhsil müəssisəsinin pedaqoji monitorinqi - onun fəaliyyətinin təmin edilməsi, vəziyyətinin müntəzəm izlənməsi, vaxtlı-vaxtında nizamlanması və inkişafının proqnozlaşdırılması məqsədi ilə məlumatların toplanılması, təhlili və saxlanılması sistemidir. “Monitorinq" anlayışının meydana çıxması informasiya cəmiyyəti fikirlərinin,ideyalarının formalaşması və inkişafı ilə bağlıdır. Həmin dövrlərdə bu sistemin dərhal yaradılması təhsil sahəsini mürəkkəb sahə olduğu üçün bir çox çətinliklərlə üzləşdirdi. Monitorinqin məqsədi təhsil müəssisəsində gedən bütün dəyişikliklərin vaxtında və sürətli şəkildə müəyyən edilməsidir. Əldə olunan obyektiv məlumatlar təhsili idarəedənlər (rəhbərlər və pedaqoji işçilər) üçün düzgün qərarlar verməyə əsasdır. Pedaqoji monitorinq zamanı təhsil müəssisəsinin fəaliyyəti haqqında müxtəlif mənbələrdən daxil olan məlumatlar toplanır,nizamlanır, sistemləşdirilir, proqnozlar verilib müvafiq korreksiya işləri aparılır. Monitorinq bir sıra funksiyaları yerinə yetirən bütöv bir sistemi təmsil edir.

Pedaqoji monitorinqin funksiyaları bunlardır:

- Təhsil müəssisəsinin bütün fəaliyyət istiqamətlərini qiymətləndirmək
- Təhsil müəssisəsində təhsilin dövlət standartlarına müvafiq olması
- Müəssisədə müəllimlərin pedaqoji və idarəetmə səviyyəsinin ölçülməsi
- Müəllimlərin pedaqoji ustalığını yüksəltmək

- Monitorinq zamanı müəssisənin strukturunun nizamlanması
- Monitorinq zamanı toplanmış məlumatları təhsilin keyfiyyətinə yüksəltməyə yönəltmək

Konkret sinifdə dərs deyən müəllim hər şeydən əvvəl sinifin inkişaf səviyyəsini və ayrılıqda hər bir şagirdin təlim-tərbiyə prosesində durumunu öyrənməlidir. O bilməlidir ki, onun şagirdi hansı mikromühitdə tərbiyə alır. Və beləliklə şagirdin xasiyyətini, vərdişini müəllim özlüyündə müəyyənləşdirir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Təhsil sahəsində İslahat Proqramı. Bakı. Çaşıoğlu, 1999, 65 s.
2. Cavadov İ.A. Təhsilin keyfiyyət təminatında monitorinq və qiymətləndirmənin rolu// Azərbaycan məktəbi, Bakı.2005, s 15-21
3. Misir Mərdanov – Qiymətləndirmə pdf s 7-9
4. Mehrabov A.O., Cavadov İ.A. Ümumtəhsil məktəblərində keyfiyyət təminatında monitorinqin və qiymətləndirmənin rolu. Bakı. ADPU, 2005, s 507-517
5. https://www.endvawnow.org/en/articles/330-what-is-monitoring-and-evaluation-.html
6. https://www.sportanddev.org/en/toolkit/monitoring-and-evaluation/what-monitoring-and-evaluation-me

TƏHSİLDƏ MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ İŞİNİN APARILMASI

Hüseynova Ləman

XÜLASƏ

Monitorinq və qiymətləndirmə ilk baxışdan eyni məna daşısa da onların mahiyyəti bir-birindən fərqlənir. Monitorinq və qiymətləndirmə bir-birinə xidmət edən iki ünsürdür.

Qiymətləndirmə təlimin vacib hissəsi olub təlimin səmərə və keyfiyyətinin öyrənilməsində xüsusi rol oynayır. Qiymətləndirmə - təhsilin keyfiyyət və nəticələrini müəyyənləşdirmək üçün şagirdlərin biliklərinə aid məlumatların əldə edilməsi prosesidir.

O, nəzarət, yoxlama, diaqnostika və monitorinq anlayışları ilə bağlıdır. Monitorinq təlimin mövcud vəziyyətinin öyrənilməsi, əldə olunan nəticələrin qarşıya qoyulmuş məqsədlər baxımından təhlil edilib qiymətləndirilməsi, keyfiyyəti yüksəltmək yollarının müəyyən edilməsi və bu məqsədlə lazımi korreksiya işi aparılması proseslərini özündə birləşdirən davamlı nəzarət deməkdir. Qiymətləndirmə monitorinqin tərkib hissəsidir. Təlim prosesində qiymətləndirmə vasitəsilə şagirdlərin ilkin səviyyəsi üzə çıxarılır, daha sonra təlimin məzmunu və strategiyası seçilir və lazımi korreksiya aparılır. Proses bu qaydada davam etdirilir. Qiymətləndirmə təlim prosesinin ən son mərhələsi hesab edilir.

МОНИТОРИНГ И ОЦЕНКА ОБРАЗОВАНИЯ

Гусейнова Ламан

АННОТАЦИЯ

Хотя на первый взгляд мониторинг и оценка имеют одно и то же значение, суть их различна. Мониторинг и оценка - два элемента, которые служат друг другу.

Оценка является важной частью обучения и играет особую роль в изучении эффективности и качества обучения. Оценка - это процесс получения информации о знаниях учащихся для определения качества и результатов обучения. В нем рассматриваются концепции управления, инспекции, диагностики и мониторинга.

Изучение текущего состояния обучения мониторингу, полученные результаты были проанализированы и оценены с точки зрения поставленных целей, определение способов повышения качества и непрерывный мониторинг, который включает необходимые корректирующие действия для этой цели. Оценка - неотъемлемая часть мониторинга. В процессе обучения исходный уровень учащихся выявляется посредством оценивания, затем выбираются содержание и стратегия обучения и вносятся необходимые коррективы. Так продолжается процесс.

Оценка - заключительный этап учебного процесса.

MONITORING AND EVALUATION OF EDUCATION

Huseynova Laman

SUMMARY

Although monitoring and evaluation are like to each other but also they differ from each other. Monitoring and evaluation - two elements that serve each other.

Evaluation is an important part of training and plays a special role in the study of effectiveness and quality of training. Assessment is the process of obtaining information about student knowledge to determine the quality and learning outcomes. It deals with the concepts of control, inspection, diagnostics and monitoring.

Examining the current state of monitoring training, the results obtained were analyzed and evaluated in terms of the goals set, identifying ways to improve quality and continuous monitoring, which includes the necessary corrective actions for this purpose. Evaluation is an integral part of monitoring. In the learning process, the initial level of students is revealed through assessment, then the content and training strategy are selected and the necessary adjustments are made. This is how the process continues. Assessment is the final stage of the educational process.

NƏSRƏDDİN TUSİNİN PEDAQOJİ GÖRÜŞLƏRİNDƏ ƏXLAQ MƏSƏLƏLƏRİNİN TƏRƏNNÜMÜ

Süleymanova Fəridə Səbuhi
BDU-nunII kurs magistrantı
ferideesuleymanova@gamail.com

Açar sözlər: Nəsrəddin Tusi, Əxlaqi- Nasiri, əxlaqi dəyər, ailə tərbiyəsi
Ключевые слова: Насреддин Туси, Ахлагу - Насири, моральные ценности, семейное воспитание
Keywords: Nasreddin Tusi, Akhlagy - Nasiri, moral value, family upbringing

Tərbiyə şəxsiyyətin məqsədəmüvafiq və mütəşəkkil formalaşması prosesidir. Tərbiyənin tərkib hissələrindən biri əxlaq tərbiyəsidir.

Əxlaq tərbiyəsinin məqsədi yetişən gənc nəsli yaşadığımız cəmiyyətin əxlaqi normalarına, cəmiyyətdə müəyyən edilmiş davranış qaydalarına əməl etməyə alışdırmaq, onları adət və ənənələrə uyğun hərəkət etməyə sövq etdirməkdir. Elmi-pedaqoji ədəbiyyatlarda qeyd edildiyi kimi, əxlaq tərbiyəsinin mahiyyəti məzmunun ictimai-siyasi quruluşundan asılı olaraq dəyişir. Bildiyimiz kimi əxlaqın formalaşmasında ictimai şüurun, siyasətin, hüququn, fəlsəfənin, ədəbiyyatın, mədəniyyətin və tarixin ciddi təsiri olmuşdur. Araşdırmalar göstərir ki, inkişaf etmiş ölkələrin böyük əksəriyyətində elmi pedaqogika ilə bağlı hazırlanmış materiallarda əxlaq tərbiyəsi həmin ölkənin mənəvi dəyərlərinə uyğun olaraq sistemə salınır. Gələcək nəsillərin təlim- tərbiyə məsələlərini milli-mənəvi dəyərlərimiz, Azərbaycan xalqının tərbiyə ənənələri və uzaqgörən dahi şəxsiyyətlərimizin kəlamları əsasında qurmaq tərbiyə işinin təşkilində əsas vəzifələrdən biridir.

Azərbaycanın tərbiyə, məktəb və mədəniyyət tarixindən bəhs edərkən XIII əsrdə yaşamış, dünya şöhrətli mütəfəkkir Nəsrəddin Tusinin fikirlərini xatırlamamaq olmaz. Bir çox elm sahələrində xidməti olan dair mütəfəkkirin dəyərli fikirləri bu gündə öz aktuallığını saxlayır. Nəsrəddin Tusinin zəhməti ilə qurulan Marağa rəsədxanası Şərqin elm, təhsil və mədəniyyətinin ən əzəmətli abidələrindən biridir. Onun "Əxlaqi-Nasiri" əsəri isə yaratmış olduğu Marağa rəsədxanası qədər məşhurdur (5). Tusinin əsərləri içərisində "Əxlaqi-Nasiri" məzmununun ictimai, iqtisadi, siyasi, əxlaqi, fəlsəfi və tərbiyəvi səciyyəsi baxımından xüsusi əhəmiyyətə malik olub, yeddi yüz ildən artıq bir müddət ərzində Orta və Yaxın Şərq məktəblərində əxlaq dərsliyi kimi şöhrət taparaq tədris edilir.

Professor Rəhim Sultanov tərəfindən farscadan Azərbaycan dilinə tərcümə olunan bu əsərin yazılma tarixi də maraq doğurur. Belə ki, Qəhistan vilayətinin hakimi Nəsrəddin Tusiyə Əbu Əli Miskəveyhin "Əl-Təharə" əsərini ərəbcədən farscaya tərcümə etməyi təklif etmişdir. Dahi mütəfəkkir bir qədər düşündükdən sonra "bu qədər gözəl mənaları çevirmək onların qəşəng paltarını soyundurub birovuz paltar geydirmək adamı meymun şəklinə salıb eybəcərləşdırməyə oxşar" cavabını vermişdir (2, s. 64).

Beləliklə, Tusi bu təklifi rədd edir və özü həmin mövzuda orjinal bir əsər yazmağa qadir olduğunu bildirir. O, öz vədini yerinə yetirir və 1235- ci ildə özünün məhşur "Əxlaqi-Nasiri" əsərini yazır. Əsrlər boyu Orta və Yaxın Şərqdə mənəviyyat və əxlaq qaynağı hesab olunan "Əxlaqi-Nasiri" kitabında Tusinin insan, ailə, cəmiyyət, əxlaq, din, ictimai münasibətlər barədə dolğun təsəvvürləri, etik-fəlsəfi fikirləri yer almışdır. Tusi "Əxlaqi-Nasiri" əsərində özündən əvvəl Yaxın və Orta Şərqdə hökm sürən əxlaqi-fəlsəfi və pedaqoji fikirlərin bir növ yekununu bir arayatoplamışdır. "Əxlaqi-Nasiri" əxlaq sahəsində yazılan farsca kitabların ilki və günümüzə

qədər gəlib çatmış ən dəyərlisidir. Bu xüsusiyyətilə İslam dünyasında əxlaq sahəsində yazılmış daha sonrakı əsərlərin bir çoxuna ehtiva etdiyi mövzular baxımından nümunə təşkil etmişdir. Tusi "Əxlaqi-Nasiri" əsərində öz əxlaq fəlsəfəsini və əxlaqlı olmaq istəyən insanın nəyi və necə öyrənməsi məsələsini izah etmişdir. Tusi bu düşüncələrini "Əxlaqi-Nasiri" əsərində əsaslandırmışdır. Tusi insan xarakterinin və əxlaqi keyfiyyətlərinin yenidən tərbiyə vasitəsilə dəyişdirilməsinin mümkünlüyünü təsdiq edirdi. Bununla da o, tərbiyə prosesində yenidən tərbiyənin rolunu yüksək qiymətləndirirdi. O, eyni zamanda erkən tərbiyəni də yüksək qiymətləndirir. Görkəmli pedaqoq bir uşağı kiçik yaşda tərbiyə etməyin, sonradan tərbiyə etməkdən asan olduğunu görərək, erkən tərbiyənin daha mühüm olduğunu vurğulayırdı.

Əxlaq saflığına, vicdan təmizliyinə, mənəvi təmizliyə böyük önəm verən Tusi, hər şeydən əvvəl, uşaqların və gənclərin mənəvi-əxlaqi tərbiyəsi ilə məşğul olmağı, onlara düzlüyü, doğruluğu, eləcə də vicdanlı olmağı tövsiyə edirdi. Tusinin fikrincə, yer üzərində yaranan məxluqatın ən şərəflisi insandır. Bu mənada onun tərbiyəsidə hər şeydən vacibdir və hər şeydən üstün olmalıdır. Dahi mütəfəkir insan nəfsinə çox böyük qiymət verirdi. O, nəbati, heyvani və insani nəfslər arasında ümumi məsələləri təhlil etdikdən sonra üstünlüyü insan nəfsinə vermişdir. Nəfsin tərbiyə edilməsi üçün filosoflara, tərbiyəçi və müəllimlərə böyük ehtiyac olunduğunu qeyd edirdi.

Tusi, yeni nəslin yetişməsində tərbiyə və təlimin həlledici əhəmiyyətə malik olduğunu elmi cəhətdən əsaslandıraraq, valideynlərin və müəllimlərin bu işdə böyük məsuliyyət daşıdığını qeyd edirdi.

Müəllim şəxsiyyətinə çox böyük önəm verən Nəsrəddin Tusi bildirirdi ki "müəllimlər insanlar arasında ən seçilmiş şəxslər olmaqla, öz yaxşı əxlaqları etibarilə təqlidə layiqdirlərsə, bu, şagirdləri həqiqi həyatda yüksəltmək üçün ən yaxşı vasitə olacaqdır. Dahi mütəfəkkir alim, müəllim məsələsinə də toxunmuş, onun uşaqların tərbiyəsində böyük rol daşımasına xüsusi əhəmiyyət vermişdir. O, özünün nümunəvi olması, peşəsinin isə son dərəcə məsuliyyətli olmasını qeyd etmişdir, müəllimi ata ilə bərabər tutur və yazırdı: "Müəllimlərin ədəb və tərbiyə öyrətmələri əsil vücuda nisbətən ikinci, ata-babaların tərbiyəsinə nisbətən isə şərəflidir və həqiqətən müəllim cismani atadır" (3, s. 64). Mütəfəkkir müəllim şərəfini yüksəldən belə hikmətli ifadəyə müraciət edərək yazırdı: "İskəndərdən soruşurlar: "atanı çox sevirsən, yoxsa müəllimi?" – dedi: "Müəllimi. Atam məni dünyaya gətirmişdir, müəllimim isə mənə əbədiyyət bəxş etmişdir" (3, s. 64). Beləliklə, N.Tusi müəllimin uşaq üzərindəki əzab və əziyyətini ata zəhmətinə bərabər tutmaqla, öz fikrini belə ümumiləşdirir: "Müəllimin tələbəyə olan məhəbbəti xeyirxahlıq məhəbbəti nöqteyi-nəzərindən də atanın oğula onan məhəbətindən üstün olar, çünki onun tərbiyəsi tam fəzilət, mənəvi qida, xalıs hikmət əsasında olar". Ona görə də o uşaqların tərbiyəsini, düzgün, qüsursuz aparılması üçün, onları saf, pak tərbiyəçilərə tapşırılmasını tövsiyə edirdi. O, ailədə övladın bir çox müsbət keyfiyyətlərə yiyələnməsi üçün valideynlərin necə olmasını göstərir, ilk əvvəl ananın ailədə ki səviyyəsindən başlayır. Tusi valideynlərin ilk vəzifəsini "Övlad anadan olan kimi ona gözəl bir ad vermək" olduğunu göstərirdi. Onun fikrincə ata və ana uşağa ad seçərkən diqqətli olmalı və fikirləşməlidirlər. Çünkü övlad bu adı ömrünün sonuna kimi daşıyacaqdır. Nəsrəddin Tusiyə görə "Uşağa pis ad qoyulsa, ömrü boyu ürəyi açılmaz". O, uşağın adı ilə davranışı arasında bir uyğunluq olduğunu irəli sürürdü. İlk növbədə uşağa yaxşı bir ad qoyduqdan sonra onun tərbiyə olunması üçün sağlam və ağıllı bir dayə tapmağı tövsiyə edirdi

Övlada tərbiyə vermək istərkən,
Yaramaz dayəyə vermə onu sən.
Süd ilə bədənə girən xasiyyət,
Ömür boyu çıxmaz bədəndən (1, s. 178).

Tusi uşağın anadan olduğu ilk gündən başlayaraq, ona tərbiyəni südlə birlikdə verməyi təklif edirdi. O, deyir ki, "Uşaq süddən ayrıldıqdan sonra hələ əxlaqı korlanmağa vaxt tapmamış onu tərbiyə etməyə, nizam-intizama öyrətməyə başlamaq lazımdır. Uşaq təbiətində olan fitri nöqsanlara görə, pis adətlərə meyl edə biləcəyindən vaxtından əvvəl onun qarşısını almaq, təbiətini nəzərdə tutmaqla əxlaqını saflaşdırmaq gərəkdir, yəni hansı təmiz qüvvə uşaqda özünü əvvəl biruzə verirsə, onun da təkmilləşdirilməsi əvvələ salınmalıdır" (3, s. 61).

Nəsirəddin Tusi qeyd edir ki, uşaqda təmiz, idraki qüvvələrdən əvvəl utanmaq, həya əlamətləri özünü göstərir. Deməli, diqqət edilməli, fikir verilməlidir: əgər uşaq həyalıdırsa, əksər halda başını aşağı salıb sırtıqlıq etmirsə, bu onun nəcibliyinə sübutdur; bu o deməkdir ki, onun nəfsi çirkin əməllərdən ikrah edib, gözəl işlərə meyl göstərir, bu əlamət həmin istedadın uşaqda olduğuna dəlalət edir. Belə isə həmin uşağın tərbiyəsinə xüsusi fikir verilməli, heç bir şeyi əsirgəməməli, istedadın sönüb getməsinə yol verilməməlidir. Tərbiyənin birinci şərti olaraq o göstərirdi ki, uşağı onun təbiətini korlaya biləcək insanlarla münasibət qurmaqdan uzaq durmağa çağırdı. çünki uşaq nəfsi sadə olar, ətrafdakıların xasiyyətini tez götürər.

Nəsirəddin Tusi xeyirli işləri uşağın yanında tərifləməyi, zərərli şeyləri pisləməyi məsləhət görür. O, göstərir ki, uşaqda pis adətlərə, bəd əməllərə nifrət yaratmaq lazımdır. Uşaq inkişafın ilk anlarında çoxlu səhvlərə yol verərsə, qəbahətli iş görər, çox zaman yalançı, paxıl, oğru, xəbərçi, tərs və inadkar olar, dediyindən əl çəkməz, başqalarını da zərərli və xoşagəlməz iş tutmağa sövq edər. Deməli, uşağı körpəlikdən tərbiyə etmək lazımdır. Sonra ki mərhələdə isə uşağa dərs öyrətmək, təlimə cəlb etmək lazımdır.

Ümumiyyətlə, Nəsirəddin Tusi uşaqlarda xeyirxah olmağı, həmişə bəd əməllərdən uzaq olmağı, böyüklərə, kiçiklərə, həmyaşıdlarına və özünə hörmət etməyi, əlindən gələn yaxşılığı kimliyindən asılı olmayaraq etməyi, pislikdən uzaqlaşmağı, tamahkarlıqdan, xəsislikdən uzaqlaşmağı da məsləhət görür. Bundan savayı o, uşaqların tərbiyə olunmasında tərbiyəçinin hansı xüsusiyyətlərə malik olması haqqında da çox qiymətli fikirlər söyləmişdir. O tərbiyəçilərə ağıllı, vicdanlı, əxlaq normalarına malik ,uşaq psixologiyasına bələd, şirin danışıqlı, insaflı, rəftarlı olmaq tələblərini irəli sürürdü.

Əxlaqın insanların ictimai münasibətlərini tənzim edən ölçü vahidi olduğunu göstərən dahi mütəfəkkir ailə tərbiyəsinə böyük önəm verirdi. Tusi uşaqların tərbiyəsində ailənin roluna diqqət verirdi. O qeyd edirdi ki, mənzil dedikdə, palçıq, daş, kərpicdən tikilən bina nəzərdə tutulmur, burada həmçinin ərlə arvad, valideynlə övlad münasibətləri də olmalıdır (4). Tusi ailəni bir bədənə, ailə üzvlərini isə bədən üzvlərinə bənzədirdi. Ailə dolandırmaq sənədini isə bədəni sağlam saxlamaq istəyən həkimlik sənədi ilə müqaisə edirdi. Tusi- ailə tərbiyəsində ailə başçısına –ataya böyük üstünlük verir və onu həkimə bənzədir. Təbib insan bədəninə, onun üzvləri arasında münasibətin sağlamlığına fikir verirsə, ailə başçısıda bütün ailəyə, eləcə də onun üzvləri arasında olan münasibətlərə diqqət yetirməlidir. Bədənin bir üzvü xəstə olduqda digər üzvlərə təsir etdiyi kimi, ailə üzvlərindən biri naqis olduqda digər üzvlərə təsir göstərir (1, s. 179). Ailə başçısı ailə üzvlərinin yerini və vəzifəsini bilməlidir. Təbiətdə olduğu kimi insan orqanizmində də hər üzvün öz vəzifəsi var. Ümumi mənafe üçün bu vəzifələr birləşəndə bədənə xidmət edir. Ailə üzvləri də belə olmalıdır. Ailə üzvləri ayrılıqda fərddir, hər birinin öz xarakterik xüsusiyyəti var. Lakin onlar birlikdə bir məqsədə xidmət etməlidirlər ki, ailədə iş düzgün getsin.

Tusiyə görə tərbiyənin ən müqəddəs vəzifəsi yalan danışmağın qabağını almaq, istər yalandan, istərsə də doğrudan and içməyə yol verməməkdir (3, s. 63). And içməyi, ümumiyyətlə pis adət hesab edən mütəfəkkir yazırdı ki, "bəlkə də böyüklərin yalan danışmağa ehtiyacı olsun, lakin uşaqların buna qətiyyən ehtiyacı yoxdur". Tusi tərbiyənin lap kiçik yaşlardan verilməsini lazım bilərək yazırdı: "Sokratdan soruşurlar: Sən nə üçün həmişə yeniyetmələrlə həmsöhbət

olursan? -deyir: ona görə ki, nazik tər budaqları düzəltmək asandır. Təravəti getmiş, qabığı qurumuş, üzü bərkimiş ağacı düzəltmək isə mümkün deyildir" (3, s. 64).

Böyük alim, mütəfəkkir və pedaqoq Nəsrəddin Tusi şəxsiyyətin formalaşmasında tərbiyəsinin demək olar ki, bütün sahələrinə toxunmuşdur . Tusinin əsərlərində əqli tərbiyə, əxlaq və əmək tərbiyəsi, habelə fiziki və estetik tərbiyə məsələləri öz əksini tapmışdır. Dahi mütəfəkkir tərbiyənin məzmunu haqqında tərbiyəçilərə, valideynlərə verdiyi dəyərli məsləhət və tövsiyələr bu gün də öz aktuallığını itirməmişdir

ƏDƏBİYYAT

1. Firədun Nadir oğlu ibrahimov, Rüfət Lətif oğlu Hüseynzadə. Pedaqogika dərslik II cild. Bakı 2012
2. Hüseyn Əhmədov. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Dərs vəsaiti I hissə. Bakı-2001
3. Məmmədəli Hənnan oğlu Ağayev. Pedaqoji fikir tarixində tərbiyə və təhsil. Dərs vəsaiti . Bakı-2011
4. https://naxcivanxeberleri.com/cemiyyet/9160-xlaq-trbiysi-nzriyysinin-formalasmasinda-nsirddin-tusinin-pedaqoji-goruslrinin-rolu.html
5. https://nuhcixan.az/news/cemiyyet/11969-nesreddin-tusinin-terbiye-haqqinda-fikirleri

NƏSRƏDDİN TUSİNİN PEDAQOJİ GÖRÜŞLƏRİNDƏ ƏXLAQ MƏSƏLƏLƏRİNİN TƏRƏNNÜMÜ

Süleymanova Fəridə

XÜLASƏ

Yazımda Nəsrəddin Tusi yaradıcılığında əxlaqi dəyərlərdən bəhs etməyə çalışdım. Orta əsr milli tərbiyəşünaslığımızın beynəlxalq aləmdə nailiyyəti hesab edilən Nəsrəddin Tusi yaradıcılığı bu gün də milli-mənəvi, elmi-pedaqoji irsimizin qızıl fondunu təşkil edir. Böyük mütəfəkkir Nəsrəddin Tusinin pedaqoji fikirləri səkkiz əsirdən artıqdır ki, yetişən nəslin təlimi, təhsil və tərbiyəsində mühim rol oynayır. Onun ədəbi-pedaqoji irsində yer alan didaktik fikirləri ailədə və məktəbdə təlim-tərbiyə işinin təşkilində, böyüməkdə olan nəsillərin milli-mənəvi dəyərlər, milli adət-ənənələr ruhunda tərbiyə edilməsinə xidmət edir.

ПЕСНЯ О НРАВСТВЕННЫХ ВОПРОСАХ НА ПЕДАГОГИЧЕСКИХ ВСТРЕЧАХ НАСРАДДИНА ТУСИ

Сулейманова Фарида

SUMMARY

В своей статье я попытался рассказать о моральных ценностях в творчестве Насреддина Туси. Творчество Насреддина Туси, которое считается достижением нашего средневекового национального образования на международной арене, до сих пор составляет золотой фонд нашего национально-духовного, научно-педагогического наследия. Педагогические идеи великого мыслителя Насреддина Туси уже более восьми веков играют важную роль в обучении, воспитании и воспитании подрастающего

поколения. Использование дидактических материалов его литературно-педагогического наследия при организации воспитательной работы в семье и школе служит воспитанию подрастающего поколения в духе национальных и духовных ценностей, национальных традиций.

SONG OF MORAL ISSUES IN NASRADDIN TUSI'S PEDAGOGICAL MEETINGS

Suleymanova Farida

SUMMARY

In my article, I tried to talk about moral values in the work of Nasreddin Tusi. Nasreddin Tusi's work, which is considered to be the achievement of our medieval national education in the international arena, still forms the golden fund of our national-spiritual, scientific-pedagogical heritage. The pedagogical ideas of the great thinker Nasreddin Tusi have been playing an important role in the training, education and upbringing of the rising generation for more than eight centuries. The didactic materials contained in his literary and pedagogical heritage are used in the organization of educational work in the family and school, serve to educate the younger generation in the spirit of national and spiritual values, national traditions.

MÜƏLLİM-ŞAGİRD MÜNASİBƏTLƏRİNİN ŞƏXSİYYƏTİN FORMALAŞMASINA TƏSİRİ

Hüseynova Əsmər Osman qızı
BDU-nun II kurs magistrantı
esmer.huseynova095@gmail.com

Açar sözlər: müəllim, əməkdaşlıq, şəxsiyyət, pedaqoji münaqişə, pedaqoji takt
Ключевые слова: учитель, сотрудничество, идентичность, педагогический конфликт, педагогический такт
Key words: teacher, cooperation, identity, pedagogical conflict, pedagogical tact.

Müəllim... Bu adı eşidəndə dünyanın hansı yerində, hansı vəzifədə olursan ol, qəlbində ona qarşı sonsuz sevgi, ehtiram, iltifat və ülfət hissi oyanır. Çünki hər bir şəxsin gələcəyində, keçdiyi həyat yolunda mütləq ki, onun əl izləri var. Müəllimi pərvanəyə bənzətmək olar. Necə ki, pərvanə şamın başında dolanaraq, onun şöləsində yanırsa, müəllim də bizlərin, yəni yetirmələrinin parlaq və gözəl gələcəyinə uğrunda öz canını fəda edir. Onların doğru mənsəbə qulluq etməsi yolunda yolunda əlindən gələni edir.

Heydər Əliyevin də dediyi kimi, yer üzündə müəllimlik qədər yüksək nüfuza malik, müqəddəs bir peşə yoxdur. Çünki cəmiyyətimizin qurucusunu, idarə edənlərini, fəhləsini, mühəndisini, baytarını, həkimini, alimini, bir sözlə, hər bir üzvünü tərbiyə edən o böyük şəxsiyyətdir. O, müəllim əməyini yüksək zirvələrdə tutaraq qeyd edir: "Müəllim yeganə şəxsiyyətdir ki, cəmiyyət özünün gələcəyini - uşaqlarının tərbiyəsini yalnız ona etibar edir"

O, şagirdlərinə yalnız oxuma - yazma öyrədən şəxs deyil. Onları elə tərbiyə etməlidir ki, hər cür əxlaqi davranışları, xeyirxahlığı, sadiqliyi, vəfalılığı, dürüstlüyü, mərdliyi, oğurluğa və rüşvətxorluğa qarşı barışmazlığı özündə cəmləşdirən, pis əməllərdən uzaq durmağı bacaracaq iradə sahibi şəxsiyyətlər olsunlar. Sədi Şirazi müəllimin cəmiyyətdəki rolundan bəhs edərək bildirir ki, müəllim uşaqlara peşə seçimində yaxından kömək etməlidir. Çünki əlində hər hansı bir peşəsi, sənəti olan şəxsin bütün var-dövləti, sərvəti əlindən çıxsa belə qorxusu yoxdur. Sənətsiz, peşəsiz insan isə biraz çətinlik gördükdə əl açıb dilənçilik də edər.

Şagird şəxsiyyətinin təşəkkülü prosesində pedaqoqun şəxsi nümunəsinin, nüfuzunun və eləcə də müəllimlə şagirdlərarası əməkdaşlıq əlaqələrinin təsiri danılmazdır. Müəllim, müəllim - şagird münasibətlərinin mərkəzində dayanan bir subyektdir. Hər bir xalqın bədbəxtliyi və ya xoşbəxtliyi övladların tərbiyəsinin düzgün əsaslar zəminində qurulmasından bilavasitə qaynaqlanır. Uşaqların tərbiyə işində isə ən ağır yük müəllim - tərbiyəçinin çiynindədir. Şagird şəxsiyyətinin təşəkkülündə əvəzsiz əməyi olan müəllimdən danışarkən qeyd edir: "Pinəçinin bir cüt ayaqqabını pis tikməsi bir nəfərə ziyan gətirər, müəllimin pis işi, pis tərbiyəsi bütün insanlara."

Deməli, şagirdi şəxsiyyət kimi düzgün formalaşdırmaq onun əlindədir. Bu, həm də müəllimin əsas vəzifəsi sayıla bilər. Əgər müəllimin sözləri ilə davranışları arasında uyğunsuzluq olarsa, şagirdləri də ondan yaxşı nəticə götürə bilməz. Bütün gün ibarətamiz nəsihətlər verən müəllimdə əxlaqi keyfiyyətlərində qüsurlar varsa, şagirdləri onun qeyri-səmimi sözlərindən nə kimi dərs ala bilər ki?

Şagird şəxsiyyətində neqativ cəhətlərin yaranması onun pedaqoji əməyindən, ustalığından, şəxsiyyətindən, yaxşı və ya pis insan olmasından çox asılıdır. Yəni ilk öncə müəllim özü öz şəxsiyyəti üzərində işləməli, hərtərəfli şəxsiyyət kimi təşəkkül tapıb, inkişaf etməlidir. Əks halda, öz şəxsiyyətində nöqsanları olan şəxs doğru şəxsiyyətlər yetirə bilməz.

Heydər Əliyev: "Bizim təhsilimizin məqsədi gənc nəslə, uşaqlara təhsil verib onları gələcəyə hazırlamaqdır. Amma bununla yanaşı, ən böyük məqsəd Azərbaycan vətəndaşı hazırlamaqdır, müstəqil Azərbaycan cəmiyyətinin ləyaqətli üzvünü hazırlamaqdır".

Müşahidələr nəticəsində bir qisim müəllimdə pedaqoji və psixoloji yönümdə müəyyən xoşagəlməz hallar aşkar olunmuşdur. Bu isə özlüyündə, şəxsiyyətin formalaşmasına ciddi ziyanlar vura biləcəyinə işarədir. Məsələn: müəllimin pedaqoji biliyi çox aşağı səviyyədədir, hətta demək olar ki, savadsızdır. Şagirdlərin verdiyi suallar onu aciz vəziyyətə düşürür, dərsə və şagirdlərinə böyük etinasızlıq göstərir, əksərən haqsız qərarlar verir, şagirdləri ilə xoş davranmır, yaxşı oxuyan şagirdlərinə hörmət bəsləyir, zəif oxuyanlara isə hörmətsizlik edir, hər cür ayrı-seçkilik edir, hədsiz dərəcə aqressivdir, təhqiramiz ifadələr söyləməkdən çəkinmir, fiziki cəzaya və şiddətə əl atır, uşağı vura bilmədikdə isə qiymətini aşağı endirərək əvəz çıxır, yalan danışır və s. Bildiyimiz kimi yenitməlik dövrü böhran dövrüdür. Hansı ki, bu dövrdə sadaladığımız halların kiçik bir qismi belə şagirdlərə ən neqativ şəkildə təsir edib, onların şəxsiyyətinə toxuna bilər. Ona görə də müəllimlər olduqca diqqətcil olmalı, hər cür şəxsiyyəti alçaldacaq təbirlərdən uzaq qaçmalıdır.

Öz işinin öhdəsindən müvəffəqiyyətlə gəlmək üçün müəllim sözün əsl mənasında hərtərəfli inkişaf etmiş şəxsiyyət olmalıdır. Müsbət keyfiyyətlərə sahib insan olmalıdır. Bunun üçün müəllimin şəxsi keyfiyyətləri ilə yanaşı, pedaqoji qabiliyyətləri də olması vacibdir:

Akademik qabiliyyət - geniş və dərin biliyə malik olmaqda, elmin son nailiyyətlərini öyrənməkdə və şagirdlərə çatdırmaqda ifadə olunur.

Didaktik qabiliyyət - bilikləri öyrətmə bacarığında, pedaqoji-metodik ustalığa yiyələnməkdə özünü göstərir.

Ünsiyyət (kommunikativ) qabiliyyəti - uşaqlarla, öz həmkarları və valideynlərlə düzgün ünsiyyət yaratmaqda, demokratik ünsiyyət üslubunda, hər bir uşağa fərdi yanaşma bacarığında ifadə olunur.

Konstruktiv qabiliyyət - özünün və uşaqların (kollektivin) fəaliyyətini düzgün planlaşdırmaqda, çətinlikləri əvvəlcədən duyub, onları aradan qaldırmağa hazır olmaqda ifadə olunur.

İradi-emosional qabiliyyət - müəllimin özünü, hisslərini düzgün idarə etməkdə, mülayimlik və ciddiliyi uzlaşdırmaqda, səbirli olmaqda ifadə olunur.

Təbii ki, müəllim-şagird əməkdaşlığı heç də münaqişələrsiz ötüşmür. Bəzən şagirdlər müəllimin dərin biliklərinə və ictimaiyyətdəki yüksək statusuna inam göstərdikləri üçün hətta problemli hallarda belə ona ən ali əxlaqi normalarla yanaşırlar. Eləcə də yaxşı müəllim şagirdlərin xarakterində olan ən cüzi çatışmazlığı belə görə bilir və bunu islah etmək yolunda əlindən gələni əsirgəmir. Müəllim münaqişəli situasiyalarda öz pedaqoji taktını işə salaraq, şagirdləri müqavimətdən çəkindirə və yumşalda bilir. Lakin pedaqoji takt hər cür halda yersiz güzəştə getmək, tələbkarlığını azaltmaq, mübahisə və münaqişələrdən qaçış yolu demək deyil.

İ.Y.Sinitsanın qənaətincə, münaqişə zəminində onlar arasında inciklik yarana bilər və bu inciklik uzun sürən psixoloji uyğunsuzluq yaradar. Bir dəfə incidilən şagird zahirən biruzə verməsə belə, daxilən müəlliminə əks münasibətdə olub, müqavimət göstərər. Başqa sözlə desək, müəllim ona yaxşı davrandıqda belə, artıq onun sözlərinə qarşı şübhəcil olub, bir daha onun tərəfindən incidiləcəyini gözləyər. Nəticədə isə müəllim şagirdlə əks əlaqəni çətinliklə yaradar. Bəzi müəllimlər bu işə psixoloji baxımdan təcrübəli yanaşmır. Onlar düşünməsin ki, bu inciklik öz-özlüyündə keçib gedə bilər. İstənilən halda hər iki tərəf bir-birinə hörmət etməlidir. Axı onlar pedaqoji prosesin fəal subyektləridir. Ona görə də şagird hər halda müəlliminə qarşı nəzakətli və xoş rəftar olmalıdır. Səhvi olduğu halda müəllimdən üzr istəməsi onun şəxsiyyətinin düzgün formalaşmasından xəbər verir.

Təssüflər olsun ki, əksər müəllim qarşılıqlı əməkdaşlığın ideallığını şagirdlərinin hər vəziyyətdə haqlı və haqsız olmasından asılı olmayaraq, onlara itaətkarlığında görür. Əslində təlim-tərbiyənin faydalılığı şəxsiyyətin inkişaf etməsi və şəxsiyyətlərarası münasibətlərin formalaşması bir növ pedaqoji rəhbərlik üslublarından asılı xarakter daşıyır.

Əksər hallarda müəllimlər də pedaqoq kimi yanlış addımlar atırlar. Belə ki, bəzi müəllimlərdə perseptiv qabiliyyət aşağı səviyyədə olduğundan, uşaqların daxili aləminə düzgün formada yol tapa bilmirlər. Onları xarici görkəmlərinə istinadən dəyərləndirirlər. Məs: Səma eynək taxır, deməli gözləri zəifdirsə o savadlı və istedadlı qızdır və yaxud Elvin idmançıdır, demək o dərs oxuyan şagird deyil. Bu isə şagirdlərin əsl sifətlərini, şəxsiyyətlərini və daxilən hansı mənəvi keyfiyyətlərin sahibi olduğunu başa düşməkdə müəllimə əngəl törədir. Bir sözlə müəllimi çaşdırır və yanlış qərarlar verməyə sövq edir.

Elə müəllimlər də vardır ki, öz sosial statuslarının üstünlüyü səbəbindən şagirdlərinə tamamilə bir obyekt gözüylə baxır. Hərçənd, müəllimin statusu şagirdin statusundan yüksək də olsa, şagirdə obyekt kimi davranmasına heç cür dəlalət verə bilməz. Digər bir yanlış addım isə müəllimin kənardakıların hər hansı bir şagird haqqında irəli sürdüyü fikirlərdən yola çıxaraq, onu hələ yaxından tanımadan, xarakterik xüsusiyyətlərinə yaxşı bələd olmadan şagirdə qarşı fikrində qəti qərar formalaşdırmasıdır. O, başqalarından hər cür informasiya ala bilər, lakin bunları dərindən analiz edib, əhatəli şəkildə, böyük təmkinlə araşdırıb, pozitiv cəhətlərini də görə bilməlidir. Çünki təlim-tərbiyə işi bu əsasda qurularsa, müsbət və xoşagələn nəticələr almaq olar. V.A.Suxomlinski bu məsələyə toxunaraq demişdir: "Əgər müəllim vaxtında qarşısındakı insanı elmi əsaslarla, düzgün öyrənib dərk etməzsə, arada xeyirxahlıq toxumu səpməzsə, onda 10 ildən sonra məlum olacaq ki, tərbiyəvi iş həmin şagirdə heç nə verməyib. Pedaqoji prosesdə nə qədər ölçülüb-biçilmiş, düzgün addım atılarsa, sonrakı bədbəxtçilikdən o qədər siğortalanmaq olar."

ƏDƏBİYYAT

1. İlyasov M.İ. "Müəllimin pedaqoji ustalığı", Bakı: Elm və təhsil, 2013.
2. Mehrabov A.O. "Səriştəli müəllim hazırlığının problemləri", Bakı: Elm və təhsil, 2015.
3. Müəllimlərin etik davranış qaydaları. Bakı, 2014
4. Əlizadə Ə.Ə, Əlizadə H. "Pedaqoji psixologiya", Bakı: 2010.
5. Könül Əliyeva "Müəllimin pedaqoji xüsusiyyətləri", Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, Cild 85, № 6, 2018
6. Əliyeva Höküməİmran qızı. Yeniyetmə şəxsiyyətinin formalaşmasında müəllim-şagird münasibətlərinin rolu [Mətn]: psixologiya e.n.a.dər.a. üçün təq. ed. dis.: 19.00.07. / H. İ. Əliyeva; B., 2007.- 143 s.
7. *https://aztehsil.com*
8. *https://muallim.edu.az*
9. *https://mektebgushesi.az*

MÜƏLLİM - ŞAGİRD MÜNASİBƏTLƏRİNİN ŞƏXSİYYƏTİN FORMALAŞMASINA TƏSİRİ

Hüseynova Əsmər

XÜLASƏ

Gələcəkdə güclü, dözümlü bir fərdin yetişməsi üçün yalnız ailə müdaxiləsi kifayət etmir. Çünki uşaq yalnız evin içərisində deyil, həm də cəmiyyətdə, məktəbdə gördüyü bir çox şeyi örnək götürür. Məktəbdə uşağın ikinci valideyni - müəllimdir. Bəzən elə situasiyalar yarana bilər ki, uşaq evdə gördüyü diqqət və sevgi əskikliyini bir müəllim məsləhəti və yaxud nəvazişi ilə doldursun. Elə bir an yarana bilər ki, uşaq atacağı səhv addımdan əvvəl müəllimin bir dəyərli məsləhətini, sözünü xatırlayar və yanlış yollardan çəkinər.

Son zamanlarda baş verən cinayətkarlıq hallarının, zərərli vərdişlərin, həyata bir ləkə kimi iz salacaq əxlaqdankənar əməllərin törədicisi olan uşaqların sayının artması onların təkcə ailəsində görmədiyi sevgidən və yaxud yanlış aldığı tərbiyədən deyil, həm də məktəbdə müəllimlərinin onlara qarşı laqeyd rəftarından xəbər verir. Ona görə də bir insanın gələcəkdə sevilən, seçilən insan olmasında yalnız ailənin yox, həmçinin müəllimin rolu böyükdür.

ВЛИЯНИЕ ОТНОШЕНИЙ УЧИТЕЛЬ И СТУДЕНТ НА ЛИЧНОСТЬ

Гусейнова Асмар

АННОТАЦИЯ

Одного вмешательства семьи недостаточно для того, чтобы в будущем вырастить сильного и стойкого человека. Потому что ребенок подражает многому, что видит не только в доме, но и в обществе, и в школе. В школе второй родитель ребенка - учитель. Иногда возникают ситуации, когда ребенок восполняет недостаток внимания и любви дома советом или лаской учителя.

Может быть время, когда ребенок запоминает ценный совет и слова учителя, прежде чем сделать неправильный шаг, и избегает неправильных поступков. Недавнее увеличение числа детей, вовлеченных в преступление, плохие привычки и аморальность, является свидетельством не только любви или жестокого обращения, которые они получают в своих семьях, но и безразличия их учителей в школе. Поэтому велика роль не только семьи, но и учителя в том, чтобы человека любили и выбирали в будущем.

THE EFFECT OF TEACHER-STUDENT RELATIONSHIP ON PERSONALITY

Huseynova Asmar

SUMMARY

Family intervention alone is not enough to develop a strong, resilient individual in the future. Because the child imitates many things he sees not only in the house, but also in society and at school. At school, the child's second parent is a teacher. Sometimes situations arise where a child fills a lack of attention and love at home with the advice or caress of a teacher. There may be a time when a child remembers a valuable piece of advice and words from a teacher before taking a wrong step and avoids wrong ways.

The recent increase in the number of children involved in crime, bad habits, and immorality is a testament not only to the love or mistreatment they receive in their families, but also to the indifference of their teachers at school. Therefore, the role of not only the family, but also the teacher is great in making a person loved and chosen in the future.

WALDORF PEDAQOGİKASINDA NİZAM-İNTİZAM

Elmi rəhbər: Qəhramanova Kəmalə
BDU-nun Pedaqogika kafedrasının dosenti
Kərəmova Hüryal Afiq qızı
BDU-nun II kurs magistrantı
hkeremova99@gmail.com

Açar sözlər: təqlid, nizam-intizam, humanistlik, tərbiyə, ritm
Ключевые слова: подражание , дисциплина, гуманизм, воспитание, ритм
Key words: imitation, discipline, humanism, upbringing, rhythm.

Uşaqlar hər zaman böyüklərin hərəkətlərini təqlid edirlər. Rudolf Steinerə görə bu proses fərqli davranış qaydalarını öyrənməkdən ötədir. Təqlidetmə dövründəki bir uşaq ətrafında baş verən hər şeyi özününkiləşdirir. Bu mənimsənilmiş bilgilər şüuraltına yerləşərək , uşağın daxili-mənəvi istək və arzularını həyata keçirərək onun bir parçasına çevrilir.

Kiçik yaşlı uşaq doğumundan etibarən ana, ata və ətrafındakı digər insanların təsiri altında qalır. Uşaqların yanında edilən bütün hərəkətlər böyümə prosesi və inkişafın bir parçası halına gəlir, davamlı olaraq təkrarlanan şeylər isə vərdiş və adətlərə çevrilir.

Kiçik yaşlı uşaqların düzgün tərbiyə edilməsi, etrafındakı yetişkinlərin özlərini tərbiyələndirməsi ilə birbaşa əlaqəlidir. Bu proses təhsil müəssisələrində də birə-bir təcəssüm edir. Şagirdlərin böyümə və inkişafı , müəllimin şəxsi inkişafı ilə əlaqəlidir. Müəllim öz inkişafı üzərində nə qədər əmək sərf edirsə və davamlı öz üzərində çalışırsa, şagirdlərinə bir o qədər faydalı olur. Bu proses insanı yetərsizlik hissindən uzaqlaşdırır və buradakı ən önəmli nüans "nə qədər irəlilədim yaxud nə qədərini bacara bilərəm" düşünməkdən çox, "daima çalışmalıyam" və "özüm üçün nə qədər əmək sərf edirəmsə", uşaqları da o qədəri ilə təmin edə bilərəm şəklində olmalıdır.

Rudolf Steiner, "The Kingdom of Childhood (Uşaqlıq krallığı)" əsərində uşaqların ilk yeddi ildə bir göz kimi olduqlarını bildirirdi. Əgər bir sinir krizi keşirsək və bunu uşağa yansıtsaq , bu onun iç dünyasına dərindən təsir edəcək və çox keçmədən uşağın nəinki psixolojii sağlamlığına, eyni zamanda fiziki sağlamlığına- qan dövranına, nəfəsalmasına, metobolizmasının inkişafına öz təsirini göstərəcək. Bunun nəticəsi isə təəssüf ki, öz təsirini ömür boyu davam etdirir. Qışqırmaq , təhdid etmək nizam-intizamda səmərəli nəticə vermir. Bu cür yanaşma uşaqların gələcəkdəki xoşagəlməz və gözlənilməz hadisələrlə başedəbilmə bacarıqlarını zəiflədir. Uşağa nə etməli olduğunu deyərkən və ya hər hansı bir səhvini başa salmağa çalışarkən əsla bunu əsəblə və yüksək səs tonu ilə demək olmaz. Çünki bu zaman uşaqda özündən asılı olmayaraq bizdən yayılan əsəb duyğusuna qarşı psixoloji bir bariyer-müdafiə mexanizmi özünü göstərir və bu bariyer mesajımızın həqiqi mənasının dərk edilməsinə əngəl olur, öyrəndiyi tək şey isə əsəbini necə göstərəcəyi, özünü başqalarından necə təcrid edəcəyi və onu məmnun etməyən hadisələrlə üzləşdikdə necə davranacağı olur.

Uşaqlarla açıq, səmimi və anlaşılabiləcəyi dildə ünsiyyət qurmaq lazımdır. İstəklərinizi suallar formasında bildirmək lmaz , bu zaman əslində başqa bir seçimin olduğunu ima etməsək belə uşaqlar bunu anlamaqda çətinlik çəkirlər və düşüncələri qarışır. Misalçün – "Bəlkə artıq dərslərinə vaxt ayırasan?", "Bəs deyilmi oyun oynadığın?", "Ayaqqabılarını geyinə bilərsənmi?" tipli suallardan istifadə etmək məsləhət görülmür. Bu və bənzəri suallar uşaqlarda qərar vermə məcburiyyəti hissini yaradır , yetişkin insanlar üçün belə qərar verməyin bəzən yorucu və bezdirici prosesə çevrildiyini nəzərə alaraq , uşaqlar üçün bunun necə çətin olduğunu anlamaq

mümkündür. Bu tərz suallar onların hələ tam formalaşmamış – "mən bunu istəyirəm" yönünə istiqamətlənmiş olur. Uşaqlara uzun müddətdə çox sayıda seçimli suallar vermək onlarda eqoist hislər formalaşdırır, başqalarının istəklərinə, düşüncələrinə önəm vermirlər. Böyüdükcə üzərlərinə düşən işlərdən boyun qaçırma və məsuliyyət götürməmək halları müşahidə edilir.

Nə çox avtokratik , nə də çox humanist bir ifadə - bacara bilərsən (edə bilərsən) uşaqlar üzərində danılmaz bir təsiri olduğunu bilirik. Ancaq uşaqlardan birşeyi tələb edərkən bunu sual formasında istəmək düzgün deyil , əgər bir imtina cavabı alırıqsa , istəyimizi təkrar etməli , açıqlamalı və lazımı şəkildə həyata keçirilməsinə nəzarət etmək lazımdır. Steiner bu mövzuya xüsusi toxunaraq, uşağa öncə bir şeyi etməli olduğuna dair əmr verib , daha sonra bunun tərsini deməyin ,yaxud istəkdə qərarlı olmamağın uşağa verilən ən böyük zərər olduğunu bildirir. Steiner uşaqların qeyri-dəqiq yetişkin qərarlarından qaynaqlanaraq yaşadığı zehni qarışıqlığın, sonrakı yaş dövrlərində tez-tez rast gəlinən əsəb xəstəliklərinin başlıca səbəblərindən biri olduğunu vurğuluyurdu..Kiçik yaşlı uşaqlardan bir yetişkin kimi məntiqi düşünərək hərəkət etməsini gözləmək olmaz, unutmamaq lzımdır ki, uşaqlar nəyin pis nəyin yaxşı olduğunu 5 yaşına doğru anlamağa başlayırlar.

2-4 yaşındakı uşaqlar çox inadcıl davrana bilərlər, bu vəziyyətdə ən düzgün davranış, onları biraz altdan almaqdır. Bu yaş dövründə valideynlər övladlarının yanında olamlı , onlara anlayış göstərməli və mülayim, humanist ünsiyyət saxlamalıdır. Uşaqları nəzarətdə saxlayaraq müstəqillik verilməlidir. Hər zaman səbirli dinləyici olun, dəstəyinizi hiss etdirməyə çalışın. Valideyn olmağın ən çətin şeylərindən biri də uşaqlarınızın sizə kim olduğunuz göstərməsidir. Uşaqlarımızda bir davranış problemi ortaya çıxdıqda hər zaman ilk öz davranışlarımıza baxmağa hazır olmalıyıq. Xarici amilləri günahlandırmaq asandır, amma bu heç bir nəticə vermir. Hərəkətlər sözlərdən daha çox təsir edir.

Waldorf pedaqogikası disiplində cəzalandırmadan və sərt nizam-intizamdan, sərt rejimlərdən imtina edir. Bunun əvəzində isə ilk öncə uşaqlarla dözgün ünsiyyətin qurulması, daha sonra isə, onların daxili ehtiyaclarının ödənilməsi öz yerini alır.

Waldorf məktəblərində nizam-intizam qaydaları xüsusi önəm daşıyır, waldorf təhsili bir uşaq bağçası mühitində nizam –intizam qaydalarını və tələblərini həll etmək üçün bir çox yaradıcı-usta üsullara malikdir. Çətin uşaqların təlim-tərbiyəsində mövcud yalnışları dözəltmək və yenidəntərbiyə prosesini düzgün qurmaq üçün ilkin formada gündəlik qaydalara uyğun sadə və balanslı bir nəfəs alma ritmi yaradılır. Nəfəs alma ritmi dedikdə uşaqların emerjisinin müxtəlif fəaliyyət sahələrinə düzgün paylanılması nəzərdə tutulur. Uşaqların uzun müddət eyni bir işlə məşğul olmasına imkan verilməməli, az və çox enerji tələb edən fəaliyyətlər bir-birini daim əvəz etməlidir. Enerji balansını nəzarətdə saxlamaqla uşaqlarda nəfəs alma ritmi düzgün təşkil edilmiş olur. Bu proses uşaqların gün boyu məcburi yox , ahəngdar irəliləyişini təmin edir. Ritm məcburiyyət deyil, əksinə müəyyən bir qanunauyğunluqdur.

Bir uşağın özünə, ətrafındakı başqa bir uşağa və yaxud hər hansı bir materiala zərər verəcək hərəkətlər etdiyi təqdirdə, müəllimin uşağa ilk yanaşması ondan gözlədiyi davranışı modelleşdirməsidir. Uşaqlardakı təqlid instinkti bu metodun çox yaxşı nəticələr verməsinə imkan yaradır. Əxlaqi və etik cəhətdən yanaşılaraq sağlam davranış formalarının modelləşdirilməsi böyüməkdə olan gənc nəsilin tərbiyə prosesində düzgün və çox səmərəli nəticələr verir.

Dəyişiklik hər zaman sarsıntı gətirəcək - uşaqların həyatına dəyişiklik gətirməzdən əvvəl düşünün. Dəyişikliklər bəzən nizam-intizamın pozulmasının əsas səbəblərindər biri ola bilər. Öncəliklə düşünmək lazımdır ki, bu dəyişikliklər nə dərəcədə vacibdir .Bəzən valideynlər uşaqlarının psixoloji gücünü nəzərə almadan və ya düzgün dəyərləndirmədən, onları özləri ilə bərabər müxtəlif məkanlara , müxtəlif situasiyaların içərisinə sürükləyirlər. Belə hallara yol verildikdə uşaqlardakı narahatlığı və davranış pozulmalarını asanlıqla müşahidə etmək

mümkündür, bunun qarşısının alınması üçün , onları sakitlik və rahatlıq gətirəcək mühitlə təmin etmək lazıdır.

Qərar verin- əgər uşağınız üçün ən düzgün və yaxşı şeyləri etdiyinizdən əminsinizsə bu zaman narahat olmağa ehtiyac yoxdur. Ancaq nə etdiyinizdən , yaxud seçimləriniz və qərarlarınızın hansı nəticələr doğuracağından əmin deyilsəniz, təkrar düşünməkdə fayda var.

Rəhbər sizsiniz, onlar yox- onlar üçün nəyin ən yaxşı olduğunu siz bilirsiniz, əgər təslim olsanız yaşayacağınız problemlərin səbəbkarı özünüz olacaqsınz. Uşaqlarınzın istəklərinə biganə yanaşmamaqla, düzgün seçimləri siz etməli və bunun yerinə yetirilməsini təmin etməlisiniz.

Son olaraq isə nəzərə almaq lazımdır ki, valideyn olmaq şəxsi məsələdir. Hər bir uşaq bənzərsizdir və fərqli xüsusiyyətlərə malikdir. Uşaqların təlim-tərbiyə prosesi hər bir ailədə müəyyən fərqlərlə həyata keçirilir. Bəzən valideynlər öz qərarlarından əmin olmurlar , həmçinin kənar müdaxilələrin təsiri ilə oz üzərlərində təyziq hiss edərək müəyyən səhvlərə yol verə bilirlər. Unutmamaq lazımdır ki, heç bir valideyn hər zaman mükəmməl deyil. Əsas məsələ daim öz üzərinizdə işləmək və daim inkişaf etməkdir, bu zaman uşaqlarınız da sizin davamçılarımız olacaqdır.

ƏDƏBİYYAT

1. Christopher Clouder and Martyn Rawson. (1998) Waldorf Education. səh 224-251.
2. Erken çocukluk eğitimde Waldorf yaklaşımı. Erzincan Üniversitesi Eğitim Fakültesi Dergisi. 2007, 15(2), səh 39-51.
3. Kəmalə Qəhrəmanova. Təhsilin əsasları. Bakı Universiteti,2012. səh 78-91
4. Jack Petrash. (2002) Understanding Waldorf Education: Teaching from the İnside Out.səh 50-78.
5. Rudolf Steiner ve Waldorf okulu. Yüzüncü Yıl Üniversite Eğitim Fakültesi Dergisi. 2001, 6(1), səh 174-194.
6. Doralice Lange De Souza – Learning and human development in Waldorf pedagogy and curriculum (2012 January)

WALDORF PEDAQOGIKASINDA NIZAM-INTIZAM

Kərimova Hüryal

XÜLASƏ

Disiplin ailə daxilində tarazlığın müəyyənləşdirilməsində böyük önəm daşıyır. Hər nə qədər bu kəlimə qayda-qanun mənasında başa düşülsə də , gerçək anlamda uşağın ailəyə, cəmiyyətə və sosial davranış qaydalarına uyğunlaşdırılmasına istiqamətlənir. Əsas məqsəd uşaqda özünənəzarət və məsuliyyət hissini formalaşdırmaqdır. Waldorf pedaqogikası kiçik yaşlı uşaqlarda nizam-intizam vərdişlərini formalaşdırmaq üçün özünəməxsus metodlardan istifadə edərək bu prosesə yeni yanaşmalar gətirir. Waldorf yöntəmində disiplinin formalaşdırılması üçün ilk növbədə uşağın ürəyinə (hislərinə), sonra iradəsinə və son olaraq zehninə təsir edilir.

ДИСЦИПЛИНА В ПЕДАГОГИИ УОЛЬДОРФА

Каримова Гурьял

АННОТАЦИЯ

Дисциплина очень важна для определения баланса в семье. Чтобы не происходило этом слове, даже если это не соответствуем нормам закона, в истинам мысли. Этом слова она направлена на то, чтобы семья адаптировалась к обществу и правилам социального поведения. Приносит новые подходы к этому процессу, используя методы в направлением Вальдорфе.

Формообразующее направление дисциплин Вальдорфе в первую очередь отражается на сердце и чувства ребёнка патом на волю, и в конце действует на ум ребенка.

DISCIPLINE IN WALDORF PEDAGOGY

Karimova Huryal

SUMMARY

Discipline plays an important role in the determining balance within the family. Although the word is understood in the sense of rules, it is really aimed at the child's adaptation to the family, society and rules of social behavior. The main goal is to instill a sense of self-control and responsibility in the child. Waldorf pedagogy brings new approaches to this process with the using unique methods form disciplinary habits in young children. For the formation of discipline in the Waldorf method is affected firstly to the child’s heart (feelings), then his will, and finally his mind.

QADIN XEYRİYYƏ CƏMİYYƏTLƏRİNİN MAARIFÇILIK HƏRAKATINDA ROLU

Elmi rəhbər: Kəmalə Qəhrəmanova
BDU-nun Pedaqogika kafedrasının dosenti
Abbasova Natəvan Şümşəd qızı
BDU-nun II kurs magistrantı
natavan029@gmail.com

Açar sözlər: maarif, inkişaf, qadın, cəmiyyət, xeyriyyə
Key word: education, development, woman, society, charity
Ключевые слова: образование, разработка, женщина, общество благотворительность.

XIX-XX əsr ümumilikdə Azərbaycan xalqının ağı r sınaqlaarla qarşılaşdığı sıxıntılı bir dövrü əhatə edir.Belə mürəkkəb şəraitdə Azərbaycan qadının təhsilə cəlb olunmasında görkəmli ziyalılarımızın, sahibkar-xeyriyyəçilərimizin açdıqları məktəb və gimnaziyalarda maarifpərvər qadınlar yetişmiş və bu nəcib irsi davam etdirmişlər.Azərbaycan qadını vətənə və ailə dəyərlərinə bağlıdır və biz bunu tariximizin bütün dövrlərində müşahidə edirik.Yüksək təhsilli qadın , kiçik dövlət olan ailənin başçısı, övladları üçün böyük dayaq və uğurların təminatçısıdır.Bu səbəbdən H,Z.Tağiyev, M.Muxtarov, H.Zərdabi, C. Məmmədquluzadə, Ə,Hüseynzadə və başqaları gələcək nəsilləri yetişdirən Azərbaycanın gənc qızlarını və qadınlarını dünyəvi təhsilli görmək istəyirdilər

Azərbaycanda qızlara yeni üsulla dərs verməyin ilk təşəbbüsçülərindən biri olan Cəlil Məmmədquluzadənin xalq məktəbləri direktoruna yazdığı 18 yanvar tarixli raportunda deyilirdi: "Mənə həvalə olunmuş məktəbdə bu ilin yanvar ayından 8 tatar (azərbaycanlı-S.G) qızının təhsilə başlanmasını sizə bilidirməyi özümə şərəf sayıram.Onların familyaları və adları belədir: Adıgözəlova Şarabanı, Cahangirova Səkinə, Qaziyeva Ümbül, Məmmədquluyeva Səkinə, Mehdixanova Xədicə, Mehdiyeva Zəhra, Mirzəməmmədova Səkinə və Mirzəməmmədova Mina. Əlavə olaraq məzərinizə çatdırmaq istəyirəm ki, adlarını çəkdiyim qızlardan ibarət xüsusi hazırlıq qrupu düzəldib , onlarla özüm məşğul oluram (Cümhuriyyətə İşiq Saçan Qadınlar. səh.11).

Azərbaycanda XIX əsrin ortalarından başlayaraq yüksəliş mərhələsinə qədəm qoyan maarifçilik hərəkatı nəticəsinə ölkədə bir çox nüfuzlu cəmiyyətlər yarandı.Bu illər Tiflisin intellektual mühitində yetişən ziyalı nəsli qabaqcıl maarifçilik ideyalarının AZərbaycanda yayılması istiqamətində fəaliyyətə keçdi.Həmin dövrlərdə Bakıda mədəni-maarif sahəsində bir-birinin ardınca "Nəşri-Maarif", "Nicat", "Şəfa", "Qafqaz Müsəlman Qadınları Xeyriyyə Cəmiyyəti", "Müqəddəs Nina", və "Müqəddəs Ripsimi" rus qadın xeyriyyə cəmiyyətləri yaranmışdı.Belə bir zamanda ölkənin müxtəlif şəhərlərində qadın cəmiyyətləri də yaranmağa başladı.

"Müqəddəs Ripsime" qadın cəmiyyəti qadınların, qızların təhsilində, maaariflənməsində geniş fəaliyyət göstərirdi. Bu sahədə cəmiyyət bir çox xeyriyyə tədbirləri keçiridi."Müqəddəs Ripsime" İrəvan qadın xeyriyyəçilik cəmiyyətinin fəaliyyətində Naxçıvan əhli general-leytenant Ehsan xanın qızı Sonabəyim, Ehsan xanın oğlu Naxçivan xanı General –mayor Kəlbəlixanın qızı Sarabəyim və bir çox məşhur adamların qızları və həyat yoldaşlarının adlarını çəkmək olar. Onlar cəmiyyətin işlərində fəal işirak etmişlər.

"Müqəddəs Ripsime" xeyriyyə cəmiyyətinin İrəvan şöbəsində fəaliyyət göstərən mütərəqqi azərbaycanlı qadınları yeni məktəblərin açılması ilə bağlı müəyyən işlər görürdülər ki, 1850-ci ilin yanvarın 1-də İrəvan şəhərində ilk qız məktəbi açılmişdır.Burada dabaşqa millətin

nümayəndələri ilə birlikdə azərbaycanlı qızları da təhsil alırdılar.1851-ci ildə 21 qızdan 3-ü, 1856-cı ildə 28 şagirddən 7 nəfəri azərbaycanlı idi.İrəvan qız məktıbində Mir Mehdi adlı bir müəllim tərəfindən Azərbaycan dili dərsi də tədris edilirdi.

1850- ci illərdə Tiflisdə fəaliyyət göstərən "Müqəddəs Nina" cəmiyyətinin Azərbaycanda eyniadlı qadın təhsil idarəsi fəaliyyətə başladı.Bu cəmiyyətin üzvləri arasında 17 nəfər azərbaycanlı qadınvardı. Onların arasında Fatma Əsədbəyova, Xədicə Haqverdiyeva, Gövhər Qurtqaşinskaya, Balaxanım Xamdəmirova, və başqaları vardı. Bu cəmiyyət ölkədə qadın hərəkatına stimul verdi və bir çox maarifpərvər qadınlar öz evlərində qadınlara , qızlara təhsil verməyə başladılar.

1850-ci ildə maarifçi Dilbər xanım atası Mirmahmudun köməyi ilə Şamaxıda, öz evində qəz məktəbi açdı.Uzun illər fəaliyyətini davam etdirən məktəbdə 1863- cü ilə qədər şəriət, ana dili, nəğmə və s. dərslər tədris olunurdu.Bunun ardınca 1865-ci ildə İrəvan quberniyasında "Müqəddəs Ripsimə" cəmiyyəti qızlar üçün məktəb açdı. Həmin məktəb də fəaliyyət göstərən 65 qızdan 42-si azərbaycanlı idi.Daha sonralar qabaqcıl qadınların təşəbbüsü ilə Zaqatalada, Şuşada, və Dərbənddə qız məktəbləri açılır.

"Müqəddəs Nina" xeyriyyə cəmiyyətinin təşkil etdiyi qız gimnaziyası 1883- cü ildə Gəncədə fəaliyyətə başladı.Lakin bu məktəblərdə təhsil rus dilində olduğundan burada yalnız rus məmurlarının uşaqları oxuyurdular. Cəmiyyət imkanlı adamların hesabına, üzvlik haqqı, zəngin ailələrdən olan qızların təhsil haqqı və mədəni tədbirlərin keçirilməsindən toplanan vəsait hesabına fəaliyyət göstərirdi. 1895-ci ildə Gəncədə qadın gimnaziyası açılmış amma dövlət vəsaiti ilə təmin edilmədildiyinə görə yalnız 1906 –cı ilə kimi fəaliyyət göstərə bilmişdir.

1898-ci il aprelin 23- də Gəncənin Bağbanlar yaşayış sahəsində İmamlı məhəlləsində əhalinin topladığı vəsait hesabına ilk rus-tatar(Azərbaycan) məktəbi açılmışdır. Görkəmli pedaqoq , məktəblilər üçün bir neçə dərsliyin müəllifi Mirzə Abbas Abbaszadə şəhər məktəbindən bu yeni tipli məktəbə Azərbaycan dili və şəriət müəllimi təyin edilmişdir.

Azərbaycanın müxtəlif bolgələrində də Xeyriyyə cəmiyyətləri yaradılmış və geniş fəaliyyət göstərmişdir. Belə ki, 1875-ci il oktyabrın 26- da Şuşada yaradılmış xeyriyyə cəmiyyəti tərəfindən ilk qız məktəbinin əsası qoyulmuş, 1884 –cü il yanvarın 1-də Gəncə "Müqəddəs Nina" xeyriyyyə cəmiyyətinin xətti ilə 6 nəfər şagirdlə ilk qız məktəbi fəaliyyətə başladı. Xeyriyyə cəmiyyətlərinin fəaliyyəti nəticəsində qızların təhsili genişlənmiş və hətta oğlan məktəblərinə də qızlar cəlb olunmuşdur. Qızların oğlan məktəblərinə cəlb edilməsinə Nuxa qəzasının Vartşen(Oğuz)və Qarabulaq kənd məktəblərində rast gəlirik.

Xeyriyyəçilik və maarifçilik fəaliyyəti ilə məşğul olan Azərbaycanın ziyalı qadınları çox yaxşı anlayırdılar ki, qadın istər ailədə, istərsə də cəmiyyətdə özünü ifadə etmək istəyirsə, mütləq təhsil almalı, iqtisadi cəhətdən təmin olunmalıdır. Qeyd etmək lazımdır ki, maarifçi-kişilərin ali cəmiyyətin qabaqcıl qadınlarına təsiri çox böyük idi. Demək kifayətdir ki, onların hamısı bir-biri ilə şəxsən tanış idilər. Elə Həsənbəy Zərdabinin özü "Nicat" qadın cəmiyyətinin yaradıcılarından ruhlandırıcılarından biri idi, həvəskar tamaşaların həayacanında böyümüş milli teatrın başlanğıcında dayanmışdır.

Faklar göstərir ki, Qadın xeyriyyə hərakatı Azərbaycanda böyük bir mərhələdə davam etmişdir."Müqəddəs Nina" məktəbini bitirmiş Mədinə xanım Vəkilova-Qiyasbəyli də 1906- cı ildə Salahlı kəndində öz evində qadın məktəbi açmışdı.Bundan əlavə , 1906-cı ildə Gövhər Cəfərzadə-Şövqiyyə də öz evində qadın məktəbi açdı, lakin çar məmurları hökümət eleyhinə fəaliyyətdan qorxub bağladılar.Bu azsaylı savadlanan azərbaycanlı qadınlarına paralel olaraq onlarla neft milyonçüsunun arvadı, qızı evlərində ianə məclisləri , "bəyaz çobanyastığı", "sinidə lentlər" aksiyaları keçirir, özləri kimi varlılardan pul yığıb qadınlar üçün məktəblər , savadsızlığın ləğvi məntəqələri açdırırdılar."Bəyaz çobanyastığı" günlərində "Müqəddəs Nina"

gimnaziyasınınqızları rəmzi olaraq adi çobanyastıqlarnı yüksək qiymətlərə alır, yığılan pullar müsəlmanqızların təhsilinə verilirdi. Azərbaycan maaarifçisi Həsənbəy Məlikov və qadını Hənifə Məlikzadə Zərdab kəndində 16 il polis nəzarəti altında yaşamağa məcbur olarkən qadınlar arasında maarifləndirmə aparır, pulsuz məktəb açırdılar, bu məktəb də polis tərəfindən eyni qorxu ilə bağlanmışdı.

Zaman göstərirdi ki, görkəmli ziyalılarımızın zəhmətləri, səyləri hədər getmədi. Azərbaycan qadınları ictimai-siyasi həyatda da görünməyə başladılar.Hətta onlar artıq yetişmiş problemlərin qadınların özləri tərəfindən ictimai rəyə çatdıran "İşıq" kimi sırf qadın qəzetinin meydana çıxmasına nail oldular(Ailə Qadın Uşaq 2018№22)

Hal-hazırda cəmiyyətin bütün sahələrində və idarəetmə sisteminə fəal mövqe tutan qadınlar, müstəqil Azərbaycanın daha da inkişafı, dövlətçilik ənənələrinin möhkəmlənməsi naminə əzmlə çalışırlaar.Bu fəallıq Azərbaycan qadının malik olduğu tarixi ənənələrlə yanaşı, ölkəmizdə həyata keçirilən gender siyasətinin mahiyyətindən –qadınlara cəmiyyətin tamhüquqlu üzvü kimi bütün imkanlardan bərabər istifadə üçün zəruri şəraitin yaradılmasından irəli gəlir.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeanın çoxşaxəli və səmərəli fəaliyyəti nəticəsində Azərbaycan qadınlarının ölkinin ictimai- siyasi həyatında aktiv iştiraka marağı artmışdır. Adı cəmiyyətimizdə xeyirxahlıq, insanlara kömək, nəciblik məzmunu ilə asosiasiya olunan Mehriban xanım sosial ədalət və humanizm prinsipləri sadiqliyinə görə çoxsaylı beynəlxalq mükafatlara layiq görülərək, dünya səviyəsində Azərbaycan qadının müsbət obrazının formalaşmasında əvəzsiz rol oynayır.

ƏDƏBİYYAT

1. Cümhuriyyətə İşıq Saçan Qadınlar-Bakı 2018
2. Ailə Qadın Uşaq 2018№22
3. Qadın xeyriyyə cəmiyyətləri və Qadın təhsili (Elmi iş –humanitar elmlər üzrə beynəlxalq elmi jurnal-2019)
4. Azərbaycanda XIX əsrdə fəlsəfi fikir-(Xalq cəbhəsi.-2014 21 iyun.-Sş14.)

QADIN XEYRİYYƏ CƏMİYYƏTLƏRİNİN MAARIFÇILIK HƏRAKATINDA ROLU

Abbasova Natavan

XÜLASƏ

Sonda belə bir nəticəyə gələ bilərik ki, XIX əsrin ikinci yarısından Azərbaycanda maarifin sürətli inkişafı nəzərə çarpırdı. Qadın xeyriyyə cəmiyyətlərinin təşkil edilməsi maarifçilik hərakatında əvəzsiz rol oynadı. Xüsusən də qadın təhsilinin önəmi və qadınların cəmiyyətin həyatında olan fəallığına diqqət ön plana çıxdı.Qadın cəmiyyətlərinin nəzdində açılan məktəblər və gimnaziyalar dünyəvi təhsilin inkişafına mühüm təkan verdi.

РОЛЬ ЖЕНСКИХ ОБЩЕСТВ В ОБРАЗОВАТЕЛЬНОМ ДВИЖЕНИИ

Аббасова Натаван

АННОТАЦИЯ

В итоге можно сделать вывод, что со второй половины XIX века в Азербайджане происходило бурное развитие образования. Создание женских благотворительных организаций сыграло неоценимую роль в просветительском движении. Особенно важность женского образования возросла, и на первый план вышло внимание к участию женщин в жизни общества . Школы и гимназии, открытые при женских обществах, дали важный импульс развитию светского образования.

THE ROLE OF WOMEN'S CHARITY SOCIETIES IN THE EDUCATIONAL MOVEMENT

Abbasova Natavan

SUMMARY

In the end, we can conclude that from the second half of the XIX century in Azerbaijan there was a rapid development of education. The establishment of women` s charities played an invaluable role in the enlightenment movement. In particular, the important of women` s education and the active participation of women in society came to the fore. Schools and gymnasiums opened under women` s societies gave an important impetus to the development of secular education.

ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏNİN SƏMƏRƏLİ APARILMASINDA TƏLİM TEXNOLOGİYALARINDAN İSTİFADƏ EDİLMƏSİNİN ƏHƏMİYYƏTİ

Kərimli Təranə Nəbi qızı
BDU-nun II kurs magistrantı
teranerehimova94@gmail.com

Açar sözlər: ümumtəhsil məktəbləri, monitorinq və qiymətləndirmə, təlim texnologiyaları.
Ключевые слова: общеобразовательные школы, мониторинг и оценка, технологии обучения.
Key words: secondary schools, monitoring and evaluation, training technologies.

Giriş. Ümumtəhsil məktəblərində monitorinq təhsilin inkişafına və keyfiyyətinə nəzarəti təmin edən ən mühüm mexanizmlərdəndir. Monitorinq və qiymətləndirmə vasitəsi ilə təhsil müəssisələrinin fəaliyyətlərinin səmərəlilik səviyyəsi aşkar edilir. Monitorinq və qiymətləndirmə prosesinin də səmərəli aparılmasında müasir təlim texnologiyaların rolu çoxdur. Elm və təhsilin bugünkü dövrün tələblərinə uyğun olaraq sürətli şəkildə inkişafı yeni elmi texnologiyaların meydana gəlməsinə səbəb olur.

Tədris prosesində bir sıra nöqsanlar ola bilər. Bu nöqsanlardan vaxtında xəbərdar olub, aradan qaldırılmasında fayda vardır. Monitorinq və qiymətləndirmə prosesinin aparılması nəticəsində təhsildə olan nöqsanlar bəlli olur. Həmin nöqsanların aradan qaldırılması üçün müvafiq tədbirlər həyata keçirilməsi günümüzün aktual məsələlərindəndir.

"Ötən əsrin 90-cı illərindən başlayaraq təhsil sahəsində aparılan eksperimentlərin, tətbiq olunan yeniliklərin səmərəliliyinin artırılması, nəticələrin izlənilməsi, proqnozlaşdırılması və korreksiya işlərinin vaxtında həyata keçirilməsi məqsədi ilə təhsildə monitorinq və qiymətləndirmə mexanizmi tətbiq olunmağa başlanmışdır" [1, s.8].

"Monitorinq daxili idarəetmə prosesi olub təhsilin keyfiyyətinə davamlı nəzarəti həyata keçirməyə imkan verir. Qiymətləndirmə təlim prosesini tamamlayan bir pillədir. O, təlimin səmərə və keyfiyyətini yüksəltməyə, əks əlaqəni təmin etməyə, müəllim və şagirdlərdə məsuliyyət hissinin artırmağa, təlimi stimullaşdırmağa imkan verir. Qiymət çox incə bir pedaqoji vasitədir.Qiymətləndirmə vasitəsi ilə müəssisə rəhbərliyi təhsilin inkişaf dərəcəsini öyrənmək, buna müvafiq zəruri tədbirlər görmək imkanı əldə edir. Bu proses həm təhsil orqanlarının rəhbərləri, həm şagirdlər, onların valideynləri və həmdə müəllimlər üçün çox zəruridir. Ona görə də ümumtəhsil məktəblərində elmi, pedaqoji və psixoloji cəhətdən əsaslandırılmış monitorinq və qiymətləndirmənin aparılması təhsil prosesinin keyfiyyətinin yüksəldilməsinin ən mühüm şərtlərindən biridır" [5].

"Hazırda təhsilin keyfiyyətinin müəyyənləşdirilməsi üçün tətbiq olunan qiymətləndirmənin məqsədi aşağıdakı məsələlər haqqında tam aydın təsəvvür əldə etməyə geniş imkanlar yaradar:

- məktəb kurikulumu üzrə şagirdlərin müvəffəqiyyət göstəricilərinin güclü və zəif cəhətlərinin araşdırılması;
- şagirdlərə verilən bilik, bacarıq və vərdişlərin cəmiyyətin tələbatına uyğunluğunun müəyyənləşdirilməsi;
- fənn materiallarının çətinlik səviyyəsinin şagirdlərin fiziki və anlaq səviyyəsinə uyğunluğunun müəyyənləşdirilməsi;
- kurikulumun necə yerinə yetirilməsinə, əhalinin təhsilə olan tələbat səviyyəsinin öyrənilməsi;

- şagirdlərin təlim göstəricilərinin fənlər üzrə toplanmış nəticələr əsasında fənn kurikulumunun dəyişilməsinə ehtiyacın olub-olmamasının aydınlaşdırılması üçün müvafiq təkliflərin hazırlanması;

- müxtəlif şəhər, rayon və kənd məktəblərində fənlər üzrə şagirdlərin təlim nailiyyətlərinin müqayisəli təhlilinin aparılması və milli təhsil sistemindəki vəziyyəti əks etdirən rəsmi hesabatların hazırlanması;

- müəllimlər tərəfindən istifadə edilən didaktik vasitələrin, pedaqoji texnologiyaların, təlim strategiyalarının təkmilləşdirilməsi;

- müəllimlərin elmi-pedaqoji hazırlıq səviyyəsinin müəyyənləşdirilməsi və təkmilləşdirilməsi üçün müvafiq tədbirlərin görülməsi;

- təhsil xidmətlərinin keyfiyyət dinamikasının öyrənilməsi;

- təhsilin keyfiyyətli idarə olunmasının səmərəliliyinin müəyyənləşdirilməsi.

Göründüyü kimi, təhsildə qiymətləndirmə sistemi təhsil işçisinin səmərəli fəaliyyətinin üzə çıxarılması və pedaqoji prosesin təkmilləşdirilməsi üçün vaxtında tələb olunan tədbirlərin görülməsi məqsədini daşımalıdır" [3, s.97].

Azərbaycan Respublikası təhsil sahəsi üzrə cəmiyyətin tələbinə uyğun olaraq bir çox yeni uğurlar əldə etmişdir. Təhsildə əvvəllər mövcud olan ənənəvi tədris sistemindən yeni sistem olan Milli Kurikuluma keçid təhsildə keyfiyyətinin yüksəldilməsində xeyli əhəmiyyətli bir hadisə oldu. Bundan da əlavə, ümumtəhsil məktəblərində informasiya kommunikasiya texlnologiyalarından (İKT) istifadə edilməsi, elektron tədris resurslarının yaradılması və sairə amillər təhsilin keyfiyyətini daha da artırdı.

"Texno - "sənət", logiya - "elm" deməkdir. Texnologiya - sənət haqqında elm anlamı verir. Bu mənada pedaqoji texnologiyanın mahiyyəti və didaktik əsaslarını daha dərindən qavraya bilmək üçün təhsil haqqında dövlət siyasərinin əsas prinsipləri ilə ətraflı tanış olmaq lazımdır" [4, s.72].

"Azərbaycan Respublikasında təhsil sahəsində İslahat Proqramı yeni təlim metodlarından, təlim texnologiyalarından istifadənin elmi, pedaqoji - psixoloji əsaslarının işlənilməsini əsas problem kimi qarşıya qoymuşdur. Təhsil sistemində yeni təlim texnologiyalarının tətbiqi təlim prosesinin səmərəliliyini, keyfiyyətini yüksəldən əsas amil olduğundan, belə nəticəyə gəlmək olar ki:

– tədris prosesi nəticəyönümlü proses olduğundan məqsədi əvvəlcədən müəyyənləşdirmiş və şagirdə istiqamətlənmiş təlim həyata keçirilməlidir;

– tədris və təlim bir - biri ilə sıx bağlı olduğundan daim qarşılıqlı əlaqədə götürülməlidir;

– tədris prosesi hər birinin öz rolu və statusu olan bir neçə fərdlərin əməkdaşlığından irəli gələn sosial bir proses olub inkişaf rejimində fəaliyyət fəaliyyət göstərməlidir;

– tədris prosesi qarşılıqlı əlaqələrin xarakterindən, mühitin xüsusiyyətlərindən, təhsil müəssisələrinin əhatəsindən asılı olub, onların daxili quruluşundan irəli gələn verbal və sensor davranışların məcmusunu özündə birləşdirməlidir" [2, s. 54].

"Dünyada gedən qloballaşma həyatın bir çox sahələrinə öz təsirini göstərir. Təhsildə aparılan islahat məhz həmin zərurətdən yaranmışdır. Təhsilin keyfiyyətini yüksəltmək, yeni pedaqoji texnologiyaları öyrənib onlardan səmərəli istifadə etmək başlıca vəzifə kimi qarşıda durur" [5].

"Pedaqoji elm və pedaqoji fəaliyyət o qədər mürəkkəbdir ki, o sahədə mütəxəssislər belə həmişə çevik, informasiyalı olmasalar, yenilikləri nəzərə almasalar köhnə bilik və təcrübələr ilə gərəksiz ola bilərlər. Pedaqogika həmişə yeniləşən, inkişaf edən bir elmdir. O, həm nəzəri cəhətdən, həm də praktik yönümdən yeniləşir. Bu yeniləşmələr də səmərəli və səmərəsiz ola bilər. Ona görə də istər tədqiqatçı pedaqoq, istərsə də praktik müəllim, təhsil işçisi gərək milli

təhsil siyasətinə, təhsilin dövlət standartlarına, təhsilin inkişaf proqramına, vətəndaşların milli konsepsiyasına bələd olsun, yeniliklərin milli təhsil qaydalarını görə bilsin. Deməli, istər tədqiqatçı-pedaqoq, istərsə də praktik müəllim, təhsil işçisi çox yüksək intellektə, peşəkarlığa, müstəqil düşüncəyə, yaradıcı, məntiqi fikrə sahib olsun ki, nəyin gərəkli, nəyin gərəksiz, yaxud nəyin xeyirli, nəyin ziyanlı olduğunu kəsdirə bilsin [4, s.64].

"Təhsildə keyfiyyətin təmin olunması təhsil müəssisəsinin normal fəaliyyəti üçün lazım olan bütün istiqamətlərin: maddi-texniki baza, strategiyanın hazırlanması, müəllim kadrları ilə təmin olunması, onların ixtisasının artırılması, yeni təlim metodlarına, informasiya-komminikasiya texnologiyalarına yiyələnməsi, təlim-tərbiyə prosesinin dəqiq təşkili və ardıcıl həyata keçirilməsidir" [5].

"Ümumtəhsil məktəblərində təhsilin dinamik inkişafı üçün hər dərs ilinin sonunda onun müvafiq göstəricilər əsasında monitorinqinin və qiymətləndirilməsinin aparılması müəssisənin gələcək fəaliyyət istiqamətini düzgün müəyyənləşdirməyə imkan yaradır. Deməli, monitorinq və qiymətləndirməyə pedaqoji prosesin və onun ayrı-ayrı sahələrinin keyfiyyətinin öyrənilməsinin başlıca aləti kimi baxılmalıdır" [3, s.98].

"Təlim-tərbiyə prosesinin keyfiyyətinin, şagirdlərin təlim nəticələrinin mütəmadi monitorinqi təhsilin məzmununun yeniləşməsi, təhsil standartlarının tətbiqi, dərs yükünün normallaşdırılması, təhsilalanların sağlamlığının qorunması və möhkəmləndirilməsi mənəvi tərbiyə problemlərinin kəskinləşdiyi şəraitdə də xüsusi əhəmiyyət kəsb edir. İndi məktəbin qarşısında duran əsas məsələlərdən biri ümumtəhsil məktəbində monitorinq və qiymətləndirmə sisteminin yaradılmasıdır" [1, s.8].

Nəticə. Ümumtəhsil məktəblərinin qarşısında duran əsas vəzifə yüksək intellektual səviyyə malik, mənəvi, əxlaqi cəhətdən sağlambilikli, qabiliyyətli, geniş dünyagörüşlü bir şəxsiyyət yetişdirməkdir. Bunun üçün ilk olaraq təhsillin keyfiyyətini artırmaq lazımdır. Təhsilin keyfiyyətinin artıran amillərdən biri olan monitorinq və qiymətləndirmə hər zaman olduğu kimi bu gün də dəqiq və səmərəli şəkildə aparılır. Bu işdə müasir təlim texnologiyalarından istifadə edilməsi də prosesin daha da yaxşı həyata keçirilməsinə və effektiv nəticələrin əldə olunmasına köməklik edir.

ƏDƏBİYYAT

1. Cavadov İ. Ümumtəhsil məktəblərində monitorinq və qiymətləndirmə Azərbaycan müəllimi.- 2014.- 30 may. 24s;
2. Mehrabov A.O. və b. Pedaqoji texnologiyalar. Bakı: Mütərcim, 2006, 143s;
3. Mehrabov A., Cavadov İ. Ümumtəhsil məktəblərində monitorinq və qiymətləndirmə. Bakı, 2007 , 276s;
4. Nəzərov A.M.. Müasir təlim texnologiyaları. Dərs vəsaiti. ADPU-nəşriyyatı. Bakı-2012. 103 s;
5. https://www.arti.edu.az/noduploads/book/elmi-eserler-2018-6.pdf.

ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏNİN SƏMƏRƏLİ APARILMASINDA TƏLİM TEXNOLOGİYALARINDAN İSTİFADƏ EDİLMƏSİNİN ƏHƏMİYYƏTİ

Kərimli Təranə

XÜLASƏ

Bu məqalədə ümumtəhsil məktəblərində həyata keçirilən monitorinq və qiymətləndirmədən və bu prosesin səmərəli aparılmasında təlim texnologiyalarından istifadə edilməsinin əhəmiyyəti haqqında söhbət açılmışdır.

Cəmiyyətdə hər gün baş verən sürətli inkişaf ölkəmizin bütün sahələrində olduğu kimi təhsil sahəsində də özünü göstərir. Bu gün ümumtəhsil məktəblərində təlim-tərbiyə və tədris prosesinin nəticələrinin ardıcıl və sistemli olaraq öyrənilməsi mühüm məsələdir. Məhz monitorinq və qiymətləndirmə ilə bu mümkündür. Təlim texnologiyalarının vasitəsilə ilə də bütün işlərin səmərəli aparılmasına nail olmaq olar. Bunlar haqqında məqalədə qısa məlumatlar verilmişdir.

ВАЖНОСТЬ ИСПОЛЬЗОВАНИЯ ОБРАЗОВАТЕЛЬНЫХ ТЕХНОЛОГИЙ ДЛЯ ЭФФЕКТИВНОГО МОНИТОРИНГА И ОЦЕНКИ В СРЕДНЕЙ ШКОЛЕ

Керимли Тарана

АННОТАЦИЯ

В этой статье обсуждается важность мониторинга и оценки в средних школах и использования технологий обучения для эффективного проведения этого процесса.

Быстрое развитие, которое ежедневно происходит в обществе, находит отражение в сфере образования, как и во всех сферах нашей страны. Сегодня важно последовательно и системно изучать результаты образовательного процесса в общеобразовательных школах. Это возможно благодаря мониторингу и оценке. Благодаря обучающим технологиям вся работа может выполняться эффективно. В статье представлена краткая информация о них.

THE IMPORTANCE OF USING EDUCATIONAL TECHNOLOGIES FOR EFFECTIVE MONITORING AND EVALUATION IN SECONDARY SCHOOLS

Karimli Tarana

SUMMARY

This article discusses the importance of monitoring and evaluation in secondary schools and the use of learning technologies in the effective conduct of this process.

The rapid development that takes place every day in society is reflected in all areas of our country, including education. Today, it is important to consistently and systematically study the results of the educational process in secondary schools. This is possible through monitoring and evaluation. Through training technologies, all work can be done efficiently. The article provides brief information about them.

MÜNDƏRİCAT

Elnarə Şəfiyeva, Ağayeva Kəmalə. Uşaq və yeniyetmələr arasında bullinqin profilaktikası 3

Yamən Vəliyeva, Hüseynova Lalə. Suisidal davranışın motiv və səbəbləri 11

Əsgərli Əsmər. Məktəbdə "psixoloji iqlim" anlayışı və onun formalaşdırılması yolları 16

Hüseynova Lalə. Məktəbdə aqressiya və bullinq 20

Eyyubova Mehriban, Seyidova İlahə. Kiçik məktəblinin təlim motivasiyasına ailənin təsiri 27

Гасымова Севидж. Правильный подход к детям с дефицитом внимания и гиперактивностью 31

Adilzadə Arzu. Təlimin keyfiyyətinə təsir göstərən amillər 38

İsmayılov Abbas. Emosiyaların yaradıcı təfəkkürə təsiri 42

Əbdürahmanlı İlahə. Özünü təqdimetmənin konseptual məsələləri 48

Əlimədətova Şəlalə. Sonsuzluq müalicəsi alan qadınlarda təşviş və depressiya səviyyəsi və bunlara təsir edən faktorlar 54

Eyyubova Mehriban, Bayramova Günel. Təhsilin başlanğıc mərhələsində uşaqların məktəbə adaptasiya problemi 59

İbrahimova Diyanə. Moda iştirakçılarının psixoloji xarakteristikası 64

Kərimli Gültac. Müasir təlim: problemlər və perspektivlər 68

Hacılı Səbinə. Kiçik məktəbli yaş qrupuna aid olan şagirdlərin inkişafında müəllimin pedaqoji üslubunun rolu 74

Elnarə Şəfiyeva, Kazımova Məhbubə. Müasir dövrdə yeniyetmələrdə aqressiv davranışın yaranma səbəbləri 78

Əliyeva Türkan. Xroniki somatik xəstəliyi olan yeniyetmələrin emosional şəxsiyyət sferasının xüsusiyyətləri 83

Hüseynova Leyla. Özünüqiymətləndirmə və insan həyatında onun rolu 87

Yusibova Fəridə. Fərdi-psixoloji xüsusiyyətlərin kursantların təlim uğurlarına təsiri 92

Piriyeva Elnarə, Hüsənova Aytac. Liderlik keyfiyyətinin formalaşdırılmasının sosial-psixoloji xüsusiyyətləri 98

Təranə Babayeva, Kərimi Günay. Azadlıqdan məhrum edilmiş şəxslərdə cəza çəkmə müddəti bitdikdən sonrakı mərhələdə dəyərlərinin təhlili 102

Məmmədli İranə, Fəttayeva Günəş. Təhsilin multikultural dəyərlərin formalaşmasında rolu 107

Cabbarova Lalə, Məmmədova Xəyalə. Prososial davranışın sosial-psixoloji determinantları 111

Hüseynov Elşən, İbrahimova Diyanə. Öyrənmə çətinliyi anlayışının psixopedaqoji təhlili 116

Vəliyeva Validə, Əhmədli Lamiyə. Uşaqlara qarşı yönəlmiş etinasıizlıq və zorakılıq; fiziki zorakılıq 121

Qədirova Aytac. Suisidal davranışın risk amilləri 126

İsgəndərova Rəxşəndə. Kiçik məktəblinin təlim fəaliyyətinin gedişində və onun səmərəliliyində diqqətin rolu 131

Эюбова Мехрибан, Салимова-Адгезалова Парвин. Личностные особенности развития синдрома эмоционального выгорания в процессе профессиональной деятельности педагога 137

Abdullayeva Sevinc. Xarici dilin öyrənilməsində NLP metodlarının rolu 141

Məmmədzadə Sevinc. Yeniyetmələrin inkişaf xüsusiyyətləri 145

Nazarli Adilə. Psixi inkişaf pozuntusu olan uşaqlarin valideynlərinin psixoloji xüsusiyyətləri 149

Məmməmdova Ağca. Yeniyetmələrdə riskli davranış nümunələri. evdən qaçma, zərərli maddə qəbulu, şiddətə meyillilik 156

Hüseynova Lalə. Bullinqin preventiv üsulları 161

Kuxareva Tamara. Gənclərin peşə seçimi zamanı qarşılaşdığı çətinliklər 168

Vəliyev Mirələm, Mustafayev Azər. Müxtəlif yaş mərhələlərində peşə özünütəyinetmənin formalaşması 172

Hakan Seyhan. Yeniyetmələrdə təşviş pozuntusunun əsas əlamətləri 182

Kazımova Kamilə, Babazadə Aytən. Posttravmatik stressin elmi nəzəri əsasları 188

Şahverdiyeva Aytac. Sosial medianin psixoloji təsiri 194

Məmmədova Ağca. Valideynlərin şəxsiyyət xüsusiyyətlərinin və situativ fəaliyyətinin yeniyetmələrin qeyri-adi davranişinda rolunun araşdırması 199

Eyyubova Mehriban, Kərimli Jalə. Uşaqların oyun fəaliyyətinə ailənin təsiri 203
Nur Özge. Kiber zorakılığa məruz qalan yeniyetmələrin psixoloji xüsusiyyətləri 207
İsmayıllı Nərgiz. Yeniyetmələrin sosiallaşmasina təsir edən faktorlar 214
Эльнара Шафиева, Садыг-заде Санубар. Мозг психика психическое развитие 219
Aslanova Şahnaz, Məmmədova Arzu. Gender stereotiplərinin formalaşmasında təlimin rolu 223
Əliyeva Rəhiməxanım. Yeniyetmələrin şəxsiyyətlərarasıı münasibətlərinin xüsusiyyətləri .. 227
Cəlilzadə Aytac. Yeniyetmələk yaş dövrünün psixoloji xarakteristikasi və xüsusiyyətləri 231

PEDAQOGİKA

Məlikova Xalidə. Ümumitəhsil məktəblərində şagird şəxsiyyətinin formalaşdırılmasında vətənpərvərlik tərbiyəsi 236
Əfəndiyeva Aysel. Ali təhsilin kvalimetriyasıının ümumi problemləri 241
Əlizadə Səbinə. Gender tərbiyəsinin gənc nəsildə formalaşdırılmasında ailə və məktəbin birgə işi 247
Hüseynova Əsmər. Şəxsiyyətin hərtərəfli formalaşmasinda valideynlərin rolu 253
Baxışova Həmidə. Ali məktəb tələbələrinin mənəvi tərbiyəsinin başlıkca istiqamətləri 258
Kərimova Nəzrin. Təhsilin effektiv idarə olunmasında monitorinqin əhəmiyyəti 266
Mehdizadə Nigar. Qiymətləndirmə təhsil prosesinin əsas tərkib hissəsi kimi 269
Hüseynova Ləman. Təhsildə monitorinq və qiymətləndirmə işinin aparılması 272
Süleymanova Fəridə. Nəsrəddin Tusinin pedaqoji görüşlərində əxlaq məsələlərinin tərənnümü 277
Hüseynova Əsmər. Müəllim - şagird münasibətlərinin şəxsiyyətin formalaşmasına təsiri 282
Kərəmova Hüryal. Waldorf pedaqogikasinda nizam-intizam 286
Abbasova Natavan. Qadın xeyriyyə cəmiyyətlərinin maarifçilik hərakatında rolu 290
Kərimli Təranə. Ümumtəhsil məktəblərində monitorinq və qiymətləndirmənin səmərəli aparılmasında təlim texnologiyalarından istifadə edilməsinin əhəmiyyəti 294

Müəlliflərin nəzərinə!

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 30 aprel 2010-cu il tarixli iclasında (protokol №10-R) «**Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlər qarşısında qoyulan tələblər**» təsdiq edilmiş və bu məsələ ilə bağlı dövri elmi nəşrlərin baş redaktorlarının iştirakı ilə keçirilmiş elmi-praktik seminarda qeyd olunan faydalı tövsiyələr nəzərə alınmışdır.

Onlardan bəzilərini nəzərinizə çatdırırıq:

1. Məqalələr dövri elmi nəşrin təsis sənədlərində qeyd edilmiş dildə və ya dillərdə (məsələn, Azərbaycan, ingilis və rus dillərində) dərc oluna bilər. Xarici dildə məqalələr dərc edən dövri elmi nəşrin redaksiya heyəti üzvlərinin sırasında dərc olunan məqalənin aid olduğu elm sahəsi üzrə xarici dili bilən tanınmış mütəxəssis olmalıdır.
2. Dövri elmi nəşr hansı dillərdə məqalə dərc edirsə, həmin dillərin hər birində məqalə müəllifləri üçün qaydalar verilməlidir.
3. Dövri elmi nəşrdə baxılan elm və ya texnologiya sahəsində qabaqçıl olan dünya ölkələrindən daxil olan məqalələrin çapına yer verilməlidir.
4. Məqalələrin mətnləri Times New Roman-12 şrifti ilə (məsələn, Azərbaycan dilində latın əlifbası, rus dilində kiril əlifbası, ingilis dilində ingilis əli fbası ilə) 1 intervalla çap olunmalıdır.
5. Hər bir məqalə yeni səhifədə verilməli və səhifənin yuxarısında dövri elmi nəşrin adını, ilini, cildini, sayını, məqalənin başlanğıc və son səhifələrini bildirən başlıq (zastavka) olmalıdır.
6. Məqalədə müəllif(lər)in işlədiyi müəssisə(lər) və həmin müəssisənin
(müəssisələrin) ünvan(lar)ı, müəllif(lər)in elektron poçt ünvan(lar)ı göstərilməlidir.
7. Elmi məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq, müəllif(lər)in gəldiyi elmi nəticə, işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və s. aydın şəkildə verilməlidir.
8. Məqalənin mövzusu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır.

Məqalənin sonunda verilən ədəbiyyat siyahısı ya istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla (məsələn, [1] və ya [1, s.119] kimi işarə olunmalı) ya da əlifba ardıcıllığı ilə nömrələnməlidir. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.

9. Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam
və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Elmi məqalələrə, simpozium, konfrans və digər nüfuzlu elmi tədbirlərin materiallarına və ya tezislərinə istinad edərkən məqalənin, məruzənin və ya tezisin adı göstərilməlidir. İstinad olunan mənbənin biblioqrafik təsviri verilərkən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının «Dissertasiyaların tərtibi qaydaları» barədə qüvvədə olan təlimatının «İstifadə edilmiş ədəbiyyat» bölməsinin 10.2-10.4.6 tələbləri əsas götürülməlidir.

10. Məqalənin sonundakı ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və digər etibarlı mənbələrinə üstünlük verilməlidir.
11. Dərc olunduğu dildən əlavə başqa iki dildə məqalənin xülasəsi verilməlidir. Məqalələnin müxtəlif dillərdə olan xülasələri bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun olmalıdır. Məqalədə müəllifin və ya müəlliflərin gəldiyi elmi nəticə, işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti və s.

xülasədə yıgcam şəkildə öz əksini tapmalıdır. Xülasələr elmi və qramatik baxımdan ciddi redaktə olunmalıdır. Hər bir xülasədə məqalənin adı, müəllifin və ya müəlliflərin tam adı göstərilməlidir.

12. Hər bir məqalədə UOT indekslər və ya PAJS tipli kodlar və açar sözlər göstərilməlidir. Açar sözlər üç dildə (məqalənin və xülasələrin yazıldığı dillərdə) verilməlidir.

13. Məqalənin redaksiyaya daxil olma, təkrar işlənməyə göndərilmə və çapa qəbul olunma tarixləri sonda göstərilməlidir.

14. Dövri elmi nəşrin redaksiyası məqalənin dərc olunması ilə əlaqədar olaraq müəllif və ya müəlliflərin razılığını, göndərilən məqalənin əvvəllər dərc olunmadığını (məqalənin tezis şəklində dərc olunmuş variantı istisna olmaqla), məqalənin hər hansı bir dildəki variantının eyni zamanda digər dövri elmi nəşrlərə göndərilmədiyini və məqalə ilə bağlı elmi-tədqiqat işinin hansı müəssisədə yerinə yetirildiyini əks etdirən anket hazırlamalıdır. Bu anketi müəllif(lər) imzalayıb redaksiyaya göndərməli və ya dövri elmi nəşrin saytına daxil olub anketin elektron variantını doldurmalı və onu elektron təsdiqləməlidir(lər).

15. Elmi curnallarda «əvvəli ötən saylarımızda», «ardı növbəti nömrədə» adı altında seriya məqalələrin dərc olunmasına icazə verilmir.

16. Dövri elmi nəşrin əvvəlki nömrələrində dərc olunmuş məqalələrdə rast gəlinən ciddi səhvlər və ya texniki qüsurlara dair düzəliş və qeydlər elmi nəşrin növbəti nömrələrindən birində müəllif(lər) tərəfindən yenidən verilə bilər. Bu halda əvvəlki məqalə ilə «DÜZƏLİŞ» bölməsində verilən məqalənin adı eyni olmalıdır.

Həm də xatırlatmaq istəyirik ki, Azərbaycan Respublikasında elmi əsərlərin tərtibinə tələblərinə uyğun olaraq, məqalənin mətni aşağıdakı əsas elementləri özündə ehtiva etməlidir:

- Ümumi problem və mühüm elmi və ya praktiki vəzifələri ilə bağlı problemin qoyuluşu;

- Bu problemin həllində müəllif üçün təməl rolunu oynayan son tədqiqatlar və nəşrlərin qısa təhlili;

- Bu məqalədə həlli nəzərdə tutulmuş məsələyə aid daha ümumi problemin hələ də həllini tapmayan tərəflərin aşkar edilməsi;

- Məqalənin məqsədlərinin göstərilməsi;

- Elmi nəticələrin tam əsaslandırılması ilə əsas tədqiqat materialın təqdimatı;

- Tədqiqatın nəticələri və bu istiqamətdə işin daha da inkişaf etdirilməsi perspektivləri.

SOSİAL VƏ HUMANİTAR ELMLƏRİN MÜASİR PROBLEMLƏRİ

ELMİ ƏSƏRLƏR TOPLUSU

BURAXILIŞ № 27
(II HİSSƏ)

Təsisçi: fəlsəfə üzrə elmlər doktoru, prof. **Qızılgül Yasin qızı Abbasova**
Kompüter dizaynı – **Vüsalə Kərəm qızı Musayeva**

Yığılmağa verilmişdir: 10.04.2021

Çapa imzalanmışdır: 15.04.2021
Format: 60×84 1/8
Şərti çap vərəqi – 38
Sifariş № 63
Tiraj – 100 nüsxə